- 19451 -

S.Xəlilov

# HƏYATIN ÖZÜ
# və
# GÖRÜNƏN ÜZÜ

## Fəlsəfi və ədəbi-bədii publisistika

Bakı – 2013

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Б7.3 + 72 (5 Азе)-8 + 76.01
Х-19

**Xəlilov S.S.**
**Həyatın özü və görünən üzü. Fəlsəfi və ədəbi-bədii publisistika.**
**Bakı, «NURLAR» Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2013 - 448 səh.**

*Kitabda ictimai həyatın müxtəlif sahələri, konkret hadisələr insan həyatının mənası ilə, daxili yaşantılarla qarşılıqlı əlaqədə nəzərdən keçirilir. Müəllifin sovet dövründə və müstəqillik illərində kütləvi mətbuatda çap olunmuş məqalələri, oçerk, xatirə və esseləri iki kitabda toplanmışdır. Birinci kitaba fəlsəfi və ədəbi-bədii yönlü publisistik məqalələr daxil edilmişdir.*

*Yaşadığı həyatı dərk etməyə çalışanlar üçün nəzərdə tutulmuşdur.*

**ISBN: 978-9952-490-04-6**

© S.S. Xəlilov

*Hər həyat səhifəsi ömrümün ilk yazıdı,*
*Bu günün hər əməli sabah üçün yazıdı.*

*Əbu Turxan*

# *Ön söz*

*Publisistika emprik səviyyədə – jurnalistikanın, bədii təfəkkür müstəvisində – ədəbiyyatın, nəzəri özünüdərk səviyyəsində – fəlsəfənin tərkib hissəsi, cari həyata açılan pəncərəsidir.*

*Hələ sosiallaşmamış təbii, daxili həyat məqamının təsviri, tərənnümü – lirikadır; ya fırça ilə, ya sözlə, ya notlarla – fərqi yoxdur, əsas odur ki, burada subyekt və obyekt hələ ayrılmamışdır və müəllif əslində özünü, öz şəxsi halını və ya təəssüratlarını ifadə edir.*

*Başqaları ilə ünsiyyətə girəndə, sosial mühitə açılanda insanın yaşadığı fərdi təbii duyğular da sanki sosiallaşır, "adam içinə" çıxmaq üçün xüsusi libasa bürünür. Eyni ictimai mühitə aid olan insanlar təxminən eyni libas geyinirlər. Hissiyyat ağıl süzgəcindən keçdikcə sosiallaşır və özgələşir – fərdilik itir.*

*İç aləmindən, "öz"dən gələn fərdi bir həyat məqamını önə çəkən rəssam və ya bu məqamı qanadlı sözlə tərənnüm edən şair! Bir də var məhz "libas"ın, hadisənin görünən tərəfinin faktiki material kimi – nasiranə təsviri: publisistika.*

*Rəssam və ya yazıçı ona görə sənətkardır ki, onların işi yaradıcı xarakter daşıyır. Jurnalist isə daha çox fotoqrafı xatırladır. Amma fotoqraflar da fərqli olurlar. Öz işini heç də mexaniki yerinə yetirməyən yaradıcı fotoqraf-*

*lar da var. Situasiyanı dəyərləndirmək, məqamı düzgün seçmək üçün də xüsusi istedad, sənətkarlıq tələb olunur.*

*Ayrıca bir insanın fotoşəklini çəkmək, danışığını diktafona yazmaq və ya hansı isə hərəkətini videoya qeyd etmək və bununla da guya insan həyatının müəyyən bir məqamını və ya hissəsini "köçürmək", surətini çıxarmaq, sənədləşdirmək mümkündür. Lakin bunlardan heç biri canlı həyatın bütöv obrazını yaratmaq üçün yetərli deyil. Hətta insanın bütün həyat və fəaliyyətini lentə alsaq belə, bunun sayəsində biz ancaq hadisələrin şahidi olacağıq, mahiyyət, insanın hissi yaşantıları, əməllərinin motivi, əsl məqsədi isə yenə də qaranlıq qalacaqdır.*

*Həyatın görünən tərəfləri hələ onun özü deyil.*

*"Öz"ün açılması, işıqlanması üçün, bir tərəfdən, insanın daxili aləminə nüfuz etmək, ürəyindən keçənləri bilmək, hansı işi nə üçün etdiyini müəyyənləşdirmək, digər tərəfdən isə insanın fəaliyyətinə onu əhatə edən ictimai mühitlə qarşılıqlı əlaqədə nəzər salmaq tələb olunur. Hələ ayrıca bir insanın "öz"ünü aşkarlamaq çətindir, o ki qala, ictimai həyatın "öz"ünü, iç üzünü görmək, işıqlandırmaq və başqalarına təqdim etmək...*

*Ənənəvi gündəlik həyat, şablon münasibətlər – elementar mədəniyyət, nəzakət və s. həyatın özü yox, üzüdür. Kritik vəziyyətlərdə isə insan şablondan kənara çıxmaq məcburiyyətində qalır və yalnız o zaman onun "mən"i özünü göstərir, gizlinlər üzə çıxır.*

*İctimai həyatın hansı isə bir fraqmenti onun öz-ünü, bütövünü ifadə etmir. Gen-bol fraqmentlər, yeni-yeni məlumatlar, daha çox bilik... olsa-olsa həqiqətə yaxınlaşmağın ehtimalını artırır. Digər tərəfdən, qarşıda həmin çoxlu məlumatın ümumiləşdirilməsi və buradan müəyyən məntiqi nəticələrin çıxarılması vəzifəsi durur. Faktlar, fraqmentlərin təsviri nə qədər "obyektiv", "gerçəyə adekvat" görünsə də, onlardan alınan qənaət, əqli nəticə artıq qiymətləndirən tərəfin, dəyər verən, hökm çıxaran insanın öz səviyyəsindən, intellektual və mənəvi keyfiyyətlərindən də asılı olur. Fakt mərhələsindən sonra şərhçilərin, yozumçuların missiyası başlanır: siyasi müstəvidə, iqtisadi müstəvidə, mədəni-mənəvi dəyərlər müstəvisində şərhlər... Daha sonra isə həmin hadisə müəyyən ədəbi-bədii qiyafətdə, yazıçının bədii yozumunda və fonunda işıq üzü görə bilər. Əlbəttə, hadisənin ilkin təqdimatından sonrakı bu mərhələlərdə jurnalist özü də iştirak edə bilər; amma indi yalnız bir jurnalist deyil, publisist, şərhçi və ya yazıçı qismində; əlbəttə, bu keyfiyyətlər onda varsa.*

*Yazıçı publisistik materialdan insanın fərdi aləminə, filosof isə universal prinsiplərə, ideyalar dünyasına bir qapı kimi istifadə edə bilər. Yazıçı baş verən hadisənin estetik, mənəvi və ya sosial-psixoloji cəhətlərini, motivlərini önə çəkməklə insan ilə cəmiyyət arasında mövcud olan hansı isə qaranlıq məqamın işıqlandırılmasına nail olar. Bir filosof isə əyani təcəssüm, konkret təzahür timsalında universal bir qanunauyğunluğun izahını verməyə çalışar. Fəlsəfədə abstraksiya səviyyəsi yüksəkdir, publisistikada isə reallıq elementləri...*

*Fəlsəfə ilə publisistikanın bir fərqi də bundadır ki, fəlsəfə zaman və məkan xaricində olan həqiqətləri, yəni bütün dövrlər üçün sabit olan universal prinsipləri əks etdirdiyi halda, publisistika bir qayda olaraq cari hadisələrdən bəhs edir və konkret bir insanın, xalqın, ölkənin müəyyən bir dövrə aid problemlərini, cari həyatda baş verən hadisələri təsvir edir.*

*Fəlsəfədə insan ünvansızdır; burada filosofların özündən başqa xüsusi isim olmur. Publisistikada isə həyat*

*xüsusiləşir, insan fərdiləşir, konkretləşir. Gözlərimiz önündə gerçək həyatın konkret səhifələri canlanır.*

*Fəlsəfənin ilk məqsədi dünyanın ahəngini duymaq, dərk etmək və bu ümumi ahəngdən doğan həqiqət ziyası ilə hadisələr dünyasını işıqlandırmaqdan ibarətdir. Bunun üçün fəlsəfə hərdən bir səma səltənətindən yerə enməli və camaata qarışmalı, yəni publisistik üslubdan istifadə etməlidir.*

*Fəlsəfi publisistika cari, gündəlik həyat hadisələrində ümumi prinsiplərin izlənməsi, aşkarlanması və real nümunələr əsasında nümayiş etdirilməsidir. Yəni fəlsəfə konkret həyat səhnələri timsalında əyaniləşir. Necə ki, elmdə əyani vasitələr olur, emprik material olur, eləcə də fəlsəfənin "yerə enməsi", canlı həyatla təması müəyyən bir əyanilik üçün şərtdir.*

*Xalqın idrak səviyyəsini qaldırmaq çətin olanda, fəlsəfə özü xalqın dilində danışmağa başlayır. Necə deyərlər, "dağ Məhəmmədə sarı gəlməsə, Məhəmməd dağa sarı gedər."*

*Beləliklə, istər bədii obrazlar diyarından, istərsə də ideyalar dünyasından cari ictimai həyata aparan bir publisistika körpüsü vardır. Cismani dünyanın sakinləri bu körpüdən keçə biləndə ədəbiyyat və ya fəlsəfə səltənətinə yüksəlirlər. Yazıçı və filosof isə geniş oxucu kütləsinə qonaq gəlmək, daha doğrusu, onları ideya nemətinə qonaq etmək üçün yenə bu körpüdən keçməlidir.*

*...Oxuculara təqdim etdiyimiz bu kitabda toplanan məqalələrimizin jurnalistliyə heç bir aidiyyatı olmasa da, jurnalist işinin davamıdır; yəni ondan sonrakı mərhələyə aid olub, hadisələrin, gerçək həyat lövhələrinin bədii və fəlsəfi ümumiləşdirmə səviyyəsində təqdimatıdır.*



# *Mədəniyyət*

- **Tarix və sivilizasiya**
- **Sivilizasiyanın monoloqu**
- **Mədəniyyətlərarası dialoq və dialoq mədəniyyəti**
- **Şərq və Qərb sivilizasiyaları**
- **Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər**
- **Terror haqqında düşüncələr**
- **Qəhrəmanlıq simfoniyası**

# Tarix və sivilizasiya

## Tarixçilərin səhvi

Kant tərəfindən irəli sürülən vahid planetar dövlət ideyası, Hegelin ümumdünya-tarixi təfəkkür ideyası, K.Yaspersin «mehvər zaman» təlimi və s. ictimai zəruri inkişaf tendensiyasnı ifadə etməklə fərddən millətə, millətdən bəşəriyyətə gedən yolun qanunauyğunluqlarını, mahiyyətini izah edir. Bu yolun bir məntəqəsi olan dövlət də əksər mütəfəkkirlər tərəfindən ictimai sazişin nəticəsi kimi izah olunmuşdur. Yəni, insanlar cəmiyyəti daha yaxşı idarə etmək üçün ictimai təşkilatlanmanın optimal formalarını axtarır və müxtəlif ictimai-siyasi inkişaf mərhələlərində həmin inkişaf səviyyəsinə adekvat olan idarəçilik formaları tapılır. Bu məntiqlə bütün bəşəriyyət miqyasındakı vahid idarəçilik sistemi də ictimai sazişin nəticəsi olmalıdır. Birləşmiş Millətlər Təşkilatı, beynəlxalq hüquq normaları məhz bu məntiqdən doğmuşdur. Bu proses, əlbəttə, qloballaşma adlandırıla bilərdi, lakin belə olmamışdır. İndi qloballaşma adı ilə təqdim olunan tendensiya nəzərdən keçirdiyimiz bəşər tarixinin məntiqi davamı kimi ortaya çıxmır. Ona görə də bu iki proses fərqləndirilməlidir.

Əvvəlcə, aydınlaşdırmaq lazımdır ki, mahiyyəti etibarilə ümumbəşəriləşmə, ictimai qloballaşma olan real tarixi inkişaf prosesi, fərddən bəşəriyyətə gedən yol fəlsəfi





ədəbiyyatda öz əksini hansı terminlərlə tapmışdır. – Şübhəsiz ki, ilk növbədə *sivilizasiya* termini ilə! Hətta sözün etimologiyasından da göründüyü kimi, söhbət ictimailəşmədən, fərd müstəvisindən ictimai toplum, cəmiyyət müstəvisinə keçiddən gedir. Və məhz sivilizasiya insanların birləşməsindən, birgə əməli fəaliyyətdən doğan yeni enerji potensialının daşıyıcısı olur. Yəni, toplumun gücü fərdlərin gücünün cəmindən çox olur. Və fərdlər təbiətlə, dünya ilə qarşılıqlı münasibətində bu yeni güc potensialından istifadə etməyə başlayır.

Biz sonrakı paraqrafda sivilizasiyanın mahiyyətini daha geniş işıqlandırmağa çalışacağıq. İndi isə məqsədimiz bu ictimai-zəruri prosesin fəlsəfi mənada qloballaşma tendensiyasını ifadə etməsi və geopolitik kontekstdə ortaya çıxmış qeyri-fəlsəfi qloballaşma terminindən fərqini vurğulamaqdır.

İnsan özünü hələ dünyadan, təbiətdən ayırmadığı vaxtlarda o, bütöv idi. Özünü təbiətə qarşı qoyduqca, ayrıldıqca, bu bütövlükdə boş sahələr yaranmağa başladı. Və bu boşluq insanın zehni və əməli fəaliyyəti ilə əsrlər boyu damla-damla yeni məzmun, yeni mahiyyətlə doldurulmuş oldu.

Dünyanı bir küll halında duyan, hiss edən insan onu rasional düşüncə ilə anlamaq üçün hissələrə ayırdı. Bütöv dünya parça-parça oldu, hadisələr toplumuna çevrildi. İnsanın məni də parçalandı və yenidən rekonstruksiya olundu. Pozulmuş intuitiv ahəngin yeni rasional ahənglə əvəzlənməsi üçün neçə-neçə minilliklər ərzində insanın rasional quruculuq fəaliyyəti lazım gəldi.

Rasionallaşma, dünyaya seyrci münasibət, dünyanın məntiqi dərki insanı özündən ayırıb, bütövlüyündən məhrum edib, təbiətin, maddi dünyanın qoynuna atdı. Mifik

dünya, əsrarəngiz dünya, poetik dünya buz kimi soyuq ağlın təmasından çatladı, hissələrinə ayrıldı.

Bu bölünmə hissi idrakın hökmü ilə həyata keçirildi. Yenidən bütövləşmək, ayrı-ayrı parçaları və rakursları ortaq məxrəcə gətirmək, hissələrin arxasında tamı görmək, hissi obrazların arxasında həqiqəti sezmək və nəhayət, haçandan-haçana bütövlükdə dünyanın elmi mənzərəsini yaratmaq uğrunda idrak mücadiləsi neçə min illər ərzində davam etdi. Lakin insan yenə də bütövləşə bilmədi.

Bir insanın rasional quruculuq fəaliyyətindəki məhdudluq, lokallıq bütövlüyün əldə olunması naminə daha çox insanın birgə fəaliyyətinin, daha doğrusu, fəaliyyətlərinin birləşməsini tələb edirdi. Sivilizasiya bu missiyanı da öz üzərinə götürdü.

İnsanların intellektual fəaliyyətinin cəmiyyət miqyasında birləşdirilməsi... Əməli fəaliyyət sahəsindəki səylərin birləşdirilməsi, əmək bölgüsü və bölünmüş əməli fəaliyyətlərin inteqrasiyası, birgə yaradıcıq səyləri ilə yaranan elmi nəzəriyyələr, kəşflər və onların tətbiqinin nəticəsi olan texniki qurğular, maşınlar, sex, manufaktura, fabrik, zavod, avtomatlaşmış istehsal müəssisələri – bütün bunlar sivilizasiyanın mühüm cəhətləridir.

İnsan idrakı ilə bölünmüş təbiətin insan ideyaları əsasında yenidən birləşməsi nəticəsində ikinci təbiət yaranır. Bütün bu fəaliyyətlərin, bütün bu intellektual yaradıcı proseslərin subyekti insandırmı? Yox, belə bir subyekt olaraq bəşəriyyət özü götürülməlidir.

Bəli, ümumbəşərilik sivilizasiyanın mahiyyətindədir. Bəşəriyyət hələ özünü bir tam kimi tanımadığı dövrlərdən, qeyri-aşkar şəkildə ayrı-ayrı fərdlərin fəaliyyətinin arxasında dayanaraq maddi istehsal prosesini, elmi-texniki tərəqqini, informatizasiyanı, bir sözlə, sivilizasiyanı yaradırdı.





Düzdür, bir çox hallarda bu böyük ictimai birlik, bu böyük ümumbəşəri qüvvə məhz planet miqyasına gəlib çatmamış, lokal və regional sivilizasiyalar mövcud olmuşdur. Lakin bizcə, onların da subyekti yarımçıq bəşəriyyətlər yox, məhz bəşəriyyət özüdür.

## Tarixin səhvi

Şərq və Qərb sivilizasiyalarının münasibəti və nisbəti məsələlərini diqqətlə öyrəndikdə, dinlərin və sivilizasiyaların əlaqəsinə elmi-tənqidi nəzər saldıqda, aydın olur ki, bir tərəfdən islam və xristianlığın, digər tərəfdən Şərq və Qərb sivilizasiyalarının yeri sanki dəyişik düşmüşdür. Əslində biz bu "sanki"ni sadəcə elmi etika və tarixə hörmət xətrinə yazırıq. Analitik baxımdan isə elə "sanki"siz də belədir.

Dinlərin elmi-fəlsəfi təhlili* göstərir ki, Şərq təfəkkürünə ən çox uyğun gələn – xristianlıqdır. Qərb təfəkkürünün təməlləri isə dinlər içərisində ancaq islamda müşahidə olunur. Biz Əbu Turxanın "bütün dinlər Şərq hadisəsidir" tezisini qəbul etsək də, hər halda sonuncu din olan islamda Qərb təfəkkürünün rüşeymlərini görməmək mümkün deyil.

Belə ki, dinlər insandan bir qayda olaraq fərd kimi bəhs etdikləri halda, yalnız islam dinində toplum – cəmiyyət anlayışı önə çəkilir, ictimailəşmə və deməli həm də sivilizasiyanın təməl şərtləri dini müstəvidə öz əksini tapır.

Söhbət dinin öz ictimailəşməsindən getmir. Yenə də Əbu Turxanın sözləri ilə desək, "ictimailəşmiş din artıq din deyil". Və dinlər içərisində ən çox ictimailəşən, kilsə

---

* Daha ətraflı, bax: *S.Xəlilov*. Sivilizasiyalararası dialoq. Bakı, "Adiloğlu", 2009.

qiyafətində cəmiyyətin və hətta dövlətin işlərinə qarışan da tarixən məhz xristianlıq olmuşdur. Biz dində insan, təbiət və cəmiyyətə diferensiallaşmış münasibəti nəzərdə tuturuq.

İslam, bir tərəfdən, şəxsi etiqad, məslək məsələsini önə çəkməklə insanla Allah arasında vasitəçiyə ehtiyac duymur. Yəni burada da şəxsin, fərdin mənəviyyatı əsas götürülür. Lakin digər tərəfdən də, məsuliyyət təkcə şəxslərin yox, bütövlükdə qövmün, icmanın üzərinə qoyulur. Bu ikinci cəhət təəssüf ki, islam ilahiyyatçılarının və filosoflarının nəzərindən qaçmış, ancaq İbn Xəldun onun üzərində işləməklə yeni elmi istiqamətin, gələcək Qərb düşüncəsinin təməlini qoymuşdur. Təəssüf ki, müsəlman dünyası islamdan qaynaqlanan bu möhtəşəm təlimə sahib çıxa bilməmiş, onu nə ictimai praktik fəaliyyətdə, nə də elmi-fəlsəfi tədqiqatda nəzərə almamış, sufi təriqətlərinin və bir sıra başqa amillərin təsiri altına düşərək ictimai tərəqqinin böyük asfalt yoluna çıxmaq üçün bu böyük ideya sərvətindən yararlana bilməmişdir. Ancaq bir neçə əsr keçdikdən sonra, Avropa elmi və ictimai həyatda xristianlıqdan imtina etdikdən və ona alternativ bir dünyagörüşü qurmağa başladıqdan sonra bu ideyalar yenidən gündəmə gəlmiş, ictimai inkişafın nisbi obyektiv bir proses olaraq qanunauyğunluqları araşdırılmış, sosial fəlsəfənin, sosiologiyanın inkişafı sayəsində insan zəkasının təbii-tarixi prosesi dəyərləndirmək və onun sükançısına çevrilmək şansından istifadə edilmişdir. Nəticədə yeni bir sivilizasiyanın, indi Qərb sivilizasiyası adlandırdığımız böyük tarixi prosesin inkişafına misilsiz bir təkan verilmişdir.

Amma bu həmin prosesdir ki, ideya təməli islam dəyərləri üzərində İbn Xəldun tərəfindən qoyulmuşdu. Və əgər müsəlman dünyası bu xətti rəhbər tuta bilsə idi, din





və elmin, ruh və intellektin, vəhy və məntiqin ayrılmasına ehtiyac qalmayacaqdı və sivilizasiya bəşəriyyəti ruhi-mənəvi boşluğa və qarşıdurmalara doğru sürükləməyəcəkdi.

Müasir dövrdə Qərbin süqutundan, mənəvi böhrandan, deqradasiyadan çox yazılır. Həm də şübhəsiz ki, "od yanmasa, tüstü çıxmaz". Səbəb nədir? İdeologiyadamı boşluqlar var? Dinlə ideologiyanın münasibətindəmi, yoxsa hakim dinlə sivilizasiya arasındakı uyğunsuzluq belə bir sonuca gətirir?

Qərbin müəyyən bir dövr ərzində irəli getməsi ancaq xristianlığın təsirindən azad olmaq sayəsində mümkün olmuşdur. İslam Şərqinin geri qalmasının isə səbəbləri, əksinə, həqiqi dindən uzaqlaşmaq, dini təhrif etmək, özgələşməkdir.

Tədqiqatlar göstərir ki, Qərb sivilizasiyası elmi dünyagörüşü üzərində qərar tutaraq bu istiqamətdə böyük inkişaf yolu keçsə də, dünyaya monist baxışa olan daxili tələbat üzündən həmişə korluq çəkmişdir. Təməlində rasional düşüncə və elm dayanan bu böyük sivilizasiya sanki ruhsuzluqdan əzab çəkmişdir. Və çəkməkdə davam edir.

İndi elə bir məqam gəlib çatmışdır ki, Qərb dünyası xristianlığı ancaq simvolik olaraq saxlayır, əslində isə dini bütövlükdə və tamamilə elmlə əvəz etmək sayəsində əldə etdiyi yeni dəyərlər sisteminin ruhi-mənəvi çatışmazlıqlarını kompensasiya etmək üçün yollar axtarır. Amma onu həqiqətən tamamlaya biləcək mükəmməl bir dini-mənəvi sistemin (islamın) nə vaxtsa yanlış obrazını yaratdığına görə, indi bu tarixi səhvi düzəltmək üçün özündə iradə tapa bilmir.

İndi Qərb, bir tərəfdən, həqiqi islama münasibətinə yenidən baxmalı olmaqla bərabər, digər tərəfdən, nə vaxt-

sa özünün də fəal iştirakı ilə formalaşmış psevdoislami dəyərlərin təsirindən yaxa qurtarmağın yollarını axtarır.

Terrora münasibət məsələsində də Qərbin bu dilemması özünü göstərməkdədir.

11 sentyabr hadisəsindən sonra Amerika və bütün dünya seçim qarşısında qaldı. Ya ictimai rəyə və kütləvi şüura uyğun olaraq emosiya səviyyəsində qərarlar qəbul etmək, «qisas» mövqeyindən çıxış etmək, ya da dünyada terrora rəvac verən əsl səbəbləri aşkar etmək, onun ideoloji, siyasi və iqtisadi köklərini üzə çıxarmaqla daha geniş miqyaslı fəaliyyət strategiyası seçmək tələb olunurdu.

Belə düşünmək olardı ki, ABŞ bu yollardan hər ikisini seçmişdir. Həm yaxın müddətli proqramın icrası olaraq terrorçu qruplaşmaların və təşkilatların güc tətbiqi ilə ləğvinə nail olmaq təşəbbüsü göstərilir, həm də uzun müddətli proqram olaraq terrorun bir spesifik ictimai hadisə kimi ideoloji, hərbi sursat və maliyyə qaynaqlarını müəyyənləşdirmək istiqamətində axtarışlar aparılır. Lakin İraq müharibəsi timsalında birinci yolda ifrata varması ilə ABŞ-ın ikinci yolu bir növ bağlanmış oldu. Əvəzində bütün günahlar islam qiyafətinə geydirildi və hər şeyi uydurulmuş bir kabusun üzərinə yıxmaq yolu seçildi.

Səhv ünvan seçilməsi nəticəsində beynəlxalq terrorun həqiqi səbəbləri də kölgədə qaldı və əsl səbəbkarlar bir növ gizlənmək imkanı əldə etdilər. Əslində, islamofobiyanın yayılmasında və hədəfin başqa səmtə yönəlməsində, heç şübhəsiz, həmin maraqlı tərəflərin əli vardır.

Bu şərtin əsasını isə uydurulmuş islamofobiyadan əl çəkmək təşkil edir. Qərb cəmiyyətinin öz daxilində gedən prosesləri və onun geri qalmış ölkələrə münasibətini yenidən, daha köklü surətdə təhlil etmək tələb olunur.

Yaranmış vəziyyətdən çıxış yolu səthi yanaşma, üzdən təhlillə tapıla bilmədiyindən, zamanın böyük fikir sahibləri, məşhur filosoflar da bu problemin təhlilinə qatılmağa ehtiyac hiss edirlər. Bu sırada Y.Habermasın İraq müharibəsi ilə əlaqədar irəli sürdüyü mülahizələr, hətta problemin Kantın azadlıq idealları və ümumiyyətlə klassik alman fəlsəfəsi bazasında, beynəlxalq hüquq və humanitar hüquq kontekstində nəzərdən keçirilməsi də təsadüfi deyil. Yəni problem daha çox dərəcədə ictimai-iqtisadi və siyasi-hüquqi təlimlərə yenidən baxılmasını tələb edir. Əlbəttə, dinin də ictimai şüurda mühüm rolu vardır. Lakin bu sahədə də ənənəvi təsəvvürlərlə kifayətlənmək olmur, çünki problemin daha dərindən öyrənilməsinə ehtiyac yaranır.

Müasir Qərb fəlsəfi fikrinin böyük nümayəndələrindən olan Umberto Ekonun yaranmış vəziyyətə münasibəti xüsusi maraq doğurur. 11 sentyabr hadisələrindən sonra yazdığı "Tam geriyə!" əsərində U.Eko Qərb ictimai fikrində islama və müsəlmanlara münasibətin müxtəlif aspektlərini təhlil edir. Məhz onun siyasi riyakarlıqdan uzaq, diplomatik maneralarsız təqdimatında vəziyyətin nə dərəcədə mürəkkəb olduğu daha aydın görünür.

Əslində vəziyyət özü bir o qədər yox, onun islam xofu ilə şişirdilmiş və başqa kontekstə keçirilmiş halda təsəvvür olunması daha qorxuludur. Belə ki, terrorçularla müqayisədə müsəlmanların yayılma coğrafiyası və miqyası qat-qat böyükdür. Və ona görə də, terror xofu islamla eyniləşdirildikdə konkret ünvanlar itir və onun əvəzinə problemin başqa səmtə yönəldilmiş və böyüdülmüş mənzərəsi yaranır. Bu, ayını tapmaq çətin olduğuna görə, bütöv meşəni yandırmağa bənzəyir. Lakin istənilən halda Qərbdə çoxları üzə çıxarılması çətin olan gizli terrorçu obrazının əvəzinə, aşkar müsəlman obrazı qoymaqla məsələni "asanlaşdırmaq" istəyir. Bəli, bu təsəvvürə görə, düş-

mən nə az, nə çox iki milyardlıq müsəlman dünyasıdır və Umberto Eko da Qərb ictimai şüurunda, obıvatelin – "sıravi adamın" nəzərində artıq özünə yer etmiş "müsəlmanlardan xilas olmaq" yollarının axtarılmasını təsvir və təsnif edir. Nəticədə, gözlərimiz qarşısında dəhşətli mənzərələr canlanır. Qısaca desək, belə bir tipik mənzərə: tutaq ki, müsəlman ölkələrini nüvə silahı və ya hər hansı müasir hərbi texnologiya ilə yer üzündən silmək mümkün oldu. Bəs onda Avropa ölkələrinin özündə yaşayan milyonlarla müsəlman necə olsun? "Hitler sistemi üzrə milyonlarla cəsəd Aralıq dənizini zibilləyəcəkdir. Amma maraqlıdır görəsən hansı dövlət belə bir addım atar".[1] Daha sonra U.Eko alternativ variantları nəzərdən keçirir. Qərb öz planlarını həyata keçirməyə başlayarsa, bütün islam ölkələrində fundamentalistlər hakimiyyətə gələrək xristianlara qarşı qırğınlar törədə bilər. "Axı, islam dünyasında da xarici firmalar fəaliyyət göstərir və bütöv xristian anklavları vardır, məsələn, – Efiopiyada".[2] Xoruzun quyruğu görünür: – Bəlkə Qərb dünyası Azərbaycan ərazisində bir növ xristian anklavı olan Dağlıq Qarabağın da ölkəmizə qaytarılmasına belə bir bədnam perspektivi nəzərə alaraq cəhd göstərmir?! İstənilən halda U.Ekonun apardığı təhlillər ikili standartların görünməyən tərəflərini açmaq və bəzi siyasilərin *obıvatel* səviyyəsində düşündüklərini nəzərə ala bilmək üçün bir işarədir.

Amma biz Qərb dairələrinin öz siyasətlərini *obıvatel* səviyyəsində deyil, öz böyük filosoflarının düşüncəsinə və səviyyəsinə uyğun qurmalarını arzu edərdik.

Filosoflar isə nəinki terroru dinlə izah etmirlər, əksinə, müasir dövrün bütün eybəcərliklərinin səbəbini həqiqi dindən ayrı düşməkdə görürlər. Biz aşağıda Kantın, Hegelin, Con Lokkun, Akvinalı Fomanın, Nikolay Kuzanlının, Götenin, Tolstoyun və hətta Nitsşenin baxışlarında mənəvi idealın təkallahlılıqla və məhz islam dini ilə nə dərəcədə bağlı olmasına dair fikirləri ilə tanış olacağıq. İndi isə qeyd etmək istəyirik ki, kitabından iqtibaslar gətirdiyimiz U.Eko da ilk görüntüdən fərqli olaraq islama qarşı heç bir iddia ilə çıxış etmir və əksinə, adi şüurun nə dərəcədə yanlış olduğunu göstərmək üçün onun fraqmentlərini nəzərdə canlandırır və bəşəriyyəti əsl çıxış yolunu daha düzgün ünvanlarda axtarmağa səsləyir.

*"525-ci qəzet", 10 mart, 2010-cu il.*

[1] *У.Эко.* Полный назад! «Горячие войны» и популизм в СМИ, М.: Эксмо, 2007, стр. 44.
[2] Yenə orada, s. 42.



- 12451 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## Sivilizasiyanın monoloqu

Müasir elmi-fəlsəfi ədəbiyyatda söhbət ancaq ya sivilizasiyaların qarşıdurmasından, ya da onların dialoqundan gedir. Halbuki, mədəniyyətlər fərqli olduğu halda, bütün bəşəriyyət üçün ancaq bir sivilizasiya vardır və o, bütün xalqların birgə səyləri ilə yaradılmışdır. Bu mənada onun ancaq monoloqundan danışmaq mümkündür. Bu vahid ümumbəşəri prosesin sükanının kimin əlində olması isə başqa bir məsələdir.

İndiki dövrdə planetimizin siyasi xəritəsi formalaşdığı kimi iqtisadiyyatın və maddi-texniki mədəniyyətin paylanması da xeyli dərəcədə qərarlaşmış, nisbi stabil bir mənzərə yaranmışdır. Düzdür, miqrasiya prosesləri sürətlənmiş, qloballaşmanın təsiri ilə iqtisadi və mədəni sahələrdə sərhədlərin rolu azalmış, planetdə yeni meyarlar əsasında maddi və mənəvi dəyərlərin sanki yenidən paylanması prosesi başlanmışdır.

Əvvəllər böyük imperiyaların, nisbətən sonrakı dövrdə milli dövlətlərin sərhədləri daxilində hər bir ölkənin öz iqtisadi və mədəni-mənəvi “relyefi”, öz spesifik inkişaf mexanizmləri var idisə, indi bu milli “relyeflər” tədricən pozulur. Nəticədə, daha qlobal səmt küləklərinin təsirini nəzərə almadan mədəniyyətlərin coğrafiyasını təsəvvür etmək mümkün olmur.

Müsbət tendensiyalarla yanaşı, mənfi tendensiyalar





da qloballaşır.

Bu gün bütün dünya iqtisadiyyatı ilə bərabər, bütün dünya ictimai sistemi də sanki bir böhran keçirir. İndi hətta dünyanın sonu haqqında filmlər də çəkilir. Düzdür, Avropada Qərb ruhunun tükənməsi, onun süqutu, tənəzzülü haqqında söhbətlər çoxdandır ki, başlanmışdır. Lakin bunu yazanlar daha böyük miqyaslı proseslərdən çıxış edən filosoflardır. Həmin ölkələrdə yaşayanların heç də hamısı getdikləri yolun haraya aparıb çıxaracağını təsəvvür etmir. Əhali bu təlaşı, qorxu hissini daha çox dərəcədə iqtisadi böhranlar zamanı yaşayır. Həm də bu hadisələr zamanı kimi isə təsirləndirmək də çox çətin olur. Çünki, belə böhranlar adətən qloballaşan dünyanın dərinliklərindən gəlir. Və hamı “palaza bürünüb elnən sürünməli olur.” İndi ekoloji böhranlar, kütləvi xəstəliklər, kütləvi qırğın silahlarının qlobal vahiməsi, zəncirvari müharibə təhlükələri və s. getdikcə artır.

Qloballaşma KİV və internet vasitəsilə artıq mənəviyyat sferasına da müdaxilə edir və bu sahədəki virusların da çarəsini tapmaq asan deyil. Yəni, qloballaşma şəraitində hər bir ölkənin dərd-səri özünə bəs deyilmiş kimi, başqalarının da qurbanına çevrilmək təhlükəsi yaranır. Dərdlər də qloballaşır. Deməli, daha hər kəs təkcə özünü qorumaq, milli maraqlardan çıxış etməklə məhdudlaşa bilməz. Jan-Pol Sartr deyirdi ki, hər bir insan bütün dünyadakı günahlara görə məsuliyyət hissi keçirməlidir. İndiki dövrdə isə təkcə mənəvi məsuliyyət və ya günahkarlıq hissi bəs eləmir. İndi qlobal təhlükələr insanların həyatını bilavasitə təhdid edir. Və deməli onlara qarşı mübarizə də bütün insanlığın vəzifəsidir. Lakin əmək bölgüsü və ixtisasların diferensiallaşması şəraitində, hər kəsin öz işini çətinliklə başa çatdıra bildiyi bir vaxtda dünyanın problemlərini dü-

şünmək və həll etmək vəzifəsi görəsən kimin üzərinə düşür? Hətta dövlət başçıları da əsasən öz ölkələrinin daxili problemləri ilə məşğul olmaq məcburiyyətində qalırlar. Belə olduqda isə, hər bir ölkə və hər bir xalq xarici təsirlərə, qlobal təhlükələrə qarşı özünü güvənsiz hiss edir.

Milli dövlətlər epoxasında olsa-olsa ancaq milli mədəniyyətləri ayırd etmək mümkün idi. Milli sivilizasiyalardan, yəni milli dövlətlər çərçivəsində milli sivilizasiyalardan danışmaq mümkün deyildi. Bununla belə dövlət sərhədlərindən daha böyük olan, daha ümumi meyarlar əsasında fərqləndirilə bilən regional sivilizasiyalardan söhbət gedirdi. Bəzən ictimai-siyasi quruluşun xarakterinə görə bölgü aparılır; kapitalizm və sosializm düşərgələri bir-birinə qarşı qoyulurdu və bu bölgü çox vaxt sivilizasiyalara da şamil edilirdi. Digər bir yanaşma dünya dinləri əsasında aparılır, xristianlıq, islam və buddizmin təsir dairələri sivilizasiya kontekstində də fərqli tərəflər kimi nəzərdən keçirilirdi. Yeri gəlmişkən bu cür yanaşma hələ də davam etməkdədir. Digər bir yanaşma coğrafi, iqtisadi və ruhi-mənəvi amillərin hər üçünü ehtiva edən, amma təbii ki, dəqiq sərhədlərinin göstərilməsi çətin olan Şərq və Qərb bölgüsüdür.

Praktik durumun dəyişməsi nəzəriyyəyə də yenidən baxılmasını tələb edir. Yəni əgər əvvəlki nəzəri model müasir prosesləri izah edə bilmirsə, deməli, daha mükəmməl modellərin hazırlanmasına ehtiyac var. Bu isə ilk növbədə pərakəndə sivilizasiyalar təlimindən vahid sivilizasiya təliminə keçilməsini tələb edir. Belə ki, qloballaşma əslində təməl proses olmayıb, törəmə prosesdir. Onun nədən və necə törədiyini izah etmək üçün isə vahid, qlobal bir sivilizasiyalaşma prosesinin müxtəlif dövrlərdə hansı amillərin təsiri ilə və necə paylandığını, inteqrativ və dezinteqrativ





tendensiyaların nə vaxt uzlaşdığını və tarazlığın nə vaxt pozulduğunu araşdırmaq tələb olunur. Lakin təəssüf ki, dünyada baş verən belə böyük miqyaslı hadisələr çox vaxt təməldən, kökdən deyil, qol-budaqdan başlanaraq öyrənilir.

Son vaxtlar fəlsəfi və ictimai-siyasi fikirdə ən çox istifadə edilən, ən çox dəbdə olan anlayışlardan biri məhz qloballaşmadır. Lakin təhlil göstərir ki, fəlsəfi kontekstdə bu anlayış heç bir yük daşımır. Belə ki, son dövrlərdə dünyanın coğrafi-siyasi xəritəsində ikiqütblü inkişafdan birqütblü inkişaf yoluna keçid tendensiyası müşahidə olunursa, bu hal ancaq yaranmış konkret siyasi-iqtisadi situasiyanı ifadə edir və hər hansı obyektiv-zəruri inkişaf qanunauyğunluğunu əks etdirmir.

Fəlsəfə maddi dünyada olduğu kimi, ictimai-siyasi həyatda da konkret tarixi vəziyyətləri yox, insan-dünya münasibətlərinin zəruri mərhələlərini öyrənir. Bu zərurət isə ondan ibarətdir ki, ilk insan cəmiyyətləri yarandığı gündən bu günə qədər insanın əməli fəaliyyəti kiçik ictimai qruplar miqyasından başlayaraq daha böyük ictimai birlikləri və nəhayət, bütün bəşəriyyəti ehtiva edən genişmiqyaslı, qlobal ictimai proseslərin tərkib hissəsi kimi üzə çıxır. Yəni fərdi fəaliyyətlər ancaq ictimai fəaliyyət kontekstində məna kəsb edir.

Bu cür yanaşdıqda qloballaşmanın tarixi bəşər tarixi ilə üst-üstə düşür. Yəni, hər bir insan özünü və dünyanı dərk etmək, onları dəyişdirmək və dünyanı insana tabe etmək istiqamətindəki mücadiləsində gec-tez başqa insanlarla iş birliyi yaratmaq məcburiyyətində qalır və bu proses ta bütün bəşəriyyəti əhatə edənə qədər genişlənməkdə davam edir. Ailə, tayfa, millət, milli dövlət –bu inkişaf yolunda pillələrdir.

Lakin buna heç kim qloballaşma demir. Çünki bu proses fərdi insan mahiyyəti ilə ümumi insan mahiyyətinin eyniyyətindən irəli gəlir və bir tendensiya kimi həmişə mövcud olmuşdur.

İndi qloballaşma adı altında baş verən proseslər əslində birqütblü dünyanın mütləqləşdirilməsi və milli dövlətlərin vahid bayraq altında sıraya düzülməsi, bir dilin başqa dilləri, bir siyasi iradənin başqa siyasi iradələri, bir iqtisadi marağın başqa maraqları sıxışdırıb çıxarması ilə müşayiət olunur.

Bu gün bəşəriyyət özünü dərk etməyə lap yaxın ikən, min illər ərzində gedən proseslər öz məntiqi yekununa az qala çatır ikən ictimai-siyasi proseslərdə baş verən təbəddülatlar onun üçün təhlükəyə çevrilmişdir. Sivilizasiyanın obyektiv zəruri gedişatı qloballaşma deyilən yandançıxma bir proseslə təhlükə altına alınmışdır.

Biz heç də müasir dövrdə qloballaşma adı altında gedən prosesin əleyhdarı kimi çıxış etmək fikrində deyilik. Sadəcə olaraq, adın düzgün seçilməməsi, mahiyyətin təhrif olunması ucbatından həqiqi böyük qloballaşma prosesinin, yeni, ümumbəşəri sivilizasiyanın arxa plana keçməsinin və nəzərdən düşməsinin əleyhinəyik.

Əlbəttə, ictimai hadisələrin miqyası böyüdükcə onları hansı isə bir bütöv ideyanın maddi təcəssümü kimi izah etmək çətinləşir. Kiçik miqyaslı hadisələri sonradan müəyyən ideya istiqamətində düzmək və bütövlükdə tarixin məqsədini onun ayrı-ayrı parçalarının timsalında seyr etmək nisbətən asandır. Lakin bütöv tarixi prosesi sivilizasiya kontekstinə salmaq və intellektual texnoloji quruculuq prosesi ilə ictimai hadisələr, tarix səhnələri arasında əlaqə yaratmaq və bütün bunların vahid ideya əsasını müəyyən etmək, əlbəttə, çətindir. Lakin bu, çox önəmlidir. Bəşəriyyət bundan sonra hara gedəcəyini dərk etmək üçün buna qədər hansı ideya əsasında inkişaf etdiyini mütləq anlamalıdır.





Biz bütövlükdə bəşər tarixini bütün lokal sivilizasiyaları əhatə edən bu geniş əhatəli prosesi məzmununa uyğun olaraq qlobal sivilizasiya adlandıracağıq. İdeya müəllifi və icraçısı bütövlükdə bəşəriyyət olan bu proses ayrı-ayrı fərdlərin və lokal ictimai qrupların, millətlərin, dövlətlərin neçə min illər ərzində göstərdikləri məqsədyönlü fəaliyyətlərin vektorial cəmi kimi ortaya çıxır.

Çağdaş mənada qloballaşma da, şübhəsiz, qlobal sivilizasiyanın əhatə etdiyi müxtəlif yönümlü, müxtəlif çeşidli, müxtəlif ömürlü proseslərdən biridir. Qlobal sivilizasiya qloballaşmadan fərqli olaraq həmçinin qlobal problemləri də əhatə edir. Ekologiyanın ayrı-ayrı lokal problemlər çərçivəsində yox, bəşər tarixi kontekstində, insanın mahiyyəti kontekstində nəzərdən keçirilməsi də məhz qlobal sivilizasiya çərçivəsində mümkün olur.

Məhz qlobal sivilizasiyanın bəşəriyyətin ideya təcəssümü kimi nəzərdən keçirilməsi yenidən insanın mahiyyəti probleminə, həyatın mənası probleminə və həqiqi böyük fəlsəfi problematikaya qayıdışı da şərtləndirmiş olur.

Uzun bir dövr ərzində ayrı düşmüş mənəviyyatla texnogen cəmiyyət, mədəni-mənəvi dəyərlər sistemi ilə maddi-texniki sistemlər, fərdi-mənəvi yaşantılarla ictimai-siyasi proseslər, adi insani xoşbəxtliklə planetar vətəndaşlıq məsuliyyəti, nəhayət ki, eyni bir ortaq məxrəcə, eyni baxış müstəvisinə gətirilir. «Bəşəriyyətin uşaqlıq çağı» olan antik dövrdə olduğu kimi, yenidən mikrokosm makrokosmla əks əlaqəyə girir, özünü rasional dünyada, süni təbiətdə itirmiş insan yenidən özünü tapmağa çalışır.

*"525-ci qəzet", 5 mart, 2010-cu il.*

# Mədəniyyətlərarası dialoq
# və
# dialoq mədəniyyəti

Öz daxilində qarşılıqlı anlaşma və tolerantlığı təmin edə bilməyən hər hansı bir ölkə başqa ölkələr və xalqlarla da səmərəli dialoq və xoş münasibət qura bilməz. Bu baxımdan Azərbaycan dünyanın ən nümunəvi ölkələrindən biridir.

Dünən Bakıda öz işinə başlamış İkinci Ümumdünya Mədəniyyətlərarası Forumunun açılışında Azərbaycan Prezidenti İlham Əliyev bu Forumun əsas missiyasını və beynəlxalq əhəmiyyətini nəzərə çatdırmaqla yanaşı, həm də belə bir cəhəti vurğulamışdır ki, dialoq məkanı olaraq Azərbaycanın seçilməsi heç də təsadüfi deyildir: "Çünki Azərbaycan əsrlər boyu burada yaşayan bütün millətlərin, bütün dinlərin nümayəndələri üçün Vətən olmuşdur. Biz fəxr edirik ki, bu gün də müstəqil Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir".

Doğrudan da, bir xalqın, ölkənin mədəniyyətinin digər mədəniyyətlərlə əlaqələndirilməsi o zaman asan olur ki, belə bir uyğunlaşma, uzlaşma və qarşılıqlı zənginləşmə təcrübəsi həmin mədəniyyətə immanent olsun, yəni o artıq öz daxilində belə bir təcrübəni mənimsəmiş olsun.





Azərbaycan mədəniyyəti məhz bu baxımdan da əlamətdardır. Neçə əsrlər ərzində dini və etnik-milli müxtəlifliyin ənənəvi tolerantlıq şəraitində inkişafı və eyni zamanda qarşılıqlı zənginləşmə və inteqrasiya təcrübəsi bütöv Azərbaycan mədəniyyətinin formalaşmasına gətirib çıxarmışdır. İndi bu bütöv mədəniyyət bir tərəf kimi başqa xalqların mədəniyyəti ilə qarşılıqlı əlaqəyə girərkən həmin ənənənin və təcrübənin böyük əhəmiyyəti vardır.

Adətən fərqli mədəniyyətlərin qarşılıqlı əlaqəsindən, dialoqundan söhbət gedir. Müxtəlif xalqların, millətlərin maraq dairələri kəsişən yerdə mədəniyyətlər də kəsişir və burada müəyyən bir interferensiya hadisəsi baş verir. Yəni uzlaşan, uyğun gələn mədəni dəyərlər toplanır, artır, yeni inkişaf impulsu əldə edir. Uzlaşmayan, bir-birini təkzib edən dəyərlər arasında isə rəqabət, mübarizə, bəzən hətta münaqişə baş verir.

Optikadan məlum olduğu kimi, iki işıq şüasının görüşü və ya toplanması zamanı koherent dalğalar bir-birini gücləndirir. Lakin bu şərt ödənmədikdə, dalğalar bir-birini söndürür və qaranlıq fasilələr yaranır. Bu bənzətmənin təfərrüatına getmədən bircə onu vurğulamaq istərdik ki, ictimai hadisələr də çox vaxt təbii proseslərlə eyni qanunauyğunluq üzrə həyata keçir.

Yəni biz istənilən iki mədəniyyətin toplanmasını kor-koranə surətdə müsbət hadisə kimi dəyərləndirə bilmərik. Hər şey bu "toplanmanın" necə aparılmasından asılıdır. Bir böyük və ya daha zəngin mədəniyyət başqasını ehtiva etmək, udmaq istəyində də ola bilər. Yəni nisbətən aşağı səviyyəli mədəni mühit daha çox inkişaf etmiş mədəni mühitlə müntəzəm təmasa girirsə, kiçiyin böyükdə "itməsi", əslində isə ehtiva olunması baş verə bilər. Lakin

hər şey elə bundan asılıdır ki, biz mədəniyyətlərin səviyyəyə görə, vertikal boyunca qradasiyasını qəbul edirikmi?

Əslində vertikal boyunca fərqlər sivilizasiyaya aiddir. Çünki müxtəlif xalqlar eyni bir sivilizasiyanın müxtəlif mərhələlərində olduqlarına görə fərqlənirlər. Mədəniyyətlər isə kiçik və ya böyüklüyündən asılı olmadan hər bir xalqın milli xüsusiyyətlərini də ehtiva edir. Təbii coğrafi və mədəni-mənəvi özəllik əsrlər boyu qorunub saxlanır və öz məxsusi inkişaf yolunu keçirlər. Burada əlbəttə, milli mədəniyyətlərin sivilizasiyanın təsirinə məruz qalması qaçılmazdır.

Zehniyyətdə intellektual komponentin payının artması, rasionallaşma prosesi müxtəlif xalqların yaxınlaşmasına səbəb olur. Özəlliklər azalır, ümumi cəhətlər artır. Lakin hər bir xalq "öz kökü üzərində bitməkdə" davam etməyə çalışır. Bununla belə, zaman keçdikcə həyat tərzi və düşüncə tərzi dəyişdiyindən əvvəlki nəsillərin dəyərlər sistemi də təsirlərə məruz qalır. Mübarizə əslində mədəniyyətlər arasında deyil, mədəniyyətlərlə sivilizasiyalar arasında gedir.

Mən bu ideya ilə I Mədəniyyətlərarası Bakı Forumunda çıxış etmişdim. Əlamətdar haldır ki, bu Forum heç də bölgə miqyaslı bir hadisə kimi qalmadı və onun əks-sədası indi çox uzaqlardan gəlir. Burada irəli sürülən bir sıra yeni ideyalar beynəlxalq elmi ictimaiyyətin diqqətini cəlb etdi. Mənim çıxışımdan sonra bu mövzuda xarici ölkələrdə keçirilən bir sıra mötəbər forumlarda iştirak üçün dəvətlər aldım. Xüsusilə, artıq çoxdan nüfuz qazanmış və öz miqyasına görə bu sahədəki mütəxəssislərin dünyada ən böyük diskurs mərkəzinə çevrilmiş Rodos Forumunu qeyd etmək istəyirəm.





Mənim həmin Forumun 10-cu Yubiley toplantısının plenar iclasındakı "Mədəniyyətlərin dialoqu və sivilizasiyanın monoloqu" mövzusundakı məruzəm geniş müzakirələrə səbəb oldu. Çünki burada mədəniyyətşünaslıq üçün yeni sayılan bir sıra ideyalar irəli sürülmüşdü ki, bu da Qərb ideoloqlarının ənənəvi münasibətinə uyğun gəlmirdi. A.Toynbinin və S.Hantinqtonun irəli sürdüyü "sivilizasiyaların toqquşması" ideyasından fərqli olaraq, mən *vahid sivilizasiya* ideyasını əsaslandırmağa çalışdım. Beynəlxalq Tərəqqi Təşkilatının prezidenti professor Hans Köxler (Avstriya), Nobel mükafatı laureatı Robert Kurl (ABŞ), "Sivilizasiyaların dialoqu" Dünya İctimai Forumunun həmsədri professor Fred Dallmayr (ABŞ) və s. görkəmli alimlər, elm və mədəniyyət sahəsində tanınmış mütəxəssislər bu ideyaya böyük maraq göstərdilər. Bu ideya indi də dünyanın geopolitika və kulturologiya sahəsində sayılıb-seçilən mütəxəssislərinin diqqət mərkəzindədir.

Beləliklə, Bakı Birinci Mədəniyyətlərarası Forumunun beynəlxalq rezonansı ideya müstəvisində də uğurla davam etməkdədir. Çünki bütün əlaqələr son nəticədə bəşəriyyətin ideya xəzinəsinin zənginləşməsinə xidmət etməlidir.

Dövlətlər arasında siyasi münasibətlər qurulması hələ azdır. Bu münasibətlərin ancaq formal bəyanat olmayıb, real təməllərə əsaslanması isə siyasi müstəvidəki razılaşmaları şərtləndirən iqtisadi və mədəni-mənəvi amillərdir. Dayanıqlı tərəfdaşlıq yalnız onların uzlaşdırılması sayəsində mümkün olur. Dövlət rəhbərinin yeritdiyi siyasət sonrakı mərhələdə ictimai fikir və mədəni yaxınlaşma şəklində davam etdirilməlidir. Bunun üçün isə millətlər həm müstəqim, həm də məcazi mənada bir-birinin dilini öyrənməlidirlər.

Xalqlar arasında dil baryeri olduğu kimi, mədəni müxtəliflikdən irəli gələn uyğunsuzluq, yaxud da dözümsüzlük halları da ola bilər. Tolerantlıq bir prinsip kimi məhz bu ehtiyacdan yaranmışdır. Lakin dövlətin hansı isə bir prinsipi bəyan etməsi bir şeydir, onun ictimai reallıqda təsbit olunması başqa şeydir. Məhz buna görə də mədəniyyətlərarası dialoq bir siyasi akt olmaqdan daha çox, ziyalılar, elm və mədəniyyət xadimləri arasında əməkdaşlıqdır. Bir milli sənətin başqa xalqların da ürəyinə yol tapması tək mədəniyyətləri deyil, xalqları da yaxınlaşdırır və bu nailiyyətlər dövlət siyasətinə də təsir edir. Beləliklə, xoş məramlı bir ideya dövrə vurub yenə də ilk təməllərə qayıdır. Amma bu dəfə sadəcə sözlə deyil, həm də işlə!

Dialoqun baş tutması üçün tərəflər hər biri öz mövqeyini dəqiq müəyyənləşdirməli, özünü dərk etməlidir. Bunun üçün isə ilk növbədə, "qarışıq mədəniyyət" sindromundan xilas olmaq lazımdır. Yəni, hər kəsin öz siması, öz obrazı və təmsil etdiyi, müdafiə etdiyi özəl dəyərlər sistemi olmalıdır.

Dialoq heç də təqlid və ya təslimçilik kimi başa düşülməməlidir. Qarşı tərəflə optimal iş birliyi qura bilmək üçün öncə onu öyrənmək, mənimsəmək, hansı dəyərləri təmsil etdiyini bilmək lazımdır. Biz onlardan nə götürə bilərik və onlara nə təklif edə bilərik? Mədəniyyətlərin təqdimatında və ölçülüb-biçilmiş mübadiləsində prioritetlər düzgün müəyyənləşdirilməlidir.

Bir qədər paradoksal görünə bilər. Belə ki, biz bir tərəfdən multikulturalizm tərəfdarıyıq, digər tərəfdən də mədəniyyət müstəvisində sərhədlərin müəyyənliyini, demarkasiya şərtlərinin ödənilməsini zəruri hesab edirik. Ancaq bəsit şüur multikulturalizmi milli-mədəni identifikasiyanın itməsi, qurban verilməsi kimi qəbul edə bilər.





Bu halda biz gərək azərbaycançılıq məfkurəsindən də imtina edəydik. Halbuki, prezident İlham Əliyev multikulturalizmi dəstəkləsə də, bunu azərbaycançılıqdan imtina kimi qəbul etmir və öz çıxışlarında azərbaycançılığın bütün atributlarını müdafiə etməklə yanaşı, düşüncəmizin də əsasında məhz azərbaycançılıq fəlsəfəsinin dayandığını dönə-dönə qeyd edir.

Xalqın yüksək mədəni inkişaf səviyyəsinin nümayiş etdirilməsi, bir tərəfdən, beynəlxalq ictimai rəyin məqsədyönlü surətdə təhrif olunmasının qarşısını almağa, bədxahlarımızın yaratdığı "vəhşi" obrazının gerçəkliyə adekvat olmadığını göstərməyə, digər tərəfdən də sözümüzü ancaq siyasi-hüquqi müstəvidə deyil, mədəniyyət müstəvisində də yüksək tribunalardan deməyə imkan yaradır. Başqa sözlə desək, mədəniyyət sahəsində "açıq qapı" siyasəti bizim xeyrimizədir, çünki, biz hələ indiyə qədər öz mədəni sərvətlərimizi dünya ictimaiyyətinin diqqətinə lazımi səviyyədə çatdıra bilməmişik. Son onillikdə bu istiqamətdə aparılan məqsədyönlü və intensiv siyasət də məhz beynəlxalq ictimai rəyin daha düzgün yönləndirilməsinə xidmət edir.

II Dünya müharibəsindən sonra beynəlxalq hüquq, insan haqları amilinin önə çəkilməsi son illərdə beynəlxalq humanitar siyasətin güclənməsi ilə tamamlanır. Ölkədaxili problemlər "daxili" olmaqdan kənara çıxır və beynəlxalq qurumların və ictimaiyyətin rəyi getdikcə daha böyük rol oynayır.

Humanitar intervensiya siyasəti Şərq ölkələrində böyük narazılıqlara səbəb olmuş və hələ də yekunlaşa bilməyən iğtişaşlar davam etməkdədir. Belə bir şəraitdə amerikan politoloqu J.Nayın irəli sürdüyü "yumşaq güc" siyasəti getdikcə daha çox yayılır. Qədim Çin müdrikliyinin

(Lao Tszı təlimi) XXI əsrdə yenidən aktuallaşması da təsadüfi bir şey olmayıb, zamanın tələbidir.

Müasir dövrdə transmilli şirkətlərin ölkələrin lokal sərhədlərini keçməsi və iqtisadiyyatın getdikcə daha çox beynəlmiləlləşməsi ilə yanaşı, mədəniyyətdə də beynəlmiləlləşmə amilinin artması müşahidə olunur. Hərbi güc amilinin yerini beynəlxalq investisiya siyasəti, iqtisadi asılılıq tutur. Sərhədlərin beynəlxalq ictimaiyyət üçün açılması, turizmin və mədəni əlaqələrin inkişafı milli-mədəni dəyərlərin də transmilli miqyas alması ilə nəticələnir.

Belə bir şəraitdə öz qınına çəkilmək, özünü mühafizə taktikası yeritməklə kifayətlənmək qorxulu sonuclara gətirə bilər. Daha düzgün yol ikitərəfli və çoxtərəfli münasibətlər qurmaq, mədəniyyətlərarası dialoq və poliloqa nail olmaqdır.

Belə bir şəraitdə beynəlxalq ictimai rəyə təsir edən amillərin də əhəmiyyəti artır. Mədəniyyət amilinin aktuallaşmasının səbəblərindən biri də budur.

Böyük şairimiz Hüseyn Cavid hələ ötən əsrin əvvəllərində uzaqgörənliklə deyirdi:

*Turana qılıncdan daha kəskin ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*

Lakin yüksək mədəniyyətə sahib olmaq işin bir tərəfidir. Qarşıda duran növbəti vəzifə bu mədəniyyətin beynəlxalq miqyasda tanınması və millətimiz haqqında təsəvvürlərin düzgün məcraya yönəldilməsidir.

Bakıda II Mədəniyyətlərarası Dialoq Forumunun keçirilməsi ölkəmizin ancaq bir neft ölkəsi kimi deyil, həm də və daha çox dərəcədə yüksək mədəniyyət təmsilçisi kimi tanınmasına xidmət edəcəkdir.





Mədəniyyətlərarası dialoqa həmişə hazır olan, yüksək dialoq mədəniyyəti nümayiş etdirən bir ölkə kimi tanınmaq, öz haqq məqsədinə ancaq hərbi gücün üstünlüyü ilə deyil, həm də humanitar mədəniyyətin yüksək səviyyəsi ilə çatmaq niyyəti son illərdə ölkəmizin xarici siyasət strategiyasının mühüm istiqamətlərindən birinə çevrilmişdir.

*"Azərbaycan» qəzeti, 1 iyun, 2013-cü il.*

# Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər

*Bəşəriyyət eyni mənşəyə*
*və ümumi məqsədə malikdir.*
K.Yaspers

İnsan, bir tərəfdən xarici mühitlə əlaqə xüsusiyyətləri, digər tərəfdən özünəməxsus daxili xüsusiyyətləri ilə səciyyələnir. Hər bir insan bioloji varlıq olaraq lap yaranışdan daşıyıcısı olduğu genlərdə kodlaşdırılmış olur. Genlərdə onun fiziki-cismani imkanlarının, sağlamlıq dərəcəsinin, hətta intellektual və bir sıra mənəvi-psixoloji xüsusiyyətlərinin əsası qoyulmuş olur. Sonrakı həyatı boyu insanın sağlamlığı, cismani-bioloji varlığı xarici təbii mühitdən, orqanizmin daxil olduğu fiziki və bioloji əlaqələrdən asılı olaraq dəyişir. Bu mənada insan orqanizmi hər bir mərhələdə ilkin genetik imkanlarla xarici təbii mühitin əlaqəsi və hətta mübarizəsi şəraitində formalaşır.

Lakin insan sadəcə cismani-bioloji varlıq deyil və onu əhatə edən mühit də sadəcə təbii mühit deyil. İnsan həm də sosial varlıq olaraq digər insanlarla və ümumən cəmiyyətlə qarşılıqlı əlaqəyə girir və bu əlaqələr onun formalaşmasına ciddi təsir göstərir. Bu mənada insanın ekologiyası bioloji ekologiya ilə yanaşı sosial və mənəvi ekologiyanı da əhatə edir.

İnsanın mənəviyyatı, bir tərəfdən, genetik əsaslara malik olsa da, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin kulturoloji aspektləri mühüm rol oynayır.





İnsanın formalaşdığı ictimai mühit mövcud dəyərlər sistemi, sosial və hüquqi normalar, mövcud dövlət quruluşu, iqtisadi münasibətlər, ailə münasibətləri, təhsil sistemi və s. bu kimi elementlərin sintezindən ibarətdir. Mədəni-mənəvi mühit isə cəmiyyətin müvafiq rakursu ilə yanaşı əvvəlki nəsillərdən qalmış sənət əsərləri, xüsusən, bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır. Bütün bunlar insanların bir mütəxəssis və bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır.

Fiziki-bioloji ekologiyada olduğu kimi sosial-mənəvi ekologiyada da böhran baş verə bilər. Ona görə də sosial-mənəvi mühitin saflığının qorunması dövrün qlobal problemlərindən biridir. Bayağı mədəniyyətin ayaq açıb yeridiyi, xarici ölkələrdən milli-mənəvi mühitimizə yabançı olan təsirlərinin gücləndiyi bir vaxtda sosial-mənəvi ekologiyanın problemlərini öyrənmək və lazım gəldikdə həyəcan təbili çalmaq lazımdır.

Bu gün mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətimizin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də elmi-nəzəri əsaslara malik olmalıdır. Xüsusən televiziyanın, mətbuatın milli mənəviyyata yad elementlərlə dolduğu bir vaxtda mənəvi mühitin qorunması problemi çox aktualdır. Burada milli özünüdərk prosesi ilə özünüqoruma instinktinin vəhdətindən çıxış etmək lazımdır. İnstinkt əsasən psixik-bioloji anlayış olsa da, biz burada sosial instinktdən bəhs edirik. Yəni ictimai həyatımıza kənardan daxil olan yad təsirlərdən qorunmaq üçün bu gün gənclərimizdə sosial özünümüdafiə instinkti

formalaşdırılmalıdır.

Müasir dövrdə ən aktual problemlərdən biri milli özünütəcrid və qloballaşma kimi iki kənar hal arasında optimal nisbətin tapılmasıdır. Qloballaşma prosesi elm, texnika, texnologiya ilə – ümumbəşəri dəyərlərlə yanaşı milli kimliyi müəyyən edən mədəni-mənəvi amillərə də sirayət etməyə cəhd göstərir. İstər düşünülmüş şəkildə, istərsə də qərəzsiz olaraq – fərqi yoxdur. Belə bir şəraitdə ilk növbədə nələri qorumaq lazım olduğunu, məhz hansı məsələlərdə məqsədyönlü surətdə ənənəçi, konservator olmağın labüdlüyünü ziyalılar müəyyənləşdirməlidir. Yeri gəlmişkən, əsrin əvvəlində bizim böyük ziyalılarımız oriyentir kimi "türkçülük, islamçılıq və müasirliyin vəhdəti" prinsipini tövsiyə edirdilər ki, bu prinsip indi də aktuallığını saxlamaqdadır.

Bununla belə, bizcə, ilk növbədə meyarlar müəyyənləşməlidir. İdeal halda biz özümüzü necə təsəvvür edirik və ya bizim milli-mənəvi idealımız nədən ibarətdir? İndi biz hansı real durumdayıq və daşıdığımız hansı keyfiyyətləri məhz milli səciyyə kimi qiymətləndirmək olar? Keçmişə də məhz bu real durum və ideal prizmasından, onun əsasında formalaşan meyarlardan çıxış edərək yanaşmaq lazımdır. "Soykökə qayıdış" çağırışında qorxulu olan məqam bundan ibarətdir ki, biz keçmişimizdə olan istənilən keyfiyyəti milli invariant kimi və pozitiv cəhət kimi qəbul edə bilmərik. Həqiqi milli keyfiyyətlər milləti yaşadan, onu inkişaf etdirən keyfiyyətlərdir. Bu baxımdan, keçmişimizdən qalan, lakin tərəqqiyə deyil, tənəzzülə xidmət edən cəhətləri yaşatmaqdansa, onlardan xilas olmaq yolu tutulmalıdır. Lakin biz yenə də nəyin pozitiv, nəyin neqativ, yaxud nəyin həqiqi, nəyin saxta olduğunu aydınlaşdıra bilmək üçün keçmişdən daha çox bu günümüzə və gələcəyimizə, milli-mənəvi idealımıza xidmət etməliyik.





Ərazinin tarixi, xalqın tarixi, millətin tarixi, dövlətin tarixi fərqləndirilmədən məsələyə milli şüur prizmasından baxmaq çətindir. Minilliyin və yüzilliyin əsas səciyyələrini vermək üçün əvvəlcə bütövlükdə tarixi inkişaf prosesi heç olmazsa ən ümumi şəkildə nəzərə alınmalıdır.

Etnik qrupların bütöv bir millət halında formalaşması prosesi daha çox dərəcədə əvvəlki minilliklərə aid bir məsələdir.

Son minillik Azərbaycanda etnik-milli baxımdan türk təfəkkürü və türk həyat tərzi ilə; dini müstəvidə yanaşdıqda isə islam mənəviyyatı və islam düşüncə tərzi ilə səciyyələnir. Beləliklə, yola saldığımız minillikdə Azərbaycan xalqının mentaliteti türkçülük və islamçılığın üzvi vəhdəti, sintezi şəraitində formalaşmışdır. Lakin bu böyük əsas prosesə ayrı-ayrı dövrlərdə kənar amillər də təsir göstərmişdir. Bu baxımdan, axırıncı yüzillik daha çox Rusiya amilinin əlavə olunması ilə səciyyələnir. Rusiya amili isə öz növbəsində iki istiqamətə ayrıla bilər. Birincisi, imperiya siyasətindən gələn neqativ təsir; anti-milli, anti-türk siyasəti. İkincisi, ümumbəşəri dəyərlərlə əlaqə baxımından pozitiv məqamlar, Qərbə açılan pəncərə, Qərb sivilizasiyası ilə tanışlıq. Bu amil axırıncı yüzilliyin həm inqilabaqədərki dövrünə, həm də sovet perioduna aiddir. Sovet periodunun əvvəlki rus təsirindən əsas fərqləri isə buraya həm də anti-islam və ümumiyyətlə, ateizm siyasətinin əlavə olunması, şüurların ideologiya çərçivəsinə salınması, digər tərəfdən isə əhalinin savadlılıq dərəcəsinin artması ilə əlamətdardır.

Son yüzilliyin axırıncı on ili isə milli şüurun intibahı və milli özünüdərk istiqamətində axtarışlarla əlamətdardır. Belə ki, yeni yüzilliyə biz milli özünüdərk və milli dövlət

quruculuğu əzmi ilə, dövlətçilik təfəkkürünün intibahı şansı ilə qədəm qoyduq və bu axtarışlar indii də davam etməkdədir.

* * *

Keçid dövründə formalaşmış milli-mənəvi prinsiplər daha yaramadığından, yeni milli-mənəvi prinsiplər isə hələ tam formalaşmadığından artıq müəyyən ciddi problemlərlə üzləşirik. Müasir dövrdə uzun müddət qapalı şəraitdə yaşamış Azərbaycan xarici ölkələrlə sıx əlaqəyə girir. Xarici jurnallar, televiziya kanalları və digər informasiya vasitələri ilə Avropanın, Amerikanın və bütün planetin mənəviyyat sahəsində nə problemləri, nöqsanları vardısa, hamısı bizim məkana daxil olur. Əlbəttə, insanlar mənəviyyatca kamil olsalar və kənardan hər hansı mənəvi müdaxiləyə qarşı hazır olsalar, kənar təsirlərə qarşı fərdi daxili müqavimət qüvvələri böyük olar. Lakin hətta tək-tək adamlar öz mənəvi varlığını qorumaq gücündə və səviyyəsində olsalar da, əksəriyyət bunu bacara bilməz. Çünki bütün insanlar eyni dərəcədə kamil və iradəli deyillər. Ona görə də, milli varlığı qoruyub saxlamaq funksiyasını dövlət öz üzərinə götürməlidir.

Dövlətin bu sahədə strateji planı olmalıdır. İstər təhsil sistemi, istər gənclərin mədəni-mənəvi həyatı elə bir mühit yaratmalıdır ki, bu mühitin xarici təsirlərə qarşı reaksiya qabiliyyəti güclü olsun. Yəni insanla xarici təsir arasında bir qoruyucu sahə olmalıdır. Təsadüfi deyildir ki, son vaxtlar mədəni-mənəvi ekologiya anlayışından da istifadə olunur.

İnsanın ətrafında onun daxilindəki mənəviyyat üçün qoruyucu mühit olmalıdır. Necə ki, ozon qatı deşiləndə müxtəlif radiasiyalı şüalar atmosferə daxil olaraq insan həyatı üçün təhlükə yaradır, eləcə də bizi əhatə edən qoruyucu mədəni-mənəvi mühit deşiləndə birbaşa yad təsirlər insanın daxilinə yol tapır. Belə qorumsuzluq şəraitində yalnız hansı insanlar ki, iradəlidir – onlar tab gətirir, əksəriyyət isə təsir altına düşür. Ona görə, bizim əsas iki vəzifəmiz var: *Birincisi*, insanların mədəni-mənəvi kamillik, özünüdərk dərəcəsini və iradəsini yüksəltmək istiqamətində iş görməliyik və bu məqsədlə təhsil sisteminin, tədris proqramlarının yenidən nəzərdən keçirilməsinə ehtiyac vardır. *İkincisi*, insanların yaşadığı mədəni-mənəvi mühit saflaşmalıdır, mənəvi ekologiya problemləri sistemli şəkildə həll olunmalıdır.

Sovet dövründə problemlər nisbətən az idi, amma bunun səbəbi o deyildi ki, ideologiya indikindən yaxşı idi. Sadəcə olaraq, o zaman bütün sahələrə sərhədlər çəkilmişdi. Həm inzibati, siyasi, iqtisadi, həm də mədəni-mənəvi sərhədlər möhkəm idi. Xaricdən hər hansı bir təsir mümkün deyildi. Ölkəyə hər hansı kənar bir jurnal daxil ola bilməz, Qlavlitin icazəsi olmadan çap edilə bilməzdi. Hər hansı bir xarici televiziya kanalını tutmaq nəinki sadəcə texniki cəhətdən mümkün deyildi, həm də ona icazə verilmirdi. Hətta radiolarda bəzi dalğalar söndürülürdü, onlara qulaq asmaq mümkün olmurdu. Mədəni-mənəvi deqradasiyaya xidmət edən, dövlətin ideoloji prinsiplərinə qarşı yönəldilmiş Verilişlərin qarşısı isə tamamilə alınırdı.

İndi biz demokratik cəmiyyət qururuq. Daha qapıları bağlaya bilmərik. Qapıların açılması, bir tərəfdən, yaxşıdır, amma bu açıq qapılardan yaxşı informasiya ilə bərabər pis informasiyalar, insanların mənəviyyatına zərərli olan televiziya verilişləri, mətbuat orqanları da daxil olur. Və bizim bəzi yerli mətbuat orqanları asan yolla pul qazanmaq xatirinə mənəviyyatı satmaq xəttini tutur və ənənələrimizə böyük zərbə vururlar. Məhz buna görə də bizim

mətbuat azadlığı prinsiplərimiz olsa da, rəsmən senzura ləğv edilsə də, indi artıq senzuranı əvəz edəcək mədəni-mənəvi senzuraya ehtiyac vardır. Görünür, bu məqsədə xidmət edən ictimai danlaq və məzəmmət formaları tapılmalıdır.

Biz ənənələrimizə sədaqət prinsipindən, yüksək mənəvi dəyərlərimizi, milli kimliyimizi qorumaq prinsipindən çıxış etməliyik. Çünki özünütəsdiq milli-tarixi köklərə arxalanır. Bir sıra mətbuat orqanlarının erotik, pornoqrafik, eyni zamanda qorxunc fantastik mövzularda yazıları, televiziya kanallarının gənclərin psixikasını pozan qeyri-etik və dəhşət doğuran, reallığa uyğun gəlməyən filmləri mənəviyyata mənfi təsir edir. Bizim əsas işimiz bütün istiqamətlərdə mədəni-mənəvi mühitin saflaşdırılmasına nail olmaqdır.

Bu işdə təhsil işçilərinin üzərinə böyük vəzifə düşür. Lakin bizim tərbiyə verən müəllimlərin özlərinin mənəvi kamillik, intellektual hazırlıq dərəcəsi yetərlidirmi? Onlar üzərlərinə düşən böyük missiyanın öhdəsindən gəlməyə hazırdırlarmı? Mən deyərdim ki, – yox. Əlbəttə, yüksək səviyyəli, öz işinin öhdəsindən layiqincə gələn müəllimlərimiz də var. Ancaq bunu əksəriyyət üçün demək olmaz. Cəmiyyət dəyişirsə, yeni yetişən gənc kadrların tərbiyə sistemi, onlara verilən biliklərin məzmunu da dəyişməlidir.

Müstəqillik dövründə milli mədəniyyətin və milli mənəviyyatın inkişafı üçün daha böyük imkanlar əldə etmişik. Xüsusilə islamın mə'nəvi tərbiyə üçün faydalı olan prinsiplərindən istifadə etmək hüququ qazanmışıq. Lakin eyni zamanda, islamın özündən uzaq olan mövhumatçılıq və fanatizm prinsipləri üçün də meydan açılıb. Deməli, qadağalar həm yaxşı, həm də pis şeylər üçün





götürülüb. Bizim üzərimizə düşən əsas məsuliyyət yeni müsbət tendensiyaları inkişaf etdirməklə, yad, pozucu, mənəviyyata dağıdıcı təsir göstərən amillər üçün çəpər çəkməkdir.

Təsadüfi deyildir ki, bu gün milli ideologiyamızın əsas tərkib hissələrindən biri azərbaycançılıqdır. Azərbaycançılıq həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda – mənəvi mədəniyyətin bütün sahələrində əsas istiqamətləndirici məfkurə olmalıdır. Şifahi xalq ədəbiyyatı, el sənəti, milli musiqi, millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir.

Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki təkcə müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir. Və əksinə. Milli-mənəvi varlığımızın qorunub saxlanması da dövlətin ən əsas funksiyalarından biri olmalıdır. Azərbaycançılıq Azərbaycan dövlətinin milli-siyasi məfkurəsinə çevrilməlidir.

Sağlam mədəni-mənəvi mühit formalaşdırmaq və onu qoruyub saxlamaq qloballaşma şəraitində çox çətindir. Bu çətinlik müqabilində təslimçilik isə tam bir anarxiya yaranmasına səbəb olur. Onda məktəb tərbiyəsi də öz təsirini itirmiş olur. Məktəbin funksiyası və ona münasibət dəyişir. Əgər biz məktəbi sadəcə təlim vasitəsi kimi deyil, həm də tərbiyə ocağı kimi qoruyub saxlamaq istəyiriksə, öncə milli mədəni-mənəvi mühiti qorumaq haqqında düşüməliyik. Təhsil özü də bütövlükdə milli ideologiyanın tərkib hissəsinə çevrilməlidir.

Azərbaycan yeni iqtisadi münasibətlərə keçərkən təbii ki, bu sahədə böyük təcrübəsi olan Qərb dünyasından çox şey öyrənməlidir. Həm elm və texnikanın yüksək inki-

şaf səviyyəsinə görə, həm də neçə yüzilliklər ərzində bazar iqtisadiyyatının qərarlaşma dərəcəsinə və sosial yönümünə görə Qərb dünyası, heç şübhəsiz, öncül mövqe tutur.

Lakin müasirlik ancaq texnologiya və iqtisadiyyat göstəriciləri ilə müəyyən edilə bilməz. Müasir insanın formalaşmasında bəşəriyyətin min illərlə ölçülən mənəvi təkamül yolu bəlkə də elmi-texniki tərəqqidən daha çox rol oynamışdır.

Bəziləri Şərq dünyasını təmsil edən ölkələrin, o cümlədən, Azərbaycanın müasir texnikaya əsaslanan iqtisadi yarışda qabaqcıl Qərb ölkələrindən geri qalmasının səbəblərini islam dinində və ənənəvi düşüncə tərzində axtarırlar. Halbuki iqtisadi inkişafın hərəkətverici qüvvəsi din yox, elmdir. Din iqtisadi meyarlarla deyil, ancaq mənəvi meyarlarla dəyərləndirilə bilər. Söhbət hansı dinə qulluq edilməsindən yox, ümumiyyətlə din və elmin münasibətindən getməlidir. Din öz yerində, elm də öz yerində olduqda cəmiyyətin iqtisadi inkişafına heç bir xələl gəlməz.

Şərqdə mənəviyyat daha çox dərəcədə fərdin öz miqyası ilə məhdudlaşdığından, cəmiyyətin mədəni-mənəvi həyatından ayrılaraq özünə qapıldığından, insan daha çox öz dünyasında yaşadığından onun xarici dünya ilə, maddi həyatla əlaqəsi əsasən iki formada həyata keçir:

1. Fərdi mənəviyyat aləminin qapıları ani olaraq açılır və xarici mühitlə intensiv əlaqə yaranır. Bu əlaqə özü müstəqilləşir və insanın xarici təsirə məruz qalmadığı dövrdə, soyuqqanlı düşüncə şəraitində qərarlaşmış fərdi mənəviyyat oyundankənar vəziyyətdə qalır. Fərdi aləm unudulur və insan dünyaya ancaq mühitlə intensiv əlaqənin təsirindən, emosional reaksiyadan doğan konkret bir tapşırıq, hökm, qərarla çıxır. İllər boyu formalaşmış konseptual düşüncə arxa plana keçir, emosiya vulkanının püskürdüyü lavanın altında qalır.





İmpulsiv emosional reaksiyalardan xilas olmağa çalışan, Qərbin soyuqqanlı düşüncəsinə həsəd aparan Şərq adamının istəyini Əbu Turxan belə ifadə edir:

*Hikmət sirdaş olub qala biləydi,*
*Zəngli saat kimi çala biləydi,*
*Gen gündə Gün kimi aydın olanı*
*Məqamda yadıma sala biləydi.*

Şərqdə insanın dünyaya münasibəti əsasən aksioloji xarakter daşıyır, fərdi mənəviyyat prizmasından kənar hadisəyə ancaq qiymət verilir, ona yaxşı və ya pis münasibət bəslənir, sonra isə bu münasibət ya poetik yolla vəsf edilir (mədhiyyə və ya həcv yazılır), ya da daha sistemsiz və daha impulsiv yolla adi şüur səviyyəsində biruzə verilir.

İnformasiyanın xaricdən fərdi mənəvi dünyaya qəbul olunması da əsasən təəssürat formasında, aksioloji xətlə həyata keçir.

2. Fərdi mən prizmasından dünya ancaq ağ və qara rənglərdə görünə bildiyindən çox vaxt təsadüfi amillər nəticəsində ya ağların, ya da qaraların siyahısına düşən hadisələr uyğun olaraq ya təriflənir, ya da pislÿnir. Eyni hadisənin müxtəlif yönümlərdə müxtəlif rəngləri üzə çıxarılmır, məsələyə dialektik baxımdan, sistemli şəkildə yanaşılmır. Təhlil olmadığından bir münasibətdə "yaxşı" kimi qəbul olunan hadisənin pis cəhətləri üzə çıxarılmır və əksinə.

Bəli, Şərq təfəkkürü nöqsanlardan azad deyil. Lakin kim belə hesab edirsə ki, müasir dövrdə xalqımızın tərəqqisinə mane olan Şərq təfəkkür tərzidir – səhv edir. Şərq təfəkkürünün müəyyən çatışmazlıqları varsa, bu onun üs-

tün cəhətlərinə də neqativ planda baxmaq üçün əsas vermir. Digər tərəfdən də, ona qarşı qoyulan Qərb təfəkkür tərzi də özünəməxsus nöqsanlara malikdir. Yağışdan çıxıb yağmura düşmək nailiyyət hesab oluna bilməz. Təcrübə göstərir ki, biz Qərb mədəniyyətinin, Qərb təfəkkür tərzinin məhz nöqsanlı cəhətlərini qəbul etməyə daha çox meylliyik.

Müasirliyə gedən yolun diskoteka və videotekadan, hətta internet klublarında keçdiyini düşünənlər səhv edirlər. Belə qüsurlu mövqeyin yayılması bizim ümumiyyətlə mədəniyyət və müasirlik haqqında təsəvvürlərimizin məhdudluğu ilə əlaqədardır.

Bəziləri Avropa ilə bağlı olan hər şeyi mədəniyyət hesab edir, müasirliyi onunla ayaqlaşmaqda görürlər. Lakin bu zaman nədənsə Avropanın elmi, texnikası, maddi istehsal və xidmət mədəniyyəti yaddan çıxır, Avropanı Avropa edən, onu irəlidə zənn etməyə vadar edən əsl cəhətlər unudulur, Qərbin tərəqqisində həqiqətən böyük rol oynamış olan, onun maddi mədəniyyətini tamamlayan mütərəqqi mənəvi mədəniyyət nümunələri yaddan çıxır və əksinə, Qərbin tənəzzülünə, süqutuna, mənəvi deqradasiyasına aparıb çıxara bilən, onun ilkin tərəqqi dövrünün ənənələrinə əsaslanmayan, yandançıxma (çox vaxt Afrikasayağı) "mədəniyyət" nümunələri, o cümlədən, bayağı rok, varyete, pornoqrafik musiqi lövhələri, gecə klubları, kazino, striptiz və s. "Avropa mədəniyyəti" kimi qəbul edilir.

Məhdud səviyyəli gənclərdə belə bir meyl təbiidir, lakin təəccüblü burasıdır ki, bəzən mətbuat və televiziya da onların "müdafiəsinə" qalxır, məktəblərimizdə diskotekaların azlığından, Amerika və Qərb cazmenlərinin həyat və fəaliyyətini öyrənmək zərurətindən, rok musiqisinin





şəhərimizin kandarında qalmasından böyük qayğı və təlaşla danışılır, darvazaları gen açmaq tövsiyə edilir.

Qərbin tərəqqisinin əsil hərəkətverici qüvvələri, böyük elm korifeyləri, maarifçilər və filosoflar isə heç yada da düşmür. Nyutonların, Volterlərin, Bethovenlərin həyat və yaradıcılığından söhbət açmaq unudulur, onlar mətbuat və televiziyaéà éàõûí buraxılmır. Məgər müasir gəncliyin onlara mənəvi ehtiyacı yoxdurmu? Acınacaqlı haldır ki, gənclərimizin əksəriyyəti Maykl Cekson və Şvartsnegeri Rassel və Bordan daha yaxşı tanıyırlar. Bu, bizim kütləvi informasiya vasitələrinin Avropaya, Qərb mədəniyyətinə birtərəfli münasibətinin nəticəsidir.

Təsadüfi deyildir ki, hələ XX əsrin əvvəllərində – Bakıda kapitalizmin meydana gəldiyi ilk dövrlərdə Qərb sivilizasiyasına, Avropaya seçkili münasibətin zəruriliyini dərk edən H. Cavid yazırdı:

*Yurdumuzu sardıqca*
*Düşkün Paris modası,*
*Hər kəsə örnək oldu*
*Sərsəm firəng ədası.*

Müasir Qərb dünyası daxilən ziddiyyətli olduğundan və rasional düşüncəni mütləqləşdirdiyindən onun birtərəfli tərəqqisi labüd surətdə mənəvi deqradasiyaya gətirir. Lakin Avropa böyük cidd-cəhdlə bu böhrandan xilas olmağa çalışır. Biz isə bəzən onu tərəqqi etdirən amillərdən xəbərsiz halda, onun iflas məqamını Qərb sivilizasiyası ilə qarışıq salır, Qərbin xilas olmaq istədiyi və məmnuniyyətlə bizə ixrac etdiyi bayağı mədəniyyətdən ikiəlli yapışaraq "müasir" olmağa çalışırıq. İstisinə isinmədiyimiz bir şeyin tüstüsünü bəh-bəhlə qəbul edirik.

Şərq təfəkkür tərzini atıb Qərb təfəkkür tərzindən

yapışmaq (yeri gəlmişkən, təfəkkür tərzi uzun müddətə formalaşır və onun dəyişilməsi də çox mürəkkəb və uzun prosesdir) nə deməkdir? Əsas məqsəd hər hansı təfəkkür tərzinin zəif cəhətlərindən, birtərəfliyindən azad olmaq deyilmi?

Məsələ burasındadır ki, müasir dövrdə Şərq və Qərbin qarşılaşdırılması, onların fikir tərzində olan özünəməxsusluğun mütləqləşdirilməsi və yalnız bu və ya digər tərəfə üstünlük verilməsi heç bir müsbət nəticəyə gətirə bilməz. Müasir təfəkkür hətta müxtəlif sivilizasiyaların bir-birindən köklü surətdə fərqli olan düşüncə tərzlərini "barışdırmağı", onların mütərəqqi cəhətlərini birləşdirməyi nəzərdə tutur. Son zamanlar hamını heyrətləndirən "Yaponiya müəmmasının" açarını da məhz Şərq və Qərb təfəkkür tərzlərinin uğurlu vəhdətində, başqa sözlə, Şərqə məxsus yüksək mənəvi potensialın Qərbə məxsus rasional düşüncə mədəniyyəti ilə birləşdirilməsində axtarmaq lazımdır.

Şərq və Qərb mədəniyyətlərinin və müvafiq təfəkkür tərzlərinin üstün cəhətlərinin aşkar edilməsi həm tarixi, həm də məntiqi planda xüsusi tədqiqat tələb edir. Müasir cəmiyyətşünaslığın vəzifələrindən biri də xalqımızın milli mədəniyyətini və təfəkkür tərzini Şərq və Qərb mədəniyyətləri kontekstində araşdırmaqdan və onun inkişaf perspektivlərini müəyyənləşdirməkdən ibarətdir. Ciddi elmi tədqiqata əsaslanmayan qənaətlər, empirik müşahidədən çıxarılan nəticələr isə çox vaxt qüsurlu olur.

Məsələn, bəziləri belə hesab edirlər ki, düşüncəmizin ətalətliliyi, məsuliyyətsizlik, biganəlik, "əşi, nə olsun ki..." münasibəti, utancaqlıq və s. Şərq təfəkkürünün tərkib hissəsidir. Əlbəttə, məsuliyyətsizlik, biganəlik pis keyfiyyətdir. Lakin o yalnız Şərqin ənənəvi mənəviyyat tərzi kimi izah oluna bilməz, çünki daha çox dərəcədə sosial





mühitlə, sahibkarlıq hissinin olmaması ilə bağlıdır. Bu isə sosializmdən miras qalmış bir keyfiyyətdir.

Utancaqlıq və ətalətli düşüncə kimi keyfiyyətləri isə ancaq qara rənglə çəkmək düzgün olmazdı. Utancaqlıq nədəsə bizə mane olur deyə, əsrlər boyu formalaşmış bu yüksək mənəvi keyfiyyətdən azadmı olmağa çalışmalıyıq? Əgər ali hisslər intellekti üstələyirsə, birincidən azad olmaq əvəzinə, ikincini inkişaf etdirmək barədə düşünməli deyilikmi? Elə yüksək intellektual səviyyəyə, praktik fəaliyyət və təfəkkür mədəniyyətinə yüksəlmək mümkün deyilmi ki, öz sözünü demək və haqqını müdafiə etmək işində abır, utancaqlıq, təvazökarlıq hüdudu daha mane ola bilməsin?

Hər hansı çəpəri, bəndi keçməyin üç yolu var: bəndin altından sürünüb keçmək, bəndi dağıdıb keçmək və nəhayət, bəndin üstündən keçmək. Birinci yol – alçalmaq, axırıncı – yüksəlmək tələb edir. Bəndin dağıdılması isə min illər ərzində yaradılmış bir abidənin, mənəvi meyarın aradan götürülməsidir ki, bu zaman ölçü itir, yüksəkliklə alçaqlıq eyniləşir.

Vaxtilə, burjua inqlabı aristokratiyanın böyük səylə əməl etdiyi adət-ənənələri, əxlaq və davranış qaydalarını alt-üst etməklə intellektin əxlaqi meyar üzərində birtərəfli qələbəsini təmin etdi. Rasional düşüncə və işküzarlıq təşəbbüslərinin qarşısını ala biləcək heç bir mənəvi məhdudiyyət saxlanmadı. Bir sahədəki ifratçılığın yerini başqa sahədəki ifratçılıq əvəz etdi. Əvvəl bir istiqamətdə pozulan müvazinət sonra başqa istiqamətdə pozulmuş oldu. Qərb intibahı şərqçilikdən qərbçiliyə keçid prosesində müvəqqəti müvazinət mərhələsi oldu. Lakin bu mərhələdə qərar tutmaq Avropaya müyəssər olmadı. Kəfkir ətaləti ilə o biri qütbə hərəkət etdi.

Mənəvi qadağanlar rasional fikir süzgəcindən keçirilərək hüquq qaydaları ilə məhdudlaşdırıldı. İntellekt isə yüyənsiz at kimi baş alıb elə uzaqlara getdi ki, insan tezliklə öz əməllərinin peşimançılığını çəkməyə başladı. Bioloji və sosial ekologiyaya mənəvi ekologiya problemləri də əlavə olundu.

Müvazinət pozulanda, insanın mənəvi həyatı daxili çarpışma və ziddiyyətlərdən məhrum olanda o, inkişaf impulsunu itirir, durğunluq vəziyyətinə düşür. Əksinə, mənəvi qadağanlarla rasional düşüncə və fəaliyyət, ətalət qüvvəsi ilə hərəkətverici qüvvə bir-birinə tən gələndə insanın birtərəfli inkişafına, mənəvi deformasiyasına yol verilmir.

İnsan təbii ki, həmişə yeniliyə can atır. Lakin hər bir yeniliyə qarşı daxili müqavimət hissi də olmalıdır. Bu hiss həddindən artıq olanda durğunluq, zəif olanda – özbaşınalıq, anarxiya yaranır.

Şərq təfəkküründə ənənəçilik çox güclüdür. O hər cür yenilikçi fəaliyyət qarşısında böyük sədlər çəkir. Şərqə məxsus ətalət də buradan yaranır. Lakin bu ətalətə qeyd-şərtsiz pis hadisə kimi, geriliyimizin səbəbi kimi qiymət vermək dayazlıqdır, metafizik yaxınlaşmadır. Ətalət həm də vəznin ağırlığı deməkdir ("ağır otur, batman gəl"). Əlbəttə, fizikadan məlum olan "ətalət – kütlə ölçüsüdür" fikrini kor-koranə surətdə sosial-mənəvi həyata aid etmək düzgün olmazdı. Lakin buradakı açıq-aşkar uyğunluğu da inkar etmək mümkün deyil. Şərqdə fikir sahəsində, mənəvi sferada dəyişkənlik, mütəhərriklik "yüngüllük" kimi – mənfi mənada; sabitlik, ətalətlilik isə "ağırlıq" kimi – müsbət mənada qiymətləndirilir.

Bu, doğrudur ki, insanı insan edən məhz mənəvi qadağanlar, əxlaqi sədlərdir, nəfsi buxovlayan ətalət qüvvəsidir. Lakin bu sədlər özü də hər bir inkişaf mərhələsində





ağıl süzgəcindən keçməli, bir növ filtr – təmizləyici rolunu oynamalıdır.

Şərqi geri qoyan ətalət qüvvəsinin böyüklüyü yox, hərəkətverici qüvvənin kiçikliyidir; mənəvi sədlərin yüksəkliyi yox, intellektual cəhdlərin zəifliyidir.

Qərb dünyası intellektual yüksəliş yürüşündə mənəvi sədləri dağıtdı. Yaponiya intellekti mənəvi sədlə həmahəng surətdə inkişaf etdirərək onun üzərindən keçməyə müvəffəq oldu. Biz isə elmi tərəqqi və intellektual inkişafın qayğısına qalmadığımızdan və yeganə böyük sərvətimiz olan mənəvi səddin üstündən keçə bilmədiyimizdən onun altından keçməyə çalışırıq.

Lakin görəsən bünövrəsi artıq oyulmaqda olan bu nəhəng səddin tarixin sınağına davam gətirəcəyinə ümid etmək olarmı?

Bizcə, neçə-neçə nəsillərdən bizə miras qalmış mənəvi sərvətlərin, adət-ənənələrin, diniəxlaqi dəyərlərin intellektual inqilabın tufanlarından, dağıdıcı təsirlərindən qorunub saxlanması, "milli-mənəvi dəyərlərin ümumbəşəri dəyərlərlə birləşdirilməsi" üçüncü minilliyin astanasında Şərq xalqları qarşısında duran ən böyük tarixi vəzifədir.

* * *

İnsanın mənəvi ehtiyacları onun boya-başa çatdığı milli-mədəni mühitin spesifikası ilə müəyyən olunur. Ona görə də hər bir xalqın sosial-mənəvi mənşəyini, mədəniyyət tarixini öyrənmədən yeni nəslin nə kimi hisslərlə yaşadığını, onun mədəni tələbat meyllərini və estetik zövq oriyentasiyasını müəyyən etmək çox çətindir. Lakin təəssüf ki, əvvəlcə proletkultçuluğun təsiri ilə, sonra isə repressiya və yetkin sosializm illərində bizi öz mənəvi köklərimizlə bağlayan tellər zəifləmiş, milli mədəniyyət tarixinə maraq azalmışdı. Sosialist gerçəkliyinin milli özünüdərk və mə-

dəni tərəqqi üçün yaratdığı şəraitdən tam şəkildə istifadə etmək imkanına biz yalnız müstəqilləşmə mərhələsində nail olmuşuq. Bu imkanı reallaşdırmaq isə hər xalqın özündən asılıdır.

Xüsusən Azərbaycan mədəniyyətinin müxtəlif tarixi dövrlərə bölünən zəngin və çoxsahəli keçmişinin öyrənilməsi ciddi çətinliklərlə bağlıdır və bu sahədə yalnız elm və sənət adamlarının birgə səyi nəticəsində nailiyyət əldə etmək mümkündür.

Azərbaycan mədəniyyəti müxtəlif dövrlərdə müxtəlif sivilizasiyaların nailiyyətlərindən bəhrələnmiş və eyni zamanda onların bəzilərinin beşiyi başında dayanmış elə mürəkkəb və zəngin bir fenomendir ki, onu bəsit, standart təfəkkürlə dərk etmək, mənimsəmək mümkün deyil.

Tarixi keçmişə etinasız və bəsit münasibətin nəticəsidir ki, müasir Azərbaycan bədii təfəkkürünün qaynaqlarını təşkil edən və özünəməxsus ənənələrə malik olan milli əfsanə və əsatirlər, şifahi xalq yaradıcılığının istər xarici təsirlər üzündən yarı yolda qalan, istərsə bu gün də yaşamaqda davam edən müxtəlif qolları, əsrlər boyu xalqımızın mədəni-mənəvi sərvətlərinin daşıyıcısı, qoruyucusu və ötürücüsü rolunu oynamış əvəzsiz ozan sənəti, Zərdüştilik fəlsəfəsindən miras qalmış düşüncə tərzi və adət-ənənələr, Alban dövləti dövründə xristianlığın təsiri ilə formalaşmış sənət nümunələri və xüsusən yeni dövrə gəlib çatmış olan arxitektura abidələri və sənət yüklü arxeoloji tapıntılar, atəşpərəstliyin, xristianlığın və əcdadlarımızın etiqad bəslədiyi digər dinlərin öz yerini tədricən islama verdiyi keçid mərhələsində incəsənətdə baş verən təbəddülatlar və islamın təsiri ilə yeni keyfiyyət halına qədəm qoyan orta əsr sintetik Azərbaycan mədəniyyəti – bütün bunlar uzun müddət xüsusi tədqiqat obyektinə çevrilməmiş, müasir





milli mədəniyyətimizin strukturunda hələ də nəzərə çarpacaq yer tutan qədim ünsürlərin mənşəyi və təkamül yolu layiqincə araşdırılmamışdır. Çarizm və daha sonra sovet dövründə heç bir əsas olmadan adət və ənənələrimizin, milli sənətimizin spesifik xüsusiyyətlərinin ancaq islamla bağlanması və islama bəslənilən qeyd-şərtsiz mənfi münasibətin az qala bütün mədəni keçmişimizə şamil edilməsi müasir milli mədəniyyətimizi öz tarixi kökləri ilə əlaqəni itirmək təhlükəsi qarşısında qoymuşdur.

İndi bizim qarşımızda bir tərəfdən milli köklərə, milli-mənəvi dəyərlərə qayıdış, digər tərəfdən də elmi-texniki inkişaf və informasiya cəmiyyətinin qoyduğu çağdaş tələblərə uyğunlaşmaq vəzifəsi durur. Hər bir şəxsin fərdi-mənəvi aləmində gedən proseslər də bütövlükdə millətin mənəvi həyatı ilə bağlı problemləri xatırladır. Karl Qustav Yunqun yazdığı kimi, «ayrıca insanın psixologiyası bütövlükdə millətin psixologiyasına uyğun gəlir».[1] Daha sonra K.Yunq fərdlə toplum arasındakı münasibətdən çıxış edərək ictimai inkişafın mümkünlük şərtlərini də ayrı-ayrı insanların «norma»dan kənara çıxa bilməsi ilə müəyyənləşdirir.

K.Yunq yazır: «O işi ki, millət görür, o işi hər bir insan da görür; və bir insan bu işi görürsə, deməli bütövlükdə millət də görür».[2] Bu bir növ fərdlə millət arasında tarazlıq vəziyyətidir. Bu tarazlıq ancaq bir halda pozula bilər; ayrı-ayrı adamlar milli-mənəvi meyarlar sisteminə uyğun gəlməyən hərəkətlər etdikdə. Lakin bu uyğunsuzluq, bu kənaraçıxma iki istiqamətdə ola bilər. Kimsə millətin səviyyəsinə qalxa bilmir, yaxud kimsə orta milli səviyyə-

---

[1] *К.Г.Юнг.* Собрание сочинений. Психология бессознательного. М., Канон, 1994, стр. 28.

[2] Yenə orada.

dən yüksəyə qalxmaq və öz soydaşlarından indiyədək heç kimin görə bilmədiyi işlər görməklə milli inkişafa yeni impuls verir.

Burada biz ideologiya ilə tərbiyə arasında münasibətlə qarşılaşırıq. Tərbiyə fərdlərə yönəlmiş olur və hər bir fərdin mövcud mədəni-mənəvi dəyərlərə yiyələnməsinə çalışır. İdeologiya isə millət səviyyəsində olur və bütövlükdə ictimai inkişafın təmin olunması naminə bu dəyərlər sisteminin özünü nəzəri şəkildə formalaşdırır. Deməli, hər bir ölkədə tərbiyə prosesi milli ideologiya zəminində həyata keçirilməlidir. Bu baxımdan, pedaqoji proses və pedaqoji nəzəriyyə də tam müstəqil olmayıb, milli-fəlsəfi fikrin və ideologiyanın tələblərinə uyğun surətdə hər bir inkişaf mərhələsində yenidən qurulmalıdır.

*"Anfas" jurnalı, 2009, № 1(6).*





## Terror haqqında düşüncələr

XXI əsrin əvvəllərində geniş vüsət tapmış qloballaşma şəraitində bəşəriyyətin tərəqqisinə xidmət edən hadisələrlə yanaşı, ümumi məqsəddən, böyük amaldan kənara çıxan arzuolunmaz hadisələr də baş verir ki, bunların vahid kontekstdə öyrənilməsinə böyük ehtiyac vardır.

*11 sentyabr 2001-ci il.*

Bəşər tarixinə qara hərflərlə yazılan, lakin sadəcə bir faciə kimi yox, həm də beynəlxalq miqyaslı ictimai təbəddülat kimi təzahür edən yeni keyfiyyətli bir hadisə... Ağrılı-acılı, həm də düşündürən bir hadisə. Bəşəriyyətin özünüdərk yolunda, zamanın ahəngdar axınında bir fasilə, bir kəsilmə məqamı.

Çox az-az hallarda, nadir hadisələrin təsiri ilə tarix ənənəvi inkişaf yolundan çıxaraq yeni səmtdə cərəyan edir. 11 sentyabr da belə məqamlardan biri ola bilər. Olmaya da bilər. Bunu hadisələrin sonrakı gedişatı göstərəcəkdir. Lakin istənilən halda bu hadisə ümumbəşəri inkişaf prosesindən, ictimai tərəqqinin normal gedişatından kənaraçıxma idi, zamanın məntiqinə sığmırdı...

Bu terror aktı nəinki təkcə ABŞ, həm də bütövlükdə bəşəriyyətə böyük zərbə oldu. Bəşəriyyət sarsıldı. Şüurlar donub qaldı. Baş verən hadisə insanların nəinki normal düşüncəsinə, heç fantaziyasına da sığmadı. Bəşəriyyət bu

hadisəni həzm edə bilmədi. Nə emosional müstəvidə, nə də təfəkkür müstəvisində. Hətta ən kənar qütbləri də bir araya gətirən, əksiklikləri vəhdətdə götürən Hegelin dialektik məntiqi də bu hadisəni qavramaqda aciz idi. Ona görə də ümumbəşəri idrak yol ayrıcında dayanıb baş verənlər üçün yeni qəlib, yeni şablon, yeni paradiqma axtarır. Ancaq hələ ki, belə bir paradiqma tapılmayıb. Düzdür, hadisələr davam edir. Lakin hadisələr, təəssüf ki, yenə də köhnə təfəkkür standartları və ənənəvi ideoloji yönüm istiqamətində davam edir.

Bəsit düşüncə, kütləvi şüur problemin güc mövqeyindən, getdikcə daha müasir silahların işə düşməsi hesabına həll oluna biləcəyinə inansa da, analitik təhlil bunu şübhə altına alır, yeni baxışın və yeni həll üsullarının labüd olduğunu göstərir.

İndi Amerika və bütün dünya seçim qarşısındadır. Ya ictimai rəyə və kütləvi şüura uyğun olaraq emosiya səviyyəsində qərarlar qəbul etmək, «qisas» mövqeyindən çıxış etmək, ya da dünyada terrora rəvac verən əsl səbəbləri aşkar etmək, onun ideoloji, siyasi və iqtisadi köklərini üzə çıxarmaqla daha geniş miqyaslı fəaliyyət strategiyası seçmək.

Hadisələr göstərir ki, ABŞ bu yollardan hər ikisini seçmişdir. Həm yaxın müddətli proqramın icrası olaraq terrorçu qruplaşmaların və təşkilatların güc tətbiqi ilə ləğvinə nail olmaq təşəbbüsü göstərilir, həm də uzun müddətli proqram olaraq terrorun bir spesifik ictimai hadisə kimi ideoloji, hərbi sursat və maliyyə qaynaqlarını müəyyənləşdirmək istiqamətində axtarışlar aparılır. Lakin birincidə ifrata varmaq ikincinin uğurla həyata keçirilməsinə mane ola bilər.

ABŞ alimi Angelo Korlet yazır: «Bir sıra ölkələrin





siyasətçiləri öz ölkələrinə və müttəfiqlərinə qarşı olan siyasi zorakılıqları terrorizm kimi pislədikləri halda, öz dövlətlərinin həqiqi terroru himayə etdiklərini qəbul etməyi bacarmırlar»[1]. Başqa sözlə, terrora münasibətdə ikili standartların aradan götürülməsi zərurəti Amerikanın özündə də elmi ictimaiyyət tərəfindən mühüm şərt kimi irəli sürülür.

* * *

Güc tətbiq edilməsi səbəbi yox, hansı isə nəticələri aradan qaldıra bilər. Əsas məsələ isə əvvəllər ideoloji müstəvidə buraxılmış səhvlərin aradan qaldırılması olmalıdır. Bu səhvlərdən biri dini qarşıdurmalara şərait yaradılması, KİV-də buna geniş yer verilməsi, bu və ya digər ölkədən çıxmış ekstremist qruplaşmaların fəaliyyətinin onların mənsub olduğu dinlə əlaqələndirilməsidir. «İslam fundamentalizmi» ideyasının həddindən artıq qabardılması və bəzi terrorçu dəstələrin qəsdən dini ehkamlara istinad etmək cəhdlərini təkzib etmək əvəzinə, bunu qeyd-şərtsiz qəbul etməkdir. Nəticədə ictimai şüurda hansısa terrorçu təşkilatların fəaliyyətini dinlə əlaqələndirmək meylləri formalaşır ki, bu da qətiyyən yolverilməzdir. Çünki bütün dinlər kimi, islam da hər cür zorakılığın, günahsız qurbanların, insan həyatına qəsd etməyin qəti əleyhinədir. Bu məsələdə islamın təməl prinsiplərındən terrora qarşı mübarizə üçün istifadə etmək daha məqsədəuyğun olardı.

Təsadüfi deyildir ki, 11 sentyabr terroru dünya ictimaiyyətinə ayrı-ayrı adamların, yüzlərlə-minlərlə insanın şəxsi faciəsi şəklində təqdim edilmədi. Əgər biz televiziya kanallarının terrorla bağlı göstərdiyi süjetlərə diqqət yetirsək, görərdik ki, şəxsi faciələrdən, insanların müsibətin-

[1] *C.Angelo Corlett.* Terrorism. A Philosophical Analysis. Kluwer Academic Publishers. 2003. p. 48.

dən, göz yaşından, hönkürtüdən söhbət getmir. Biz ekranlarda qan görmədik, meyitlər, cənazələr, kəsilmiş, parçalanmış bədən üzvləri görmədik. Biz həlak olanların yaxın qohum-qardaşının ah-şüvənini görmədik.

Bütün televiziya kanalları eyni bir süjeti göstərdi. Biz ekranlarda bir növ hərbi güc-qüdrətin simvolu olan Pentaqonun və sivilizasiyanın simvolu olan «qoşa göydələnlər»in necə zərbələrə məruz qaldığını və necə çökdüyünü gördük. Bu, əlbəttə, təsadüfi deyildi. Bunun özündə bir rəmz vardır. Faciənin miqyası və əsl obyekti bu halda daha aydın görünür.

Əlbəttə, jurnalistlər yüzlərcə ürək ağrıdan fərdi faciə səhnələri göstərə bilərdilər. Lakin onlar bunu etmədilər. Təkcə ona görə yox ki, öz dövlətlərinin qürurunu qorumağa çalışdılar (Əgər belədirsə, bizim jurnalistlər dövlətçilik hisslərini, milli qürur hissini də amerikanlardan öyrənsələr yaxşıdır). Həm də ona görə ki, bu, baş vermiş hadisənin mahiyyətini açmazdı. Terrorun məhz bütövlükdə sivilizasiyaya qarşı çevrildiyini göstərilən süjetdən daha yaxşı təqdim etmək mümkün deyildi. Zira «göydələnlər» həqiqətən sivilizasiyanın, insan qüdrətinin, elmi-texniki tərəqqinin təcəssümü idi.

Paradoksal hal odur ki, ümumbəşəri tərəqqiyə, sivilizasiyaya qarşı yönəldilmiş terror aktı özü bu sivilizasiyanın məhsuludur. Elmi-texniki inkişaf, ən müasir silah növlərinin kəşfi özündə potensial olaraq mənfi faktorları da saxlayır. Təsadüfi deyildi ki, atom fizikasının yaradıcıları A.Eynşteyn, N.Bor, Oppenqeymer, Frederik J.Küri və başqaları atom silahının işlədilməsi əleyhinə, silah istehsalı əleyhinə ən kəskin çıxış edən adamlar idi. Bəli, elmi-texniki tərəqqi sülhə xidmət etdiyi kimi, müharibəyə də xidmət edə bilər.





İkinci Dünya Müharibəsindən sonra bəşəriyyətin bütün mütərəqqi qüvvələri yaranmış yeni təhlükələri görərək ona qarşı mübarizə aparmağın yeni formalarını axtardılar. Bununla bağlı beynəlxalq hüquq normaları yaradıldı. Və dünyanın bütün ölkələrinin bu normalara riayət etməsi uğrunda mübarizə başlandı. Birləşmiş Millətlər Təşkilatı, Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı və s. Beynəlxalq qurumlar yaradıldı. Bir sözlə, yeni dünya müharibəsinə qarşı bütün qüvvələr səfərbər edildi.

Lakin bəşəriyyət müharibəyə qarşı mübarizə formaları axtardığı bir vaxtda yeni bir təhlükə mənbəyi ortaya çıxdı. İndi müasir silahların təkcə dövlətlər tərəfindən deyil, həm də ayrı-ayrı şəxslər və qruplaşmalar tərəfindən ələ keçirilərək istifadə olunması ən böyük təhlükəyə çevrilmişdir. Bu – ən müasir texnika ilə təchiz olunmuş beynəlxalq terrordur. Dövlətlərə nəzarət etmək, sivil qaydalarla beynəlxalq münasibətlər sistemini təkmilləşdirmək terrora qarşı mübarizə aparmaqdan, görünür, daha asan imiş. Onun ən spesifik və ən mənfi cəhəti bəşəriyyətin neçə əsrlər ərzində əldə etmiş olduğu sivil normalara, beynəlxalq hüququn tələblərinə, mənəvi və dini prinsiplərə məhəl qoymamasıdır. Lakin bununla yanaşı, terrora münasibətdə də ikili standartdan çıxış etmək, onu bu və ya digər dini təlimlərlə əlaqələndirmək yolverilməz haldır.

Əsl günahkar silahdır, silah alveri ilə varlanmaq cəhdləridir. Əsl günahkar sivilizasiyanın öz daxilindəki naqis məqamlardır; onu kamilləşdirmək lazımdır.

Bəli, bu gün terrorizmin arxasında dayanan həqiqi böyük qüvvə varsa, o da silah alveri ilə məşğul olan mafiyalardır. Böyük dövlətlərin öz silah artıqlarını geri qalmış dövlətlərə və ilk növbədə müsəlman ölkələrinə satmaq siyasəti də terrorizm üçün bu ölkələrdə zəmin hazırlayır.

Sonra isə diqqəti əsl səbəbdən yayındırmaq üçün «islam faktoru» ideyası ortaya atılır. Və bu istiqamətdə məqsədyönlü iş gedir. Bu yönümdə yaranmış konsepsiyaları real həyati faktlarla təsdiq etmək üçün qəsdən münbit şərait yaranması da istisna olunmur. Silah istehsal edən böyük dövlətlər daxilindəki müəyyən qüvvələr dövlətin ideoloji kursuna da təsir göstərməyə çalışırlar. Görünür, sivilizasiya anlayışının xristian və islam sivilizasiyalarına ayrılması və bunların labüd surətdə toqquşması ideyası da təsadüfən yaranmamışdır.

Bizcə, keçən əsrdə formalaşdırılmış olan belə tendensiyalı konsepsiyalara, artıq xeyli dərəcədə kök atmış qüsurlu ideoloji əsaslara yenidən baxmaq, dünya miqyasında və ayrı-ayrı regionlarda güclə hikmət, hərbi və mənəvi-intellektual inkişaf səviyyələri arasındakı balansın pozulması təhlükəsini nəzərə almaq lazımdır.

Bəşəriyyətin nicatı qəzəbdə, gücdə, silahda deyil. Bəşəriyyətin nicatı cəzada deyil. Hətta cinayətkara qarşı yönəlsə belə! Axı, xristianlığın bu hikmətini Qərb dünyası çoxdan mənimsəmiş olmalıdır.

Dünyanı nifrət yox, məhəbbət xilas edəcəkdir.

* * *

Əlbəttə, «yüksək materiya»dan çıxış etsək, «qanı qanla yumazlar», «bir zorakılıq başqa zorakılıqla aradan qaldırıla bilməz» fəlsəfəsini ön plana çəksək ABŞ-ın Əfqanıstandakı qisas aksiyasını qınamaq da olardı. Xüsusən belə geniş miqyasda həyata keçirilən aksiyanı.

Qisas aktının daha konkret ünvana yönəldilməsi, məhz Bin Laden və onun terrorçu qrupunun, digər terrorçu təşkilatların cəzalandırılması mövqeyi, əlbəttə, daha düzgün görünür. Lakin Bin Ladeni dəstəkləyənlər vaxtında düzgün nəticə çıxara bilmədilərsə və rasional mövqe nümayiş etdirə bilmədilərsə – burada məsuliyyət təkcə ABŞ-ın yox, həm də və daha çox dərəcədə Taliban liderlərinin üzərinə düşür.

Bəs onların belə qeyri-rasional mövqe tutması, öz milli maraqlarına biganəlik göstərməsi nə ilə bağlı idi?

Bu qədər böyük itkilər vermiş, bu qədər böyük təxribata məruz qalmış Amerika dövlətindən daha çox təmkin və alicənablıq gözləməkdənsə, vaxtında situasiyanı düzgün qiymətləndirərək bir nəfər terrorçunu təhvil vermək daha düzgün olmazdımı? Belə tərsliyin, belə açıq-aşkar özünəqəsdin səbəbini nədə axtarmaq lazımdır? Şərq düşüncəsindəmi? «Qeyrət», «kişilik» haqqındakı təsəvvürlərdəmi? «Qonağı satmamaq», «dostluqda axıra qədər sadiq olmaq», «sənə sığınanı başqasına təslim etməmək» kimi fərdi əxlaqi mülahizələrlə düşünən adamlar dövlətə başçılıq etməyə nə dərəcədə layiqdirlər? Axı, fərdi əxlaq dövlətçilik təfəkkürü ilə, fərdi münasibətlər dövlət siyasəti ilə qarışıq salınmamalıdır. Dövlət başçısı öz xalqının və dövlətinin taleyini bir terrorçunun mənafeyinə necə qurban verə bilər?

İstər-istəməz sual ortaya çıxır: əgər yüksək əxlaqi keyfiyyətlərdən söhbət gedirsə, həqiqi dostluqdan və «qəhrəmanlıqdan» söhbət gedirsə Bin Ladenin özü talibanların xətrinə, əfqan xalqının xətrinə niyə özünü təslim etmədi? Niyə «qəhrəmanlıq» göstərmədi? Başqalarının şəhidliyi ilə terror törədən adamın öz şəhidliyinə mənəvi gücü çatmadısa, əfqan liderləri nəyə görə xalqın, dövlətin taleyi ilə risqə gedib onu qorumaq mövqeyini seçdilər?

Bax, burada təkcə rəhbərlərin avamlığı və fanatizmi üzə çıxmır, həm də əhalinin fanatizmi əsas rol oynayır. Lakin kütləni bağışlamaq olar, lideri yox.

Bəli, bu bir faktdır ki, Şərqdə, Şərq təfəkküründə

«şəxsi qəhrəmanlıq», «qeyrət», «kişilik» təsəvvürləri üstün yer tutur və bunun naminə ölümə getmək şərəf hesab olunur.

Lakin məsələyə rasional idrak mövqeyindən yanaşılarsa başqa suallar ortaya çıxır.

Birini qorumaq naminə başqalarını, yüzlərlə, minlərlə günahsız adamı ölümə vermək və ya həyatını təhlükə altına almaq nə dərəcədə məqbul addımdır və «şərəf», «qeyrət» anlayışlarına nə dərəcədə uyğun gəlir? Elə islam dininin prinsiplərinə, şəriətə nə dərəcədə uyğun gəlir?

XXI əsr üçün nə qədər təəccüblü görünsə də, Qərb təfəkkürü üçün nə qədər ağlasığmaz olsa da, məhz dövlətçilik şüurunun çatışmaması, məhz sosial-siyasi idrakın yoxluğu bəzi Şərq ölkələrində bu cür addımlar atılmasına gətirir. Məgər Səddam Hüseynə və onun rejiminə münasibət də İraq xalqına fəlakətlər gətirmədimi?

Bəzi məsuliyyətsiz liderlərin iddialı çıxışlarının xalq üçün necə faciəli nəticələrə gətirməsindən danışarkən yadıma 1990-cı ilin yanvar ayı düşdü. 20 Yanvar qırğını ərəfəsində Azərbaycanda da bəzi məsuliyyətsiz «liderlər», o vaxt Xalq Cəbhəsinin radikal qanadını təmsil edən adamlar əliyalın əhalini tankların qabağına verməyi bir qəhrəmanlıq hesab edirdilər. Əlbəttə, özləri tankın qabağına getmədilər. Lakin əvvəlcə «bizdə silah var», «bu hakimiyyəti silahlı yolla, güclə devirəcəyik», «hamıya silah paylanacaq», «xarici dövlətlərdən hərbi dəstək gələcək» və s. bu kimi həqiqətdən uzaq və məsuliyyətsiz bəyanatlarla Moskvanı təcavüzə təhrik edən, daha doğrusu, onun əlinə bəhanə verənlər törədilən qırğının «əsaslandırılması» işində Kremlin dəyirmanına su tökmüş oldular.

Belə adamların təsəvvüründə başqalarının həyatı, əhalinin təhlükəsizliyi heç bir qiymət daşımır. Bu gün





Qərb sivilizasiyasının, Qərb dövlətçilik təfəkkürünün, demokratiyanın, «insan hüquqlarının qorunması» ideyalarının ən əhəmiyyətli cəhətlərindən biri də hər bir insanın həyatına hörmət və məsuliyyətlə yanaşmaqdır. «Ölüm hökmü» ilə əlaqədar düşüncələrin əsasında da məhz belə humanist bir mövqe durur: «Başqasının həyatına, yaşamaq hüququna qarşı hökm çıxarmaq olmaz». Əlbəttə, günahı təsdiq olunan bir adam haqqında belə mövqe mübahisəlidir. Minlərlə adamın ölümünə səbəb olmuş Abdullah Öcalan və Hüsamə Bin Ladenin həyatı uğrunda mübarizə özü absurddur. Zira terrorçuların əhvi neçə-neçə günahsız insanların qətlinə potensial imkan yaratmaqdır və ya artıq qətlə yetirilmişlərin ruhuna hörmətsizlikdir.

Lakin belə adamları qorumaq naminə dəridən-qabıqdan çıxanlar və onların «həyatı naminə» minlərlə insanın həyatı, hətta bütövlükdə öz xalqlarının, dövlətlərinin taleyi ilə risq edənlər hansı məntiqə əsaslanırlar?

Biz Bin Ladenə münasibətdə Taliban liderlərinin öz xalqlarının mənafeyini bəsit kişilik təsəvvürlərinə qurban verdiklərini qətiyyətlə pisləsək də, hər halda onların məntiqini anladıq.

Bəs Öcalanı uzun müddət gizlədən, mühafizə edən, tutulduqdan sonra da hər vasitə ilə müdafiə etməyə çalışan Avropadakı müəyyən dairələrin məntiqini necə başa düşək?

Burada artıq rasional düşüncənin məhdudluğundan, emosiyaya qapılmaqdan, dövlətçilik təfəkkürünün çatışmazlığından danışmaq mümkün deyil. Çünki Qərb rasional düşüncənin bolluğu ilə səciyyələnir.

İkili standart göz qabağındadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu ikili mövqeyə kəskin münasibət bildirərək demişdir: «Haqq anı gəlib çatmışdır.

Bəzi ölkələr üçün eyni zamanda ikili mövqe tutub həm terrorizm qurbanları, həm də terrorun təşkilatçıları ilə yaxşı əlaqələri qorumağa çalışmaq və bunu tarazlı siyasət adlandırmaq imkanı yoxdur. Bu halda belə siyasət tarazlı adlandırıla bilməz, belə siyasət kəskin tənqidə layiq siyasətdir. Terrorizmi birbaşa və ya dolayısı ilə dəstəkləyən hər bir ölkə və ya təşkilat beynəlxalq birlik tərəfindən məsuliyyətə cəlb olunmalıdır».[1]

* * *

Taliban hakimiyyətinin rasional dövlətçilik təfəkküründən məhrum olmasını islam faktoru ilə əlaqələndirmək haqsızlıq olardı. Bu hadisə ilə bağlı Azərbaycan, Türkiyə, Pakistan, Özbəkistan və sair müsəlman dövlətlərinin tutduqları rasional mövqe bir daha göstərdi ki, terrora münasibətin dinlə heç bir əlaqəsi yoxdur. Əksinə, terrordan ən çox ziyan çəkənlər də məhz müsəlman ölkələridir. Burada ilk növbədə Azərbaycanın və Türkiyənin neçə illər ərzində mütəşəkkil terrora məruz qaldığını yada salmaq lazımdır. Təəssüf ki, bu məsələdə nə ABŞ nə də Avropa ölkələri Azərbaycan və Türkiyəni kifayət dərəcədə dəstəkləmədilər. Təəssüf ki, Türkiyə və Azərbaycana qarşı açıq terror əməliyyatları aparan bir sıra terror təşkilatları Ermənistan dövləti tərəfindən açıq-aşkar dəstəkləndiyi halda ABŞ Konqressinin Ermənistana maliyyə yardımı etməsi, Azərbaycanın isə yardımdan məhrum edilməsi bu gün də davam etməkdədir. Digər tərəfdən, ərazimizi işğal etməklə kifayətlənməyən ermənilərin «Sadval» terrorçu təşkilatının əli ilə Bakıda dalbadal terror aktları törətməsi də, təəssüf ki, böyük dövlətlərin diqqətindən kənarda qalırdı. Heydər

[1] İlham Əliyev. AŞPA-da çıxış. Strasburq, 25 sentyabr, 2001-ci il. // Sivilizasiya və terror. Bakı, 2002, səh. 17.





Əliyevin dediyi kimi, «kiçik bir regionda terrorçuların bu cəhdləri dünya ictimaiyyətini çox da narahat etmirdi. Lakin terrorizmin getdikcə daha çox cəzasız qaldığı və beynəlxalq terrorizmin Nyu-Yorkda və Vaşinqtonda Amerika Birləşmiş Ştatlarına qarşı bəşər tarixində görünməmiş terror əməlləri törətmək səviyyəsinə gəlib-çıxdığı bir vaxtda, biz hamımız bütün dünya birliyi üçün və təbii olaraq, hər bir ölkə, hər bir insan üçün necə bir təhlükənin yaxınlaşdığını bilməliyik». Biz güman edirik ki, terrorun kiçiyi-böyüyü yoxdur. Ona görə də, hər bir terror təzahürünə qarşı dünya ictimaiyyəti birgə mübarizə aparmalıdır. «ASALA» kimi beynəlxalq terror təşkilatlarının bu gün də nəzarətdən kənarda qalması və ermənilərə «xüsusi münasibət» göstərilməsi təəccüb doğurmaya bilmir.

Terrora qarşı ikili standartlarla aparılan mübarizənin böyük səmərəsi ola bilməz. Böyük terrorun baş verməməsi üçün vaxtında «kiçik» terrorların qarşısı qətiyyətlə alınmalıdır.

Əlbəttə, dünyaya meydan oxuyan, sivilizasiyanın nailiyyətləri ilə oyun oynayan terrorçular və terror təşkilatları ən ağır cəzaya layiqdirlər. Hələ kökləri tapana qədər artıq cücərmiş, qol-budaq atmış, geniş miqyaslı sosial hadisəyə çevrilmiş terrorun daha böyük güc tətbiqi ilə məhv edilməsi zəruri addımdır. Ancaq xəstəliyin ən kəskin təzahürü zamanı, əlbəttə, cərrahiyə əməliyyatı qaçılmaz olur. Lakin terrorun kökünü kəsmək üçün cərrahi üsul kifayət deyil. Onu müalicə yolu ilə həmişəlik aradan götürmək lazımdır. Başqa sözlə desək, Amerikada törədilmiş terror aktına cavab olaraq və qəzəblənmiş əhalinin istəyini yerinə yetirmək üçün operativ tədbirlər həqiqətən görülməli idi. Lakin, həqiqi dövlətçilik məfkurəsi daha dərin tədqiqatlar aparılmasını və terrora rəvac verən real ictimai pro-

sеslərin və ideoloji kursların aşkar edilməsi və aradan qaldırılmasını tələb edir.

* * *

Cəmiyyətin ümumi yaradıcılıq potensialı heç də sonsuz deyil. Ümumictimai intellektual potensialın cəmiyyətin təşkilatlanmasına və təbiətin məqsədyönlü surətdə dəyişdirilməsinə, təbii enerjinin insan maraqlarına yönəldilməsinə sərf olunması da itkisiz həyata keçirilə bilir. İdeyadan praktik təcəssümə gedən yolda səmərəsiz məsrəflər də olur. Təbiətdə enerji itkisinin qarşısını almaq mümkün olmadığı kimi, intellektual enerjidə də itkilər labüddür. Lakin bu itkilər hara sərf olunur? Və burada faydalı iş əmsalını artırmaq nəyin sayəsində mümkündür? Təbiətşünaslar neçə əsrdir ki, bu problem üzərində çalışır və xeyli uğur əldə edə biliblər. Lakin cəmiyyətdə bu problem, demək olar ki, öyrənilməmişdir.

Öz kökü olmayan və şitilin gövdəsindən çıxan bic zolaqlar vaxtında qırılıb atılır ki, enerji əsas gövdəyə getsin və bar almaq mümkün olsun. Əks təqdirdə enerji çoxlu sayda zolaqlara paylanmaqla heç bir istiqamətdə bar vermək üçün yetərli olmur. Cəmiyyətin inkişafında da ideyadan praktik məqsədə gedən yolda, bütün döngələrə dönməklə əsas məqsədə gedib çıxmaq olmaz. İctimai inkişafın ana xətti bütövlükdə bəşəriyyətin təbiəti daha çox dərəcədə özünə tabe etməsi, təbii enerji ilə daha çox dərəcədə silahlanaraq güclənməsi ilə bağlıdır. Lakin bu proses həm də cəmiyyətin təşkilatlanması və vahid məqsəd ətrafında birləşməsini tələb edir. Bütün bəşəriyyətin vahid bir ideya ətrafında birləşməsi və ayrı-ayrı insanların səylərinin vahid davamlı inkişaf prosesində birləşdirilməsi hələ ki, mümkün olmamışdır. İnsanların ümumbəşəri təhlükələrin aradan qaldırılması, qlobal problemlərin həlli uğrunda vahid cəbhədə fəaliyyət göstərməsi ancaq son dövrlərdə aktuallıq kəsb etmiş, lakin buna nail olmaq hələ mümkün olmamışdır.





Ümumiyyətlə, bəşər tarixində müxtəlif xalqların və insan nəsillərinin vahid bir inkişaf prosesində təmsil olunması və bu birgə səy nəticəsində əldə olunan dəyərlər sivilizasiyalar adlanır. Bu böyük sivilizasiyalardan kənarda məhdud sayda insanların nisbətən kiçik dövr ərzində birgə fəaliyyətinin nəticələri də, şübhəsiz ki, nəzərə alınmalıdır. Belə lokal dayanıqlı inkişaflar daha böyük miqyaslı proseslərlə, bəşəriyyətin ali məqsədlərini ifadə edən böyük ictimai fəaliyyətlərlə – sivilizasiyalarla üst-üstə düşmədikdə bəzən ona əngəl törədir və hətta antisivilizasion proseslərə çevrilir...

Deyirlər ki, başqa planetlərdən gəlmiş və bizdən daha şüurlu varlıqlar Yer əhalisinin fəaliyyətinə nəzarət edir və kritik məqamlarda bu proseslərə müdaxilə edərək onu yoldan çıxmaqdan qoruyurlar. Bu fərziyyənin düz olub-olmadığını deyə bilmərik. Lakin Yer planetinin özündə bütövlükdə bəşəriyyəti və onun ali məqsədini təmsil etməkdə daha çox imkanları və haqqı olan ictimai birliklər – dövlətlər var. Sivilizasiyanın önündə gedən və bələdçilik məsuliyyətini üzərinə götürən belə dövlətlər təkcə öz xalqlarını deyil, bütövlükdə Yer sakinlərinin, bəşəriyyətin taleyi üçün məsuliyyət daşıyırlar. Lakin heç də bütün xalqlar və bütün ölkələr bəşəriyyət qarşısında duran qlobal problemlərə xidmət etmək, ictimai inkişafı daha dayanıqlı etmək və təbiətlə üz-üzə dayanan insanın öz gələcəyini daha böyük şansla müəyyən etmək istiqamətindəki səylərə və proseslərə qatılmırlar. Buna onların elmi-texniki inkişaf səviyyəsimi, intellektual potensialımı, yoxsa optimal ictimai təşkilatlanma səviyyəsimi imkan vermir – bu ayrıca bir

məsələdir. Reallıq isə bundan ibarətdir ki, bu gün Yer planetində ən qabaqcıl ölkə sayılan Amerika Birləşmiş Ştatları başqa ölkələrə təkcə elmi-texniki və iqtisadi potensialını artırmaqda və ümumi sivilizasion proseslərə qatılmaqda deyil, həm də ictimai təşkilatlanmanın daha mütərəqqi üsullarına, demokratik inkişaf formasına yiyələnməkdə köməklik göstərməyə çalışır. Superdövlətin bu səyləri bəzən dünya imperializmi, militarizm və birqütblü qloballaşma aspektindən izah edilir. Halbuki, bu köməklik öz iradəsini başqasına qəbul etdirmək yox, başqasının da ümumictimai proseslərdə iştirak edə bilmək üçün düzgün istiqamətə yönəldilməsi kimi dəyərləndirilə bilər.

Lakin dayanıqlı inkişaf prosesinə, sivilizasiyaya, qlobal problemlərin həllinə yönəldilmiş ümumictimai səylərlə yanaşı, əldə olunmuş elmi-texniki nailiyyətlərdən digər məqsədlər üçün istifadə edənlər də vardır. Böyük elmi-texniki nailiyyətləri və onların törəməsi olan müasir tipli silahları antisivilizasion qüvvələrdən qoruyub saxlamaq heç də asan iş deyil. Ümumi gövdədə bitən bic zolaqlar kökdən gələn qidanı bəzən daha çox sovurub alır. Sivilizasiyadan bəhrələnən, lakin ona qarşı yönələn qüvvələr şitillərdəki bic zolaqlar kimi vaxtında qırılıb atılmalıdır. Biz bu prosesi hətta xərçəng xəstəliyi ilə müqayisə edə bilərik. Beynəlxalq terror orqanizmin enerjisini mənimsəyən, lakin onun əsas funksiyalarına xidmət etməyən, nəticə etibarilə orqanizmi zəiflədən və məhvə sürükləyən xərçəngi də xatırladır.

11 sentyabr terroru məhz sivilizasiyanın ən yüksək nailiyyətlərinə əsaslanması ilə, yüksək elmi-texniki nailiyyətlərdən istifadə ilə səciyyələnirdi. Və buna görə də sivilizasiyanın özündə xərçəng kimi qiymətləndirilə bilər. Bizcə bu ictimai xərçəng daha qorxulu bir xəstəlikdir. Və





təbiblər hələ xərçəngin dərmanını tapana qədər bu ictimai xərçəngin dava-dərmanı tapılmalı, onun qarşısı ümumbəşəri səylərlə alınmalıdır.

İctimai inkişafın öz dialektikasından çıxan və yeni total silahlanmanın mutasiyası olan bu sosial bəlanın səbəblərini hansı isə dini əqidələrdə axtaranlar, heç şübhəsiz, ünvanı səhv salırlar. Sivilizasiyada xəstəlik olan bu hadisə bütün sivilizasiyanı, bütün bəşəriyyətin birgə səyləri ilə aradan qaldırılmalıdır. Həm də zəruri cərrahiyyə əməliyyatları ilə yanaşı və ondan daha çox dərəcədə terapevtik müalicə üsulu ilə. Mən hələ 11 sentyabrın ilk təəssüratı ilə 11 oktyabrda yazdığım məqalədə bu hadisənin miqyasının Bin-Ladenlərlə məhdudlaşdırılmasının əleyhinə çıxış etmişdim. Bu müdhiş hadisənin, bütövlükdə beynəlxalq terrorun həqiqi böyük miqyasını dərk etmədən, onun səbəblərini ictimai inkişafın öz daxilində arayıb tapmadan və aradan qaldırmadan lokal cərrahiyyə əməliyyatları məqsədə nail olmaq üçün əsla kifayət deyil. Və hətta bu əməliyyatlara uyaraq əsl səbəblərin arxa plana keçməsi, bəşəriyyətin özünüdərk prosesinin və beynəlxalq miqyasda ictimai təşkilatlanmadakı nöqsanların araşdırılması zərurətinin yaddan çıxarılması qorxulu bir haldır.

Bizcə fəlsəfəyə qayıtmağın əsl vaxtıdır. Bəşəriyyət özünü dərk etmədən hansı proseslərin sivilizasion, hansılarının isə antisivilizasion olduğunu müəyyənləşdirmək çətin olacaqdır.

Yeni dövrün fəlsəfəsi bütün xalqların birgə səyi ilə yaradılmalı və qloballaşma şəraitində ümumbəşəri idealları əks etdirən bu fəlsəfəyə uyğun olaraq siyasi və hüquqi üstqurum daha da təkmilləşdirilməlidir.

XXI əsr bir sıra yeni əlamətlərlə səciyyələnir. Bir çox anlayışlar öz ənənəvi məzmunundan kənara çıxaraq

yeni məna kəsb edir.

Sülhün də, müharibənin də yeni formaları, əslində əvvəlkindən köklü surətdə fərqli, mahiyyətcə yeni hadisələr ortaya çıxır.

Total müharibədən fərqli olaraq, indi dövlətə qarşı münasibətlə xalqa, əhaliyə qarşı münasibət arasında fərq qoyulur. Dövlət qurumlarına, hərbi obyektlərə bomba zərbələri endirilir, dinc əhaliyə isə maddi yardım, qida paketləri atılır. Bu, bir növ əksliklərin yeni məzmunlu vəhdətidir. Dövlətçilik şüuru ilə, hüquqi təfəkkürlə, beynəlxalq normalarla bahəm humanitar təfəkkürün, insan hüquqlarının qoşa mövcudluğu faktıdır.

Lakin XXI əsr üçün bu da azdır. Bizcə, yeni əsr ümumiyyətlə müharibəyə, ümumiyyətlə terrora, ümumiyyətlə silaha qarşı yönəldilmiş yeni ideologiyanın təntənəsi əsri olmalıdır.

*"Azərbaycan" qəzeti, 13 fevral, 2001-ci il.*





## Qəhrəmanlıq simfoniyası

1804-cü ildə Avropa səmasında əzəmətli bir melodiya səsləndi: bu, böyük alman bəstəkarı L.Bethovenin məşhur «Qəhrəmanlıq simfoniyası» idi. Lakin bu əsər sadəcə bir qılınc qəhrəmanlığını, alman əsgərinin döyüş şücaətini vəsf etmirdi. Simfoniya azadlıq idealının güc və qüdrətlə birliyinin rəmzi olan və 1804-cü ilin başlanğıcında hələ qəhrəman sayılan Napoleon Bonaparta həsr olunmuşdu.

Zaman elə bir zaman idi ki, Avropada cəngavərlik dövrü sona yetmiş, at çapmaq, qılınc oynatmaqla nə etmək mümkün idisə, hamısını etmişdilər və indi top-tüfəng savaşında irəli çıxaraq şöhrət zirvəsinə yüksələnlərin gələcəyə boylanmaq imkanı yaranmışdı.

(Azərbaycanda isə Koroğlular hələ qılıncdan ayrıla bilmir, tüfəngə həqarətlə baxırdılar). Avropanın mərkəzində təpədən dırnağa qədər silahlanmış, top-tüfəngli Napoleon ordusu dünyaya meydan oxuyurdu. Rusiya çarı Aleksandrın şəxsən başçılıq etdiyi böyük (sayca böyük) rus ordusu Avstriya cəbhəsində mövqe tutaraq Napoleona qarşı koalisiya yaratmaqla məşğul ikən Azərbaycan xanlıqları heç öz aralarında da koalisiya yarada bilmirdilər. Heç kim öz millətindən olan başqasının himayəsini qəbul etmək istəmirdi. Rus imperatorunun yüz minlik qoşunu Napoleon tərəfindən darmadağın edildiyi bir vaxtda rus ordusunun

başqa bölmələri təklənmiş Azərbaycan xanlıqlarının ərazisində meydan sulayırdı.

Hər şey kiçik qüvvələrin vaxtında böyük ideya ətrafında birləşməsindən asılı idi.

Və hər şey ordunun da müasir texnologiyaya vaxtında yiyələnməsindən, texnika da öz növbəsində hansı isə böyük ideyaların reallaşmasından asılı idi!.. «Qüvvət elmdədir...» (Nizami). «Ağıl olan yerdə, zora ehtiyac yoxdur» (Heydər Əliyev). (Çünki zor ağıla çevrilə bilməz, amma ağıl zora çevrilə bilir).

Avropada son yüzillik ərzində elm və texnologiyanın inkişafı hərbi sənayeni də xeyli modernləşdirmişdi. Lakin Avropa daha əvvəlki Avropa deyildi. Qılıncı topatüfəngə çevirən elmi-texniki ideyalarla yanaşı top-tüfəngi zülm və zorakılığın xidmətindən alıb ədalətə, insan haqlarına, azadlıq ideallarına xidmətə yönəltmək uğrunda mübarizə gedirdi. Bu mübarizənin ideya təməlini İngiltərədə T.Hobbs və Con Lokk, Fransada maarifçilər, Almaniyada isə Kant qoymuşdu. Həm də məhz Kant fəlsəfəsi bu ideya yüksəlişinin zirvəsi idi. Lakin ideyanın əməli surətdə həyata keçirilməsi üçün həm də sosial iradə və cəmiyyətin bu yeni ideya əsasında təşkilatlanmasını təmin edən sosial güc lazım idi. Böyük Fransa İnqilabı məhz bu məqsədlə həyata keçirilsə də, inqilabçılar gözlənilən nəticəni ala bilmədilər. Ümid dolu nəzərlər inqilab dalğalarında hakimiyyətə gələn Napoleon Bonaparta dikildi.

Bethoven də özünün «Qəhrəmanlıq simfoniyası»nı Napoleona həsr etməklə əslində azadlıq ideyasının zəfər yürüşlərini vəsf edirdi. Bəli, Bethoven qəhrəmanlığı məhz azadlıq uğrunda mücadilə kimi başa düşürdü. Və hələ ki, Napoleonun iç üzü açılmamışdı, qəhrəman obrazı ona çox yaraşırdı. Böyük Fransa İnqilabının mücahidləri bir-birini





azadlıq ideyasının qan dənizində boğduqdan sonra taxt-taca bu dənizdə üzməyi daha yaxşı bacaran Napoleon sahib olmuşdu. Tarix səhnəsinə monarxiyanın qənimi və azadlıq ideallarının davamçısı və yayıcısı kimi daxil olan Napoleon isə tezliklə bu ideyaların hərb yolu ilə yayılmasının ziddiyyətliliyinin paradoksallığının təcəssümünə çevrildi. Lakin elə həmin 1804-cü ildə Napoleon imperator taxtına çıxdı və yenidən monarxiyaya qayıtmaqla bütün böyük ümidləri alt-üst etdi. Düzdür, hərb səhnəsində zəfərlər davam edirdi, lakin böyük ideyadan məhrum olmuş hərbi qələbələr daha zəfər sayıla bilməzdi. Bu qələbələrin adı indi istila idi.

Və Bethoven bu ithafdan imtina etdi, «Qəhrəmanlıq simfoniyası» öz ünvanını tapmadı. Lakin dünya həqiqi böyük qəhrəmanlıq nümunələrindən xali deyildi. Və simfoniya əslində vaxtında səslənmiş, sadəcə ünvan səhv salınmışdı... Əslində 1804-cü il elə ilk günlərindən tarixə böyük qəhrəmanlıq nümunəsi ilə daxil olmuşdu: uzaq Azərbaycanda Cavad xan imperiya əsarətinə qarşı çıxaraq oğulları ilə birlikdə azadlıq yolunda həlak olmuş və həqiqi bir qəhrəmanlıq nümunəsi göstərmişdi.

İndi – qloballaşma dövrüdür. Dünya kiçilir, bəşəriyyət bütövləşir, etnik-milli sərhədlər götürülür, vahid dünya sivilizaiyası, vahid mədəni dəyərlər sistemi, beynəlxalq hüquq, insan haqları sərhəd tanımır. Azadlıq idealları da, bu ideallar uğrunda mücadilə edənlər də bu mücadiləni tərənnüm edən simfoniyalar da ümumbəşəri dəyərlər sisteminin tərkib hissələridir.

1804-cü ildə ünvanını Avropada tapa bilməyən «Qəhrəmanlıq simfoniyası» bu gün genişlənmiş Avropanın bir parçası olan Azərbaycanın məhz 1804-cü ildə tarixə düşmüş parlaq qəhrəmanlıq nümunəsi ilə necə də gözəl

səsləşir!

O vaxt Napoleon Bonapartın zor gücünə bütövləşdirə bilmədiyi Avropa indi böyük filosofların yenə də o vaxt işləyib hazırladıqları ideyaların tədricən ictimai proseslərə sirayət etməsi nəticəsində reallığa çevrilməkdədir. Gilyotina və topların gücü ilə zəfər çala bilməyən inqilabi ideyalar məhz ideya olaraq yayılmaqla sosial gücə çevrilmiş və Avropanın həm bütövləşməsinə, həm də genişlənməsinə gətirib çıxarmışdır.

Günəş Şərqdə doğsa da, ideya işığı Qərbdə yanırdı. Azərbaycanın öz fərdi zəka sahiblərinin intellekt işığı sosial mühitin rütubətindən sönürdü. Qərbdən gələn işığı, hərarəti əks etdirəcək, rezonans yaradacaq böyük ideya lokatorları isə hələ yox idi.

*"Fəlsəfə və sosial siyasi elmlər" jurnalı, 2004, №2-3.*



# Xalq və millət

- **Milli məfkurənin fəlsəfi əsaslarina dair**
- **Ziyalı məsuliyyəti və böyüklük səlahiyyəti**
- **Yol ayrıcında və ya yaz çiçəyi**
- **Türk ruhu 3-cü minilliyin astanasında**
- **Böyük İpək Yolunun bərpası ideyası**
- **İqtisadi və texnoloji imperializm şəraitində milli maraqlar**
- **Avropa Şurası bizi seçdi, yoxsa biz Avropanı?**
- **İkili standart**
- **Fransadan iki xəbər gəldi...**
- **Qərbləşmə, siyasiləşmə, feminizasiya**

# Milli məfkurənin fəlsəfi əsaslarına dair

Hər bir xalqın tarixində cari ictimai-siyasi problemlərlə yanaşı, xalqın strateji inkişaf xəttini müəyyən edən, milli özünüdərkdən irəli gələn vəzifələr də vardır. Mədəni-mənəvi köklərimizə qayıdış istiqamətində, milli mənsubiyyətin təkcə formal surətdə deyil, həm də məzmun baxımından təsbit olunması uğrunda aparılan mübarizə həm də fəlsəfi və elmi-nəzəri əsaslara malik olmalıdır.

İctimai həyatımıza kənardan daxil olan yad təsirlərdən qorunmaq üçün bu gün gənclərimizdə milli-mədəni özünümüdafiə instinktinin formalaşdırılmasına ehtiyac yaranmışdır ki, bu da yalnız milli məfkurə kontekstində mümkündür. Lakin təəssüf ki, xalqın milli-siyasi mənliyini ifadə edən və dövlətçilik şüurunun təcəssümü olan taleyüklü məsələlər bəzən dövrün cari problemləri içərisində, siyasi intriqaların, lokal ictimai-siyasi maraqların, habelə maddi ehtiyacların təmin edilməsinə yönəlmiş fərdi və ictimai səylərin mübarizəsi səhnəsində arxa plana keçir və bəzən tamamilə unudulur. Halbuki, milli-mənəvi dəyərlər həm fərdi, həm də ictimai həyatın strukturunda mühüm yer tutur.

## İnsan, millət, bəşəriyyət

Milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlara və bütün cəmiyyətlərə xas olan cəhətlər ilk növbədə iqtisadi və intellektual aspektləri əhatə edir. Öz cismani varlığını təkrar istehsal etmək, təsərrüfat fəaliyyətlərini qurmaq, sənayeni inkişaf etdirmək və bunun üçün yeni-yeni texniki vasitələr icad etmək, təbiətin qanunlarını öyrənmək və onlardan istifadə etmək sahəsində insanların maraqları əsasən üst-üstə düşür. Yəni burada İnsan-İnsan münasibətindən daha çox, İnsan-Təbiət münasibətindən söhbət gedir.

Maddi dünyaya, təbiətə münasibətdə bütün insanlar milli mənsubiyyətindən asılı olmadan eyni mövqedə dururlar. Düzdür, burada da müxtəlif dövrlərdə müxtəlif xalqların fəaliyyətləri tam üst-üstə düşmür. Təbiətə münasibətdə də Qərbdə daha çox praqmatiklik, Şərqdə şairanəlik, estetiklik üstünlük təşkil edir. Ayrı-ayrı adamlar və hətta bəlkə bütöv millətlər də bu baxımdan fərqlənə bilərlər. Məsələn, Novruz bayramı əslində insanların təbiətə münasibətini ifadə edir. Lakin müəyyən xalqlarda bu münasibət özünü daha qabarıq göstərir və artıq milli ənənəyə çevrilmişdir. Ümumiyyətlə, ənənələrin bir qismi insanların hələ təbiətdən tam ayrılmadıqları dövrdən başlanır və insanla təbiətin vəhdətini ifadə edir. Digər qisim ənənələr insan özünü təbiətdən ayırdıqdan sonra ona olan şüurlu münasibəti ifadə edir.

Lakin millilik daha çox dərəcədə insanların öz aralarındakı münasibətlərdə üzə çıxır. Bu da ən çox dil, əxlaq və mədəni-mənəvi dəyərlər sahələrini əhatə edir.

Din insanlar arasındakı münasibəti deyil, insanla Allah arasındakı münasibəti ifadə etdiyindən milliliyin fövqündə dayanır. Dini duyğular daha çox dərəcədə insanın təbiətə münasibətinin davamı kimi ortaya çıxır. Dində insan özü ilə təbiət, özü ilə dünya arasında vəhdət axtarır və

burada ictimai komponent, demək olar ki, yoxdur. Dini dəyərlər millətin formalaşmasında bilavasitə deyil, əxlaq və mədəniyyət vasitəsilə iştirak edirlər.

Millilik tarixən eyni təbii mühitdə, eyni ictimai-iqtisadi şəraitdə formalaşmış olan insanların öz aralarındakı münasibətlərin ənənəviləşmiş məqamlarını əhatə edir. İnsanlar arasında əlaqə və ünsiyyətin ardıcıl, müntəzəm xarakter daşıması vahid ünsiyyət vasitələrindən istifadə olunmasını tələb edir. (Ünsiyyət dedikdə biz yalnız dili deyil, insanlar arasında əlaqənin bütün formalarını nəzərdə tuturuq).

Əlbəttə, etnik-milli xüsusiyyətlər qısa müddətdə, birdən-birə formalaşmır. Əsrlər boyu davam edən ənənviləşən, qərarlaşan ünsiyyət formaları tədricən cəmiyyətdə stabil sosial normalar, əxlaqi və estetik meyarlar sistemi yaradır və düşüncə tərzinin özünə də təsir edir. Əvvəlki nəsillərin həyat tərzi və qiymətləndirmə meyarları bilavasitə ötürülməklə yanaşı, bədii ədəbiyyat və incəsənət vasitəsi ilə də yeni nəslə çatdırılır. Nəticədə milli varislik müxtəlif kanallar və vasitələrlə təmin edilir. Qərb dəyərlər sistemində millilik daha çox dövlətçiliklə birləşərək yeni mahiyyət kəsb edir.

İnsan müəyyən milli-mənəvi dəyərlər sistemində formalaşdıqdan sonra başqa bir mühitə düşərsə, onunla mühit arasında ziddiyyətlər yaranması qaçılmazdır. Belə ki, hər bir insanın fərdi-mənəvi aləmi adekvat ictimai mühit tələb edir. Yalnız bu zaman insanla cəmiyyət arasında harmoniya mümkündür.

İnsanın başqa, ona yad olan mədəni-mənəvi mühitə adaptasiya olunması yalnız onun milli-mənəvi köklərdən ayrılması sayəsində mümkündür. Köklü, əsil-nəcabətli, milli mənsubiyyəti şübhə doğurmayan insanlar başqa mühitlərə tezliklə uyğunlaşa bilməzlər. Ancaq milli siması olmayanlar üçün istənilən ictimai, mədəni-mənəvi mühit eyni dərəcədə məqbuldur.





SSRİ imperiyasının dağılması, yeni müstəqil dövlətlərin yaranması və hələ yeni dövlətçilik formalaşana qədər baş alıb gedən qaydasızlıq, anarxiya meylləri dayanıqlı və ənənəvi olan hər şeyi sarsıtdı. Düşüncələr siyasiləşdi, polyarlaşdı... İctimai-siyasi hərəkatın intensivliyinin artması, cəmiyyətdə gedən proseslərin sürətlənməsi min illərin problemlərinə yönəlmiş sabit, dayanıqlı, ətalətli fəlsəfi düşüncəni gündəlikdən sıxışdırıb çıxartdı. Cari həyatın təbəddülatları ümumbəşəri dəyərləri və düşüncələri arxa plana keçirtdi.

Azərbaycanın müstəqillik əldə etməsindən 15 ilə yaxın müddət keçməsinə baxmayaraq, ictimai-siyasi şüurun dinamikası, cəmiyyətdə gedən proseslərin vüsəti hələ o dərəcədə yüksəkdir ki, insanlar dayanıb nəfəsini dərmək, papağını qarşısına qoyub düşünmək üçün macal tapa bilmirlər.

Fəlsəfi düşüncə isə bir sabitlik, bir ətalət, bir ləngər tələb edir.

Fəlsəfənin mahiyyəti də, predmeti də, əsas problemləri də ilk növbədə onun keçdiyi tarixi inkişaf yolundan deyil, müasir insanın düşüncə və fəaliyyət mexanizminin strukturundan intixab edilməlidir. Müasir dövrdə Qərb dünyası da özünü fəlsəfi fikir süzgəcindən keçirməyə çalışır və bu ümumbəşəri fəlsəfi özünüdərk meylləri hətta bir sıra yeni fəlsəfi cərəyanların meydana gəlməsi ilə müşayiət olunur. Lakin təəssüf ki, Qərb filosofları ümumbəşəri özünüdərk prosesini Şərqdən ayırmağa və ancaq öz tarixi xidmətləri kimi qələmə verməyə çalışırlar. – Bəli, ümumbəşəri zəka gec-tez bütün bəşər tarixinin özünüdərk siste-

mini yaratmalıdır və bu sistem «heç şübhəsiz» Qərb təfəkkürünün məhsulu olmalıdır. Həm də bu cür düşünən təkcə Hüsserl deyil – əksəriyyətdir. M.Haydegger mövqeyini daha açıq bildirir. «Qərb və Avropa, ancaq onlar öz tarixinin dərin qatdakı axarına enəndə, ilkin «fəlsəfiliyə» malikdir».

Bu məsələdə E.Hüsserlin baxışları da çox əlamətdardır. Əvvəla, ona görə ki, Hüsserl bu məsələyə məhz ifrat Qərb və Avropasentrizm mövqeyindən yanaşır. Ümumbəşəri inkişafın strukturunda Şərqin hər hansı mövcudluğuna yer qoymadan bu prosesi «Avropa bəşəriyyəti» miqyasında həll etməyə çalışır. Özünün «Avropa elmlərinin böhranı və transendental fəlsəfə» əsərində və «Avropa bəşəriyyətinin böhranı və fəlsəfə» adlı məşhur məruzəsində Husserl bir tərəfdən «tarixin vahid ümumi mənasından», «dünyanın zəka sayəsində mənalanmasından», «universal zəkadan» danışır, digər tərəfdən də ümumbəşəri inkişafı Avropalılarla məhdudlaşdırır və «Avropa bəşəriyyəti» ifadəsini önə çəkir. İnsanların tarix boyu, vahid, davamlı özünüdərk, dünyanıdərk prosesində iştirakını və bunların ümumiləşmiş nəticəsi kimi vahid, bütöv elmi-fəlsəfi sistem yaradılması zərurətini vurğulamaqla Husserl naturalizmdən və skeptisizmdən «təmizlənmiş», hər bir insanın fərdi xüsusiyyətlərindən, insan nisbiliyindən azad olunmuş, bir növ riyazi idealizasiyaya əsaslanan fəlsəfi sistem yaratmağa çalışır.

Lakin bir şey həqiqətdir ki, min illər bundan əvvəl olduğu kimi, yenə də dünyanın mərkəzində insan dayanır. Yenə də "hər şeyin meyarı insandır". Yeni əsrin ən humanist insanı da əvvəlkilər kimi dünyaya dağların, çayların, quşların, heyvanların mövqeyindən deyil, məhz insan mövqeyindən yanaşır və qiymət verir. Ona görə yox ki, o, eqoistdir və ancaq özünü və öz qövmünü düşünür. Ona görə yox ki, onun humanizmi və ekoloji şüuru kifayət qədər inkişaf etməmişdir. Sadəcə ona görə ki, «humanizm» əslində ancaq insanlara münasibəti əhatə edir və heç vaxt bütövlükdə təbiət miqyasında məhəbbətə çevrilmir. Baxmayaraq ki, insanlar təbiətə biganə deyil və bəzən meyl saldıqları ayrı-ayrı heyvanları konkret insanlardan daha çox sevirlər, lakin bu fərdi münasibət ümumiləşmiş bir prinsip və həyat amalı səviyyəsinə qalxmır. Məsələ burasındadır ki, hər hansı bir insan heç vaxt dağı, heyvanı və ya bitkini onun öz mövqeyindən duymaq, dünyaya onun gözlərilə baxmaq, onun həqiqi istəklərindən və sevincindən xəbər tutmaq imkanına malik olmur. İnsan üçün onlar ancaq rəmzləşəndə, insaniləşəndə önəmli ola bilər. Məsələn, Çingiz Aytmatov yaradıcılığında təbiət insaniləşir; boz qurd insaniləşir, Qara nər, Ana maral insaniləşir və duyğular, hisslər onun konkret daşıyıcısından ayrılaraq elə xüsusi müstəviyə çıxarılır ki, burada bütün dünya vəhdətdədir. Burada duyğuların daşıyıcıları olan konkret varlıqlar arxa plana keçir və dünya özü duyğuların vahid daşıyıcısı olur. Başqa sözlə, cisimlər və canlı varlıqlar arasındakı münasibət mücərrədləşərək və ümumiləşdirilərək duyğular arasındakı münasibət şəklində, artıq simvollaşmış dünyanın nağılları şəklində təqdim olunur. Lakin bütün bunlar əslində yazıçı «mən»inin ifadəsidir. Burada rəmzləşmiş təbiət insanı əvəz etmir, əksinə, yazıçı başqa insanların münasibətlərində özünü ifadə etdiyi kimi, təbiət təzahürlərində də məhz özünü ifadə edir.

Düzdür, bir insan başqa insanların da yerini verə bilməz və onların keçirdiyi hissləri, dünyaya baxışlarını, arzu və istəklərini eynilə yaşaya bilməz. Bu baxımdan yanaşdıqda, fəlsəfə ümumiyyətlə insan-dünya münasibətlərindən deyil, ancaq ayrıca götürülmüş insanın dünyaya müna-

sibətindən, ancaq belə fərdi miqyasda təzahür edən duyğu və hissiyyatdan qaynaqlana bilər. Daha doğrusu, bu məqam fəlsəfənin poeziya ilə, sənətlə kəsişməsi, fəlsəfi poeziyanın və fəlsəfədə poetikliyin yaranış məqamıdır. Lakin bir insanın dünyaya münasibətilə ikinci və üçüncü insanın dünyaya münasibətləri arasında eyniyyət məqamları da vardır. Ən çətini də elə məhz eyniyyət və fərq məqamlarının sərhəddini ayırd etmək və burada təkrar olunanı, sabit qalanı – ümumini müəyyənləşdirməkdir.

İnsan miqyasından bəşəriyyət miqyasına keçdikdə, daha doğrusu, bütün insanların tarixi inkişafının bir bəşəriyyət obrazı timsalında təsəvvür olunması isə xeyli fərqli müstəvidə həyata keçir. Bəşəriyyətin vahid bir sistem kimi formalaşması, daha çox tarixi prosesdir. Ona görə də, sivilizasiyanın tarixi və identifikasiyası bir tərəfdən fərdi mənəvi-intellektual proseslərin təhlilindən keçirsə, digər tərəfdən ictimai-tarixi proseslərin mədəni-mənəvi müstəvidə proyeksiyası ilə müşayiət olunur. Təsadüfi deyildir ki, A.Toynbi sivilizasiya tarixi kontekstində vahid bəşəriyyətin formalaşması, planetin coğrafi-tarixi bütövləşməsi problemini qoyur. Onun fikrinə görə, «1500-ci ildən başlayaraq bəşəriyyət vahid ümumdünya cəmiyyətində birləşir». Əlbəttə, bu şərti bir rəqəmdir. Əsas məsələ dövrün mahiyyətini ifadə etməkdir. Dövr isə elə bir dövr idi ki, Şərq Qərbə doğru genişlənərək dayanmışdı. Daha irəliləyə bilmirdi. XVI əsrin əvvəllərində öz kulminasiyasına çatan üç böyük türk imperiyasını birləşdirə bilən böyük ideya, böyük fəlsəfə yox idi. Sultan Səlim, Şah İsmayıl və Babur imperiya daxili inteqrasiya yarada bilsələr də, «qılınc fəlsəfəsi» daha böyük miqyaslı inteqrasiya üçün kifayət etmirdi. Onların üz-üzə gəlməsi tarixi zərurət idi. Birləşdirici İslam ideyası VII əsrdə qalmışdı. Bir tərəfdən mövhumat həqiqi dini ideyanı kölgədə qoymuşdu və digər tərəfdən, təriqətçilik, xüsusən iri miqyaslı sünnü-şiyə bölgüsü ideoloji vəhdəti mümkünsüz edirdi. 1514-cü il Çaldıran müharibəsi bu ideoloji böhranın hərbi-siyasi təzahürü olmaqla, şərti olaraq Şərqin süqutunun başlanğıcı kimi dəyərləndirilə bilər. Bu baxımdan, biz A. Toynbinin təxmini göstərdiyi «1500-cü il» tarixini daha da dəqiqləşdirmiş oluruq.





Bu elə bir dövr idi ki, yeni ideya artıq Şərqdə yox, Qərbdə yaranırdı və yeni Səlib yürüşünün təməlini qoyurdu. Bu yürüş daha qılıncla yox, elmin ecazkar gücü ilə, iqtisadi yüksəlişlə, elmi-texniki nailiyyətlərin kompleks tətbiqi ilə həyata keçiriləcəkdi.

Tətbiqi elmin yaranmasını şərtləndirən yeni ideya isə əslində indi Qərb fəlsəfəsi kimi tanıdığımız təlimdən ibarət idi. Vasko da Qama, Kolumb, Ameriko Vespuçi ancaq zahiri təzahürlər idi. Daxili hərəkətverici qüvvə isə rasionalizm və emprizmin ittifaqından yaranan Yeni Dövr fəlsəfəsi idi. İmperiyalar öz aralarında ittifaqa gələ bilməsələr də, ideyaların birləşməsi ilə yeni sivilizasiyanın təməli qoyulurdu.

Çagdaş fəlsəfi fikirdə müşahidə olunan əsas tendensiyalar neçə əsr fikirlərə hakim olmuş köhnə ideoloji sistemin böhranından və yeni ideya doğuluşundan xəbər verir. Bu ideya daha nə ayrılıqda Şərqi, nə də ayrılıqda Qərbi ifadə etməyib, onların vəhdətinə əsaslanmaqla ümumbəşəri idealın fəlsəfi-konseptual təməlinin formalaşmasına xidmət edir.

Postmodernizm sadəcə rasionalizmin inkarı deyildir. O, yeni ideya axtarışı meydanını xatırladır. Ekzistensializm də sadəcə pozitivizmə alternativ təlim olmayıb, hiss dünyasının Qərb sivilizasiyası dövründə kifayət qədər də-

yərləndirilə bilməyən böyük daxili potensialından istifadə etmək zərurətinin ifadəsidir.

Biz bəşəriyyətin aqibəti haqqında, qlobal problemlər haqqında düşünərkən düşdüyümüz böhrandan ya əvvəlki təcrübü elmlərin, ya da məntiqi rasional sistemlərin köməyi ilə çıxa bilməyəcəyimizə getdikcə daha çox dərəcədə əmin oluruq. Formal-riyazi məntiqin yerini indi daha çox qeyri-səlis məntiq, hissi təcrübənin yerini daha çox intuitiv düşüncə tutur. Bəşəriyyət özünü təkcə elmlə yox, həm də sənətin gücü ilə, bədii təfəkkürünköməyi ilə dərk etmək, daha doğrusu özünü duymaq istəyir. Duyğu ilə rasionallığın yeni kəsişmə müstəvisində isə yeni fəlsəfə yaranmaqdadır. Kim bu prosesə vaxtında qoşula bilsə və gələcəyin təməli olan yeni ideyanın işlənib-hazırlanmasında iştirak edə bilsə, gələcək onundur. Bunun üçün isə əsas şərtlərdən biri milli-fəlsəfi fikrin formalaşmasıdır.

## Milli məfkurə və milli-fəlsəfi fikir

Milli fəlsəfi fikir millətin və dövlətçiliyin təməl daşlarından biridir. Özünü dərk etməyən xalqın Vətən idealı ola bilməz. Torpaq, ərazi o zaman vətənə çevrilir ki, o milli ideyanın daşıyıcısı olur.

Empirik bilik və ibtidai duyğu səviyyəsindəki vətəndaşlıq və vətən sevgisi dayanıqlı ola bilməz. İnsan xarici ölkələrə səfər edərkən şüurlu olaraq və ya təhtəlşüur səviyyəsində öz yetişdiyi mühitlə, artıq içində olanlarla yeni gördükləri arasında müqayisələr aparır. Müqayisə apara bilmək, özünü məhz öz ölkəsi timsalında fərqləndirə bilmək üçün, heç şübhəsiz, əvvəlcə milli Məni, Vətəni həm duyğu, həm də təfəkkür səviyyəsində tanımaq tələb olunur. Özündən (öz ölkəsindən) ayrılmaq, başqa diyar, başqa





ölkə ilə tanışlıq duyğu səviyyəsində bir nisgil, vətən həsrəti yaradırsa, təfəkkür səviyyəsində özünə kənardan baxmaq şansı verməklə özünüdərk üçün obyektiv şərait yaratmış olur.

Əks halda doğma və yadı fərqləndirmək, sənə məxsus olanı başqalarına məxsus olandan ayırmaq mümkün olmaz. Təəssüf ki, əksər adamlar özünü (öz milli varlığını) ya heç fərqləndirə bilmir, ya da ancaq duyğu səviyyəsində fərqləndirir. Öz ölkəsi üçün darıxır, vətənini sevir, lakin bunun səbəbini dərk etmir. Öz vətəni, öz xalqı üçün nə isə etmək istəyir, lakin məhz nə etməli olduğunu bilmir. Əlbəttə, kimə isə elə gəlir ki, bilir; lakin bilmədiyini dərk etmək bildiyini zənn etməkdən yaxşıdır. Çünki müxtəlif adamların ayrı-ayrılıqda, öz ağlı ilə, öz vətən modeli əsasında gördüyü işlər, vahid bir istiqamətə yönəlməyərək, bir-birinin üzərinə toplanmaq əvəzinə, çox vaxt bir-birinə qarşı dayanır.

Dərk olunmuş vətənpərvərlik, təbii ki, daha dayanıqlı və daha faydalı olur. Vətəni, xalqı, milləti sevərəkdən və bəzən hətta məhz sevdiyinə görə ona ziyan da vurmaq mümkündür. Vətənin, millətin nə ilə fərqləndiyini bilmədikdə, onun rasional simasını görmədikdə, onun mənafeyini dərk etmədikdə, sadəcə sevgi notları üzərindəki fəaliyyətin fayda gətirmək şansı ziyan gətirmək şansına bərabər olur.

Vətənə şüurlu sevgi, milli özünüdərk və fərdi fəaliyyətlərin bu kontekstə salınması tələbi hər bir adamın üzərinə ağır yük qoyur. Və bunu hər bir adamdan tələb etmək də düzgün deyil. Yəni, hər bir adam əvvəlcə filosof olub sonra fəaliyyət göstərə bilməz. Millətin, vətənin elmi-fəlsəfi özünüdərk konsepsiyası bütün millətlər deyil, milli intellektin səfərbər olunması sayəsində, milli filosoflar, ic-

timai-siyasi liderlər tərəfindən işlənib hazırlanmalı və geniş kütlələrin sərəncamına verilməlidir. Lakin elmi-fəlsəfi dildə yox, elmi-kütləvi, fəlsəfi-publisistik, poetik dildə, bədii obrazlar vasitəsilə, ədəbiyyatın, sənətin, kütləvi informasiya vasitələrinin bütün mümkün imkanlarından istifadə etməklə!

Milli ideologiyaya söykənməyən, vahid konsepsiyaya əsaslanmayan kortəbii fəaliyyətlər, hətta sevgidən və millətçilik hisslərindən doğsa da son nəticədə ancaq ziyan gətirə bilər. Deyilənlər bədii ədəbiyyat və sənət sahələrindəki fəaliyyətə, habelə kütləvi informasiya vasitələrinin fəaliyyətinə də aiddir.

Biz bununla heç də insanları fəaliyyətsizliyə, milli duyğuların, vətənpərvərlik hissinin təsiri ilə atılan addımların məhdudlaşdırılmasına səsləmirik. Lakin əvvəlcə ölçmək lazımdır. Əvvəlcə düşünülmüş bir konsepsiya lazımdır. Əvvəlcə milli ideologiya lazımdır. Və bu milli ideologiyanın da əsasında milli fəlsəfi fikir dayanmalıdır.

Lakin həyat dayanıb gözləmir. İctimai proseslər hansı isə istiqamətlərdə baş alıb gedir və baş-başa gəlir. Eyni sevgidən doğan müxtəlif hərəkətlər qarşılaşaraq bir-birinin təsirini heçə endirir.

Vahid milli ideyanın təsir sahəsinə düşüb istiqamətləndirilə bilməyən, bir-biririni tamamlaya bilməyən, bir növ kortəbii proseslərə çevrilən fəaliyyət aktları özümüzün də xəbərimiz olmadan, qlobal miqyas kəsb etmiş başqa milli ideyaların, ilk növbədə qloballaşma meyllərinin təsir dairəsinə düşərək lokal güc mərkəzləri yaradır.

Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikrin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni





nəsillərə çatdırmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir. Və bu zaman milli ruh həyat tərzinə çevrilir. Dövlətçilik ideologiyası da milli ideologiya da eyni bir təməl üzərində – milli fəlsəfi fikir zəminində formalaşır.

Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampluada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə həqiqi böyük ziyalılar estafeti öz əllərinə alır və milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadaraq və bir əmanət kimi yeni nəsillərə ötürürlər. Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasını yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə vaxtında birləşməyəndə bütün ağırlıq qələmin, yaradıcı ziyalıların üzərinə düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə dövlətlərarası dövrdə kəsilməzliyi milli-mənəvi körpülər təmin etməli olur.

Müstəqillik və milli dövlətçilik ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma artıq hansı isə başqa bir subyektin deyil, xalqın, millətin öz maraqları istiqamətində yönəldilə bilsin, ümummilli ahəng üstündə köklənsin. Yəni bütün daxili potensial; təbii sərvətlərdən tutmuş intellektual gücə, mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və elə istiqamətləndirilməlidir ki, hər bir vətəndaş ümummilli tərəqqi konteks-

tində öz şəxsi maraqlarını da realizə edə bilsin.

Lakin kütləvi siyasiləşmə və ifrat siyasi qarşıdurmalar təbii ki, qüvvələrin vahid amal uğrunda səfərbər edilməsinə, ümummilli tərəqqiyə xidmət etmir. Müstəqillik əldə etdikdən sonra daxili enerjinin quruculuq işlərinə deyil, başqa səmtə yönəldilməsi, görünür, kimlərəsə lazım imiş. Qondarma Dağlıq Qarabağ problemi də bu siyasiləşməni gücləndirmək və azadlığa çıxmış xalqların milli tərəqqisinə mane olmaq üçün törədilən məqsədyönlü aksiyalardan biri idi. Lakin biz hələ də böyük dövlətlərin coğrafi-strateji planlarından doğan siyasi burulğandan çıxa bilmirik.

Bax, belə bir şəraitdə siyasi təbəddülatların fövqünə yüksəlməyə, fəaliyyətlərin ümummilli tərəqqi naminə yönəlməsinə böyük ehtiyac vardır. Nə yaxşı ki, hələ sovet dövründə də kommunist ideologiyasının yaratdığı labirintlərdən məharətlə keçərək, milli mədəniyyətin tərəqqisi, xalqın maarifləndirilməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən ziyalılarımız bu gün də cari problemlərin cazibə dairəsinə düşmədən, heç bir konyukturaya uymadan bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə ümummilli tərəqqiyə xidmət edirlər.

Bu gün siyasiləşmiş cəmiyyət və qütbləşmiş təfəkkür öz ehtiyaclarına uyğun yeni ədəbiyyat tələb etdiyi üçün klassik ədəbiyyatın və klasik mədəni-mənəvi dəyərlərin ön plana çəkilməsi heç də müqavimətsiz qarşılanmır. Lakin, bizcə, siyasiləşmiş təfəkkürün tələblərinə uyğun yeni ədəbiyyat axtarışına çıxmaqdansa, siyasi düşüncənin özünü ümumbəşəri və milli dəyərlərin prioritetliyi kontekstinə yönəltmək cəhdləri daha əhəmiyyətlidir.

Etnik-milli təfəkkürdən milli dövlətçilik şüuruna gedən yol milli və ümumbəşərinin sintezindən keçir. «Milli»





anlayışı iki fərqli məzmun yükünə malikdir. Birincisi, hər bir millət üçün spesifik olan, onu fərqləndirən xüsusiyyətləri, ikincisi, fərqli cəhətlərlə ümumi cəhətlərin vəhdətini ehtiva edir.

İnsan müəyyən bir millətə mənsub olmazdan əvvəl insandır. Və milliyyətindən asılı olmadan bütün insanlar üçün ümumi, zəruri olan cəhətlər vardır. «Etnik-milli» anlamı müxtəlif qrupların insanlarını fərqləndirən cəhətləri əhatə etdiyinə görə məzmunca kAsıbdır, solğundur. Sözün geniş mənasında «milli» anlamı isə hər bir insana məxsus zəruri şərtləri də əhatə etdiyindən, zəngin və daha tutumludur.

İnsanı səciyyələndirən keyfiyyətlərdən çoxu, onun maddi ehtiyacları, intellekti, bilik və əməli vərdişləri ümumbəşəri səciyyə daşıyır. Əsrlər boyu əvvəlki nəsillərin fəaliyyəti ilə yaranmış elm və texnologiya, maddi-texniki sərvətlər bütün insanlar üçün ünvanlanmışdır. Lakin bu və ya digər millətə mənsub olan adamlar müəyyən dildə danışır, müəyyən adət-ənənələri qoruyub saxlayırlar. Bunlar etnik-milli xüsusiyyətlərə aiddir. Milli dildən fərqli olaraq riyaziyyatın dili, kompüterin dili, texnikanın dili qlobal səciyyə daşıyır. Daha doğrusu, bu dilləri bilən insanlar da millətlər kimi qruplaşıb öz aralarında ünsiyyətə girirlər.

Hansı ölkədə yaşamasından, hansı milləti təmsil etməsindən asılı olmayaraq elm adamları və filosoflar dünyanı bir insan meyarı ilə, insan prizmasından, ümumbəşəri dəyərlər mövqeyindən dərk etməyə çalışır və dünyanın, insan–dünya münasibətlərinin müxtəlif modellərini, konsepsiyalarını hazırlayırlar.

Lakin insan öz milli və fərdi prizmalarından dünyaya münasibətini bildirirsə burada da ümumiləşdirmək üçün yararlı olan rasional biliklər toplanır. Hər bir fərdin öz

dünyası olduğu kimi öz fəlsəfəsi də var. Müxtəlif fərdlərin fəlsəfəsini yığıb, vahid ortaq məxrəcə gətirmək mümkün deyil. Daha doğrusu, fəlsəfənin özünə məxsus toplanma qaydaları vardır. Bu qaydalar elmi biliklərin toplanması və sənət əsərlərinin, bədii təəssuratların toplanmasından fərqlidir.

Millətin fəlsəfi fikri onun hər bir üzvünün fəlsəfi fikrindən toplanmayaraq, milləti təmsil etmək səlahiyyəti olan, milli ruhun daşıyıcısı olan, milli özünüdərk baryerini keçmiş olan tək-tək şəxsiyyətlərin – filosofların fəlsəfi konsepsiyalarından, bu konsepsiyaların şəbəkəsindən ibarət olur.

Milli-fəlsəfi fikir müəllifin milli mənsubiyyətindən daha çox fəlsəfi konsepsiyanın milli düşüncə tərzinə adekvatlığı ilə səciyyələnir.

Milli-fəlsəfi fikir anlayışın məğzində millətin düşüncə tərzi, milli mentalitet, milli ideallar və bu ideallara çatmaq uğrunda mübarizənin ideya əsasları dayanır. Keçmişimizdən biz miras qalmış ən böyük sərvət fəlsəfi traktatlardan öncə yeni nəslin özüdür. Müasir azərbaycanlı milli fəlsəfi fikrin genetik daşıyıcısıdır. Fəlsəfə elmindən ayrı olaraq heç də biliklər sistemi olmayıb, insanın dünyaya baxışının müəyyən üsulu dünyanın modelləşdirilməsi insanla dünya arasında, millətlə dünya arasında körpüdür.

Milli-fəlsəfi fikir milli ruhun nəzəri-konseptual şərhidir. Ən əsas məsələ milli ruhun özünün mövcudluğudur. Elə xalqlar vardır ki, onların nümayəndələri fəlsəfi traktatlar yazır, lakin onları səciyyələndirən, özəlləşdirən, fərqləndirən ruh yoxdur. Onlar çoxdan başqa ruhlara qatışıb, onların içində itib-batıblar. Başqasına qatılmaq, başqasında itmək heç də ilk baxışdan göründüyü kimi pis şey deyil. Bu, çoxların əqibətidir. Bütün kiçiklərin aqibətidir.





Bu böyük dünyada, böyük xalqların yaşadığı dünyada, böyük tarixlər yaradan və böyük nəzəriyyələr yaradan xalqlarla birgə yaşayıb onlara qatılmamaq, fərqli qalmaq asan məsələ deyildir. Digər tərəfdən də, sual olunur ki, fərqlənmək lazımdırmı?

Son vaxtlar, xüsusilə müstəqillik əldə etdikdən sonra tez-tez sual olunur ki, «biz kimik?» və «bizim milli birliyimiz vardırmı?».

Müasir azərbaycanlı üçün kim ideal ola bilər? Bəhmənyar, Fizuli, yoxsa Koroğlu? Səməd Vurğun, Yusif Məmmədəliyev, yoxsa Həzi Aslanov? Əlbəttə, kimsə deyə bilər ki, müxtəlif sahələrdən olan adamları müqayisə etmək düzgün deyil. Haqlı fikirdir və bizim məqsədimiz heç də onları müqayisə etmək deyil. Əsas məsələ bundan ibarətdir ki, xalqın məhz hansı sahədən olan böyük şəxsiyyətlərə daha çox rəğbət bəsləməsi onun milli təfəkkürünün və duyğu dünyasının strukturunda hansı sahəyə meylin güclü olduğunu aşkar etməyə imkan verir. Məlik-Məmmədin, Dədə Qorqudun, Koroğlunun timsalında tərbiyə almış gənclik, Nizaminin, Füzulinin, Vaqifin timsalında tərbiyə almış gənclikdən nə ilə fərqlənir? Bəs bunlar vəhdətdə götürüldükdə necə? Bəs muğamatın, sazın təsiri nə dərəcədədir? Məhz belə bir təsir dairəsi ola bilsin ki, bizi bir ingilisdən, rusdan fərqləndirə bilər. Lakin onların da Şekspiri, Bayronu, yaxud Puşkini, Tolstoyu vardır. Onların da Robin Qudu, Kral Arturu, yaxud İvan Qroznısı, İlya Murometsi, Suvorovu vardır.

Önəmli olan odur ki, hər hansı millətin formalaşmasında fəlsəfənin, elmin, şerin-sənətinmi, yoxsa ticarətin, yaxud müharibələrinmi rolu böyük olmuşdur? Milli nağıllar, dastanlar, laylalar, mahnılar insanlara nəyi daha çox təlqin etmişdir? Sevgini, şəfqəti, yaxud cəsurluğu, qəhrə-

manlığı, yoxsa tədbiri, hiyləni?

Hər bir millətin qəhrəmanlıq eposu da, sevgi dastanları da vardır, milli Həmzəsi də, milli Koroğlusu da vardır, satqını da, hiyləgəri də, qəhrəmanı da vardır. Lakin Həmzələri müdrik sayanlar kimdir, ona nifrət edənlər kimdir? Lakin əsl sual bundan ibarətdir ki, milli şüurun strukturunda onların nisbi payı nə qədərdir? Fərdi millətçi şüurdan fərqli olaraq, statistik orta göstərici necədir?

Milli mentalitet də, milli şüur da, hətta milli-fəlsəfi fikir də bütün bu göstəricilərdən asılı olaraq formalaşır. Hər şey fərdi və sosial idealın yönümü ilə müəyyənləşir. Başqa cür ola da bilməz. Çünki həyatın mənasını arayan fəlsəfə bu mənanı milli idealın fövqündə tapa bilməz.

Digər tərəfdən, hər hansı bir xalqın keçmişini əks etdirən fəlsəfi fikir tarixi ilə həmin xalqın müasir düşüncə tərzi və milli idealı arasında, tam bir uyğunsuzluq da ola bilər; müasir millətin öz tarixi sələflərinə nisbətən irəli getməsi, tənəzzülə uğraması, ya da başqa təsirlərə məruz qalması nəticəsində. Antik fəlsəfi fikri orta əsrlərdə yunanlar deyil, ərəblər, yeni dövrdə isə almanlar yaşatdılar. Deməli, fəlsəfi fikir nisbi müstəqilliyə malikdir və hər hansı bir xalqdan, millətdən ayrılaraq, başqaları tərəfindən əxz olunmaq və davam etdirilmək və hətta, sosial ideala, həyat normasına çevrilmək imkanına malikdir.

Müasir millətlərin istifadəsində olan təkcə öz yaratdıqları deyil. Bütün digər millətlərin həm elmi-fəlsəfi yaradıcılığı, həm də sivilizasiyanın inkişafına olan digər töhfələri ümumiyyətlə bəşəriyyətin istifadəsinə vermişdir. Ona görə də, tarix boyu ümumbəşəri fikir və mədəniyyət xəzinəsinə çox şey verib, indi onlar az faydalananlar olduğu kimi, tarixi keçmişdə xidmətləri az olmasına baxmayaraq, indi bu ümumi xəzinədən hamıdan çox faydalananlar





da vardır.

Burada çox maraqlı bir məqamla rastlaşırıq. Milli mentalitetdə nəyə isə yiyələnməyə, mənimsəməyə, yoxsa verməyə, xidmət göstərməyə daha çox meyllilik bu məsələdə də, ümumxalq, ümummillət səviyyəsində özünü göstərir. Əl tutmaq, kömək etmək, xidmət göstərmək istəyənlər özlərinin indi nə qədər geridə qaldıqlarını unudaraq, yenə də başqalarına qarşı səxavət və qonaqpərvərlik nümayiş etdirməyə çalışırlar. Fərdi miqyasda həqiqətən çox gözəl olan bu keyfiyyət ümummilli miqyasda, xüsusi dövlətçilik mövqeyindən yanaşdıqda çox mənfi nəticələrə gətirir.

Halbuki, öyrənməyin, mənimsəməyin də öz texnologiyası var. Bu özü bir mədəniyyətdir və ona yiyələnmədən, müasir qloballaşma şəraitində ancaq ziyan çəkmək olar.

Bəli, qloballaşma şəraitində milli-mənəvi dəyərlərimiz həqiqətən böyük təhlükələrlə üzləşir və milli-fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünü qoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətindir.

Müasir dövrdə bütün dünya xalqlarının fəlsəfi fikrinin strukturunda Qərb fəlsəfəsi üstün yer tutur. Qloballaşma, qərbləşmə heç də sadəcə olaraq Qərb texnikasının, Qərb investisiyasının ekspansiyası ilə məhdudlaşmayıb, həm də Qərb fəlsəfəsinin, siyasi düşüncə tərzinin təcavüzü ilə səciyyələnir. Bir əli ilə müasirlikdən, Qərbdən möhkəm-möhkəm yapışanlar o biri əlində Bəhmənyarın, Nəsiminin ideyalarını saxlamağa çalışırlar. Lakin həyat yolunu seçərkən fəaliyyət proqramını müəyyənləşdirərkən aktiv düşüncə tərzi olaraq məhz birinci əlindəkini seçməli olurlar. Çünki formaca və bəlkə həm də məzmunca arxaikləş-

miş Şərq fəlsəfi fikri bizi əhatə edən texnogen dünyasında kara gəlmir. Biz o biri əlimizdəkini ancaq bir rəmz kimi, bir ekzotika kimi saxlayırıq. Əgər saxlayırıqsa!?

Bəs çıxış yolu nədədir? Milli-mənəvi dəyərlərimizi bir rəmz edərək real proseslərə formal surətdə əlavə etmək, yoxsa milliliklə müasirliyin məzmun müstəvisində vəhdətinə nail olmaq?!

Milli fəlsəfi fikir millətin özünüdərk mərhələsində üzə çıxır. Bu isə heç də bütün millətlərə nəsib olmur. Bu baxımdan, "millət" anlayışını etnosdan fərqləndirən əlamətlərdən biri məhz milli-etnik təfəkkürlə milli-siyasi təfəkkürün vəhdətindən doğan milli fəlsəfi fikrin formalaşmasıdır.

Bir sıra millətlərdə milli-fəlsəfi fikrin nəzəriyyə halında üzə çıxmaması heç də onun tamamilə yoxluğuna dəlalət etmir. Milli özünüdərk məqamları ədəbi-bədii fikir vasitəsilə də ifadə oluna bilir.

Azərbaycan xalqının milli inkişafında ədəbi-bədii fikrin rolu həmişə böyük olmuşdur. Obrazlı düşüncə bir təfəkkür tərzi kimi rasional elmi düşüncəni həmişə üstələmişdir. Xalqımızın milli-fəlsəfi fikri də çox vaxt öz əksini elmi traktatlar və monoqrafiyalarda deyil, bədii ədəbiyyatda tapmışdır. Ona görə də fəlsəfi təfəkkürə gedən yol da əsasən ədəbiyyatdan keçmişdir.

Fəlsəfi fikir çox vaxt konkretlikdən uzaq olduğuna görə milli özünəməxsusluğu, xüsusiyyətləri ifadə etmək üçün heç də əlverişli vasitə sayılmır. Böyük fəlsəfi fikir məktəbləri olan bir çox xalqların, məsələn, yunanların, almanların, ingilislərin, fransızların milli-etnik özünütəsdiqi də daha çox dərəcədə bədii ədəbiyyatda öz əksini tapmışdır. Geniş kütlələrə Şekspir Bekondan, Höte Hegeldən, Nizami Bəhmənyardan, Səməd Vurğun Heydər Hüseynov-





dan daha çox təsir göstərmişdir. Ümumbəşəri ideallara xidmət edən, ümumiyyətlə insanın mahiyyətindən çıxış edən fəlsəfi fikir daha çox milli-mənəvi konkretliyin özünütəsdiqi kimi üzə çıxan ədəbi-bədii fikrin tamamlanmasına xidmət etmiş, fikirdə konkretliklə ümumiliyin vəhdəti gerçəklikdə milliliklə ümumbəşəriliyin vəhdətini əks etdirmişdir.

## Millilik və ziyalılıq

Yeni əsrin yüksəkliyindən tarixi keçmişimizə nəzər saldıqda hələ səsi qulağı-mızda cingildəyən ötən əsrin hələ də aktual olan problemləri ilə yanaşı, bir qədər arxa planda minillik tariximizin konturları görünür. Yalnız bugü-nün dərd-səri və uğurları ilə yaşayanlar üçün keçən əsr bir yana qalsın, keçən il də artıq çoxdan silin-mişdir. Lakin cari həyatda, gündəlik qayğılarda itib-batanlarla yanaşı əsrin və minilliklərin davamı olan, onları öz bioloji, sosial və mənəvi genlərində yaşadan, kökü lap dərinlərə, qədimlərə gedib çıxan əsil-nəcabətli insanlarımız da az deyil.

"Ot kökü üstündə bitər", – deyirlər. Lakin insanlar da müxtəlifdir, köklər də. Birillik, yüzillik və minillik köklər üzərində dayananların zəmanənin sınaqlarına qarşı müqavimətləri də müxtəlif olur.

Əsil-nəcabətli adamlar təkcə atasını, babasını tanıyıb, onların yolu ilə gedənlər deyil. Ulu babalara qədər gedib çıxan bütöv bir sülalə də hələ azdır. Bunun üçün əsas şərt milli və ümumbəşəri köklərə bağlılıqdır. Bu baxımdan əsil-nəcabətlə ziyalılıq arasında sıx daxili əlaqə vardır.

Ziyalı sadəcə savadlı adam deyil. Bilikli, elmli, müəyyən bir ixtisas sahəsinə mükəmməl surətdə yiyələnmiş şəxsə də hələ ziyalı demək olmaz. Böyük alim, şair,

bəstəkar da hələ ziyalı olmaya bilər.

Ziyalılıq insanın özünün nail olduqları, mənim-sədikləri ilə deyil, başqalarına verdikləri ilə müəyyən olunur. Lakin nəyin verilməsindən söhbət gedir? Bir xeyriyyəçi camaata maliyyə yardımı edə bilər, biznesmen iş yeri açar, həkim başqalarını müalicə edər, müəllim başqalarına bilik verər. Lakin bu da ziyalılıq üçün kifayət deyil. Bunun üçün həmin bu fəaliyyətlərin kortəbii yox, dərk edilmiş addım olması, görülən işlərin bəşəri və milli mənafe baxımından həyata keçirilməsi lazımdır.

Ziyalı sadəcə ayrı-ayrı adamların yox, bütövlükdə millətin yoluna işıq salan adamdır. Yəni söhbət lokal miqyasda kimlərəsə yardım göstərmək, kimlərəsə şəfa vermək, bilik öyrətməkdən yox, milli köklər üzərində möhkəm dayanaraq millətin gələcəyi üçün yol açmaqdan, əsrlərdən və minilliklərdən gəlib keçən, bizi gələcəyimizə məhz özümüz olaraq aparan milli-mənəvi dəyərlərimizin, invariantlarımızın yeni nəslə, yeni əsrə daşınmasına xidmətdən gedir. Burada biz mahiyyət və hadisənin dialektikası ilə rastlaşırıq. Belə ki, insanpərvərlik və millətsevərlik də elə yuxarıda sadaladığımız konkret fəaliyyət aktlarında təzahür edir. Fərq ancaq fəaliyyətin motivində, onun kortəbii və ya məqsədyönlü olmasındadır. Sadəcə vəzifə borcunun, yoxsa insanlıq borcunun yerinə yetirilməsindədir. Böyük elmi kəşflər edən alim bu kəşfin öz millətinə və ya bütövlükdə bəşəriyyətə xeyirmi, yoxsa ziyanmı gətirəcəyinin fərqinə varmırsa, o hələ ziyalı deyil. Hər hansı bir şair öz gözəl sənəti ilə insanların zövqünü oxşayırsa, onların emosional yükünü artırırsa, onları müəyyən bir səmtə yönəldirsə böyük sənətkar sayıla bilər. Onun ziyalılığı isə verdiyi emosiyanın böyüklük dərəcəsi ilə deyil, seçdiyi səmtin milli ideallara və dövlətçilik maraqlarına uyğunluq





dərəcəsi ilə ölçülür.

Milli dövlət quruculuğu, dövlətçilik ənənələrinin formalaşması ancaq siyasətçilərin işi deyil. Bunun üçün alimin də, şairin də, memarın da, həkimin də milli ziyalılara çevrilməsi prosesi getməlidir. Bu və ya digər müəssisədə çalışan və maaş almaq müqabilində vəzifə borcunu yerinə yetirən şəxslərin öz fəaliyyətini milli mənafe kontekstində qurması, əməyin eyni zamanda vətənpərvərlik amilinə çevrilməsi ancaq xalqın bir millət kimi formalaşması sayəsində mümkündür. Bu baxımdan, milli mənafe ilə şəxsi mənafelərin uzlaşdırılması dövlətin əsas funksiyalarından biri olmalıdır.

Müstəqillik əldə etdikdən sonra millət haqqında, milli mən, milli kimlik haqqında çox danışılır. Lakin bizi başqalarından fərqləndirən, məxsusiləşdirən cəhətlər, milli müəyyənliyin invariantları məlum olmadıqca bu cür söhbətlər sadəcə xoş niyyətdən və ya millətçi şüarlardan o tərəfə apara bilmir. Əksinə, milli mövzu şəxsi nüfuzun, şəxsi imicin artırılması üçün bir vasitəyə çevrilir. İnsanların milli hissləri ilə manipulyasiya edənlər bu mövzudan siyasətdə də gen-bol istifadə edirlər. Açıq etiraf etmək lazımdır ki, 80-ci illərin axırları – 90-cı illərin əvvəllərində məhz ermənilərin təcavüzü nəticəsində milli hisslərin, emosiyaların canlandığı, tüğyan etdiyi bir vaxtda yaranmış şəraitdən sui istifadə edənlər də, millətçi şüarlar dalğasında özlərinin də xəbəri olmadan siyasət arenasına çəkilib çıxarılan adamlar da sonradan doğrudan-doğruya siyasətçi olmaq iddiasına düşdülər. Emosiyalar çəkilib getdikdən sonra – sağlam şüur, məntiq, həqiqi siyasi bilik və dövlətçilik təcrübəsi lazım olduqda isə çəkilib yerini bu sahədə səriştəsi olanlara vermək əvəzinə, nəyin bahasına olursa olsun yenə də meydanda qalmağı üstün tutdular. Bu gün

belə qüvvələrin bir qismi siyasi meydanda öz yerini möhkəmləndirmək üçün ziyalı missiyasından, millətçilik kartından sui-istifadə etməyə çalışırlar. Təəssüf ki, ziyalılarımızın da bir qismi məsələnin mahiyyətinə varmadan, sadəcə millətlə (əslində "millət-millət" deyənlərlə) bir yerdə olmaq missiyasını yerinə yetirmək naminə həmin müxalif qüvvələrə dəstək verməyə çalışırlar.

Bəli, ziyalılıq millətçilik ilə sıx surətdə bağlıdır. Lakin ziyalı millətin şəninə təriflər yağdıran adamlara deyilmir. Sadəcə milləti sevmək də hələ ziyalılıq deyil. Ziyalı milli ruhun bilavasitə daşıyıcısı olan, milli ruhdan qida alıb yenidən onu millətə qaytaran, əsrlərin və nəsillərin varisliyini təmin edən şəxsdir.

Bəli, kosmopolit adamdan ziyalı ola bilməz. Lakin sadəcə millətçi adam da hələ ziyalı deyil. Ziyalılıq üçün millilik (millətçilik?!) zəruri şərtdir, lakin kafi deyildir. Sevən adamlar sevdiklərinə heç də həmişə fayda gətirmirlər. Sevdiyinin mahiyyətini anlamayan, onunla eyniləşə bilməyən, onu ancaq özününküləşdirmək istəyən, lakin özü ona çevrilə bilməyən, onun ola bilməyən şəxslərin sevgisi xeyirdən daha çox ziyan gətirir, faciə törədir. Başabəla millətpərəstlərin millətə olan sevgisi də milli ruhu öz dar düşüncə prizmasından, məhdud görüş dairəsindən keçirməyə, milləti özəlləşdirməyə yönəldilmişdir. Əvvəlcə isə millətləşmək lazım idi. Adla, familiya ilə yox, sadəcə danışıq dili ilə, sazla, sözlə yox, həm də idrakla, fəlsəfi təfəkkürlə. Milli ruh özü də müəyyən inkişaf mərhələlərindən keçir. Bir şəxsin özünüdərk yolunda emosiyadan təfəkkürə və oradan da fəlsəfi dünyagörüşünə doğru keçdiyi yola bənzər olaraq, bir millət də yalnız ruhun emosional halından fəlsəfi özünüdərk məqamına yüksəlirkən əsl böyük millət olur. Özünü sevməkdən, özünəvurğunluqdan – özünüdərkə, özünütəsdiqə doğru gedən bir yol !





### Dövlətçilik hissi

Milli ruhu qorumağın, inkişaf etdirməyin və yeni nəsillərə çatdırmağın ən mühüm şərti milli dövlətçilikdir. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir.

Milli-fəlsəfi fikrin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması, davam etdirilməsi üçün milli-mənəvi abidələrin, bədii ədəbiyyatın rolu həqiqətən böyükdür. Bir millət üçün canlı tarix haradasa qırılanda, onun inkişafının daxili hərəkətverici qüvvələri məhdudlaşdırılanda, inkişaf kənar qüvvələrlə məqsədyönlü surətdə başqa səmtə istiqamətləndiriləndə milli genin heç olmazsa başqa ampluada, fövqəltarixi formalarda; fikirlərdə, xatirələrdə, ədəbiyyatda, incəsənətdə yaşadılması zərurəti yaranır. Xalq başqa imperiyaların işğalı altında qaldıqda, başqa əqidələrin rəsmi təsir dairəsinə düşdükdə milli ruhu öz şəxsi həyatı bahasına, diri-diri yandırılması, dərisinin soyulması hesabına da olsa yaşadan və bir əmanət kimi yeni nəsillərə ötürən həqiqi böyük ziyalılar estafeti öz əllərinə almalı olurlar.

Dövlət xadimləri, siyasətçilər, sərkərdələr öz tarixi ziyalılıq missiyasını yerinə yetirə bilməyəndə, milli ruh milli varlığın himayəsindən məhrum olanda, qılınc qələmlə, zər kərəmlə vaxtında birləşməyəndə bütün ağırlıq təkcə qələm və kərəmin, yaradıcı ziyalılar və kərəm əhlinin üzərinə düşür. Milli dövlətçilik kəsilməz bir proses kimi davam etsin deyə, dövlətlərarası dövrdə kəsilməzliyi milli-mənəvi körpülər təmin etməli olur.

Milli dövlət isə bununla səciyyələnir ki, kimlərinsə milli dəyərləri öz qanı bahasına qoruyub-saxlamasına ehti-

yac qalmır. Çünki o, ellikcə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və inkişaf etdirilir. Yəni dövlətçiliklə millilik birləşmiş olur.

Dövlət hüquqi və siyasi aktlarla, dövlətçilik isə mənəviyyat və mentalitetlə bağlıdır. Dövlətçilik düşüncənin alt qatında, təhtəl şüurda, psixologiyada təzahür edir. Dövlətçilik siyasi müstəvidə milli özünütəsdiq prosesinin mahiyyəti, dövlət isə onun hansı isə konkret formada reallaşdırılması vasitəsidir.

Məsələ burasındadır ki, konkret bir hadisə kimi dövlət olmadıqda belə, dövlətçilik yaşaya bilər. Dövlətçilik ənənəsinin saxlanması isə milli dövlətin nə vaxtsa yenidən qurulacağına təminat verir. Ən pisi odur ki, dövlətçilik ənənəsi və dövlətçilik hissiyatı olmasın. Bu halda hətta dövlət aparatı qurulsa da, o, milli dövlət olmayacaq, milli iradənin ictimai-siyasi özünütəsdiqi olmayacaq, xalqın, millətin mənafeyinə xidmət etməyəcəkdir.

Dövlətçilik ənənələrinin yaranması nə deməkdir və hansı göstəricilərlə şərtlənir? Bu, ilk növbədə əhalinin xalqa, xalqın millətə, sakinlərin vətəndaşlara çevrilməsi istiqamətində gedən prosesdir. O, mədəni-mənəvi identiklik hissi ilə yanaşı, ümummilli iqtisadi mənafe duyğusu tələb edir. Dövlətçilik insanlarda vətənpərvərlik duyğusunu, vətən anlamının milli mənə daxil edilməsini nəzərdə tutur, mənəviyyatda fərdi miqyasdan, ailə miqyasından, tayfa miqyasından, zona, region miqyasından kənara çıxaraq bütöv vətən duyğusunu hər şeydən yüksək tutmaq vərdişi tələb edir. Öz dövlət simvollarına hörmət və sevgi bəslənməsini, öz dövlətinin nailiyyətlərinə görə iftixar hissi keçirilməsini, dövlətin uğursuzluqlarını isə şəxsi faciə kimi yaşamaq səriştəsi tələb edir. Bu səviyyədə "milli" anlamının etnik-millidən fərqli yeni mənası, siyasi aspekti, dövlətlə





adekvatlığı ortaya çıxır.

Milli dövlət qurulması və dövlətçilik ideyalarının həyata keçirilməsi və bu proseslərin dönməzliyinin təmin edilməsi xalq qarşısında ən böyük xidmətdir. Bu xidmət milli-tarixi prosesin kəsilməzliyini təmin edilməsi baxımından ziyalı məramının siyasi müstəviyə keçirilməsi deməkdir. Belə ki, milli ədəbiyyatı da, musiqini də, adət-ənənələri də, dini dəyərləri də qoruyub saxlayan, bütöv, sağlam bir orqanizm kimi yaşadan milli dövlət qurmaq və dövlətçilik ənənələrini bərpa etmək təkcə ziyalılığın deyil, həm də siyasətin ən ali amalı olmalıdır.

Millətini sevən, millətə həqiqətən xidmət göstərmək istəyən insanlar öz ixtisasları üzrə, dərindən bildikləri sahələrdə ümumi milli tərəqqi işinə fayda gətirməklə yanaşı, cəmiyyətdəki proseslərə də öz münasibətlərini bildirməyə çalışırlar. Təəssüf ki, bu yeni rolda onların bir çoxu artıq peşəkar mütəxəssis olmadıqlarını unudurlar. Ona görə də, bir sahədə qazanılmış nüfuzun başqa bir səmtə yönəldilməsi məsələsində çox ehtiyatlı olmaq lazımdır. Təsadüfi deyildir ki, inkişaf etmiş Qərb ölkələrinin üstünlüklərindən biri burada – hər kəsin məhz öz işi ilə məşğul olmasıdır. Bu işlərin ümumi mənafe məcrasına yönəldilməsi də peşəkar səviyyədə həyata keçirilir. Buna nail olmaq üçün isə həmin ölkələr böyük demokratik inkişaf yolu keçiblər. Həm də bu inkişaf xaos yox, stabilləşmə şəraitində həyata keçirilib. Belə stabil cəmiyyətdə, hər kəs öz bildiyi işlə məşğul olduqda, peşəkarlıq ön plana keçdikdə ziyalı olmaq, ziyalı olaraq qalmaq, ümummilli mənafeyə xidmət etmək çətin olmur. Cəmiyyət özü hər kəsin kiçik də olsa ziyalı potensialının reallaşdırılmasına imkan yaradır. Demək olar ki, hamı ümumictimai tərəqqi prosesinin iştirakçılarına çevrilir. Tərəqqiyə qarşı çıxanlar, milli mənafeyə

ziyan gətirənlər isə bir qrup tüfeylilər, cinayətkar ünsürlərdir. (Yaxşı cəmiyyət o cəmiyyətdir ki, burada hər kəs öz müsbət əmsalı ilə ümumi işə daxil olur). Bizim də məqsədimiz məhz belə bir cəmiyyət yaratmaqdır. Lakin biz hələ keçid dövründəyik.

Keçid mərhələsində olan cəmiyyətin bir ciddi problemi də budur ki, ümummilli tərəqqinin əsas istiqamətləri hamı tərəfindən kifayət dərəcədə dərk edilmədiyindən, peşəkarlıq çox vaxt arxa plana keçdiyindən, fikir plüralizmini fikir xaosu əvəz etdiyindən, söz fikirdən, ideyadan ayrılıb müstəqil amilə çevrildiyindən, habelə yeni ictimai təbəqələr hələ kifayət dərəcədə formalaşmadığından və sosial-iqtisadi ukladların spektri həddindən çox rəngarəng olduğundan tərəqqi yolunu tənəzzül yolundan seçib ayırmaq da çətin olur. Cəmiyyət ifrat dərəcədə siyasiləşir, peşəkar siyasətçilərlə yanaşı öz ixtisası üzrə uğur qazana bilməyən müxtəlif peşə sahibləri də siyasətə qurşanır və siyasət aləmində diletantlardan ibarət olduqca müxtəlif qruplaşmalar ortaya çıxır.

Müstəqillik illərində Azərbaycan keçid dövrünün bir sıra uğurları və təbəddülatları ilə yanaşı siyasiləşmə meyllərinin ifrat güclənməsi ilə də səciyyələndirilə bilər. Elə bil ki, sovet imperiyası dövründə siyasətdən uzaqlaşdırılmış və azad fikirdən məhrum edilmiş xalq belə bir şans qazanan kimi bu istiqamətdəki boşluğu böyük ehtirasla doldurmağa çalışır.

Lakin bizim müstəqillikdən gözlədiyimiz yalnız söz azadlığı və siyasi aludəçilik deyildi. Müstəqillik ona görə lazımdır ki, dövlət quruculuğu və sosial təşkilatlanma artıq hansı isə başqa bir qüvvənin deyil, xalqın, millətin öz maraqları istiqamətində yönəldilə bilsin, ümum-milli ahəng üstündə köklənsin. Yəni bütün daxili potensial, təbii sərvətlərdən tutmuş intellektual gücə, mədəni-mənəvi dəyərlərə qədər bütün imkanlar elə səfərbər edilməli və elə istiqamətləndirilməlidir ki, hər bir vətəndaş ümummilli tərəqqi kontekstində öz şəxsi maraqlarını da realizə edə bilsin.





Lakin kütləvi siyasiləşmə və ifrat siyasi qarşıdurmalar təbii ki, qüvvələrin vahid amal uğrunda səfərbər edilməsinə, ümummilli tərəqqiyə xidmət etmir. Müstəqillik əldə etdikdən sonra daxili enerjinin quruculuq işlərinə deyil, başqa səmtə yönəldilməsi, görünür, kimlərəsə lazım imiş. Qondarma Dağlıq Qarabağ problemi də bu siyasiləşməni gücləndirmək və azadlığa çıxmış xalqların milli tərəqqisinə mane olmaq üçün vasitələrdən biri idi. Lakin biz hələ də böyük dövlətlərin qeostrateji planlarından doğan siyasi burulğandan çıxa bilmirik.

Bax, belə bir şəraitdə siyasi təbəddülatlara uymadan ümummilli tərəqqi naminə fəaliyyətlərin davam etdirilməsinə böyük ehtiyac vardır. Nə yaxşı ki, hələ sovet dövründə də kommunist ideologiyasının yaratdığı labirintlərdən məharətlə keçərək, milli mədəniyyətin tərəqqisi, xalqın maarifləndirilməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən ziyalılarımız, bu gün də cari problemlərin cazibə dairəsinə düşmədən, heç bir konyukturaya uymadan bəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə ümummilli tərəqqiyə xidmət edirlər.

Bu gün siyasiləşmiş cəmiyyət və qütbləşmiş təfəkkür öz ehtiyaclarına uyğun yeni ədəbiyyat tələb etdiyi üçün klassik ədəbiyyatın və klassik mədəni-mənəvi dəyərlərin ön plana çəkilməsi heç də müqavimətsiz qarşılanmır. Lakin, bizcə, siyasiləşmiş təfəkkürün tələblərinə uyğun yeni ədəbiyyat axtarışına çıxmaqdansa, siyasi düşüncənin özünü ümumbəşəri və milli dəyərlərin prioritetliyi kon-

tekstinə yönəltmək cəhdləri daha əhəmiyyətlidir. Əsl böyük vətənpərvərlik də elmi və ya bədii yaradıcılığın və şəxsi nüfuzun məhz dövlətçiliyin möhkəmləndirilməsinə yönəldilməsini tələb edir.

### Fərdi və milli mənafe

İnsan özü ilə dünya arasında vasitəçiyə ehtiyac hiss edirmi? İnsan özünü dünyaya qarşı qoyarkən, dünya ilə tərəf–müqabil olarkən cəmiyyəti özünə, yoxsa dünyaya aid edir? Maddi dünyadan fərqlənən insanın ancaq mənəvi varlığıdırsa, onun dünyadakı hadisələrdə iştirakı hansı vasitələrlə həyata keçir? "Mən"in təsdiqi şəxsi ideyaların maddi müstəvidə reallaşdırılması iləmi, yoxsa kənardan istiqamətləndirilən proseslərə sadəcə qoşulmaqlamı mümkün olur?

Şəxsi mənafe necə başa düşülməlidir? "Mən"in təsdiqi kimimi, yoxsa cismani varlığın maddi dünyada iştirak dərəcəsi kimimi? Şəxs dünyadan pay alandamı, yoxsa dünyaya pay verəndəmi özünü təsdiq etmiş olur? Başqalarından yardım alandamı, yoxsa başqalarına yardım edəndəmi? Kimlərinsə tərəfindən dəstəklənəndəmi, kimlərəsə dəstək (dayaq) olandamı? Seviləndəmi, yoxsa sevəndəmi? Öyrənəndəmi, yoxsa öyrədəndəmi?

Şəxsi özünütəsdiq olduğu kimi, ictimai özünütəsdiq və milli özünütəsdiq də mümkündürmü? Əgər mümkündürsə, bu özünütəsdiqlərin subyektləri kimdir? Cəmiyyət və ya millətmi, yoxsa yenə də fərdmi? İctimai mənin və ya milli mənin müstəqil mövcudluğu mümkündürmü? Yoxsa onlar ancaq fərdi mənlərdəmi təzahür edir? Suallar çoxdur və əvvəlcə onların fəlsəfi-konseptual izahına ehtiyac vardır. Belə ki, sadəcə şəxsi, ictimai və ya milli mənafedən





adi şüur səviyyəsində danışmaqla problemin köklü izahı mümkün deyil. Fərdi mənafe ilə ictimai mənafeni qarşılaşdırmaq özü də düzgün deyil. Çünki burada söhbət iki eyni tərtibli hadisənin nisbətindən getmir. Fərdi mənafe zəngindir, rəngarəngdir, çoxcəhətlidir, ictimai mənafe isə milli ruhun hərarətindən kənarda məhdud, solğun və birtərəflidir. Digər tərəfdən, bu və ya digər ictimai mənafe, o cümlədən hətta milli mənafe harada isə abstrakt şəkildə mövcud olmayıb, fərdi mənafeyə daxildir, onun tərkib hissəsidir.

Bəli, nə qədər paradoksal görünsə də fərdi mənafelər ictimai mənafeyə deyil, ictimai mənafelər fərdi mənafeyə daxildir. Lakin fərdlər çoxdur və fərdi mənafelərin strukturu da müxtəlifdir. Kimlərinsə fərdi mənafelərində bu və ya digər ictimai mənafe aspektləri üstünlük təşkil edə bilər. Kim isə milli mənafeni, kim isə dövlətçilik mənafeyini, kim isə mədəni-mənəvi dəyərləri üstün tuta bilər. Kim isə bunların heç birinə məhəl qoymadan, ancaq öz fiziki sağlamlığını, şəxsi əhvalını və şəxsi əmlakını ön plana çəkə bilər. Deməli, fərdi mənafelər çoxluğu ifrat fərdi mənafedən ifrat ictimai mənafeyə qədər bütöv bir spektri əhatə edir. Əslində "şəxsi və ictimai mənafe problemi" idealizasiya halında bir ifrat qütblə digər ifrat qütb arasında münasibəti xatırladır. Halbuki, real həyatda şəxsi mənafelər müxtəlif aspektli ictimai mənafe komplekslərini ehtiva edir.

İstənilən cəmiyyətdə, istənilən ictimai münasibətlər çoxluğunda şəxslərin mənafeyinə uyğun gəlməyən mücərrəd ictimai mənafe yoxdur və ya daha doğrusu, olmamalıdır. İctimai mənafe ancaq o halda həqiqətən mənafedir ki, o, "normal şəxslərin" mənafeyini əks etdirir. Daha doğrusu, şəxsi mənafelər cəmiyyət prizmasından keçərək

mürəkkəb struktur kəsb edir.

Geri qalmış ictimai toplumlarda şəxsi mənafelərin toplumla əlaqəsi zəifdir. O cəmiyyət mütəşəkkil hesab olunur ki, burada ayrı-ayrı şəxslərin həyat və mənafeləri ictimai qurumlarla vasitələnir. Və bunun sayəsində birinin mənafeyi başqalarının mənafeyi üçün şərt olur. Yəni şəxsi inkişafın ictimai inkişafdan, şəxsi xoşbəxtliyin ictimai rifahdan asılı olduğu dərk edilir. Hər bir adam öz xeyrinə çalışmaq üçün ictimai mənafeyə xidmət etmiş olur. Və əksinə, cəmiyyətin tərəqqisi hər bir şəxsin rifahına xidmət edir. Ən başlıcası isə, insanlar bunu dərk edir və özünü başqalarına və cəmiyyətə qarşı qoymaqdan çəkinir.

Sovet dövründə "ictimai mənafe" anlayışı "dövlət mənafeyi" ilə eyniləşdirilirdi. Əslində isə dövlət ilə cəmiyyətin adekvatlığı gerçəklikdən çox uzaqdır. Digər tərəfdən, "ictimai" anlayışı heç də həmişə bütövlükdə cəmiyyəti nəzərdə tutmur. Müəyyən bir sosial qrupun, ictimai birliyin, siyasi partiyanın, kollektivin mənafeyi də "ictimai" anlayışı ilə ehtiva olunur. Yəni şəxsi mənafe qrup mənafeləri ilə də müqayisə oluna bilər və bu xüsusi bir mövzudur. Lakin şəxsi və ictimai mənafelərin nisbətindən danışdıqda bir qayda olaraq bütövlükdə cəmiyyətin mənafeyi nəzərdə tutulur. Bu isə həm də "dövlət" anlamının geniş mənasına uyğun gəlir. Dövlət ilə cəmiyyət arasında böyük ziddiyyətlər olmadıqda, dövlət öz əsas missiyasına uyğun olaraq bütövlükdə cəmiyyətin, xalqın mənafeyini təmsil etdikdə bu ifadələrin adekvatlığı şübhə doğurmur. Bu halda ictimai mənafe əslində cəmiyyətlə, ictimai proseslərlə vasitələnmiş şəxsi mənafedir.

Dövlətlə cəmiyyət arasında ziddiyyətlər olduqda, dövlət rəhbərliyi cəmiyyətin mənafeyini deyil, xüsusiləşərək cəmiyyətin fövqünə qalxmış bir qrup dövlət məmurlarının mənafeyini təmsil etdikdə ictimai mənafe ilə şəxsi mənafe arasında da ziddiyyət yaranır. Onda bu iki mənafe bir-birini tamamlamaq əvəzinə və ya biri digərinin məzmununa daxil olmaq əvəzinə qarşı-qarşıya durur.

İmperiya şəraitində milli mənafelərlə dövlət mənafeyi arasında ziddiyyət olduğundan şəxsi və ictimai mənafe də uyğunlaşa bilmir. Müstəqil milli dövlətlərdə isə dövlət quruculuğu öz təyinatına uyğun surətdə aparılarsa millilik və dövlətçilik üst-üstə düşür. Bu halda şəxsi mənafe ilə ictimai mənafe arasında qarşılıqlı tamamlama üçün şərait yaranır.

Həm fərdi, həm də ictimai həyatın strukturunda ümumbəşəri dəyərlərlə yanaşı milli-mənəvi dəyərlər də mühüm yer tutur. Milli mənsubiyyətindən asılı olmayaraq bütün insanlara və bütün cəmiyyətlərə xas olan cəhətlər ilk növbədə iqtisadi və intellektual aspektləri əhatə edir. Öz cismani varlığını təkrar istehsal etmək, təsərrüfat fəaliyyətlərini qurmaq, sənayeni inkişaf etdirmək və bunun üçün yeni-yeni texniki vasitələr icad etmək, təbiətin qanunlarını öyrənmək və onlardan istifadə etmək sahəsində insanların maraqları əsasən üst-üstə düşür. Yəni burada insan-insan münasibətindən daha çox, insan-təbiət münasibətindən söhbət gedir. Maddi dünyaya, təbiətə münasibətdə bütün insanlar milli mənsubiyyətindən asılı olmadan eyni mövqedə dururlar. Düzdür, burada da müxtəlif dövrlərdə müxtəlif xalqların fəaliyyətləri tam üst-üstə düşmür. Təbiətə münasibətdə də praqmatiklik, eqoizm, şairanəlik və s. müxtəlif mövqelər ola bilər. Ayrı-ayrı adamlar və hətta bəlkə bütöv millətlər də bu baxımdan fərqlənə bilərlər. Məsələn, Novruz Bayramı əslində insanların təbiətə münasibətini ifadə edir. Lakin müəyyən xalqlarda bu münasibət özünü daha qabarıq göstərir və daha çox ənənəyə çevril-

mişdir. Ümumiyyətlə, ənənələrin bir qismi insanların hələ təbiətdən tam ayrılmadıqları dövrdən başlanır və insanla təbiətin vəhdətini ifadə edir. Digər qisim ənənələr insan özünü təbiətdən ayırdıqdan sonra ona olan şüurlu münasibəti (minnətdarlıq hissi və s.) ifadə edir.

Lakin millilik daha çox dərəcədə insanların öz aralarındakı münasibətlərdə üzə çıxır. Bu da ən çox əxlaq sferasını əhatə edir.

Din insanlar arasındakı münasibəti deyil, insanla Allah arasındakı münasibəti ifadə etdiyindən, o da milliliyin fövqündə dayanır. Dini duyğular daha çox dərəcədə insanın təbiətə münasbətinin davamı kimi ortaya çıxır. Dində insan özü ilə təbiət, özü ilə dünya arasında vəhdət axtarır.

Millilik tarixən eyni təbii mühitdə, eyni ictimai-iqtisadi şəraitdə formalaşmış olan insanların öz aralarındakı münasibətlərin ənənəviləşmiş məqamlarını əhatə edir. İnsanlar arasında əlaqə və ünsiyyətin ardıcıl, müntəzəm xarakter daşıması vahid ünsiyyət vasitələrindən istifadə olunmasını tələb edir. Ünsiyyət dedikdə biz yalnız dili deyil, insanlar arasında əlaqənin bütün formalarını nəzərdə tuturuq.

Əlbəttə, etnik-milli xüsusiyyətlər qısa müddətdə, birdən-birə formalaşmır. Əsrlər boyu davam edən ənənəviləşən, qərarlaşan ünsiyyət formaları tədricən cəmiyyətdə stabil sosial normalar, əxlaqi və estetik meyarlar sistemi yaradır və düşüncə tərzinin özünə də təsir edir. Əvvəlki nəsillərin həyat tərzi və qiymətləndirmə meyarları bilavasitə ötürülməklə yanaşı, bədii ədəbiyyat və incəsənət vasitəsi ilə də yeni nəslə çatdırılır. Nəticədə milli varislik müxtəlif kanallar və vasitələrlə təmin edilir.

İnsan müəyyən milli-mənəvi dəyərlər sistemində formalaşdıqdan sonra başqa bir mühitə düşərsə, onunla





mühit arasında ziddiyyətlər yaranması qaçılmazdır. Belə ki, hər bir insanın fərdi-mənəvi aləmi adekvat ictimai mühit tələb edir. Yalnız bu zaman insanla cəmiyyət arasında harmoniya mümkündür.

*"Bakı-Təbriz" jurnalı, 2005, № 3.*

# Ziyalı məsuliyyəti və böyüklük səlahiyyəti

*Hisslə yox, ağılla hərəkət etmək lazımdır...*
*– Lakin kimin ağlı ilə ?!*

Müasir dövrdə fikir despotizmi tənqid olunur, fikir plüralizminə hər cür şərait yaratmaq tələb olunur. Çünki həqiqət yalnız fikirlərin toqquşmasında, ideya mübarizəsində üzə çıxa bilər.

Lakin fikir plüralizmi fikir xaosu kimimi başa düşülməlidir? Bu o deməkdirmi ki, xalqın başbilənləri olmamalıdır, hamının inandığı və sözünə əməl etdiyi adamlar olmamalıdır, hərə necə düşünürsə elə hərəkət etməlidir? Onda vahid xalqdan, el gücündən danışmaq mümkündürmü? El nə zaman həqiqətən güclü olur? O zaman ki, sözü bir, əməli bir olsun, hamı çəkici bir nöqtəyə döysün.

Lakin, əvvəla, bu birliyə necə nail olmaq mümkündür? İkincisi və ən başlıcası, bu birliyin əsasında kimin sözü, kimin fikri dayanmalıdır? Hamının fikrini ortaq məxrəcə gətirmək mümkündürmü? Hətta elmin, texnikanın müasir inkişaf mərhələsində ən mükəmməl kompüter də milyonlarla adamın fikrini nəzərə alan ümumi bir fikir tapa bilməz. Tapa bilməz, çünki bu fikirlərin əksəriyyəti sadəcə olaraq bir-birinə ziddir, bir-birini təkzib edir.

Sual oluna bilər ki, son aylarda yüz minlərlə adamın meydana toplaşaraq öz iradəsini bildirməsi xalqın birliyinə





dəlalət etmirmi? Bu mitinqlərdə, bu izdihamlarda - fəhlələri, tələbələri, ziyalıları, müxtəlif millətlərin nümayəndələrini – azərbaycanlıları, rusları, ləzgiləri və s. birləşdirən vahid amal, vahid istək idi, ədalət hissi, qanunsuzluğa qarşı etiraz səsi idi. Lakin təəssüf ki, istəklərin, hisslərin üst-üstə düşməsi hələ fikirlərin və əməllərin üst-üstə düşməsi deyil. Hələ insan fəaliyyətinin üsul və xarakterinin, iradələrin vahid məqsədə tabe edilməsi deyil.

Fikir, əməl birliyi prinsipcə iki yolla əldə oluna bilər. Birincisi, gərək hamı eyni bir intellektual səviyyədə olsun, eyni cür düşünsün, tam bir fikir yekcinsliyi yaransın. Bu isə mümkün deyil və yaxşı ki, mümkün deyil. Hamı üçün əlçatan olan orta bir düşüncə səviyyəsi mürəkkəb problemlərin düzgün həll yolunu tapmağa imkan verə bilməz. İkincisi, gərək xalqın yüksək intellektual səviyyəyə malik olan adamları, xalq adından düşünməyə və söz deməyə mənəvi səlahiyyəti və əqli imkanı olan adamları fikir mübadiləsi və diskussiya yolu ilə hər bir problem üzrə vahid qənaətə gəlsinlər və bütün xalq bu ümumi qənaətlə yekdil olsun. Bu yekdillik hər şeyi hamının dərk etməsi hesabına deyil, dərk edənlərə inam hesabına əldə edilə bilər. Lakin, heç şübhəsiz, bu inam göydən düşmür, əmrlə, göstərişlə olmur, xalqın etimadını əməli işlə qazanmaq, ona layiq olmaq lazımdır.

Bakıdakı son hadisələr göstərdi ki, xalqda ağsaqqal sözünə inam azalıb, adamları birləşdirən yalnız hisslərdir, ağıla gəldikdə isə hər kəs öz ağlı ilə iş görməyi daha üstün tutur. Bunun səbəbləri nədədir? Necə ola bilər ki, böyüyə hörmət bizim milli adət-ənənəmizin mühüm xüsusiyyətlərindən biri ola-ola bu gün "ağsaqqallar" gənclərdən incimәli olurlar? Bəlkə son dövrlərdə bu adət-ənənələrimizin təbliğində, gənclərin tərbiyəsində ciddi nöqsanlara yol ver-

mişik? Bu doğrudur. Lakin əsas səbəb deyil. Məsələ burasındadır ki, K.Marksın dediyi kimi, tərbiyə verənin özünə də tərbiyə vermək lazımdır. Təsadüfi deyil ki, uşaqlar Məcnunu daşa tutanda o da böyükləri daşa tutur və deyirdi ki, əgər böyük yerində olsa kiçik belə qəbahət eləməz.

Müasir mərhələdə gənclərin və ümumən xalq kütlələrinin "ağsaqqallara" münasibətini böyüyə hörmətin itməsi kimi qiymətləndirmək düzgün olmazdı. Sadəcə olaraq böyüklərin böyüklüyünə şübhə yaranıb. Şübhə olan yerdə isə inam ola bilməz, fikir və fəaliyyət birliyi ola bilməz. Bu şübhələrin obyektiv əsası aradan götürülmədən xalq demokratiyasından, əsil demokratik mərkəziyyətdən, xalqın özünüidarəsindən danışmaq əbəsdir.

M.S.Qorbaçovun Ermənistan və Azərbaycan zəhmətkeşlərinə müraciətindən sonra respublikamızın rəhbər işçiləri "hisslə yox, ağılla hərəkət etmək lazımdır" şüarı ilə çıxış etməyə başladılar. Aprel-may aylarındakı kütləvi nümayişlər zamanı keçmiş partiya rəhbərlərindən biri institutumuzda çıxış edərək ağıl və təmkinlə iş görmək lüzumundan danışanda ona belə bir sual verildi: heç kəs ağılla iş görülməsinin əleyhinə deyil, lakin bütün məsələ bundadır ki, kimin ağlı ilə iş görülür? Axı ağıl nə isə abstrakt bir şey olmayıb konkret adamlara xasdır. Əgər Siz öz ağlınızla və ümumən indiki respublika rəhbərliyinin ağlı ilə görülən tədbirləri nəzərdə tutursunuzsa, xalq bu tədbirlərin "ağıllılığına" inanmır. Məgər Dağlıq Qarabağ probleminin "problem"ə çevrilməsi də, indi onun qanun çərçivəsində həllinin yubadılması da məhz bu rəhbərliyin vaxtında ağılla hərəkət edə bilməməsinin nəticəsi deyilmi?

Haqlı sual idi. Kütləvi may nümayişlərinin əsas motivlərindən biri də elə respublikamızda yenidənqurmanın gecikməsinə, keçmiş rəhbərliyin hələ də hakimiyyətdə ol-





masına etiraz idi. Antimilli liderlərin, Altuntacların xalqa "ağıl dərsi" deməyə mənəvi haqqı yox idi və buna görə də bütün xalq ayağa qalxmışdı.

Noyabrdakı kütləvi çıxışların əsas səbəbi Dağlıq Qarabağda davam edən qanunsuzluqların xalqın səbrini tükətməsi olsa da, tezliklə burada başqa meyllər, nidalar da özünü göstərməyə başladı. Bu nidalardan biri taxtdan salınmasına baxmayaraq hələ də güclü olan və hakimiyyəti əldən vermək istəməyən, müqavimət göstərən partokrat qüvvələrin, Altuntacların təxribatçılıq səsi idi. Lakin bu nida ilə əkslik təşkil edən, ikinci bir səs də var idi ki, qarışıqlıqda bəzən eşidilməz olurdu. Xalq rəhbərlikdən böyük dəyişikliklər gözləyir, dərin kök atmış neqativ proseslərin üzdən deyil, yerli-dibli kəsilib atılmasını, tezliklə sağlam mənəvi mühit yaradılmasını tələb edirdi.

Bəli, bu məhz mübarizədir. "Əl-ələ verib işləmək" metodu burada özünü doğrulda bilməz. Sınaqlardan çıxmış həqiqətdir ki, əl-ələ verəndə çirkli dönüb təmiz olmur, əksinə, təmiz adam da çirkə bulaşır. İstəsə də, istəməsə də. Buqələmun kimi rəngini dəyişən, "yenidənqurma", "demokratiya" sözlərini hamıdan çox işlədən, özünün sosial ədalətsizliyi törədənlər sırasında olduğunu "unudaraq" "sosial ədalət uğrunda mübarizəyə girişən" dövlət məmurlarına inansaq aldanmış olarıq. İnsanın danışığı, işlətdiyi terminlər tezcə dəyişə bilər, mənəviyyatın dəyişilməsi isə uzun və çətin prosesdir. Saxta yolla "böyük" olmuşlara əxlaq dərsi deməklə onlar dönüb xalqın əsl böyüyü, ağsaqqalı ola bilməzlər. Bu gün ağsaqqalları yaratmaq yox, axtarıb tapmaq lazımdır. Onlar xalqın içərisindədir.

O xalq müdrik xalqdır ki, onun hər bir nümayəndəsi müdriklik, ağsaqqallıq, rəhbərlik iddiasına düşmür, əksinə, öz müdriklərini, ağsaqqallarını tanıyır və onların arxasınca

gedir. Əlbəttə, bu təkcə ayrı-ayrı adamlardan asılı deyil, həm də sosial mühit, idarəetmə sistemi buna şərait yaratmalı, bu istiqamətə yönəldilməlidir.

Düşünə bilən adamlardan tamamilə məhrum olan, tam miskin xalqlar yoxdur. Hər bir xalqın nisbi mənada istedadlısı da var, istedadsızı da.

O xalq bədbəxtdir ki, onun düşüncə səviyyəsinə və mənəviyyatına görə miskin nümayəndələri rəsmi "ağsaqqala" çevrilərək sosial sistemin, arealın mərkəzində özünə yer edir və onun müdriklik potensalına malik olan adamlarını arealın kənarına, ucqara sıxışdırır. Onda xalq öz rəsmi "böyüklərinə", "ağsaqqallarına" inamını itirir, əsil ağsaqqallarını isə tanımır.

Ç.Aytmatov "Əsrə bərabər gün" romanında öz keçmişini unudan adamların, xalqların faciəsindən danışır. Tarixi hafizəsini itirmək, keçmişini unutmaq böyük dərddir. Amma öz böyüklərini tanımamaq daha böyük dərddir. Əslində, bu iki dərd eyni bir sosial hadisənin tarixi və məntiqi rakurslardakı iki müxtəlif təzahürdür.

Tam inkarçılıq mövqeyindən heç nəyə nail olmaq mümkün deyil. Əksinə, müasir mərhələdə məqsəd istedadlı mütəxəssislərin, təşkilatçılıq qabiliyyəti olan adamların aşkar edilməsidirsə, deməli, hamını səbrlə dinləmək, əməli işdə yoxlamaq və yalnız bundan sonra qiymət vermək lazımdır. Yoxsa qarşıdakını diqqətlə dinləmədən, onu başa düşmək üçün xüsusi səy göstərmədən – tanımaza-bilməzə fitə basmaq, etinasızlıq göstərmək işıq gələn yerə papaq tıxamaq kimi bir şeydir. Saxtakarlıq meyarı ilə sıxışdırılmış və xalqla səlahiyyətli ünsiyyətdən, sosial miqyasda əməli fəaliyyət imkanından məhrum edilmiş adamları indi üzə çıxarmaq əvəzinə inkarçılıq mövqeyindən yanaşaraq hamı ilə birlikdə onlardan da imtina etmək xalqa nə verə bilər?





Belə nihilist əhvali-ruhiyyə məhz yenidənqurma düşmənlərinin xeyrinə deyilmi?

Axı tam inkarçılıq əhvalı, qəzəb hissi insanın gözünü bağlayır, düşüncəsini korçaldır, yaxşını yamandan seçməyə mane olur. Atalar demişkən, "hirs gələr göz qızarar, hirs gedər üz qızarar". Gənclərimiz ekstremal vəziyyətin təsiri ilə aşıb-daşan hisslərini cilovlaya bilməsə, daxillərində baş qaldıran və hikmət ziyasının qarşısını kəsən qəzəbi (hətta bu qəzəb qanunsuzluğa qarşı olsa da) boğa bilməsə, toplanmış böyük emosional potensialdan, mənəvi enerji ehtiyatından səmərəli istifadə edə bilməz, onların həqiqət axtarışları də səmərəsiz qalar.

"Axtaran tapar" deyib atalar. Amma qaranlıqda yox, işıqda axtarmaq lazımdır, hikmət ziyasının işığında. Əlbəttə, hisslərin cilovlanması sadə məsələ deyil, bunun üçün xüsusi iksir, xüsusi vasitə gərəkdir. Bu iksir – ağıldır, intellektdir. Hiss alovu püskürəndə onu yalnız soyuq ağılla ram etmək mümkündür. Böyük emosional enerjinin idarə olunması, faydalı məcraya yönəldilməsi üçün böyük də intellektual potensial lazımdır, müasir elmi bilik, dərin fəlsəfi təfəkkür, yüksək siyasi mədəniyyət lazımdır. Yalnız o xalq həqiqətən güclüdür ki, o, elm iksirindən məharətlə istifadə edə bilir.

Əks təqdirdə nə qədər böyük hissi enerji axınları səmərəsiz qalır və hətta, külli miqdarda ziyan vurur. Atalar nahaq deməyib ki, el gücü – sel gücüdür. Seli düzgün yönəltmədikdə, faydalı məcraya salmadıqda o, qurucu yox, dağıdıcı vasitəyə çevrilir. Başlı-başına buraxılan, məqsədəuyğun şəkildə idarə olunmayan kortəbii axın ilk növbədə öz yatağını və öz sahilini dağıdır. Horatsi gözəl demişdir: hikmətlə birləşməyən kobud fiziki qüvvə öz məxsusi ağırlığı altında məhvə məhkumdur. Əksinə, tədbirə, hik-

mətə istinad etdikdə qüvvə qüdrətə çevrilir, haqq işinə, insani məqsədlərə xidmət edir. H.Cavidin sözləri ilə desək:

*Qüvvət üstündə varsa əqli-səlim,*
*Sana həp kainat olur təslim.*

Elm öyrənilməsi, yüksək intellektual səviyyə iki baxımdan əhəmiyyətlidir. Elm bir tərəfdən, bilik və tədbir mənbəyidir, məqsədə çatmağın yollarını göstərir, digər tərəfdən də, xalqın mənəvi saflığını və birliyini mühafizə etmək üçün, insanlara ümumbəşəri əxlaqi keyfiyyətlər aşılamaq üçün mühüm vasitədir. M.F.Axundov yazır: "Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilməmiş bir vasitədir".

Bunlar hamısı doğrudur. Lakin elmə, biliyə arxalanan səbirli və tədbirli adamlar da, qəzəb hissi ilə alovlanan, milli heysiyyata və qeyrətə istinad edən, lakin dözüm və təmkindən uzaq olanlar da, xalqı, milli mənafeləri satmağa hazır olan, altuna, taxt-taca qulluq edənlər də – hamısı ümumxalq birliyindən danışırsa, kimin arxasınca getmək lazım olduğunu müəyyənləşdirmək bir o qədər də asan deyildir.

Mən, əlbəttə, ağıla, biliyə, təmkinə üstünlük verərdim. Məncə, xalq adından daha çox dərəcədə onun intellektual zirvəsi olan ziyalı elitasının danışmağa haqqı vardır. Lakin bu elə bir dövr idi ki, ziyalılar zəif idi, xalqın çoxluq təşkil edən təbəqələrini və daha çox var-dövləti olanların təzyiqi ilə onlar arxa plana keçirilmişdi.

Beləcə götür-qoy edərkən yadıma qalın asfalt qatını yarıb çıxan incə, zərif yaz çiçəyi düşdü...

*"Kommunist" qəzeti, 12 oktyabr 1989-cu il.*





## Yol ayrıcında və ya yaz çiçəyi

*(nağılvarı fəlsəfi publisistika)*

Biri var idi, biri yox idi, bir camaat var idi. Min illərin keşməkeşlərindən keçib gəlmişdi, bir yol ayrıcında dayanmışdı. Məqsədi xalqa çevrilmək idi; mütəşəkkil, azad və qüdrətli bir xalqa. Qüdrətin yolu azadlıqdan keçirdi, azadlığın yolu mütəşəkkillikdən. Lakin əvvəlcə mütəşəkkilliyə çatmaq lazım idi. Buna qədər çox ağır günlər görmüş, çətin yollar keçmişdi. İndi, nəhayət, məqsədə lap yaxın idi. Amma bu nöqtədən bir yox, bir neçə yol ayrılırdı. Hansı yolu seçməli, hansı ilə getməli?

Əlbəttə, belə məsuliyyətli məqamda hər şey bələdçinin səriştəsindən asılıdır. Camaatın bələdçisi var idi. Özü də üçü birdən: Altuntac, Ziyanur və Qeyrətxan. Üçü də öz övladları idi. Amma hərəsi bir yola səsləyirdi, camaat da ona görə tərəddüd içində idi.

Ziyanur hələ düşünürdü. Qarşısında dayandıqları yolların hər birinə işıq salıb mənzil başını görməyə çalışırdı. Vaxt isə keçirdi. Qeyrətxan əsəbiləşir və belə hesab edirdi ki, onun fəaliyyətsizliyi Altuntacın xeyrinədir. Çünki Ziyanur düşünmək üçün dayandığı vaxtda karvanın var-dövlət yüklənmiş ön dəstəsi yolayrıcını heç görmürmüş kimi başını sallayıb yolunu davam etdirir, Altuntac gedən səmtə gedirdi. Süvari dəstə də o tərəfə meyl edirdi.

Ziyanur onları dayandırmağa çalışır, düşünüb-daşınıb hamılıqla getməyə səsləyirdi. Qeyrətxan üzünü arxada qalan piyada dəstəyə tutub süvarilərdən ayrılmağa və öz yolunu seçməyə çağırırdı. Onlarla bizimki tutmaz, – deyirdi. Onlar neçə illər ərzində bizi məşəqqətli yollarla aparıb, özləri isə at belində gediblər. Görmürsünüzmü ki, yüklərin səmti yenə yadlar diyarına doğrudur?

Qeyrətxanın dediklərinin həqiqət olduğuna şübhə edən yox idi. Amma bir məsələ var idi ki, neçə illər ərzində camaat hər halda Altuntacın dalınca getmişdi və buna bir növ adətkərdə idi. Varı-dövləti getsə də, dili, dini, imanı yavaş-yavaş unudulsa da, hər halda sağ-salamatlıq idi. Külək hər şeyi yavaş-yavaş sovurub aparırdı, amma tufan, fırtına yox idi. Qeyrətxanın göstərdiyi səmtdə isə hələ nələrlə qarşılaşacaqlarını heç kim qabaqcadan deyə bilməzdi. Gördüyünü qoyub görəcəyə getməyə ürək bərkitmək çətin idi.

Ziyanur isə hələ də düşünür, ölçüb-biçirdi. Altuntacla Qeyrətxanın göstərdikləri yolların heç birini məqbul saymır, daha sərfəli olan və hamının gedə biləcəyi bir yol axtarırdı. Fikirləşirdi ki, piyadalarla süvariləri ayıran, fərqləndirən yox, onların hamısı üçün ümumi olan cəhətlər rəhbər tutulmalıdır, Yol da elə olmalıdır ki, məhz həmin ümumi cəhətlərin daha da möhkəmlənməsinə imkan yaratsın. Amma bu, Altuntacın ürəyindən deyildi. Çünki bu yolda meyar var-dövlət yox, milli özünüdərk və mənəvi saflıq idi. Çünki bu yolda atın üstündə olanlar yox, ağlı başında olanlar qabaqda getməli idilər.

Bu yol Qeyrətxanın da xoşuna gəlmirdi. Çünki bu yolda qisas yox idi, bu yolda camaat onu bu günə salanlarla bir yerdə xalqa çevrilməli idi... Qeyrətxan əlləri qabar görməmiş şişman süvarilərin atdan düşüb hamı ilə birlikdə





dərələri, təpələri qət edəcəyinə inanmırdı və daha doğrusu bu, onun heç ürəyindən də deyildi...

Ziyanur iki suyun arasında qalmışdı. Camaat iki dəstəyə bölünmüşdü və bu iki dəstə bir-birinə az qala düşmən kəsilmişdi. Altuntac qüdrətə gedən yolun azadlıqdan və mənəvi saflaşmadan keçdiyini, Qeyrətxan isə vəhdətdən və tədbirdən keçdiyini heç cür qəbul etmək istəmirdi. Qeyrətxan Altuntacın arxasının möhkəm olduğunu anlamır, Altuntac isə camaatın ürəyinin Qeyrətxanda olduğunu qulaq ardına vururdu. İkisinə də təsir göstərməli olan Ziyanur isə heç gözə görünmürdü. Altuntac bir dəfə Ziyanurun "qüdrətli olmaq üçün möhkəm arxa lazımdır, var-dövlət və siyasət lazımdır" fikrini eşitmiş və bu fikir o qədər xoşuna gəlmişdi ki, sonunu dinləməmiş, hansı arxadan, hansı vardan və siyasətdən söhbət getdiyini başa düşməmiş, ancaq öz könlündəkini anlamış və aramsız fəaliyyətə başlamışdı. Qeyrətxan da bir dəfə Ziyanurdan "müstəqillik, azadlıq" sözlərini eşitmişdi, onun xalqı qüdrətli görmək arzusu xoşuna gəlmişdi. Məqsədi anlamışdı, amma ona yalnız tədbirlə çatmaq mümkün olduğunu, hər bir tədbirin yüz dəfə ölçülüb-biçilməli olduğunu nəzərə almamışdı. Tunc biləklər, mərd ürəklər dövrünün çoxdan keçdiyini və indi ağıl və siyasət dövrü olduğunu anlamamışdı. Camaatın qarşısına çıxıb "azadlıq, müstəqillik", – demişdi, "biz ən qüdrətli xalqıq", – demişdi və camaat əsrlər boyu arzu etdiyini onun dilindən eşidib onu alqışlamış, düşünməyə macal tapmadan hərəkətə gəlmişdi.

Hərəkətə gəlmiş kütlə ilə var-dövlət yüklü karvan üz-üzə durmuşdu. Gah bir tərəf güc gəlir, gah da o biri tərəf güc gəlirdi. Nə Altuntac xalq olmaq naminə altunundan və tacından əl çəkirdi, nə də Qeyrətxan həqiqi ziya sahiblərini axtarıb-tapmaq və dinləmək istəyirdi. Qeyrəti,

məhəbbəti yeganə meyar sayanlar da, pulu, rütbəni hər şeyin ölçüsü hesab edənlər kimi hikmətsiz və tədbirsiz də keçinəcəklərinə ümid bəsləyirdilər.

Hamı xalqın birliyinə çağırırdı, amma hərə öz bayrağının altında. Tədbir, düşüncə və hikmət təklənmiş, öz başlıca silahlarından: həm var-dövlət və rəyasətdən, həm də ümumxalq məhəbbəti və kütləvi fədakarlıqdan məhrum olmuşdu. Sevən ürəyin, vuran qolların və bədənə qida verən mədənin qovğasında düşünən başa məhəl qoyan yox idi. Hamı başa başçılıq etmək istəyirdi...

Beləcə, gah Qeyrətxanın gözlərinin alovundan, gah da Altuntacın taxt-tacının parıltısından Ziyanurun nuru görünməz olmuş, onu dinləyən olmamış, çox vaxt heç yada da salmamışdılar. Ancaq işləri tərs gələndə günahı üstünə atmaq üçün Ziyanuru axtarıb tapırdılar. Meyar itmiş, kiçik almaz zərrələri iri şüşə qırıntıları arasında gizlənmişdi. Lakin doğurdanmı o elə görünməz olaraq da qalacaqdı?

Bəs nicat nədədir? Tilsimi hər halda kim sındırmalıdır?

Beləcə düşünərkən hardansa yadıma qalın asfalt qatını yarıb özünə yol açan incə, zərif yaz çiçəyi düşdü...

*"Elm" qəzeti, avqust, 1991-ci il.*





# Türk ruhu 3-cü minilliyin astanasında

"Türk dünyası", "türk ruhu" ifadələri olduqca şərtidir. Məsələ burasındadır ki, eyni köklərə malik olan, indi də eyni dil qrupuna daxil olan xalqlar neçə əsrlər ərzində ictimai tərəqqinin müxtəlif yolları ilə getmiş, müxtəlif imperiyaların tərkibində müxtəlif təsirlərə məruz qalmış və özləri də xeyli dərəcədə müxtəlifləşmişlər. Təməlində vahid türk xarakteri və türk dili duran bu xalqlar coğrafi baxımdan çox fərqli regionlarda çox fərqli iqtisadi inkişaf yolu keçmişlər. Nəticədə bu gün biz müxtəlifliyin vəhdəti və vahidin daxili müxtəlifliyi ilə rastlaşırıq.

Bu gün müxtəlif ölkələrdə yaşayan türk övladlarının vahid təfəkkür tərzindən danışmaq çox çətindir. "Türk birliyindən" danışanlar çox vaxt dilə, dil yaxınlığına istinad edirlər. Lakin, bizcə, daha önəmli məsələ düşüncə tərzidir, təfəkkür yaxınlığıdır. Halbuki müasir mərhələdə müxtəlif iqtisadi, siyasi və mədəni durumlarda, müxtəlif inkişaf səviyyələrində olan xalqlar nitq baxımından eyni dildə danışsalar da, təfəkkür baxımından müxtəlif dillərdə danışırlar. Bu xalqların, bu ölkələrin siyasi və iqtisadi maraqlarının da heç də həmişə üst-üstə düşmədiyini nəzərə alsaq, vahid türk dünyası ideyasının daxili ziddiyyətlərlə zəngin olduğunu etiraf etməli olardıq.

Bununla belə, bütün bu müxtəlifliklərə baxmayaraq, ortaq dillə yanaşı düşüncə və ortaq xarakter məqamları, həyat tərzindəki və adət-ənənədəki uyğunluq o dərəcədə nəzərə çarpan və önəmlidir ki, bu ideyadan yan keçmək də mümkün deyil. Lakin bir şey qəti şəkildə məlumdur ki, bu birlik siyasi yox, mədəni-mənəvi müstəvidə axtarılmalıdır. Mədəni-mənəvi yaxınlıq isə şübhəsiz ki, iqtisadi əlaqələr üçün şərt olmaqla vahid iqtisadi məkan ideyasını şərtləndirir. Beləliklə, biz siyasi cəhətdən müstəqil, müxtəlif dövlətlərin öz mədəni-mənəvi və iqtisadi sərhədlərini genişləndirmək imkanından danışırıq.

Siyasi birliyin, vahid türk dövlətinin real olmadığı göz qabağında ikən bəzi siyası diletantlar bu mövzunu ortalığa atmaqla, onsuzda bizə şübhə ilə yanaşan, keçmiş türk imperialarının xofu hələ canlarından çıxmamış bir sıra xarici dövlətləri sadəcə qıcıqlandırırlar. Halbuki buna yol vermək olmaz. Avropa bilməlidir ki, müasir dövrdə birliyin əsas şərti kimi intellektual və iqtisadi inkişaf səviyyəsinin mühümlüyünü biz də dərk edirik və xarici ölkələrlə əlaqə qurarkən, bu amilləri yaddan çıxarmırıq. Bu gün inkişaf etmiş türk dövlətləri, xüsusilə Türkiyə ilə Azərbaycan Avropa birliyinə daxil olmaq üçün real addımlar atır. Bu ölkələrin inkişafında milli və dini amillər dünyəvi meyarları sıxışdıra bilməmişdir. Biz öz maraqlarımızı texniki tərəqqinin, intellektual tərəqqinin, qlobal ictimai inkişafın, ümumbəşəri sivilizasiyanın tələblərinə və dəyərlər sisteminə qarşı çevirmirik, əksinə, milli ilə ümumbəşərinin üzvi vəhdətinə nail olmağa çalışırıq.

Türk düşüncə tərzinin, türk sivilizasiyasının, türk fəlsəfi fikrinin öyrənilməsi bu gün olduqca aktualdır. Ümumbəşəri ictimai tərəqqinin hərəkətverici qüvvələrini öyrənmək, müasir dövrün prioritetlərini nəzərə almaq və





"türkçülük" ideyasını "müasirlik" ideyası ilə üzvi surətdə birləşdirə bilmək üçün fəlsəfi təfəkkür səviyyəsində əmək-daşlığa böyük ehtiyac vardır.

Hansı isə bir millətin nümayəndəsi olmazdan öncə insan olmağı bacarmaq lazımdır.

İnsan təbiəti dəyişir, əlinin və əqlinin qüdrəti ilə "ikinci təbiət" yaradır; təbiəti özünə xidmət etməyə vadar edir. Başqa bir insan isə əlinin və əqlinin gücünü təbiətə deyil, insanlığa qarşı yönəldir. Bir insan başqa bir insanı, bir millət başqa bir milləti özünə tabe etmək, əymək və ya hətta əzmək üçün çalışır. İnsan zəkasının qalxmış olduğu yüksəklikdən insanlığın inkişafı naminə deyil, eqoist məqsədlər üçün istifadə edilir.

Biliklər artıqca artır. Elm getdikcə gedir, dayana bilmir. Bir tərəfdən telefon, televizor yaranır, o biri tərəfdən – bomba, raket. Bir tərəfdən "ikinci təbiət" ya-ranır, insana xidmət edir, o biri tərəfdən təbiətlə insanın tarazlığı pozulur, ekoloji böhran baş verir.

İnsanları xilas etməyin vasitələri artdıqca insanları qırmağın da vasitələri artır. Hər şey yenə də insanın əxlaqından, mənəviyyatından asılı olur. Hansına üstünlük verəcək, hansını tutacaq insan!? İpək yollarınımı seçəcək, qanlı-qadanlı yollarımı? Sivilizasiyanın zirvəsindəki yol ayrıcında hansı səmti seçəcək? Ev tikməyimi, ev yıxmağımı? Müalicə etməyimi, qan tökməyimi?..

...Tarixən türk heç vaxt qandan qorxmayıb. Çox qan töküb və çox vaxt da öz qanını töküb. Artıq gözü qandan doymuş, toxtamışdır. Lakin Toxtamışları yenə də baş qaldırmağa sövq edənlər var, mərdi qova-qova namərd etmək istəyənlər var.

Bəs onda nə etməli? Azğınlara yerini göstərmək vaxtı deyilmi? Ağsaqqal, mötədil, tolerant libasını soyu-

nub, yenə "cəngavər" libasımı geyinək? Yenə qanı qanlamı yumaq təklif olunur?! Qopuzu atıb qılıncımı tutmağımızı istəyirlər?

Xeyir. Qılınclar, nizələr dövründə qopuzunu, sazını atmayan türk qələmlər, zəkalar dövründə də sazını, sözünü atmayacaqdır. Siyasət və riya müqabilində qəlbini, ruhunu satmayacaqdır.

Aylar, illər keçəcək, bu millətin mətəfəkkiri:

*Turana qılıncdan daha kəskin ulu qüvvət*
*Yalnız mədəniyyət, mədəniyyət, mədəniyyət!*

deyəcəkdi.

Lazerlə, tankla, raketlə silahlananlar indi çoxdur. İndi daha qılıncla öldürmürlər. Bu, barbarlıqdır, "türklük"dür, – deyirlər. Sivilizasiya bura da əl çəkib; indi kütləvi qırğın silahları var... Və bir çox ideoloqlar yüksək texnoloji vəhşilikləri müasirlik və mədəniyyət kimi qələmə verməyə çalışırlar.

Lakin millətlər içərisində bir millət var. Bir millət var ki, aldadılıb, aldatmayıb. Basılanda kəsilib, basdığını kəsməyib.

Ağlamağı öyrənib, ağlatmaqdan həzz almayıb. Dərdini içinə salıb; "Yanıq Kərəm" yaradıb, segah yaradıb. Özü dərd çəkib, başqasını dərdə salmaq istəməyib.

Qəlbini kinlə, nifrətlə doldurmayıb. Zora qarşı zor göstərib, gözəllik qarşısında isə əriyib, muma dönüb. Döyüş meydanında gözünü də qırpmayanlar bir işvə-nazla dizə gətirilib.

Lakin qandan gözü doyanın, bir gün işvə-nazdan da gözü doyacaqmı!?

XXI əsr bəşəriyyətin müdriklik əsri olacaq. XX əsrdə bomba ilə, raketlə birləşmiş qələmlər XXI əsrdə öz yerini sazla, ürəklə birləşən qələmlərə verəcək.





## Türk sivilizasiyası Şərq və Qərb kontekstində

*Tarix təkrar olunur...*
*Lakin qılınc vaxtında qələmlə əvəz edilə bilmədi.*

Bəşəriyyətin keçdiyi yola nəzər salsaq görərik ki, bütün tarix boyu Şərq və Qərb sivilizasiyaları bir-birini müntəzəm surətdə əvəz etmişdir.

Elmin, mədəniyyətin, ilk bəşəri dəyərlərin beşiyi olmuş Qoca Şərq e.ə. I minilliyin I yarısında öz əvvəlki inkişaf tempini və öncül mövqeyini tədricən itirmiş, Qədim Yunanıstan elm və mədəniyyətin inkişafı sahəsində irəli çıxmışdır. Lakin antik sivilizasiya boş yerdə yaranmamış, Qədim Şərq sivilizasiyasından bəhrələnmişdir. Roma imperiyasının süqutu ilə bəşər tarixində misilsiz rol oynamış antik elm və mədəniyyət də süquta uğramışdır. Lakin imperiyalar dağılsa da onlardan miras qalmış dəyərlər tarixin yaddaşına köçərək yenidən dirçəlmək üçün əlverişli məqam gözləmişdir.

Antik sivilizasiyadan sonra bəşər tarixində ən parlaq dövr islamın yaranması ilə başlanmışdır. Elm və mədəniyyətin inkişaf mərkəzi yenidən Şərq dünyasına köçmüşdür. Bu dövrdə islamla sıx surətdə bağlı olan yeni sivilizasiya dalğası özündən əvvəlki elmi nailiyyətlərin, mədəni-mənəvi dəyərlərin dağılmasına yol verməmiş, onları qoruyub saxlamış, inkişaf etdirmiş və Qərb dünyasının yeni intibahı üçün zəmin yaratmışdır. Renessans rüşeymi məhz bu zəmində pöhrələnmiş və Qərb sivilizasiyasının əsası qoyulmuşdur.

XV-XVI əsrlərdə əvvəlcə Renessans və daha sonra yeni iqtisadi münasibətlərə – kapitalizm cəmiyyətinə keçidin əsasının qoyulması ilə yenidən dirçələn Qərb siviliza-

siyası öncül mövqeyə keçmişdir.

Lakin yeni dövr sivilizasiyası (və onun davamı olan müasir Qərb sivilizasiyası) da boş yerdə yaranmamış, açıq şəkildə etiraf edilsə də, edilməsə də orta əsr Şərq mədəniyyətindən, İslam sivilizasiyasından çox şey götürmüşdür. Müasir Qərb sivilizasiyası əsasən elm və texnikanın tərəqqisinə istinad etmişdir.

Lakin indi bir çox tədqiqatçılar artıq Qərb sivilizasiyasının da tənəzülündən, süqutundan danışırlar.

Tarixin inkişaf məntiqindən çıxış edilərsə indi növbə Şərqindir. Lakin Şərq sükan arxasına keçməyə tələsmir. Bir tərəfdən yeni dövr sivilizasiyası elə davam edir və ona alternativin olmasını az qala ağlasığmazdır. Digər tərəfdən, ayrı-ayrı lokal alternativlər yaranır. Məsələn, kiçik bir Yaponiyanın müasir texnologiyanın inkişafı sahəsində Qərbə meydan oxuması bir daha sübut edir ki, Şərq dünyasının potensialı heç də tükənməmişdir və o öz sözünü hələ deyəcəkdir.

Lakin sivilizasiyaların dəyişməsi, köhnənin estafeti yeniyə ötürməsi ilk baxışda göründüyü kimi sadə və asan olmayıb, çox mürəkkəb və ağrılı bir prosesdir. XX əsrin sonluğunda açıqaşkar ortaya çıxan bu ağrılar yeni doğuşdan xəbər verir.

Bəli, bu dəfə günəş yenidən Şərqdə doğacaqdır. Lakin Şərq böyükdür. Onun cüzi bir hissəsində ortaya çıxan Yapon parıltısı nəhəng Qərb sivilizasiyasına bərabər tərtibli alternativ ola bilməz. Miqyas baxımından bu, ya Çin, ya ərəb ölkələri, ya da türk dünyası ola bilər. Lakin Çin heç vaxt öz ərazisindən kənara çıxmamış və bütövlükdə Şərqi təmsil etmək əzmində olmamışdır. Ərəb ölkələrində oyanışdan əsər-əlamət görünmür. Türk isə orta əsrlərdən miras qalmış Osmanlı imperiyasının dağılması ilə başa çatan birinci dünya müharibəsində məruz qaldığı böyük sarsıntıdan uğurla çıxdı və müasirlik yolunda ilk böyük addımını atdı. İkinci addımı isə hələ də ata bilmir.





SSRİ-nin dağılması ilə miqyası genişlənmiş və yeni impuls almış türk dünyası ikinci addımı, nəhayət, ata biləcəkmi? Vaxtilə böyük imperiyalar yaratmış türk qüdrəti öz potensialını yeni dövrün tələblərinə uyğun şəkildə səfərbər edə biləcəkmi? İndi zamanın ən böyük sualı bundan ibarətdir.

Metelər, Atillalar, Çingizxanlar, Teymurlənglər öz dövrünü yaşayıb getmişlər. Onların qurduqları dövlətlərdən, yaratdıqları imperiyalardan bizə miras qalan ancaq qəhrəmanlıq nümunəsi və tarixin ibrət dərsləridir.

...Sonra Koroğlular gəldi. Dövlətçiliklə qəhrəmanlıq ayrıldı və qarşı-qarşıya durdu. Yel qanadlı atlar da, şimşək kəsərli qılınclar da daha ölkələr fəth etməyə deyil, daxildə sosial ədalətin bərpasına yönəldildi. Daxili problemlər uğurla həll edilə bilmədiyindən, dövlət idarəçiliyi, iqtisadiyyat və mədəni-mənəvi həyat arasında, ümummilli mənafelə şəxsi mənafelər arasında ziddiyyətlər artdığından milli enerji quruculuq və yaradıcılıq üçün istifadə edilə bilmədi.

Türk dünyasının axırıncı böyük imperiyası olan Osmanlı sultanlığı orta əsrlər dövrünü uğurla başa vursa da, yeni dövrdə tarixin iki ağır sınağından çıxa bilmədi:

1. Dövlət Koroğluları özü ilə birləşdirə bilmədi.

2. Həm dövlət, həm də Koroğlular yeni dövrün gəlişindən gec xəbər tutdu. Koroğlu tüfəngi görəndən sonra, yeni mahiyyəti dərk etmək əvəzinə Misri qılıncdan ikiəlli yapışdı və onu vaxtında qələmin məhsulu olan tüfəng və topla əvəz etmək istəmədi. Qılınc ya qələm alternativində yenə də qılınca üstünlük verildi. Babaların mərdlik nümu-

nəsi, qəhrəmanlıq stereotipi forma ilə, rəmziliklə, zahiriliklə o dərəcədə bağlanmışdı ki, mahiyyəti saxlamaqla yeniləşmə cəhdi göstərilmədi.

Koroğlu mənəviyyatı tüfəngin və siyasətin fövqündə durmaq istədi. Keçəl Həmzələrin bicliyi siyasət kimi deyil, ancaq hiylə kimi, ləyaqətsizlik kimi qəbul edildi və lənətləndi. Koroğlu sadəlövhlüyü təqdir edildi, dəyərləndirildi və gələcəyə nümunə göstərildi.

Qəhrəmanlıq siyasətlə birləşdirilə bilmədi. Şəxsiyyət üçün həqiqətən dəyərli olan keyfiyyətlər dövlət üçün də dəyərli hesab edildi. Şərq təfəkkürü özünün ən zəif cəhətini yenə də büruzə verdi. İnsan cəmiyyətdən üstün tutuldu.

Bəşəriyyətin ən ali tərəqqisi naminə, mənəviyyatın iqtisadiyyata qurban verilməməsi naminə İnsanı üstün tutan Şərq düşüncəsi kapitalizm cəmiyyətində özünü doğrultmadı.

Bəs üçüncü minillikdə necə?!

## Qələm və qalxan?!

*Qılınc düzəldənlər qalxan da düzəldirlər.*

Tarixən həmişə qılınc qalxanla birlikdə hazırlanıb. "Dərdi verən dərmanını da verir". O ölkələr ki, hücuma aludə olub və öz müdafiəsini unudublar – məğlub olublar. Yalnız hücum haqqında düşünənlərin aqibəti məğlubiyyətdir.

Hərfi mənada qalxan hərfi mənada qılıncdan qorunmaq üçündür. Lakin neçə-neçə başqa hücum vasitələri var, neçə-neçə təhlükələr var. Hər birinin də öz müdafiə vasitəsi, öz qalxanı olmalıdır. Təbii ki, yeni dövrdə qılıncı əvəz etmiş ən güclü silaha – qələmə qarşı da müdafiə vasitələri vardır. Həm də qalxan qılıncla eyni materialdan hazırlandığı kimi, müasir müdafiə vasitələri də qələmlə həmcins





olmalıdır.

Qələm bir silah, bir güc vasitəsi olaraq müxtəlif qiyafələrdə təzahür edir. Ən mühüm elmdir ki, onun hərbi texnikanın inkişafına təsiri müasir silah anlayışına uyğun gəlir. Elmin sənaye texnikasına və müvafiq texnologiyanın inkişafına təsiri isə ölkələrin iqtisadi gücünü artırır ki, bu da başqa ölkələri təsir altına salmağın daha bir vasitəsidir. Beləliklə, texniki tərəqqi müasir dövrdə – "sülh" şəraitində istila və hegemonluğun ən mötədil üsuludur.

Cəmiyyət inkişaf etdikcə insanın zehni fəaliyyətinin yeni-yeni imkanları açılır, qələmin yeni formaları və yeni tətbiq istiqamətləri üzə çıxır. Böyük Səməd Vurğun sanki bunları nəzərdə tutaraq yazırdı:

*Hər dövranın bir hökmü var,*
*Hər zamanın bir qələmi...*

Qələmin daha bir forması və təsir imkanı informasiya vasitəsilə ictimai şüura təsirdir ki, bu da siyasi və mədəni-mənəvi hegemonluq üçün şərait yaradır. Beynəlxalq informasiya sistemindən, kütləvi informasiya vasitələri və mətbuatın yönümündən, onların kimə, nəyə və hansı ideologiyaya xidmət etməsindən çox şey asılıdır.

Demokratik dövlət quruculuğu şəraitində ictimai rəy daha bir güclü silaha çevrilir. Beynəlxalq miqyasda ictimai rəylə manipulyasiya imkanı isə iqtisadi və mədəni-mənəvi imperializmin öz fəaliyyətinə demokratiya donu geydirməsinə şərait yaradır.

Dünyada gedən bütün bu prosesləri dərk etmək və qələmin törətdiyi «mədəni cinayətlərin» qarşısını almaq üçün qələmlə eyni materialdan yapılmış qalxan və ya *misri qələm* lazımdır.

*"İpək yolu" jurnalı, 2000, № 1.*

## Böyük İpək Yolunun bərpası ideyası

*«Azərbaycan «İpək yolu»nun mərkəzində yerləşir. ...«İpək yolu» Yaponiya, Çin və Mərkəzi Asiyadan keçib Xəzərə çıxacaqdır. Xəzərdə Şərq və Qərb sahilləri arasında keçid bərəsi var və bu bərə Azərbaycana məxsusdur. Bakı «İpək yolu»nun üstündə yeganə iri dəniz limanıdır. Ona görə də Azərbaycan burada çox mühüm strateji mövqe tutur.»*

Heydər ƏLİYEV

Bizə elə gəlir ki, İpək Yolunun bərpası türk dünyasının daxili əlaqələrinin möhkəmlənməsinə, habelə onun ümumbəşər sivilizasiyası ilə inteqrasiyasına yeni bir təkan verəcəkdir.

Üçüncü minilliyin astanasında dünyada gedən ictimai-siyasi və iqtisadi proseslər kontekstində ən çox nəzərə çarpan hadisələrdən biri tarixi İpək Yoluna qayıdışdır. Bu gün neçə yüzillər və minillər keçdikdən sonra bir vaxtlar dünyanın iki qütbünü birləşdirən Böyük İpək Yolunun yenidən bərpası məsələsi ortaya çıxır, Azərbaycan da yenidən Şərqlə Qərb arasında strateji körpü rolunu oynamağa başlayır.

Lakin nəyə görə məhz indi?

400 il keçdikdən sonra dünyada dəyişən nə olmuşdur? İpəyəmi yenidən ehtiyac yaranmışdır, karvanamı?

Karvan dövrü çoxdan keçmişdir. Onun çox güclü alternativləri onu ticarət yollarından çoxdan sıxışdırıb çıxarmışdır və yeni nəqliyyat vasitələri dünyanın ən ucqar qütblərini ən qısa müddətə birləşdirmək imkanı açmışdır.





İpək də daha çoxdandır ki, Şərqi səciyyələndirmir. İpəyin də olduqca müxtəlif alternativləri meydana çıxıb. Elm və texnologiya inkişaf etdikcə çox müxtəlif çeşidlərdə istehsal olunan sintetik parçalar ipəyin həm zahiri, həm də fiziki xassələrini asanlıqla əvəz edir. Həm də bu sahədə Qərb Şərqi üstələyir. İndi dəvə də, karvan da, ipək də, köhnə geyimlər, dəblər də, adət-ən'ənələr də daha çox dərəcədə ekzotikaya çevrilir. Onlar qərbliləri iqtisadi cəhətdən deyil, başlıca olaraq tarixi və etnoqrafik baxımdan maraqlandırır. Bir çox Şərq ölkələri iqtisadi partnyorluqdan çıxaraq istirahət və turizm diyarlarına çevrilir.

Lakin doğrudanmı Qoca Şərq müasir Qərb dünyasını ancaq tarixi ilə, keçmişi ilə, ekzotikliyi ilə cəlb edir? Və doğrudanmı daha Şərqin deməyə yeni sözü qalmamışdır?

Bəli, son əsrlərdə məhz belə bir tendensiya hiss olunmaqda idi. Çoxları elə düşünürdü ki, indi daha qədim ticarət yollarını turist yolları əvəz edə bilər. Təyyarələr, çarter reysləri həqiqətən daha çox dərəcədə turistlərə xidmət edir. Onların yükləri də çox vaxt keçmişə söykənən suvenirlərdən ibarət olur.

Qərbin Şərqə marağı daha çox dərəcədə gəncliyin ağsaqqalla görüşü, keçmişdən ibrət dərsi almaq xarakteri daşıyır. Təsadüfi deyildir ki, Şərqlə Qərb arasındakı dialoqun başlıca istiqamətlərindən birini indi mədəniyyətlər arasındakı mübadilə təşkil edir.

Lakin son illərdə başqa meyl də getdikcə güclənməkdədir. Qədimdə ipək gedən yollarla indi neft və qaz nəql olunmağa başlamışdır.

Yolların da rolu yenidən artmağa başlamışdır. Düzdür, Böyük imperiyalar dövrü artıq çoxdan keçmişdir. Amma böyük siyasətlər dövrü hələ keçməmişdir. Əksinə, indi siyasətin rolu daha çox artmağa başlamışdır. Əvvəllər qılıncın dediyi sözləri də indi iqtisadi mənafelərə əsaslanan siyasət deyir.

Tarixdən yaxşı mə'lumdur ki, müharibələr siyasətə müdaxilə edəndə siyasət gözəlliyini də itirir.

Siyasi münasibətlərin öz labirintləri var və bu labirintdən ancaq böyük siyasətçilərin bələdçiliyi ilə çıxmaq mümkündür.

Lakin çox təəssüf ki, qaba qüvvət, müharibə taktikası ölkələr arasında incə siyasət körpüsünü dağıtmış, qarşılıqlı iddialar, hərbi və siyasi qarşıdurmalar yaratmışdır.

Bəşər tarixinə ilkin nəzər saldıqda çox vaxt ticarət də, iqtisadiyyat da, elm və mədəniyyət də arxa plana keçir və ən çox gözə çarpan müharibələr olur, böyük iddialı sərkərdələrin, şahların, kralların böyük-böyük imperiyalar yaratmaq uğrundakı mübarizələrdi...

Əgər müxtəlif ölkələr sərvətlərinə görə eyni olsa idilər, bəlkə də bu qədər müharibələr olmazdı. Əgər dünyanın bu başından o biri başına qədər yol keçən müxtəlif yüklü dəvə karvanları rahatca gedib-gələ bilsəydilər beynəlxalq münasibətlər tarixində də hərb və siyasət deyil, ticarət ön yerdə durardı.

Ancaq tarixdə ipək yüklü dəvə karvanları ilə yanaşı həmişə əli qılınclı süvari dəstələri də olub. Qütbləri, diyarları birləşdirən sülh məramlı tacirlərlə, karvanbaşılarla yanaşı ölkələr arasında sərhədlər çəkən, ticarət əlaqələrindən bac-xərac tələb edən silahlı dəstələr, sərkərdələr, ulu xaqanlar da olub.





İqtisadiyyat, ticarət dünyanı birliyə, vəhdətə, rəyasət və siyasət isə dünyanı parçalanmağa və hərənin öz ağalıq zonasını yaratmağa sürükləyib.

Neçə-neçə imperiyaların ərazisindən və nüfuz dairəsindən keçən qanlı-qadalı Böyük İpək Yolu da bütün çətinliklərə baxmayaraq min illər ərzində yaşamağa davam edib.

Ancaq XVI əsrdə nisbətən az xətərli olan böyük okean yolları kəşf olunduqdan sonra, Böyük İpək Yolu da nəfəsini dərmək üçün bir qədər arxa plana keçib, karvanları okean gəmiləri əvəz edib.

Lakin dəmir yollarının və yüksək keyfiyyətli avtomobil yollarının salınması XX əsrdə quru yolunu yenidən aktuallaşdırmışdır.

Bundan əlavə, bu gün Avropa ölkələrinin Şərq dünyasına marağı artmaqdadır. Bunu bir neçə səbəbdən izah etmək olar. Birincisi, SSRİ imperiyasının dağılması ilə ideoloji baryerin və maneələrin aradan götürülməsi; ikincisi, Orta Asiya respublikalarının müstəqil dövlətlərə çevrilməsi; üçüncüsü, Çinlə münasibətlərin yumşaldılması. Çünki ideoloji baryer olanda nə SSRİ daxilində olan Şərq ölkələri ilə, nə də Çinlə sərbəst ticarət əlaqələri yaratmaq mümkün deyildi. Digər tərəfdən, məhz Azərbaycanın müstəqil dövlət kimi yeritdiyi beynəlxalq iqtisadi siyasət imkan verdi ki, daha kəsə və iqtisadi cəhətdən əlverişli ticarət yolu – ümumiyyətlə beynəlxalq əlaqələrin bütün sahələrini əhatə edən yeni yollar yaransın. Məlum oldu ki, bu, vaxtilə min illər boyunca fəaliyyət göstərmiş İpək Yolunun yeni variantı ola bilər. Hələ o vaxt ən optimal yol İpək Yolu idi. Qədim İpək Yolunun prioritetliyi b.e.ə. III-II əsrlərdən başlayaraq XVI əsrə qədər davam etmişdi.

XV-XVI əsrlərdə bir tərəfdən imperiyalar arasında münasibətlərin kəskinləşəməsilə əlaqədar olaraq, digər tərəfdən Şərq ölkələrindən – Çindən, Hindistandan, Orta Asiyadan quru yolla aparılan məhsulların istehsal texnologiyasının artıq neçə illər, əsrlər ərzində Qərb ölkələrində mənimsənilməsi sayəsində ticarətdə prioritetlər xeyli dərəcədə dəyişildi. Bəzən məhsulların ixracı ilə paralel olaraq ixtisaslı kadrlar və texnologiyalar ixrac olunurdu və ticarəti yerli istehsal əvəz edirdi. Ona görə də XVI əsrdən sonra müxtəlif səbəblər nəticəsində bir neçə əsr ərzində İpək Yolu fəaliyyətini dayandırmış və ya məhdudlaşdırmışdır. O vaxt bu yol daha çox dərəcədə Cənubi Azərbaycan ərazisindən keçirdi və XVI əsrdən sonra Çindən gedən ipəyin məhdudlaşması nəticəsində Azərbaycan ipəyinin Qərbə ixracı daha da genişləndi. XVII-XIX əsrlərdə Azərbaycanda ipəkçilik, həm də Şərq ölkələri üçün ənənəvi olan bir sıra məhsulların ixracı da genişlənirdi. Yeni dövrdə Azərbaycan daha çox rol oynamağa başladı. Amma məhz Azərbaycanın müstəqillik əldə etməsi, bütün dünya ölkələrinə münasibətdə açıq iqtisadi siyasət yeritmək strategiyasını seçməsi, Azərbaycanda ictimai-siyasi sabitliyin yaranması, Azərbaycanın iqtisadi cəhətdən ciddi partnyor kimi qiymətləndirilməsi və təsdiq olunması – bütün bunlar elə bir perspektiv açdı ki, yenidən bərpa olunacaq ticarət yolunda Azərbaycan mərkəzi yerlərdən birini tutdu. Düzdür, analoji statusa Orta Asiya ölkələri də malikdir, onlar da müstəqil, bağımsız ölkələrdir, böyük xammal ehtiyatları var. Lakin Azərbaycan Asiya ilə Avrasiya arasında xüsusi strateji mövqe tutur. Azərbaycan həm Xəzər dənizi ilə birbaşa əlaqəsi olduğuna, Orta Asiya ölkələrilə əlaqələr yaratmaq imkanlarına, həm də son illərdə vaqonların, böyük avtomobillərin, yük maşınlarının bərə ilə keçirilməsi asanlaşdığına görə müəyyən üstünlüklərə malikdir. Ən başlıcası isə Azərbaycanın və ona rəhbərlik edən şəxsiyyətin dünya nüfuzuna malik olması və onun simasında iqtisadi əlaqələrin, bağlanan müqavilələrin etibarlılığı Qərb dünyasında bu yolun bərpa olunmasına həvəsi artırır və təminat verir. Eyni zamanda, Uzaq Şərq ölkələri və ilk növbədə Yaponiya yeni açılan imkanı görür və ona görə də qədim İpək Yolunun bərpası ideyasından çıxış edirlər. Bu prosesdə Azərbaycan böyük siyasətçi Heydər Əliyevin sayəsində daha bir təşəbbüsü ələ aldı. Böyük İpək Yolunun bərpasına həsr olunmuş böyük miqyaslı beynəlxalq konfransın keçirilməsi üçün yer məhz Bakı şəhəri seçildi. Bu, təsadüfi deyil. Bu təkcə Azərbaycanın başqa Zaqafqaziya və Orta Asiya ölkələrinə nisbətən daha çox müstəqil olması ilə bağlı deyil. Tam açıqlığı ilə etiraf etməliyik ki, bu, həm də təşəbbüsü ələ ala bilən böyük siyasi liderin sayəsində mümkün olmuşdur. Mənə elə gəlir ki, Böyük İpək Yolunun bərpasına dair beynəlxalq konfransın respublikamızda keçirilməsi Azərbaycanın yeni yaradılan beynəlxalq magistralda aparıcı rol oynamasını daha da möhkəmləndirəcəkdir. Yeni bağlanan müqavilələrdə Azərbaycanın strateji mövqeyi təsbit olunacaqdır və çəkilən yeni yolların – avtomobil, dəniz, dəmiryolu – hamısında Azərbaycanın xüsusi çəkisi yüksək olacaqdır.

*"İpək yolu" jurnalı, 1998, № 4.*

beynəlxalq siyasət də bu iqtisadi mənafeyə tabe etdirilir. Böyük dövlətlərin (məs.: ABŞ və Rusiya) öz aralarındakı rəqabət hərbi texnikanın daim təkmilləşdirilməsini tələb etdiyindən "mənəvi cəhətdən köhnəlmiş" hərbi texnikanın satılması üçün bazara həmişə ehtiyac olur. Ona görə də qabaqcıl dövlətlərin və böyük hərbi sənaye şirkətlərinin mənafeyi nisbətən geri qalmış ölkələrdə müharibə və münaqişə şəraitinin olmasını tələb edir.

Böyük dövlətlər siyasi arenada aşkar şəkildə sülhün qarantı kimi çıxış etsələr də həmin dövlətlərin maliyyə oliqarxiyası və hərbi sənaye sahibkarları bir qayda olaraq başqa istiqamətdə fəaliyyət göstərirlər. Qərb dünyasına yaxşı bəlli olan bu məntiq bizim tərəfimizdən bə'zən çətin başa düşülür, çünki "sağlam fikrə" ziddir. Məsələn, Dağlıq Qarabağ konfliktinə münasibətdə ABŞ dövlətinin rəsmi mövqeyi ilə ABŞ Konqresinin müəyyən dairələrinin mövqeyinin köklü surətdə fərqlənməsi və birincinin ikinciyə güzəştə getməsi təəccüblü görünür. Halbuki ABŞ-ın özündə buna çox vaxt təbii hal kimi baxılır.

İnkişaf etmiş ölkələrin iqtisadi cəhətdən nisbətən geri qalan ölkələrə ixrac etdikləri məhsullar təkcə mə'nəvi cəhətdən köhnəlmiş texnologiya və hərbi texnikadan ibarət deyil. Həmin ölkələrin əhalisinin tələbatına cavab verməyən, yenə də "mənəvi cəhətdən köhnəlmiş" və ya hətta ekoloji standartlara uyğun gəlməyən istehlak şeylərinin – məişət texnikası və ərzaq məhsullarının da kütləvi ixracı ölkələrarası iqtisadi əlaqələrdə mühüm yer tutur.

*"İpək yolu" jurnalı, 2000, № 1.*





# Avropa Şurası bizi seçdi, yoxsa biz Avropanı?

*Azərbaycan yalnız son on ildə deyil, tarixin son iki əsri ərzində ardıcıl olaraq Avropaya, Qərb mədəniyyətinə, ümumbəşəri dəyərlərə can atmışdır.*

Heydər ƏLİYEV

Avropa ölkələrinin deputatları böyük səs çoxluğu ilə Azərbaycanın bir Avropa ölkəsi olaraq öz sıralarına qatılmasına razılıq verdilər. Bu, əlbəttə, Azərbaycan rəhbərliyinin son illərdə apardığı məqsədyönlü siyasətin nəticəsidir. Azərbaycan həqiqətən də hüquqi dövlət quruculuğu istiqamətində ciddi addımlar atmış, Avropanın ictimai-siyasi və hüquqi dəyərlər sistemini əsasən qəbul etmişdir. Demokratiya, plüralizm, söz və mətbuat azadlığı, insan hüquqlarının qorunması, yeni iqtisadi münasibətlər, azad rəqabət və s. ideyaların Azərbaycanda gerçəkləşməsi bizim Avropa ölkəsi kimi təsbit olunmağımıza əsas verdi. Bizim Avropadan ancaq keçmiş coğrafi təsəvvürlərlə ayrılmağımız bütün bu eyniyyət müqabilində çox cüzi idi və coğrafiyaya düzəliş vermək daha asan oldu...

Lakin Avropa Şurası bizi seçməzdən əvvəl biz Avropa yolunu seçmişdik. Həm də bu seçimi biz artıq bir neçə dəfədir ki, edirik. Sələflərimiz hələ XIX əsrin ortalarından başlayaraq bu yolu seçmişdilər. Qərb dəyərlərini mənim-

səmək, savadlanmaq, maariflənmək, müasir elm və texnikanın nailiyyətlərindən istifadə etmək, cəmiyyətin strukturunu, insanlar arasındakı münasibətləri hüquqi normalarla tənzimləmək və s. bu kimi məqsədlər XIX əsrin axırı, XX əsrin əvvəllərində Azərbaycanda, xüsusən Bakı şəhərində çox real görünüb. Azərbaycan o vaxt hələ Şərq ölkəsi sayılsa da, Şərqdə ilk qəzetin, teatrın, operanın, ilk dünyəvi məktəblərin və s. yaranması Azərbaycanın üzünü Qərbə sarı tutduğunu göstərirdi. Düzdür, imperiya buxovları bu istiqamətdəki inkişaf üçün müəyyən maneələr törədirdi, lakin Bakı avropalaşmaqda davam edirdi. Xüsusən, müstəqil cümhuriyyət qurulduqdan sonra Avropa dəyərləri ictimai-siyasi müstəvidə də yayılmağa başladı. İlk burcua-demokratik inqilabları uğursuzluqla nəticələnsə də, 1918-ci ildə Azərbaycan Demokratik Respublikasının yaranması burjua iqtisadi münasibətlə-rinin, elm və sənayenin inkişafı üçün təməl oldu. Yenə də Şərqdə ilk dəfə Universitet də, Parlament də, hüquqi dövlət elementləri də o vaxtkı Avropa ölkələri ilə az qala bərabər səviyyədə məhz Azərbaycanda gerçəkləşdi.

Bəli, biz 1918-ci ildə Avropa yolunu seçmişdik. SSRİ dağıldıqdan və Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra, xüsusən, 1993-cü ildən başlayaraq Azərbaycanda hüquqi dövlət quruculuğu və Avropa dəyər-lərinin prioritetliyi ön plana keçdi. Biz yenə də Avropa yolunu seçdik. Lakin Avropa bizə hələ tərəddüdlə, eh-tiyatla baxırdı. Avropa bizim simamızda bütün bun-lardan öncə bir islam ölkəsi, bir türk xalqı görür və bə-ziləri isə hətta olmayan şeyləri də uyduraraq, həqiqətdə olanları deyil, görmək istədiklərini görürdülər. (Ermənilərin bizim haqqımızdakı uydurmaları və şantajları da Avropada ona görə asanlıqla qəbul olunurdu.)





Lakin nəzərə almaq lazımdır ki, biz seçim qarşı-sında olduğumuz kimi, Avropa da seçim qarşısındadır. Ümid edirik ki, Avropada tərəqqipərvər qüvvələr daha çoxdur və onlar yeni əsrdə inkişafın yeni hərəkətverici qüvvələrini arayırlar.

İkinci Dünya müharibəsinin dəhşətləri insanları silkələdikdən sonra bəşəriyyəti xırda intriqalardan ayılıb həyatın həqiqi böyük mənası haqqında, xoşbəxtliyin real ünvanı olan ayrıca fərdlər haqqında, hər bir şəxsin yaşamaq haqqı və, ümumiyyətlə, hüquq və azadlıqları barədə düşünməyə vadar etdi. Avropa Şurası belə bir xüsusi mənəvi-psixoloji iqlimdə yarandı. Fransa və İn-giltərə öz ənənəvi rəqibləri olan almanlarla və türklərlə birlikdə yeni Avropanın qurulması proqramını qəbul etdi. Keçən yarım əsr ərzində Avropada sülh və əmin-amanlığın bərqərar olması, insanlara onların layiq ol-duğu həyat şəraitinin yaradılması, onların hüquq və azadlıqlarının qorunması sahəsində böyük uğurlar qa-zanıldı. Proseslərin miqyası getdikcə genişləndi və indi Avropa yeni keyfiyyətli bir inteqrasiya astanasında dayanmışdır.

Gərək biz Avropanı da başa düşək. Eyni sivili-zasiyanın və eyni dinin övladları birləşərək, böyük mə-dəni sərvətlər, özünəməxsus dəyərlər sistemi yaradıbsa, buraya indiyədək yad saydıqları, öz meyarları baxımından bəlkə də mədəniyyətdən kənar hesab etdikləri, hətta ənənəvi olaraq bəlkə də düşmən saydıqları xalqları tərəddüdsüz necə qəbul etmək olar? Həm də, məsələ təkcə coğrafiyada deyil. Gürcü və erməni onlara həmişə doğma görünür. Türkiyə və Azərbaycanı ailəyə daxil etmək isə həm də böyük bir risk sayılır.

Əgər Avropa bu gün ənənəvi olaraq özünə yad saydığı başqa bir mədəniyyətlə əlaqə qurmaq və hətta birləş-

mək haqqında düşünürsə, bu özü irəliyə doğru addımdır. Çünki əsrin əvvəlində bu problem daha kəskin şəkildə dururdu. Təsadüfi deyildir ki, böyük tərəqqipərvər Cəfər Cabbarlı əsrin əvvəlində Avropanın bizə münasibətini az qala ümidsiz notlarla qeyd etmişdir: Avropa gündoğuşu anlamır. Onu heç bir vaxt doğru təsəvvür etməmişdir ("Oqtay Eloğlu"). Hər halda keçən bir əsr ərzində tərəqqi göz qabağındadır. İndi Avropa bizi anlamağa təşəbbüs göstərirsə, biz də bu məsələdə ona yardımçı olmalıyıq.

Lakin nə etmək olar? Məgər Qərb zəkasının zirvəsi sayılan Hegel inkişafın mənbəyini əksliklərin vəhdətində, qarşılıqlı zənginləşmədə görmürdümü? Ancaq özü kimilərlə birləşməkdən nə kimi əlavə inkişaf impulsları almaq mümkündür? Türkiyənin Avropa Birliyinə daxil olması Avropaya nə verə bilər? Bax, Avropa bunların hamısını düşünür, götür-qoy edir və bir əli ilə bizi qucaqlasa da, o biri əl yenə də itələməkdə davam edir.

Belə bir şəraitdə biz itələyən əllə əlbəyaxa olmaqdansa, birləşmək istəyən əli daha möhkəm sıxmalıyıq. Budur ən böyük siyasət. Və Azərbaycan Prezidenti həmişə olduğu kimi, bu gün də yeganə düzgün yolu seçmişdir.

*"İpək yolu" jurnalı, 2001, №2.*





# İkili standart

Azərbaycanın Avropa Şurasına daxil olmasının tarixi əhəmiyyətini çoxları hələ də kifayət dərəcədə qiymətləndirə bilmir. Əgər Cənubi Qafqaz ölkələrindən ikisi bu şuraya qəbul olunursa, həmin coğrafi məkanda yerləşən üçüncü ölkənin də bir Avropa ölkəsi kimi təsbit olunması və Avropa Şurasına daxil edilməsi özlüyündə aydın bir zərurət kimi qəbul edilir. "İnsanın hüquq və azadlıqları", "siyasi məhbuslar", "parlament seçkilərindəki pozuntular" və s.-lə bağlı olan qeyd-şərtlər, əmmalar da insan hüquqlarına və demokra-tiyaya həqiqətən böyük önəm verən Avropanın bizə canıyananlığı və öz prinsiplərinə vasvasılıq dərəcəsində sədaqəti kimi anlaşılır. Məsələyə bu cür sadəlövhlüklə yanaşanlar hətta nəyə görə Ermənistanın da qeyd-şərtsiz Avropa Şurasına daxil edilməsinə təəccüblənirlər. Belə ki, axı Ermənistan təcavüzkar dövlət olmaqla neçə-neçə yaşayış məntəqələrində dinc əhalini kütləvi surətdə qətlə yetirmiş, insanların ən ali hüquqlarına – yaşamaq haqqına qəsd etmiş, yüz minlərlə azərbaycanlını öz yurd-yuvasından didərgin salmış, onların hüquq və azadlıqlarına qarşı hörmətsizlik etmişdir. Həm daxildə, həm də xaricdə münasibətləri sivil demokratik mübarizə əvəzinə, zorakılıqla, çox vaxt terror vasitəsilə aydınlaşdıran, hətta öz parlamentində də qətllər törədilən Ermənistana münasibət daha kəskin olmalı idi.

Hansı isə partiyaların qeydiyyatdan keçməsinin ləngidilməsi, kimlərinsə siyasi fəaliyyətinin və ya söz azadlığının məhdudlaşdırılması, bəzi seçki məntəqələrindəki qanun pozuntuları, hansı cinayətkarlarınsa həbs-xana şəraiti və sağlamlığı ilə bağlı narahatlıq keçirən və Azərbaycanın Avropa Şurasına qəbulunu min bir bəhanə ilə şübhə altına alan demokratiya keşikçiləri Ermənistana qarşı daha sərt mövqedən çıxış etməli və onu heç cür bu böyük sivilizasiya məkanına buraxmamalı idilər. Lakin "sağlam düşüncədən" (əslində siyasi sadəlövhlük mövqeyindən) çıxış edənlərin gözlədiyinin əksinə olaraq avropalılar siyasi, iqtisadi, sosial aspektlərdə və hətta milli münasibətlər və daxili konfliktlər baxımından vəziyyəti bizdən heç nə ilə yaxşı olmayan Gürcüstanın və hətta təcavüzkar Ermənistanın Avropa Şurasına qəbuluna öz razılıqlarını daha tez bildirdilər və əksinə, Azərbaycan barədə tərəddüdlü olduqlarını da gizlətmədilər. Lakin, əlbəttə, Azərbaycanın hər halda bir islam ölkəsi olması, Şərq dəyərləri ilə daha sıx bağlılığı, özünəməxsus mədəni-mənəvi ənənələri və s. bu kimi səbəblər barədə bir kəlmə də demədən, ancaq demokratiya təəssübkeşliyini qabartmaq yolu ilə... Siyasi sadəlövhlər də onların arqumentlərindən ikiəlli yapışaraq Azərbaycandakı çatışmazlıqları daha da qabartmağa çalışarkən, əslində kimin dəyir-manına su tökdüklərini özləri də anlamırdılar (Yox, əgər bunu anlayaraq edirdilərsə – daha pis).

Lakin Azərbaycanın böyük siyasi təcrübəyə malik prezidenti heç şübhəsiz, ölkəmizə yönəldilmiş bu tərəddüdlərin əsl səbəblərini də çox gözəl anlayırdı. Amma üzə vurmurdu. Sükutla keçən bu daxili mübarizədə yeganə yol onların bütün bəhanələrini kəsmək və onların özlərinin irəli sürdükləri prinsiplərdən çıxış etmək idi.





Evləri, kəndləri, şəhərləri dağıdılmış, viran edilmiş, yandırılmış, valideynləri, bacı-qardaşları, övladları qətlə yetirilmiş, öz dədə-baba torpağından didərgin salınmış, ən adi məişət şəraitindən məhrum olmuş, bir parça çörəyə möhtac qalmış, şikəst edilmiş minlərlə insanın dərd-sərinə şərik olmaq, onların öz dədə-baba yurdlarına qaytarılması üçün əllərindən gələni etmək əvəzinə, onların taleyinə və hüquqlarına tam biganə qalmaqla normal həyat şəraitinə və hər cür təminata malik olan adamların dövlət əleyhinə mitinq keçirmək, həm də bu meydanda deyil, məhz o biri meydanda toplaşmaq hüququnu, kimlərinsə azad fikir söyləməklə yanaşı azad təhqir etmək "hüququnu" müdafiə edən, cinayətkarları siyasi məhbus adı ilə azadlığa buraxdırmağa çalışan, seksual azlıqların dərdini çəkən və onlara yaşıl işıq tələb edən Avropa hüquq mühafizəçilərinin qoyduğu şərtlərə tam ciddi münasibət bəsləməli olduq. Bir çox məsələlərdə qoyulan tələblərin, verilən qiymətlərin haqsız olduğunu görsək də dözüm nümayiş etdirdik. Şərt qoyanların sözləri kəsildikdə daha artıq bizi Avropa ölkəsi kimi tanımamaq mümkün olmadı.

Qısa bir müddətdə Azərbaycan cəmiyyətin bütün sahələrində böyük demokratik islahatlar keçirdi. İn-sanların hüquq və azadlıqları konstitusiya səviyyəsində və bir sıra müvafiq qanunvericilik aktlarında təsbit edildi, ölüm hökmü ləğv olundu, geniş miqyaslı amnistiyalar tətbiq olundu, seçki haqqında müasir tələblərə cavab verən qanun qəbul olundu və s. və s., – bütün bunlar təkcə Avropa Şurasına qəbul olunmaq naminə edilmədi, bunlar müstəqil Azərbaycan dövlətinin, onun Prezidenti Heydər Əliyevin seçdiyi strateji inkişaf yolunun, demokratik dövlət quruculuğunun prinsiplərinə uyğun olaraq həyata keçirildi. Və Avropa Şurası mız qoymaq üçün heç bir bəhanə tapa bilmədi.

İkinci türk dövlətinin Avropa ölkəsi olaraq tanınması qaçılmaz bir zərurət oldu. Bu, böyük tarixi qələbə idi. Özünü ancaq xristianlıq çərçivəsində görməyə çalışan bir sıra Avropa dövlətləri, təbii ki, buna qısqanclıqla yanaşdılar. Lakin Azərbaycan dövlətinin ardıcıl surətdə yeritdiyi siyasət uğurla nəticələndi.

Türkiyənin Avropa İttifaqına qəbul olunmasını bütün vasitələrlə əngəlləməyə çalışan qüvvələr üçün Avropanın siyasi coğrafiyasındakı bu dəyişiklik böyük zərbə idi. Lakin Avropanın müsəlman, xüsusən türk dövlətləri hesabına genişlənməsinin əleyhinə olan anti-türk əhvallı siyasi qüvvələrin və erməni lobbisinin səyləri nəticəsində bu zərbəni kompensasiya etmək üçün planlar cızılırdı. Müasir dövrdə həm iqtisadi, elmi-texniki, mədəni inkişaf səviyyəsinə görə, həm də demokratik cəmiyyət və dövlət quruculuğunu ardıcıl surətdə həyata keçirdiklərinə görə, Qərb dəyərlərinə mükəmməl surətdə yiyələndiklərinə görə və bəzi Avropa ölkələrini bir sıra göstəricilər baxımından ötüb-keçdiklərinə görə Türkiyə və Azərbaycana daha artıq heç bir irad tuta bilməyən belə qüvvələrin yeganə çarəsi yenə də tarixi keçmişə qayıtmaq oldu.

Bu günün reallıqları göz qarşısındadır. Bu gün kiminsə şantajçı, işğalçı, terrorçu olduğunu görmək bir o qədər də çətin deyildir. Heç bir təbliğat, hətta ən yaxşı düşünülmüş saxta informasiya kompaniyası da bu reallıqları danmağa, başqa rəngdə qələmə verməyə nail ola bilmədi. Lakin keçmişi saxtakarlaşdırmaq, zaman oxunda geriyə getdikcə ictimai rəyi çaşdırmaq və əks səmtə yönəltmək daha asandır. Burada çox şey tarixi faktlardan daha çox məhz təbliğat kompaniyasından asılı olur.

*"İpək yolu" jurnalı, 2001, №2.*





## Fransadan iki xəbər gəldi...

*Əvət, bilməli ki, Frəng elləri,*
*həm bəslər, həm soldurar əməlləri.*
Hüseyn CAVİD

Bəli, yeni əsrin əvvəlində Fransadan şad xəbər gəldi. Nəhayət ki, Azərbaycan Avropa Şurasına üzv qəbul olundu. Əsr yarımlıq bir mübarizə uğurla nəticələndi. XIX əsrin ortalarında A.Bakıxanov və M.F.Axundov tərəfindən ədəbiyyat və mədəniyyət müstəvisində başlanmış müasirləşmə, qərbləşmə, avropalaşma prosesi XX əsrin sonunda Heydər Əliyevin siyasət müstəvisindəki səyləri nəticəsində bir hüquqi akt kimi təsbit olundu. Üç rəngli bayrağımız Avropa parlamentinin binası qarşısında ucaldıldı. Xalqımız bunu böyük fərəh hissi ilə qarşıladı. Yeni əsrə, yeni minilliyə bir Avropa ölkəsi olaraq qədəm qoyduq. Sevinc dalğaları təcavüzkar Ermənistanın da Avropa Şurasına qəbul olunmasından irəli gələn hiddətimizi arxa plana keçirdi.

Lakin elə həmin günlərdə Fransadan ikinci bir xəbər də gəldi. Prezident Jak Şirak Fransa senatının "erməni soyqırımı" haqqında qərarını təsdiq etdi. Türkün yeni əsrə zəfərlə qədəm qoymasından narahat olan qüvvələr sevincimizə soğan doğramağa tələsdilər.

Lakin hər pis hadisənin yaxşı tərəfi də ola bilər. Vaxtında anlayanda!

Qədəm qoyduğumuz Avropanın əslində bizim təsəv-

vür etdiyimizdən daha mürəkkəb olduğunu dərk etmək üçün, gül-çiçəklə deyil, şillə ilə qarşılanmağın xeyri, ola bilsin ki, daha çoxdur. Bu həm də eyforiyadan xilas olmaq üçün faydalıdır.

Bəli, böyük siyasi labirintlərdən keçən Avropa yolu biz düşündüyümüz qədər hamar deyil. Bizim Avropaya daxil olmağımızla Avropa dönüb bizə bənzəyə bilməzdi. Səmimiyyət və sadəlövhlükdən yoğrulmuş bir ruh üzlər görmüş Avropa üçün doğma ola bilməzdi. Biz əsl avropalı olmaq istəyiriksə, deməli, ifrat səmimiyyət xəstəliyindən də xilas olub siyasiləşməyi öyrənməliyik.

Avropalılar bizdən fərqli olaraq, yazdığını olduğu kimi oxumaq və məhz düşündüyünü demək dərəcəsində sadə deyillər. Avropalılarla onların öz dilində danışmağı öyrənmək lazımdır. Bu dil bir cür yazılıb, beş cür oxunuşu olan siyasət dilidir.

Siyasiləşmiş təfəkkür intriqasız yaşaya bilməz. Lakin bu intriqa bizim başa düşdüyümüz məhəlli intriqalardan fərqli olaraq, yeddi qat pərdələnmiş və beynəlxalq miqyas almış qlobal bir intriqadır.

Nə yaxşı ki, XX əsrdə Qərb dünyasının siyasi intriqa tələbatını ödəmək üçün kommunizm kabusu kimi maraqlı bir məşğuliyyət var idi. Siyasət ustalarının böyük istedadı çox möhkəm ideologiya istehkamı ilə üz-üzə gəlmişdi. Və xeyli müddət onu keçə bilmədi. Və xeyli müddət bütün nəzərlər məhz bu istiqamətdə yönəldi... Nəhayət, bu istehkam da dağıdıldı. İndi böyük siyasət oyunçuları yeni maraqlı intriqalar axtarırlar. Lakin onların bu çağırışını qəbul edib meydana çıxmaq istəyən tapılmır. İndi hamı bu böyük siyasilərin iradəsini qəbul etməyə yönümlüdür. Səhnədə rəqib qalmamışdır.





Lakin rəqibsiz də oyunmu olar? Onu necə olursa-olsun axtarıb tapmaq lazımdır. Bu gün tapmaq mümkün deyilsə, keçmişə nəzər salmaq, keçmiş nəhəngləri qurdalamaq maraqları da görünür. Bu yandan da erməni lobbisi dinc durmur və hələ o vaxt müharibədə Rusiyanın (və deməli, həm də onun müttəfiqi olan Fransanın) tərəfinə keçərək, öz ölkələrinə arxadan vurduqları zərbə müqabilində vəd olunmuş payları yada salır. Bu yerdə Osmanlı İmperiyası, Birinci Dünya Müharibəsi və bu müharibədə türklərin Antantanın çəkdiyi plandan imtina etmələri yada düşür.

Fransadakı mütərəqqi qüvvələrlə, dinc, stabil Avropa məkanı uğrunda mübarizə aparan sülhsevər qüvvələrlə yanaşı mövcud olan və siyasi intriqa vərdişlərindən yaxa qurtara bilməyən qüvvələrin istəyi erməni lobbisinin maraqları ilə rezonansa gəlir. Təəssüf ki, mütərəqqilər tamaşaçı rolunu seçir və nə qədər böyük səylər nəticəsində əldə olunmuş siyasi stabillik təhlükə altına alınır.

*"İpək yolu" jurnalı, 2001, №2.*

## Qərbləşmə, siyasiləşmə, feminizasiya

Üzümüzü Avropaya tutduqdan sonra müşahidə olunan yeniliklərdən biri cəmiyyətimizin həddindən artıq siyasiləşməsidir. Bizmi bunu belə istəyirik, Avropamı belə istəyir, - deyə bilmərəm. Lakin həddindən artıq çox mətbuat orqanının çıxması və onların əksəriyyətinin, habelə yeni televiziya kanallarının əsasən siyasətlə bağlılığı elə bir görünüş yaradır ki, siyasi mövzu digər sahələri sıxışdıraraq, ön plana çıxmışdır. Bu siyasi təfəkkürün inkişafındanmı, yoxsa, əksinə, həqiqi alternativ siyasi fikir defisitliyini rəngsiz-boyasız, çılpaq, düzxətli fikirlər çoxluğu ilə doldurmaq təşəbbüsündənmi irəli gəlir? Siyasi təfəkkürün daxili rəngarəngliyini, mürəkkəb çoxpilləli strukturunu, müxtəlif təzahür imkanlarını bəsit "siyasi" tezislərin xaotik toplumu, statistik yekunu ilə əvəz etmək mümkündürmü? Bunlar böyük suallardır. Lakin üzdə olanı budur ki, hadisələrin görünən qatında siyasiləşmə tendensiyası başqa prosesləri sıxışdırıb çıxarmaq, milli təfəkkürün inkişafına yönəldilmiş siyasi, iqtisadi və mədəni-mənəvi maarifçilik hərəkatını psevdosiyasi dedi-qodularla əvəz etmək təhlükəsi yaradır.

Hansı prosesləri? Jəmiyyətimizdə daha hansı yeniləşmələr müşahidə olunur? Yenə də KİV-ə, mətbuata nəzər salsaq, ənənəvi əxlaq üçün yabançı olan erotik mövzuların, uydurma dəhşətlər və uydurma qəhrəmanlıq mövzularının həddindən artıq çoxaldığını görərik. Habelə, sensasiyaçılıq, hadisəçilik, dedi-qodu meyli də güclənmişdir. Geyimlərimiz də xeyli dərəcədə yeniləşmiş, sadə Avropa stili ilə yanaşı çoxlu ekstravaqant modalar ənənəvi modelləri sıxışdırmışdır. Bu yeniliklərin hansı bizim avropalaşmaq istəyimizdən irəli gəlir? Başqa sözlə, biz Avropanı düzgünmü təsəvvür edirik və nə dərəcədə dərk edirik?

Yenə də mahiyyət kənarda qalanda zahiri cərəyanlar, formalar imitasiya olunur...

Sualı bir az başqa cür qoyaq. A.Bakıxanov, M.F.Axundov, Ə.Hüseynzadə, Ə.Topçubaşov, F.Xoyski və s. avropalaşmaq ideyasını irəli sürəndə nəyi nəzərdə tuturdular? Biz Avropadan elmi-texniki inkişaf səviy-yəsini, rasional düşüncə üslubunu, siyasi təfəkkür mədəniyyətini, fəlsəfi təfəkkürün hüquq müstəvisinə köçürülməsinimi götürmək istəyirik? Yoxsa onların özünün xilas olmağa çalışdığı və məmnuniyyətlə xaricə ixrac etdiyi "kütləvi mədəniyyətimi" nəzərdə tuturuq?

Lakin bir məsələdə hələ də avropalaşmadığımız şübhə doğurmur. Qarşı tərəf proseslərin mahiyyətini, həqiqətdə necə olduğunu bir kənara qoyub, zahirilikdən, məharətlə formalaşdırılmış ictimai rəydən ikiəlli yapışanda və "təki görünüş uyğun gəlsin, əslində necə olması bir o qədər də vacib deyil" mövqeyindən çıxış etdikdə, biz tezcə sarsılırıq, onun dilini anlamır, özümüzü qadın təfəkkürünün məntiqinə uyğunlaşdıra bilmirik. Qoy qadınlar bizdən inciməsin, çünki qadın düşüncəsinin zahirilik və məkrlə əlaqələndirilməsi Avropa ideoloqlarının özünə məxsusdur. Qərbin məşhur yazıçısı U.Folkner qadın və kişi düşüncə tərzini belə fərqləndirir: "Kişi faktdan çıxış edir, onun necə görünəcəyi, həqiqətə bənzəyib-bənzəməyəcəyi əsas de-

yil. Qadın üçün isə əsas məsələ zahirən hadisələrin bir-birini tamamlaması və hər şeyin uyğun gəlməsidir. Həqiqətdə necədir, – bunun mətləbə dəxli azdır"... Feminizasiyaya hörmətlə yanaşan Avropa çoxdan qadın məntiqinə uyğunlaşmış və hər şeyi zahirən gözəl təqdim etməyi öyrənmişdir. Təbii ki, kişi düşüncəsi də atılmamış, lakin aysberqin alt qatında saxlanmışdır.

Təsadüfi deyil ki, bu gün qadın məkrindən xilas olmağın ən yaxşı yolu Avropa centlmenliyidir... Burada yadıma Kislovodskun kənarındakı "Məkr və məhəbbət" qəsri düşdü. Turist səfərində bizi müşayiət edən bələdçi qəsrin adı haqqında məlum əfsanəni danışırdı. "Xanın qızı çobana aşiq olur. Xan isə bununla razılaşmayaraq, qızını zəngin bir adama vermək istəyir. Çoban və qız etiraz əlaməti olaraq özünü qayadan atmaq qərarına gəlirlər. Çoban özünü atır, qız da özünü atmaq istəyərkən ağlına gəlir ki, daha çoban yoxdur. Bir o sağ qalıb, bir də həmin zəngin adam. Qayıdıb, atasının təklifinə razılıq verir. Bax, "Məkr və məhəbbət" adı buradan qalıbdır". Bu məqamda bir avropalı turist iradını bildirdi və dedi ki, axı, sizin o çoban da heç az təqsirkar deyil. Görünür, o lap türkün biri imiş. Centlimenliyi çatmayıb, qadına yol vermək əvəzinə birinci özü tullanıb. Turistin türkə münasibəti mənə toxunsa da ünvana düz düşmüşdü. Bu yerlər həqiqətdə qədim türk tayfalarından olan qaraçaylıların məskəni idi... İnsafən avropalı da çobanın günahından tez keçdi və onu Strasburqdakı İnsan hüquqları məhkəməsinə vermək barədə məsələ qaldırmadı. Deyəsən, qulağının dibində erməni lobbisindən heç kim yox idi...

Bəli, qadın məkrindən, qadın düşüncə tərzindən bəhrələnən siyasi fikir labirintlərində azmamaq üçün ən azı centlmen olmaq lazım imiş. Lakin məkr, siyasət və centlmenliyin qaynayıb-qarışdığı bu məntiq bizim üçün, görünür, hələ də anlaşılmazdır. Ona görə də biz Avropa ilə yenə də türk dilində, kişi məntiqi ilə danışmaq istəyirik. Avropa isə qadın haqqlarını, kişi ilə qadının bərabərliyi ideyasını müdafiə etməklə yanaşı bizdən qadın düşüncəsini də öyrənməyi tələb edir. Və bizi yoxlamaq üçün sınağa çəkir. Avropaya daxil olmaq istəyirsinizsə, kobud kişi məntiqi ilə, hünər dilində (yada salaq: farsi – şəkərəst, türki – hünərəst) deyil, məhz Avropa dilində cavab verməyi öyrənib-öyrənmədiyimizi yoxlayır.





* * *

Tək Fransa deyil, bütün Avropa hələ də tərəddüd edir. Türkün başqa dildə danışa biləcəyinə, ikili standartlar dünyasının atdığı addımlara hünər dilində deyil, onun öz standartları ilə, siyasi manevrlərlə cavab verə biləcəyinə inanmaq istəyirlər.

Qərblilər qərar qəbul edildikdən sonra acıqla, hökmlə deyil, hələ qərara qədər qılıqla, taktla – onların öz dilində danışmağı gözləyirlər. Ermənilər senatorların hər biri ilə iş aparır, ictimai rəyi öz istəyinə uyğun formalaşdırmaq istəyir, türk isə "həqiqət onsuz da mənim tərəfimdədir", – deyə saymazlıq edirsə, bu, türkün hələ də onlara yad olduğunu xatırladır.

Bütün bunlar az imiş kimi Azərbaycanda da psevdosiyasi qüvvələr iqtidarı tənqid edərək, onu acıqlı qərarlar qəbul etməyə səsləyirlər. Lakin nə yaxşı ki, bu gün Azərbaycana rəhbərlik edən şəxs Şərqin dilini bildiyi kimi, Qərbin də dilini bilir və vəhdət ideyasından çıxış edir.

Qəti əminik ki, biz seçimimizi düzgün edə bilsək, siyasi dözüm nümayiş etdirsək və daxil olduğumuz ailənin

dilində danışmağı öyrənsək, Avropa da, Amerika da gec-tez düzgün seçim edəcəkdir.

*"İpək yolu" jurnalı, 2001, №2.*



# Ədəbi-bədii notlar

- **Sintetik təfəkkürə doğru**
- **Milli varlığımızın mənəvi sütunları**
- **Cavid simvolikası**
- **Cavid yeni əsrdə: nidalar və suallar**
- **Fikrin gözəllik məqamı**
- **Ocaq və kül**
- **Dilin və fikrin potensialı**
- **Vaqif, "Vaqif" və üç Vaqif**
- **Ülvi hisslərdən şəhidlik zirvəsinə**
- **Qaranlığın işığı**
- **Şekspirdən Hamletə**
- **Rəsul Rza poeziyasına dair üç qeyd**
- **Cavid, Əziz Nesin və postmodernizm**

## Sintetik təfəkkürə doğru

*Şərq təfəkkürü təəssüratçılıqla, Qərb təfəkkürü təfərrüatçılıqla səciyyələnir. Məqsəd isə bunların vəhdətinə nail olmaqdır.*

Şərq və Qərb düşüncə tərzlərini, qarşılıqlı maraqları üzvi surətdə birləşdirən sintetik təfəkkür siyasət sahəsində, beynəlxalq münasibətlər sahəsində həqiqətən yeni hadisədir...

Lakin daha geniş miqyasda götürdükdə, həyatımızın bütün sahələrini məhz bu yeni təfəkkür işığında nəzərdən keçirmək istədikdə məlum olur ki, o heç də boş yerdə yaranmamış, min illərdən bəri dərin kök atmış dialektik təfəkkürün bəhrəsi kimi meydana gəlmişdir.

Bu gün qarşıda duran vəzifə idrak sahəsində müvəffəqiyyətlərin rəhni olan dialektik təfəkkür tərzinin praktik tətbiqinə nail olmaqdan, fəaliyyət proqramını bu təfəkkür əsasında qurmaqdan, dialektikanı "xalis zəka" sahəsindən "praktik zəka" sahəsinə keçirməkdən ibarətdir.

Sintetik siyasi təfəkkür dialektik idrak metodunun dövlət siyasətinə tətbiqi deməkdir. Miqyaslar arasındakı uçurumun aradan götürülməsi, tam ilə hissənin əlaqələndirilməsi, fərdi problemlərin qlobal hadisələr kontekstində nəzərdən keçirilməsi və əksinə, qlobal hadisələrin həllində hər bir adamın mənafeyinin nəzərə alınması sintetik təfəkkürün mühüm tərkib hissəsidir.





Dialektik təfəkkürün əsasında hərtərəflilik prinsipi, sintetiklik dayanır. Əksliklər müəyyən olunur, ancaq onlar mütləqləşdirilmir, vəhdətdə nəzərdən keçirilir.

Bir fikir başqa fikirləri istisna etmir, əksinə, bir-birini qarşılıqlı surətdə tamamlayır. Sintetik təfəkkür müxtəlif konseptual sistemlərin dialektik sintezi olmaqla yanaşı, müxtəlif təfəkkür tərzlərini də özündə birləşdirir. O, Şərq və Qərb təfəkkür tərzlərinin, milli şüarların bir-birini zənginləşdirməsini nəzərdə tutduğu kimi, elmi və bədii təfəkkürün vəhdəti üçün də meydan açır.

Ya yalnız sosial-mənəvi həyatın anlayışlarla inikasından çıxış edərək bədii ədəbiyyatdan, obrazlı təsvirdən imtina etmək, ya da yalnız bədii ədəbiyyat və təxəyyül hüdudunda qalaraq real həyatın məntiqi inikasına biganə qalmaq – hər ikisi birtərəfli və metafizik yaxınlaşmadır. Sintetik təfəkkür bunların vəhdətini tələb edir.

İnsan, onun mənəvi yüksəlişi, fərdi mənəvi dünya ilə ictimai həyat arasında qarşılıqlı əlaqə və ziddiyyət məsələləri əsrlər boyu yalnız fəlsəfənin deyil, həm də bədii ədəbiyyatın, incəsənətin predmetinə daxil olmuşdur. Lakin fəlsəfənin məğzini, əsas məsələsini təşkil edən bu problem bədii ədəbiyyatda bir növ dolayısı ilə, daha doğrusu, təzahürlər vasitəsilə işıqlandırılmışdır.

Bəli, bədii ədəbiyyat ***İnsan–Dünya, İnsan–Təbiət, İnsan–Cəmiyyət*** problemlərini ən ümumi şəkildə qoymur. Lakin bununla belə, bədii ədəbiyyat üçün müəyyən ümumiləşdirmə (tipikləşdirmə) səciyyəvidir. Burada Aristotelin poeziya haqqında məşhur fikrini xatırlamamaq mümkün deyil. "...Poeziya tarixdən daha fəlsəfi və daha ciddidir: poeziya daha çox ümumidən, tarix xüsusidən bəhs edir."[1]

---

[1] *Aristotel.* Poetika, 1974, s. 63

Lakin bədii ədəbiyyat, poeziya nümunələri ümumilik dərəcəsinə görə müxtəlifdir. Bədii əsər tarixdə olduğu kimi konkret bir hadisənin təfərrüatını, spesifikasını, təkrarlanmazlığını, unikallığını də əks etdirə bilər. Daha doğrusu, bədii əsər bunsuz mümkün deyil. Zira o, əslində yalnız təkcəni və ya yalnız ümumini deyil, təkcə, xüsusi və ümuminin vəhdətini əks etdirir. Dəqiq ünvanlı təbiət guşələrinin, konkret tarixi hadisələrin və ayrı-ayrı şəxsiyyətlərin bədii tərənnümünə həsr olunmuş əsərlər çox vaxt məhz fərdilikdən, təkrarlanmazlıqdan, özünəməxsusluqdan çıxış edir ki, bu da həmin əsərləri məhz tarixlə yaxınlaşdırır. Məsələn, Homerin poemaları, "Dədə Qorqud", "Manas" və s. bəlkə də bədii nümunə olmaqdan daha çox, tarixi informasiya mənbəyi kimi, həmin dövrün adət-ənənələri, həyat tərzi, təfəkkür üslubu və dil xüsusiyyətləri haqqında heç bir tarix kitabından ala bilməyəcəyimiz dərəcədə məlumat verən mədəni-mənəvi irs kimi qiymətlidir. Beləliklə, bəzi eposlar, tarixi poema və romanlar ictimai həyatın müəyyən bir dövrünü daha dolğun əks etdirməklə tarixi abidəyə çevrilir. Digər tərəfdən, bədii formada yazılmış fəlsəfi əsərlər də bədii əsər kimi deyil, məhz fəlsəfi baxımdan maraq doğurur. Məsələn, Lukretsi Karın "Şeylərin təbiəti haqqında" poeması, Şeyx Mahmud Şəbüstərinin "Gülşəni-raz" məsnəvisi...

Ədəbiyyat adı altında elə müxtəlif əsərlər palitrası əhatə olunur ki, burada ifrat konkretlik və təsvirçilikdən ifrat ümumiləşdirmə və mücərrədliyə qədər hər cür əsər tapmaq mümkündür. Bəli, poeziya tarixə nisbətən ümumi, fəlsəfəyə nisbətən xüsusidir. Bu iki qütb arasındakı geniş sahədə isə ümumilik dərəcəsinə görə bir-birindən ciddi surətdə fərqlənən müxtəlif əsərlər yerləşir. Onların bir qismi tarixə, digər qismi isə fəlsəfəyə yaxındır. İfrat hallar yuxarıda dediyimiz kimi nəzmlə yazılmış tarix və nəzmlə yazılmış fəlsəfədir. Bunların heç biri əslində poeziya deyil. Bunların heç biri elm də deyil. İstər elm, istərsə də bədii ədəbiyyat və incəsənət tarixdən fəlsəfəyə, hadisələr dünyasından mahiyyətlər dünyasına gedən yolun müxtəlif məntəqələridir. Daha doğrusu, söhbət eyni başlanğıcdan eyni sonluğa, nəticəyə aparan iki müxtəlif yoldan gedir. Bu yolların birini məntiq, digərini hiss şöləsi işıqlandırır, birində anlayışlar, digərində hissi obrazlar bələdçidir.

Bəzən bədii əsərlər sinkretik xarakter daşıyır və əsərin əsas qayəsinin, fəlsəfi konsepsiyanın açılışına aparan bu iki yolun birindən o birinə müvəqqəti keçidlər edilir. Məsələn, Nizaminin poemaları belə sinkretiklik baxımından səciyyəvidir. Nəzmlə yazılmış elmi ricətlər ümumi struktura daxil olur. Müəllif ümumi fəlsəfi konsepsiyanın açılışına gedən yolların hər ikisini işıqlandırmağa çalışır. "Xosrov və Şirin"də insani məhəbbətin ümumdünya cazibəsi kontekstində şərh olunması mənəvi və maddi dünyanın vahid qanunlara tabe olması, dünyanın vəhdəti və ahəngdarlığı, daxili tamlığı ideyasını ifadə edir. Beləliklə, sufi fəlsəfəsinin mühüm məqamlarından biri olan vəhdəti-vücud təlimi, təbiət qanunları ilə mənəviyyat qanunlarının eyniyyəti ideyası Nizami yaradıcılığında həm elm, həm poeziya və həm də fəlsəfi fikir vasitəsilə ifadə olunur. Nizaminin poemalarında ümumi fəlsəfi qayənin açılışına xidmət edən bədii təhkiyədən bir sıra kənaraçıxmalar, elmi şərhlər və bilavasitə fəlsəfi ricətlər vardır ki, bunlar mülki tarix, elm tarixi və fəlsəfə tarixi baxımından maraq doğurur və ilk baxışda ümumi kontekstdən kənara çıxır. Lakin diqqətlə yanaşıldıqda bu ricətlər təhkiyə ilə, süjetlə bilavasitə bağlı olmasa da, məhz ümumi fəlsəfi kontekstə uyğundur və bu baxımdan, əsərin daxili ahəngi və bütövlüyü po

zulmur. Nizami əsərlərinin belə sinkretik, çoxmərtəbəli quruluşu bu poemaları müxtəlif tədqiqat sahələrinin obyektinə çevirir. Alim və mütəfəkkir Nizaminin elmi və fəlsəfi fikirlərini bilavasitə ifadə edən nisbi müstəqil parçalar, beytlər elm tarixçiləri və filosoflar tərəfindən tədqiq olunmaqdadır. Nizami poeziyasının mürəkkəb, sinkretik tərkibi alim Nizaminin, tarixçi Nizaminin, filosof Nizaminin və nəhayət, şair Nizaminin ayrı-ayrılıqda, hər bir sahənin öz tədqiqatçısı tərəfindən öyrənilməsinə imkan verir. Lakin Nizami əsərlərinin bir spesifik cəhəti də vardır ki, burada bədii ideya özü fəlsəfi ümumiləşmə səviyyəsinə qaldırılır, yəni bədiiliklə fəlsəfəlik vəhdət halında olduğundan təkcə filosof Nizaminin deyil, şair Nizaminin də filosoflar tərəfindən öyrənilməsinə ehtiyac yaranır.

Bu gün sintetik təfəkkür ancaq tarix, poeziya, elm və fəlsəfə üçün deyil, ədəbi tənqid və publisistika üçün də zəruridir.

Ədəbi tənqid bədii ədəbiyyatı izləməklə məhdudlaşmırsa, onun önündə getmək, ona yol göstərmək istəyirsə, onda gərək yalnız ədəbiyyatdan deyil, sosial-mənəvi gerçəkliyin məntiqi təhlilindən, elmi-fəlsəfi fikirdən də bəhrələnsin.

Müasir dövrdə sintetik təfəkkürün ədəbi tənqiddə təzahürü özünü tənqidin sintetik funksiyasında: obrazlı təfəkkürlə məntiqi təfəkkürü üzvi surətdə birləşdirmək imkanında tapmalıdır.

Lakin təəssüf ki, bu gün ədəbi tənqid sintetik təfəkkürə, fəlsəfi təhlilə deyil, publisistikaya meyl edir və ya publisistik düşüncə tərəfindən sadəcə sıxışdırılıb aradan çıxarılır.

Müstəqillik dövründə gerçəkliyin, ictimai həyatın bilavasitə inikası üçün şərait yarandığından publisistika sürətlə inkişaf etməkdədir. Lakin bu inkişaf əsasən ekstensiv xarakter daşıyır. O qədər "bakirə" mövzular var ki, publisistika mövzu meydanında at səyirdir. Lakin tez-tez atdan düşüb atlanır və ya bir yerdə fırlandığından heç bir sahədə dərinə nüfuz edə bilmir, mahiyyətləri aça bilmir. Ona görə də müasir publisistika çoxlu problemlərə toxunsa da əsasən təsvirçi səciyyə daşıyır.

Yığılıb qalmış sosial, ekoloji, demoqrafik, mənəvi problemlərin əsl ciddi bədii həllini vermək xüsusi sənətkarlıq axtarışları tələb etdiyi kimi, onların elmi təhlili də o saat konkret nəticələrə gətirmir. Lakin ədəbi prosesin istiqaməti elədir ki, müasir dövr üçün səciyyəvi olan təsvirçilik meyli ciddi bədii və elmi axtarışlar müstəvisinə keçdikdə, ədəbi tənqid də sintetik təfəkkür səviyyəsinə yüksəlmək imkanı əldə edəcəkdir.

*"İpək yolu" jurnalı, 1998, № 2.*

## Milli varlığımızın mənəvi sütunları

XX əsr – Azərbaycanın dövlətçilik tarixində ən mürəkkəb, çətin və eyni zamanda ən şərəfli dövrlərdən biridir. Milli fikrin oyanışı ilə siyasi repressiyalar və ideoloji məhdudlaşdırmalar eyni dövrə təsadüf etdiyindən, siyasi, ictimai və fərdi şüurdakı ziddiyyətlər bir çox şəxsi faciələrin də səbəbinə çevrilmişdir.

Önəmli olan məsələlərdən biri yaşanmış faciələrə, heç olmazsa, müstəqillik dövründə anlayışlı yanaşmaq, o dövrün daxili ziddiyyətlərini və tələblərini nəzərə almaqdır. Və milli varlığın qorunub saxlanması üçün nələrin daha vacib olduğunu müəyyənləşdirməkdir.

Bizi bir millət olaraq yaşadan nədir: hadisələr, təfərrüatlar, yoxsa mahiyyətlər?

Məsələ burasındadır ki, milli varlıq heç də özünü hansı isə millətdən hesab edən insanların cismani və ya sosial varlığı deyil. Milli varlıq – milli ideyanın varlığıdır; bu ideyanın yaşamasını təmin edən bir zehniyyət, sosiallaşmış mənəvi prosesdir. Bioloji və ictimai varlıq mənəvi varlığın sadəcə daşıyıcılarıdır. Əlbəttə, daşıyıcılar olmasa – millət də olmaz. Lakin digər tərəfdən, əgər milli ideyanı, milli ruhu yaşadan çox kiçik bir ictimai qrup (şair deyərdi: bircə nəfər də) hələ varsa, deməli, millət də hələ yaşayır. Və əksinə, çoxlu sayda bioloji varlıqlar və yaxşı təşkilatlanmış və hətta dövlətləşmiş böyük bir cəmiyyət varsa və o, öz iqtisadi, elmi-texnoloji inkişafına görə irəlidə getməyi də bacarırsa və itirmiş olduğu (qurban verdiyi) sadəcə (?!) milli ruhdursa, milli varlığın yaşadığını deyə bilmərik. Çünki bu möhkəm və böyük sosial bədənə artıq başqa bir ruh hakim kəsilmişdir. Ad-soyad (o cümlədən, millətin ad-soyadı) hələ milli mənsubiyyəti təsdiq edə bilməz. O qədər manqurt xalqlar var ki... Bir sözlə, əsas məsələ zehniyyətdir, mənəviyyatdır.





"Din içində din bəsləyən", yad sosial-mənəvi iqlimdə öz həqiqi milli zehniyyətini və ruhunu qoruyub-saxlayan və gələcək nəsillərə çatdıran millət fədailərimiz olmasaydı, biz də çoxdan özgələşər, yabançılaşardıq.

Çar Rusiyası dövründə əyninə məmur mundiri geyinib, çiynində poqon gəzdirən A.Bakıxanov, M.F.Axundzadə kimi, bolşevizmin ilk hakimiyyəti dövründə kommunist partiyasının iyerarxiyasında yüksək mövqe tutan Nəriman Nərimanov və sonralar Heydər Hüseynov kimi şəxsiyyətlər öz rəsmi vəzifə borclarından kənara çıxaraq və hətta bu vəzifənin, bu mövqeyin verdiyi səlahiyyətlərdən məharətlə istifadə edərək, həm də və daha çox dərəcədə millət üçün çalışmırdılarmı? Vaxtilə Çar ordusuna xidmət edən və hərbi sahədə böyük bilik, təcrübə və mənsəb sahibi olan Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski kimi generallar fürsət düşən kimi milli istiqlala xidmət etmədilərmi? İndi biz onları İmperiyaya xidmət etdiyinə, öz dövrlərində hakim mühitlə "kompromisə getdiklərinə görə" qınamalıyıqmı?

Və nəhayət, Heydər Əliyev bir kommunist lideri olmaqla yanaşı, özünün bütün imkanlarından milli tərəqqi üçün istifadə etmirdimi? 2001-ci ildə çapdan çıxmış "Lider, dövlət, cəmiyyət" kitabımda mən Heydər Əliyevin

partiya rəhbərliyində çalışarkən öz mövqeyindən millət naminə necə istifadə etdiyinə dair belə bir faktı diqqətə çatdırmışam: "...Həmin dövrdə Azərbaycan tarixini vərəqləyərkən paradoksal vəziyyətlə qarşılaşırıq. Bütün ölkə miqyasında inkişafın ləngidiyi və bir sıra sahələrdə hətta tənəzzül getdiyi bu dövr Azərbaycanda ancaq sürətli inkişaf və dirçəliş dövrü kimi səciyyələnə bilər. Bəs necə ola bilirdi ki, Azərbaycan ölkə miqyasında gedən bu mənfi proseslərdən bir növ kənarda qalmış, əksinə, iqtisadiyyatın demək olar ki, bütün sahələrində: sənayedə, kənd təsərrüfatında, şəhərsalma və tikintidə, elm və mədəniyyətdə böyük uğurlar qazanaraq sürətli inkişaf yolunu tuta bilmişdi?

Bir türk respublikasının qabağa çıxması, sürətlə tərəqqi etməsi Mərkəzin siyasəti, dəst-xətti ilə heç cür uyğunlaşmırdı. Deməli, kimsə Mərkəzin siyasətindən, ümumi meyllərdən kənara çıxırdı, kimsə tabunu pozurdu, kimsə axının əksinə üzürdü. Həm də dərin qatlarda, gözə görünmədən üzürdü. Hər dəfə aşkarda – axın istiqamətində, alt qatda isə ikiqat sürətlə – axına qarşı üzmək qeyri-adi güc və iradə tələb edir. O vaxt bu gücün bizə haradan gəldiyini çoxları dərk etmirdi. O vaxt bunu dərk etmək çətin idi". Amma təəssüf ki, indi də dərk etməyənlər var.

Yaxud Nərimanovla bağlı tez-tez "o niyə bolşevik partiyasının üzvü olmuşdu?" deyənlər tapılır. Amma fərz edək ki, o dövrdə Nərimanov yox idi: bir milli istiqlalçılar var idi, bir də bolşeviklər. Xalq Cümhuriyyəti artıq qurulmuşdu, hakimiyyət onların əlində idi və onlar nə edə bilərdilərsə, etdilər. Bolşeviklərin gəlişi isə bir işğal hadisəsi idi və bu, Nərimanovlu da olacaqdı, Nərimanovsuz da. Onsuz da həyata keçən bu prosesdə Orconikidze, Kirov və bizim onlardan betər "milli bolşeviklərlə" yanaşı, Nərimanovun da iştirakı olmasaydı, onda bütün erməni planlarının və rus imperialist siyasətinin tam həcmdə gerçəkləşəcəyinə (bu isə Azərbaycanın xəritədən silinməsi demək idi) heç bir şübhə ola bilməzdi. Amma milli ruhlu bir azərbaycanlı lazım olan məqamda lazım olan yerdə tapıldı və onların planlarını pozdu. Bir daha soruçuram: Nərimanov da cümhuriyyətçilərdən biri olsaydı və onlarla bərabər sürgün edilsəydi, onda millətin taleyi necə olacaqdı?

Bu gün M.F.Axundzadənin də millət yolunda geniş miqyaslı maarifçilik fəaliyyətinə kölgə salmaq üçün onu məhz Çar Rusiyasının məmuru kimi təqdim etməyə, onun fəaliyyətini maarifçilik deyil, ateizm səpkisində dəyərləndirməyə çalışanlar var. Mirzə Kazım bəyin də hansı amallar naminə kompromisə gedərək sinəsindən xaç asdığını anlamadan, onun bütün fəaliyyətini bu xaçın kölgəsinə salanlar tapılır. Akademik Heydər Hüseynovun da Azərbaycanda elmin təşkilatlanması və milli fəlsəfi-fikir tariximizin inkişafı sahəsində misilsiz xidmətlərinə rəğmən, onu məhz "marksist" kimi dəyərləndirməyə, onu qınamağa çalışanlar var. Bu gün 1953-cü ilə qədər davam edən Stalin repressiyası dövründə, Cavidlərin, Müşfiqlərin fiziki yolla sıradan çıxarıldığı və milli ruhun qırılmaq təhlükəsi qarşısında qaldığı o ağır illərdə bütün təqiblərə və təzyiqlərə rəğmən, Azərbaycan milli ruhunu misraların ahəngində qoruyub-saxlayan, vətən sevgisini ana dilinin ecazkarlığı ilə təlqin edən, hər bir partiyalı şeirin əvəzində beş qat artıq milli poeziya nümunəsi yaradan böyük Səməd Vurğuna da irad tutanlar tapılır.

O vaxt Səməd Vurğunun qarşısında duran missiya Azərbaycan tarixinin təfərrüatlarını yazmaqdan ibarət deyildi; bunun üçün tarixçilər vardır. O vaxt qarşıda daha böyük bir vəzifə dayanırdı. Kremlin yeritdiyi millətsizləşmə və ruslaşma siyasətinə rəğmən, milli ruhu yaşatmaq və

sağ-salamat gələcək nəsillərə ötürmək: nə vaxtsa müstəqillik üçün tarixi şans yarananda, millət bu şansla üz-üzə ruhsuz-qanadsız qalmasın deyə! Doğrudan da, SSRİ-dən çıxmaq və müstəqillik uğrunda mücadilə aparmaq missiyası üzərimizə düşəndə və özümüzü bir millət kimi duymaq, milli qürur hissi ilə silahlanmaq zərurəti yarananda məhz o vaxt Cavidlərin, Vurğunların yaşatdığı həmin milli ruh köməyə gəldi.

Həlledici məqamda keçmiş tarixin təfərrüatları deyil, millətin özünün, milli ruhun, milli qürur və iftixar hissinin canlı olması önəmlidir. Bu missiyanı Səməd Vurğun milli qürur hissinin rəmzinə və böyük abidəsinə çevrilən Vaqif obrazını yaratmaqla yerinə yetirmişdir.

Bu yerdə dörd il bundan öncə çap olunmuş bir məqaləmdən kiçik bir parçanı yada salmaq istəyirəm: "Bəli, «Vaqif» bir sənət əsəridir. İştirakçılar da məhz bədii obrazlardır. Ədəbiyyatşünaslıqda yayılmış qüsurlu baxışlardan fərqli olaraq, bu pyes nə tarixi əsərdir, nə də realizm üslubunda yazılmışdır. «Vaqif» romantizmin ən parlaq nümunələrindən biridir. Burada nə tarixi Molla Pənah var, nə də tarixi Ağa Məhəmməd şah. Burada bir *hökmdar* və bir də *şair* obrazı yaradılmış, ədəbiyyat və mədəniyyətin gücü rəyasət və ordunun gücü ilə qarşı-qarşıya qoyulmuşdur. Burada şair milli ruhun təmsilçisi kimi təqdim olunur. O şair ki, Cübran onu "xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləminin bələdçisi» adlandırır.

Əlbəttə, bu cür başa düşülən Şair sadəcə şeir yazan, yaxud tarixi nəzmə çəkən şəxs yox, milli düşüncəni poetik zirvəyə qaldıran bir şəxsdir. Aristotel də təsadüfən poeziyanın tarixdən daha yüksək olduğunu vurğulamır. Onun bu mövqeyi həm də Homerdə bədii həqiqət əvəzinə, tarixi həqiqət axtaranlara ünvanlanmışdı. E.Auerbax "Mimersis" əsərində yazır: "Homeri dəfələrlə yalanda təqsirləndiriblər. Amma onun öz hekayətlərinin tarixi həqiqiliyində israr göstərməsinə ehtiyacı yoxdur... Homerin təsvirləri tarixi reallıqdan uzaq da olanda, yenə geçəklikdir".[1] Yəni bir çox hallarda böyük şairlərin təqdim etdiyi bədii həqiqətlər tarixi faktlardan yüksəkdə durur.* Ancaq bədii həqiqətləri görə bilməyənlər şeirdə tarixin təfərrüatlarını axtara bilərlər.

Amma biz nə edirik? Səməd Vurğunun yaratdığı böyük *Şair* obrazından tarixi detallar və «obyektivlik» tələb edirik.

Azadlığa çıxmış tarix prizmasından «Vaqif»ə baxıb burada Ağa Məhəmməd şah Qacarın tarixi təfsilatlarını tapa bilməyənlər görəsən Molla Pənah Vaqiflə bağlı tarixdən bəlli detalları nə əcəb axtarmır və Vaqifin də bir siyasi sima kimi səhvlərinin qələmə alınmasını və üzə çıxarılmasını tələb etmirlər? Və nə əcəb qeyd etmirlər ki, niyə burada Vaqif obrazı Rusiyanın ancaq ədəbiyyatını, mədəniyyətini qiymətləndirir, Rusiya padşahından isə bir zülmkar olaraq bəhs edir, ona nifrətini bəyan edir, amma əslində belə olmayıbmış?..

Səməd Vurğun öz «Vaqif»ini, öz əzəmətli şair obrazını tarixi detallar üzərində qurmur. Əksinə, *şair* obrazına hər hansı bir kölgə salacaq hadisələri bilə-bilə "unudur". Çünki şair bizə kölgəsiz, ləkəsiz şəkildə – milli ruhun timsalı kimi lazım idi." (10 iyun 2009).

---

[1] *Ауербах Э.* Мимесис. Изображение действительности в западноевропейской лттературе. М., ПЕР СЭ; 2000, с. 16.

* Səhv nəticə çıxarılmasın deyə, qeyd edək ki, bu dediklərimiz aktual tarixə, yəni hələ qanı qurumamış hadisələrə aid deyil. Belə ki, bu gün də gündəm də olan, hələ həllini tapmamış və deməli tarixə çevrilməmiş hadisələrin hətta bədii təsvirində də faktların təhrifinə yol verilə bilməz.

Amma «Vaqif» tariximizin mənimsənilməsi üçün doğrudan da yardımçı vasitə kimi istifadə oluna bilər. Lakin təsvirçi tarixçilər üçün yox, tədqiqatçı tarixçilər üçün. Bir məsələni qarışıq salmamaq şərti ilə: «Vaqif» XVIII əsrin axırlarının deyil, XX əsrin 30-cu illərinin, məhz 37-ci ilin tarixini əks etdirmək baxımından qiymətlidir. Hər addımı bir təhlükə olan həmin dövrün tarixini yazarkən şairlərimizdə satqınlıq nişanələri axtarmaq əvəzinə, həqiqi qəhrəmanlıq nümunəsinə göz yummamaq şərti ilə. Əlbəttə, Vaqif obrazının prototipi kimi Molla Pənah Vaqifi yox, Cavidi, Cavadı, Müşfiqi və nəhayət, Vurğunun özünü; Qacar obrazının prototipi kimi isə Ağa Məhəmməd şahı yox, Stalini, Mircəfər Bağırovu görə bilmək səriştəsi heç də hamıya verilməmişdir. Yəni söhbət təxəyyülün gücündən gedir. Hətta təxəyyüldən daha çox, gerçək hiss-həyəcandan. Çünki 37-nin ab-havasını qismən də olsa təsəvvür etsək, onun hər gündüzü və gecəsi həyatla ölüm arasında qıl körpüsü idi. Məşhurlar hamısı bu hissi yaşayırdılar. Cəlladla görüş səhnəsi günün gerçəkliyi idi. Milli ruhun bütün böyük təmsilçiləri bu gün yoxsa da, yarın "olum ya ölüm" dilemması ilə üzləşməyə məhkum idi. Amma əslində, həbs sanksiyasından geriyə yol olmadığına görə, burada ancaq ölüm var idi. "Olum ya ölüm" isə hələ tutulmayanların hər gün yaşadığı sarsıntı idi. Səməd Vurğun kimi nəhəngləri narahat edən isə, heç şübhəsiz, öz şəxsi həyatı, sağ qalıb-qalmayacağı barədə düşüncələrdən daha çox "o da getsə millətin taleyi, gələcəyi necə olacaq?" sualı idi. Ölümün gözünə dik baxaraq, "mən bu repressiyalara qarşı çıxıram", "mən Cavidi, Müşviqi dəstəkləyirəm, mən də onlarla bir sıradayam", – demək... Budurmu qəhrəmanlıq? Yoxsa, millətin taleyini düşünmək, hər necə olursa olsun ona verilmiş *vurğunluq*, millətin şairi olmaq, milli mənəvi ruhu tərənnüm etmək, yaşatmaq və bunun naminə səsini içinə salmaq, haqsızlığa dözmək... Milli qüruru yaşatmaq üçün şəxsi qürurunu öldürmək! Vaqifi yaratmaq və yaşatmaq üçün Səməd Vəkilovun qəlbindəki üsyanları yatırtmaq və 31 yaşında müdriklik yükünü üzərinə götürərək, bundan sonrakı bütün ömrü boyu bu yüklə, bu ağrı-acı ilə yazıb-yaratmaq!

Mən bu situasiyanı daha aydın izah etmək üçün "Uzaq sahillərdə" filmindən hər bir azərbaycanlı tamaşaçıya tanış olan bir səhnəni xatırlatmaq istəyirəm. Anjelikaya işgəncə verilərkən Veselin və Mehdinin iki fərqli reaksiyası. Məgər Mehdi Anjelikaya biganə idimi? Amma o, daha böyük bir məqsəd naminə Veselinə də dözməyi əmr edir. Özü də dözür. Bəli, bəzən hansı isə daha böyük məram naminə dözmək daha böyük qəhrəmanlıq tələb edir. Əlbəttə, qorxaqlığından susanlar, hətta satqınlar da tapıla bilər, lakin səviyyəni aşağı salmayaq; söhbət millətin təmsilçilərindən gedir. Söhbət ruhun ən tragik məqamlarını yaşamış və qələmi ilə yaşatmış böyük sənətkardan gedir.

Vurğun ruhu, Vurğun təxəyyülü! Tarixi keçmişin yarım-yarımçıq məlumatları cəmi üç həftəyə bəşər poeziyasının bu böyük şedevrini yaratmaq üçün necə güc-ilham verə bilərdi?! Ancaq fikrimiz və hissiyyatımızla həmin dövrə daşına bilsək, belə böyük bir yaradıcı impulsun məhz 37-ci ilin ağrı-acısını təzəcə yaşamış olan, hələ bu hissiyyatın təsiri altında olan, öz etiraz səsini başqa yolla ucalda bilməyən böyük şairin hayqırtısı olduğunu duya bilərik!

Belə çətin bir məqamda əyilməz şair obrazını yaratmaq və onu hökmdara qarşı qoymaq, – bax, budur 30-cu illərin mənəviyyat tarixi! Səməd Vurğunun dahiliyi özünü bunda da göstərir ki, o, şairlərin hökmdar tərəfindən dara

çəkildiyi belə çətin bir dövrdə sanki ideologiyanın da tələblərinə cavab verərək və sanki onun şərtlərinə uyğun bir tarix yazaraq, əslində ortaya tarix deyil, fəlsəfə qoyur. 37-ci ilin ölüm qorxusunu daxilən dəf edərək milli ruhun himnini yazır, «Əyilməz vicdanın böyük heykəli!», – deyir.

Səməd Vurğunun böyük daxili enerjisi ilə təkcə ədəbi-bədii mühitə deyil, bütövlükdə mədəni-mənəvi həyata, tükədilməkdə olan ruhani həyata böyük energetik potensial, yeni bir ruh, ruhun mübarizlik əzmi qatıldı. Azərbaycanda şair ruhu məhz Vaqif obrazı ilə yaşadıldı."

Böyük şəxsiyyətlərin faciəsi də böyük olur. Çünki onlar öz içərilərindən gələn istəklə zamanın tələbi arasındakı əksliyi görür və bunları uzlaşdırmağın, daxili tələbatı zamanın tələbinə qurban verməməyin yollarını axtarırlar.

Səməd Vurğun özü belə deyirdi:

*Lakin duyan olmamış ki,*
*mənim öz aləmim vardır,*
*Bu səbəbdən ürəyimdə*
*dünya boyda qəmim vardır.*

Bəli, duyğusuzlarla əhatə olunanda dərdi çəkmək daha çətin olur. Yeganə təsəlli gələcək nəsillərin anlaşıqlı olmasıdır ki, bədbəxtlikdən indi də bu faciəni duya bilməyənlər meydan sulayırlar.

Ruh dünyasının təbəddülatları, mənəvi həyatın dramatizmi, emosional yaşantının dərinliyi qalmayanda, bəsit adamların saralmış qəzet səhifələri və arxiv sənədləri səviyyəsində əyani, empirik düşüncəsi və faktoloji demaqogiyası önə keçir. Bayağılığın təntənəsi... O zaman qəlbləri şeytan yoluna sövq edə bilməyən, ruhlara hakim kəsilə bilməyənlər maddi gücün həqiqət üzərində "qələbəsinə" ancaq işgəncə, zor, fiziki məhrumiyyətlər vasitəsilə nail olanlar bu gün tamam başqa ampluada, başqa bir mühit və





başqa bir zehniyyət şəraitində istəklərinə nail olmağa yaxın görünürlər.

Əqidə möhkəmliyini, ruhun əzmini işgəncələrə, fiziki təzyiqlərə, doğmaların aqibətinə rəğmən nəyə isə qol çəkməməkdə görmək bəsitliyin və bu sahəyə nabələdliyin aşkar göstəricisidir. Guya o vaxt kim isə kiminsə əvəzinə qol çəkə bilməzdi. Əksinə, saxta imzalar bir güllə ilə iki şikar vurmaq demək idi. Əgər qəzetdə kiminsə adından bir məqalə çıxırsa, bu məqalədə yazılanların məhz həmin adam tərəfindən yazıldığı və ya məhz həmin adamın baxışlarını ifadə etdiyinə inanmaq məkrin toruna düşməkdən başqa bir şey deyil. Məkr ustaları gözəl bilirdilər ki, kimi isə "ifşa etməyin" bir yolu da onun adından ideoloji şablon çap etdirməkdir. Ağlını itiribsə, qoy, etiraz eləsin və onda o özü tilova düşmüş olacaqdır.

Kim isə soruşa bilər ki, əgər Cavid həbs olunduqdan sonra onun haqqında məqalə əslində icbari şablondursa, onda nəyə görə başqa yazıçılar tərəfindən deyil, məhz Səməd Vurğun tərəfindən yazılmışdır? Lakin unudulur ki, bu cür şablonlar hamı tərəfindən deyil, müəyyən bir sahə üçün məsuliyyət daşıyan rəsmi şəxslər tərəfindən imzalanırdı. Bunu başa düşmək çətin deyil. Çətin olan başqa sualdır. Əslində şair Səməd Vurğunun deyil, rəsmi şəxsin – Yazıçılar İttifaqının katibinin adından çap olunmuş ideoloji şablonu bu gün canlandırmaq istəyənlərin əsl məqsədi nədir? 37-ci il qətliamını törədənlərin yarımçıq qalmış işini indi başa çatdırmaq istəyi düşünülmüş bir addımdır, yoxsa səviyyə aşağı düşəndə müqavimət qüvvəsi azaldığından, indi bütün bunlar kor-koranə surətdə baş verir? İndi 37-ci ildəkinə bənzər bir ab-hava yaransa, görəsən millətin müqəddəratı necə olar? Nə yaxşı ki, biz indi siyasi müstəqillik dövründə yaşayırıq və mənəvi terror sınağına çəkilmirik. Ara-sıra işıq üzü görən küfrlər isə ancaq könül-

lülərin diversiyasıdır. Könüllü manqurtluq?

Bu gün qəzet səhifələrində Cavidi "ucaltmaq" üçün Cabbarlının eyni adda şeirini pisləyənlər, onu məzmunsuz və sönük adlandıranlar tapılır. Və belə tədqiqatçıların belə "tapıntılarını" qəzetlər də çap edir. Bu nəyin göstəricisidir? Söz azadlığınınmı, mənəvi düşüklüyünmü? Cabbarlının bir dırnağı qədər bilməyənlər onun şeirinə "qiymət verirlər".

Ötən əsrin əvvəllərində Azərbaycanda gedən milli oyanış və milli-siyasi özünüdərk prosesləri ictimai şüurda böyük iz qoymuş və 23 aylıq demokratik cümhuriyyət müddətində intişar tapmış milli dövlətçilik şüuru ilə birləşərək milli-siyasi şüurun formalaşması üçün əlverişli zəmin hazırlamışdı. İyirminci illərdə ədəbi-bədii yaradıcılığın və milli məfkurənin oyanış və inkişaf dalğaları öz siyasi hakimiyyətini və ideologiyasını ictimai həyatın bütün sahələrinə transformasiya etməyə çalışan bolşevizm ilə üzləşməli oldu. Otuzuncu illərdəki siyasi repressiyaların Azərbaycanda həm də bütövlükdə ziyalılara qarşı bir irtica səciyyəsi daşıması da bu amil ilə bağlı idi. Belə ki, məhz Bakı hələ Çar Rusiyası dövründən yeni iqtisadi münasibətlərə keçid və milli burjuaziyanın yaranması, milli fikrin oyanışı sahəsində digər bölgələrdən kəskin surətdə seçilirdi və buradakı repressiyalar da SSRİ-nin başqa ərazilərindəkindən fərqli olaraq, siyasi-ideoloji mülahizələrdən başqa, həm də milli-siyasi və mədəni-mənəvi məzmun daşıyırdı.

Dövrün faciəsinin tək Səməd Vurğun üçün deyil, o vaxtlar yaşamış digər böyük şəxsiyyətlərimiz üçün də eyni dərəcədə təsirli olduğunu vurğulamaq üçün 10 il əvvəl Heydər Hüseynovun yubileyi ilə əlaqədar yazdığım mətndən bir parçanı xatırlatmaq istəyirəm: "Otuzuncu illərdə





ictimai-siyasi həyata təzəcə qədəm basan gənclər isə kommunist ideologiyasının açdığı yolla irəlilədiyindən təhlükəli görünmürdülər. Lakin uşaqlıq illərində formalaşmış milli qürur, dövlətçilik və xalqına sədaqətli xidmət hissiyyatı o dövrdə yetişən gənclərin bir qisminin zehnində, təhtəlşüur qatında hələ qalmaqda idi.

Sosialist quruluşunun yaratdığı bütün imkanlardan istifadə edərək xalqına xidmət göstərmək, milli-fəlsəfi fikir tarixini, ədəbi-bədii və milli-mənəvi dəyərləri tərənnüm etməklə xalqın genetik yaddaşını bərpa etmək, siyasi-ideoloji müstəvidə qadağan olunmuş milli dövlətçilik məfkurəsini, heç olmazsa, bədii ədəbiyyat, mənəvi mədəniyyət prizmasından keçirərək yaşatmaq – bütün bu istəklər ötən əsrin iyirminci-otuzuncu illərindəki elitar gəncliyin zehninə və qəlbinə hopmuşdu. Səməd Vurğun, Rəsul Rza, Heydər Hüseynov, Mirzə İbrahimov kimi gənclər ictimai-siyasi və milli-mənəvi həyata artıq sosializm cəmiyyətində qədəm qoyduqlarından və bu cəmiyyətin tələblərini mənimsəmiş olduqlarından daxili aləmlərindəki ziddiyyətləri mümkün qədər büruzə vermədən fəaliyyət göstərmək məcburiyyətində idilər. Babaların gen yaddaşını qırmızı bolşevik dəbilqəsində yaşatmaq və yeni nəsillərə təqdim etmək kimi çətin bir vəzifəni icra etməli olan bu şəxsiyyətlərin faciəsi – dövrün faciəsi idi.

Hələ əsrin əvvəllərində özünü təsdiq etmiş, yaradıcılıq istiqaməti və üslubu formalaşmış Mirzə Cəlil kimi, Hüseyn Cavid kimi şəxsiyyətlər Yeni Dövrə uyğunlaşa bilməyərək, onunla üz-üzə dayanmaq məcburiyyətində idilər. Daha doğrusu, dövr, ictimai-siyasi mühit özü onlarla üz-üzə dayanmışdı.

Nisbətən sonrakı nəsil üçün isə başqa bir aqibət hazırlanmışdı. Bu aqibəti yaşamaq məcburiyyətində olanlardan biri də Heydər Hüseynov idi. Yeni cəmiyyətin «yetiş-

dirməsi» olan, kommunist ideologiyasının, marksist-leninçi fəlsəfənin mərkəzində dayanan, lakin milli varlığına bağlılığı qəlbindən çıxarıb ata bilməyən, sosialist cəmiyyətinin verdiyi bütün imkanlardan məhz millət üçün, xalq üçün istifadə etməyə çalışan, milli mənəviyyatımız, mədəni-mənəvi dəyərlərimiz, ədəbi-bədii və fəlsəfi abidələrimiz kommunist ideologiyasının labirintlərindən keçirib yaşatmaq uğrunda çalışan və bu sahədə böyük uğurlar qazanan Heydər Hüseynovun daxili ziddiyyəti, görünüşü ilə mahiyyəti arasındakı fərq günlərin bu günü bolşeviklərin diqqətini cəlb etsə də, artıq o öz işini görmüşdü. Milli məfkurənin estafeti yeni nəslə ötürülmüşdü. Milli mənəviyyatın, ictimai fikir tarixinin, dövlətçilik şüurunun, ədəbi-bədii və fəlsəfi dəyərlərin qırmızı terror baryerindən keçirilərək yeni nəslə ötürülməsi ilə mənəvi tarixin kəsilməzliyi təmin olunmuşdu".

***P.S.***

İndi biz müstəqilik. Və indi biz tariximizi də, fəlsəfəmizi də olduğu kimi yazmaq imkanı əldə etmişik. İndi milli ruhun qorunub-saxlanması üçün onu "*bolşevizmin dəmir dəbilqələrində*" gizlətməyə ehtiyac yoxdur. Və bu yeni şərait və uzaq zaman məsafəsindən baxanlara döyüş asan gəlir. Amma gəlin, biz açılmış yeni imkanlar şəraitində intellektual enerjimizi keçmişimizi aşağılamağa, mühakimə etməyə deyil, bu günün milli fəlsəfi fikrini və milli məfkurəsini yazıb-yaratmağa sərf edək, azadlıqdan pərvazlanan yeni milli ədəbiyyatın hələ də formalaşmamasının səbəblərini araşdıraq.

Açılmış yeni imkanları layiqincə dəyərləndirmək görəvi artıq bizim nəslin üzərinə düşür. Qarşıda tariximizi təhriflərdən təmizlənmiş halda, olduğu kimi yazmaq vəzifəsi durur. Lakin bundan da böyük vəzifə çağdaş ictimai və mənəvi-estetik gerçəkliyimizi əks elətdirən müasir ədəbiyyatın və milli fəlsəfi fikrin doğuluşudur.

*"Ədəbiyyat" qəzeti, sentyabr, 2013-cü il.*

# Cavid simvolikası

*Den Braun əski simvolikaları və kodları açdıqdan sonra Leonardo da Vinçi yeni ampluada görünməyə başladı. Den Braundan çox-çox əvvəl Şərq ədəbiyyatında rəmzlərin dili ilə bir çox gizli fikirlər söylənilmişdir ki, zaman-zaman açılır, amma hələ də açılmamış qalanları var.*

*Cavid də rəmzlər şairidir. Onun poeziyasında açılmamış müəmmalar çoxdur. Biz indi bunlardan ancaq birinə müraciət etmək və Şeyx Sənan əhvalatı ilə şairin bizə başqa nələr dediyini aşkarlamaq istəyirik.*

## Xumar, Əsli, yoxsa Sarı gəlin?!

Ey mürşidi-kamil, ey Şeyx Sənan!

Heç demə, sən hələ o vaxt özünü qurban verib, bizə həqiqət yolunu göstərməyə çalışırmışsan. Biz isə məcazları və semiotikanı hələ də mənimsəmədiyimizə görə, gürcü qızı Xumardan yapışıb durmuşuq.

Və hərdən buna da şükür edib düşünürsən ki, nə yaxşı ki, Cavid babamız Fəridəddin Əttarın tərsa (xristian) qızını Rum elindən qoparıb Qafqaza gətirəndə və onu xumarlaşdıranda milliyyətini erməni qızı yox, gürcü qızı deyə nişan verib. Yoxsa indi bizim halımız necə olardı? Sarı gəlin məsələsini həll eləyib qurtarmamış, indi də Xumar





problemi ortaya çıxardı... Amma bu məsələ o məsələdən çox mürəkkəbdi. Həm də ayrı-ayrılıqda onların qəlizliyi bir o qədər görünmür. Birlikdə baxanda, həmin o görünməyənlər də üzə çıxır. "Sarı gəlin" məsələsinin artıq bir neçə həlli tapılıb. Bəziləri düşünür ki, "Sarı gəlin" mahnısı da bizimdir, gəlin özü də. (Hər halda bir türk qızının sarışın olması, erməni qızının sarışın olmasından daha inandırıcıdır). Bəziləri isə düşünür ki, əsas olan mahnının bizim olmasıdır, o ki qaldı gəlinə, o elə erməni imiş; papas onu vermək istəməyib və bizim oğlan da dərdindən divanə olub və bu sənət əsəri də beləcə bizim naləmizdən yaranıbmış. Nə isə.

Bəs Xumar əhvalatı hansı görünməzlərə aydınlıq gətirir? Əlbəttə, bizimkilər onu da isbat edə bilərlər ki, Şeyx Sənan türk imiş və məhz bir Qafqaz türkü imiş və ona görə də röyasına ərəb və ya rum gözəli deyil, bir Qafqaz gözəli giribmiş. Həmin Qafqaz ki, burada neçə-neçə kərəmlər əslilərin yolunda 32 dişindən keçsələr də, keşiş yenə verdiyi sözü tutmamış, kərəmləri yana-yana qoymuşdur.

Əslində Şeyx də yanır, həm də könüllü:

*Şeyx, ya Şeyx, gəl də seyr eylə,*
*Yandım atəşdə kəndi rəyimlə.*
*Mən qulaq vermədim dəyərli sözə,*
*Həp qadından gəlir nə gəlsə bizə.*

Lakin Cavidin atəşlərə səbəb kimi göstərdiyi əsl ünvan qadın və ya qadına sevgi deyil. Sevgidən başı dumanlanıb sağlam düşüncəni itirmək də deyil. Əsl ünvan sevgiyə qarşı duran əks qütb – ayrı-seçkilik və dinlərin ixtilafıdır: "*İxtilaf, ixtilafi-məzhəbi-din...*" Çıxış yolunu isə şair fərqli dinlərin vahid bir dində birləşməsində görür:

*Din bir olsaydı yer yüzündə əgər,*
*Daha məsud olardı cinsü-bəşər.*

Əsas ideya bundan ibarətdir ki, bizi təmsil edən Şeyx tərsa qızına olan eşqini nəinki maldan-dövlətdən, rütbədən, mənsəbdən üstün tutur, hətta dinin zahiri atributlarından, simvolikalardan da keçməyə hazırdır. Bir xristian papası bir müsəlman şeyxinə şərtlər diktə edir və sonuncu da *"daha yüksək bir din"* olan eşq naminə onun şərtlərini qəbul edir. Əsl müəllif ideyası da dastanlardan məlum olan bu hekayətin yeni təfsir imkanlarında gizlənir. Gəlin, tərsini fərz edək: tutaq ki, papas insafa gəlir və şeyxin öz müsəlmanlığından əl çəkdiyinə əmin olub, Xumarı ona verməyə razılaşır. Onda nə olar? Bax, böyük Füzulinin Leyli və Məcnunu qovuşdurmamasının səbəbi nə idisə, Cavid də Sənan və Xumarı ona görə qovuşdurmur. Çünki əsərdə iki gəncin vüsalından daha böyük ideyalar var.

Caviddə sevən tərəflər rəmzi məna daşıyırlar. Əsl söhbət böyük eşq müqabilində dini ayinlərə münasibətin dəyişməsindən gedir. Yəni mübarizə dinin mahiyyəti və görüntüsü arasında gedir.

## Cavid bizə nə öyrətmək istəyirdi?

Cavidin birinci məqsədi eşqin institutlaşmış, sosiallaşmış, ideolojiləşmiş və öz mahiyyətindən uzaqlaşmış zahiri dinçilikdən yüksəkdə durduğunu göstərmək, eşqi ən böyük din kimi təqdim etməkdir.

İkinci məqsəd konkret olaraq qız sahibi olan, deməli, həm də söz sahibi, ixtiyar sahibi olan xristian rəsmilərinin və bütövlükdə Qərbin İslama və müsəlmanlara münasibətinin iç üzünü göstərməkdir. Yəni sanki belə bir sualın cavabını tapmaq üçün eksperiment qoyulur: müsəlmanlara qarşı olan ayrı-seçkiliyin köklərini harada axtarmaq lazımdır? Qərbin xoşuna gəlməyən, onu narazı salan və ya narahat edən nədir? Bax, bu sualı müasir dövrə transfer etsək və Avropa İttifaqının Türkiyəyə qarşı ayrı-seçkiliyini, uydurulmuş "erməni soyqırımı"nı zorla "etiraf" etdirmək cəhdlərini, yaxud Minsk qrupunun Dağlıq Qarabağ məsələsindəki ikili standartını yada salsaq, mənzərə necə görünər? Türkiyə hər dəfə Avropa İttifaqının qoyduğu şərtləri yerinə yetirir və hər dəfə yeni şərtlər düşünüb tapırlar: düymələr açılır və yenidən bağlanır. Yaxud Azərbaycan dünyanın ən tolerant ölkəsi olduğunu dönə-dönə sübut etsə də, yenə də xristian təəssübkeşliyi özünü göstərir. Sanki Cavid o vaxt belə bir perspektivi də nəzərə alaraq "Şeyx Sənan" süjetində bütün şərtləri yerinə yetirməyin, hətta "bütün dinlər birdir" deyərək müsəlmanlığın əlahiddə şərtlərindən imtina etməyinin heç bir xeyri olmadığını və olmayacağını göstərirdi.

Bu qənaət bu gün də aktualdır. Erməni məsələsi gündəmdən çıxmır ki, çıxmır. Qərb satqınlığı müqabilində ermənilərə vəd etdiyini, görünür, hələ tam qaytarmayıb. Tarixi Azərbaycan torpaqlarında ermənilər üçün dövlət yaradılması satqınlığın bədəlini hələ tam ödəməyibmiş. Bu məsələ çox az rast gəlinən hallardan biridir ki, burada ruslarla qərblilərin mövqeyi üst-üstə düşür. Onları birləşdirən erməniyə sevgi, yoxsa türkə nifrətdir, – bu, ayrı bir məsələdir. Önəmli olan budur ki, kin-küdurət həqiqət hissini üstələyir.

Qərb millətçiləri gerçəyi təhrif etməklə kifayətlənməyərək, bu təhrifi bizə də qəbul etdirməyə, "etiraf"a nail olmağa çalışırlar. Bunun üçün bir tərəfdən təzyiq göstərir, digər tərəfdən də Nobel mükafatı da daxil olmaqla müxtəlif vədlərlə ağız sulandırırlar. Mələsəf, hərdənbir bu tora düşən, qovula-qovula namərd olan və ağzı sulana-sulana "etiraf qəhrəmanlığının" kürsüsünə qalxmaq istəyənlər də tapılır.

Əlbəttə, "Əsli və Kərəm"də, "Şeyx Sənan"da bu məsələlər daha ümumi şəkildə qoyulmuşdur. Amma eyni mahiyyət müxtəlif dövrlərdə müxtəlif formalarda təzahür edir.

Kim isə dünyəvi həyat tərzi seçirsə, müsəlman simvolikalarından imtina edirsə və qəlbində Allah eşqindən, haqq-ədalət hissindən başqa heç nəyə üstünlük vermirsə və müqabilində papaslar bunun fərqinə varmadan yenə də dini ayrı-seçkilik salırlarsa, bu əslində mərdi qova-qova namərd etmək cəhdindən başqa bir şey deyil.

Bütün bu təcrübələr onu göstərir ki, nəyinsə naminə, kiminsə istəyi ilə yolunu dəyişmək heç vaxt fayda verməyib və verməyəcək də. Sadəcə, gərək qovanlardan aman diləməyəsən və qovulsan da, namərd olmayasan. Sən mərdliyində qal, həqiqətə tapın; kiminsə xoşuna gəlmirsə, özünəməxsusluğundan imtina etməkdənsə, qarşı tərəfin məxsus olduğu üstünlüklərə də yiyələnərək daha zəngin ol. Yəni çıxış yolu nədənsə imtina etməkdə, nəyi isə qurban verməkdə yox, əlavə keyfiyyətlər əldə etməkdə, eşq ilə yüksəlməzdən öncə əqllə yüksəlmək zərurətini dərk etməkdədir.

*"525-ci qəzet", 2 fevral, 2013-cü il.*





# Cavid yeni əsrdə: nidalar və suallar

## Cavidşünaslıqda üçüncü dalğa

Ötən əsrin 20-30-cu illərində ən çox müzakirə olunan mövzular məhz Cavidin əsərləri idi. Onun hər bir tamaşası cəmiyyətin mədəni həyatında böyük bir hadisə idi, ədəbi tənqiddə və teatrşünaslıqda geniş işıqlandırılırdı. Hətta kəskin tənqidi məqalələr də Cavid ideyalarının daha çox yayılmasına xidmət edirdi. Digər tərəfdən, əgər tənqiddə rasional məqamlar varsa, bu, sənətkarın öz sənətinə kənardan, bir qədər fərqli baxa bilməsi üçün əlavə imkan açır. Həmin dövrdə qərəzli tənqid, qarayaxma ilə yanaşı, ciddi müzakirələr, bəzən sadəcə anlamamaqdan və ya daha yaxşı anlamaq cəhdindən irəli gələn təhlil və yozumlar, bizcə, ədəbi mühitin canlı qalmasına və müəllifin oxucularla əks-əlaqəyə girməsinə imkan yaradırdı. Bu baxımdan, Abdulla Şaiqin, Hənəfi Zeynallının, İbrahim Xəlilin, Cəfər Cabbarlının tənqidi təhlili təkcə Cavid yaradıcılığının şərhi baxımından deyil, həm də ümumiyyətlə o dövrdə Azərbaycan ədəbiyyatşünaslığının və hətta, mən deyərdim ki, cəmiyyətşünaslığının parlaq nümunələridir. Bunları ona görə xüsusi qeyd edirik ki, əksinə, ideoloji əmin-amanlıq, söz və fikir azadlığı dövründə tədqiqat əvəzinə icmalçılığın, şablonçuluğun, səthiliyin, mədhiyyəçiliyin baş alıb getməsi narahatlıq yaradır. Çap imkanlarının art-

ması müqabilində nəzəri səviyyənin aşağı düşməsi müşahidə olunur ki, bu da sanki çağdaş cəmiyyətimizdə ümumiyyətlə intellektual səviyyənin göstəricisi kimi çıxış edir. Düşünürsən ki, görəsən, müəllif üçün onun əsərlərinin tənqidi təhlili, hətta çox vaxt ifrat hücumlara məruz qalmasımı daha qorxuludur, yoxsa onun yaradıcılığının, ideyalarının ümumiyyətlə "səhnə arxasında qalması", əvəzində isə onun adının "yüksəklərə qaldırılması", şəninə şayanlar deyilməsi, yaşadığı və yaşamadığı şəxsi həyatın ədəbiyyata və efirə gətirilməsi, bir sözlə, şöhrət çələngimi?

Biz belə hesab edirik ki, yaradıcı şəxsin əsl həyatı onun ideyalarında davam etdiyindən, ona ən böyük hörmət də adının və şəxsi həyatının deyil, əsərlərinin gündəmə gətirilməsi və ideyalarının yaşadılmasıdır.

Əslində, cavidşünaslıqda müşahidə olunan çağdaş canlanma ilk hadisə deyil və bir növ *üçüncü dalğa* hesab oluna bilər. Radikal repressiya dövrü başa çatdıqdan və Cavidə rəsmi bəraət verildikdən sonra, 60-cı illərdən başlayaraq Cavid yaradıcılığı haqqında ciddi tədqiqat əsərləri yazıldı. Məmməd Cəfər, Məsud Əlioğlu, Yaşar Qarayev və s.-in simasında cavidşünaslıq yeni, daha mükəmməl bir mərhələyə qədəm qoydu. Məyusluq doğuran isə indiki mərhələ – "üçüncü dalğa"dır. Hazırda Cavidə münasibətdə baş verən yeni canlanmada, maləsəf, ideya baxımından hər hansı bir irəliləyişdən bəhs etmək mümkün deyil. Çünki bu canlanma onun əsərlərinin səhnəyə qayıtması və ya yaradıcılığının əsas ideya sütunlarının müzakirəsi və mənimsənilməsi şəklində olmayıb, sadəcə şəxsiyyətinə hörmət və pərəstişin müxtəlif formalarda bəyan edilməsindən, köhnə yazıların köçürülərək yenidən, yüksək poliqrafik səviyyədə çap olunmasından ibarətdir.

Kim isə düşünə bilər ki, hər dövrün öz ədəbi prosesi





var və Cavid yaradıcılığı da məhz ötən əsrə aid olduğundan, onun yenidən canlanması mümkün deyil. İndi o ancaq ədəbiyyatımızın tarixi qismində, xatirələr şəklində yaşaya bilər. Bax, biz də bu cür yanaşmanın ayaq tutub yeriməsindən ehtiyatlanırıq. "Cari ədəbiyyatdan fərqli olaraq klassik ədəbiyyat elə əsərləri əhatə edir ki, bütün dövrlər üçün aktual olsun" fikrini yada salmaqla yanaşı, daha uca səslə vurğulamaq istəyirik ki, Cavid sadəcə klassik ədəbiyyatımızın deyil, həm də milli fəlsəfi fikrimizin əsas sütunlarından biridir. Fəlsəfə isə heç vaxt köhnəlmir və hər şərait və mühit üçün ayrıca fəlsəfə yazılmır. Fəlsəfi fikir milli ruhun ifadəsi olmaqla xalqın keçmişini, bugününü və gələcəyini birlikdə ehtiva edir.

### Dövlət qayğısı və "ziyalı" etinasızlığı

Bəli, son illərdə cavidşünaslıqda bir canlanma hiss olunur. Hər halda kənardan baxanda belə görünür. Cavidin əsərlərinin yeni nəşrləri çıxır və yubileylərlə əlaqədar bu sahədə yazıların və müxtəlif tədbirlərin sayı artır. Önəmli olan isə görülən işlərin səmərəliliyi, onların cavidşünaslıq və ümumiyyətlə ədəbiyyatımız üçün faydalı olmasıdır. Əgər indi cavidşünaslıqda yaranmış vəziyyətə ümumi bir nəzər salsaq, açıq-aydın iki xətt görmək mümkündür. Birincisi, bu məsələyə dövlət qayğısı və açılan yeni iqtisadi imkanların bu sahəyə yönəldilməsi; ikincisi, bu sahədə çalışan adamların məsələyə başdansovdu yanaşması, dövlət qayğısından sui- istifadələr, tələm-tələsik qərarlar və məsələnin elmi müzakirələrdən yayınmaqla, inzibati qərarlarla həllinə meyl... Halbuki belə mühüm sahədə atılan hər bir addım ciddi müzakirə olunmalı və tək ədəbiyyatçılar deyil, filosofların da müzakirəyə cəlb olunması, məsələyə münasibətinin öyrənilməsi və kollegial qərarlar verilməsi

vacibdir. Amma bir sıra hallarda bu sahədə addımlar tam bir etinasızlıq şəraitində atılır. Biz bir yazımızda diqqəti "Cavid hikməti: seçmə aforizmlər" adı ilə çap olunmuş bir kitaba yönəltmiş və göstərmişdik ki, burada seçimlər düzgün edilməmiş, Cavidin mənfi obrazların dili ilə dediyi və əslində tənqid etdiyi fikirlər oxuculara onun "aforizmləri" kimi təqdim olunmaqla çaş-başlıq yaratmışdır. Amma indi eşidirik ki, AMEA bu "Aforizmləri" nümunəvi bir şey kimi xarici dillərə tərcümə edib beynəlxalq miqyasa çıxarmaq istəyir. Çox acınacaqlı haldır. Cavidə bu qədər yüksək dövlət qayğısı ilə onun bədii və fəlsəfi irsinə bu qədər böyük etinasızlıq bir araya sığmır.

Bu günlərdə daha bir tərcümə aksiyası barədə məlumat yayıldı. Və bunun nə dərəcədə düşünülmüş ölçülüb-biçilmiş bir addım olması da maraq doğurur.

### Niyə "Şeyda"?

Niyyətin gözəl olması yetərli deyil, gərək nəticə haqqında da düşünülsün.

Azərbaycan ədiblərinin yaradıcılığının təbliği, onların əsərlərinin xarici dillərə tərcümə edilərək dünya ictimaiyyətinin nəzərinə çatdırılması, əlbəttə, yaxşı hadisədir. Lakin özümüz üçün yazılmış, eyiblərimizi göstərməyə və islah etməyə yönəlmiş əsərlər var və bir də ümumbəşəri problemlər qaldıran əsərlər var ki, xaricilər üçün də örnək ola bilər. Məsələn, Mirzə Cəlilin, Sabirin əksər əsərləri öz millətimizin islahatına yönəlmiş, tənqidi ruhlu əsərlərdir. Hüseyn Cavid isə o mütəfəkkirlərdəndir ki, onun yaradıcılığı hansı isə etnik-milli çərçivə ilə sərhədlənməyib, bütövlükdə beynəlxalq ədəbi-bədii prosesin diqqət mərkəzində olan mövzuları əhatə edir. Və qoy bütün dünya görsün ki, hələ keçən əsrin əvvəllərində Azərbaycan yazıçıları ümumbəşəri mövzularda, ən mürəkkəb ideya diskurslarında söz sahibi olmuş, özünəməxsus mövqe nümayiş etdirmişdir. Bu baxımdan, Cavidlə hər bir xalq fəxr edə bilər, – düşüncəsindəyik. İndi biz tez-tez Bzejinskinin, Kissincerin, Fukuyamanın və s. aktual coğrafi-siyasi problemlərlə bağlı açıqlamalarını dilimizə çevirərək dünyadan geri qalmamağa çalışırıq. Lakin xarici ideoloqların açıq politoloji müstəvidə müzakirəyə çıxardığı bir çox məsələlər hələ ədəbi-bədii təhkiyənin predmetinə çevrilməyə macal tapmamışdır. Bax, belə bir şəraitdə Cavidin "Şeyx Sənan", "İblis", "Topal Teymur" kimi əsərləri bütün dünya ictimaiyyəti üçün olduqca maraqlı görünə bilər. Onun əsərlərinin əksəriyyəti bir əsr keçdikdən sonra sanki daha aktual olmuşdur və qloballaşma şəraitində bütün bəşəriyyəti narahat edən problemlərin ədəbi-bədii ifadəsi olmaqla bir çox qaranlıqlara işıq salır. Bu baxımdan, onun ən az öyrənilmiş əsərlərindən biri olan "İblisin intiqamı" xüsusi diqqətə layiqdir. Həm də Azərbaycan oxucusundan da öncə qabaqcıl Qərb ölkələrinin oxucuları üçün bu əsərlər daha çox mənəvi-intellektual qida verə bilər. Bax, görünür, belə bir mülahizə ilə AMEA və Bakı Slavyan Universiteti Cavidin əsərini 11 xarici dilə tərcümə etmək kimi dəyərli bir təşəbbüslə çıxış edirlər.

Amma hansı əsərini? "Şeyda"nımı? Təəccüblənməmək mümkün deyil. Cavid yaradıcılığında beynəlxalq aləm üçün nəzərdə tutulmamış, həm bədii cəhətdən, həm də hadisələrin və personajların seçilməsi baxımından yetkin və nümunəvi sayılmayan bu pyesdə Cavid sanki "dəstədən geri qalmamaq üçün" sosial narazılıq və inqilabçılıq mövzusuna müraciət etmişdir. Hər halda bu pyes şairin yaradıcılığında yeganə əsərdir ki, Cavid üçün səciyyəvi olan və bütün xalqlar üçün bütün dövrlərdə maraqlı ola biləcək ümumbəşəri ideyalar deyil, hansı isə lokal bir şərait və

konkret bir situasiya qələmə alınmışdır. Bizcə, bu əsər o vaxtkı bolşevizm təbliğatının abu-havasını xatırladan, lakin Cavidi ilhamlandırmayan və görünür buna görə də öz ideya həllini tapmayan, əslində yarımçıq qalmış bir əsərdir. O dərəcədə ki, açıq-aşkar "bolşevik" yönünə baxmayaraq, hətta sovet dövründə Cavidin ideoloji "bəraəti" üçün hər hansı bir rol oynaya bilməmiş, Cavidə ideoloji dividend gətirməmişdir.

"Uçurum"da Anjel obrazının funksiyası bəllidir. Görünür, Cavidin "Şeyda"da iştirakçı kimi alman qızını daxil etməkdə də nə isə planları var imiş ki, onlar əsərdə açılmamış və bu "alman" məsələsi xalis bir təsadüf olaraq qalmışdır. Əsərdə bir alman qızının iştirakı hadisələrin daxili məntiqindən zərurət kimi hasil olmur, hansı isə müəllif ideyasının açılışına xidmət etmir. Məhz bir təsadüf ucbatından gənc bir alman qızı hadisələrin qurbanına çevrilir. Qərb oxucusu bu əsərdən nə hasil edəcəkdir? Tatarlar, türklər, müsəlmanlar, fərqi yoxdur, bir Şərq ölkəsinin insanları öz daxili problemlərini həll edə bilmir və ya bunu çox primitiv üsullarla həll etməyə çalışırkən, gənc, günahsız bir alman qızını hədəfə alırlar. Axı, bunu Cavid alman oxucularına oxutmaq üçün yazmamışdı. Axı, bu əsərin ümumiyyətlə beynəlxalq ictimaiyyət üçün nəzərdə tutulmadığı o qədər aydındır ki...

Özümüzü yüksək əməl və niyyət məqamında deyil, təsadüfən bulunduğumuz ən acınacaqlı məqamda nişan vermək təşəbbüsünü nə ilə izah etmək mümkündür? Bu əsəri oxuyan alman və ya ümumiyyətlə Qərb oxucusunda bizə nə kimi müsbət münasibət yaranar?

*"525-ci qəzet", 1aprel, 2013-cü il*





# Fikrin gözəllik məqamı

*Böyük şair – bizim sükutumuzu ifadə edə bilən şairdir*
C.X.Cübran

Şərq ruhunu Qərbdə ən yüksək səviyyədə ifadə edən, klassik Şərqin əzəmətini və ecazkarlığını yeni dövrün ifadə vasitələri ilə amerikanların öz dilində onlara təqdim edən böyük ərəb mütəfəkkiri Cübran Xəlil Cübran bu gün də qəlbləri riqqətə gətirir. Öz sözünü ən çox şeir dilində, poeziya ilə çatdıran Şərq, Hegelin də vurğuladığı kimi, epik düşüncə vərdişlərinə çox az yiyələnmişdir ki, bu da bir çox mətləblərin çağdaş Qərb adamının başa düşəcəyi şəkildə çatdırılmasına mane olur. Əlbəttə, C.Cübranın nəsri də şairanədir. O, Amerikada yaşasa da, məhz Şərq ruhunu təcəssüm etdirir. Amma bu işi elə yüksək səviyyədə həyata keçirir ki, ona heyran olmamaq mümkün deyil. O, təkcə sözün yox, fikrin də virtuozudur.

Cübran yaradıcılığı hissi dünyadan daha çox, ideyalar aləminin poetik tərənnümü kimi dəyərləndirilə bilər.

Ənənəvi poeziya, klassik poeziya harada yaranmasından asılı olmayaraq, mahiyyəti etibarilə Şərq hadisəsidir. Əlbəttə, poeziya geniş mənada başa düşüldükdə, yəni nəzmlə yazılan istənilən əsər poeziyaya aid edildikdə bu anlayışda lirik poeziya ilə yanaşı epik poeziya da əhatə olunur. Epik düşüncə isə Şərqlə Qərbi birləşdirən ortaq sahədir. Buradan elmə və lirikaya doğru yollar ayrılır ki,

bu da Şərq və Qərbin diferensiallaşmasına və qütbləşməsinə uyğun gəlir.

Qərbi simvolizə edən daha çox dərəcədə elmi düşüncədir və ya, başqa sözlə desək, biliklərin sistemli və davamlı kontekstində həyata keçən konseptual (nəzəri) fikirdir. Epik üslub isə elmi düşüncə üçün bir növ baza olduğundan, deməli, həm də Qərb düşüncə tərzinin təməllərindən biridir.

Fikrin ifadə olunması üçün onu bəzəməyə ehtiyac yoxdur. Hansı isə milli ədəbi dil kifayət qədər zəngindirsə, aşkar şüur səviyyəsində formalaşmış hər hansı fikir epik üslubda, nəqli yolla ifadə oluna bilər. Elmi dil də bu qəbildəndir; sadəcə olaraq bir sıra sözlərin daha konkret anlamda işlədilməsini, yəni anlayışların elmi terminologiya kimi formalaşmasını tələb edir. Bənzətmələr, təşbehlər, dolayısı ilə deyimlər, qafiyənin, ritmin, poetik vüsətin köməyi – yalnız aşkar şüur səviyyəsində tam formalaşmamış, qeyri-müəyyən, hələ təhtəlşüurda olan və ya hətta ancaq hisslər və təəssüratlar səviyyəsində olan yaşantıların ifadəsi üçün lazım gəlir.

Ənənəvi poeziya məhz hisslərin və təəssüratların, hal və məqamın, subyektiv yaşantıların ifadəsinə xidmət edir. Lakin adi danışıq dili, epik üslub, nəqli cümlələr anlayışlar şəklində formalaşmamış qeyri-aşkar şüurun və hissiyyatın ifadəsi üçün yetərli olmur. Hissiyyatın, əhvalın musiqi və ya rənglər vasitəsi ilə ifadə edilməsi təhtəlşüurda olanların üzə çıxarılmasına xidmət edir. Poeziya isə bu məqsədlə dilin imkanlarından istifadə edir; lakin bu dil adi danışıq dilindən fərqli olaraq, mübaliğələr, məcazlar, təşbehlərlə «bəzədilmiş», habelə ritm və ahənglə tamamlanmış xüsusi bir dildir. Bu mənada poeziya qafiyəyə, ahəngə, ritmə salınmış sözlərdən daha çox, sözlərlə ifadə olunmuş ritm və ya ahəngdir. Hətta belə demək mümkündürsə, sözlərlə çəkilmiş tablo və ya sözlərlə ritmlənmiş musiqidir.





Təkcə sözlə yox, fikirlə manevr edən, əsərlərini fikirdən yapan və fikrin daxili aləmini və ritmini ifadə edən Cübran Xəlil Cübran yaradıcılığı poeziyanın bir «söz sənəti» olmaqdan başqa, həm də «fikir sənəti» olması qənaətinə gətirir.

Qərbdə ruhsuz dünyanı, «obyektiv reallığı» bir qayda olaraq elmi dillə, insan ilə dünya arasındakı münasibətləri isə fəlsəfi dillə ifadə edirlər. İnsan dünyasının ifadə olunmasına isə fəlsəfə ilə yanaşı incəsənət, ilk növbədə poeziya iddialıdır. Lakin elmi-fəlsəfi yanaşma ilə poetik yanaşma arasında köklü fərqlər vardır. Qərb sivilizasiyasının siması, əlamətdar cəhəti kimi başa düşülən elmi düşüncə sadəcə bir alternativ təsvir üslubu olmayıb, əlahiddə bir keyfiyyətə malikdir ki, buna kumuliyativlik deyilir. Yəni inkişaf müxtəlif şəxslərin gördükləri işlərin toplanması hesabına gedir.

Şərq poeziyasında da ümumiləşdirmələr vardır. Yəni konkret hadisələrin təsvirindən sonra ümumiləşdirici bir fikir hasil olur ki, bu da Şərq müdrikliyi kimi məlumdur. Lakin bu ümumiləşdirici fikir bir qayda olaraq əxlaqi müstəvidə, böyük nəsihət və ya davranış düsturu, resepti kimi təqdim olunur.

Bu üslub Bibliya və Quran da daxil olmaqla bütün dini kitablarda da aparıcı üslubdur.

Şərq poeziyasının digər bir qolu didaktikadan fərqli olaraq estetik hissin, təəssüratların ifadəsi olan lirik poeziyadır. Burada lirika daha çox dərəcədə gerçəkliyin özünü yox, onun insanda doğurduğu emosional vəziyyəti, subyektiv durumu ifadə edir.

Lakin Cübran eyni zamanda həm əxlaqi, həm də estetik müstəvidə ümumiləşdirmələr aparır. Onun poeziyasında Xeyir müstəqim mənada «xeyir» kimi yox, daha çox «gözəllik» kimi tərənnüm olunur. Şair haqq, xeyir və gözəlliyin eyniyyətindən çıxış edir. Cübran «Gözəllik nəğməsi»ndə Gözəlliyin adından deyir: «Mən – məhəbbətin dəliliyəm, mən – könül üçün şərabam, mən – ürək üçün qidayam.... Mən zaman kimiyəm: bu gün tikirəm, sabah yıxıram. Mən Allaham: dirildirəm və öldürürəm. Mən – həqiqətəm, ey insanlar! Mən – həqiqətəm və bu sizə məlum olanların ən xeyirlisidir!»"

Şərq poeziyası hadisələrdən, təzahürlərdən təsirlənən şairin ürək sözlərini ifadə edir. Təəssüratlar təfəkkür prizmasından keçərək həyatın, dünyanın ən ümumi qanunauyğunluqlarında iz salmamış, ideyalar səltənətinə qədəm qoymamış, intellekt süzgəcindən keçməmiş elə birbaşa, hansı isə obrazlarla, təşbehlərlə, bənzətmələrlə ifadə olunur. Həm də bu cəhət nə isə bir çatışmazlıq kimi yox, poeziyanın rəmzi tələbi kimi, bir məziyyət kimi qəbul edilir.

Hiss, duyğu necə yaranıbsa oxucuya eləcə, hələ öz təravətini itirmədən, öz bakirəliyində təqdim olunur.

Ancaq hadisələr var, görüntülər var və bu görüntüdən təsirlənən şair qəlbinin etirafları var! Əlbəttə vəcd məqamında şairin iti nəzərləri adi adamların görə bilmədiyi incə məqamları, alatoranları da görür.

Canlı bir həyat! Hər təzahürü bir rəngdə, bir biçimdə, bir formada! Və şairin təbiətlə, həyatla təmasda keçirdiyi müxtəlif hallar, qəlb çırpıntıları, yaşantılar!

Fərqli yaş dövrlərindən gələn müxtəliflik; gəncliyi, məhəbbəti ifadə edən işıqlı notlar, al-əlvan rənglər... Qocalıq çağının yaşantıları: xatirələr, nisgil və s. «Sənsiz»lik, həsrət, həsrətin konkret təzahürləri, obrazlı lövhələr, tarixçələr, xatirələr.





Yaxud müxtəlif vüsal səhnələri; hər səhnənin öz rəngi-ruhu və bu ruhu ifadə edən şair qəlbinin yaşantıları...

Hissi dünya nə qədər zəngin və rəngarəngdirsə, bu cür poeziyanın da həddi-hüdudu yoxdur. Çünki dünya mahiyyətlər müstəvisində yox, təzahür rakurslarında qələmə alınır. Sonsuzluq dərinə, təməldə dayanan ümumi cəhətlərə getmək hesabına yox, daha çox dərəcədə üfüqi müstəvidə hərəkət hesabına, hadisələrin müxtəlifliyi sayəsində əldə edilir.

Cübran isə heç vaxt bizim ənənəvi surətdə başa düşdüyümüz mənada şair olmamışdır. Və ona dünya şöhrəti qazandıran da yazdıqlarının şeiriyyəti yox, mənası olmuşdur. Təsadüfi deyildir ki, onun əsərləri başqa dillərə bir qayda olaraq nəsrlə tərcümə olunur. Zira, nə pafos, nə qafiyə, nə də təəssüratın konkretliyi və təravəti... Cübran üçün önəmli deyil. Önə çəkilən fikrin özüdür.

O başqa məsələ ki, Cübranda fikir dünyasının öz ahəngi, öz ritmi, melodiyası üzə çıxır. Cübran hansı isə hikmətamiz bir fikir söyləmək üçün əvvəlcə hansı isə hadisədən təsirlənməyə ehtiyac duymur. Ümumi mahiyyətlər, ideyalar arasında elə münasibətlər aşkar edilir ki, insan fikir qatından keçərək özünəməxsus bir hissi dünyaya daxil olur.

Şairlər hisslərin qanadında ideya mərtəbəsinə yüksəldikləri halda, Cübran kimi mütəfəkkirlər oxucunu ideya dünyasının öz gözəlliyi ilə heyrətləndirir, fikrin gözəlliklərindən yaranan heyrət poetik bir əhval-ruhiyyə yaradır. Lakin əslində bunun poeziyaya bir o qədər də dəxli yoxdur. Bu, rəngsiz-boyasız, çılpaq fikirlərin öz daxili gözəlliyidir. (Maraqlıdır ki, Cübran bir rəssam olaraq da insanları pal-

tarda, bərli-bəzəkli çəkmir, həmişə alt qatdakı məzmunu ifadə etməyə çalışır.)

Böyük şairlər hətta ən ənənəvi mövzularda da yeni fikir söyləməyi bacarırlar. Məsələn, şairlərin diqqətini ən çox çəkən çiçək mövzusuna və çiçəklərin içərisində «bənövşə» obrazına həm xaricdə, həm də Azərbaycan ədəbiyyatında kifayət qədər müraciət olunmuşdur. Bunların ən məşhurlarından biri İ.V.Götenin «Bənövşə» şeiridir. Onu fərqləndirən cəhətlərdən biri bundan ibarətdir ki, burada ənənəvi münasibətdən fərqli olaraq bənövşə obrazının təsvirindən və onun şairdə yaratdığı hisslərdən bəhs edilmir. Bu şeirdə bənövşə özü subyektə çevrilir və onun keçirdiyi hisslərdən söhbət açılır. Məqsəd əslində insanlara, insani mahiyyətə aid olan keyfiyyətlərin bənövşə obrazı vasitəsilə təqdim olunmasıdır, yəni şeirin məğzi təəssüratla yox, ideya ilə ifadə olunur.

Maraqlıdır ki, C.X.Cübran da bənövşə obrazına eyni ilə Göte kimi müraciət edir. O da bənövşənin arzularından danışır. Hətta şeirlərin başlanğıcında elə böyük oxşarlıq var ki, kim isə Cübranı təqliddə təqsirləndirə bilər. Lakin Cübran da Göte kimi, ideya xiridarıdır. Onun «İddialı bənövşə» şeiri formaca Götenin şeirinə və üslubuna bənzəsə də, ideya fərqlidir və hətta diametral əks situasiyanın işıqlandırılmasına xidmət edir. Götenin bənövşəsi də iddialıdır. O, çəmənlikdə ahəstə həyatından bezərək bir gözəl qızın yaxasını bəzəməyi, onun ürəyinə yaxın olmağı tərcih edir. Lakin qız onun arzu və iddialarından xəbərsiz halda onu tapdalayıb keçir. Amma yazıq bənövşə gözəl qızın ayaqlarına belə toxunduğu üçün özünü xoşbəxt sayır. Burada biz öz vəziyyəti, statusu ilə razılaşmayan çiçəyin son nəticədə yenə də aza qane olmaq taleyi ilə barışmaq xisləti ilə rastlaşırıq.





Cübran sanki bu məqamla razılaşmayaraq bənövşənin arzusunu ən yüksək səviyyədə yerinə yetirir və bu, bənövşəyə həyatı bahasına başa gəlsə də, o, heç olmasa bir anlığa yaşadığı yüksəlişdən məmnun qalır. Bu – ideya yolunda, azadlıq yolunda canını qurban verməyə hazır olanların fəlsəfəsidir.

Zahirən Götenin «Bənövşə»sini xatırladan bu əsər öz ideyasına və ruhuna görə daha çox dərəcədə M.Qorkinin «Şahin nəğməsi»ni xatırladır. Yerdə sürünmək və ya boynunu büküb yerə sığınmaq aqibəti ilə razılaşmayanların bir anlıq uçuşu və yüksəlişi! Və bu ani yüksəlişin səadəti!

Cübran isə bənövşənin dili ilə deyir: «İndi isə mən öləcəm. Mən öləcəm, lakin mənim ruhumda bənövşələrin heç birinin indiyə qədər hiss etmədiyi duyğu yaşayacaqdır. Mən ölsəm də, göz açdığım dar dünyanın hüdudlarından kənarda nələrin olduğunu bilirəm. Həyatın məqsədi elə budur. Gündüzlərin və gecələrin təsadüfi vəziyyətləri arxasında gizlənən mahiyyət elə budur!».

Bəli, Cübran bir azadlıq carçısıdır. Lakin azadlığa çatmaq üçün əvvəlcə ideallarm dərk olunması lazımdır. Aydın aqibət üçün əvvəlcə ideya dünyasının özündə bir aydınlıq olmalıdır.

Cübranın bütün üstünlüyü məhz ideya aydınlığında və fikirlərinin ahəngdarlığındadır. Bir çox Şərq filosofları kimi o da öz fəlsəfəsini kiçik hekayətlər və şeirlər vasitəsilə ifadə edir. Fərq isə bundan ibarətdir ki, onun poeziyasında hissiyyatdan fikir yox, fikirdən bir hissiyyat yaranır və bu fikirlər bir-birini tamamlayaraq şairin fəlsəfi dünyagörüşünü bütövləşdirir.

Mahiyyətlərin, ideyaların poetik tərənnümü Şərq klassik poeziyası üçün yenilik sayıla bilməz. Nizaminin və Füzulinin yaradıcılığında Xeyir, Həqiqət, Eşq, Söz haqqın-

da ümumi fikirlər kifayət qədər çoxdur. Düzdür, burada da ümumilərin, mahiyyətlərin vəsfinə, tərənnümünə daha çox yer ayrılıb. Mahiyyəti ifadə edən lakonik fikirlər tapmaq elə də asan deyil.

Lakin bununla belə, fikirləri kontekstdən ayırıb ifadə etmək və ideyalar arasındakı münasibəti aşkarlamaq mümkündür. Bu, xüsusi bir yaradıcılıq, təhqiqat tələb edir. Səbəb isə bundan ibarətdir ki, Şərqdə poeziya daha yüksək bir məqam hesab olunurdu. Ona görə də, fikri mümkün qədər əritmək özü bir məharət sayılırdı. Əbu Turxanın dediyi kimi, «poeziyada bariz şəkildə üzə çıxan çılpaq fikir emosional yaşantının ahəngini poza bilər», ona görə də Şərqdə böyük şairlər ideyaları dəbdəbəli paltara və söz xəzinəsinin ləl-cəvahiratına bürüyərək oxucuya görüntü planında, hissi-psixoloji müstəvidə təqdim edirdilər. Sözün gözəlliyindən feyzyab olan oxucu isə bu söz çələnginin içərisində ona dərman və ya zəhər verildiyinin belə fərqində olmur.

Cübran da söz çələngindən böyük məharətlə istifadə edir. Lakin hiss, emosiya, əhval deyil, fikir, düşüncə təqdim etdiyini gizlətmir. Yazdıqlarının ənənəvi mənada şeir yox, fəlsəfi fikir və ya aforizm olmasını etiraf etməklə bərabər, Cübran özünü yenə də şair hesab edir. Çünki onun anlamında şair daha geniş mənada başa düşülür. Çünki o, dili də bədii dil çərçivəsindən çıxararaq milli tərəqqinin, yaradıcı təfəkkürün ifadəsi kimi şərh edir. Onun «*şair*»i həm şair, həm alim, həm filosof, həm də qəhrəmandır: «Şair – xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləmində baş verənləri əql dünyasına ötürən, fikir dünyasında baş verənləri bilik xəzinəsinə toplayan bir bələdçidir». Bu fikri Cübran «Ərəb dilinin gələcəyi» haqqında yazarkən söyləyir. O, şairi dilin qoruyucu mələyi statusunda görür. Cübran üçün «şair dilin həm atası, həm də anasıdır». Bu cür yüksək və geniş mənada başa düşülən şair anlamı, əlbəttə, ənənəvi şairdən fərqlidir.





Bəli, bu cür başa düşülən şair sadəcə şeir yazan yox, milli düşüncəni poetik zirvəyə qaldıran bir şəxsdir. Biz nə üçün bu fərqi xüsusilə vurğulayırıq? Çünki Şərq ənənələrinə görə və xüsusən Azərbaycanda yayılan təsəvvürlərə görə şair məhz şeir yazan insanlara deyilir. Digər sahələrdə fəaliyyət göstərən şəxslərin öz statusu, öz adı vardır. Kimsə alim, kimsə fəhlə, kimsə siyasətçi, kimsə filosofdur. Görünür, Cübran şair sözünü məhz mütəfəkkir-ziyalı mənasında işlədir.

Cübran özü də ilk növbədə mütəfəkkir-ziyalıdır və təsadüfi deyil ki, onun poeziyası fərdi təəssüratlardan daha çox, bəşər təcrübəsinin ümumiləşməsindən yaranan ümumi obrazlar, anlayışlar, ideyalar arasında münasibəti tərənnüm edir.

Kimsə konkret təbiət mənzərəsinin, yaxud hansısa konkret bir fərdin gözəlliyini vəsf edir. Hansısa hadisənin təsiri ilə qəlbin konkret bir sıxıntısını sözlərlə ifadə edir. Lakin kimsə bu konkret təzahürlərdən abstraksiya olunaraq, ümumiyyətlə gözəlliyi, ümumiyyətlə haqqı, ümumiyyətlə eşqi, insanı, həyatı, dünyanı bir müstəviyə gətirir, onlar arasında universal əlaqələrdən danışır və bu əlaqələrin öz gözəlliyini ifadə etməyə çalışır.

İdeyalar dünyasının daha möhtəşəm bir gözəlliyi var imiş! Hadisələrdə görünməyən ayrı-ayrı hədislərlə ifadə oluna bilməyən; ölçüsü, boyu-buxunu, rəngi-ruhu olmayan bir gözəllik! Qeyri-müəyyənliyə bir aydınlıq gətirilməsi, ölçüsüzlüyün, hüdudsuzluğun söz hüduduna sığışdırılması! Şəffaflığın rəngi, Qaranlığın işığı, Sükutun pıçıltısı!

# Ocaq və kül

İosif Brodski belə deyir: «Sona qədər yanmağın nə olduğunu yalnız kül bilir».

Gözəl deyilmişdir, deyilmi?

Bəli, gözəl görünür ilk baxışdan...

Düşündürür həm də: kül elə müdrik ola bilsəydi...

«Kül» müstəqim mənada, həm də məcazi mənada daxili enerjisi, yanma potensialı artıq sərf olunmuş və bir daha yanmaq və canlanmaq iqtidarında olmayan bir qalıqdır. Daxili hərəkətverici qüvvə alovla birlikdə çıxır. «Yanmaq» həm də hərəkətə gəlmək, «həyəcanlanmaq» və bu həyəcanı başqalarına ötürmək deməkdir. Yanğının iztirabları da alovla birlikdə çıxıb səpələnir. Kül əgər xatırlaya bilsəydi iztirab çəkərdi, iztirab çəkə bilsəydi, bu onun yeni yanğısı olardı. Amma, maləsəf, kül bunların heç birinə qadir deyil.

J.Jores isə: «Ocaqdan külü yox, közü götürmək lazımdır», – deyir. Şübhəsiz, köz hələ varsa!

O şey ki, axıradək yanıb külə dönə bilir, o, olsa-olsa müvəqqəti, məhdud, sonlu bir ocağı simvolizə edər. Müvəqqəti olan isə milli ruhun, həyat uğrunda mübarizənin və əbədi nurun rəmzi ola bilməz.

Ancaq milli ruha söykənən, min illərin dərinliyindən güc alan proses davamlı olur. Mənbəyi bizə yad olan hər hansı şey isə gec-tez tükənəcəkdir və uzaq yolda ona bel





bağlamaq olmaz. Bir atım barıtla savaşa çıxmaq olmaz. Böyük ideallarm gerçəkləşməsi üçün tükənməyən nur mənbəyi lazımdır.

Poetik təb də bir atım barıt kimidir. Həyəcanlanmış atom öz artıq enerjisini şüalandıraraq yenidən normal vəziyyətə keçdiyi kimi, ilhamlanmış sənətkar da bu ilhamın, hiss-həyəcanın daşıdığı enerjini şeir və ya digər sənət vasitələri ilə «şüalandıraraq» «normal vəziyyətə» keçir. "Normal vəziyyət" isə əslində iqtidarsızlıq vəziyyətidir.

«Biz şair xalqıq», – deyirlər. Yəni daha tez təsirlənə bilir və təəssüratlarımızı da daha rahat ifadə edərək öz normal vəziyyətimizə düşürük. Nyuton isə deyir ki, əqlin qüdrəti fikrin sürəkliliyində özünü göstərir.

Fəlsəfi vəcd ona görə uzun sürə bilir ki, o, idrakla birləşir. Soyuq ağlın sərinliyi ilham qığılcımını tez alışıb yanmağa qoymur. Alışıb yanmağın isə adəti yandırmaqdırsa, aqibəti – kül olmaqdır.

Əgər təmas dairəsində yanmağa hazır olan, quru, yetkin od hərisləri varsa birinin alışıb yanması başqaları üçün sadəcə bir işarə olacaq; proses hələ uzun sürəcək. Mühitdə, arxada heç nə yoxdursa, alışan təkcə özünü yandırar və tez tükənər, ...ya külə, ya kömürə dönər. Kömürün küldən fərqi canında hələ də yanmaq potensialının saxlanmasıdır.

Yanmağa və yandırmağa çalışan, amma bütün təmaslar sıradan çıxdığında daha heç kəsi, heç nəyi yandıra bilməyən, son dəfə işararaq öz cövhərini yandıran və yanğısına son qoyulan axırıncı qor, axırıncı qığılcımdır – bu dərdi çəkən! Bəli, sona qədər yanmağın nə olduğunu sonuncu qığılcım bilir. Ondan sonra nə yanan qalacaq, nə də bilən! Kül nədir, bildiyi nə!

Ətrafa sıçramış qığılcımların, qorların, köz parçalarının harada isə münbit mühitə düşərək yeni bir alov üçün

başlanğıc olmasını izləmək qalır. Əvvəl çəkilmiş iztirabların nağılını da bu yeni alovlar söyləyəcəkdir.

### Ölüm – ruh və bədən arasında sazişin pozulması

Bəli, yeni alovlar!

İnsan həyatı da belədir. Bu həyat ayrı-ayrı məqamlarda insanın yaradıcı potensialının realizasiyası, özünü kənarda təsdiqləməsi formasında davam edir. Ancaq yaradıcılıq məqamları sözün həqiqi mənasında həyatdır. Qalan hallarda insan öz «normal vəziyyətinə» qayıdır və öz cismani mövcudluğunu sadəcə davam etdirir. Yeyir-içir və bu zaman yanğını xatırladan maddələr mübadiləsi, kimyəvi proseslərdir. Bu, əslində bioloji həyatdır və bütün insanlar üçün təxminən eyni məzmuna malikdir. İnsanın mənliyi, fərdiyyəti, siması bədəndəki maddələrin yox, ancaq ideyanın təcəssümü, ruhun yanması ilə ifadə olunur. Nə qədər ki, bədəndə ruh var, insan sağdır. Ruh tükənəndə sadəcə cəsəd qalır və bu cəsədin həyatdan xəbəri olmur. Çünki həyat səhnələri, həqiqi yaşantılar və onların iztirab və sevinc xatirələri ruhla birlikdə «uçub gedir». (İnsanı onun cəsədində axtaranlar alovun nişanələrini küldə axtaranlar kimidir.)

Lakin təəssüf ki, bütün ömrü əhatə edən bu proses adi şüurda da, dini-fəlsəfi yanaşmalarda da ancaq son məqamla məhdudlaşdırılır. Ölüm – ruhun bədəndən ayrılması imiş. Halbuki, ruh bütün ömür boyu yandıqca səpələnir, paylanır və onun qığılcımları münbit mühitlərə düşərək yeni həyatını yaşayır. Ömrün sonunda bədənlə daha uzlaşa bilməyən, onu hərəkətə gətirə bilməyən *tükənmiş ruhmu* bədəni tərk edir, yoxsa hələ kifayət qədər yaradıcılıq gücü olan ruhmu taqətdən düşmüş və onun üçün daha mühit ola bilməyən bədəndə qala bilmir? Hər halda uzlaşma daha mümkün olmur, saziş pozulur.

Zərrə-zərrə, qığılcım-qığılcım paylanmış, öz həyatını artıq kifayət qədər yaşamış və yaymış ruhun «ölməsi» əslində bir o qədər də ölüm deyil. Çünki o, çoxdan başqalarında yaşayır. Bu zaman reinkarnasiyadan danışmağa da ehtiyac qalmır. Çünki bu proses diskret şəkildə, bütövlükdə ruhun bir bədəndən başqa bədənə köçürülməsi şəklində getmir. O, bütün ömür ərzində sanki müxtəlif rakurslardan kopiyalanır və özünün fərqli mühitlərdəki yeni həyatını davam etdirir. Yəni insanın həyatı tək öz bədəni ilə məhdudlaşmayaraq yeni ərazilərə yayılır. Və bu yayılmanın əsas formalarından biri yaradıcılıq prosesidir.

Düzdür, insanın yaratdığı əsərlər ruh formasında deyil, maddi təcəssüm formasında olur, lakin onlar başqa insanlar tərəfindən canlandırılaraq yeni həyat tapır. Nəticədə, bütün şüurlu həyat boyu ətrafı işıqlandırmış, səpələnmiş, paylanmış ruh kifayət qədər yüngülləşir və onun bədəndən ayrılması, uçub getməsi də çox rahat olur.

Digər variantda, nə zaman ki, işləyən, «yanan» ancaq bədən olur və ruh «alovlana» bilməyərək tüstüləyir, hislənir-paslanır və nəhayət, bədən yanıb qurtardıqdan sonra özünə yer axtarır. (Bunlar artıq «incik» ruhlardır. Onlar paylanmadığına və tükənmədiyinə görə ağırlaşır və rahatca uçub-gedə bilmirlər. Və onların yerləşməsi məsələsi çox vaxt müəmmalı olur. Məsələnin bu tərəfi daha çox mistik xarakter daşıdığına görə, biz onu açıq qoyuruq.)

### «Odu söndürüb külü ilə oynayırıq»

"Bizim dünya" xeyli dərəcədə yanmış, işıqlanmış, öz enerjisini istifadə etmiş və artıq solmaqda, sönməkdə olan bir dünyadır. «Şair» niyə qaranlıq dünyaya girir?

Qaranlıqlar iki cür olur. Ya tamamilə yanıb külə dönmüş, ya da hələ heç yanmağa başlamamış, bütün potensial enerjisini passiv halda da olsa özündə saxlayan bir dünya.

Lakin imkanlar dünyasında axının əksinə də getmək olar, yolları görməyib kolların arası ilə də getmək, yıxıladura, imərləmək də olar, geniş yola çıxıb atını dördnala çapmaq da!

Qaranlıqlara öz bəsit ağlı ilə bərabər girən və orada əllaməlik edən, fikirləşən və öz məhdud bilik «xəzinə»sini işə keçirmək istəyənlərin orda işıqlı bir başlanğıc tapmaq şansları sıfra bərabərdir.

Öz hissi təcrübəsindən çıxış edərək təbiətin qanunauyğunluqlarını aşkara çıxaran insan uzaqbaşı elm məqamına yüksələ bilər. Yəni söhbət «hissi dünya» adlandırılan, yəni bizə hiss orqanlarımızla bəlli olan dünyadan gedir. Ruhani dünya haqqında, dünyanın nəfsi və insanın mənəvi aləmi haqqında isə insana çox az bilik verilmişdir (Quran-i Kərim).

Bizim bütün fəlsəfi düşüncələrimiz də bu az biliklər çərçivəsindən o tərəfə keçə bilmir. Çünki hissi dünya ancaq ruhla, mənəviyyatla qarşılaşdırılarkən, ancaq onun işığında fəlsəfənin predmetinə çevrilir.

*"525-ci qəzet", 5 iyun, 2009-cu il.*





# Dilin və fikrin potensialı

## «Poeziya – söz sənətidir»

Adi danışıq dili, epik üslub, nəqli cümlələr qeyri-aşkar şüurun və hissiyyatın ifadəsi üçün yetərli deyil. Hissiyyatın, əhvalın musiqi ilə və ya rənglərin dili ilə ifadə edilməsindən fərqli olaraq poeziya məhz təbii dilin imkanlarından istifadə edir; lakin bu dil adi danışıq dilindən fərqli olaraq, mübaliğələr, məcazlar, təşbehlərlə «bəzədilmiş», habelə ritm və ahənglə tamamlanmış xüsusi bir dildir. O, artıq poetik dil statusu almışdır. Bu dil qafiyəyə, ahəngə, ritmə salınmış sözlər yox, daha çox dərəcədə, sözlərlə ifadə olunmuş ritm və ya ahəngdir.

Məqsədimiz hissiyyatı, əhvalı ifadə edən müxtəlif sənət növləri içərisindən məhz poeziyanı ayırmaq və onun «söz sənəti» olmaqdan başqa, «fikir sənəti» olmaq iddiasını və bu xüsusda potensial imkanlarını araşdırmaqdır.

Ənənəvi poeziya hadisələrdən, təzahürlərdən təsirlənən şairin ürək sözlərini ifadə edir. Təəssüratlar təfəkkür prizmasından keçərək həyatın, dünyanın ən ümumi qanunauyğunluqlarında iz salmamış, ideyalar səltənətinə qədəm qoymamış, intellekt süzgəcindən keçməmiş elə birbaşa, hansı isə obrazlarla, təşbihlərlə, bənzətmələrlə ifadə olunur. Həm də bu cəhət nə isə bir çatışmazlıq kimi yox, poeziyanın rəmzi, tələbi kimi, bir məziyyət kimi qəbul edilir.

Hiss, duyğu necə yaranıbsa oxucuya eləcə, hələ öz təravətini itirmədən, öz bakirəliyində təqdim olunur. Əlbəttə, əgər bədii dilin buna qüdrəti çatarsa!

Poeziyaya bu cür münasibət Azərbaycanda o qədər dərin kök atmışdır ki, ayrı-ayrı hallarda şairlər bu ənənədən uzaqlaşaraq mahiyyətləri, ümumiləri tərənnüm etmək «iddiasına» düşdükdə, ədəbi tənqid, hətta onların şöhrətindən, nüfuzundan çəkinməyərək, kəskin mövqe tutmuş, onları «fəlsəfəçilikdə» günahlandırmışdır.

Lakin XX əsr Azərbaycan poeziyasında bu tabunu pozmaq meylləri də güclü olmuşdur. Səməd Vurğun da, Rəsul Rza da bütün «fəlsəfəçilik» ittihamlarına baxmayaraq, vaxtaşırı konkretlikdən ümumiyə, mahiyyətə doğru addımlar atmış və fəlsəfi poeziyanın gözəl nümunələrini yaratmışdırlar.

Düzdür, Səməd Vurğunda fəlsəfilik tamam başqa üslubda və istiqamətdə, Rəsul Rzada isə xeyli fərqli formada özünü göstərir. Lakin formalar fərqli olsa da məğzi eynidir: poeziya fəlsəfi qata yüksəlir. Səməd Vurğun fəlsəfə mərtəbəsinə poetik vüsət qanadlarında qalxır. Rəsul Rza isə mahiyyət dünyasına təhlil və düşüncə qapısından keçir. Lakin heç biri bu mərtəbədə həmişəlik lövbər salmır və yenidən hissi dünyanın konkret yaşantılarına qayıdaraq axıradək öz şair missiyalarını yerinə yetirirlər.

### Poeziya fikri tənbəlləşdirir

Şeiriyyət qanadlarında fikir də yüksəklərə uçmağa can atır. Yüksəlir, amma uzağa gedə bilmir.

Elm qatarında gedən fəlsəfə daha uzaq məsafələri qət edir.

Poeziya uzaqları yaxına, öz hüzuruna gətirir... Və fikir tənbəlləşir. Xəyalın gücünə adət edənin fikirləşməyə





ehtiyacı qalmadığına görə, fikir müstəqil və sürəkli bir proses kimi institutlaşmır, ictimailəşmir, başqa sözlə, elmiləşə bilmir. Və nəticədə uzağa da gedə bilmir.

Fizikadan məlumdur ki, səs dalğaları tez söndüyünə görə çox uzaqdan eşitmək mümkün olmur. Görmək olur, eşitmək olmur. Həm də işıq böyük sürətlə yayıldığı halda, səs yavaş gedir və tez sönür. Ona görə də, səsi uzağa *daşımaq* üçün onu işıq (elektromaqnit) dalğalarına yükləyirlər (modulyasiya). Bu yükləmənin çox unikal bir həll üsulu tapılmışdır. Amma biz indi fizikanın təfərrüatına getmək istəmirik. Önəmli olan odur ki, zəifi, yorulanı (enerji itkisi çox olanı) yorulmayanın üzərinə yükləyəndə o da uzağa gedə bilir.

Bax, Qərb fəlsəfi fikri məhz elm üzərinə yüklənmiş və bunun sayəsində kumilyativlik əldə edərək daha uzaqlara (dərinliklərə, habelə təfərrüatlara) getmək imkanı qazanmış bir fəlsəfədir.

Bu, əlbəttə, onun qazancıdır. Bəs bu izdivacda fəlsəfənin itirdiyi nədir? Artıq itirmişdirmi, nəyi itirmişdir bu başqa sualdır. Amma bir şey şübhəsizdir ki, itirmək təhlükəsi böyükdür. Həm də söhbət nə az, nə çox – özünü itirməkdən, fəlsəfəsizləşməkdən – elmiləşməkdən gedir.

Formadakı sərbəstlik fikrin də daha sərbəst ifadə olunmasına imkan verir. Azərbaycan ədəbiyyatında ənənəvi poeziya ilə yanaşı, sərbəst şeirin də yaranması bir qayda olaraq məhz bu cəhətdən dəyərləndirilir. Halbuki, bu, məsələnin zahiri tərəfidir. Və belə təəssürat yaranır ki, əruz və heca vəznlərində müəyyən bir fikri ifadə etmək çətinliyi çox vaxt fikrin çərçivələnməsi ilə nəticələnir. Sərbəst vəzndə isə qafiyə, ritm əsas olmadığına görə, müəllif ancaq fikrin dəqiq çatdırılmasını ön plana çəkir.

Lakin məsələnin daha önəmli bir cəhəti yaddan çıxır. Belə ki, ənənəvi şeir poeziyanın mahiyyətini ifadə

edən, onun tərifində önə çəkilən bir cəhəti – *söz sənəti* olmaq cəhətini özündə saxladığı halda, sərbəst vəzndə yazılan əsərlər bu tərifə bir o qədər də uyğun gəlmir. Yəni burada söz aparıcı rol oynamır.

Heç fikir də aparıcı ola bilməz. Əks təqdirdə fikir elə nəqli formada ifadə olunardı. Burada ilkin olan təəssüratdır. Və şeirin yazılması prosesi təəssüratın ideya kimi formalaşması mərhələsindən keçir. Amma sərbəst vəznli şeirdə də ideya hələ tam (yəni konturları aydın və dəqiq olan elmi ideya səviyyəsində) formalaşmış olmur. Ona görə də, onun ifadəsi üçün yenə də bədii obraza, metaforik vasitələrə ehtiyac yaranır. Sadəcə olaraq, burada dil aparıcı rol oynamır. Ona görə, bu cür şeirlərin tərcüməsi də nisbətən rahat olur.

Aparıcı olan şairin dünyagörüşü, bilik dairəsi, fikir arsenalıdır, yəni subyekt şairin özüdür. Müvafiq bilik səviyyəsi və fəlsəfi dünyagörüşü olmayan şairlərin sərbəst vəzndə yazdığı şeirlər heç bir dəyərə malik deyil. Halbuki, təbii ilhama malik olan, sinəsi sözlə dolu olan şairlər hər hansı bir kiçicik fikir ətrafında yazmağa başlayan kimi, dilin öz ahəngi və sintaktik informasiya tutumu köməyə gəlir və bu yaradıcılığın məhsulu hər halda şeir olur.

## Poeziya fikri qanadlandırır

Poetik ilham ilkin qığılcımın işığında dil aləmində cövlan etmək və onun bətnindəki ahəng sayəsində potensial fikir resurslarını da üzə çıxarmaq imkanıdır. Yəni burada fikrin subyekti şairin özü yox, dildir. Şair öz ilhamı ilə dil dünyasını işıqlandırır, sözlər müəyyən ahənglə ipəsapa düzülür və fikri də arxasınca aparır. Fikir sanki özözünə süzülüb gəlir.





*Şeir, sənət əzəl gündən sözün hüsnülə yoğrulmuş,*
*Zamanın sirri, sevdası onun qəlbində nəqş olmuş.*
(S.Vurğun)

Bir daha vurğulamaq istəyirik ki, poeziyada «söz» haqqında deyilənlər əslində konkret bir dilin daşıdığı potensial imkana aiddir. Və bu imkan bütün dillərdə eyni deyil.

Söhbət hansı isə dildə yatan fəlsəfədən, fikir potensialından gedir.

Əlbəttə, bütün yükü dilin üzərinə qoymaqla şairin hansı isə ilkin ideyadan çıxış etmədiyini iddia etmirik. İlham sinkretik bir hadisədir. İlkin hissiyyat, təəssürat, ovqat şeirə çevrilmək üçün əvvəlcə hansı isə konkret bir ideya ətrafında lokallaşmalıdır. Bu mərhələdə ideyanın konturları hələ kəskin, dəqiq deyil, o hələ bir anlayış kimi tam formalaşmış olmur; daha doğrusu, söhbət hiss və ideyanın hələ tam ayrılmadığı ilkin mərhələdən gedir. Amma müəyyən bir ideya başlanğıcının olması əsas şərtdir. Necə ki, hər bir kristallaşma prosesi ancaq ilkin kristal zərrəsinin ətrafında gedir.

*"525-ci qəzet", 4 iyun, 2009-cu il.*

# Vaqif, "Vaqif" və üç Vaqif

Bu günlərdə 70 yaşı tamam olan xalq şairi Vaqif Səmədoğlu bir jurnalistə verdiyi müsahibəsində qeyd etdi ki, ona qədər iki Vaqif olub. Düzdür, Vaqif Səmədoğlu, deyəsən, başqa adlar çəkdi. Amma mən belə başa düşdüm ki, bunlardan biri Molla Pənah, o biri «Vaqif»dir. Bu pyesdən sonra ilk Vaqif adını da Şair öz oğluna verib. Bu sıralamada Vaqif Səmədoğlu üçüncüdür. Amma müasir Azərbaycan poeziyasında digər Vaqif üçlüyü də var (Vaqif Səmədoğlu, Vaqif Bayatlı Odər və Vaqif Bəhmənli) ki, bu sırada o birinci gəlir.

Bu ardıcıllıq təsadüfi bir şey olsa idi, yəqin bir fəlsəfə tədqiqatçısı bu barədə yazmaq qərarına gəlməzdi. Amma burada sanki Azərbaycan poeziyasının inkişaf mərhələləri öz əksini tapıb.

Əvvəla, Molla Pənah həqiqətən birincidir; zamanca təkcə Vaqiflərin yox, həm də *müasir* Azərbaycan poeziyasının birincisidir.

Tarix çox qədimlərə gedib çıxa bilər. Lakin elə dövrlər və hadisələr olub ki, onların müasir həyatımızla bilavasitə əlaqəsi yoxdur. Əbu Turxanın «kəsilməyən tarix» təliminə görə, arada həm məkanca, həm zamanca, həm də dil baxımından qırılmalar varsa, bu artıq müasir tarixə aid deyil. Yəni bizim bugünümüz sonuncu dəfə haradan başlayır və hansı bütöv prosesin kəsilməz davamıdır? Bu ideyanı





poeziya müstəvisinə keçirsək, müasir Azərbaycan dilində hamının rahatlıqla oxuya bildiyi poeziyanın M.P.Vaqiflə başlanmasını daha aydın başa düşmək olar; zatən bunu çox vaxt belə də qəbul edirlər.

Amma «Vaqif» bu müasir poeziyanın inkişafında xüsusi bir mərhələdir. Bir tərəfdən baxanda, əslində zirvədir. Hər zirvədən sonra isə yeni mənzərələr açılır.

Hegel Şərq ədəbi-bədii yaradıcılığında epik-dramatik düşüncənin çatışmazlığını vurğulayırdı. Amma XIX əsrin axırları – XX əsrin əvvəllərində Azərbaycanda dramaturgiya geniş vüsət aldı. H.Cavid bədii düşüncənin bu təkamülünü poeziya müstəvisinə keçirdi. Və Səməd Vurğun poeziya ilə dramatik düşüncənin vəhdətini həmin dövrdə daha müasir, daha doğma bir dildə və anlamda xalqa çatdırdı. Başqa sözlə, fəlsəfi düşüncəni və poetik vüsəti xəlqiliklə birləşdirdi.

«Vaqif» haqqında çox yazılıb və biz onları təkrarlamaq istəmirik. Sadəcə olaraq, «Vaqif»in müasir Azərbaycan poeziyasının müəyyən dövründə yeni mərhələ olduğunu, hansı proseslərinsə zirvəsi, yekunu, hansılarınsa başlanğıcı olduğunu diqqətə çatdırırıq.

## «Vaqif»

Bəli, «Vaqif» bir sənət əsəridir. İştirakçılar da məhz bədii obrazlardır. Ədəbiyyatşünaslıqda yayılmış qüsurlu baxışlardan fərqli olaraq, bu pyes nə tarixi əsərdir, nə də realizm üslubunda yazılmışdır. «Vaqif» romantizmin ən parlaq nümunələrindən biridir. Burada nə tarixi Molla Pənah var, nə də tarixi Ağa Məhəmməd şah. Burada bir *hökmdar* və bir də *şair* obrazı yaradılmış, ədəbiyyat və mədəniyyətin gücü rəyasət və ordunun gücü ilə qarşı-qarşıya qoyulmuşdur. Burada şair milli ruhun ifadəçisi ki-

mi təqdim olunur. O şair ki, Cübran onu belə təqdim edir: «Şair – xalqın yaradıcı gücünün ifadəçisi, ruh aləminin... bələdçisidir».

Əlbəttə, bu cür başa düşülən şair sadəcə şeir yazan, yaxud baxılan halda tarixi nəzmə çəkən şəxs yox, milli düşüncəni poetik zirvəyə qaldıran bir şəxsdir. Aristotel də təsadüfən poeziyanın tarixdən daha yüksək olduğunu vurğulamır. Amma biz nə edirik? Səməd Vurğunun yaratdığı böyük *Şair* obrazından tarixi detallar və «obyektivlik» tələb edirik.

Azadlığa çıxmış tarix prizmasından «Vaqif»ə baxıb burada Ağa Məhəmməd şah Qacarın tarixi təfsilatlarını tapa bilməyənlər görəsən Molla Pənah Vaqiflə bağlı tarixdən bəlli detalları nə əcəb axtarmır və M.P.Vaqifin də bir siyasi sima kimi səhvlərinin qələmə alınmasını və üzə çıxarılmasını tələb etmirlər? Və nə əcəb qeyd etmirlər ki, niyə burada Vaqif obrazı Rusiyanın ancaq ədəbiyyatını, mədəniyyətini qiymətləndirir, Rusiya padşahından isə bir zülmkar olaraq bəhs edir, ona nifrətini bəyan edir, amma əslində belə olmayıbmış?...

Səməd Vurğun öz «Vaqif»ini, öz əzəmətli şair obrazını tarixi detallar üzərində qurmur. Əksinə, *şair* obrazına hər hansı bir kölgə salacaq detalları bilə-bilə inkar edir. Çünki şair bizə kölgəsiz, ləkəsiz şəkildə – milli ruhun timsalı kimi lazımdır. Amma kim ki, «Vaqif»dən tariximizin mənimsənilməsi üçün yardımçı vasitə kimi istifadə etmək istəyir, bu əsər həqiqətən çox gözəl bir nümunə ola bilər. Lakin çiynində fotoaparat daşıyan təsvirçi tarixçilər üçün yox, tədqiqatçı tarixçilər üçün. Sadəcə bir məsələni qarışıq salmamaq şərti ilə: «Vaqif» XVIII əsrin axırlarının üçün deyil, XX əsrin 30-cu illərinin tarixi üçün qiymətli material ola bilər. Hər addımı bir təhlükə olan həmin dövrün tarixini yazarkən şairlərimizdə satqınlıq nişanələri aramaq əvəzinə, həqiqi qəhrəmanlıq nümunəsinə göz yummamaq şərti ilə. Belə çətin bir məqamda əyilməz şair obrazı yaratmaq və onu hökmdara qarşı qoymaq, – bax, budur 30-cu illərin mənəviyyat tarixi! Yeri gəlmişkən, bu yaxınlarda «525»-də çıxan bir oçerkdə (Adilxan Bayramov) bu məqam çox gözəl təhlil edilmişdir.





Səməd Vurğunun dahiliyi özünü bunda da göstərir ki, o, belə çətin bir dövrdə sanki ideologiyanın da tələblərinə cavab verərək və sanki onun şərtlərinə uyğun bir tarix yazaraq, əslində ortaya tarix deyil, fəlsəfə qoyur. 37-ci ilin ölüm qorxusunu daxilən dəf edərək milli ruhun himnini yazır, «əyilməz vicdanın böyük heykəli», – deyir.

## Üç Vaqif

Səməd Vurğunun böyük daxili enerjisi ilə Vaqif sanki yenidən qayıtdı və «Vaqif»ə çevrildi. Bu əsərlə təkcə ədəbi-bədii mühitə deyil, bütövlükdə mədəni-mənəvi həyata, tükədilməkdə olan ruhani həyata böyük energetik potensial, yeni bir ruh, ruhun mübarizlik əzmi qatıldı. Azərbaycanda şair ruhu məhz Vaqif obrazı ilə yaşadıldı. Amma təbiətin öz qanunu var, artıq enerji mütləq şüalanmalıdır... Şüalandı və üç Vaqif yarandı. O da parçalandı və şeirimizə çoxlu-çoxlu yeni vaqiflər və vaqif olmayanlar gəldi...

Lakin Vaqif Səmədoğlu sözün geniş mənasında vaqifliyi, poeziya yolunu seçsə də, yaradıcılıq üslubu baxımından «Vaqif» yolu ilə getmədi. Onu davam etdirmək, daha da yüksəltmək zatən mümkün deyildi. Zirvənin davamı olmur, enişi olur. Genetik potensialı, görünür, başqa bir səmtdə sınaqdan çıxarmaq lazım idi.

Təkcə Vaqif Səmədoğlu deyil, Vaqiflər hamısı bö-

yük mənada Səməd Vurğun yolunu tutsalar da, yeni cığırlar axtardılar. Düzdür, istedadlı gənc tənqidçi Cavanşir Yusifli Səməd Vurğunun poetik enerjisinin davam etdirilməsindən danışarkən Vaqif Bayatlının da adını bu sırada çəkir, lakin bu fikirlə ancaq böyük poeziya yolçuluğu mənasında razılaşmaq olar. Daha konkret götürüldükdə isə o da öz adaşları kimi, Nazim Hikmət və Rəsul Rza xəttinin davamçısıdır. Vaqif Bəhmənli isə sələflərindən ən çox Bəxtiyar Vahabzadə ilə müqayisə oluna bilər. Əlbəttə, Bəxtiyar Vahabzadənin özü də xeyli dərəcədə Vurğun poeziyasından bəhrələndiyindən, onun davamçılarındandır. Amma o, daha çox intellektual-didaktik şeirlər müəllifidir; yəni onun yaradıcılığında formaca yaxınlıq hiss olunsa da, ideyalar dilin öz daxili potensialından daha çox, düşüncədən hasil olur. Vaqif Bəhmənli də gerçək həyatın real problemləri haqqında düşünür və düşündürməyə çalışır.

Səməd Vurğun poeziyası ona görə əlçatmazdır ki, o, düşünmədən düşündürür. Və bəzən hətta düşündürmədən təsir edə bilir ki, bu da ruhun bilavasitə yüksəlişidir.

Səməd Vurğunun genetik potensialı Yusif və Vaqif Səmədoğlularda davam etsə də, yaradıcı potensialı iki xəttə ayrılaraq söz sənəti baxımından Hüseyn Arif və Zəlimxan Yaqubda, ideya və poetik vüsət baxımından isə daha çox dərəcədə Məmməd Araz və Ramiz Rövşəndə davam etdirildi.

Bu üç potensialın, genetik və hər iki istiqamətdəki yaradıcılıq potensiallarının bir şəxsdə birləşməsinə isə rast gələ bilmirik. Bu – Səməd Vurğun zirvəsi idi!

Gələcək o zaman bizimkidir ki, keçmişimizin davamıdır!

*"525-ci qəzet", 10 iyun, 2009-cu il.*





## Qaranlığın işığı

Ənənəvi Şərq fəlsəfəsində, xüsusən işraqilik təlimində, ən ali varlıq İşıqlar işığı hesab olunur. Əbu Turxan yazır: «Yalnız işıq vardır, qaranlıq işığın yoxluğudur». Eyni zamanda dünyanın məhz yoxluqdan var olması fikri təkcə fəlsəfədən və dindən gəlmir; müasir fizika da yoxluğun varlığa, virtual zərrələrin real zərrələrə çevrilməsindən bəhs edir. Bəli, indiki fizika artıq lirika səviyyəsinə çatmışdır.

Lakin fizika nə qədər dərinə getsə də, «qaranlığın işığı» ideyasına ancaq indi-indi yan alır. Şairlər isə əksliklər arasında dərin daxili əlaqəni, görünür, fəhmlə duyurlar.

«*İnsan səsi qaranlıqdan çıxır*», – deyən Vaqif Səmədoğlu, görünür, diqqəti səsin işıqlı missiyası ilə onun qaranlıq mənşəyi arasındakı kontrasta yönəldir. Belə ki, digər varlıqlardan fərqli olaraq insan sadəcə səs çıxarmır, onun səsi strukturlaşmış, mənalaşmış və sözlər şəklində vahid bir nizam üzrə düzülmüşdür. Bunu qaranlıqdan çıxan səsin fikir işığına bürünməsi kimi də, iç dünyasında qeyri-aşkar şəkildə olan təhtəlşüurun sözlə ifadə olunmaqla aşkarlanması kimi də şərh etmək olar. Əlbəttə, şair öz qarşısına bəlkə də belə təfərrüatları ifadə etmək məqsədini qoymamışdır. Lakin misranın tutumu və çoxmənalılığı onu müxtəlif kontekstlərdə başa düşməyə imkan verir.

İnsan da gecənin və qaranlığın davamı kimi təqdim olunur:

*Ana bətninin gecəsindən*
*Dünyaya gəlir insan.*

Bu *davam* özündə həm gecəni, həm də gündüzü, işığı saxlayır. Lakin insanın gəldiyi dünya doğurdan da, işıqlıdırmı? Maraqlıdır ki, Əbu Turxan tam tərsinə, bu dünyanın qaranlığından, iç dünyasının isə işığından yazır:

*...Ana təbiətin işığımı azalır,*
*Yoxsa içimdəki işıq*
*ona kölgəmi salır?! –*
*Deyə bilmərəm, ancaq*
*işığım artdıqca*
*bu fani dünya sanki qaralır...*

Ramiz Rövşəndə də gecə sadəcə qaranlıq olmayıb, sabahı bətnində gəzdirən mürəkkəb bir fenomendir:

*Bir gecənin qaranlığı*
*Yüz-yüz çıraqdan böyükdür.*

Düzdür, burada hələ qaranlığın işığından bəhs olunmur, amma onun lokal işıqlardan qat-qat böyük potensiala malik olmasına işarə edilir. Qaranlığın böyük enerjisi varsa, bir gün işığa da çevrilə bilər.

## Zamanın bətnindəki işıq

Hər şeyin heçdən və ya qaranlıqdan yaranması fikrini zaman axarında bir proses kimi dəyərləndirəndə, *indi* məhz *keçmişin* davamı kimi götürüləndə, varlıq həm də zamanın dərinliklərindən çıxırmış kimi görünür.

Zəlimxan Yaqub *«Peyğəmbər» poemasında* yazır:

*Zamanın bətnində,*
*vaxtın canında*





*Bir işıq, bir ziya*
*hazırlanırdı.*

«Qaranlıq» bir sonsuzluq ifadəsi kimi ədəbiyyatda və fəlsəfədə çox rast gələn obrazdır. Ən trivial izah, əlbəttə, ənənəvi poetik izahdır: gecənin qaranlığını aradan götürmək üçün Günəş gərəkdir, çıraqlar nə qədər çox olsa da, bu qatı zülməti əritməyə gücü çatmaz.

Düzdür, «çıraq» obrazı adi məişət mənasından fərqli olaraq məhz ilahi işığın, nurun simvolu kimi də işlədilir. Xüsusən, Şərq fəlsəfi fikrində və poeziyasında, görünür Qurani Kərimin Nur surəsindəki məlum ayəyə işarə ilə çıraq obrazı həmişə məhz nur kontekstində işlədilir. Maraqlıdır ki, Qərb poeziyasını təmsil edən Şekspir də çıraq obrazını məhz bu mənada işlədir:

*Ey iblis, şərini artırma nahaq,*
*Zülmət çoxaldıqca, nurlanar çıraq.*
*(125-ci sonet)*

Bu mövzu Xeyir və Şər kontekstində də aktualdır, Qərb və Şərq kontekstində də. Belə düşünmək olardı ki, söhbət ya cəmiyyətin, ya da hansı isə lokal ictimai mühitin «qaranlığından» – qaydasızlığından, dərdlərinin çoxluğundan və ona çarə tapmaq üçün ufaq təşəbbüslərin yetərsizliyindən gedir. Bu, *sosial* kontekstdir.

Yaxud qloballaşma və qərbləşmə dövründə insanın öz milli varlığından, mədəni-mənəvi yuvasından ayrılmaq məcburiyyəti içdən və qədimlikdən gələn işığın azalmasına səbəb olur və qlobal Qərbin *böyük qaranlıqlar* kimi təqdimatı üçün də meydan açılır. Bu, artıq *coğrafi-siyasi* kontekstdir.

## Ruhdan gələn işıq

Şekspir öz sonetlərində müqayisələri ilahiyyat kontekstində deyil, hissi dünyanın obrazları vasitəsilə aparır. Qaranlığın nur saçmaq imkanı da «qara gözlər» vasitəsilə ifadə olunur.

*Nur saçır üzünə odu, atəşi,*
*Necə də yaraşır gözlər hüsnünə.*
*Axşamın ulduzu, sübhün günəşi,*
*Belə yaraşmayır göyün üzünə.*

*(132-ci sonet)*

Bununla belə, Şekspir asanlıqla konkretdən ümumiyə keçir. «*Nurdan işıqlıdır zülmət cahanda*», – deyən şair, görünür, qaranlığın öz bətnində saxladığı, hələ doğulmamış böyük potensial imkandan bəhs edir.

İbn Ərəbinin «Məkkə aydınlanmaları»nda oxuyuruq:

*İçində dünyanın nizamı olan bu qayanı*
*qaranlıqlar bürüyüb;*
*Əzəmətli qüdrətə sahib İlahi ruhun qüvvəti*
*gəlib burda toplaşıb!*

Bəli, «ruh haqqında insana çox az bilik verilmişdir» (Quran 17/85). Bu baxımdan, iç dünyasında qaranlıqların olması da təbiidir. Müasir fəlsəfədə bu sahə «qeyri-şüuri», yaxud «aydınlanmayan şüur» anlayışları ilə təqdim olunur.

Ramiz Rövşənin bir şeirində isə qaranlığın ünvanı kimi insanın daxili aləmi göstərilir. Lakin bu qaranlıq da iki cür olur. Birincisi, özündə bir işıq saxlayan və içərisindən yeni sözlər doğan bir qaranlıq; aydınlıq özü qaranlığın inkişaf məqamı kimi! İkincisi, hər cür sözə yad olan və





sözlərin ondan qəfəs kimi xilas olmağa çalışdığı və qurtularkən aydınlığa çıxdığı qaranlıq:

*İçimin qaranlığından*
*Çıxır sözüm aydınlığa.*

*(«Aydınlıq»)*

Zəlimxan Yaqubda da işığın məhz zülmətdən doğa bilməsi imkanı önə çəkilir, qaranlığın dialektikası yığcam şəkildə ifadə olunur:

*Dünyanın ən parlaq,*
*gur işıqları*
*Çox vaxt zülmətlərin*
*içindən çıxır.*

*(«Peyğəmbər»)*

İçimizdəki zülmət ilahi qüdrət, nurlanma, ilahi ilham sayəsində hər an işıqlana bilər və onun heç də bir boşluq olmadığı, nə qədər böyük bir yük daşıdığı üzə çıxar.

«Dünyanın nizamı» – işıqdır. Qaranlıq isə hələ nizamlanmamış, qaydaya salınmamış, deməli, yaradılmamış dünyadır. Əvvəlcə dünya yaradılır, yəni xaos nizamlanır, qaranlıqlar işıqlanır. Sonra bu qaydanı, bu nizamı, bu işığı bilik kimi, konsept kimi özündə saxlayan insan yaranır.

*"525-ci qəzet", 11 iyun, 2009-cu il.*

## *Ülvi hisslərdən şəhidlik zirvəsinə*

Bu günlərdə "fəlsəfi poeziya" mövzusunda tədqiqat apararkən Azərbaycan poeziyasının nakam nümayəndələrindən biri, Müşfiq aqibətli, parlaq istedad sahibi gənc şair Ülvi Bünyadzadənin yaradıcılığı ilə tanış oldum və 20 yanvarda xalqımızın istiqlal hərəkatçıları ilə yanaşı, Azərbaycan poeziyasının da necə ağır bir itki verdiyini dərk etdim.

Tarixdə çox nadir hallarda şairin və ya filosofun əsas yaradıcılıq ideyası, çağırışları onun şəxsi həyat nümunəsi ilə üst-üstə düşür, real təcəssümlə tamamlanır. Belə olanda ideya hələ kifayət qədər inkişaf edib öz zirvəsinə çatmamış, bir həyat həqiqəti bu zirvəni fəth edir.

Azərbaycan xalqının tarixində iki milli intibah dövrünü xüsusilə qeyd etmək olar. Bunlardan birincisi XIX əsrin axırları – XX əsrin əvvəlləri idisə, digəri 1988-ci ildən başlanan və ancaq oyanış mərhələsini keçə bilən o izdihamlı illər idi. İkinci hadisə, təəssüf ki, hələ də öz elmi-fəlsəfi təhlilini tapmamışdır. Bu elə bir dövr idi ki, bir tərəfdən, qarşıda imperiya buxovlarından azad olmaq şansı, müstəqillik perspektivi görünürdü, digər tərəfdən — milli varlığın rəmzlərindən biri olan Vətən torpağına qəsd edilmişdi. Həmin dövr hamımız üçün ağrılı, həyəcanlı və eyni zamanda ümidli bir dövr kimi yadda qalmışdır. Bu iki qütbün, əksliklərin vəhdəti dövrün dramatizmini ifadə edir. Qaranlıqlar işıqlara, işıqlar qaranlığa bürünmüşdü. Hamı hər gün, hər saat həm nə isə qorxulu, həm də nə isə sevincli bir şey gözləyirdi. Kimin ki, yeniyetməlik çağı bu dövrə düşmüşdü, onlar gözlərini açıb bu təzadlar içərisində yol seçmək məcburiyyətində idilər. Kim ki, Ülvi kimi hələ gənclik dövründə ikən yetkinlik məqamına çatmışdı, o, hisslərini şeirlərində, düşüncələrini məqalələrində, iradi əzmini əməllərində ifadə edirdi.

"Sevincin qəm ilə qoşa" olmasından bəhs edən "Təzadlar" şeiri də məhz 1988-ci ildə yazılmışdı:

*Ən dərin dərələr, müdhiş yarğanlar,*
*Əlçatmaz dağların özülü olur.*
*Gülüşlər, haraylar, ahlar, amanlar,*
*Həmişə yan-yana düzülü olur.*

Yaxud, başqa bir şeirində ana qəlbindəki təzaddan söhbət açılır. Oğlunu Vətənin müdafiəsinə yola salan ananın keçirdiyi duyğularda sevinc və kədərin təzadı:

*Gözlərindən damcılanan yaz yağışı,*
*İntizarlı bir könüldən qopub gələn göz yaşıdı,*
*göz yaşı.*
*Bir arzudu, bir istəkdi,*
*Bir umuddu hər kərpici, hər daşı.*

Bəli, bu dövr faciələr dövrü idi. Bu dövr həm də qəhrəmanlıq, cəngavərlik dövrü idi. Yeniyetmə gənclərin elə küçələrdəcə avtobuslara minib birbaşa cəbhəyə, döyüşə tələsdiyi, qanların qaynadığı, hisslərin coşduğu, bəzən on illərlə dərk edilə bilməyən milli mənliyin bir anda dərk edildiyi hümmət zamanı idi, qeyrət zamanı idi!

Amma kimlərsə hələ qabaqcadan özünü bu qeyrət məqamına hazırlamışdı. Damla-damla dolmuş, misra-misra yazılmış bir tale!

*Axtarın elimin nər balasını,*
*Versin haqsızların haqq bələsını!*

Bu misralar hələ 1987-ci ildə yazılmışdı. Sanki şair qəlbinin uzaqgörən duyumu, intuisiyası məqamın yaxınlaşmasından xəbər verirdi və 17 yaşlı gənc artıq özünü öncədən bu məqama hazırlayırdı.

*Mən qorxmuram uzaq yola çıxmaqdan,*
*Bu yolun ağrısından, acısından,*
*"Ölüm" adlı yuxusundan mən qorxmuram!*

Yaxud, "Ömür yolu" poemasında ölümdən sonrakı həyatda, qəbirdə də Qarabağ uğrunda mübarizəsindən bəhs edir:

*Məni belə aciz görmə qəbirdə,*
*Qəbirdə də*
*Qarabağın özüyəm.*

Bəli, şəhidlərin uyuduğu torpaq Qarabağ torpağı ilə eyni rəngə boyanmış, bir tamın ayrılmaz hissəsinə çevrilmişdir:

*Qarabağdı mənim dinim, imanım*
*O torpağın nişanəsi, iziyəm.*

Şair üçün bir böyük yol var: son məqsədə, ideala aparan yol! Bu uzaq yolun yolçusu üçün ölüm sanki bir məqam, məntəqədir. Burda bir anlıq dayanıb yenidən yola çıxırlar, ta əbədiyyətə qədər! Bu ideal, bu böyük məqsəd isə milli istiqlal idi. Lakin milli istiqlala gedən yolun üzərində böyük-böyük maneələr var. Sanki üzərinə bir daş qoyulmuşdur. Milli duyğu isə bu kobud qüvvənin qarşısında çox kövrək və zərif görünən çiçəyə bənzəsə də, özünün kökə bağlılığı, yaşamaq əzmi ilə seçilir:





*Kökün durur, canın ölür,*
*Daş altında bitən çiçək.*

Bəli, çiçək obrazı təsadüfi deyil, onun ruhani qüdrətini və bir Vətən, bir Azərbaycan timsalı kimi təqdimatını hələ 20 il əvvəl - Ülvinin doğulduğu ildə şair Məmməd Araz vermişdi:

*Azərbaycan - qayalarda bitən bir çiçək,*
*Azərbaycan - çiçəklərin içində qaya.*

İmperiya buxovları milli inkişafı məhdudlaşdırdığı bir şəraitdə nə qədər kiçik xalqlar, etnik qruplar sıradan çıxdı... Vaxtılə Fransada mövcud olan qırx etnik qrupdan artıq heç nə qalmamış, hamısı fransızlaşmışdır. Böyük rus imperiyasındakı yüzlərlə xalqdan əsər-əlamət qalmadı. Hamısı ruslaşdı. Hətta böyük skiflərin, tatarların neçə-neçə imperiyaların yadigarı olan törəmələri də ruslaşmaqdan xilas ola bilmədi. Amma ruslaşmış türklərlə yanaşı, türklüyünü saxlayan, dilini, dinini, mənəviyyatını qoruya bilən xalqlar da oldu. Bu xalqlar içərisində azərbaycanlılar öz milli-mənəvi saflığını yaşatmaq baxımından xüsusilə seçilirlər. Lakin bu milli yaşayış, bu milli həyat çox ağır və təbəddülatlı cığırlardan keçmiş və geniş yola çıxmaq üçün, nəhayət, bir şans yaranmışdı. Onun 20 yanvara cəmi 10 gün qalmış yazdığı bir məqaləsində oxuyuruq: "Xalqımızın milli müstəqillik və demokratiya uğrunda apardığı mübarizə bu gün özünün tarixə qanla yazılacaq, əbədi həkk olunacaq günlərini yaşayır. Günü-gündən mövcud hərbi-polis rejiminin iç üzü açılıb tökülür, onun birdəfəlik dağılması üçün zəmin hazırlanır".

Lev Tolstoyun xırda xalqların öz milli mənini qorumaq uğrunda mübarizəsini əks etdirən "Hacı Murad" əsəri tufanlara, küləklərə sinə gərən bir kolun yaşamaq əzminə

həsr olunmuş uvertüra ilə başlayır. Ülvi Bünyadzadənin “Daş altında bitən çiçəyi” də qəvi bir düşmənin, başının üstünü almış ağır bir daşın yolu kəsməsinə baxmayaraq, işıq üzünə həsrət qalsa da, boy atmağa macal verilməsə də, təslim olmur, yaşamaq uğrunda hər dəfə yenidən cəhd göstərir... Solur, göyərə bilmir, böyüyə bilmir, amma hər dəfə dönüb yenidən daşa təzyiq edir, qarşısındakı maneəni dəf etməyə çalışır. Cismi ölür, canı ölür, amma kökü sağdır. Və nə qədər ki, kök yaşayır, nə qədər ki, yerin təkindən, min illərin dərinliyindən güc alır, qüvvət alır, bu sonu görünməyən mübarizə davam edəcəkdir. Ümidini itirməyəcək, daşın aşındığı, heydən düşdüyü o böhran məqamını, o tarixi fürsəti böyük səbrlə, inamla gözləyəcəkdir.

*Bir qəm yüklü ürəyəm ki,*
*Aparammaz karvan məni...*
*Mən Ülviyəm, kim atsa da,*
*Atmayacaq inam məni!*

Ülvi Bünyadzadə özünün “Daş altında bitən çiçək” şerini nəğmə adlandırsa da, o, sadəcə nəğmə deyil, konkret bir tarixi hadisəyə ictimai-siyasi münasibət olmaqla məzmunu və ideyasına görə gözəl bir fəlsəfi poeziya nümunəsidir:

*Daşın adı elə daşdır,*
*Zəncir ilə həmsirdaşdır.*
*Səni görən nə yaşadır,*
*Daş altında bitən çiçək?*

Son bənddə “daş” obrazı daha da konkretləşir; onun zəncir ilə həmsirdaşlığı şairin imperiya qandallarına işarə etdiyinə şübhə yeri qoymur. Lakin şair təkcə bir həyat eşqinin məhdudlaşdırılması, boğulması faktını bədii şəkildə ifadə etməklə kifayətlənmir. O, həm də çiçəyin bu gücü,





qüdrəti haradan alması barədə fəlsəfi bir sual qoyur. Bu sualın cavabı onun öz poeziyasında da, kökü lap qədimlərə gedib çıxan milli fəlsəfi fikrimizdə də tapıla bilər. Lakin Ülvi bu cavabı elə həmin şeirin özündə də verə bilmişdir. “Kök” obrazı özü bir cavabdır. Digər tərəfdən şair bu kiçik həcmli şeirdə milli ruhun nə isə abstrakt bir şey olmadığını, onun hər bir millət nümayəndəsinin qanında, canında yaşamalı olduğunu vurğulayır.

Həm də kiminsə, bir başqasının yox, məhz şairin öz qanında, öz canında:

*Bir az mənə oxşayırsan,*
*Daş altında bitən çiçək.*

Bu milli ruh yolunda, Vətən yolunda qanından, canından keçməyə hazır olduğunu şair artıq öz şəhidlik taleyi ilə sübuta yetirmişdir. Amma bunun sübutuna ehtiyacmı var idi? Onun şeirlərinin səmimiyyəti özü bir sübut deyildimi? Lakin şair öz yaşının elə bir dövrünü yaşayırdı ki, burada cəngavərlik duyğusu... rasional və planlı həyat formulasını üstələyirdi.

1937-də xalqımızın məhz seçilmişlərini, milli ruhun ən parlaq daşıyıcılarını aradan götürməyi qarşısına məqsəd qoyan İmperiya siyasəti, düşmən gülləsi o dərəcədə peşəkar idi ki, 90-da – gecənin qaranlığında izdihamın içində də millətin yenicə pərvazlanan poetik qüdrətini yüzlərin içindən seçə bildi və yenə də milli ruhu nişan aldı.

Onun yazıb imzaladığı “And”ın mətni də bu hazırlıq işinin, bu şəhidlik missiyasının sanki planlaşdırılmış olmasına dəlalət edir. Bu, görünür, şairlik təbiətinə xas olan bir cəhətdir. Vaqif Bayatlı Odər “Şeir anddı” adlı şeirində yazır:

*Şeir - anddı mənimçün,*
*Şeir yazmaq - and içmək,*
*and içib göydə ulduzuna,*
*yerdə şeirinə çəkilir hər şair*
*yurdunu qoruyan bir əsgər*
*qılıncına and içib*
*ölümünə çəkilən tək.*

Lakin Ülvi Bünyadzadə sadəcə şeirinə çəkilmədi, "ölümünə çəkildi" və torpağına qatışaraq onu yağılara vermədiyinə əminliklə getdi. Bu gedişi ilə nəsillərə örnək oldu. Amma həm də böyük bir könül dəftərini, öz poetik pafosunu, lirik hüznünü də qalıb yaşayanlara ərməğan etdi. Və bu mükəmməl poeziya abidəsi ilə bizimlə qaldı. Və öz milli "mən"ini yaradıcılığında ifadə etməklə millətlə qalmağın, həmişəlik qalmağın da örnəyi oldu.

*"Xalq qəzeti", 20 yanvar, 2009-cu il.*





# Şekspirdən Hamletə

İnsanın cismani ömrü sonlu, fəaliyyət dairəsi məhdud olduğundan əbədiyyəti haqq edən böyük insanlar bu hüdudları keçməyə can atırlar. Əlbəttə, ruhu azad olanlar zatən əbədiyyətin bir parçasıdırlar. Amma bəzən insan cismani dünyada da mütləq ruhun təcəllilərini görür, təbiət özü ruhani gözəlliyin təmsilçisi, sonsuzluğun əyani təzahürü kimi çıxış edir.

Təbiətlə sonsuzluğun timsalı ilk növbədə səmadır, göydür. Lakin bizim ölçülərə görə çox böyük olan, həm məkanca, həm zamanca sonsuzluğu xatırladan başqa timsallar da var – dağ kimi, dəniz kimi!

Şərqdə mənəvi tükənməzlik, əbədiyyətə qovuşmaq əzmi əsrlər boyu ilahi ruhla və onun rəmzi sayılan nur və işıqla ifadə olunmuşdur. Bir az aşağı enəndə bu simvolika daha çox qadın gözəlliyinin epitetləri ilə əvəzlənmişdir.

Qərb şairləri öz iç dünyasındakı nəhayətsizliyi və yüksəkliyi ifadə etmək üçün adətən təbiətin özünə müraciət edirlər.

Şekspir deyir:

*Dənizlər nə qədər sudan bolsa da,*
*Gizlədir qoynunda yağışı yenə,*
*Sənin istəklərin sonsuz olsa da,*
*Arzuma bir yer tap, rəhm elə mənə.*

Azərbaycan oxucusuna yaxşı bələd olan Puşkin və Lermontovun dağlara həsr olunmuş şeirlərində biz həm də onların yüksəlmək və sonsuzluğa qovuşmaq əzminin bədii tərənnümünü görürük.

Lakin görəsən Qərb düşüncəsi iç dünyasının nəhayətsizliyini hansı həddə qədər ifadə etməyə qadirdir?

Bayronun romantizm yolu cismani dünyanın reallıqlarından, təbiətin öz gözəlliklərindən bəhrələnir, yüksəklik təsəvvürü – dağların zirvəsindən keçir. Lakin şair təxəyyülü burada da qərar tuta bilmir və dağı da, dalğanı da öz könül dünyasında yerləşdirir:

*Məgər dağlar, dalğalar, səmalar*
*Könlümün bir parçası deyilmi?*

Belə düşünmək olardı ki, şair Şərq üslubunda təbiətdən daha yüksək könül dünyasına, oradan da Allah ideyasına gedib çatacaqdır. Lakin Qərb şairinin buna nəfəsi çatmır.

Növbəti şeirlərindən birində Bayron yenə də tarixi səhnələrin təsvirindən, cismani dünyanın nasiranəliyindən ayrılaraq poetik ilhamın qanadlarında Şərq idealını fəth edir, – kimi görünür.

*Gözəlliyin bütün idealı qarşımızdadır,*
...
*Biz Tanrını görürük, səsini eşidirik.*

Bəli, nəhayət, şair Tanrı idealına yaxınlaşır. Və burada təsəvvüf poeziyası ilə bir uyğunluq görünür. Lakin elə sonrakı bənddə aydın olur ki, Bayron qədim yunanların mərmərdən düzəltdiyi Tanrı heykəlinin gözəlliyindən bəhs edirmiş.





*Bu mərmər adi insan əlində dirilmişdir.*
*Olimpdən poeziya ilə endirilmişdir.*

Bayron "Ənəl-Həqq" deməsə də, insanın yaradıcı qüdrətini, onun qurduqlarının gözəlliyini tərənnüm edir və Tanrını da bu yaradıcılıqda görür. Bu cür yanaşma Qərbin təkcə poeziyasında yox, estetik fikrində də öz əksini tapmışdır. Məsələn, Qərb fəlsəfəsinin zirvəsində duran Hegel özünün «Estetikaya dair mühazirələr» kitabında estetikanın predmeti kimi təbiətdəki gözəlliyi deyil, «incəsənət sahəsini, yaxud, daha dəqiq desək, bədii yaradıcılığı» götürür.

Fərq göz qabağındadır. İstər Hegel, istərsə də Bayron köçüb göylər səltənətində əyləşməyə yox, əl-ələ verib yerləri göylərə qaldırmağa çalışırlar.

«Göylər» dedikdə idrakımıza sığmayan, qeyri-müəyyən və sonsuz olan şeylər nəzərdə tutulur. Lakin «Göylər» ancaq harada isə uzaqlarda deyil, həm də insanların içərisindədir. «Qəlbin ən dərin və yarıqaranlıq guşələrində»... Eləcə də dağ, eləcə də dəniz.

Götedə təbiəti ilahiləşdirməyin yolu insandan keçmir. Əksinə, ola bilsin ki, insanın Haqqa gedən yolu dağ əzəmətindən, dəniz nəhayətsizliyindən keçir:

*Dənizlər çalxanır köpüklənərək,*
*Sular qayaları döyür şiddətlə,*
*Yer dövrə vurduqca göylə həmahəng,*
*Tufanlar köksündə coşur hiddətlə.*

Vaqif Bayatlının «Dənizin üstündə bir xəyal» şeirində qəlbin ənginlyi ilə assosiasiya dəniz obrazı ilə ifadə olunur:

*Bir ucsuz-bucaqsız dəniz də gələr*
*bir ucsuz-bucaqsız torpağı keçən kimi*
*keçər səndən.*

Dağa və dənizə antropomorf münasibət Məmməd İsmayıl poeziyası üçün də səciyyəvidir:

*Baxışları duman imiş,*
*Dağ başlarında.*
*Bir gələcək dəniz varmış*
*Göz yaşlarımda...*

Lakin hər şeyə başqa dəyər sistemindən, başqa bucaq altında da yanaşmaq olar. Şeirin hələ yazılmamış bəndlərindəki mənaları ancaq fəlsəfi vüsət ifadə edə bilər və bunu ancaq Şərq adamı başa düşə bilər. Bəli, Şərq poetik ənənələri kontekstində oxuduqda yuxarıdakı şeirlərin də yazılmamış misraları «damla elə dənizdir» və ya «bütün dəniz qəlb aləmində bir damladır» hikmətini ifadə edir. Və ancaq bu zaman həmin damla naminə belə böyük bir energetik potensialın səfərbər olunmasına haqq qazandırmaq mümkün olur.

Hamlet İsaxanlı da bu məlum hikməti şeirə gətirir:

*Damladadır mənalar -*
*Dənizin dadını bilmək istəsən,*
*Ondan bircə damla istə sən...*

Lakin məna müstəvisində damla ilə dəryanın eyniyyətindən çıxış edən Hamlet dənizin təkcə “dadına baxmaqla”, kəmiyyət fərqindən abstraksiya olunmaqla kifayətlənmir, ona birölçülü yox, çoxölçülü fəzada baxır, dərinlik və səth arasında, nəhayətsizliklə sahil arasında münasibətləri də qələmə alır. Dənizin hərəkət dinamikasını kənardan seyr etməklə kifayətlənməyərək, bu hərəkətin özəlliklərindən doğan hissləri dənizləri birgə yaşamağa səy göstərir:





*Dənizin içinə gərək girəsən,*
*Dənizin şahə qalxan dalğasını,*
*Atıb-tutan yorğasını*
*Minib doyunca sürəsən...*

Nağıllarda, dastanlarda vəsf olunan sirli-sehirli dəniz ayğırı reallıq müstəvisinə gəlir.

Dənizin ənginliyi, sanki ucsuz-bucaqsız və əbədi olması həmişə öz həyatının müvəqqəti olmasından əzab çəkən insanın əbədiyyət axtarışlarında ona yardımçı olur. İnsan onun vasitəsilə sanki sonsuzluğa qatılır.

Bəli, bir var bu böyük, nəhəng... (dağı, dənizi) uzaqdan seyr edəsən; bu seyrçi təfəkkür sentimentallıq, ən yaxşı halda isə fəlsəfi münasibət formalaşdırır.

Bir də var cismani həyatın bir parçası kimi bu sonsuzluğa dinamik formada, hərəkətdə qatılasan, onun hissəsinə çevriləsən...

Dənizi kənardan seyr etmək də gözəllikdir. Dənizin içərisinə girmək və dalğaların qoynunda olmaq, onun təsirini, qoxusunu, dadını duymaq, dalğalarla birlikdə qalxıb-enmək, onun yaşadıqlarını yaşamaq isə başqa bir gözəllikdir.

Dənizlə qaynayıb-qarışmaq, onun bir parçası olmaq, onun nəfəsini duymaq və onunla birlikdə nəfəs almaq.

Dənizləşmək!

Dənizdən də böyük olub onu ehtiva etmək, onu içinə almaq, içində əritmək!

Dənizi üzüb keçmək, o taya çatmaq istəyi bir cür duyğudur, dənizdə əriyib-itmək, onun damlası olmaq istəyi isə tamamilə başqa bir duyğudur.

Hansı isə şair həyatın bir anından, məqamından duyğulanır və sonra öz duyğuları ilə həyata qayıdıb onun bir parçasına çevrilmək yox, bu duyğulardan birinin qanadla-

rında həyatdan ayrılaraq daha da uzaqlara uçmaq yolunu tutur.

Hamlet İsaxanlı belə etmir. O bir alim olaraq təhlil yolunu seçir, seyrə dalmaqla kifayətlənmir, hər şeyi içəridən öyrənməyə çalışır və bu məqamda alimlikdən şairliyə yumşaq bir keçid baş verir. O içəridən görünüşün elmi təsvirini yox, bu görünüşün yaratdığı duyğu effektini qələmə alır.

Tədqiqatçı alim şairə, habelə filosofa nəzərən daha realistdir. Və realist, analitik təfəkkür həyatın anını, məqamını yaxalayanda poeziyanın yeni rakursları ortaya çıxır.

Elm adamının poeziyaya gəlişi şeirə praktik ruhla yanaşı, həm də bir "tədqiqatçılıq", dinamik reallıq duyğusu gətirir. Hamlet yazır:

*Dalğaların ağımtıl ləpəsini*
*Qucaqlayıb köksünə sıxasan,*
*İçinə çəkib səsini*
*Suların qoynunda axasan,*
*Sulara içindən baxasan..!?*

Duyğunun ucunu tutub uzaqlara getmək yox, onu elə həyatın özündə yaşamaq və məhz bu praktik yaşantının da poetik tərənnümünə nail olmaq! Hərəkət, dinamika, fəaliyyət, həyatın dibinə enmək, onu içindən duymaq və içəridən işıqlandırmaq! Həyatın dibindəki qaranlıqlara işıq salmaq cəhdləri! Cismani həyatı "fanidir" – deyə atmaq yox, nəfsdən azad olmağa çalışmaq yox, əksinə, nəfs dünyasının dərinliyində də bir işıq və gözəllik axtarmaq!

Şekspirdən Hamletə qədər kiçicik bir dəniz gəzintisi...

*"525-ci qəzet", 2 mart, 2010-cu il.*





# Rəsul Rza poeziyasına dair üç qeyd

*Elə bir zaman gəlmişdir ki, ağılla*
*«duymaq» cəhdləri ürəklə anlamaq*
*cəhdlərini üstələyir.*

Əbu Turxan

## Səməd Vurğun, Rəsul Rza və fəlsəfi poeziya

Sovet dövründə milli fəlsəfi fikrə təhlükə mənbəyi kimi baxan ideologiya Azərbaycan ədəbi fikrində o qədər dərin kök atmışdı ki, ayrı-ayrı hallarda şairlər mahiyyətləri, ümumiləri tərənnüm etmək «iddiasına» düşdükdə, ədəbi tənqid hətta onların şöhrətindən, nüfuzundan çəkinməyərək, kəskin mövqe tutmuş, onları «fəlsəfəçilikdə» günahlandırmışdır.

Lakin XX əsr Azərbaycan poeziyasında bu tabunu pozmaq meylləri də güclü olmuşdur. Səməd Vurğun da, Rəsul Rza da bütün «fəlsəfəçilik» ittihamlarına baxmayaraq, vaxtaşırı konkretlikdən ümumiyə, mahiyyətə doğru addımlar atmış və fəlsəfi poeziyanın gözəl nümunələrini yaratmışdırlar.

Düzdür, Səməd Vurğunda fəlsəfilik tamam başqa üslubda və istiqamətdə, Rəsul Rzada isə xeyli fərqli formada özünü göstərir. Lakin formalar fərqli olsa da, məğzi eynidir: poeziya fəlsəfi qata yüksəlir. Səməd Vurğun fəlsəfə mərtəbəsinə poetik vüsət qanadlarında qalxır. Rəsul Rza isə mahiyyət dünyasına təhlil və düşüncə qapısından keçir. Lakin heç biri bu mərtəbədə həmişəlik lövbər salmır və

yenidən hissi dünyanın konkret yaşantılarına qayıdaraq axıradək öz şair missiyalarını yerinə yetirirlər.

## Əmin ər-Reyhani, Rəsul Rza və rənglərin fəlsəfəsi

XIX əsrin axırları, XX əsrin əvvəllərində yazıb yaratmış görkəmli ərəb mühacir şairi Əmin ər-Reyhani "Bəsirət gözü" əsərində yazır: "Bir sanskrit aforizmində "Gözlərə görmə qabiliyyətini qəlb, qəlbə isə Şiva verir", – deyilir. Sufi Şivanı Allahla əvəz edərək bunu qəbul edir. Ona görə, rənglər gözlə necə görünürsə, qəlbdə də elə mövcuddur. Lakin dövrümüzün hansı elm və incəsənət xadimi bir rənglər nəzəriyyəsi inkişaf etdirib? Onlar yalnızca məsələnin maddi və fiziki tərəfini diqqətə alırlar. Onlar rəngləri ancaq gözlərlə görürlər".[1]

Əlamətdar haldır ki, qəlbdə yaranan, adi gözlə görünməyən rəng təəssüratları ilk dəfə məhz Azərbaycanda şeirləşdi. XX əsrin görkəmli şairlərindən olan Rəsul Rzanın sanki Əmin ər-Reyhaninin çağırışına cavab olaraq məşhur "Rənglər" silsiləsini yazması dünya ədəbi-bədii prosesinin bütövlüyünə dəlalət edir. Və Əmin ər-Reyhani də sanki artıq yazılmış olan bu şeirlər silsiləsinə münasibətini bildirir: "Şəxsən mən, mövzunun maddi tərəfini görməkdən çox, onun haqqındakı fikirləri eşitməyi üstün tuturam. Doğrudan da, sırf qəlb və zehinlə əlaqəli olan şeylər var."[2]

---

[1] *Rihani Ameen F.* The path of Vision, Platform İnternational, Washington, D.C., 2008, p. 12.

[2] Yenə orada.





## Rəsul Rza, Elçin və sözün yeni fazası

Bəli, Rəsul Rza yaradıcılığında fəlsəfilikdən söhbət düşən kimi rənglər silsiləsini yada salırlar. Bu barədə gedən böyük ədəbi-fəlsəfi mükalimələr hələ də zehinlərdən silinməmişdir. Amma tənqidin diqqətindən sanki yayınmış olan, rənglərin kölgəsində qalan daha rəngarəng fikirlər də vardır.

*Dünyanın söz ehtiyatı*
*nə azdır, nə az!*
*Elə şeylər var ki,*
*sözlə anlatmaq olmaz.*
*Gərək özün görəsən,*
*duyasan.*

*Fikrinə toplayıb*
*ürəyinin başına qoyasan*
*isinsin,*
*əl vuranda*
*köklənmiş sim kimi dinsin.*

Şeirin birinci hissəsində "duyğu sözdən daha zəngindir" həqiqəti ifadə olunur. Amma bu fikir ilk baxışda nə qədər "məsum" görünsə də, Azərbaycan poeziyasında sözün qüdrəti haqqında qərarlaşmış başqa bir həqiqətlə, yumşaq desək, uzlaşmır. Çünki ənənəvi poeziyada duyğu da, fikir də həmişə sözün kölgəsində qalmışdır. Əlbəttə, klassik poeziyada *söz* həm də *logos* mənasında işlədildiyindən elə bir ziddiyyət yoxdur. Lakin ədəbi tənqiddə *söz* sözünə diferensial yanaşılmamış, onun müxtəlif məna çalarları xüsusi vurğulanmamış, söz fikir və duyğudan fərqli müstəvidə, onların yalnız ifadəçisi kimi başa düşülmüşdür. Yəni klassikada sinkretik *söz (loqos)* anlayışı haqqında

yüksək pafosla deyilənlər adi danışıq dilindəki *sözə* şamil edilmiş, fikrin və duyğunun payı mənimsənilmişdir.

İkinci fikir bədii-poetik yaradıcılığın çox mühüm bir cəhətini əks etdirən fəlsəfi ideyanın bədii yolla ifadəsidir. Əslində, biz bu barədə yazmışıq. Təbii ki, şeirlə yox, fəlsəfi esse kimi. Mən fikri duyğuların sıxlaşıb formaya düşməsi kimi, bərkimiş, kristallaşmış, buzlaşmış hiss kimi izah etmişəm. Və əksinə, fikir buxarlananda yenidən seyrəlir, qəlibdən çıxır, duyğulaşır, azad nəfəs alır, bir düşüncə hadisəsindən bir könül hadisəsinə çevrilir. Amma biz bu esseni Rəsul Rzadan yarım əsr sonra yazmışıq, həm də bədii yaradıcılığın deyil, fəlsəfi-estetik araşdırılmaların nəticəsi olaraq. Və yalnız təsadüfən Elçin Əfəndiyevin «Seçilmiş əsərləri»nin 7-ci cildini vərəqləyərkən oxuduğum bu kiçik şeir parçasında mənim uzun-uzadı izah etməyə çalışdığım bir mətləbin obrazlı şəkildə qısa və yığcam deyilişinə rast gəldim.

Elçin bu şeir haqqında yazır: "Əsrlər keçir, insan təfəkkürü dünyanın elmi dərkində səsdən iti sürətlə inkişaf edir, məsafələr işıq illəri ilə ölçülür, nüvə protona və neytrona parçalanır və nə yaxşı ki, belə bir zamanda, elmi-texniki inqilab dövründə Azərbaycan poeziyası, Rəsul Rzanın bu şeirindəki kimi, sözlə – saysız-hesabsız sözlərlə ifadə olunmayanı belə duymaq və duydurmaq əzmindədir".[1] Paradoks da özünü elə bunda göstərir ki, "duydurmaq" üçün şairin yenə də sözdən başqa silahı yoxdur. Lakin bu söz daha o sözdən deyil. Bu söz artıq "ürəyin başında isinmiş", "köklənmiş" sözdür. Necə ki, nəyi isə nəyə isə hazırlamaq üçün, yetişdirmək üçün "islağa qoymaq", "duza qoymaq" lazım gəlir. Yəni söhbət hissin yetişməsindən, "*dəyməsindən*" və ancaq bundan sonra "*dərilməsindən*" gedir.

[1] *Elçin*. Xoşbəxt poeziya // Seçilmiş əsərləri 10 cilddə. Cild 7. Bakı, "Çinar-Çap", 2005, s. 258-259.





Bəli, bir tərəfdə ənənəvi sözün qüdrəti, o biri tərəfdə sözlə ifadə oluna bilməyən, sözün potensialından kənara çıxan, sözə sığmayan duyğuların mübhəmləri. Və bu mübhəmləri də işıqlandıra biləcək yeni ifadə vasitələri. Bu yeni – yenə də sözdür. Lakin sözün ənənəvi olmayan yeni imkanları üzə çıxır. Daha doğrusu, fikrin fərqli çalarları ifadə olunur. Şairin dediyi kimi, "duyğu fikrə toplanıb ürəyin başında isidilir" və ancaq bundan sonra söz üçün əlçatan olur. Burada istər-istəməz Əbu Turxanın hisslərin ağıl vasitəsilə modulyasiyasına dair təlimi yada düşür. Necə ki, səs dalğalarını uzaq məsafələrə daşıyan işıqdır, eləcə də "hiss uzaq məsafələrə fikrin qanadlarında ötürülür".

*"525-ci qəzet", 21 may 2010-cu il.*

# Cavid, Əziz Nesin və postmodernizm

Kim isə deyə bilər ki, Əziz Nesinin dövründə postmodernizm hələ yox idi. Beləleri tapılar, şübhəsiz. Amma postmodernizmin işıq gələn yerini Əziz Nesin onların özündən xeyli əvvəl görmüşdü. Onun belə bir hekayəsi var: Kimsə dəniz mənzərəli ev satdığını elan edir. Həvəslənib baxmağa gələnlər otaqları gəzir və səbirsizliklə soruşurlar ki, bəs o dəniz mənzərəsi hanı? Ev sahibi isə onlara ayaqlarının altına bir şey qoyub hamamın bacasından, daha doğrusu, Əziz Nesinin "termini" ilə desək, deşikdən baxmağı təklif edir. Bax, gördünüzmü, dəniz necə də aydın görünür? Mübahisə etməyə yer qalmırdı, çünki dəniz, doğrudan da, görünürdü. Amma hər halda müştəri deyir ki, belə mənzərə istəmir. O, rahatca kresloda oturub çay içə-içə, öz işini görə-görə həm də mənzərəyə baxmaq istəyirmiş.

Ev sahibi də dildən pərgar birisi imiş. Deyir ki, "könlü balıq istəyənin quyruğu suda gərəkmiş", "bir əldə iki qarpız tutmaq olmazmış" və nəhayət, mənzərənin aurasına qatılmaq üçün evin aurasından çıxmaq, onu tərk etmək lazım imiş...

Postmodernizmdə dünyaya məxsusi bir baxış var. Dünya doğrudan da bir qədər fərqli görünür. Yəni ənənədən, normativlərdən kənar. Bu deşikdən dəniz də olmasa,





Ernest Yunqerin təbirincə desək, ya ucsuz-bucaqsız bir səhra, ya da bakirə bir meşə görünməli idi. R.Leinq isə yazır: "...Şizofreniya adlandırdığımız hal işığın bizim qapalı qəlbimizin çatlarından, yarığından yol açıb keçməsi kimi bir şeydir." [1] Normal düşüncənin məhdud dünyasından çıxmaq üçün qaranlığa, sonsuz səhraya, yad bir aləmə düşməkdən qorxmamaq və bu qaranlıqda işıq gələn deşiyi tapmaq ümidi, əzmi və nəhayət, bəlkə də qəhrəmanlığı... Lakin bunun üçün öncə evin komfortundan imtina edib əcaib, anormal bir vəziyyətə düşmək və bu yeni fərqli dünyaya küncdəki bir deşikdən baxmaq lazım imiş. Çünki, hər iki dünyada eyni zamanda feyziyab olmaq mümkün deyilmiş.

Öncə dəliliyi boynuna almaq lazım imiş ki, bu da elə-belə asan məsələ deyil. Bu feyziyablıq, bu yenilik, orijinallıq nəyinsə bahasına başa gəlirmiş. Bu isə nə az, nə çox normal dünyadan imtina imiş. Əslində, əzm və qəhrəmanlıq da elə bunun üçündür. Çünki burada geriyə dönməyə təminat yoxdur. Bu qaranlığın labirintlərindən keçmək və yeni bir işıqlı sahəyə, yeni bir dünyaya qədəm qoymaq hamıya deyil, ancaq seçilmişlərə nəsib olur. Seçilmişlər isə işığı öncədən görüb onu özünə bir mayak, sənət ulduzu, yol göstəricisi edənlərdir. Kor-koranə özünü qaranlığa atanlar isə kor olaraq qalırlar. Cavidin "Şeyx Sənan"ında Şeyx Mərvan deyir:

*Həpsi boş bir xəyala aldanıyor,*
*Zülməti-küfrü nuri-həqq sanıyor!*

Əbülüla ona belə cavab verir:

---

[1] *Лэйнг Рональд.* Феноменология переживания. Райская птичка. Точка о важном. Львов. 2005, с. 89-100

*Bir həqiqətdir iştə, gözsüzlər,*
*Kor olur, nuri-həqqi görməzlər...*

Zülmətdə nur aramaq məsələsi Şərq poeziyasında çox müxtəlif formalarda tərənnüm olunmuşdur. Dantenin "İlahi komediya"sında da bu məsələyə tez-tez müraciət olunur. Lakin maarifçilik və rasionalizm dövründə bilik və biliksizlik, işıq və qaranlıq arasında kəskin sərhəd çəkilmişdi. XIX əsrdən başlayaraq Qərb insanı onun üçün ayrılmış işıqlı zolağı eninə-uzununa mənimsədikdən sonra ruhun yeni sərgüzəştləri üçün yeni meydan aramağa başladı. Qaranlığın o tayında yeni işıqlı zolaqlar tapmaq ümidi ilə özünü onun ənginliyinə atanlar da tapıldı...

Lakin bu proses iki səviyyədə və iki səciyyədə həyata keçməyə başladı. Fövqəlinsanların üzərinə götürdüyü bu fədakarlığı balaca adamlar da yamsılamağa, təqlid etməyə çalışdılar. Ürəyinin odu ucsuz-bucaqsız meşələri işıqlandırmaq üçün yetərli olan Dankolarla yanaşı, tez yanıb-sönən küləş tonqallarının işığında axtarışa çıxanlar da tapıldı. İşığı kənardan almağa möhtac olanlar üçün isə bu yol qorxuludur. Tiryək və şərab sayəsində uçmaq istəyənlər, hikkə və hirslə hərəkət edənlər uzağa uça bilməyib də yalnız özlərini bədbəxt edirlər.

"Bir əlində iki qarpız tutmaq" istəyənlər öz yeni dünyalarını qurmaq əvəzinə, nəyinsə köməyi ilə və qəti girdikləri o yeni dünyadan əllərinə nə keçsə götürüb yenə bu dünyaya qayıdır və buradakıları öz ərməğanları ilə feyziyab etməyə, təəccübləndirməyə, yaxud hətta cırnatmağa çalışırlar. Təəssüf ki, fərqli dünyanın dərinliklərinə baş vurmadan qayıdanlar ancaq sahildən çör-çöp və bir də, ən yaxşı halda uğuldayan balıqqulağı gətirirlər. Görünür, ədəbiyyat sahəsində mənimsənilməsi ən asan olan – "söyüş texnologiyalarıdır". Utancaqlıq kompleksindən xilas olmağın da ən asan yolu arı-namusu da ona bağlayıb, biryolluq bütün bağlardan xilas olmaqdır. (Budur, azadlığın bəsitləşdirilmiş və bayağılaşdırılmış düsturu). Və öz yeni dünyasında qərar tuta bilməyib və ya xəyal aləmində yaşamaqdan bezikib, normal dünyaya və əslində normalların dünyasına dönmək və buradakıları "maarifləndirməkdir". Halbuki, əsl postmodernist ədəbiyyat başqalarını deyil, özünü dəyişmək, öz dünyasında yaşamaq əzmindən, bu yeni fərqli dünyada qaranlıqlardan keçib alatorana, alatorandan da yeni işıqlı bir aləmə çatmaq, Çin qədimliyində gizli qalmış işıqlı sahələri kəşf etmək və bu aləmi öz əsərlərində canlandırıb bu dünyaya ərmağan etmək istəyindən doğulur. Təmənnasız ərməğan. Kim istəyər, sənin gətirdiyin balıqqulağını qulağına tutar, kim istəməz – tutmaz.

Postmodernistlərin qəhrəmanlığı normal dünyadan imtina yükünü, onun bütün mənəvi-psixoloji sarsıntılarını, ağırlığını öz üzərinə götürmək əzmindədir. Yox, siz əgər başqalarını da özünüzlə dartıb aparmaq istəyirsinizsə, bu normal dünyanın qanunlarına görə cinayət hesab olunur. Necə ki, tiryəkdən istifadə edənləri deyil, onu yayanları və təbliğ edənləri həbs edirlər.

Postmodernizmdə də bu iki fərqli səciyyə müşahidə olunur. Rasionalizmi bəyənməyən gərək ortaya ondan daha yüksək bir dəyər qoysun.

Burada altıncı duyğu və ya ağ işığı təşkil edən yeddi rəngdən fərqli nə isə səkkizinci bir rəng olmasa da, qaranlığın daha bir çalarını və bu çalarda dünyanın orijinal bir pozasını görmək mümkündür.

R.Leinq yazır: "...Divanəlik heç də həmişə dağıtmaq deyil, o həm də adlayıb keçməkdir"[1]. Amma adlayıb keçə

[1] *Лэйнг Рональд.* Феноменология переживания. Райская птичка. Точка о важном. Львов. 2005, с. 89-100

bilməyənlər bəzən dağıtmaq yolunu seçirlər. Daha doğrusu, onların başqa seçimi qalmır.

Bəli, dəli (şizofrenik) iki cür olur: 1) Öz aləmində olanlar, öz xəyal dünyasında yaşayanlar; 2) Bu dünyaya "burnunu soxan" və başqalarına ziyan vuranlar.

Bir sıra yeni postmodernistlər də özləri istədikləri kimi yazmaqla kifayətlənməyərək, ümumiyyətlə ədəbiyyatın missiyasını öz anladıqları səmtə yönləndirməyə çalışırlar ki, bu da "qoy özümə yer edim, gör sənə nə edirəm" məsəlini xatırladır.



# *Televiziya və mənəviyyat*

- **KİV-in mənəvi funksiyaları**
- **İki təəssürat**
- **"Ovqat" və ovqat**
- **"Zərif çərşənbə"də fəlsəfə notları**
- **Röya və gerçək**
- **TV-də stereotip və axtarışlar**

# KİV-in mənəvi funksiyaları

İnsanın fiziki sağlamlığı təbii mühitlə şərtləndiyi kimi, əxlaqi-mənəvi durum da cəmiyyətin ümumi mənəvi atmosferi, mədəni-mənəvi meyarlar sistemi ilə şərtlənir. İnsanın tərbiyəsi ilə məşğul olmaq, onu yaxşı yola dəvət etmək üçün əvvəlcə nəyin yaxşı, nəyin pis olduğunu bilmək lazımdır. Meyarların formalaşmasında isə bilavasitə tərbiyə ilə məşğul olan insanlarla yanaşı, bütövlükdə mədəni-mənəvi mühiti, ictimai dəyərlər sistemini formalaşdıran şəxslər və hadisələr də mühim rol oynayır.

Uşaq və ya böyük olmasından asılı olmayaraq, hamı yaşadığı sosial və mədəni-mənəvi mühitin təsirlərinə məruz qalır. İnsanın fərdi mənəvi varlığı ilə daxil olduğu mənəvi mühti arasında heç də həmişə adekvat münasibət olmur. İnsan öz mənəvi-estetik ehtiyaclarını həyatda ödəyə bilmədikdə, bu boşluğu heç olmazsa bədii ədəbiyyat və incəsənət hesabına doldurmağa çalışır. Məktəb yaşı keçdikdən sonra da, müəyyən sahədə öz biliklərini artırmaq üçün tədris kurslarına gedir, ikinci ixtisas alır, müntəzəm surətdə öz üzərində çalışmaqla bilik və bacarıqlarını artırır. Bütün bunları insan məqsədyönlü surətdə edir. Bu zaman o öz mənəvi-intellektual inkişafını yönəltməkdə sərbəstdir.

Lakin müəyyən bir ictimai mühitdə hamıya israrlı surətdə öz xidmətini təklif edən, aşkar və ya qeyri-aşkar





şəkildə insanın mənəvi durumuna, bədii-estetik və intellektual inkişafına təsir edən vasitələr də vardır. İnsan öz yaşadığı cəmiyyətdə baş verən hadisələr haqqında məlumatları yerli informasiya vasitələrindən alır. Müəyyən çeşidli informasiyalar gündəlik mətbu orqanlar, televiziya və radio vasitəsilə özü evə təşrif gətirir və insanın ətrafında ona seçim şansı verməyən lokal informasiya məkanı və virtual mədəni-mənəvi mühit yaranır.

Əlbəttə, şükürlər olsun ki, indiki şəraitdə qəzetlər də, televiziya və radio kanalları da kifayət qədər çoxdur. Hətta peyk antenası vasitəsilə xarici telekanalları da seyr etmək mümkündür. Lakin bu, ilk təəssüratdır. Texnikanın imkanları çox olsa da, insanın öz imkanları məhduddur. Birincisi, dil bariyeri vardır. İkincisi və ən başlıcası, xarici ölkələrdə baş verən hadisələr nə qədər rəngarəng olsa da, bizi ilk növbədə öz cəmiyyətimizdəki hadisələr maraqlandırır. Xarici musiqilər nə qədər xoş olsa da, bizim mənəvi ehtiyaclarımızı milli musiqi daha çox ödəyir və s. Əlbəttə, televiziya və internetin öhdəsinə qalsa, hamı kosmopolit olmalıdır. Lakin insan həqiqi səadəti ancaq milli-mənəvi dəyərlər zəminində tapa bilər. Ona görə də, milli mətbuatın və milli televiziya verilişlərinin yerini internetlə və ya peyk antenasının xidməti ilə doldurmaq mümkün deyil. Bir sözlə, biz öz kütləvi informasiya vasitələrimizin yaratdığı mühitlə qarşılıqlı əlaqədəyik. Uşaqların da, gənc nəslin də necə formalaşması xeyli dərəcədə bu mühitdən asılıdır. Lakin əgər milli televiziya məkanı yoxdursa, o da öz məzmununu ancaq xarici telekanalların təqlidi yolu ilə qurursa, konkret ictimai gerçəklikdən və gəncliyin real milli-mənəvi ehtiyaclarından çıxış etmirsə, onda televiziya tərbiyə vasitəsindən daha çox, antitərbiyə amili kimi çıxış edəcəkdir. Televiziya verilişlərinin məzmunu milli ideologiya süzgəcindən keçirilməzsə, biz bu güclü amilin ancaq

bazarın təsiri ilə yönəldilməsinə rəvac vermiş olarıq ki, bu da çox qorxuludur.

Təəssüf ki, zaman başqa zaman olsa da, pedaqoji elmlər hələ də ənənəvi problemlərdən və mövzulardan kənara çıxmır; hələ indiyədək məktəblə televiziya arasında heç bir planlı rabitə təşəbbüsü göstərilməmiş, bu məsələlər tədqiqat obyektinə çevrilməmiş, pedaqoji dərsliklərə də salınmamışdır. Halbuki, dövlət təhsil siyasəti hazırlayanlar və dövlətin KİV siyasətini formalaşdıranlar eyni ideoloji sistemdən çıxış edirlərsə, təhsil mühiti ilə telemühit arasında koordinasiya zəruri şərtdir.

Biz koordinasiyadan danışarkən məhz məktəblilər üçün verilişləri nəzərdə tutmuruq, buna nail olmaq ki, şagird-tələbə yalnız onlar üçün nəzərdə tutulan verilişlərə baxsın, – bu, mümkün deyil. Nəzərə alınmalıdır ki, uşaq da, gənc də, yaşlı nəsil də – hamı bütün verilişlərin potensial tamaşaçılarıdır. Cəmiyyətə təqdim olunan verilişlər cəmiyyətin bütün təbəqələri üçün ən azı ziyansız olmalıdır. Sivil ölkələrdə fərqli verilişlərə baxmaq istəyənlər kütləvi yayımdan yox, xüsusi ötürücülərdən, kabel xidmətindən istifadə edirlər. Yəqin bizdə də belə olmalıdır.

Televiziya verilişləri insanların psixikasına, mənəviyyatına həm də ona görə güclü təsir edə bilir ki, o, incəsənətin bütün formalarından və imkanlarından istifadə edir. Bu gün teatr və kino televiziya tərəfindən sıxışdırılır. Tamaşaçının musiqi seçimi də televiziyadan asılı vəziyyətə düşür. Əgər hansı konsertə getməyi, hansı tamaşaya və ya filmə baxmağı insan özü seçirdisə, televiziyada bu seçimi proqram hazırlayanlar edir. Ona görə də, onların üzərinə böyük mənəvi məsuliyyət düşür. Lakin televiziyada çalışan və proqramları müəyyən edən insanlar da ümumi ictimai rəydən, ədəbi tənqidin və sənətşünaslığın mövqeyin-





dən çıxış edirlər və ya daha doğrusu,– etməlidirlər.

Məktəb proqramına hansı əsərləri salmaq haqqında böyük müzakirələr gedir. Texniki təchizat yol verəndə, filmlər nümayiş etdirilir, müəllim ona izahat verir. Oxucu və ya tamaşaçı fikri istiqamətləndirilir, şagirdlər bu mövzularda inşa yazırlar və s. Lakin bəlkə də, məktəbdən daha böyük təsir gücünə malik olan televiziyanın böyük imkanlarından məqsədyönlü surətdə istifadə olunmur. Bu sahə nəinki pedaqoji prosesdən, hətta çox vaxt, ümumiyyətlə milli ideoloji kursdan kənarda qalır.

Təbii ki, mətbuat və televiziyanı pedaqoji fikrin təsiri altına salmaq asan iş deyil. Lakin heç olmazsa, gənclərin məktəbdən asılı olmayaraq aldıqları informasiya, baxdıqları filmlər və s. məktəbdə müzakirə oluna bilər və onların düzgün şərhi verilə bilər. Düzdür, bəzi fənlərin tədrisində mətbuatla əlaqəli iş aparılır. Xüsusən xarici dil dərslərində qəzet materiallarından istifadə olunur. Bəzən buna ancaq dil baxımından yanaşılır. Lakin hər hansı bir mövzu, problem gündəmə gəlirsə, müəllim, sadəcə tələffüz və ya tərcümə ilə kifayətlənməyərək, məzmuna da öz münasibətini bildirmək səviyyəsində olmalıdır. Yaxud müəllimlər televiziya verilişlərinin proqramlarını izləməli, məqsədli baxışlar təşkil edilməli və gənclərin daha çox tamaşa etdikləri verilişlərin müzakirəsi təşkil olunmalıdır. Belə müzakirələr televiziyanın özündə də təşkil oluna bilər.

Bir zamanlar «Retro» rubrikası altında klassik bədii filmlər nümayiş etdirilərkən kinoşünaslar ona geniş şərh verirdilər. Bu, müəllif ideyasının gənclərə daha yaxşı çatdırılması və filmin tərbiyəvi missiyasının aşkarlanması baxımından çox faydalı idi. Belə şərhlər olmadıqda, filmdə göstərilən həyat tərzinin təbliğ, yoxsa tənqid olunduğu tamaşaçılara bəzən çatmır. Nəticədə müəllifin guya kritik olan ideyası əslində təbliğat funksiyasını yerinə yetirmiş

olur.

Mətbuatın səviyyəsi də, problemləri də cəmiyyətin xarakteri ilə, ümumi inkişaf səviyyəsi ilə şərtlənir. İctimai-siyasi sarsıntılar, keçidlər, inqilablar dövründə cəmiyyət ahəngdar inkişaf yolundan çıxır, müxtəlif daxili tərəflər arasında tarazlıq pozulur. Bu və ya digər amilin həddindən artıq aktivləşməsi nəticəsində cəmiyyət öz daxili müvazinətini itirir, iqtisadi, sosial və mədəni-mənəvi disbalans yaranır. Cəmiyyətdə dəyişilmələr təkamül yolu ilə deyil, sıçrayışlar, çevrilişlər, inqilablar yolu ilə baş verdikdə insan ilə ictimai mühit arasında olduqca müxtəlif ziddiyyətlər ortaya çıxır.

Dövlət senzurası ləğv olunduqdan və nəzarət funksiyası mətbuatın öz daxili əqidə və mənəviyyat senzoruna həvalə edildikdən sonra mətbuat haqqında diskussiyalar, fikir mübadiləsi səngimək bilmir. Azad fikir və azad söz şəraitində mətbuatın qarşısında özünü dərk etmək vəzifəsi qoyulmuşdur. Lakin bu, heç də təkcə mətbuatın öz vəzifəsi olmayıb, bütün cəmiyyəti düşündürən aktual problemlərdən biridir. Mətbuat bazar iqtisadiyyatı şəraitində də öz başlıca misssiyasını unutmamalıdır. Peşəkar jurnalist mətbuata reketçiliklə, yaxud kimə isə yarınmaqla qazanc götürmək üçün yox, cəmiyyət, xalq, millət qarşısında öz peşə borcunu yerinə yetirmək, ictimai rəyin reallığa adekvat surətdə formalaşmasına nail olmaqdır. İctimai şüurun düzgün yönəldilməsi, hadisələrə ədalətli qiymət verilməsi üçün əvvəlcə jurnalistin özündən obyektiv məntiqi təhlil qabiliyyəti və ədalət hissi tələb olunur.

Lakin bəzən "söz azadlığı" şüarının parıltısı fonunda meyarlar itir. Sözün daşıdığı həqiqət yükü, məsuliyyət arxa plana keçir və söz özü gerçəklikdən ayrılmış dəyərə çevrilir. Məsuliyyət itdikdə, meyar unudulduqda söz meydanına girmək asan olur. Sözə haqlı da, haqsız da eyni imkanla malik olur. Haqq sözü ilə nahaq sözün ictimai rəyi formalaşdırmaq sahəsində bərabər imkanları yaranır. Düzgün seçim etmək məsuliyyəti yenə də oxucunun üzərinə düşür. Və burada ənənəvi paradoksallıq yenə də özünü göstərir. Bir tərəfdən, ictimai şüurun real səviyyəsi və cəmiyyətin mövcud mənəvi durumu mətbuat üçün meyar olur. Digər tərəfdən, bu mətbuatın üzərinə ictimai şüuru inkişaf etdirmək vəzifəsi düşür. Bunun üçün isə, ya jurnalistin mənəvi səviyyəsi cəmiyyətin orta mənəviyyat göstəricisindən heç olmazsa bir az yüksək olmalıdır, ya da o bü yüksəlişə cəmiyyətin elitasının mövqeyini kütlələrə çatdırmaqla nail olmalıdır.

Nəyə görə "inqilabi cəmiyyət" həmişə söz azadlığını ön plana çəkir? Çünki inqilab kütlələrə arxalanır. Kütləni isə işə cəlb etmək çətin, sözlə ram etmək asandır. İqtisadi islahatları dəstəkləyənlər və ona qoşulanlar azdır, keçid dövrünün keşməkeşlərindən işlə, əməli fəaliyyətlə, yaradıcı, qurucu əməklə keçənlər, ilk dəfə cığır açmağa cürət edənlər azdır, lakin müşahidəçi və tənqidçi mövqeyində duran, ancaq öz ürəyindən keçənləri eşitmək istəyənlər, işə deyil, sözə Qoşulanlar isə çoxdur.

Demokratiya da çoxluğun mövqeyinə əsaslanır. Ona görə də, demokratik cəmiyyət quruculuğunda söz azadlığı, kütləvi informasiya vasitələri, mətbuat öncül rol oynayır. Sosial təkamül tələb edən demokratik cəmiyyət də çoxluğun mövqeyinə, kütləviliyə, azad fikrə və söz azadlığına istinad edir.

Lakin bu çoxluq o çoxluqdan deyil. Bu söz o sözdən, bu azadlıq da o azadlıqdan deyil!

Birinci azadlıq – kütlə psixologiyasına arxalanan, kütlənin səviyyəsinə enən, fikirdən deyil, istəkdən, nəfsdən, emosiyadan, ehtirasdan çıxış edən söz azadlığıdır.

Burada hikmətlə cilovlanmamış hiss hələ çox güclüdür. Qırmaq, dağıtmaq ehtirası hələ çox qəlbidir. Burada söz fikirdən əsasdır; hələ gözlər açılmamış sözlər öz işini görür.

İkinci azadlıq – sosial gerçəkliyin elmi təhlilindən doğan yeni, azad, həqiqi fikrin, fikir azadlığının ifadəsi olan söz azadlığıdır. Burada söz fikirdən sonra gəlir, ona görə də, bu azadlıq düşünmədən danışan çoxluğun yox, düşünən azlığın payına düşməlidir. Lakin belə söz çoxluğa çətin yiyələnə bilər. Buna nail olmaq üçün əvvəlcə çoxluğun düşüncə səviyyəsi yüksəldilməli, siyasi şüur mədəniyyəti formalaşmalıdır.

Söz azadlığı ideyası təhrif edildikdə və mütləqləşdirildikdə mətbuatı idarə edən ancaq bazar prinsipləri olur. Qəzeti maliyyələşdirmək və hətta ondan mənfəət götürmək üçün sensasiyalı məqalələr dalınca qaçmaq, yalana, şantaja, təhqirə, ədəbsizliyə, pornoqrafik lövhələrə səxavətlə yer vermək və bununla da qəzetin satılmasına nail olmaq, əlbəttə, ilk baxışda rahat yolla qazanc götürməyin bir üsulu sayıla bilər. Lakin bu, ancaq ilk baxışda belədir. Əslində burada sərf olunan kapital mənəvi kapitaldır. Qazanc götürmək üçün qoyulan investisiya, "maya" da, əslində milli-mənəvi dəyərlərimiz, əxlaqi sərvətimizdir. Öz "ideyalarını" çap etmək naminə, qəzetini maliyyə böhranından xilas etmək naminə, bir sərsəm özünütəsdiq ehtirası naminə (biz hələ demirik ki, kiminsə siyasi ambisiyaları naminə) xalqın əsrlərdən bəri qoruyub saxladığı əxlaqi məziyyətləri səxavətlə bada verənlər bazar iqtisadiyyatının burulğanından çıxmaq üçün əslində "bazar mətbuatı" yaratdıqlarını, görəsən, dərk edirlərmi?

Bəli, nəyi isə qurban vermədən, nə isə satmadan nə isə qazanmaq mümkün deyil. Asan yolla nailiyyət qazanmaq istəyənlər öz iş qüvvəsini, gecəli-gündüzlü zəhmətini





yox, bəlkə özləri də bilmədən milli mənafeləri satırlar.

Əsl mətbuat bazar iqtisadiyyatının bütün təbəddülatlarından alnı açıq çıxmalıdır. Əlbəttə, fikrə, elmi təhlilə əsaslanan, şayiələrə uymayan, faktların dəqiqləşdirilməsini üstün tutan məqalələrin yazılması çətindir. Buna çox vaxt tələb olunur. Bu tələblərə əməl etdikdə hər gün üçün nömrə hazırlamaq çətin olur, əlavə xərclər gedir və s. Lakin nə etməli? Əhalinin şüurlu təbəqəsinə ünvanlanan, insanların təfəkkür mədəniyyətini inkişaf etdirən, həqiqətən millətin tərəqqisinə xidmət edən qəzet, jurnal buraxmaq çətindir. Çox çətindir. Lakin başqa yol yoxdur. İtirilən, sərf olunan milli mənafe və dəyərlər yox, şəxsi zəhmət, ilkin intellektual potensial olmalıdır.

Mətbuat əslində kimlərinsə mənafeyinə yox, milli mənafeyə xidmət etməlidir. Lakin qəzetlərdə konkret jurnalistlər çalışır və onların hər birinin öz üslubu, öz təfəkkür səviyyəsi vardır. Ona görə də, bütövlükdə qəzetin bu və ya digər cəbhəyə aid edilməsi çox vaxt şərti xarakter daşıyır. O qəzetlər ki, ancaq ştatlı jurnalistlərin cari vəzifə borcunu yerinə yetirməsi hesabına çıxır, onlar sağlam rəqabətə tab gətirməyərək, yuxarıda təhlil etdiyimiz ucuz vasitələrə əl atmağa məcburdurlar. O qəzetlərdə ki, jurnalistlər öz şəxsi fikirlərindən çox, ictimai rəyi, xalq adından danışmağa mənəvi haqqı olan elm və mədəniyyət xadimlərinin mövqeyini əks etdirirlər, onlar həm mətbuatın meyarlarına sadiq qalır, həm də rəqabətdən üzüağ çıxmağa şans qazanırlar.

İctimai rəy güclü silahdır. Lakin hər şey idarəetmə pultunun kimin əlində olmasından asılıdır. Məqsəd aydınlığı olmayanda, xaos şəraitində qəzetlər bəzən kimə və nəyə xidmət etdiyini özləri də bilmir.

Qələmin ən mühüm təsir imkanlarından biri kütləvi informasiya vasitələri ilə ictimai şüura təsirdir ki, bu da

beynəlxalq miqyasda siyasi və mədəni-mənəvi hegemonluq üçün şərait yaradır. İstər beynəlxalq informasiya sistemi, istərsə də ölkədaxili kütləvi informasiya vasitələri, mətbuat şüurlara təsir edərək ictimai rəy yaratmaq baxımından məqsədyönlü surətdə idarə oluna bilər. Ona görə də, bu vasitələrin hansı səmtə yönəldilməsindən, onların kimə, nəyə, hansı ideologiyaya xidmət etməsindən çox şey asılıdır.

Yenicə müstəqillik əldə etmiş, "demokratiya"nın meyvələrini hələ təzə-təzə dadan, fikir müxtəlifliyi imkanından, söz azadlığından feyziyab olan, eyforiyaya düşən və hələ özünü ələ almaq imkanı tapmayan milli mətbuatla artıq qərarlaşmış strateji yönümü olan, məqsədyönlü surətdə idarə olunan mətbuat arasında böyük fərq vardır.

Hər kəs necə istəyir, elə də yazırsa, bu, fərdi azadlıq nümunəsidir və milli azadlığa xidmət etməyə də bilər. Fərdi azadlıqların arxasında statistik determinizm durur və onun istiqamətini hansı isə ideologiyaya uyğunlaşdırmaq çox böyük məharət tələb edir. Lakin kabinetdə oturub göydə raketləri idarə edənlər, görünür, bu məharətdən də məhrum deyillər.

Dünyada gedən bütün bu prosesləri dərk etmək və qələmin törətdiyi "mədəni" cinayətlərin qarşısını almaq üçün milli mətbuat bütün qüvvələrini səfərbər edərək milli maraqları təmsil etmək və müdafiə etmək mövqeyində dayanmalıdır. Mətbuat digər funksiyalarla yanaşı, gənc nəslin tərbiyəsi işində də məsuliyyət daşıdığını unutmamalıdır.

Bizcə, bütün dövrlərdə və bütün ölkələrdə mətbuatın informasiya verməkdən başqa, bir böyük vəzifəsi də olmalıdır. Bu vəzifə maarifçilikdən, milli mənəviyyatın təbliğindən ibarətdir. İndi uşaqlar üçün buraxılan tək-tük qəzet





və jurnal («Tumurcuq», «Elli» və s.) istisna olmaqla tərbiyə işinə xidmət edən mətbuat orqanları çox azdır. «Ədəbiyyat və incəsənət», «Elm», «Azərbaycan müəllimi» kimi təyinatına görə maarifçiliyə və bədii-estetik tərbiyə işinə xidmət etməli olan qəzetlər isə həftədə bir dəfə çıxır və görünür maliyyə çətinliyənə görə öz işlərini daha operativ qurmaq imkanlarından məhrumdurlar. Eləcə də, ədəbi-bədii və elmi-kütləvi jurnallar. Bizcə, elmi-kütləvi nəşrlərin azlığı Azərbaycan maarifçiliyinin real vəziyyətindən xəbər verir. Təəssüf ki, televiziya proqramlarında da ən az yer ayrılan və ən keyfiyyətsiz hazırlanan məhz maarifçilik yönlü verilişlərdir. Bu boşluğu ancaq bəzi özəl televiziya kanallarının tərcümə edib göstərdiyi elmi-kütləvi televiziya filmləri doldurur. Bitki və heyvanat aləmi, xarici ölkələrin təbiəti və həyat tərzi ilə bağlı filmlər təkcə informasiya baxımından deyil, həm də mənəvi-estetik tərbiyə baxımından çox əhəmiyyətlidir.

***

Hər bir şəxs ictimai həyatın yalnız müəyyən bir sahəsində bilavasitə iştirakçıdır. Yerdə qalan dünya isə onu təşkil edən maddi və mənəvi hadisələrin bütün zənginliyi ilə kitablar vasitəsilə, qismən teatr və kinonun köməyi ilə, daha çox dərəcədə isə televiziya pəncərəsindən süzülərək insan mənəviyyatına daxil olur. Deməli, insanın dünyanı necə dərk etməsi və dünyada necə mövqe tutması xeyli miqdarda bu pəncərənin şəffaflıq dərəcəsindən və onun hansı bucaq altında durmasından asılıdır.

İnsan televiziya vasitəsi ilə gündəlik qayğılardan, peşə fəaliyyətinin yeknəsəqliyindən, böyük insan qəlbinin sığmadığı mikromühitin məhdudluğundan kənara çıxaraq beynəlxalq hadisələrlə, qlobal problemlərlə, müxtəlif xalqların, millətlərin, ölkələrin maddi istehsal fəaliyyəti, mədə-

ni həyatı, ədəbiyyatı, musiqisi ilə tanış olur. Bu baxımdan, insanın mənəvi-estetik inkişafı televiziyanın dünya mədəniyyətini necə təqdim etməsindən çox asılıdır. Mavi ekran insanın formalaşmasında sosial gerçəklikdən və təhsildən sonra üçüncü ən mühüm vasitədir. Ona görə də, televiziyanın öz işini müasir tələblər səviyyəsində qurmasına xüsusi diqqət yetirilməlidir.

Televiziya malik olduğu ən böyük auditoriyada tərbiyəçi qismində də çıxış edə bilər, tərbiyəni pozan amil kimi də. Bu olduqca böyük bir fürsətdir. Ona görə də, telekanallar daha düzgün yol seçmək üçün müvafiq axtarışlar aparır. Lakin bu axtarışları, yenilikləri qeyd-şərtsiz uğur hesab etmək doğru olmaz. Elmi təhlilə etinasızlıq göstərib sınaq-səhv metodunun rəhbər tutulması dövrün tələbi ilə, milli-mənəvi özünüdərk cəhdləri ilə bir araya sığmır.

Çox vaxt məhdud əhatəli, konkret bir məsələ ətrafında mahiyyətə varmadan, təsvirçilik mövqeyindən o qədər uzun-uzadı söhbət gedir ki, tamaşaçı yorulur və müsiqi nömrəsinə, əyləncəyə ehtiyac yaranır. Sosial, iqtisadi, mənəvi problemlər o qədər çoxcəhətli və rəngarəngdir ki, xüsusən indiki dövrdə bu problemlər hamını o dərəcədə narahat edir və maraqlandırır ki, zövq və idrakla hazırlanmış verilişdə müsiqi fasilələrinə ehtiyac olmaya da bilər. Bizcə, əyləndirmək vərdişindən düşündürmək vərdişinə, fəal həyata sövq etmək vərdişinə keçilməsi vaxtı artıq çoxdan çatmışdır.

Kim belə hesab edirsə ki, eyni bir veriliş hamını cəlb etməlidir, bütün tamaşaçıların zövqünə uyğun gəlməlidir, – səhv edir. Adamların ümumi mədəni səviyyələri də, dərketmə qabiliyyətləri də, hadisələri qiymətləndirmək bacarıqları da, ixtisasları da, zövqləri də müxtəlifdir. Televiziya proqramı elə qurulmalıdır ki, konsertə baxmaq istəyən konsertə, komediyaya baxmaq istəyən komediyaya, faciəyə baxmaq istəyən faciəyə baxa bilsin. Kim istəsə həyatımızın sosial, iqtisadi və mənəvi problemlərinin elmi-fəlsəfi şərhi ilə, kim istəsə publisistik və ya bədii şərhi ilə tanış ola bilsin. Yoxsa bütün verilişlər, çoxluq təşkil etdiklərinə görə, ancaq əyləncə sevən tamaşaçıların zövqünə uyğunlaşdırılsa, başqalarının da zövqü tədricən korlanmazmı?





Televiziya işçiləri yəqin buna "istinad edirlər" ki, yumoristik novellalara, dedi-qodu tipli verilişlərə, son vaxtlar yaranmış bu tipli bayağı televiziya filmlərinə geniş yer verilməsini məhz tamaşaçılar özləri xahiş edir. Lakin, əvvəla, bu arzuların nə dərəcədə dərk edilmiş olması şübhəlidir; çünki belə verilişlər ideyasız adamlara daha çox xoş gələ bilər. İkincisi, arzuların özünün də istiqamətləndiricisi lazımdır və bu iş ideologiya zəminində olmalıdır. Əgər televiziya verilişləri düzgün ideoloji istiqamətdə hazırlansa arzular da tədricən həmin istiqamətdə tərbiyə olunacaqdır.

Dediklərimizdən belə çıxmamalıdır ki, biz mənəvi tərbiyə işində, milli əxlaqın antipodlarına qarşı kütləvi mübarizə işində incəsənətin, televiziyanın böyük imkanlarından istifadə edilməsinin əleyhinəyik. Əksinə, bu olduqca vacibdir. Lakin bu, eybəcərliyi təsvir etmək yolu ilə deyil, gözəlliyi tərənnüm etmək yolu ilə mümkündür.

Bizim cəmiyyətdə neqativ ünsürlər satira və yumorlarla deyil, yalnız kəskin dramatik səhnələrdə, güclü, müsbət obrazlarla müqayisədə və onlara qarşı mübarizə şəraitində ifşa oluna bilər və yalnız bu zaman ədalətin qələbəsi zərurəti incəsənətdə təsdiq oluna bilər. Əgər indi ictimai həyatın aktual problemlərinə həsr olunmuş ciddi sənət əsərləri hansı isə səbəbdən yaranmırsa, heç olmazsa əvvəllər yazılmış, amma aktuallığını indi də saxlayan əsərlərə

müraciət etmək olar.

Televiziya verilişlərində, kəskin dramatizmi ilə fərqlənən bədii əsərlər (belə əsərlər müasir ədəbiyyatda çox az olduğundan milli və xarici klassik irsə müraciət etmək olar) göstərsələr, tamaşaçılar səhər də, axşam da bəsit, gülünc "obrazlar" əvəzinə böyük xarakterli, möhkəm əqidəli, incə ruhlu adamlarla rastlaşsalar, bu, onlarda ali hisslər, nəcib duyğular, hər cür mənfi hallara qarşı mübarizə əzmi aşılayacaqdır. Televiziya bu məqsədlə dünya klassiklərinin əsərlərinə, xüsusi mənəvi təsir gücünə malik olan milli adət və ənənələrimizin təbliğinə müraciət edə bilər.

Milli klassik musiqinin, saz sənəti və muğamatın yüngül musiqi tərəfindən sıxışdırılmasında, xarici təsirlərin artmasında televiziya verilişlərinin mənfi rolu çox böyükdür. Heç bir biznes marağı buna haqq qazandıra bilməz. Gənc nəslin milli mədəniyyət zəminində tərbiyəsi hər şeydən önəmlidir. Bu baxımdan ictimai televiziyanın tezliklə işə düşməsinə böyük ehtiyac vardır.

Hal-hazırda ictimai həyatımızda baş verən demokratik dəyişikliklər, aşkarlıq şəraitinin meydan açdığı cəsarətli ideeyalar, əvvəllər toxunulmaz sayılan sahələrin təhlil obyektinə çevrilməsi mübahisə formasına, canlı diskussiyaya, fikir plüralizminə gətirib çıxarır və ya çıxarmalıdır. Bunsuz televiziya dinamik, ziddiyyətli, sürətlə dəyişən zəmanəmizin nəbzini tuta bilməz.

"Yekdillik" ənənəsi hələ o dərəcədə güclüdür ki, fikir plüralizminə asanlıqla uyğunlaşa bilmirik. Lakin bu, müvəqqəti çətinlikdir. Dərin kök atmış stereotiplərdən yaxa qurtarmaq, fikrin qaysaqlanmış səthini keçərək alt qatlara nüfuz etmək vaxtı artıq çatmışdır və bu istiqamətdə televiziya daha inamlı addımlar atmalıdır. Həm də nümunə üçün uzağa getmək lazım deyil. AzTV ilə yanaşı, özünü





maliyyələşdirmək məcburiyyətində olan özəl televiziya kanalları da, yeri gəldikdə, biznes maraqlarından yüksək qalxaraq düşündürən və tərbiyəvi yönlü verilişlər hazırlayırlar. Lakin bunlar hələ azdır. Hələ ki, televiziyanın tərbiyəyə vurduğu ziyan xeyri üstələyir.

Son illərdə Azərbaycanın efir məkanında baş verən ən mühüm dəyişiklik fərqli sosial stasusa malik olan yeni bir kanalın – İctimai televiziya və radionun işə düşməsidir. Bu kanal bir sıra pessimist proqnozlara baxmayaraq məhz bir öz missiyasına uyğun şəkildə fəaliyyətə başlamaqla televiziyanın mənəvi və intellektual həyatda nə kimi bir müsbət rol oynaya biləcəyini əyani şəkildə sübut etdi və digər kanallar üçün də bir növ nümunə oldu. İctimai televiziya məhz maarrifçilik funksiyasını, yüksək mənəvi-estetik meyarları önə çəkməklə Azərbaycan efir məkanında olan boşluğun doldurulmasına və ölkəmizdə gedən yeniləşmə proseslərində tarazlığın əldə olunmasına rəvac verdi.

Aşkarlıq və demokratikləşdirmə şəraitində diqqət mərkəzində olan məsələlərdən biri də subyektiv səbəblər üzündən tarixin saxtalaşdırılması meyllərini aradan qaldırmaq, tarixə həqiqi elmi münasibəti bərpa etməkdən ibarətdir. Tarixlə tərbiyə işinə geniş meydan açıldığı bir şəraitdə televiziya da bu istiqamətdə öz işini yenidən qurmağa çalışır. Milli mədəniyyətimizin inkişafında böyük xidmətləri olmuş, lakin proletkultçuluğun təsiri ilə, habelə sinfiliyin mütləqləşdirilməsi və ümumbəşəriliyin heçə endirilməsini normaya çevirən düşüncə tərzinin hökmü ilə yaddaşımızdan "silinmiş" şəxsiyyətlərin və hadisələrin yaddaşımızda bərpa olunması işində televiziya böyük xidmət göstərə bilər.

Televiziyanın əsas funksiyasının biri də maarifçilikdir. Tamaşaçıları elmi nailiyyətər haqqında məlumat yox,

bu nailiyyətlərin koqnitiv məzmunu yox, onların insan mənəviyyatı ilə, ictimai həyatla, qlobal problemlər və gündəlik qayğılarla əlaqəsi maraqlandırır. Belə problemlər respublikamızda çoxdur. Onların üzə çıxarılmasında və cəmiyyətin mühakiməsinə veriməsində mətbuatın, radio və televiziyanın üzərinə böyük məsuliyyət düşür.

Müasir həyatda elmlə bağlılıq getdikcə artdığı halda, respublikamızın mətbuatında və televiziyada (biz radionun bir sıra müsbət ənənələrini nəzərə alaraq onu bu sırada saymırıq) elmi-fəlsəfi səpkili söhbətlərə getdikcə daha az yer verilir. Televiziya şeirlə, ədəbiyyatla, sənət adamları ilə hərtərəfli əməkdaşlıq etdiyi halda, elmlə, ciddi sosial tədqiqatla, alimlərlə, filosoflarla əlaqə getdikcə zəifləyir. Halbuki gənclərimizin məhz intellektual inkişaf səviyyəsi narahatlıq doğurur və ölkəmizdə elmi-kütləvi proqramların yayımlanmasına daha böyük ehtiyac vardır. Nəşriyyatların özəlləşdiyi bir şəraitdə az tirajlı ədəbiyyat sayılan elmi və elmi-kütləvi kitabların ümumiyyətlə çap olunmaması təhlükəsi yaranır. Bizcə, belə məsul bir vaxtda bütün kütləvi informasiya vasitələri, o cümlədən də televiziya, mədəniyyətimizin aqibətini düşünərək uzaqgörənlik göstərməli, elmi-fəlsəfi fikrin və bu sahədə yazılan uğurlu kitabların təbliği mövqeyindən çıxış etməlidir. Kənardan baxan bizim televiziya proqramının çeşidindən və məzmunundan çıxış edərək ölkəmizin mədəni həyatı haqqında fikir yürütmək istəsə, yəqin onu tək qanadla uçmaq iddiasında olan quşa bənzədərdi. Zamanın tələbi ilə bir araya sığmayan belə vəziyyət – mədəni həyatımızdakı disproporsiyanın, adamların düşüncə tərzinə hopmaqda olan elmi-fəlsəfi fikrə həqarətli münasibətin nəticəsidir. Həm də bu münasibəti göstərişlə, qərarla dəyişmək mümkün deyil. Vəziyyəti mürəkkəbləşdirən onun obyektiv əsasa malik olmasıdır. Uzun illər ərzində elmi həqiqətləri saxta şüarlarla əvəz etmək məharətinə görə irəli çəkilən və layiq olmadıqları halda “filosof” adını, “alim” adını daşıyan adamlar bu adları nüfuzdan salmışlardır. Lakin yaranmış vəziyyəti düzəltmək əvəzinə, inkarçılıq mövqeyi tutmaq, nihilizmə uymaq nə dərəcədə düzgündür? Subyektivizmlə, saxta “elmlə” yanaşı, həqiqi elmdən və alimlərdən də imtina edilməsinə yol vermək olarmı?





Elmi-fəlsəfi fikrə qarşı belə birtərəfli münasibəti dəyişdirmək vaxtı, bizcə, artıq çatmışdır. Bu gün respublikamızda ideoloji yenidənqurmanın taleyi sağlam fikirli cəmiyyətşünas alimlərimizin nə dərəcədə üzə çıxarılmasından və kütləvi informasiya vasitələrinin onlara nə dərəcədə qapı açmasından çox asılıdır. Lakin hələ də bu sahədə ciddi tərpəniş hiss olunmur.

Belə bir faktı nə ilə izah etmək olar ki, televizaya verilişlərinin əksəriyyətində nəinki aparıcılar, hətta dəvət olunan qonaqlar, “mütəxəssislər” bir qayda olaraq ya siyasətçilər, ya da sənət adamları və şoumenlər, ən yaxşı halda ədəbiyyatçılardır. Musiqinin, poeziyanın, ədəbiyyatın təbliği yaxşı haldır. Lakin bu məqsədə xidmət edən xüsusi verilişlər var. Söhbət ictimai həyatın olduqca kəskin, mürəkkəb problemlərinin təhlilindən gedəndə jurnalist və şair mövqeyi ilə yanaşı, alim və filosof mövqeyinin də dinlənməsi çox vacibdir. Yalnız ədəbiyyat və təsvirçi publisistika prizmasından baxdıqda ictimai həyatda yaranmış mürəkkəb sosial və mənəvi şəraitin tam mənzərəsini, daxili tərəflərini, köklərini görmək mümkün deyil. Ciddi elmi-nəzəri əsasa istinad etməyən quruculuq işi uğurla nəticələnə bilməz.

Televiziyanın mühüm vəzifələrindən biri, bir tərəfdən, ictimai həyatın mənəvi və nəzəri əsaslarını təbliğ etmək, digər tərəfdən də, konkret problemləri məhz həmin

nəzəri əsaslar mövqeyindən izah etməkdir. Bu məqsədlə tez-tez nəzəri söhbətlərə, mütəxəssislərlə fikir mübadiləsinə geniş yer verən xarici televiziya kanallarından nümunə götürmək məqsədəuyğun olardı.

Elmə, alimlərə etinasızlığı xüsusi qeyd etməkdə məqsədimiz heç də sənət adamlarının, yazıçıların intellektual imkanlarını şübhə altına almaqdan ibarət deyil. Əksinə, son vaxtlarda ədəbiyyatımızda publisistikaya ciddi meyl duyulmaqdadır ki, bu da yazıçı-vətəndaş mövqeyinin bədii ədəbiyyat çərçivəsindən kənara çıxdığını və hadisələrə daha operativ reaksiyaya ehtiyac yarandığını göstərir.

Lakin əsas məqsəd faktlar, hadisələr arxasındakı mahiyyətləri, daha dərin səbəbləri aşkara çıxarmaqdan ibarət olmalıdır. Hadisələrin emosional şərhi tərbiyəvi baxımdan faydalı olsa da, problemin həlli yolunu göstərmir. Məsələn, gənclərin kəndi tərk etməsi probleminə baxaq. Burada kökdən, torpaqdan, ata-baba yurdundan danışmaq, vətəndaşlıq hissini yada salmaq azdır. Nəzərə alınmalıdır ki, şəhərə axın mənəvi-estetik problem olmaqdan daha çox, sosial-iqtisadi və sosial-mənəvi problemdir. Ona görə də, vəziyyətə yalnız mənəvi meyardan çıxış edərək qiymət vermək kifayət deyil. Hadisənin əsil kökü araşdırıldıqda onun daha böyük problemlərlə bağlı olduğu üzə çıxır. Kənddən şəhərə axının qarşısını almaq üçün ata yurduna məhəbbət bir yana dursun, kəndin mədəni inkişaf səviyyəsini formal göstəricilər baxımından yüksəltmək də hələ azdır; bunun üçün, ilk növbədə, səmərəli təsərrüfat sistemi, mədəni-mənəvi iqlim yaradılması lazımdır. Kənd rayonlarında amiranə-rəhbərlik metodunun təmərküzləşməsi şəhərə nisbətən bəzən daha güclü olduğundan insana münasibət sahəsində daha dözülməz vəziyyət yaranır ki, bu vəziyyəti dəyişmədən, adamları kəndə səsləməyin faydası





yoxdur. Televiziya da bu tipli problemləri işıqlandırarkən həyəcan təbili çalmaqla yanaşı, müvafiq təhlili aparlıması üçün təşəbbüs göstərməlidir. Bu, tamaçılarda emossional reaksiya yaratmaqla kifayətlənməyərək analitik təfəkkürün inkişafı üçün də yardım ola bilər.

Televiziya işçiləri yəqin buna "istinad edirlər" ki, yumoristik novellalara geniş yer verilməsini məhz zəhmətkeşlər özləri xahiş edir. Lakin, əvvəla, xahiş edənlərin nə dərəcədə zəhmətkeş olmaları şübhəlidir; çünki yuxarıda əsaslandırdığımız kimi, belə verilişlər ideyasız adamlara daha çox xoş gələ bilər. İkincisi, arzuların özünün də istiqamətləndiricisi məhz idealogiya olmalıdır. Əgər televiziya verilişləri düzgün ideoloji istiqamətdə aparsa, arzular da tədricən həmin istiqamətdə tərbiyə olunacaqdır.

Dediklərimizdən belə çıxmamalıdır ki, biz mənəvi tərbiyə işində, milli əxlaqın antipodlarına qarşı kütləvi mübarizə işində incəsənətin, televiziyanın böyük imkanlarından istifadə edilməsinin əleyhinəyik. Əksinə, bu, olduqca vacibdir. Lakin bu, heç əd eybəcərliyi təsvir etmək yolu ilə deyil, gözəlliyi tərənnüm etmək yolu ilə mümkündür.

Bizim cəmiyyətdə antipodlar satira və yumorlarla deyil, yalnız kəskin dramatik səhnələrdə, güclü, müsbət obrazlarla müqayisə və ziddiyyətdə ifşa oluna bilər və yalnız bu zaman ədalətin qələbəsi zərurəti incəsənətdə təsdiq oluna bilər.

Televiziya verilişlərində vahid süjeti, kəskin dramatizmi ilə fərqlənən əsərlər (belə əsərlər müasir ədəbiyyatda çox az olduğundan klassikaya da müraciət etmək olar) göstərsələr, tamaşaçılar səhər də, axşam da bəsit, gülünc "obrazlar" əvəzinə böyük xarakterli, möhkəm əqidəli, incə ruhlu adamlarla rastlaşsalar, bu, onlarda ali hisslər, nəcib duyğular, hər cür mənfi hallara qarşı mübarizə əzmi aşılayacaqdır. Televiziya bu məqsədlə dünya klassiklərinin

əsərlərinə, xüsusi mənəvi təsir gücünə malik olan milli adət və ənənələrimizin təbliğinə müraciət edə bilər.

Bir sözlə, televiziyanın gənc nəslin tərbiyəsində rolu və deməli, həm də məsuliyyəti müqayisəolunmaz dərəcədə böyükdür. Televiziya uşaqların nitqinə, hərəkət və davranışlarına, düşüncəsinə elə «gizli» təsir edir ki, valideynlə övlad arasında fərqli dünyagörüşünün, zövq fərqlərinin nə vaxt və necə yarandığını heç hiss də etmirik. Valideynlərin və məktəbin televiziya və internetin simasında necə güclü rəqiblərinin olduğunu da, bəzən nəzərə almırıq. Lakin bu dövr, daha əvvəlki dövr deyil. Ona görə də, indiki uşaqların və gənclərin tərbiyəsi haqqında düşünərkən mühiti dəyişən və formalaşdıran yeni texniki vasitələr unudulmamalıdır.

Peyk antenaları və internet texniki baxımdan bütün planeti ehtiva etmək imkanına malik olduğundan və bu imkanlar əsasən Qərbin əlində toplandığından qloballaşmaya xidmət edir. Biz texniki tərəqqiyə qarşı çıxa bilmərik və yeni texniki vasitələrdən istifadəni gənclərə qadağan edə bilmərik. Çıxış yolu ancaq Qərbin təsirlərini heç olmazsa qismən kompensasiya etmək üçün milli-mənəvi məzmuna malik olan verilişlərin də bu yeni vasitələrlə ötürülməsinə nail olmaqdır. Yəni ən müasir texnika təkcə Qərbin kütləvi mədəniyyətinin yox, həm də milli-mənəvi dəyərlərin yayılmasına xidmət edə bilər. Həm də rəqabətin uğurlu olması üçün milli proqramların təkcə mənəvi məzmunu deyil, həm də texniki səviyyəsi Qərb standartlarından geri qalmamalıdır.





# *İki təəssürat*

## *(Qloballaşma və milli mədəniyyət)*

### Aysel və Avropa

17 maya keçən gecə mən də yatmadım və İctimai televiziya kanalında Avropa musiqi müsabiqəsinə («Evrovision») baxdım. Ona görə yox ki, müasir musiqinin xüsusi həvəskarıyam... Sadəcə olaraq burada milli təəssübkeşlik hissi daha bir müstəvidə üzə çıxırdı.

Düzdür, gözəl səslər, əlvan səhnələr, rənglərin dinamikası, ritmlər, ahənglər cəlbedici idi. Son bir neçə ay ərzində ictimai televiziyanın məqsədyönlü təbliğatı da həmin saatı həsrətlə gözləməyə vadar edirdi. Hətta şəxsi bir amil də var idi. Aysel mənim aspirant yoldaşımın qızı olduğundan onun uğurlarına da əlahiddə bir marağım var idi. Lakin bu əsas deyildi. Əsas olan ermənilərlə yarış imkanı və onlara heç olmasa bu sahədə üstünlüyümüzü göstərmək imkanı da deyildi. Əsas olan bu yarışın başqa bir prizmada az qala millətlərin yarışı kimi qavranılması və milli ruhun oyanışı idi. (Belə məqamda heç kim özünün əslində bəlkə də ikinci dərəcəli bir şeylə təskinlik tapdığının fərqində olmur.)

Bəzən idman da, sənət də milli ruhun ifadəçisinə çevrilir və tamamilə başqa bir anlamda ortaya çıxır. Biz son illərdə idmanda da xeyli uğurlar qazanmışıq. Bəli, fər-

di fiziki hazırlıq sahəsində də üstünlük qazanmaq, çalıb-oynamağı da bacarmaq lazımdır. Üstəlik elə bir zamanda yaşayırıq ki, beynəlxalq ictimaiyyət çox vaxt ciddi problemlərə biganə qaldığı halda, diqqətin idmana və musiqiyə konsentrasiyası çox böyükdür. Modern dünya nəinki ciddi problemləri, heç ciddi musiqini də sevə bilmir (yüksək sənətkarlığına şübhə olmayan Patrisiya Kaasa münasibət bunu bir daha nümayiş etdirdi). Kütləni cəlb edən nə isə ritmik, dinamik, yüngül bir şey olmalı imiş.

Əlbəttə, mən istəyərəm ki, bizə üstünlük qazandıran tək çalıb-oynamaq olmasın, bizim daha ciddi qürur mənbələrimiz olsun. Biz siyasət, iqtisadiyyat sahələrində dünya ölkələri içərisində özünəməxsus yer tuturuq və xeyli böyük uğurlarımız vardır. İncəsənətin və idmanın müxtəlif sahələrində də son illərdə böyük işlər görülmüş və uğurlar qazanılmışdır. Əlbəttə, mən bir elm adamı kimi arzu edərdim ki, yaxın gələcəkdə elm və təhsil sahəsində də bizə qürur hissi yaşada biləcək nailiyyətlərimiz olsun. Amma hələ ki, beynəlxalq əks-səda verən ən çox musiqi sahəsidir. Bu bizim milli mentalitetləmi bağlıdır? Bu sahədə ənənələrmi daha güclüdür? Yoxsa ictimai şüur daha çox dərəcədə məhz bu yöndə köklənmişdir? Birmənalı cavab vermək çətindir.

Konkret olaraq «Evrovision» müsabiqəsinə qayıtsaq, üçüncü yer böyük nailiyyət idi və buna sevinməmək mümkün deyil. Lakin hər halda bu sevincə azca kölgə salan yeganə məqam qloballaşmanın təzyiqlərinə tabe olaraq kosmopolit musiqi sərgiləməyimiz oldu. Yabançı olan təkcə dil deyildi. Rəqslər də, geyim də, ritm də millilikdən daha çox qloballaşmanı xatırladırdı. Nə yaxşı ki, tar var imiş! Amma nə etmək olar ki, beynəlxalq ictimai rəy belə tələb edir. Əks təqdirdə yüksək yer qazanmaq çox müşkül olardı. Düzdür, bizim bir sıra milli komponentlər «Evrovision» müsabiqəsində işıq üzü gördü, amma özümüzün yox, qonşularımızın «zirəkliyi» sayəsində.





Görünür, aşıq sənəti olan, muğamatı olan və bunları YUNESKO xətti ilə bütün dünyaya bəyan edən Azərbaycan musiqi sənətinin öz milli varlığını bir daha təsdiqləməsinə elə bir xüsusi ehtiyac duyulmamışdı. Qonşularımızın isə bu sahədə kompleksi olduğuna görə, hər bir fürsətdən yararlanaraq, heç olmazsa, başqalarının hesabına özünə milli bir obraz yaratmaq cəhdlərini dəyərləndirməmək mümkün deyil.

## Gülçöhrə və Asiya

Bazar günü səhər beləcə qarışıq düşüncələrə daldığım bir vaxtda dostum İsa Həbibbəyli zəng etdi və məni Naxçıvan Dövlət Universitetinin özfəaliyyət kollektivinin ifasında «Arşın mal alan»a baxmağa dəvət etdi. Tamaşa saat 3-də Səməd Vurğun adına Rus Dram teatrında olacaqdı. Planetar miqyaslı «Evrovision» təəssüratları bitməmiş ucqar Naxçıvandan gəlmiş özfəaliyyətə tamaşa etmək perspektivi mənə o qədər də cəlbedici görünmədi. (Düzdür, Naxçıvan bizim qədim mədəniyyət beşiyimizdir, amma bu lap çoxdan olmuşdur, indi hər şeyin mərkəzi Bakıdır.) Sözün düzü, mən heç akademik kollektivlərin peşəkar ifasını dinləmək üçün də vaxt tapa bilmirəm, o ki qala əyalətdən gəlmiş özfəaliyyətin çıxışına! Amma İsa müəllimin xətrini də qırmaq istəmədim.

Hər halda getdim və heç gözləmədiyim bir mənzərə ilə qarşılaşdım.

«Arşın mal alan»a mən təbii ki, çox baxmışam. Film variantlarına da, tamaşalara da. Amma sözün düzü, heç vaxt bu dərəcədə təsirlənməmişdim. Bilmirəm, bugecəki

millilik axtarışından sonra məhz istədiyim, ehtiyacım olan bir musiqi bəxş edildiyinə görəmi, yoxsa mənə doğma olan universitet həyatının bir parçası olduğuna görəmi?...

Bu tamaşaya baxdıqca gecə müsabiqədə qazandığımız üçüncü yerdən məmnunluq hissim yavaş-yavaş itməyə başladı. Belə böyük, belə möhtəşəm bir musiqi mədəniyyəti olan xalqın birincilik iddiası mənə daha təbii göründü. (Lakin Qərbi təqlid etməklə üçüncü yer qazanmaq özü də böyük nailiyyətdir.)

Mənim heyrətim təkcə Üzeyir bəyin bu misilsiz sənətinə daha bir heyranlıqdan irəli gəlmirdi. Bu heyrətin səbəbkarları Naxçıvan Universitetinin tələbə özfəaliyyəti idi. Əslində, buna özfəaliyyət demək düzgün olmazdı. Onların çıxışı daha təbii, daha canlı və daha təsirli idi. Salonla səhnə arasında səssiz-sözsüz bir rabitə, doğmalıqdan doğan əks-əlaqə var idi. İstədim dönüb İsa müəllimdən soruşum ki, yəni sizin universitetin nəzdində konservatoriya var? Axı, diqqəti cəlb edən ancaq tələbə səmimiyyəti, gənclik təravəti deyildi; açıq-aşkar bir peşəkarlıq da hiss olunurdu.

«Arşın mal alan»da ölkəmizin ən məşhur, sayılıb-seçilən sənətkarları çıxış ediblər. Fatma Mehrəliyevadan və Səfurə İbrahimovadan sonra Telli obrazının bu səviyyədə yaradıla biləcəyini indi də təsəvvürümə sığışdıra bilmirəm. Hələ Gülçöhrənin ariyaları, yetkin səhnə maneraları, gəncliklə peşəkarlığın üzvi vəhdəti! Düzü, tamaşa başlayanda Gülçöhrə diqqəti gözəlliyi ilə cəlb etmirdi. Tamaşa boyu pərdədən pərdəyə, səhnəyə hər yeni çıxışında Gülçöhrə o qədər gözəlləşdi ki, «Evrovision»dakı hadisələr də, elə lap Hadisə özü də kölgədə qaldı.

Mən bu təəssüratlarımı nəyə görə qələmə alıram? Kimsə düşünə bilər ki, «Evrovision»dakı uğurlarımız haqqında yazılması təbiidir və bu barədə hələ çox danışılacaqdır. Amma məni yazmağa vadar edən məhz tələbələrin çıxış oldu. Bütövlükdə təhsil sisteminin cansıxıcı test hazırlıqları içərisində çox solğun göründüyü bir vaxtda, tələbələrin dərs və imtahandan başqa zəngin mədəni həyat yaşaya bilmədikləri bir şəraitdə Naxçıvan Dövlət Universiteti ilə Qafqaz Universitetinin keçirdiyi görüşlər, tələbə-müəllim kollektivlərinin uzaq məsafələri qət edərək bir-birinə qonaq gəlməsi, həm də əliboş yox, belə yüksək bədii yaradıcılıq töhfəsi ilə gəlməsi çox əlamətdar bir haldır. Və mən düşündüm ki, yaxın gələcəkdə ölkəmizin hərtərəfli uğurları tələbə həyatında da özünü göstərəcəkdir. Artıq ilk işartıları göz qabağındadır. Bəli, ancaq minlərlə gəncin bədii yaradıcılıq potensialının üzə çıxarılacağı bir zamanda biz dünya müsabiqələrinə də məhz milli mədəniyyətimiz zəminində çıxmaq əzmi əldə edəcəyik.

*"525-ci qəzet", 19 may, 2009-cu il.*

# "Ovqat" və ovqat

Hər bazar günü, səhər tezdən İctimai Televiziya «Ovqat» verilişində tanınmış ziyalıların iştirakı və milli musiqimizin təranələri altında tamaşaçılara xoş ovqat bəxş edir. Aparıcı dəvət etdiyi qonaqlarla maraqlı, ürəkaçan söhbətlər aparmağa çalışır. Geniş tamaşaçı kütləsinin böyük maraqla izlədiyi bu proqram sübut edir ki, insanların ziyalı söhbətinə və milli musiqiyə ehtiyacı hələ tükənməmişdir. Bu nümunə «tamaşaçının diqqətini cəlb etmək üçün şou göstərməkdən başqa əlacımız yoxdur; reklamları da ancaq belə verilişlərə sifariş verirlər», – deyə proqramların şoulaşdırılmasına haqq qazandırmaq istəyən televiziyonçulara ən tutarlı cavabdır.

Əlbəttə, maliyyə mənbəyi ciddi məsələdir, lakin həlledici olan o deyil.

Bir neçə il əvvəl Azərbaycan televiziya məkanında dövlət tərəfindən maliyyələşdirilən iki kanal paralel surətdə fəaliyyət göstərməklə bizə müəyyən müqayisə imkanı açdı. Əvvəla, qazanc amili istisna edildikdə İctimai televiziyanın fəaliyyəti timsalında xalq üçün, millət üçün vətənpərvərliyin və dövlətçiliyin inkişafı üçün necə böyük işlər görmək mümkün olduğu göstərildi. Xalqın harada isə gizli qatlarda qalmış mənəvi və intellektual potensialını yenidən xalqa qaytarmaq baxımından böyük işlər görüldü. Digər tərəfdən, AzTV-nin dövlətdən daha böyük maliyyə yardımı almasına baxmayaraq, onun öz işini necə zəif qurduğu əyani müqayisədə daha aydın nəzərə çarpdı.





«Ovqat» da həmin o illərin yadigarıdır. O illərin ki, reklam bazarı hələ büdcədən maliyyələşən İTV-nin ideya axtarışlarındakı işıqlı məqamlara kölgə sala bilmirdi. Lakin görünür, heç nə təsirsiz ötüşmür. «Ovqat» yenə davam etsə də, getdikcə solğunlaşır. Düzdür, indi bu verilişdə də reklamlar yer alır və bu fakt onun təkcə keyfiyyət vertikalında deyil, həm də statistik baxımdan uğur qazandığından xəbər verir. Lakin «Ovqat»dakı son görüşlər göstərir ki, təkcə reklam bazarı deyil, televiziya məkanındakı ümumi ab-hava və getdikcə daha çox qərarlaşan neqativ ənənələr də hər hansı bir işıqlı ideyanın zəifləməsinə səbəb ola bilir. İndi burada da əsas ideya bəsitləşərək poeziya axşamı (daha doğrusu, «səhəri»), şair və musiqiçilərin söhbəti, yeni şeirlərin təqdimatı və s. bu kimi ənənəvi çərçivəyə girir.

Bəs ilkin ideya nə idi? Başqa cür desək, «Ovqat»ın bəzi ilk verilişlərində hansı ideyanın işartıları görünürdü? Tamaşaçı ilə birlikdə düşünmək, insanlara həyat haqqında, xoşbəxtlik haqqında, sosial-mənəvi ideal haqqında fikir yürütməkdə bələdçilik etmək, cığır açmaq və insanları musiqinin və poeziyanın ritmik aləmindən keçərək fikir dünyasının ritmləri ilə tanış etmək, bəzən bunların üstünə təbiət mənzərələrini də gəlməklə hamısının ümumi harmoniyasını yaratmaq, ekran vasitəsilə tamaşaçı ilə virtual diskursa nail olmaq! Söhbət təkcə «Ovqat»dan getmir. Bizim indi neçə-neçə bu yöndə verilişlərə ehtiyacımız vardır və onların getdikcə solğunlaşmasının yox, gündən-günə parlamasının şahidi olmaq istərdik.

## TV və biznes

Bəs kütləyə işləyən, «kütləvi mədəniyyət» yayan və nəyin bahasına olursa-olsun, diqqəti daha çox cəlb etməyə

çalışan televiziya kanalları hansı mülahizədən çıxış edirlər?

İstər-istəməz sual yaranır: Daha çox tamaşaçı cəlb etmək kanal sahiblərinin nəyinə lazımdır? Onlar əslində kimin diqqətini cəlb etməyə çalışırlar – geniş kütləninmi, ziyalılarınmı, gəncliyinmi, yoxsa reklam verən sahibkarlarınmı?

Biznes maraqları baxımından yanaşdıqda, televiziyonçular öz meyarlarını və zövqlərini reklam sifarişçilərinin, ilk növbədə iş adamlarının səviyyəsinə uyğunlaşdırmaq məcburiyyətində qalırlarmış. Lakin bizdə iş adamlarının səviyyəsi doğurdanmı bu dərəcədə aşağıdır? Buna inanmaq olmur. Axı, biznesdə uğur qazanmaq üçün də müəyyən dünyagörüşü və intellektual potensial lazımdır.

Digər tərəfdən, reklamda məqsəd buna ümumiyyətlə çox adamın yox, məhz aidiyyətli adamların, real istehlakçıların tamaşa etməsi, onların məlumatlandırılmasıdır. Əksər adamlar ancaq həyat üçün zəruri, ənənəvi mallar alır ki, bunların da reklama ehtiyacı yoxdur. Zərurət xaricində, zövq üçün, əyləncə və ya dəbdəbə üçün şey alanlar isə məhz pulu çox olanlardır. Deməli, televiziyonçular zənginlərin zövqünün aşağı olmasını güman edirlər; yəni «zər əhlində irfan yoxdur, irfan əhlində – zər».

Lakin bununla bağlı sosioloji tədqiqatlar aparılıbmı və bu «gümanlar» nə dərəcədə əsaslandırılmışdır? Əlbəttə, bizim məqsədimiz televiziya biznesinin iqtisadi cəhətdən araşdırılması deyil. Çünki KİV kimi, təhsil kimi ideoloji əhəmiyyətli sahələr sadəcə biznes olaraq qəbul edilə bilməz. Arqumentlər də yalnız qazanc amili ilə məhdudlaşdırılmamalıdır. Neçə il qabaq «Təhsil qanunu» ətrafında müzakirələr gedərkən belə bir ideya dönə-dönə vurğulanırdı ki, özəl təhsil müəssisələri qazanc götürmək üçün olmalıdır. İndi biz görünür çox inkişaf etdiyimizə görə, təhsilə də münasibət dəyişmişdir. Eyni münasibət KİV-ə də aiddir. Kim isə bu sahədə ancaq qazanc mülahizələri ilə iş qura bilərmi? Kim isə «bu mənim özəl kanalımdır və nə istəyirəm, onu da göstərirəm», – deyə bilərmi? Bəs yüz minlərlə oxucunun, dinləyicinin, tamaşaçının mənəvi maraqları və ən başlıcası gənc nəslin tərbiyəsi sahəsində cəmiyyətin üzərinə düşən məsuliyyət necə olsun?





Deməli, səbəb təkcə bu deyil.

## Fərdi və ictimai ovqat

İnsanlara xoş ovqat bəxş etmək gözəl missiyadır. Lakin bir var həyat özü, bir də var onun xaricində sevincli dəqiqələr, müvəqqəti xoş əhval.

Bizcə, əsas olan real həyatın insana təlqin etdiyi ovqatdır. Kənardan qəbul etdirilən bir əhval uzun ömürlü ola bilməz. Nəzərə alınmalıdır ki, insan həm də sosial varlıqdır. Yəni onun mahiyyəti həm də daxil olduğu ictimai münasibətlər sistemində, cəmiyyətin bir üzvü olmaqla açılır. Deməli, fərdi ovqatla yanaşı, bir *ictimai ovqat* da var. Bir də inkişaf etmiş xalqlarda *milli ovqat* vardır.

Hər bir fərdin sevinci, xoşbəxtliyi təkcə şəxsi həyatda deyil, daha çox dərəcədə ictimai həyatda təmin edilir. Başqa sözlə desək, ictimai ovqat yaxşı olmayan yerdə fərdlərin xoşbəxtliyi mümkün deyil. Bu halda olsa-olsa ötəri sevincdən, müvəqqəti ovqatdan söhbət gedə bilər.

Ona görə də, bizcə, "Ovqat"ın əsas missiyası ictimai ovqatdakı pozitiv məqamların üzə çıxarılması, insanların yaradıcılıq əzmini stimullaşdıran cəhətlərin bədii-estetik təsdiqidir. Nəzərə alınmalıdır ki, insanın daxilən yüngülləşməsi, rahatlanması və bu mənada xoş ovqat ancaq hansı isə çətin işləri görüb qurtardıqdan, problemləri həll etdik-

dən sonra yaranır. Yəni ovqatın açarı komiklikdə yox, ruhun özünütəsdiqindədir. Təsadüfi deyil ki, estetikada komiklik ancaq eybəcərliyi ifadə edən bir kateqoriyadır. Bədii ədəbiyyatda da, səhnədə də, ekranda da ideyanın açılma istiqaməti, obrazın gerçəyə adekvatlığı məhz bu yolla təmin edilə bilər. Musiqi növü olaraq muğamatın seçilməsi də çox əlamətdardır. Çünki muğam güldürmək üçün deyil. O, insanın gücünü səfərbər etməyə, ona gümrah və mübariz əhval-ruhiyyə bəxş etməyə yönəlidir.

"Ovqat" bu mənada bir sıra televiziya kanallarında "şou ilə xoş ovqat" devizi altında baş alıb gedən saysız-hesabsız verilişlərə ciddi bir alternativ nümunəsidir.

Şoulardakı şənlik qəlbə rahatlıq gətirmək yox, ancaq üzü güldürmək kimi bir şeydir.

İndi başqa bir zamandır. İndi bizim cəmiyyətdə içi sevinclə, işıqla, yaradıcılıq əzmi ilə dolu olan insanlar da var ki, onların məzhəkə sayəsində qazanılan «xoşbəxtliyə» ehtiyacı yoxdur. TV informasiya vermək, insanla dünya arasında rabitə yaratmaqla yanaşı, real həyatın bədii-estetik və nikbin bir davamı olmalıdır. Nikbinlik enerji dolu bir həyatda olur, yaradıcılıq potensialının təcəssümü və tərənnümü ilə üzə çıxır.

*"525-ci qəzet", 2 iyun, 2009-cu il.*





## *"Zərif çərşənbə"də fəlsəfə notları*

ANS TV-nin orijinal formatdakı "Zərif çərşənbə" verilişinin aparıcıları özləri zərif olsalar da, toxunduqları məsələlər bəzən fəlsəfi ağırlığı ilə diqqəti cəlb edir. Əbu Turxanın aşağıdakı misraları yada düşür:

*Çevrilər pıçıltı, həzinlik, şəfqət*
*Ulu bir qüvvəyə... Bil ki, həqiqət*
*Üzdə zərifdirsə, dərində azman,*
*Son sözü düz sözə verəcək zaman!*

Axırıncı verilişdə görkəmli bəstəkarımız Firəngiz Əlizadənin düşüncələri timsalında biz zərif cinsin təkcə zərif musiqi yaratmaq deyil, həm də ağır yaradıcılıq prosesinin fəlsəfi yükünü də daşımaq qüdrətinin şahidi olduq.

Onun musiqisi Avropanı necə fəth edir? Bəlkə o bir Avropa düşüncəsinin və duyğularının məhsuludur? Bu sual ilk ağıla gələn sualdır və bəsit düşüncənin məhsuludur. Belə ki, heç kim qərblilərin özündən daha çox qərbli ola bilməz. Bu gün Qərb onu təkrarlayan bir şeyə deyil, özündə olmayan və özünü tamamlamağa imkan verən bir şeyə möhtacdır: ədəbiyyatda da, fəlsəfədə də, musiqidə də!

Firəngiz xanım da əslində qərblilər üçün yeni bir mənəvi-estetik ovqatı – Şərq ruhunu ifadə edir. Sadəcə olaraq bunu ən müasir Qərb musiqi texnikası və metodikasının vasitəçiliyi ilə edir. Başqa sözlə desək, bizim milli

ruhumuz Qərbin dilində danışmağa başlayır və ona görə də onlar üçün bu dərəcədə anlaşıqlı olur.

Əbu Turxanın dediyi kimi, Şərq ruhu ilə Qərb ruhu ancaq zirvədə – fəlsəfi qatda birləşir.

Musiqinin də fəlsəfi qatı var.

Firəngiz Əlizadənin əsərləri də Üzeyir Hacıbəyovun bütün yaradıcılığı kimi, Qara Qarayevin "Yeddi gözəl"i, Fikrət Əmirovun və Niyazinin simfonik muğamları, Soltan Hacıbəyovun "Karvan"ı kimi insanı fəlsəfi düşüncələrə sövq edir.

Mən musiqişünas deyiləm, Firəngiz xanımın yaradıcılığını da nə üçün sevdiyimi anlamaq və izah etmək mənim üçün çətindir, o ki qala bu barədə nə isə yazmaq...

Amma yazmaq qərarına gəldim. Firəngiz xanımın musiqi dünyasından yox, fəlsəfi dünyasından! Buna səbəb də məhz onun haqqında bəhs etdiyimiz "Zərif çərşənbə" verilişindəki çıxışı oldu. Burada o öz fəlsəfi dünyasını musiqi yaradıcılığının dili ilə deyil, adi danışıq dilində, necə deyərlər söhbət əsnasında ifadə etdi. Dediklərinin fəlsəfəyə aidiyyəti olduğunu bəlkə heç ağlına da gətirməyən görkəmli bəstəkarın öz musiqi yaradıcılığı haqqındakı fikirləri mənim diqqətimi ona görə çəkdi ki, bu deyilənlər nəinki hansı isə bir fəlsəfi tədqiqat üçün empirik baza, faktiki material ola bilərdi, – əslində bu da az önəmli deyil, lakin bu deyilənlər həm də öz yaradıcılıq prosesini dərk etməyə çalışan, onu sadə dildə ifadə edən və bu zaman necə çətin bir fəlsəfi problemin izahına qalxışdığının heç fərqində də olmayan səmimi bir etiraf idi.

Həmin fikirlər fəlsəfi terminlərlə ifadə olunsaydı, onların elmi-fəlsəfi dəyəri daha aydın görünərdi. Lakin bu, təbii ki, Firəngiz xanımın işi deyil. Necə ki, bədii yaradıcılıqdan yazan bir filosofun bilavasitə özünün bədii əsər





yaratması şərt deyil, eləcə də yaradıcı şəxs bu prosesin məğzini nəzəri özünüdərk səviyyəsində açmaq məcburiyyətində deyil. Lakin bədii yaradıcılıqla fəlsəfi təfəkkürün görüşünə böyük ehtiyac var. Belə görüşlər heç də həmişə baş tutmur. Bəstəkarlar da digər sənətkarlar kimi ictimaiyyətə yaradıcılıq prosesini deyil, onun son məhsulunu çatdırırlar. Proses özü isə çox vaxt gizli qalır.

Lakin bizim bugünkü söhbətimiz "Zərif çərşənbə"dən başlamışdır. Və biz konkret olaraq Firəngiz xanımın üç fikri üzərində dayanmaq istəyirik.

Həmsöhbətlərin "Siz nəyə görə bədii filmlərə musiqi yazmırsınız?" sualına cavab verən Firəngiz xanım bəstəkarın psixoloji-estetik əhvalının "hazır məhsulla" deyil, yaradıcılıq prosesinin özü ilə həmahəng surətdə formalaşması zərurətini qeyd etdi.

Heç bir filmdə insan taleyinin alternativ yolları və bunların arasından seçim edən bədii qəhrəmanın öz taleyini yaratmaq əzmi tam ifadə olunmur. Çünki filmlərdə ancaq yollardan biri öz əksini tapa bilir. Qəhrəmanın səhnə taleyini müəyyənləşdirən qərarların verilməsi üçün istifadə olunan mənəvi-intellektual resurs səhnə arxasında qalır. Bəli, hazır film və yaradıcılıq prosesi müxtəlif hadisələrdir və böyük sənətkarlar bunun fərqini çox gözəl bilirlər. Sənətkarın iç dünyası da məhz yaradıcılıq prosesində üzə çıxır. Bu məqamda Firəngiz xanımın vurğuladığı ikinci fəlsəfi fikir yada düşür: "Mənim öz iç dünyam vardır və bura heç kim daxil ola bilməz". Sənətkar məhz öz iç dünyasını ifadə edir. Lakin gözəl sənət əsərinin yaranması üçün bu iç dünyası kifayət qədər saf və zəngin olmalıdır. Dünyagörüşü məhdud olan, ya da mənəviyyatca təmiz olmayan insan böyük əsərlər yarada bilməz. İndi psevdosənətlə çoxları məşğul olur. Onların "yaratdıqları" çox vaxt ya plagiat, ya da ən yaxşı halda kompilyasiya olur. Sənətə

nə isə yeni bir ideya, yeni nəfəs gətirmək, onu özünəməxsus, orijinal bir istiqamətlə zənginləşdirmək hər adama müəssər olmur. Bunun üçün əvvəlcə fərdi mənəvi aləmin unikallığı və orijinallığı tələb olunur. Mükəmməl texnikaya yiyələnmək yüksək təhsil sayəsində də mümkündür. Amma dünyanın ən nüfuzlu universitetlərində və ya konservatoriyalarında təhsil alan insan da əgər öz dünyagörüşünə və fərdi mənəvi aləminə görə orijinal deyilsə, sənətdə də yeni yol aça bilməz. Firəngiz xanımın qərblilərdən geri qalmayan yüksək musiqi təhsili onun avropalılardan fərqli və əslində daha zəngin mənəvi aləmini, "heç kimin daxil ola bilmədiyi öz iç dünyasını" avropalıların anlaya biləcəyi müasir musiqi dilində ifadə etməyə imkan verir.

Lakin insanın mənəviyyatca zəngin və orijinal olması və üstəlik müasir yaradıcılıq texnologiyasına yüksək səviyyədə bələd olması da böyük sənət əsərinin yaranması üçün hələ yetərli deyil. Böyük fəlsəfi dünyagörüşü, zəngin və saf mənəviyyatı olan şəxslərin hamısı heç də həmişə yaradıcılıq məqamına yüksələ bilmir. Bunun üçün üçüncü bir amil də tələb olunur. Ruhun qanadlanması, iç aləminin aşıb-daşması və bunlara vəsilə ola biləcək əlavə bir qığılcım da lazımdır. Sənətkar ancaq müəyyən bir məqama yüksələrkən yarada bilir. Buna Şərq fəlsəfəsində ilham, vəcd, kəşf məqamı deyilir. Maraqlıdır ki, məhz bu cəhət marksist-leninçi fəlsəfədə, digər materialist təlimlərdə yaradıcılığın mühüm amilləri sırasına daxil edilmir, yaxına buraxılmırdı. Ona görə də Azərbaycan fəlsəfi fikrində bu məsələ hələ indi də kifayət qədər öyrənilməmişdir. Bəs Firəngiz xanım yaradıcılıqdan bəhs edərkən bu məqamı necə ifadə edə bildi? Bax, bu yerdə o bizim üçün maraq doğuran üçüncü fəlsəfi fikri özünəməxsus tərzdə ifadə etdi. O, fəlsəfədə işlənməyən "coşmaq" kəlməsinə müraciət etdi.





Bu söz yaradıcılıq prosesi üçün bayaqdan bəri izah etdiyimiz üçüncü amili çox gözəl açdı. Mürəkkəb bir fəlsəfi fikrin çox sadə, el dilində ifadəsi! Mən Şərq fəlsəfəsi tarixçilərindən təsəvvüfdə belə bir terminin olub-olmadığını soruşdum. Sən demə, sufilər "şataha" (ərəbcədən tərcüməsi aşıb-daşmaq, coşmaq imiş) felindən yaranmış "şathiyyat" terminindən istifadə edirlərmiş. Önəmli olan budur ki, duyğu orqanları ilə xaricdən, hissi təcrübədən alınan qavramlardan fərqli olaraq, insan xaricə deyil, daxilə, iç dünyasına müraciət etdikdə və bu dünyanın gizli, qaranlıq qatlarına endikdə burada ilişib qala da bilər. Buna xəyala dalmaq deyirlər. Lakin bir də var ki, hansı isə böyük bir enerjinin, təkanın sayəsində iç dünyası dalğalanır, aşıbdaşır və sən də bu dalğaların üzərində işıqlı dünyaya qayıdırsan. Amma artıq "dolmuş" halda, dərin qatlardan gələn ərməğanla birlikdə.

Xarici təsir yaradıcı insanın öz daxili dünyasına enməsi üçün bir stimul olduğu kimi, daxildən intixab edilmişləri yenidən xarici dünyaya qaytara bilmək üçün də xüsusi bir qabiliyyət tələb olunur. Filosoflar buna fəlsəfi təfəkkürün və terminlərin köməyi ilə, sənətkarlar isə öz bədii yaradıcılığı sayəsində nail olurlar. Hegel "Estetika haqqında mühazirələr"ində "təxəyyülün gücü" və "fantaziya" anlayışlarından istifadə edir və əsaslandırmağa çalışır ki, sənətkar üçün passiv təxəyyüldən aktiv fantaziya səviyyəsinə qalxmaq tələb olunur. Diqqəti belə bir cəhət cəlb edir ki, biz bir qayda olaraq "fantaziya" anlayışını elə "təxəyyül" kimi tərcümə edirik. Amma Hegel fəlsəfəsində fantaziyanı təxəyyüldən fərqləndirmək və bu fərqin nədən ibarət olduğunu aydınlaşdırmaq cəhdi göstərilir.

Hər hansı bir fikrin ifadəsi üçün ən əsas şərt terminlərin düzgün seçilməsidir. Bu məqamda, Hegel kimi bir dahi də terminoloji çətinliklə üzləşir və ya tərcümə zamanı

nə isə yeni bir ideya, yeni nəfəs gətirmək, onu özünəməxsus, orijinal bir istiqamətlə zənginləşdirmək hər adama müəssər olmur. Bunun üçün əvvəlcə fərdi mənəvi aləmin unikallığı və orijinallığı tələb olunur. Mükəmməl texnikaya yiyələnmək yüksək təhsil sayəsində də mümkündür. Amma dünyanın ən nüfuzlu universitetlərində və ya konservatoriyalarında təhsil alan insan da əgər öz dünyagörüşünə və fərdi mənəvi aləminə görə orijinal deyilsə, sənətdə də yeni yol aça bilməz. Firəngiz xanımın qərblilərdən geri qalmayan yüksək musiqi təhsili onun avropalılardan fərqli və əslində daha zəngin mənəvi aləmini, "heç kimin daxil ola bilmədiyi öz iç dünyasını" avropalıların anlaya biləcəyi müasir musiqi dilində ifadə etməyə imkan verir.

Lakin insanın mənəviyyatca zəngin və orijinal olması və üstəlik müasir yaradıcılıq texnologiyasına yüksək səviyyədə bələd olması da böyük sənət əsərinin yaranması üçün hələ yetərli deyil. Böyük fəlsəfi dünyagörüşü, zəngin və saf mənəviyyatı olan şəxslərin hamısı heç də həmişə yaradıcılıq məqamına yüksələ bilmir. Bunun üçün üçüncü bir amil də tələb olunur. Ruhun qanadlanması, iç aləminin aşıb-daşması və bunlara vəsilə ola biləcək əlavə bir qığılcım da lazımdır. Sənətkar ancaq müəyyən bir məqama yüksələrkən yarada bilir. Buna Şərq fəlsəfəsində ilham, vəcd, kəşf məqamı deyilir. Maraqlıdır ki, məhz bu cəhət marksist-leninçi fəlsəfədə, digər materialist təlimlərdə yaradıcılığın mühüm amilləri sırasına daxil edilmir, yaxına buraxılmırdı. Ona görə də Azərbaycan fəlsəfi fikrində bu məsələ hələ indi də kifayət qədər öyrənilməmişdir. Bəs Firəngiz xanım yaradıcılıqdan bəhs edərkən bu məqamı necə ifadə edə bildi? Bax, bu yerdə o bizim üçün maraq doğuran üçüncü fəlsəfi fikri özünəməxsus tərzdə ifadə etdi. O, fəlsəfədə işlənməyən "coşmaq" kəlməsinə müraciət etdi.





Bu söz yaradıcılıq prosesi üçün bayaqdan bəri izah etdiyimiz üçüncü amili çox gözəl açdı. Mürəkkəb bir fəlsəfi fikrin çox sadə, el dilində ifadəsi! Mən Şərq fəlsəfəsi tarixçilərindən təsəvvüfdə belə bir terminin olub-olmadığını soruşdum. Sən demə, sufilər "şataha" (ərəbcədən tərcüməsi aşıb-daşmaq, coşmaq imiş) felindən yaranmış "şathiyyat" terminindən istifadə edirlərmiş. Önəmli olan budur ki, duyğu orqanları ilə xaricdən, hissi təcrübədən alınan qavramlardan fərqli olaraq, insan xaricə deyil, daxilə, iç dünyasına müraciət etdikdə və bu dünyanın gizli, qaranlıq qatlarına endikdə burada ilişib qala da bilər. Buna xəyala dalmaq deyirlər. Lakin bir də var ki, hansı isə böyük bir enerjinin, təkanın sayəsində iç dünyası dalğalanır, aşıbdaşır və sən də bu dalğaların üzərində işıqlı dünyaya qayıdırsan. Amma artıq "dolmuş" halda, dərin qatlardan gələn ərməğanla birlikdə.

Xarici təsir yaradıcı insanın öz daxili dünyasına enməsi üçün bir stimul olduğu kimi, daxildən intixab edilmişləri yenidən xarici dünyaya qaytara bilmək üçün də xüsusi bir qabiliyyət tələb olunur. Filosoflar buna fəlsəfi təfəkkürün və terminlərin köməyi ilə, sənətkarlar isə öz bədii yaradıcılığı sayəsində nail olurlar. Hegel "Estetika haqqında mühazirələr"ində "təxəyyülün gücü" və "fantaziya" anlayışlarından istifadə edir və əsaslandırmağa çalışır ki, sənətkar üçün passiv təxəyyüldən aktiv fantaziya səviyyəsinə qalxmaq tələb olunur. Diqqəti belə bir cəhət cəlb edir ki, biz bir qayda olaraq "fantaziya" anlayışını elə "təxəyyül" kimi tərcümə edirik. Amma Hegel fəlsəfəsində fantaziyanı təxəyyüldən fərqləndirmək və bu fərqin nədən ibarət olduğunu aydınlaşdırmaq cəhdi göstərilir.

Hər hansı bir fikrin ifadəsi üçün ən əsas şərt terminlərin düzgün seçilməsidir. Bu məqamda, Hegel kimi bir dahi də terminoloji çətinliklə üzləşir və ya tərcümə zamanı

rus dilinin zənginlik dərəcəsi buna imkan vermir. Hər halda əsas məsələ iç dünyası ilə xarici dünya arasında münasibət məsələsidir. Hegel yazır: "İnsan fikirləşmədən öz içində yaşayanları aşkar edə bilməz". Lakin "fikirləşmək" sözü, bizcə, yerinə düşmür və insanın özünü anlaması üçün şərt olsa da, ifadə etməsi üçün şərt deyil. Bədii yaradıcılıqda sənətkar öz iç dünyasında yetişmiş olan hansı isə nisbi müstəqil ideya, struktur və ya ahəngi çox vaxt birbaşa – düşünmədən ifadə edir. Şərq fəlsəfəsində buna bədahətən yazıb-yaratmaq deyilir. Filosof sənətkar isə bədahətən yaratdıqlarını fikir səviyyəsində də dərk edir. Bu, bədii təxəyyüllə fəlsəfi təfəkkürün ittifaqı və ya vəhdət məqamıdır.

Hegel yazır: "Bununla biz demək istəmirik ki, sənətkar dində də, fəlsəfə və incəsənətdə də hər şeyin universal əsasını təşkil edən həqiqi başlanğıcı fəlsəfi fikir formasında mənimsəməlidir". Biz də bunu demək istəmirik. Amma biz sadəcə bunu vurğulayırıq ki, qeyri-şüuri səviyyədə ifadə və təlqin olunan duyğuların həqiqi siması və əxlaqi-mənəvi yönü ancaq onların fəlsəfi şərhi sayəsində açılır. Və sənətkar öz yaradıcılığına özünüdərk səviyyəsində yanaşa bilirsə, bu zaman sənətin milli ruhun ifadəçisinə çevrilmək şansı yaranır. Bəstəkar Firəngiz Əlizadənin "Zərif çərşənbə"dəki söhbəti onun məhz özünüdərk səviyyəsində yazıb-yaratdığını bir daha sübut etdi.

*"525-ci qəzet", 24 noyabr, 2009-cu il.*





# *Musiqi və efir mədəniyyəti*

*Pisi söyməkdənsə, yaxşını öyməkyaxşıdır.*
Əbu Turxan

## Televiziya,
## mənəviyyat və bədii-estetik aura

Son vaxtlar televiziya verilişlərinin milli mənəvi dəyərlərə uyğunluğu, ideya-bədii dəyəri, tərbiyəvi və ya anti-tərbiyəvi funksiyası haqqında müzakirələr artmışdır. Daha doğrusu, bu sahədəki vəziyyət elə dözülməz hala çatmışdır ki, hətta ən liberal və tolerant şəxslər də dilə gəlmiş, çıxış yolu barədə düşünməyə başlamışlar. «Kütləvi mədəniyyətin» efiri bürüməsi, əksinə, milli mənəviyyatı ifadə edən sanballı verilişlərin azlığı açıq-aşkar bir disbalans yaratmışdır. Hətta bəzi televiziya kanallarının guya mənəviyyat məsələlərinə həsr etdikləri verilişlər də bir növ şou səciyyəsi daşıdığına görə, daha çox dərəcədə mənəviyyatsızlıq təlqin edir. Necə deyərlər, «üzrü qəbahətindən daha betər». Yəni mənəvi nihilizm mövqeyindən yayınlanan belə verilişlərdə mənəvi prinsiplər özü gülüş hədəfinə çevrilir. Biz bilərəkdən ad çəkmirik. Çünki bu cür proqramların müəllifləri də əslində həmin o şouları hazırlayanların özüdür. Onların isə prinsipi, məqsədi bundan ibarətdir ki, tənqid, hətta təhqir olunmaq da populyarlaşmağın bir vasitəsidir. Ən əsası gündəmdə olmaqdır. Bax, həmin bu səbəbdən də biz anti-mənəvi yönlü verilişləri tənqid etməkdən-

sə, onların adını çəkmədən, diqqəti onlara qarşı qoya biləcəyimiz pozitiv məzmunlu, yüksək bədii-estetik səciyyəli verilişlərə yönəltmək istərdik. Amma təəssüf ki, bütün efir məkanında bu cür verilişləri barmaqla saymaq olar. Bununla belə, nə yaxşı ki, tək-tük də olsa, bədii, intellektual və mənəvi meyarlar baxımından yüksək olan verilişlər hər halda vardır.

Demək olar ki, bütün televiziya kanallarında ən çox görünən və deməli, gənclərimizə ən çox təlqin olunan şəxslər musiqiçilər, müğənnilərdir. Əlbəttə, gözəl musiqi nümunələri, istedadlı müğənnilər kifayət qədər çoxdur. Televiziyanın funksiyalarından biri də zəngin milli mədəniyyətimizi, o cümlədən musiqi mədəniyyətini təqdim etmək və insanların bədii zövqünü oxşamaqdır. İctimai Televiziyada və AzTV-də muğamatın, saz sənətinin və müasir musiqinin təbliğinə dair gözəl verilişlər az deyil. Lakin özəl televiziya kanallarının çoxunda biz müğənniləri təkcə ifaçı kimi, sənətkar qismində deyil, həm də və daha çox dərəcədə çalıb-oxumaq əvəzinə, danışan, millətə əxlaq dərsi deyən «fikir sahibləri» qismində görürük. Əlbəttə, onların sənəti barədə, ifalarının bədii-estetik prinsiplərə uyğunluğu barədə də danışıla bilər. Lakin bizi təəccübləndirən onların efirə öz peşələrinə uyğun olmayan, fərqli ampluada çıxmaları, jurnalist və aparıcı kimi çıxış etmələridir. Görəsən, televiziya kanallarının ideya yönəldiciləri bu məsələdə hansı məntiqdən çıxış edirlər? Əgər tamaşaçıların həyat və məişətlə bağlı söhbətlərə ehtiyacı varsa, onu nəyə görə mütəxəssislər deyil, şoumenlər və artistlər aparmalıdır? Həm də əxlaqi-mənəvi aspektdə yox, məzhəkə formasında?!

Bir daha təkrar edirəm ki, heç kim musiqili verilişlərin əleyhinə deyil, əksinə, yüksək bədii-estetik nümunələr





təkcə zövqü inkişaf etdirmir, həm də mənəvi yüksəlişə xidmət edir. Sadəcə olaraq, şouları ixtisar edə bilmək üçün, mənəvi səfalət yayan verilişlərin tamaşaçılarını didaktik moizə yolu ilə deyil, açıq rəqabət yolu ilə daha yüksək səviyyəli verilişlərə cəlb etmək tələb olunur. Bax, buna görə də, mənəvi-estetik prinsiplər uğrunda mübarizədə üstünlük qazanmaq əzmində olan, rəqabətə davamlı verilişlər dəyərləndirilməli, onlara yaşıl işıq yandırılmalıdır.

Pisləri tənqid etmək, hallandırmaq və bir daha yada salmaqdansa, rast gəldiyimiz yaxşı verilişlərə münasibət bildirməyi daha vacib hesab edirəm. Bu baxımdan, «Açıq dərs» verilişinin böyük maarifçilik missiyasını, onun gündən-günə püxtələşən, təhsilşünaslığı və elmşünaslığı bizim bir çox rəsmi professorlardan daha yaxşı mənimsəmiş olan aparıcısı Cəsarət Valehovun axtarışlarını, prinsipiallığını, ölkəmizdə elm və təhsilin vəziyyəti barədə həqiqətləri çatdırmaq istiqamətində məqsədyönlü fəaliyyətini xüsusi qeyd etməklə yanaşı, «Ovqat», «Zərif çərşənbə» kimi proqramların da örnək ola biləcək cəhətləri barədə mətbuatda vaxtaşırı çıxış etmişəm.

Maarifçilik istiqamətində, «*elm və təhsil*» səpkisində başqa proqramlar da var. Amma əsas məsələ səviyyədə və işə yaradıcı münasibətdədir. Hər gün məktəbdən, universitetlərdən, təhsillə bağlı hər hansı bir hadisədən bəhs etmək, problemlərə toxunmadan, mahiyyətə nüfuz edə bilmədən, sadəcə təsvirçi mövqedən çıxış etmək insanları cəlb etmir və potensial tamaşaçı başqa proqramlara üz tutur.

Əlbəttə, ictimai şüurun «kütləvi mədəniyyətlə» qidalandırıldığı, şouların, məzhəkələrin baş alıb getdiyi, əksər televiziya kanallarının sanki məqsədyönlü surətdə millətin əxlaqi-mənəvi invariantlarını sarsıtmaq istiqamətində işlədiyi bir zamanda, elm, təhsil, mənəviyyat haqqında hər

hansı söhbət daha məqbul görünür. Maarifləndirici verilişlərin xüsusi rolunu qeyd etməklə bərabər, musiqi verilişlərində də yüksək səviyyə və yaradıcılıq sayəsində böyük uğur qazanmaq mümkün olduğunu bu günlərdə tamaşa etdiyim bir verilişin timsalında gördüm və heyranlığımı gizlədə bilmədim.

## "Bir mahnının tarixçəsi"

İctimai Televiziyada milli musiqi sənətimizin tarixi aspektdə işıqlandırılmasına həsr olunmuş belə bir proqram var: "Bir mahnının tarixçəsi". Bu, əslində orijinal bir yaradıcılıq işidir və ənənəvi musiqili verilişlərdən çox fərqlidir. Burada musiqi ilə maarifçilik, bədii dəyərlə əxlaqi-mənəvi dəyər üzvü surətdə qovuşur. Yaxın günlərdə baxdığım növbəti buraxılışda «Söz olmasaydı» mahnısından bəhs olunurdu. Şair Ənvər Əlibəyli və bəstəkar-həkim İbrahim Topçubaşovun birgə yaradıcılıq işinin məhsulu olan bu mahnı həqiqətən gözəldir! Lakin mən mahnıdan yox, verilişin ssenarisindən, bir mahnının tarixini üzə çıxarmaq istiqamətində aparılmış araşdırmalardan, jurnalistin öz işinə yaradıcı münasibətindən söhbət açmaq istəyirəm.

Əvvəla, «tarix» sözü verilişin adında öz əksini təsadüfən tapmayıbmış. Burada həqiqətən bir sənət əsərinin, klassik bir nümunənin yaranması və sonrakı «həyatı» tarixi yöndə izlənir, sanki yenidən işıqlandırılır. Bir mahnının müxtəlif zamanələrdə, fərqli ifalarda və yeni ab-havada, yeni interpretasiyalarda gündəmə gəlməsi əslində həm də estetik ictimai şüurun, zövqlərin, sosial sifarişin təkamülünü, bu yoldakı qabarma və çəkilmələri müşahidə etməyə və konkret, nisbi müstəqil bir tarixçədən çıxış edərək bütövlükdə mədəni-mənəvi həyatımızın keçdiyi inkişaf yoluna nəzər salmağa imkan verir.





Hadisələrin sadəcə təsvirindən ibarət olan, yalnız xronoloji və faktiki material əsasında yazılan tarixlərdən fərqli olaraq, bu cür araşdırmalar *canlı tarixin* yazılmasına, başqa sözlə desək, tariximizin hansı isə bir rakursda yenidən canlandırılmasına səbəb olur. Həqiqi yüksək sənətkarlığın təqdimatı üçün bu sənətə tən gələn, incə zövqlə müəyyənləşdirilmiş bədii-estetik fon, dəvətlilərin uğurlu seçilməsi və onların çıxışlarının bir-birini vahid ideya xətti üzrə bir-birini tamamlaması, dekorasiya ilə təbii fonun harmonik vəhdəti, kompozisiya bütövlüyü və nəhayət, aparıcının yüksək peşəkarlığı – bütün bunlar başqa verilişlər üçün də örnək ola bilər.

Bu verilişdə Şövkət Ələkbərova, Mənsum İbrahimov kimi ciddi sənətkarların ifası yüksək sənətşünaslıq səviyyəsində işıqlandırılır, klassik ifalar qondarma deyil, həqiqi müasirlik fonunda təqdim olunur. Bir var sənətin özü, bir də var onun uğurlu təqdimatı, ictimai rəyin düzgün yönəldilməsi və formalaşdırılması. Təəssüf ki, çox vaxt sənətkarlıq baxımından aşağı səviyyədə olan, hətta lap tutaq ki, hansı isə cəhətlərinə görə cazibədar olan ifaların ümumi fonu, bədii-estetik aura və ifanı müşayiət edən şoumen təqdimatları, verilişdə səslənən yöndəmsiz söz və ifadələr, "ideyalar" o dərəcədə naqis olur ki, sənət elementləri tamamilə kölgədə qalır, tamaşaçıların zövqü tədricən korlanır, psixikası pozulur və real mənəvi ehtiyaclar əvəzinə, instinktlər və reflekslər işə düşür, insan öz ali mahiyyətinə doğru yüksəlmək əvəzinə, cismani başlanğıcına doğru sürüklənir. Yəni təqdim olunan konkret sənət nümunəsi, ifanın özü nə qədər əhəmiyyətlidirsə, onun təqdimat üslubu, verilişin ideya xətti də bir o qədər əhəmiyyətlidir.

Bizcə, tamaşaçının diqqətini cəlb etmək üçün bəhanə gətirilən və guya müasirlik əlaməti olan ifrat dinamikaya,

klipbazlığa, açıq-saçıqlığa, məzhəkələrə, şoulara ehtiyac olmadığına əmin olmaq üçün "Bir mahnının tarixçəsi"nə baxmaq kifayətdir.

**Sadəliyin gözəlliyi**

Bəli, mahnı həqiqətən gözəl idi, elə təqdim olunan bütün ifalar da. Amma bizim məqsədimiz ifa məharətindən deyil, yüksək ziyalı mədəniyyətindən və bədii özünüdərk səviyyəsində təhlil qabiliyyətindən bəhs etməkdir.

Mən yuxarıda müğənninin əsas işinin danışmaq yox, oxumaq olduğunu vurğulamışdım. Müğənni jurnalistliyinin, onların aparıcılığı ilə düzənlənən «didaktik» söhbətlərin əleyhinə fikir söyləmişdim. Amma bu o demək deyil ki, müğənnilər arasında da yüksək intellektual səviyyəli şəxslər ola bilməz. Belə şəxslər onsuz da öz missiyasını düzgün bilir və ancaq məqamında və qədərində danışırlar.

«Söz olmasaydı» mahnısından bəhs edərkən Mənsum İbrahimov diqqəti belə bir cəhətə yönəltdi ki, bu mahnının gözəlliyi onun sadəliyindədir. Müğənni bunu xüsusi vurğuladı ki, sadə əsəri yüksək sənətkarlıqla ifa etmək çox çətindir. Çünki mürəkkəb kompozisiyaya malik olan əsərin ifası yüksək texnika tələb edir. Ona görə də, belə əsərlərin ifasını ancaq müvafiq təhsil görmüş, ifaçılıq texnikasına mükəmməl yiyələnmiş şəxslər üzərinə götürür. Sadə mahnıları isə hamı oxuya bilir; texnikası olan da, olmayan da. Bax, səsin öz təbii keyfiyyəti və imkanları bu zaman yeganə meyar olur. Bu təhlil göstərdi ki, Mənsum İbrahimov gözəl səsə, yüksək səhnə mədəniyyətinə, ifaçılıq məharətinə malik olmaqla yanaşı, öz sənətini nəzəri cəhətdən də mükəmməl mənimsəmişdir və onu təkcə musiqi ilə deyil, söz və mühakimə ilə də təqdim edə bilir.





Əsl sənətkarlıq üzdə sadə görünənin alt qatdakı dərin mənasını üzə çıxarmaq məharətidir. Alabəzək və qatmaqarışıq klip həvəskarlarından fərqli olaraq, yüksək zövqlü tamaşaçı diqqətini sadəcə sənətin özünə yönəltmək istəyir. Onu şousuz-filansız, səsin, musiqinin öz sehri ilə ovsunlamağa isə ancaq həqiqi sənətin gücü çatar.

*"525-ci qəzet", 9 dekabr, 2009-cu il.*

# Röya və gerçək

*Televiziya elə adamlardan həzz almağa imkan verir ki, onları heç kəs evinin kandarına da buraxmaz.*

D. Frost

## Efir görüntüləri və gerçək həyat: kim kimə daha çox təsir edir?

Televiziyada görünənlər də əslində bir röya yox, gerçək həyatın, ictimai şüur səviyyəsinin göstəricisidir. Televiziya ilə cəmiyyət arasında həm düz, həm də əks əlaqə vardır. Yəni TV bir tərəfdən, cəmiyyəti əks etdirir, burada baş verən hadisələri və onların əsasında dayanan arzu və niyyətləri, məqsəd və idealları, səy və cəhdləri, orta şüur səviyyəsini, təfəkkür mədəniyyətini, ümumi ictimai tendensiyaları ifadə edir. Digər tərəfdən də cəmiyyətə əks-təsir göstərərək onu yönəldir, istiqamətləndirir, onun inkişafına və ya tənəzzülünə xidmət edir. Başqa sözlə desək, televiziyada göstərilənlər təkcə bizim ictimai reallığımızı deyil, həm də kimlərinsə bu reallığı necə görmək arzusunu ifadə edir.

Hər nə baş verirsə o, real bir ictimai tələbatın ifadəsidir. TV rəhbərləri də efirin məzhəkə və pop-şou ilə dolmasının səbəbini ictimai rəy və sosial sifarişlə izah etməyə çalışırlar. Amma bir var tamaşaçının tələbatı, bir də var efirə çıxmaq istəyi və bu istəyin arxasında duran hansı isə





təmənnalı tələbat.

"Ağlamayana süd yoxdur". Efirdə görünmək kimə daha çox lazımdır? Bir yazıçıya, alimə, ziyalıya TV-də çıxış nə verə bilər? Düzdür, ziyalı o adamdır ki, o özü üçün bir fayda güdməyərək xalqına xidmət etməyə çalışır. Lakin dünya praktikasında bu çıxışa görə ona hər halda qonorar da verilir. Yəni, maddi maraq da olsun deyə. Bizdə isə belə praktika olmadığına görə, ziyalı TV-də görünmək üçün xüsusi canfəşanlıq etmir. Öz abırına qısılaraq nə vaxt dəvət olunacağını gözləyir. Toy müğənnisi üçün isə efirdə görünmək bir reklamdır və bu reklam ona "milləti maarifləndirmək" üçün deyil, real biznes üçün hava-su kimi lazımdır. Öz əsas məqsədinə çatmaq, populyarlıq qazanmaq üçün onlar, hətta "mənəviyyat dərsi demək" kimi ağır bir yükü də öz üzərlərinə götürürlər.

Bəli, deməli TV-də yaranmış vəziyyətin təməlində doğrudan da bir tələbat dayanır. Amma ictimai tələbat yox, toy biznesinin tələbatı. Lakin televiziyada maarif və mənəviyyatın şou-biznes tərəfindən üstələnməsinin başqa səbəbləri də vardır ki, bunlardan da ən əsası qloballaşmanın arxasında duran ideologiyanın transmilli biznes simasında, reklam sifarişçisi qismində işə müdaxilə etməsidir.

Lakin biz bu dəfə diqqəti qlobal dünyanın maraqları məsələsinə deyil, virtual dünyanın "yeni mənəviyyat" röyası ilə gerçək mənəvi prioritetlər arasındakı mübarizəyə yönəltmək istəyirik.

## Röya olmasaydı, bəzi gerçəklər yada düşməzdi?!

Son vaxtlar mənəviyyatla bağlı söhbətlər əsasən televiziya verilişlərinin tənqidi təhlili kontekstində yada düşür. Atalar demişkən, hər pis şeyin bir yaxşı tərəfi də olar-

mış. Görünür mənəviyyatımızın yada düşməsi, gündəmə gəlməsi üçün onun bu dərəcədə alçaldılması, gecə-gündüz televiziyada əks-təbliğata məruz qalması lazım imiş.

Röya olmasaydı, bəzi gerçəklər yada düşməzdi. Düzdür, falabaxanlığı da, ekstrasensliyi də, röyaların yozulmasını da yada salan yenə elə televiziya kanallarıdır. Amma mən televiziyada sərgilənən həyatdan oyanıb gerçək həyata üz tutmağı tövsiyə edərdim. Onda görərdik ki, mənəviyyatımız heç də efirdə göründüyü dərəcədə aşınmayıb, adət-ənənə də abır-həya da gerçək həyatda hələ qalmaqdadır. Amma televiziya və internetin, virtual həyatın gerçəyə müdaxiləsi getdikcə intensivləşir və təəssüf ki, mənfi təsirlər müsbəti üstələyir və bəzən dözülməzlik həddinə çatır.

Röyanın yaxşı cəhəti odur ki, sabah gerçək həyatda doğrudan-doğruya baş verə biləcək bir hadisəni öncədən görürsən və sanki sənə bir xəbərdarlıq olunur. Və başlayırsan düşünməyə...

Bunları düşünərkən, yadıma çoxdan unudulmuş bir rəvayət düşdü.

### Röyada bir səhra və ya "kim isə əndazəni aşmasa, cəza yada düşməz?!"

*Şərdə də bir xeyir var*
Atalar sözü

Bir ərəb rəvayətinə görə, bir qadın yuxusunda səhrada tək-tənha olduğunu görür. Və haradansa quldurlar peyda olub onun qarşısını kəsir və bütün qiymətli şeylərini və üst paltarını əlindən alırlar. Bu zaman alt paltarının da çox gözəl olduğunu görüb onu da qarət etmək istəyirlər. Amma röyada da olsa alt paltarını çıxarmağa cəsarət et-





mir, bu qərarda müəyyən tərəddüd göstərirlər. Uzaqdan keçən bir qocanı səsləyib ondan bir məsləhət istəyirlər. Qadın yalvarış dolu nəzərlərini qocaya dikir. Qoca isə bir yerə baxır, bir göyə və deyir ki, ürəkləri necə istəyir, elə də etsinlər. Quldurlar əllərini qadının paltarına uzadan kimi bir şimşək çaxır, bir tufan qopur və aləm bir-birinə qatışır. Ara sakitləşdikdən sonra qadın gözlərini açıb görür ki, quldurlar yerlə yeksan olmuş və bir o, bir də qoca salamat qalmışdır. Qadın təəccüblənir və soruşur ki, axı bu quldurlar Allahın qəzəbinə rast gəldisə, bəs sənə niyə bir şey olmadı? Axı onlar heç olmasa tərəddüd edirdilər. Sən isə məni biabırçılıqdan xilas etmək əvəzinə, hər şeyi onların öhdəsinə buraxdın.

Qoca belə cavab verir: Qızım, həmin məqamda mən göyə baxdım və gördüm ki, zülmün ərşə çatması üçün cəmi bir qarış qalır. Əgər onlar bu son qəddarlığa qərar verməsəydilər sənin bütün zinətlərini də aparıb rahatca gedəcəkdilər. Amma mən düşündüm ki, zülm ərşə çatsa, onlar cəzalarını alar və sənin də hər şeyin özünə qayıdar. Görürsən ki, belə də oldu.

Yaxşı ki, bu bir röya imiş. Amma doğrudanmı TV məkanında haqqı bərpa etmək üçün mütləq o bir addımın da atılmasını gözləməliyik?!

Bizim gerçək həyatımız bəzən röyaları və virtual məkanın görüntülərini necə yozmaqdan, necə nəticə çıxarmaqdan və nə kimi bir qərar verməkdən asılı olur.

### Elm adamları, televiziya və mənəviyyat

Alimlər ən ağıllı adam hesab olunurlar. Düzdür, atalarımız "alim olmaq asandır, insan olmaq çətin", – demişdir. Amma alimliyə gedən yol qismən insanilaşmaya də xidmət edir. Bununla belə, elm və mənəviyyatı eyniləşdi-

rmək olmaz.

Efirdə yaranmış vəziyyət təkcə alimlərə yox, bütün cəmiyyətə təsir edir. Bu vəziyyətin dəyərləndirilməsi də elmi bir məsələ olmaqdan daha çox, milli ruh, milli qeyrət və mənəviyyat məsələsidir. Bununla belə, cəmiyyət alim sözünə daha çox inanır və mötəbər elm kürsüsündən deyilən sözün xüsusi çəkisi də daha böyükdür.

Bu yaxınlarda AMEA-da televiziya verilişləri və milli-mənəvi dəyərlərimizlə bağlı ciddi narahatlıqların müzakirəsinə həsr olunmuş geniş iclas keçirildi və burada çıxış edən çox hörmətli bir akademik televiziya kanallarındakı eybəcərliklərdən hərtərəfli danışaraq, yaranmış vəziyyətin geniş təhlilini verdi. Konkret ad çəkməsə də, bəzi müğənnilərin televiziyada apardıqları verilişlər haqqında söhbətdə tənqid hədəfinin kimlər olduğu əslində bəlli idi. Heç bir abır-həya gözləməyən, həddindən artıq açıq-saçıq geyinən və bununla kifayətlənməyərək efirdən abırsızlığın təbliğinə cəhd göstərən bu müğənnilər və onlara efir vaxtı verən TV kanallarının başbilənləri tənqid olunurdu. Lakin görünür, bu mövqe bizim akademiklərin yekdil fikri deyildi. Çünki cəmi bir neçə gün əvvəl başqa bir akademik həmin müğənnini tərifləmiş, həm də təkcə onun səsinin yox, verilişlərinin də pərəstişkarı olduğunu bəyan etmişdi.

Deməli, nəinki ictimai fikir haçalanır, hətta ən yüksək elmi fikrin ifadəçiləri arasında da müəyyən bir fərq vardır. Görünür, elmin mötəbər mövqeyi də plüralizm dalğalarının təsirinə məruz qalmışdır.

Baş verənlər televiziyanınmı, ictimai şüurun və mənəviyyatınmı, yoxsa Akademiyanınmı səviyyəsini göstərir, deyə bilmərəm, amma istənilən halda bu rəy müxtəlifliyi bir röya deyil, gerçəklikdir. Deməli, bu dəfə hər şey bizim yozumumuzdan yox, seçimimizdən asılı olacaqdır. Görəsən, zaman bu iki fərqli akademik mövqeyindən hansına üstünlük verəcəkdir?!

Nə yaxşı ki, bu yaxınlarda mətbuatda yüksək rütbəli dövlət rəsmisinin bu vəziyyətə konkret münasibəti açıqlanmışdır. Və ümid yaranır ki, nəhayət, milli mənəvi maraqlar kimlərinsə biznes maraqlarını üstələyəcək, bütün sahələrdə olduğu kimi, bu sahədə də aydın bir dövlət xətti nümayiş etdiriləcəkdir.

*"525-ci qəzet", 15 dekabr, 2009-cu il.*

## TV-də stereotip və axtarışlar

*Şərqi geri qoyan fikir tənbəlliyidir.*
Əbu Turxan

### İki "Ovqat"

Bir neçə il əvvəl ictimai kanalda işıq üzü görən "Ovqat" televiziya proqramı belə bir yanlış təsəvvürü dağıtmağa müvəffəq oldu ki, guya tamaşaçılar ziyalıların deyil, şoumenlərin, komediantların, dedi-qoduçuların söhbətlərinə daha böyük həvəs göstərirlərmiş. Hətta əgər belədirsə, bu acınacaqlı vəziyyət neçə illər ərzində aparılan qüsurlu efir siyasətinin nəticəsidir. Amma istənilən halda "Ovqat" ciddi ziyalı söhbətinə, ölkəmizin tanınmış alim, şair və sənətkarlarının həyata baxışı, yaradıcılığı ilə tanış olmağa tamaşaçıların böyük ehtiyacı olduğunu üzə çıxartdı.

Günlərin bir günündə «Ovqat» ikiləşdi. Onun ənənəvi aparıcısı eyni ad və quruluşda bu dəfə AzTV-də efirə çıxdı. Ən nüfuzlu iki televiziya kanalı arasında «Ovqat» uğrunda bir mübarizə başlandı. Bu əhvalatın zahiri tərəfləri və detalları bizi maraqlandırmır. Verilişin tarixçəsi, müəlliflik hüququ məsələləri, hansı jurnalistin aparıcı olması ikinci dərəcəli məsələlərdir. Maraqlı olan budur ki, əgər tamaşaçılar ziyalı söhbətinə ehtiyac hiss edirsə, bu tələbat nəyə görə müxtəlif formalarda və formatlarda, müxtəlif efir vaxtlarında ödənilmir? Məhz bunun nəticəsi deyilmi ki, şou-biznes ulduzları mahnı oxumaq əvəzinə, müxtəlif verilişlərə aparıcılıq edir və insanların real həyati tələbatları ilə bağlı "fəlsəfi" söhbətlərə girişirlər? Zira, boşluq varsa, o, mütləq dolmalıdır. Əslində aktual mövzular gündəmə gətirilir, tamaşaçının ehtiyacı guya ödənilmiş olur, sadəcə səviyyə aşağı düşür. Və səviyyəsi aşağı salınmış tamaşaçı daha artıq yüksək meyarlardan çıxış edən və çətin başa düşülən mühakimələri dinləmək belə istəmir.

Maraqlı olan bir də budur ki, görəsən, tamaşaçılar bazar günü səhər tezdən yuxularına haram qataraq televizoru aparıcıya baxmaq üçünmü, yoxsa onun dəvət etdiyi qonaqların söhbətlərini dinləmək üçünmü açırlar? Axı, TV kanalları fərqli olsa da, verilişə dəvət edilə biləcək ziyalı kontingenti eynidir. Yəni tamaşaçını ilk növbədə istər-istəməz kimin dəvət olunduğu maraqlandırır. Əlbəttə, aparıcının da müəyyən rolu vardır. Lakin o ancaq vasitəçidir. Belə olan halda, TV kanalları arasında mübahisənin əsasında, görəsən, nə dayanırdı?

Heç cür inana bilmərik ki, hər şey «ovqat» sözünün başında imiş. İndi də «Ovqat» olmasın, "Sovqat" olsun. İndi də bu aparıcı olmasın, başqası olsun. Düzdür, onun da yetkinləşməsi üçün müəyyən axtarış və vaxt lazımdır. Amma gec-tez bu məsələlər öz yerini tutacaqdır. Əsas məsələ ideyanın düzgün qiymətləndirilməsidir. Bu baxımdan, AzTV «Ovqat»a sahiblik etməklə kifayətlənməyərək, «İdrak», «Günün nəbzi» və s. bu kimi verilişlər də işləyib-hazırladı ki, bunlar hamısı tamaşaçıların yüksək mənəvi və intellektual ehtiyaclarının ödənilməsinə xidmət edir. Yəni ilk vaxtlar AzTV bu istiqamətdə daha çox fəallıq göstərə bildi.

İctimai televiziya isə «Ovqat»ı «Sovqat»la əvəz etməklə əvvəlcədən başladığı işi davam etdirməyə çalışdı.

### «Ovqat» və «Sovqat»

Rəqabətsiz inkişaf yoxdur. Bu hadisə də yeni axta-

rışlar üçün stimul oldu. Amma özünü qalib hiss edən «Ovqat» yeniləşmək üçün ciddi cəhdlər göstərmədi. Hər şey eyni ilə saxlandı. Söhbətin mövzusu da (şən əhval-ruhiyyə), hətta dəvət edilənlər də əvvəlkilərin təkrarı oldu. Necə deyərlər, «gördüyünü qoyub, görəcəyə getməyə nə hacət?». «Sovqat» isə təkcə yeni aparıcı axtarışı ilə kifayətlənməyərək, fərqli görüşlər və söhbətlərin sorağı ilə çox-çox uzaqlara gedib çıxdı; qonşu ölkələrdə, Türk Cümhuriyyətlərində yaşayan Azərbaycan ziyalılarını və yenə də ilk növbədə şairlərini tamaşaçılara təqdim etməyə çalışdı. Lakin bizi uzaq ellərdəki soydaşlarımızın yaradıcılığı ilə tanış edən bu cür görüşlər özlüyündə çox dəyərli olsa da, «Ovqat»la rəqabət planında düzgün taktika sayıla bilməzdi. Bu qədər zəhmət hesabına başa gələn və həqiqətən çox gərəkli olan bu verilişlərin rəqabətdə uduzmasinin səbəbi isə jurnalistlərin səviyyəsindən, peşəkarlıq dərəcəsindən deyil, ideyanın özündəki bir məqamdan irəli gəlirdi. Məsələ burasındadır ki, "Ovqat"ın (yaxud «Açıq dərs», «Bir mahnının tarixçəsi» (İTV), «Zərif çərşənbə» (ANS), «Tərəf-müqabil» (AzTV), «Dost məclisi» və «Pəncərə» ("Xəzər"), «İrsimiz» (ATV) və s. bu kimi verilişlərin) üstünlüyü məhz tanınmış, mötəbər ziyalıların, görkəmli söz və fikir adamlarının iştirakında, ya söhbətlərin intellektual səviyyəsində, ya da şöhrət sindromundadır. Azərbaycanın ən çox tanınan, sayılıb-seçilən ziyalıları isə, şübhəsiz ki, ilk növbədə öz ölkəmizdə müəyyən mövqe tutmuş, özünü artıq təsdiq etmiş şəxslərdir. Onları hətta barmaqla saymaq mümkündür. Harada isə ölkəmizdən kənarda yaşayan böyük ziyalılarımız isə çox azdır. Bu mənada, əlbəttə, Mir Şahin (ANS) kimi, xaricdə yaşayanların da ən məşhurları ilə söhbətləşə bilsələr, uğur qazanmaq olardı. Amma bu da hər dəfə olmur. Ona görə də, «Sovqat» yenidən əvvəlki formata qayıtdı və tanınmış ziyalı sorağına çıxdı.





Biz bu məsələnin təfərrüatlarını ona görə təhlil edirik ki, bu iki veriliş arasındakı rəqabət ölkəmiz üçün böyük ictimai əhəmiyyəti olan mühüm bir problemi daha aydın nəzərə çarpdırdı. Bu problem – ziyalı defisitidir. Böyük titulları, yüksək elmi dərəcələri olan şəxslərin heç də hamısının tamaşaçıya deməyə sözü yoxdur. Burada problemin başqa bir cəhəti də üzə çıxır. Bizim böyük alimlərin və vəzifəli şəxslərin bir qismi yüksək nitq mədəniyyətinə və tamaşaçı ilə ünsiyyət vərdişlərinə malik deyillər. Yaxşı mütəxəssis olmaq bir məziyyətdir, səmimi söhbət apara bilmək, öz ideyalarını ustalıqla çatdırmaq isə başqa bir məziyyətdir. Görünür, məhz bunun nəticəsidir ki, eyni adamlar eyni proqrama bəzən üçüncü dəfə dəvət olunurlar. Yaxud başqa peşə sahibləri arasında ünsiyyətcil tərəf-müqabil tapa bilmədikdə, «nə yaxşı ki, şairlərimiz bol imiş», – faktı yada düşür. Burada aparıcını qınamaq da düz deyil. Xarici ölkələrdə, o cümlədən, qardaş Türkiyədə ictimai və mədəni-mənəvi problemlərin təhlili ilə ilk növbədə əsas işi məhz bu təhlillərdən ibarət olan şəxslər: fəlsəfəçi və sosioloqlar məşğul olurlar. Bizdə isə sosiologiyamı hələ gəlişməyib, rəsmi fəlsəfəçilərmi bu funksiyanı yerinə yetirə bilmir, jurnalistlərinmi dünyagörüş səviyyəsi aşağıdır, ya nədəndirsə, bu sahədə adekvat olmayan bir yerdəyişmə baş vermiş, insanın mənəvi dünyası və ictimai həyatla bağlı məsələlər sıravi jurnalistlərin və estrada ulduzlarının öhdəsinə buraxılmışdır.

Görünür, ölkəmizdə, ictimai və humanitar elmlərin vəziyyəti ilə əlaqədar həyəcan təbili təsadüfən çalınmır.

### «Sovqat»ın revanşı

«Sovqat»ın sadəcə yeni adla deyil, həm də yeni ideya və yeni qonaqlar seçimi ilə diqqəti cəlb etməyə çalış-

ması, nəhayət ki, öz bəhrəsini verdi. 8 Mart Qadınlar bayramı ərəfəsində «Sovqat» ənənədən kənara çıxaraq həm formatı dəyişməklə, həm məhz qadınları dəvət etməklə, həm də gənclərə yönəli bir söhbət açmaqla yeni simada üzə çıxdı və yeni söz deyə bildi.

Ziyalı defisiti şəraitində bu, çox uğurlu bir tapıntı idi. İndi sıramızda olmayan, lakin öz yaradıcılığının gücü ilə, sözü ilə yenə də köməyə gəlmək iqtidarında olan klassikaya müraciət: yenə Rəsul Rza, Xəlil Rza, Məmməd Araz, Anar və s.. Böyük sənətkarların yad edilməsi və eyni zamanda bizə miras qoyduqları bədii irslə yanaşı, onların canlı təcəssümləri ilə görüş. Və ən başlıcası, yeni nəslin təqdimatı. Bu baxımdan, məsələn, yazıçı Günel Anarqızının özünüifadəsi. Əlbəttə, Anar bu gün də aktualdır. Amma indi oxucular, tamaşaçılar beşmərtəbəli evin təkcə altıncı mərtəbəsinə deyil, onaltıncı mərtəbəsinə də maraq göstərirlər. Yəni altıncı mərtəbənin də öz növbəsində necə mərtəbələndiyini gənclər bizdən daha yaxşı bilirlər.

Firəngiz xanım bizi Xəlil Rza şəxsiyyətinin indiyədək açılmamış səhifələri ilə tanış etdi, sovet dövründə KQB xofuna qalib gələn mübariz milli ruh haqqında gənclərimizdə təsəvvür yaratdı. İradə Tuncayın mühakimələri sayəsində qadınların gözü ilə baxanda bu dünyanın bizim görə bilmədiyimiz rəng çalarları üzə çıxdı. Bir sözlə, «Sovqat» yeknəsəqlikdən ayrılaraq tamaşaçılara yeni baxış, yeni səs, yeni nəfəslə təmas imkanı yaratdı. Düzdür, "bu fərqli mühiti daha hansı formalarda və daha kimlərin sayəsində davam etdirmək olar?" – düşüncəsi müəyyən bir nigarançılıq yaradır. Amma hər bir orijinallıq, hər bir yaradıcılıq dəstək görərsə, daha davamlı olar. Gəlin, yeniliyi dəyərləndirək, yaxşıya yaxşı deməkdən çəkinməyək!

*"525-ci qəzet",12 mart, 2010-cu il.*



# *Şəxsiyyətlər, portretlər*

- **Akademik Heydər Hüseynov**
- **Akademik İzzət Orucova**
- **Professor Xudu Məmmədov**
- **Professor Aida İmanquliyeva**
- **Prof.Dr. Cavad Heyət**
- **Filosof-tənqidçi Yaşar Qarayev**
- **Filosof-tənqidçi Asif Əfəndiyev**
- **Akademik Fəraməz Maqsudov**
- **Akademik Kamal Talıbzadə**
- **Akademik Fuad Qasımzadə**
- **Akademik Budaq Budaqov**
- **Akademik Ömər Eldarov**
- **Xalq şairi Zəlimxan Yaqub**
- **Akademik Nailə Vəlixanlı**
- **Professor Nurəddin Rzayev**
- **Professor Rafiq Qurbanov**

# Müasiri olmadığım müasirim

*(Akademik Heydər Hüseynov haqqında)*

*Sənət adamları və riyaziyyatçılar şöhrət çələngini tez geyinirlər. Müdriklik isə adətən ömrün yetkin çağında gəldiyindən fəlsəfədə gənc yaşlarından uğur qazanan insanları barmaqla saymaq olar. 31 yaşından (1939-cu il) başlayaraq Azərbaycanda fəlsəfə və ictimai-siyasi elmlərə rəhbərlik edən, 37 yaşında (1945-ci il) akademik olan, Azərbaycan Elmlər Akademiyasının əsasını qoyan və onun ilk vitse-prezidenti seçilən Heydər Hüseynovun hikmət çırağı, nə yaxşı ki, tez şölələndi və xalqımızın milli ideya tarixinin ən çətin bir dövrünə işıq saldı. Repressiyalardan sarsılmış Azərbaycan mlli məfkurəsinin yeni dövrün nəbzini tuta bilən yeni dühalara ehtiyacı var idi. Belə çətin bir məqamda milli şüurun tarım çəkilmiş və incəlmiş varislik körpüsünü dağılmaqdan xilas etmək üçün tale Azərbaycana Heydər Hüseynov şəxsiyyətini bəxş etdi.*

## Dövrün faciəsi

XX əsr Azərbaycanın dövlətçilik tarixində ən mürəkkəb, çətin və eyni zamanda ən şərəfli dövrlərdən biridir. Bu dövrdə siyasi həyatın təbəddülatları ictimai-siyasi fikrin də oyanışı, böhranı və sıçrayışlı inkişaf məqamları ilə zəngin olmasını şərtləndirmişdir. Milli fikrin oyanışı ilə siyasi repressiyalar və ideoloji məhdudlaşdırmalar eyni





dövrə təsadüf etdiyindən siyasi, ictimai və fərdi şüurdakı ziddiyyətlər bir çox fərdi faciələrin də səbəbinə çevrilmişdir.

Böyük şəxsiyyətlərin faciəsi də böyük olur. Ötən əsrin əvvəllərində Azərbaycanda gedən milli oyanış və milli-siyasi özünüdərk prosesləri ictimai şüurda böyük iz qoymuş və iki illik demokratik cümhuriyyət müddətində inkişaf tapmış milli dövlətçilik şüuru ilə birləşərək milli-siyasi şüurun formalaşması üçün əlverişli zəmin hazırlamışdı. İyirminci illərdə ədəbi-bədii yaradıcılığın və milli məfkurənin oyanış və inkişaf dalğaları öz siyasi hakimiyyətini və ideologiyasını ictimai həyatın bütün sahələrinə transformasiya etməyə çalışan bolşevizm ilə üzləşməli oldu. Otuzuncu illərdəki siyasi repressiyaların Azərbaycanda həm də bütövlükdə ziyalılara qarşı bir irtica səciyyəsi daşıması bu amil ilə bağlı idi. Belə ki, məhz Bakı hələ çar Rusiyası dövründən yeni iqtisadi münasibətlərə keçid və milli burjuaziyanın yaranması, milli fikrin oyanışı sahəsində digər bölgələrdən kəskin şəkildə seçilirdi və buradakı repressiyalar da SSRİ-nin başqa ərazilərindəkindən fərqli olaraq, siyasi ideoloji mülahizələrdən başqa, həm də milli-siyasi və mədəni-mənəvi məzmun daşıyırdı.

Otuzuncu illərdə ictimai-siyasi həyata təzəcə qədəm basan gənclər isə kommunist ideologiyasının açdığı yolla irəlilədiyindən təhlükəli görünmürdülər. Lakin uşaqlıq illərində formalaşmış milli qürur, dövlətçilik və xalqına sədaqətli xidmət hissiyyatı o dövrdə yetişən gənclərin bir qisminin zehnində, təhtəlşüur qatında hələ qalmaqda idi.

Sosialist quruluşunun yaratdığı bütün imkanlardan istifadə edərək xalqına xidmət göstərmək, milli-fəlsəfi fikir tarixini, ədəbi-bədii və milli-mənəvi dəyərləri öyrənməklə xalqın genetik yaddaşını bərpa etmək, siyasi-ideoloji müstəvidə qadağan olunmuş milli dövlətçilik məfkurəsi-

ni, heç olmazsa, bədii ədəbiyyat, mənəvi mədəniyyət prizmasından keçirərək yaşatmaq – bütün bu istəklər ötən əsrin iyirminci-otuzuncu illərindəki elitar gəncliyin zehninə və qəlbinə hopmuşdu. Səməd Vurğun, Rəsul Rza, Heydər Hüseynov, Mirzə İbrahimov kimi gənclər ictimai-siyasi və milli-mənəvi həyata artıq sosializm cəmiyyətində qədəm qoyduqlarından və bu cəmiyyətin tələblərini mənimsəmiş olduqlarından daxili aləmlərindəki ziddiyyətləri mümkün qədər büruzə vermədən fəaliyyət göstərmək məcburiyyətində idilər. Babaların gen yaddaşını qırmızı bolşevik dəbilqəsində yaşatmaq və yeni nəsillərə təqdim etmək kimi çətin bir vəzifəni icra etməli olan bu şəxsiyyətlərin faciəsi – dövrün faciəsi idi. Hələ əsrin əvvəllərində özünü təsdiq etmiş, yaradıcılıq istiqaməti və üslubu formalaşmış Mirzə Cəlil kimi, Hüseyn Cavid kimi şəxsiyyətlər yeni dövrə uyğunlaşa bilməyərək, onunla üz-üzə dayanmaq məcburiyyətində idilər. Daha doğrusu, dövr, ictimai-siyasi mühit özü onlarla üz-üzə dayanmışdı.

Nisbətən sonrakı nəsl üçün isə başqa bir aqibət hazırlanmışdı. Bu aqibəti yaşamaq məcburiyyətində olanlardan biri də Heydər Hüseynov idi. Yeni cəmiyyətin «yetişdirməsi» olan, kommunist ideologiyasının, marksist-leninçi fəlsəfənin mərkəzində dayanan, lakin milli varlığına bağlılığı qəlbindən çıxarıb ata bilməyən, sosialist cəmiyyətinin verdiyi bütün imkanlardan məhz millət üçün, xalq üçün istifadə etməyə çalışan, milli mənəviyyatımız, mədəni-mənəvi dəyərlərimiz, ədəbi-bədii və fəlsəfi abidələrimiz kommunist ideologiyasının labirintlərindən keçirib yaşatmaq uğrunda çalışan və bu sahədə böyük uğurlar qazanan Heydər Hüseynovun daxili ziddiyyəti, görünüşü ilə mahiyyəti arasındakı fərq günlərin bu günü bolşeviklərin diqqətini cəlb etsə də, artıq o öz işini görmüşdü. Milli məf-





kurənin estafeti yeni nəslə ötürülmüşdü. Əlbəttə, əslində çox gənc olan, yaradıcılıq enerjisi aşıb-daşan 42 yaşlı akademik millət üçün hələ çox işlər görə bilərdi. Lakin onun cismani həyatı dayandırıldıqda *əsas missiya* artıq yerinə yetirilmişdi. Milli mənəviyyatın, ictimai fikir tarixinin, dövlətçilik şüurunun, ədəbi-bədii və fəlsəfi dəyərlərin qırmızı terror baryerindən keçirilərək yeni nəslə ötürülməsi ilə mənəvi tarixin kəsilməzliyi təmin olunmuşdu. Bu proseslərin ictimai təşkilatlanması da artıq başa çatmışdı: kafedralar, fakültələr, elmi-tədqiqat institutları yaradılmış, Akademiyanın ictimai və humanitar elmlər bölməsinin fəaliyyəti mütəşəkkil və müntəzəm xarakter almışdı BDU-nun nəzdindəki fəlsəfə fakültəsinin ilk məzunları ilk milli kadrlar olaraq təkcə marksist-leninçi fəlsəfənin deyil, həm də Azərbaycanın fəlsəfi və ictimai-siyasi fikir tarixinin tədqiqinə cəlb etmişdi.

Bununla belə, şəxsiyyətin yoxluğu sonrakı daha böyük vəzifələrin həyata keçirilməsinə imkan vermədi...

## Millətin faciəsi

Millət özünüdərk səviyyəsinə qalxa bilmədikdə, milli hissiyyat rasional düşüncəyə və oradan ictimai-praktik fəaliyyətə yönəldilə bilmədikdə, ancaq ayrı-ayrı böyük şəxsiyyətlərin məfkurəsində yaşayan milli ruhun geniş ictimai təbəqələrə ötürülməsi və ictimai şüurun strukturunda qərarlaşması mümkün olmadıqda millətin faciəsi qaçılmazdır.

İctimai şüurla, kütlənin hissiyatı ilə istədiyi kimi manipulyasiya edə bilmək üçün milli ruhun təklənmiş daşıyıcılarına qarşı repressiya imperiya siyasətinin ayrılmaz tərkib hissəsidir. Lakin bu repressiya çox vaxt Mərkəzin əli ilə deyil, milli ruhdan məhrum edilmiş, manqurtlaşmış,

«milli» kadrların öz əli ilə həyata keçirilir.

Otuzuncu illərin repressiyası zamanı Kremlin, Mircəfər Bağırovun, yoxsa yerli ermənilərin daha fəal rol oynaması barədə bəzən mübahisələr gedir. Lakin əslində, bu tərəflər bütöv bir prosesin iclasında müxtəlif funksiyaları yerinə yetirməklə bir-birini tamamlayırdılar. Proseslərin ümumi prinsipləri «yuxarıdan» verilir, yerli rəhbərlik tərəfindən icra olunurdu. Ermənilərin iştirakı isə bu aksiyanın daha «effektli» həyata keçməsi, say-seçmə insanlara, «ideoloji düşmənlərdən» daha çox, məhz milli ruhun daşıyıcılarına yönəldilməsinə xidmət edirdi.

Heydər Hüseynova qarşı repressiyanın əsas ilhamçısı və subyekti isə bilavasitə Mircəfər Bağırovun özü idi. Ona görə də, bir sıra tədqiqatçılar bu hadisəni imperiya siyasəti kontekstindən və deməli, mahiyyətlən ayıraraq hadisələr kontekstində təqdim edirlər. Və bu zaman manqurtlaşmış «milli» kadrların «mənəm»liyi, şəxsi maraqları və siyasi qısqanclıq hissləri ön plana çəkilir. Professor Eldar İsmayılovun həmin dövrün tarixinə həsr olunmuş kitabında da Heydər Hüseynovun intiharında Mircəfər Bağırovun mövqeyi və şəxsi fəallığı əsas arqument kimi götürülür.[1] Müəllif Heydər Hüseynovun ikinci dəfə Stalin mükafatına təqdim olunarkən Mircəfər Bağırovun iradəsindən asılı olmayaraq, bilavasitə Moskvanın himayəsinə istinad etməsi faktını faciənin əsas səbəbi kimi göstərir. Kimin isə Moskva ilə birbaşa əlaqədə olması və müstəqil addımlar atması o vaxt Azərbaycanda şəriksiz lider olan Mircəfər Bağırovun xoşuna gələ bilməzdi. Ona görə xaraktercə despot olan Mircəfər Bağırov Heydər Hüseynova qarşı kompromat axtarır və bu məsələdə akademikin axırıncı kita-

[1] Э.*Исмаилов*. Власть и народ. Послевоенный сталинизм в Азербайджане: 1945-1953 гг. Баку, 2003.





bında Şeyx Şamilə simpatiyasından istifadə edir. Bunun üçün Şamil hərəkatına və müridizmə münasibətin dəyişdirilməsinə nail olur və bu yeni platformadan çıxış edərək Heydər Hüseynovun əvvəlcədən yazıb çap etdirdiyi kitabına qarşı hücumlar edir.

Hadisələrin görünən tərəfi belə idi. Moskva dura-dura Azərbaycanın öz rəhbərliyi repressiya təşəbbüsü ilə çıxış edirdi. Bu faktdır və millətin faciəsidir. Bu faciə Hüseyn Cavidin «Topal Teymur» əsərinin finalında, Yusif Səmədoğlunun «Qətl günü» romanında şairin hökmdara müraciətində, Bəxtiyar Vahabzadənin «Özümüzü kəsən qılınc» əsərinin sərlövhəyə çıxarılmış mənasında və onlarca bu cür əsərlərdə böyük sənətkarlıqla qələmə alınmışdır. «Sapı özümüzdən olan baltalar», «ağacı içindən yeyən qurdlar» haqqındakı fikirlər atalar sözlərinə, zərb-məsəllərə çevrilmişdir.

Lakin bu heç də bəzilərinin düşündüyü kimi bir milli xüsusiyyət, milli mentalitet faktı deyildir. Məqsəd bu hadisələrin arxasında milləti məqsədyönlü surətdə bu faciəyə sürükləyən, qılıncı qılınca kəsdirən, manqurtlaşdıran və ananı oğlun əli ilə öldürən incə və məharətli imperiya siyasətinin köklərini açmaqdır. Millətin anti-millimündəricədən xilas ola bilməməsinin səbəbləri onun öz daxilində deyil, daha böyük miqyaslı proseslərin yönəldici qüvvəsində axtarılmalıdır.

Düzdür, bu gün biz imperiya buxovlarından azad ikən milliliyimizi bərpa olunmuş zənn edirik. Lakin qlobal siyasətlər cildini dəyişir və hər zaman yeni formalarda ortaya çıxır. İmperiyadan xilas olub qloballaşma dalğalarının qoynuna atılan millətlər özünüdərk yolunda hələ çox faciələr yaşamalı olacaqlar. Lakin faciəni hələ faciə kimi qavramaq qabiliyyəti itməyibsə, buna şükür etmək lazımdır. O gündən qorxmaq lazımdır ki, millət öz düşdüyü vəziyyəti

dəyərləndirə bilməsin, ondan feyziyab olsun və hər şeyi qırmızı rəngdə təsvir etsin. Milli daltoniklərin müalicəsi isə təəssüf ki, hələ tapılmayıb.

Çingiz Aytmatov manqurtlaşmanın səbəbini kənar qüvvədə, işğalçıların məqsədyönlü fəaliyyətində axtarmaqla bu məsələyə münasibətdə daha dərinə getmiş, oğulları anaya, Vətənə qarşı yönəldən, beyinləri millilikdən və övladlıqdan «təmizləmə» İmperiya siyasətinin iç üzünü göstərməyə çalışmışdır. Bəli, Heydər Hüseynovun intiharında daha qabarıq şəkildə üzə çıxan, əslində isə həmin dövrdə yaşayan milli ruhlu bütün şəxsiyyətlərə qarşı yönəldilmiş mənəvi repressiyanın kökləri daha dərindir. Heydər Hüseynovun faciəsi də, bizcə, hadisələr səviyyəsində deyil, ümumi siyasətin təkcə təzahürü kimi təqdim olunmalıdır.

## Fəlsəfə, ideologiya və milli ruh

Bəziləri əsl fəlsəfi tədqiqat dedikdə Aristoteldən, Kantdan və s. klassiklərdən iqtibaslar gətirməklə və bir qədər də Moskvada çıxan yeni nəşrlərə əsaslanmaqla yazılan Qərbyönümlü və müasir görüntülü məqalələri, «monoqrafiyaları» nəzərdə tuturlar. Və Heydər Hüseynov elmi irsinə nəzər salarkən söhbətin daha çox öz yazıçılarımızdan getdiyini, tədqiqat obyekti kimi Nizaminin, M.F.Axundovun, Mirzə Kazım bəyin, Səməd Vurğunun əsərlərinin seçildiyini görərkən bunları öz «elmi-tədqiqat» standartlarına uyğunlaşdıra bilmirlər. Lakin əsil fəlsəfə bu «standartlardan» çox yüksəkdə durur. Heydər Hüseynov yeri gələndə dialektikadan, idrak nəzəriyyəsindən yazmasına, yeri gələndə Moskvadakı diskussiyalarda iştirakına, o cümlədən A.A.Jdanovun sədrliyi ilə keçirilən məşhur bir ideoloji məclisdə – Q.F.Aleksandrovun «Qərbi Avropa fəlsəfəsi tarixi» kitabının müzakirəsində çıxış etməsinə və «Voprosı filasofii» jurnalının ilk nömrəsində çap olunmasına baxmayaraq, daha çox dərəcədə milli-fəlsəfi fikrin qaynaqlarını araşdırmağa üstünlük verirdi.





Məsələ burasındadır ki, biz ancaq başqa millətlərin ictimai-siyasi fikrini və yabançı məfkurələri öyrənməklə və ya ancaq marksizm-leninizm fəlsəfəsindən çıxış etməklə heç vaxt milli özünüdərk səviyyəsinə yüksələ bilməzdik. Qərb fəlsəfəsini və ya rus və sovet fəlsəfi fikrini bilmək, öyrənmək, əlbəttə, lazım idi. Lakin bu sahədəki nəzəri irsi mənimsəmək, ümumiləşdirmək və gələcək nəsillərə çatdırmaq vəzifəsinin milli-mənəvi məsuliyyəti daha çox dərəcədə bir ingilisin, almanın, ya da bir rus-sovet tədqiqatçısının üzərinə düşürdü. Təbii ki, bu istiqamətdə tədqiqatçılar aparmaq və bu elmi-nəzəri irsi inkişaf etdirmək sahəsində Qərb filosoflarının şansı daha çox idi. Marksizm fəlsəfəsi də əslində klassik Qərb fəlsəfi fikrinin üzərində qurulmuşdu və bir sovet filosofu kimi Heydər Hüseynovun qarşısında hər hansı bir başqa nəzəriyyəni deyil, məhz marksizmi və onun ideya-nəzəri qaynaqlarını tədqiq etmək vəzifəsi qoyulmuşdu. Lakin bu sahədə Moskvadakı həmkarlarından səviyyəcə geri qalmadığını dəfələrlə sübut edən Heydər Hüseynov həm də bir azərbaycanlı olduğunu və bu baxımdan qarşısında duran mənəvi məsuliyyəti də unuda bilmirdi. Ona görə də, öz sələflərimizin dünyagörüşünü, fəlsəfi və ictimai-siyasi irsini öyrənmək və yeni nəslə çatdırmaq, bu irsi ümumbəşəri fəlsəfi fikir kontekstində nəzərdən keçirməklə söz sahibi olduğumuz məqamları üzə çıxarmaq missiyasını da öz üzərinə götürmüşdü. Heydər Hüseynov dünyaya milli və ümumbəşəri fikrin vəhdəti prizmasından baxırdı. Və nə qədər təəccüblü olsa da, görünür özündən asılı olmayaraq, daxildən gələn bir hökmlə millilik kompanenti üstünlük təşkil edirdi.

Burada başqa bir məqama da diqqət yetirmək yerinə düşərdi. Milli-fəlsəfi fikrin spesifikası çox vaxt düzgün anlaşılmadığından bəzilərinə Şərq-İslam fəlsəfi fikrinin, o cümlədən orta əsr Azərbaycan filosoflarının əsərlərinin ərəbcədən tərcüməsi və şərhi daha önəmli və daha elmi görünür. Düzdür, o dövrün fəlsəfi traktatları əsasən antik fəlsəfədən qaynaqlandığından, fəlsəfi terminologiya baxımından daha mükəmməl səciyyə daşıyır. Lakin ya islam fəlsəfəsini, ya da Aristotelə əsaslanan peripatetiklərin yazdıqlarını rəhbər tutan orta əsr filosoflarımız millilikdən daha çox ümumbəşərilik mövqeyindən çıxış edirdilər. Həqiqi milli fikir isə daha çox şifahi xalq ədəbiyyatında, ədəbi-bədii əsərlərdə öz əksini tapırdı. Buna görə də Heydər Hüseynov, bir tərəfdən, qədim dövrlərdən üzü bəri peşəkar Azərbaycan filosoflarının elmi-nəzəri irsinin, ölkəmizdə yayılmış və ictimai şüurda geniş iz buraxmış fəlsəfi cərəyanların üzə çıxarılması, tədqiq edilməsi və yeni nəslə çatdırılması istiqamətində görülən işlərinə əsasını qoyur və bu işləri təşkilatlandırırdısa, digər tərəfdən, böyük şairlərimizin, yazıçılarımızın əsərlərini fəlsəfi fikir prizmasından keçirərək dəyərləndirmək, tarixçi, dilçi və ədəbiyyatşünas alimlərimizin, dövlət qulluğunda çalışan ziyalılarımızın fikirlərinin əsas fəlsəfi qayəsini və ideya yönümünü açmaq və bütün bu istiqamətlərdə hərtərəfli və sistemli tədqiqatlar aparılması üçün zəmin hazırlamaq missiyasını öz üzərinə götürmüşdü. Sonrakı dövrlərdə məhz Heydər Hüseynovun bu missiyasının davamı olaraq Nizaminin, Füzulinin, A.Bakıxanovun, M.F.Axundovun, Həsən bəy Zərdabinin və s. görkəmli Azərbaycan mütəfəkkirlərinin yaradıcılığı fəlsəfi müstəvidə tədqiq edilmiş, bu mövzularda çoxlu dissertasiya işləri, məqalələr və monoqrafiyalar yazılmışdır. Lakin hər bir işin əsasını qoymaq və yol göstərmək daha çətin və daha şərəflidir. Bütün bu şərəf çələngləri Heydər Hüseynova qismət olmuş, onun acı taleyini zinətləndirmişdir.





Belə bir fikir geniş yayılmışdır ki, guya Heydər Hüseynovun bolşevik repressiyasına məruz qalmasına səbəb onun «Azərbaycanda XIX əsr ictimai-fəlsəfi fikir tarixindən» adlı son əsərində fəsillərin birinə Şeyx Şamil haqqında deyilmiş bir fikri iqtibas seçməsi və ümumiyyətlə, Şeyx Şamil hərəkatına və onun ideyalarına müsbət münasibət bəsləməsi olmuşdur. Həqiqətən də, Mircəfər Bağırovun və onun təsiri ilə digər tənqidçilərin kitaba hücumları aşkar şəkildə məhz bu məsələ ilə əlaqələndirilmişdir. Lakin doğrudanmı təzyiqlərin əsl səbəbi məhz bu aşkar ifadə olunan «şamilpərəstlik» günahından ibarət idi?

Heydər Hüseynovun geniş və hərtərəfli ictimai-siyasi və maarifçilik fəaliyyətini diqqətlə izləyərək belə qənaətə gəlmək mümkündür ki, Stalin mükafatına layiq görülmüş və guya Moskvanın dəstəyini qazanmış və yalnız yerli hakimiyyət və yerli ictimai fikir tərəfindən Azərbaycana bilavasitə dəxli olmayan, Heydər Hüseynovun fəaliyyət sferası ilə əlaqəsi bir olmayan bir ideya, özü də hələ yüz il əvvəl Mirzə Kazım bəy tərəfindən söylənərək Rusiya mətbuatında çap olunmuş bir ideya səbəb yox, ancaq bəhanə ola bilərdi. Və bu bəhanə məhz Moskvanın xoşuna gəlməyən həqiqi səbəblərdən yayındırmaq vasitəsi idi.

SSRİ dağıldıqdan sonra, bolşevizm ideologiyasının və ideya-siyasi repressiyaların həqiqi mahiyyəti və səbəbləri daha çox dərəcədə aydınlaşdıqdan sonra tam qətiyyətlə demək mümkündür ki, Heydər Hüseynovun nəinki bir cümləsi və ya Şeyx Şamilə münasibəti, hətta onun bütövlükdə bu son monoqrafiyası və bütövlükdə ictimai-siyasi fəaliyyəti Moskvanın xoşuna gəlməmişdi və heç vaxt gələ bilməzdi.

Məsələ burasındadır ki, Heydər Hüseynov sadəcə bir tədqiqatçı deyildi. O, Azərbaycanda ümumən ictimai və humanitar elmlərin başında duran və onlara tematik, ideoloji və metodoloji yön verən bir şəxsiyyət idi. Azərbaycanda gələcək tədqiqatların istiqaməti və dərsliklərin məzmunu onun dünyagörüşündən, onun mövqeyindən çox asılı idi. Və bu mövqe Moskva üçün təhlükəli həddə gəlib çatmışdı. Heydər Hüseynov müttəfiq respublikalara verilmiş şərti, nisbi müstəqillik hüdudları çoxdan keçmiş və marksist ideologiyasının pozitiv məqamlarına istinad etməklə milli şüurun və milli mədəniyyətin inkişafı naminə imperiyanın yol verə biləcəyindən qat-qat çox işlər görmüşdü. Doğrudan da, 40-cı illərdə respublikamızda ictimai elmlərin, ictimai-siyasi fikrin, humanitar düşüncənin inkişaf tempi və vüsəti heyrətamiz dərəcədə yüksək idi ki, bu da repressiya dönəmi üçün bir paradoksallıq və metamarfoza sayıla bilərdi.

Heydər Hüseynovun bütövlükdə və tamamilə xalqa məhəbbətdən və xalqa xidmətdən ibarət olan fəaliyyətini izlədikcə onun təkcə əsərlərinin yox, həm də əməli işlərinin qayəsini və ana xəttini təşkil edən milli mündəricəni, milli məfkurəni, həm də sadəcə şüarçılıq kimi deyil, çeşidli əməli fəaliyyətdə ifadəsini tapan və artıq bar verən bir məfkurəni necə sezməmək olardı? Təkcə elə axırıncı monoqrafiyaya salsaq buna neçə-neçə sitat tapmaq olar. «XIX əsrdə Azərbaycanda sosial-iqtisadi vəziyyət» adlanan birinci fəsildə Heydər Hüseynov Azərbaycanın bölünməsi məsələsinə öz münasibətini bildirir.

Stalindən və M.Bağırovdan sonrakı, nisbətən rahat dövrlərdə Azərbaycan tarixçilərinin yazdıqlarından fərqli olaraq Heydər Hüseynov repressiyanın bu ağır illərində belə Şimali Azərbaycanın Rusiyaya birləşdirilməsini bir





xoşbəxtlik kimi deyil, nisbətən «az ziyan» kimi təqdim edir, hadisəyə Rusiyanın müstəmləkəçilik siyasəti kontekstində yanaşır. Heydər Hüseynov yazırdı: «Şimali Azərbaycan çarizmin müstəmləkəsinə çevrildi. Azərbaycanın zəhmətkeş kütlələri ikiqat zülmə məruz qaldılar; bir tərəfdən yerli feodallar, digər tərəfdən çar hökuməti tərəfindən istismar olundular. Çarizm Azərbaycana özünün müstəmləkəsi kimi baxmaqla, onu inkişaf edən Rus kapitalist sənayesinin aqrar əlavəsinə çevirdi. Bundan əlavə, Rus çarizmi Azərbaycanda xalqın milli mədəniyyətinin inkişafına çəpər çəkməyə başlayırdı».[1]

Şərhə ehtiyac yoxdur. Sonrakı rahat dövrlərdə bu mövzuya toxunub Azərbaycanın ikiyə bölünməsindən, Rusiyanın müstəmləkəçilik siyasətindən danışanlar, hətta sənətçilər və şairlər belə, disident hesab olunur və az qala qəhrəmanlaşdırılırdılarsa, Stalinin sağlığında bunu rəsmi dairələrdə deməyə cəsarət tapan, yazıb Moskvaya göndərən bir dövlət adamı, marksist-leninçi ideologiyanın rəsmi təmsilçisi necə bir cəsarət sahibi, necə bir qəhrəman olmalı idi? Bir daha təkrar edirik ki, Heydər Hüseynov bu mövzuda sadəcə esse yazmır, deklomasiya demir, rəsmi ideologiyanın özünü, bütövlükdə rəsmi ictimai şüuru bu səmtə yönəltməyə çalışır və bu sahədə əməli iş görürdü. Çarizmin imkan vermədiyi milli mədəniyyətin inkişafına Sovet imperiyası dövründə nail olmağa çalışırdı.

Heydər Hüseynovun nə kimi bir əqidə sahibi olduğunu dərk etmək üçün onun Mirzə Kazım bəydən iqtibas gətirdiyi və epiqraf verdiyi bir fikrə nəzər salaq: «Qərb öz siyasəti ilə Asiyada maarifi bərqərar edə bilməz... Ölkəni dəyişdirənlər həmin ölkədə doğulmuşlar sırasından çıxma-

[1] *Гейдар Гусейнов.* Из истории общественной и философской мысли в Азербайджане XIX века. Б., 1949, стр.34.

lıdır».[1] – Bu günün özü üçün nə dərəcədə aktualdır! Yaxud Mirzə Kazım bəydən başqa bir iqtibas (Heydər Hüseynova basqılar üçün «səbəb» olmuş həmin başı bəlalı fikir): «Şamilin adında tarixlik və vətənpərvərlik siqlətli fikirlər gizlənir. O qəhrəmandır – qəhrəmanlar yetişdirən bir qəhrəman!».[2] Mirzə Kazım bəyin yaradıcılığını və ideya dünyasını araşdıran Heydər Hüseynov onun məhz milli vətənpərvərliklə, milli azadlıq hərəkatı ilə bağlı fikirlərini ön plana çəkir, bununla da, böyük şərqşünas alim və mütəfəkkir Mirzə Kazım bəyin xristianlığı qəbul edərək çar Rusiyasına xidmət etmiş kosmopolit obrazına yeni bucaq altında, başqa rakursda nəzər salır və görüntünün arxasında əsl mahiyyəti üzə çıxarır. Mirzə Kazım bəy öz milli hissiyyatını Şeyx Şamil haqqında yazdığı əsərində, Şamilə və onun rəhbərliyi ilə həyata keçirilən milli azadlıq hərəkatına münasibətində biruzə verdiyi kimi, Heydər Hüseynov da özünün aşkar şəkildə deyə bilmədiklərini Mirzə Kazım bəyin yazdıqlarına münasibətdə büruzə verir. Burada Mirzə Kazım bəy və Heydər Hüseynovun taleləri arasındakı oxşarlıq da diqqəti cəlb edir. Sinəsinə xaç asmış Mirzə Kazım bəy çar Rusiyasında imperiya siyasəti və senzurası baryerini keçdiyi kimi, döş cibində partbilet gəzdirən Heydər Hüseynov da kommunist ideologiyasının və Rus şovinizminin qoyduğu məhdudiyyətlərə rəğmən qəlbinin dərinliyində olanları gizlətmir.

Əslində Heydər Hüseynov öz əsərində tərənnüm etdiyi Abbasqulu ağa Bakıxanov, Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov kimi görkəmli şəxsiyyətlərin Rusiya dövlətinə rəsmi xidmətdə olmaq və burada yüksək rütbələr

---

[1] Göstərilən əsər, səh.182.

[2] Yenə orada, səh. 230.





daşımaqla yanaşı, iki daşın arasında millətinə xidmət etmək təcrübəsini öz həyat yolu üçün də nümunə seçir. Azərbaycan KP MK-nın Partiya Tarixi İnstitutunun direktoru ola-ola daha çox dərəcədə Bəhmənyardan, Nizamidən, Şəbüstəridən, Füzulidən, Mirzə Şəfi Vazehdən yazır, milli-fəlsəfi fikrin və milli ədəbiyyatın inkişafı naminə titanik əmək sərf edir. Azərbaycan SSR Elmlər Akademiyasında ictimai elmlərə marksizm-leninizm təliminin bir nümayəndəsi olaraq rəhbər təyin edildiyi halda, Akademiya üçün açılmış imkanlar çərçivəsində milli tariximizin, ədəbiyyatımızın, dilçiliyin və nəhayət, milli-ictimai fikrin və fəlsəfi fikir tarixinin tədqiqi və təbliği sahəsində misilsiz xidmətlər göstərir.

Belə geniş profilli fəaliyyət üçün inzibati və ideoloji səlahiyyət qazanmaq naminə bir tərəfdən marksizm-leninizm klassiklərinin əsərlərinin tərcümə və nəşrində fəal iştirak edən, dialetik və tarixi materializmdən, faşizmin mahiyyətindən, rus inqilabi-demokratik fikrindən, rus dilindən və mədəniyyətindən əsərlər yazan Heydər Hüseynov, digər tərəfdən Azərbaycanda milli özünüdərkin, fəlsəfi və ədəbi-bədii dəyərlər sisteminin inkişafı naminə geniş və hərtərəfli tədqiqatçılıq və maarifçilik fəaliyyəti göstərirdi.

Kosmopolit kommunist ideologiyasının bütün möhtəşəm makinasından, həm də milli məfkurəyə xidmət üçün istifadə olunurdu. Lakin zaman başqa zaman idi. Çar Rusiyası dövründə keçilə bilən sədlər Qırmızı İmperiyanın daha mütəşəkkil qadağa sərhədlərini keçə bilməzdi. Heydər Hüseynovun fəaliyyəti isə Mərkəzin verdiyi nisbi müstəqillik hədlərini çoxdan aşıb keçmişdi. O, təkcə kommunist ideologiyasına deyil, həm də İmperiyanın, Rus şovinizminin maraqlarına xidmət etməli olan elmi-tədqiqat və təbliğat institutlarını, o cümlədən Elmlər Aka-

demiyasını və ali məktəblərdəki ictimai və humanitar fənn kafedralarını milli maraqlara xidmət istiqamətində yönəldə bilmişdir.

### Sokrat aqibəti

Bəli, Heydər Hüseynov intihar məcburiyyətində qaldı. Lakin onun hərəkətə saldığı humanitar makina fəaliyyətini dayandırmadı. Düzdür, şəxsiyyət yoxluğu sonrakı illərdə bu makinanın işini tədricən cırlaşdırdı, bu odlu-alovlu vətəndaş alimin yerini tutanların bəziləri bu kursu davam etdirmək əzmində olmadı, lakin Elmlər Akademiyasında Yusif Məmmədəliyev, Səməd Vurğun kimi şəxsiyyətlərin varlığı bu alovun sönməsinə imkan vermədi. Şəxsiyyətlərin təqib olunmağı isə davam edirdi. Fiziki repressiyaların yerini zahirən daha yumşaq ideoloji repressiyalar tuturdu. Ta-a yeni şəxsiyyətlər yeni statusda zühur edənə yeni Heydərlər yetişənə qədər.

Yaradıcılığının ən gur və səmərəli dövrünü yaşayan 42 yaşlı akademikin cismani intiharından yarım əsr keçdikdən sonra, artıq müstəqil Azərbaycanın milli özünüdərk axtarışlarında, hər hansı bir buxovdan azad şəkildə öz milli-fəlsəfi fikrinə yeni nəfəs vermək səylərində biz Heydər Hüseynov ruhunun oyanışını görürük.

Əllinci il otuz yeddinci il deyildi. Və Heydər Hüseynov öz «səhvlərini» etiraf etsəydi və sonrakı fəaliyyətini milli məzmundan azad edilmiş ideoloji fəaliyyətə, marksizm-leninizm təliminə həsr etsəydi, o, əlbəttə, yaşaya bilərdi. Lakin Heydər Hüseynovun filosofluğu da elə ondadır ki, o, cismani varlığının deyil, ruhani varlığının, əqidə və amalının yaşamasına üstünlük verdi. Elmi-fəlsəfi fəaliyyəti ilə, böyük yaradıcılıq əzmi ilə, millətə təmənnasız xidməti ilə əsl qəhrəmanlıq göstərmiş olan Heydər Hüseynov «şərəfli ölüm» və «şərəfsiz həyat» seçimində də böyük Sokratların tutduğu yolu davam etdirməklə qəhrəmanlığın daha bir nümunəsini gələcək nəsillərə ərməğan etdi.

*"Xalq qəzeti", 20 may 2003-cü il*

# Sevilin xələfləri

*(Akademik İzzət Orucova haqqında)*

Səhərlər instituta gedəndə fikir vermişəm ki, hər gün saat doqquza on dəqiqə işləmiş Üzeyir Hacıbəyov küçəsi ilə metronun 26 Bakı komissarı adına stansiyasına sarı gedən bir qadınla rastlaşıram... Mən tələsəndə də, hələ dərsə xeyli vaxtım qalanda da çalışıram ki, instituta məhz həmin vaxtda gedim; ya metronun eskalatorunda, ya da küçədə onunla rastlaşım, auditoriyaya girməzdən əvvəl yurdumun qəhrəman qızını görüm. Bu qadın akademik İzzət Orucovadır.

Onun açıq alnında, xoş sifətində düzlüyün, həqiqətin əsl təcəssümü ifadə olunub. Onu görəndə mənim mənəvi varlığım süzgəcdən keçir, təmizlənir, paklaşır, özümdə tükənməz qüvvət hiss edirəm, əyilməzlik, vüqar hissi təlqin olunur mənə.

Antey torpaqdan qüvvət alarmış deyirlər. Şair – vətəndən, filosof – insandan, insanlıqdan ilham alar. Torpağımı, vətənimi, analığın, insanlığın timsalını görürəm o qadınla rastlaşanda. Xalqımın mərdlik və qeyrət salnaməsi olan keçmişini, bu günümüzün böyük, əzəmətli qələbələrinin ifadəsini görürəm. Xoşbəxt sabahımıza inam yaranır məndə.

Dünya ədəbiyyatında, bütün mədəni inkişaf tarixində misli görünməmiş bir haldır ki, obrazın səhnə təcəssümçüsü eyni zamanda onun canlı həyat təcəssümçüsünə çevrilir. Öz fərdi həyat nümunəsi ilə oynadığı rolun reallığını isbata yetirir, həm də arzu edilə biləcək ən yüksək səviyyədə...

Sevil obrazının keçirdiyi səhnə təkamülünü gerçək həyatda ən parlaq şəkildə təkrar edən qadının məhz həmin rolun ilk ifaçısı olması heç də təsadüfi deyil. Biz burada rejissor axtarışı ilə dramaturq idealının birləşməsini görürük. Məsələ burasındadır ki, Cəfər Cabbarlı Sevilin ifaçısını heç də asanlıqla tapmamışdır. O, bir aktrisa axtarırkən, eyni zamanda Sevilin canlı gələcəyini axtarmışdır. O zaman aktrisa kimi çıxış etməli olan qadın böyük inam, cəsarət və mədəniyyət potensialına malik olmalı idi. Əslində müəllif belə bir adamı tapdığı andan öz idealında yanılmadığına əmin ola bilərdi. Bu fakt özlüyündə göstərirdi ki, Azərbaycan qadını həqiqətən yüksələcək, nəyə qadir olduğunu isbat edəcəkdir. Bu tək fakt kütləvi axına çevriləcəkdir.

Lakin göstərilən məntiqi əsasa baxmayaraq, Azərbaycan qadınının tərəqqisində ilk ciddi addımın müəllifi olan İzzət xanımın axıradək öz mövqeyini qoruyub saxlaması hər halda heyrətamiz faktdır.

Bu artıq İzzət xanımın öz dühasının təntənəsidir.

V.İ.Lenin adına APİ-nin ibtidai təhsil metodikası fakültəsində belə bir qrup var: 549-cu qrup. Burada 6 nəfər əlaçı qız oxuyur. Altı nəfər: Yaqut Aslanova, Afət Qarayeva, Sayalı Yusubova, Rəhibə İsayeva, Rəbiyə Zeynalova, Kifayət Gülməmmədova. İmtahandır. Onlar bilet çəkib cavab verirlər. 19 yaşlı qız Hegelin fəlsəfə sistemini şərh edir, dünyanın universal qanunlarından danışır, inkişafın dialektik prinsiplərinin izahını verir. Bu cavabda uşaq sadəlövhlüyü ilə əsl alimlərə məxsus ciddi mühakimə tərzi birləşmişdir. O, danışır, danışdıqca tərəddüdlər yox olur,

bir tələbə əvəzinə bir natiq çıxışını dinləyirəm. O danışdıqca gözlərim önündə C.Cabbarlının Sevili canlanır. Həmin Sevil ki, Balaşın bir neçə dəfə təkrar etməsinə baxmayaraq, sadəcə "fəlsəfə" sözünü belə tələffüz edə bilmirdi. Sevilin timsalında analarımızın savadsızlıq dövrü, mədəni gerilik dövrü canlanır gözlərimdə. Düşünürəm görən necə olub ki, ayrı-ayrı dövrlərdə Məhsətilər, Natəvanlar yetişdirən Azərbaycan xalqı XX əsrin əvvəllərində ümumi inkişafdan bu qədər geri qalıbmış. Görən necə olub ki, Şirinlər, Nüşabələr, Həcərlər Sevillərlə əvəz edilməli olub. Ziddiyyətlidir. Lakin sən demə, Sevil özündə əsrlərdən miras qalmış elə bir potensial imkan saxlayırmış ki, məqamında o dönüb böyük alim ola bilərmiş, elmi-texniki inqilab dövrünün qabaqcıl övladına çevrilə bilərmiş. Sevil həm də müqəddəs keçmişimizdən miras qalmış namusun, qeyrətin timsalıdır.

Fikirlərin dumanı seyrəlir, mən tələbənin həyəcan və sevinc qarışıq sifətini görürəm, onun danışıqlarını daha aydın eşidirəm. İndi o ikinci sualı danışır: "Marksizm fəlsəfəsinin meydana gəlməsi və inkişafı". Yadıma düşür ki, lap elə qonşu otaqda, mənimlə paralel kafedramızın baş müəllimi Şura Məmmədova marksizm fəlsəfəsindən imtahan götürür. Yadıma düşür ki, indi respublikamızda neçə-neçə qadın filosof var: fəlsəfə elmləri doktorları Şükufə Mirzəyeva, Zümrüd Quluzadə, Gülruh Əlibəyova, kafedramızın dosent və baş müəllimləri Huri Əhmədli, Ofelya Əliyeva, Şura Məmmədova, Leyla Həsənova. Onlar "fəlsəfə" sözünü tələffüz edə bilməyən Sevilin xələfləridir.

Yenidən nəzərimdə İzzət xanımın zərif və əzəmətli obrazı canlanır. Öz-özümə deyirəm: İzzət xanım, ey Cabbarlı idealının parlaq və canlı təcəssümü, siz bəlkə də akademik olduğunuz üçün yox, pak, təmiz səmimi Sevilin bu günü olduğunuz üçün həmişə yaşayacaqsınız.





Qoy analarımızın nəzərləri bizə namus, qeyrət, paklıq hissləri təlqin etsin. Qeyrət varsa, məhəbbət varsa, böyük ideallara sədaqət varsa – elm də olacaq, mədəniyyət də, xoşbəxtlik də. Qoy özünün qəhrəman, alim, filosof oğullarına ilham verən, onlar üçün iftixar mənbəyi olan Sizin kimi analar çox olsunlar. Qoy, mənim altı nəfər əlaçı tələbəm böyüyüb hərəsi bir İzzət xanım olsun.

Qoy, analarımız düzlük, saflıq və qüdsiyyətin canlı təcəssümü olsunlar. Onda qəhrəman oğulların biləklərinə qüvvət gələcək, şairlər ilham, alimlər əqli qida alacaq, filosoflar öz həqiqət yolunu tapacaqlar.

*"Azərbaycan qadını"jurnalı,1979, № 9*

## “Öncə öz millətim üçün!”

*(Müəllimim Xudu Məmmədov haqqında)*

Görkəmli kristalloqraf, təbii quruluş formaları ilə milli naxışlar arasında, elmi və bədii yaradıcılıq arasında əlaqələrin böyük tədqiqatçısı Xudu Surxay oğlu Məmmədov 1969-cu ildə doktorluq dissertasiyasını müdafiə etmiş, 1976-cı ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Lakin bu formal göstəricilər Xudu Məmmədov haqqında çox az şey deyir.

Hər bir alim iki koordinat sistemində dəyərləndirilə bilər. Bir – öz ixtisası üzrə dünya çapında, bir də bütün mənəvi-intellektual potensialı ilə öz xalqı, milləti üçün gördüyü işlərlə. Bir mütəxəssis kimi onun xidmətlərini dəyərləndirmək mənlik deyil. Ona görə də mən ancaq onun bir ziyalı, elmşünas, filosof kimi qısa səciyyəsini verməyə çalışacağam və xatirələrim də onun məhz bu istiqamətdəki fəaliyyətinin işıqlandırılmasına xidmət edəcəkdir.

Əvvəlcə, həmkarlarının vurğuladığı bir faktı bir qədər başqa ampluada yada salmaq istəyirəm: Xudu Məmmədov bir neçə illik tədqiqatların yekununa dair monoqrafiya yazmaq üçün London nəşrlərindən sifariş alsa da, ingilis dilini yaxşı bilməsinə baxmayaraq, bu monoqrafiyanı öz dilimizdə yazmışdı. Silikat kimyası üçün fundamental əhəmiyyətə malik olan bu əsər Azərbaycan elm tarixində





kristallokimyaya dair doğma dilimizdə ilk kitab idi. Monoqrafiya ingilis və ya rus dillərində çap olunsa idi, dünya şöhrəti qazanmış gənc türk aliminin dünya elminə böyük töhfəsi olardı. Ancaq «mənim ilk oxucum öz millətim olmalıdır» kəlamları bu insan haqqında çox söz deyirdi.

Xudu Məmmədov millətə, vətənə, doğma təbiətə bağlı adam idi. Təbiət vurğunluğu onun elmi yaradıcılığının da əsas ilhamverici amili idi.

O, elmi tədqiqatla yanaşı, enerjisinin böyük bir qismini Azərbaycanda elmi-kütləvi fikrin yayılmasına, istedadlı gənclərin yaradıcı fəaliyyətə cəlb olunmasına, ictimai şüurun strukturunda elmi düşüncənin payının artmasına sərf edirdi. Azərbaycan televiziyasında uzun müddət aparıcısı olduğu “Elm və həyat” verilişi neçə-neçə gəncin elmə münasibətinin formalaşmasında böyük rol oynamaqla yanaşı, Azərbaycanda elmi-publisistik dil üslubunun formalaşmasına böyük təsir göstərirdi. Bu veriliş elm adamlarının, ziyalıların mənəvi-intellektual ehtiyaclarını ödəmək baxımından bu gün də TV kanalları üçün bir örnək, ən gözəl nümunədir.

İncəsənətin məqsədi insanın emosional-mənəvi dünyasını zənginləşdirmək, onu daha saf, daha təmiz etmək – onun mənəvi imkanlarını artırmaqdır. Elmin məqsədi isə insanın intellektual dünyasını zənginləşdirmək, onu daha məlumatlı, daha bilikli etmək və bu biliyin qüvvəyə çevrilməsi sayəsində onun maddi təsir imkanlarını artırmaqdır.

Elm əhli olmaq, hələ kamal əhli olmaq deyil. Kamalın qələbəsi üçün yüksək elmi-texniki səviyyə ona uyğun gələn yüksək mənəvi-əxlaqi səviyyə ilə tamamlanmalıdır.

Belə bir sual ortaya çıxır ki, Xudu Məmmədov – daha çox alim, müəllim, yoxsa ziyalı idi?

Onun elmi yaradıcılıq fəaliyyəti barədə az-çox dərəcədə işıqlandırılmışdır. Amma mən onun haqqında bir müəllim və ziyalı kimi danışmaq istəyirəm. Təkcə ona görə yox ki, o, mənim müəllimim olmuş, bizə "kristalloqrafiya" fənnini tədris etmişdir, həm də ona görə ki, onun qeyri-adi, çox yüksək bir müəllimlik istedadı var idi. Tək universitet auditoriyası üçün yox, bütün ölkə miqyasında: televiziyada apardığı "Elm və həyat" proqramı, məclislərdəki çıxışları, gənclərə tövsiyələri ilə. Mən də ondan kristalloqrafiyadan daha çox, yaradıcı təfəkkür üsullarını, adi görünən şeylərə fərqli baxış imkanlarını öyrənmişəm. Əlbəttə, o dövrdə biz Xudu müəllimin başqalarından fərqini bir o qədər də dərk edə bilməzdik. Tədris etdiyi fənni daha sistemli, daha əyani və yaddaqalan şəkildə öyrədən müəllimlərimiz az deyildi. Təkcə onu xatırlatmaq kifayətdir ki, bizə o dövrdə Mehdi Əliyev, Kəriş Köçərli, Rəhmi Həsənov, Mədət Sərdarlı kimi tanınmış metodistlər dərs keçirdilər. Əksinə, X.Məmmədov bu baxımdan onlarla rəqabətə girə bilməzdi. Xudu müəllimin standartlardan, bəzən hətta mövzudan kənara çıxması, tez-tez diqqəti adi şüur səviyyəsində məsələlərə yönəltməsi və adiliyin özündə heyrətamiz məqamları görüb düşünmək, düşündürmək, suallar qoymaq vərdişi aşılaması – bütün bunlar dəyərini indi-indi anladığımız böyük bir yaradıcılıq məktəbi idi.

Universitet müəllimləri həm də elm adamlarıdır, elmi tədqiqat vərdişlərinə malikdirlər. Əlbəttə, müəllimin ilk əsas vəzifəsi tədris etmək, məlum bilikləri öyrətməkdir. Lakin necə etmək olar ki, müəllimlik və alimlik tam müstəqil fəaliyyət sahələri kimi bir-birinə qarşı dayanmasın, əksinə, eyni məqsəd ətrafında birləşərək bir-birini tamamlasın? Axı, əsl müəllim heç də yalnız hazır biliklərin mənimsədilməsi ilə kifayətlənməməli, tələbələrə həm də yeni





bilik axtarılması yollarını öyrətməli, tədqiqat vərdişləri aşılamalıdır. Yaradıcı təfəkkür əldə etmədən, tələbə aldığı bilikləri uğurla tətbiq edə bilməz və yeni, qeyri-ənənəvi vəziyyətlərdə çıxış yolu tapa bilməyəndə durğunluğun, ətalətin, ehkamçılığın daşıyıcısı olar.

Hazır biliklərin öyrədilməsi ilə kifayətlənməmək və tələbələrdə tədqiqatçılıq vərdişləri, yaradıcı təfəkkür formalaşdırmaq üçün isə tədris prosesinin özü real tədqiqat laboratoriyasına çevrilməlidir. Xudu Məmmədov tələbələrinə hansı isə hazır biliklərdən daha çox, istənilən məsələyə elmi yanaşmanın – alimliyin yollarını öyrədirmiş.

Biz universiteti bitirdikdən sonra da Xudu müəllimlə əlaqəni davam etdirir, ondan məsləhətlər alırdıq. Onun həm Fiziki kimya institutunda, həm də Fizika institutunda laboratoriyası var idi. Lakin bizi içəri buraxmaq üçün hər dəfə xüsusi icazə almalı olurduq. Bir dəfə bu ciddiyyətin və rəsmiyyətin səbəbini soruşanda, o məsələni özünəməxsus yumorla belə izah etdi: "Siz elə bilirsiniz ki, burada çox məxfi nəticələr alınır və elmi sirləri qorumaq üçün belə ciddiyyət göstərilir? Yox, əslində kənar adamlar burada tədqiqat aparılmadığından xəbər tutmasınlar deyə, içəri buraxılmırlar".

Bəli, o vaxt elmin idarə olunması sosializm ənənələrinə müvafiq olaraq inzibatçılıq yolu ilə həyata keçirilirdi. Həmin dövrdə elmin spesifikasını nəzərə almadan elmi institutlarda və ali məktəb kafedralarında, təsərrüfat müəssisələrində analoji nizam-intizam yaratmağa təşəbbüs göstərilir, «təşkilatçılıq qabiliyyəti» olan adamlar elmdə də «dəmir qayda»ya nail olurdular. Akademiyanın qapısı ağzına milis işçiləri qoyulması və ali məktəb müəllimlərinin, başqa müəssisələrdə çalışan alimlərin içəri buraxılmaması, elmi işçilərdən elmi nəticə soruşmaq əvəzinə, onların səkkiz saat şöbədə oturmalarının təmin edilməsi elmi işin və

elmi əməkdaşlığın spesifikasını «unutmaqdan» irəli gəlirdi.

Təəssüf ki, bəzən yenə də elmdə islahatdan danışılan kimi, yada düşən elə formal nizam-intizam olur.

Xudu Məmmədov elmşünasliq problemlərinin böyük bilicisi idi. Bu problemləri bizə izah etmək üçün o, fikirlərini çox vaxt konkret misallar üzərində qururdu. Bir dəfə o belə bir hadisə danışdı: Akademik İ.Vekua Novosibirskdən qayıdaraq Gürcüstan SSR Elmlər Akademiyasına prezident təyin olunandan sonra bir sıra dəyişikliklər həyata keçirir ki, köhnə stereotiplərə uyğunlaşmış adamlar bunu heç cür qəbul edə bilmirlər. Onun təşəbbüsü ilə yeni elmi-tədqiqat institutu açılır və bura yüksək maaşla istedadlı gənc alimlər cəlb olunur. Bu alimlər işə vaxtı-vaxtında gəlib getmədiyi üçün və hər kvartalda konkret nəticələr əsasında hesabat vermək əvəzinə taleyi qabaqcadan məlum olmayan «uzaq məqsədlər» uğrunda çalışdıqları üçün bir qrup "qanunpərəst" Moskvaya şikayət yazır ki, akademik İ.Vekua dövlət pulunu havayı xərcləyir, işə gəlməyən adamlara yüksək maaş verir, onları növbəsiz mənzillə təmin edir. Yoxlama gəlib iş vaxtında deyilənlərin doğru olduğunu müəyyən edir. Axşam komissiya üzvləri hansı isə yubiley məclisində iştirak edir və gecə yarısı banketdən qayıdanda akademik İ.Vekua maşınları həmin institutun yanından sürməyi xahiş edir. Baxıb görürlər ki, gündüz adamsız olan otaqların çoxunda gecə işıq yanır. Məlum olur ki, tədqiqatçılar məhz «iş vaxtı» adlanan müddətdə deyil, onlara yaradıcılıq üçün hansı vaxt münasibdirsə, o vaxtda işləyirlər. İşçilərə verilən bu sərbəstlik elmi işlərin səmərəsini daha da artırır. Onların hər kvartalda konkret nəticə tələbindən xilas edilməsi, onlara etimad göstərilməsi və şərait yaradılması diqqəti daha böyük problemlərə





yönəltməyə, elmin təkcə bu günü üçün deyil, həm də sabahı üçün çalışmağa imkan yaradıb.

Elmdə formal hesabat sisteminin tətbiq edilməsi nəinki məsuliyyət hissini artırmır, hətta əsl elmi meyarları pərdələməklə qarışqanı fil, fili qarışqa etməyə imkan yaradır, elm sahəsində «pripiska»nın yayılmasına səbəb olur. Əksər elmi-tədqiqat institutlarında və xüsusən ali məktəb kafedralarında plan üzrə görülən illik elmi iş dedikdə makinada səliqə ilə çap edilmiş müəyyən həcmli (yenə də kəmiyyət meyar kimi çıxış edir) yazı nəzərdə tutulur. Onun elmi dəyərini isbat etmək üçün istənilən iki nəfərdən rəy almaq kifayətdir. Nəticədə hamı bir-birinin işinə gözəl rəylər yazır və «tədqiqat işləri» müəllimin çalışdığı şöbədə və ya kafedrada «müzakirə olunur». Rəqabət prinsipi işləməyən yerdə heç kim öz yoldaşına qarşı «bədxahlıq» etmək niyyətinə düşmür. Əgər tək-tək istisnalar varsa, bunlar da elmi prinsipiallıqdan yox, şəxsi münasibətdən doğur. Çünki elmi rəqabət mühiti və dəqiq elmi meyarlar olmayanda dəyərsiz «tədqiqatları» tərifləmək, həqiqi elmi sanbalı olan tədqiqatları isə «alt-üst» etmək mümkündür.

Ali məktəbdə çalışan yüksək ixtisaslı elmi kadrlar elmi tədqiqat işi üçün lazımi şərait əldə edə bilmirlər. Ali məktəblərin elmi tədqiqat bölmələrində əsasən tədris fəaliyyətinə cəlb olunmamış, bu və ya digər səbəbdən müəllim kimi ixtisara düşmüş və ya "ehtiyat qüvvəyə" daxil olan adamlar çalışırlar ki, bu da ən böyük elmi potensiala malik olan professor-müəllim heyətinin yenə də fəal elmi tədqiqatdan kənarda qaldığına dəlalət edir. Nəticədə nəinki professor-müəllim heyətinin elmi tədqiqat imkanları reallaşmır, həm də bu imkanları tədricən itirməklə onlar yaradıcı müəllim kimi də çox şey itirmiş olurlar.

Qərb dünyasında elm haqqında yazılan, onun mahiyyəti və funksiyalsrı ilə bağlı olan əsərlər çoxdur. Şərq öl-

kələrində isə poeziya haqqında, musiqi haqqında yüzlərlə əsər yazılsa da, elm haqqında əsərlərə çox nadir hallarda rast gəlmək mümkündür. Xudu Məmmədovun "Qoşa qanad" əsəri isə daha çox dərəcədə yerli mühiti və mentaliteti də nəzərə almaqla yazıldığından bizim üçün qat-qat dəyərlidir. Düşünürük ki, milli mentaliteti bizə uyğun olan adamların elm haqqında fikirləri yerli şəraitdə elmə münasibətin formalaşması və elmun optimal təşkilatlanması işində daha çox yardımçı ola bilər.

## *Əbdüs-Səlam, Xudu Məmmədov və Oqtay Sinanoğlu haqqında*

O vaxtlar – Xudu Məmmədovun bizə dərs dediyi 70-ci illərdə və universiteti bitirdikdən sonra müntəzəm xarakter almış görüşlərimiz zamanı biz kristalloqrafiyadan, təbiət hadisələrindən maddələrin quruluşundan daha çox, insan təbiətindən, cəmiyyətin quruluşundan bəhs edərdik. Kristalların və milli ornamentlərin strukturu, təbiətin yaddaşı ilə milli təfəkkür arasında eyniyyət məsələləri fəlsəfi yaradıcılıq yolunu seçmiş gənc fizik üçün maraqlı olmaya bilməzdi. Bizi bağlayan məhz təbiətə və insan həyatına fəlsəfi səviyyədə yanaşma tərzi idi. Mübahisələr də çox olurdu. Bir dəfə mən isbat etməyə çalışdım ki, biz Qərbin neçə yüz illər ərzində qalxdığı səviyyəni qısa bir müddətdə mənimsəyib onlarla yarışa bilmərik; ona görə də optimal bir yol seçmək lazımdır. Bu yol isə Qərbdən hazır elmi nəticələri götürərək onların daha tez tətbiqinə nail olmaqdır. Görünür, mən həm də Yaponiya təcrübəsinə istinad edirdim. Lakin gözlədiyimin əksinə olaraq Xudu müəllim bu fikrə etiraz etdi və dedi ki, hər bir xalq dünya sivilizasiyasına nə qədər pay verirsə, ancaq o qədər də götürə bilər.





O vaxtdan neçə illər keçmişdir və bizim ümumi məhsuldan, dünya sivilizasiyasından daha çox pay götürmək iddialarımızın həmişə tərsinə çevrildiyinin şahidi olmuşam. Nəyi isə əvəzsiz almaq ancaq illüziya imiş. Elmi-texniki sahədə aldıqlarımızın bədəlini sən demə mənəviyyatımızla ödəyirmişik.

Bəs çıxış yolu nədədir?

Bunun üçün, əlbəttə, orta əsrlərdə islam dünyasının indiki Qərb ölkələrinə nisbətən çox irəlidə olmasına rəğmən, tədricən geri qalmasının səbəblərini müəyyənləşdirmək lazımdır. Elmin ön cəbhəsindəki ayrı-ayrı nümunələr, yəni müsəlmanların normal elmi mühitdə çalışarkən, heç kimdən geri qalmayaraq böyük uğurlar qazanması faktları göstərir ki, hər şey ictimai mühitlə bağlıdır. Yəni söhbət islami dünyagörüşünün guya elmin inkişafı üçün əlverişli olmaması haqqında yaradılmış mifin dağıdılmasından gedir. Problem cəmiyyətin təşkilatlanması və onun strukturunda elm üçün normal şərait yaradılması ilə bağlıdır. İngiltərədə təhsil alan və İtaliyada, özünün yaratdığı nəzəri fizika mərkəzində çalışan Əbdüs-Səlamın, ABŞ-ın ən məşhur universitetlərindən olan Yel universitetində çalışan Oqtay Sinanoğlunun, habelə cəmi bir neçə il Moskvada və bir il İngiltərədə çalışdıqdan sonra vətənə dönən Xudu Məmmədovun timsalında biz bir daha bunun şahidi oluruq.

Məktəb olimpiadalarında gənc fiziklərimizin, riyaziyyatçılarımızın, bioloqlarımızın uğurları, hər il neçə-neçə məktəblinin vətənə qızıl medalla qayıtması artıq bir ənənəyə çevrilmişdir. Bəs sonra? Sonra əlverişli elmi mühitin yoxluğu ucbatından bu gənc istedadlar ya xarici ölkələrə getməli olur, ya da qalıb paslanırlar.

Eləcə də şahmat yarışlarında 10, 12, 14 yaşa qədər uşaqlar arasında birinci yerləri asanlıqla tutduğumuz hal-

da, yetkin yaşlarda bu qələbələri təkrar etmək çətinləşir. Çünki genetik intellektual keyfiyyətlər gərək müvafiq mühitlə tamamlansın. Bizdə çatışmayan məhz mühitdir.

Bir dəfə böyük riyaziyyatçı-alim Lütfi Zadənin 75 illik yubileyinə həsr olunmuş bir mərasimdə hamı Azərbaycan aliminin və hətta Azərbaycan elminin böyük nailiyyətlərindən bəhs edərkən sual verdim ki, axı, Zadə hansı bir təsadüfləysə ABŞ elmi mühitinə düşməsə idi, Azərbaycanda qalsa idi, yenə indiki Zadə ola bilərdimi? Yox... Bəlkə biz onu heç doktorluq müdafiəsinə də buraxmazdıq. Ona görə də, beş dəfə azərbaycanlı alim deyəndə, bir dəfə də gəlin, Amerika elmi mühitini yada salaq.

Haqqında söhbət açdığımız üç böyük alim: Əbdüs-Səlam, Xudu Məmmədov, Oqtay Sinanoğlu da məhz xarici elmi mühitdə özlərini təsdiqləyə bildilər. Lakin onların fərqləndirici cəhəti budur ki, yüksək milli ruh onları həmişə vətənlə bağlamış, bütün nüfuzlarını və elmi potensiallarını öz xalqlarının elmi intibahı üçün sərf etmişlər. Uzun müddət xaricdə çalışan Əbdüs-Səlam və Oqtay Sinanoğlu daha çox elmi nailiyyət əldə etmiş, dünya miqyasında daha çox tanına bilmişlər. Xudu Məmmədov isə gənc yaşlarında böyük şöhrət qazansa da, öz ölkəsinə erkən qayıtdığı üçün dünya elm mərkəzlərindən bir növ aralı düşmüş və nə yaxşı ki, böyük elmi potensialını fəlsəfi yaradıcılığa və elm maarifçiliyinə yönəltməklə millətə heç olmasa, bu istiqamətdə fayda verə bilmişdir. Onun kristalloqrafiya sahəsində ixtiraları elə o dövrdəcə dünya elmi tərəfindən mənimsənildiyi və indi bəlkə də köhnəldiyi halda, ümumiyyətlə elm haqqında, onun təşkilati məsələləri, ictimai tərəqqidəki rolu haqqında, habelə daha çox dərəcədə fəlsəfi məzmun daşıyan strukturların sənətdə və elmdə adekvatlı-





ğı barədə yazdığı əsərlər elmi dünyagörüşünün formalaşmasında öz böyük əhəmiyyətini indi də saxlayır.

Əbdüs-Səlamın dünyanın ən məşhur elmi mərkəzlərində tədqiqat aparmaq imkanları olduğu halda, dönə-dönə vətənə qayıdaraq burada da müəyyən bir elmi mühit yaratmaq cəhdləri və nəhayət, bu da baş tutmadıqda Avropanın ən gözəl guşələrindən birində (Triyest, İtaliya) inkişaf etməkdə olan ölkələrin gənc fizikləri üçün tədqiqat mərkəzi açdırmağa nail olması və hər il öz ölkəsindən və digər müsəlman ölkələrindən bura onlarla istedadlı gənc alim cəlb edərək bütövlükdə islam dünyasında elmin gələcək inkişafı üçün potensial hazırlaması – bütün bunlar alimin böyük vətəndaşlıq mövqeyinin təcəssümü idi. Həm də bu milli qeyrət hissi təkcə vətəndaşlıq miqyasında yox, daha böyük miqyasda – bir müsəlman təəssübkeşliyi şəklində də üzə çıxırdı.

Oqtay Sinanoğluda isə türkçülük daha qüvvətlidir. O, dindən də əvvəl dil haqqında, millət haqqında düşünür. Türk dünyasında müqtədir bir elm dilinin formalaşması uğrunda mübarizə aparır. Qazandığı bütün nailiyyətlər, mükafatlar, titullar onun üçün ancaq millətə xidmət müstəvisində dəyər kəsb edir.

Bu şəxslərin timsalında bəlkə də təsadüfən alınan ən maraqlı cəhətlərdən biri islamçılıq, türkçülük və müasirlik ideyalarının vəhdətidir. Bu böyük şəxsiyyətləri öz konkret tədqiqat sahələrindən kənara çıxaraq bütövlükdə elm və onun milli tərəqqidə rolu haqqında düşünməyə, öz ölkələrində elmi mühit və kadr potensialı yaratmaq üçün çalışmağa vadar edən də əslində eyni bir səbəbdir – əqidə müəyyənliyi, milli qeyrət, dövlətçilik ruhu!

*"Elm adamları elm haqqında" kitabına ön söz*
*B., "Çaşıoğlu", 2010*

## Şərq-Qərb Tədqiqat Mərkəzi hansı ideyadan yarandı?

*(Professor Aida İmanquliyeva haqqında)*

Bu gün dünya bir sıra qlobal problemlərlə üzləşmişdir və Qərb bu problemləri təkbaşına həll etmək iqtidarında deyil. Onun Şərq ruhuna ehtiyacı vardır. Aida xanım haqlı olaraq yazır: «Şərqdə həyatın təkmilləşməsi üçün yalnız hissi aləm və fəlsəfi idrakın dərinliyi bəs olmadığı kimi, hələ mədəni nailiyyətlər və texniki tərəqqi də insanın mənəvi və sosial dirçəlişi üçün kifayət deyil».

Məhz məsələnin bu cür ənənədən kənar, yeni, orijinal qoyuluşu Aida xanıma əslində öz zəmanəsini qabaqlayaraq Azərbaycan gerçəkliyində Şərq və Qərbin vəhdəti ideyasını irəli sürməyə imkan vermişdi. Onun nəzərində sadəcə poeziyanın, ruhaniliyin beşiyi kimi qalmaq indi daha Şərq üçün kifayət deyildi. Şərq mütləq müasir elmi-texniki nailiyyətlərə yiyələnməli idi. Və bunun yolu Qərblə inteqrasiyadan keçirdi. Lakin Şərq elm və texnologiyanı Qərbdən kor-koranə transfer etməklə bu sahədə böyük uğur qazana bilməzdi. Heç şübhəsiz, o məhz özünəməxsus dəst-xəttini, üslubunu tapmalıdır. Və bu üslubun öyrənilməsi, Aida xanımın fikrinə görə, yeni dövrdə şərqşünaslığın əsas məqsədlərindən, tədqiqat istiqamətlərindən biri olmalı idi.

Məhz bu məqsədlə Şərqşünaslıq İnstitutu Aida





İmanquliyevanın rəhbərliyi dövründə elm tarixi və elmşünaslıq məsələlərinə böyük maraq göstərirdi. Mənim bu İnstitutla əməkdaşlığım da bununla əlaqədar başlandı. 1990-cı ildə Şərqşünaslıq İnstitutunda «Şərq və elmi-texniki tərəqqi» mövzusunda konfrans keçirmək qərara alındı və mən elmşünaslıq sahəsində yenicə doktorluq dissertasiyası müdafiə etmiş gənc mütəxəssis qismində, məruzəçi kimi dəvət edildim. Bu hadisədən sonra «Şərqdə və Qərbdə elmin inkişaf xüsusiyyətləri» problemi mənim elmi-fəlsəfi yaradıcılığımda əsas mövzulardan birinə çevrildi. O vaxta qədər Azərbaycanda ancaq Aida xanımın məşğul olduğu Şərq-Qərb problematikası məni o dərəcədə cəlb etdi ki, bundan sonra mən öz tədqiqatlarımı bu yeni sahə ilə: Şərq və Qərb sivilizasiyalarının müqayisəli təhlili ilə bağladım. Aida xanımın bu problem üzrə bütöv bir elmi yaradıcılıq məktəbi yaratmaq arzusu, bu geniş miqyaslı elmi tədqiqat layihəsi, təəssüf ki, sonralar Akademiyada davam etdirilmədi. Lakin Aida xanım elə o vaxt Akademiyada olan və bütövlükdə Respublikadakı idarəçilik üsulundan irəli gələn bürokratik əngəllərə yaxşı bələd idi və öz ideyasını, təməlini qoyduğu yeni tədqiqat istiqamətini yaşatmaq, öz planlarını həyata keçirmək üçün alternativ yollar axtarırdı.

Zamanın nəbzini gözəl duyan Aida xanım dövlət qurumları üçün səciyyəvi maneələrdən və bürokratiyadan uzaq olan, Azərbaycanda fəlsəfi fikrin və humanitar təhsilin nisbi-müstəqil inkişafına imkan açan yeni tipli elm-təhsil mərkəzinin, özəl Azərbaycan Universitetinin yaranmasına dəstək verdi və bu Universitetin açılış mərasimindəki çıxışında «Şərq-Qərb» problemini bizə əsas elmi yaradıcılıq istiqaməti kimi tövsiyə etdi. «Şərq-Qərb» Tədqiqat Mərkəzi və onun orqanı olan «İpək Yolu» jurnalının ideyası da elə o vaxt verildi. Lakin həssas qəlbli Aida xanım

o vaxtkı ictimai-siyasi mühitin təbəddülatlarına, 20 yanvar faciəsinə, Dağlıq Qarabağla bağlı ədalətsizliklərə dözmədi və bu birgə yaradıcılıq planları yarımçıq qaldı. Nə yaxşı ki, ümumxalq lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ictimai-siyasi sabitlik yaranması sayəsində biz bu ideya ətrafında yaradıcılıq fəaliyyətini bərpa edə bildik.

Artıq on ildir ki, Azərbaycan Universitetinin nəzdində «Şərq-Qərb» Tədqiqat Mərkəzi fəaliyyət göstərir. Yeddi ildir ki, bu mərkəz özünün jurnalını – 1996-cı ildə Mətbuat Nazirliyində və daha sonra YUNESKO-da qeydiyyatdan keçmiş beynəlxalq elmi-publisistik «İpək Yolu» jurnalını nəşr edir. (O vaxt Azərbaycanın bütün fəaliyyət sahələrində uğurlu başlanğıclar Heydər Əliyevin ideyaları ilə bağlı idi. Böyük İpək Yolunun bərpası ideyası da, bununla əlaqədar Bakıda 34 dövlət başçısının iştirakı ilə Beynəlxalq Konfrans keçirmək ideyası da Heydər Əliyevə məxsus idi. Lakin konfransdan sonra, yekun iclasında hətta o da öz təəccübünü gizlətməmişdi: «Sən demə, bizdə «İpək Yolu» jurnalı da çıxırmış, həm də ingilis dilində...». Və dönüb salondakılardan soruşmuşdu: Bu kimin təşəbbüsüdür? Lakin heç kim cavab verə bilməmişdi. İdeyanın Aida xanım İmanquliyevaya məxsus olduğunu salondakılar sadəcə olaraq bilmirdilər. Jurnalın üz qabığında, hətta ingilis dilindəki nömrədə də iri hərflərlə «Şərq və Qərbin vəhdəti bəşəriyyətin İpək Yoludur!» sözləri yazılmışdı. İndi də yazılır. Bu, həmin ideyanın necə doğulmasına işarədir. 1991-ci ildə jurnal çap etmək hər cəhətdən çətin məsələ idi. Lakin Aida xanım texniki problemlərin həllini də qabaqcadan planlaşdırmışdı. İran konsulluğu «Şərq» jurnalının (sonradan onu «Şərq və Qərb» adlandırmaq qərara alınmışdı) çapı üçün o vaxt üçün yenilik sayılan kompütermətbəə kompleksi bağışlamağı vəd etmişdi. Lakin Şərqşünaslıq İnstitutu müstəqil hüquqi şəxs olmadığından, biz bu ideyanı Azərbaycan Universitetinin bazasında həyata keçirmək təklifini vermişdik. Universitetin açılış mərasimində İran konsulunun iştirakı da bu planlarla bağlı idi. Düzdür, faciəvi itki başqa planlar kimi bunu da yarımçıq qoydu. Lakin ideya o dərəcədə cazibədar idi ki, «Şərq-Qərb» Tədqiqat Mərkəzi fəaliyyətə başlayan kimi, onun jurnalını da dərc etmək qərarına gəldik. Yeri gəlmişkən, Aida xanımın bu nəcib təşəbbüsü təkcə «İpək yolu» ilə davam etdirilmir. Azərbaycanda Şərq təməlinin milli sənət ənənələri timsalında təsdiqinə və Azərbaycan mədəni-mənəvi dəyərlərinin beynəlxalq miqyasda təbliğinə xidmət edən və yüksək zövqlə nəşr olunan «Azərbaycan – İRS» jurnalı da məhz Aida xanımın ideyalarının təcəssümünə xidmət edir.

Bu Tədqiqat Mərkəzində Şərq və Qərb sivilizasiyaları arasında dialoq və qarşıdurma problemləri, iqtisadi, siyasi və mədəni-mənəvi inteqrasiya prosesləri araşdırılır və Azərbaycanın bu proseslərdə oynadığı rol, qarşıda duran vəzifələr tədqiq edilir. Bu Mərkəzdə Azərbaycanın müxtəlif elm sahələrini təmsil edən çox görkəmli alimləri müntəzəm olaraq fikir mübadiləsi aparır və alınan elmi nəticələr hər il «Azərbaycan və müasir dünya» məcmuəsində çap olunur. Alimlərimiz Aida xanım İmanquliyevanın ənənəsini davam etdirərək öz elmi nəticələri ilə beynəlxalq forumlarda elmi məruzələrlə çıxış edir, Şərq-Qərb problematikasına dair tədqiqatlarını xarici ölkələrdə çap etdirirlər. Bu problem üzrə Tədqiqat Mərkəzinin üzvlərinin Qahirədə, İstanbulda, Tehranda, Budapeştdə, Moskvada, Peterburqda, Minskdə, Brüsseldə, Romada, Oksfordda və digər şəhərlərdə çıxışlarının maraqla qarşılanması da ilk növbədə məhz problemin özünün aktuallığı ilə bağlıdır. Fərəhlə qeyd etmək istərdim ki, keçmiş SSRİ məkanında Şərq-

Qərb problemini hər vəchlə əlində saxlamağa çalışan ermənilər daha artıq rəqabətə tab gətirmirlər. Moskvada rus və ingilis dillərində nəşr olunan beynəlxalq Qlobalistika Ensiklopediyasında Şərq-Qərb mövzusunda yazının bizim Tədqiqat Mərkəzinə həvalə edilməsi bu rəqabətdə böyük uğur kimi dəyərləndirilə bilər. Bu günlərdə Bakıda bu problem üzrə beynəlxalq elmi konfrans keçirilir. Burada Şərq-Qərb komparativistikası üzrə dünyanın görkəmli alimləri, filosofları iştirak edir. Bakı Şərq-Qərb problematikasının tədqiqat mərkəzlərindən birinə çevrilmişdir və bütün bu uğurların təməli hələ o vaxt, 80-ci illərin axırlarında Aida xanım İmanquliyeva tərəfindən qoyulmuşdur.

Azərbaycan müstəqillik qazandıqdan sonra, xalqımızın ümummilli lideri Heydər Əliyev Şərq-Qərb münasibətlərinə böyük önəm vermiş və Azərbaycanın bu prosesdə fəal iştirakına, Avropa ilə Asiyada körpü rolu oynamasına nail olmuşdur. Öz çıxışlarında həmişə diqqəti Azərbaycanın Şərqlə Qərbin qovuşmasında oynadığı mühüm rola yönəldən Heydər Əliyev əslində həm də bu qovuşma prosesini sürətləndirmək üçün həyata keçirilən bir sıra strateci layihələrin müəllifi idi ki, bunlardan təkcə ikisini: Böyük İpək Yolunun bərpası və Bakı-Tbilisi-Ceyhan layihələrini xatırlatmaq kifayətdir. İftixarla qeyd etmək lazımdır ki, bu gün Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şərq və Qərb arasında həm Aida xanımın ideyalarına əsaslanan humanitar və mədəni-mənəvi vəhdət layihəsi, həm də böyük Heydər Əliyevin əsasını qoyduğu iqtisadi inteqrasiya və Avrasiya dəhlizi layihələri uğurla həyata keçirilməkdədir.

Aida İmanquliyeva öz genetik-fərdi xüsusiyyətləri ilə də Şərq və Qərbin **vəhdətini** simvolizə edirdi. Zahiri görkəmi ilə Şərqin şeriyyətini, ülviyyətini təcəssüm etdi-





rən Aida xanım öz elmə bağlılığı, rasional düşüncəsi, təşkilatçılıq keyfiyyətləri ilə və ən başlıcası, sözün əsil mənasında müasirliyi ilə çağdaş Qərb sivilizasiyasını təmsil edirdi. Gendən gələn Şərq mahiyyəti ilə, müasir zamanın tələbatından gələn Qərb keyfiyyətlərinin vəhdəti ona məhz vəhdətin özünü tədqiqat predmetinə çevirmək səlahiyyəti vermişdi.

Aida xanımın təkcə özü yox, ailəsi də bu vəhdətin parlaq təcəssümüdür. Humanitar sahənin, şərqşünaslığın nümayəndəsi olan Aida xanımın özünə ömür-gün yoldaşı kimi müasir Qərb texnoloji sistemlərinin tədqiqatçısı olan Arif Paşayevi seçməsi də əslində təsadüfi görünmür. Bu izdivac özü də, müəyyən mənada Şərq və Qərbin ittifaqını simvolizə edirdi. Bu yerdə Aida xanımın Əmin Ər-Reyhanidən misal gətirdiyi bir beyt yada düşür:

*Mən Şərqəm. Mən fəlsəfənin və dinin sahibiyəm,*
*Kim mənə təyyarə verəcək bunlara görə?!*

Aida xanımın vurğuladığı kimi, Ər-Reyhani bunu acı rişxənd hissi ilə yazır. Şərq və təyyarə... az qala əks qütblər kimi simvolizə olunur.

Lakin bu gün Heydər Əliyev adına Bakı Hava limanındakı ən müasir təyyarələri və bu təyyarələrin istismarı üçün elmi-texniki baza olan Milli Aviasiya Akademiyasını görəndə rişxənd hissi ümid qığılcımı ilə əvəz olunur.

Şərqşünaslıq İnstitutu və Aviasiya Akademiyası! Qütblərin vəhdət simvolu!

Lakin belə təəssürat yaranmasın ki, proseslərin istiqaməti ancaq Şərqdən Qərbə doğrudur. Çingiz Aytmatov demişkən, burada qatarlar yalnız Şərqdən Qərbə yox, Qərbdən də Şərqə gedir. Reaktiv təyyarənin iş prinsipini öyrənən, mürəkkəb texnoloji sistemlərlə, müasir təbabətin elmi əsasları ilə məşğul olan insanlar «Azərbaycan–İRS»

jurnalını da çap etməyi unutmur və milli mədəniyyətə, kökə bağlılıqlarını, Şərq mahiyyətinə sədaqətlərini bir daha sübut edir, nəsillərə nümunə göstərirlər. Və nəhayət, bu günlərdə Mehriban xanım Əliyevanın təkcə Şərq və ya təkcə Qərb mədəniyyətini deyil, bütövlükdə dünya mədəniyyətini təmsil edən YUNESKO-nun Xoş Məramlı Səfiri seçilməsi də məhz bu vəhdətin bəhrəsi, parlaq təcəssümüdür. Bu yüksək ad, bu ali mükafat əslində təməli Aida xanım tərəfindən qoyulmuş və bu gün onun övladları tərəfindən əməli fəaliyyət müstəvisində uğurla həyata keçirilən **vəhdət** ideyasının təntənəsidir!

*"İpək yolu" jurnalı, 2004, № 2.*





## *"Günbatan fikirli, gündoğan duyğulu bir sima"*

*(Prof.Dr. Cavad Heyət haqqında)*

Bu deyim Cəfər Cabbarlıya məxsusdur. O, həyatdan vaxtsız getsə də, bugünümüzün gerçəklərini gözəl görmüş, gözəl təsvir etmişdir. Hətta müasirimiz olan doktor Cavad Heyəti də mənim indi yaxın məsafədən gördüyümdən daha aydın görmüş, ona daha tutumlu və daha dəqiq bir şərh vermişdir.

Cavad Heyət Azərbaycanın zəmanəyə bəxş etdiyi ən böyük ziyalılardan biridir. Və bizim zamanın ziyalı idealını, məhz bir türk ziyalısını və məhz Cavad Heyəti bircə ifadə ilə, yığcam şəkildə təqdim etmək istəsək, bundan daha gözəl, bundan daha obrazlı və bundan daha dəqiq bir ifadə tapa bilmərik: «Beyni kitab arasında Parisdən, ürəyi isə mizraq ucunda Altay dağlarından alınmışdır» (Cəfər Cabbarlı).

Bəli, doktor Cavad Heyət həqiqətən Qərbin rasional düşüncəsinə mükəmməl surətdə yiyələnmiş bir adamdır. Və o həqiqətən Parisdə təhsil almış, orada çalışmış və Paris Cərrahlıq Akademiyasının həqiqi üzvü səviyyəsinə yüksəlmişdir. Lakin o, təkcə təbabət sahəsində rasional və praktik biliklərə yiyələnməklə kifayətlənməmiş, Altaydan üzü bəri min illər boyu köç edərək dünyanın böyük bir qismində özü kimilərlə birləşərək türk dünyası yaratmış

böyük bir xalqın tarixini və milli varlığını məhz Qərb düşüncəsi ilə, obyektiv elmi tədqiqat metodları əsasında öyrənmiş, türkün «canlı ensiklopediyasına» (Vaqif Aslanov) çevirmişdir.

Bütün bunları o, «günbatan fikirli bir sima» olaraq etmişdir. Lakin Cavad Heyət Altaydan bəri türk dünyasını rasional düşüncə mövqeyindən öyrənmək və həmin düşüncənin işığında neçə-neçə ürəkləri yenidən döyündürməklə bərabər, öz ürəyinin bakirəliyini saxlamış, onun gündoğan mənşəyini dəyişmək fikrinə düşməmişdir. Onun qəlb çırpıntıları həmişə Altaydan bəri türk dünyasının nəbzi ilə eyni ritmdə, eyni ahəngdə vurmuşdur.

Bütöv vətənimizin və xalqımızın tarixini, dilimizin tarixini, ədəbiyyatımızın tarixini bir vəhdət halında Cavad Heyət qədər dərindən bilən ikinci bir şəxs göstərmək çox çətindir. O, bütün dünyada yaşayan azərbaycanlıları, bu xalqın keçmişini, bu gününü və gələcəyini özündə ehtiva etmək, milli ruhumuzun canlı, real daşıyıcısı olmaqla yanaşı, eyni zamanda, bir rəmzdir; düşüncə və duyğu birliyinin, tarix və müasirliyin, mədəni-mənəvi vəhdətin rəmzi. O, həm də bütün türk dünyasının mənəvi birlik rəmzidir. O, İranda da, Türkiyədə də, Azərbaycan Respublikasında da eyni məhəbbətlə sevilir, ona eyni dərəcədə böyük hörmət və ehtiram göstərilir. Bizcə, belə şəxslərin varlığı dövlətlər arasında münasibətlərə də bir sıcaqlıq gətirir. Mənəviyyat müstəvisində birliyin mümkünlüyü siyasət və əməli fəaliyyət müstəvisində də birlik üçün zəmin yaradır.

Şəxsi varlıq ümummilli varlığın təsdiqinə həsr olunur və «Varlıq» meydana gəlir... Burası xüsusi tədqiqat tələb edi. Ancaq məqsədimiz tədqiqat olmadığından şəxsi təəssüratı mümkün etmiş bir məqama toxunmaq istərdim. Nə gözəl ki, doktor Cavad Heyətin geniş, çoxsahəli fəaliyyəti şəbəkəsində bizim universitetə də pay düşür. O, artıq 4 ildir ki, Azərbaycan Universitetinin fəxri professoru və «Şərq-Qərb» tədqiqat mərkəzinin üzvü kimi özünəməxsus bir əzmlə fəaliyyət göstərir. «Azərbaycan Universiteti» nəşriyyatında onun daha bir kitabı («Ədəbiyyatşünaslıq») işıq üzü görmüşdür. Universitetimizin disput-klubunda onun çıxışları həmişə böyük maraqla qarşılanır və gənclərin milli ruhda tərbiyəsinə güclü təsir göstərir. Klubun bütün üzvləri, Azərbaycanın görkəmli alimləri, ziyalıları doktor Cavad Heyətin çıxışını həmişə səbirsizliklə gözləyir və elmi mübahisələrdə ona ən ali münsif kimi yanaşırlar.





Doktor Cavad Heyətin böyük tibb alimi, cərrah olmaqla yanaşı, həm də görkəmli dilçi, ədəbiyyatşünas, tarixçi olması çoxdan məlumdur. Lakin söhbətlərimizin birində mən özüm çox gözlənilməz bir vəziyyətlə qarşıladım. Məlum oldu ki, Cavad bəy adları çəkilən ixtisas sahələrində fəlsəfi təfəkkür səviyyəsinə yuksəlməklə bərabər, həm də peşəkar fəlsəfə sahəsində mütəxəssisdir. Və mən sərbəst söhbət tonunu dəyişməli, özümü yığışdırmalı oldum. Çünki gözlənilmədən o, söhbəti fəlsəfənin çox mürəkkəb bir probleminə çəkmişdi və burada dəqiq terminoloji aydınlıq və fəlsəfə klassiklərinin əsərlərininə konkret müraciət tələb olunurdu.

Bundan sonra mən doktor Cavad Heyətlə söhbət edərkən qarşımda Şərq və Qərb fəlsəfi fikrinə dərindən bələd olan peşəkar filosof dayandığını nəzərə alır, fikirlərimi dəqiq ifadə edə bilmək üçün fəlsəfi terminlərdən istifadə etməyə çalışıram. Doktorla fəlsəfi mövzuda söhbətlər mənə və digər fəlsəfə tədqiqatçılarına müxtəlif fəlsəfi terminlərin Azərbaycan dilində qarşılığını arayıb tapmaqla kömək edir. Bununla doktor Cavad Heyət müasir Azərbaycan fəlsəfi dilinin formalaşmasında da fəal iştirak edir...

Məlum olduğu kimi, BMT 2001-ci ili Şərq və Qərb sivilizasiyalarının görüş ili elan etmişdir. Şərq və Qərbin qovşağında yerləşən Azərbaycan və İran rəhbərlərinin dönə-dönə irəli sürdükləri bu fikir üçüncü minilliyin astanasında bütün dünya ictimaiyyətinin rəsmi şüarına çevriləcəkdir. Böyük Cəfər Cabbarlının əsrin əvvəlində sənətə gətirdiyi «günbatan fikirli, gündoğan duyğulu bir sima» əsrin sonunda real həyatda öz ümumbəşəri vəhdət idealını bütün dünyaya bəyan edəcəkdir. İndiyədək türk dünyasının, xüsusən İran və Azərbaycanın vəhdət rəmzi kimi tanıdığımız Cavad Heyət də yeni əsrin başlanğıcında daha bir missiyanı yerinə yetirəcək; Şərq və Qərb dünyalarının qarşılıqlı anlaşma və uyuşma prosesində canlı nümunə və rəmz rolunu oynayacaqdır.

*"İpək yolu" jurnalı, 2000, № 1.*





# Dünya fikir xəzinəsində Cavad Heyət dəst-xətti

*(Bertran Rassel və Cavad Heyət)*

Azərbaycanın fəlsəfi fikir həyatında mühüm hadisə sayıla biləcək bir tərcümə əsərindən bəhs etmək istəyirəm. Prof.Dr. Cavad Heyətin təqdimatında Bertran Rasselin "Qərb fəlsəfəsi tarixi" Azərbaycan dilində işıq üzü görmüşdür.

B.Rasselin fəlsəfə dünyasına ekskursu akademik səpkidədir. Cavad Heyətin təqdimatında isə əsər sadələşir və mütəxəssis auditoriyasından çıxarılaraq geniş oxucu kütləsinə ünvanlanır. Bilavasitə mütəxəssis olmayan ziyalı təbəqəsi üçün yazılmış belə anlaşıqlı kitablar çox azdır. Halbuki, fəlsəfə ancaq bir qrup mütəxəssisin tədqiqat sahəsi olmayıb, bir mədəniyyət hadisəsi kimi, dünyagörüşü kimi də önəmlidir.

Böyük filosofların, o cümlədən, Hegelin, Rasselin yazdıqları fəlsəfə tarixləri isə bütün dünya fəlsəfəsinin vahid bir mövqedən dəyərləndirilməsidir. Bu mənada Rasselin hər bir filosof haqqında yazdığı şərhdə biz həm də onun özünü görürük. Onun buna mənəvi və intellektual haqqı çatır. Amma bu əsərin başqa bir prizmadan, Şərq dəyərləri süzgəcindən keçirilərək, bir növ yenidən yazılması çox ağır bir işdir. Belə bir məsuliyyəti ancaq Cavad Heyət miqyasında bir şəxs üzərinə götürə bilərdi. Bizcə, əslində

o məhz öz kitabını – dünya fəlsəfəsinə şəxsi baxışlarını yazsa, daha maraqlı olardı.

... Bu isə əsərin sadəcə tərcüməsi olmayıb, dünya fəlsəfəsinin Rassel prizmasından keçdikdən sonra Cavad Heyətin də görüş dairəsindən keçirilərək və daha geniş oxucu kütləsi üçün anlaşıqlı hala salınaraq və üstəlik doğmalaşdırılaraq təqdim olunmasıdır.

Cavad Heyətin dəst-xətti təkcə bütün mətn boyu terminlərin uyğunlaşdırılması, Şərq fəlsəfi ənənələrinə müvafiq olaraq transformasiyası ilə məhdudlaşmayıb, həm də bəzi əlavələr edilməkdə özünü göstərir. Əvvəla, Cavad Heyət Rasselin dünya fəlsəfəsinə baxışlarında bir qərbçilik gördüyündən, “yaddan çıxarılmış” bəzi səhifələri əlavə etməyi lazım bilir; tamlıq, bütövlük naminə. Amma dünya fəlsəfəsi özü açıq bir prosesdir və onu tamamlamaq heç də qapatmaq mənasında başa düşülə bilməz. Hər bir filosofun, müstəqil dünyagörüşü olan fəlsəfə tədqiqatçısının öz “dünya fəlsəfəsi”, öz fikir panoramı var. Biz indi Cavad Heyətin nəyə görə məhz Molla Sədranı əlavə etməsi haqqında geniş söhbət açmaq istəmirik. Bircə bunu qeyd edək ki, Molla Sədra Yeni Dövrün başlandığı bir vaxtda – XVII əsrdə yazıb-yaratmış və bu mənada Dekartla, F.Bekonla eyni zaman paralelində müqayisə oluna biləcək bəlkə də yeganə Şərq (İslam) filosofudur. İkincisi, belə bir təsəvvür mövcuddur ki, guya orta əsr İslam fəlsəfəsi XIII əsrdə bitmişdir və sonrakı dövrlərdə biz bu fəlsəfəyə sahiblik iqtidarında olmamış, onu davam etdirə bilməmişik. Bu fikirlə ancaq qismən razılaşmaq olar. XVII əsrdə Molla Sədranın öz varlığı və yaratdığı varlıq fəlsəfəsi isbat edir ki, İslam fəlsəfi fikri yeni dövrdə də yaşamaq əzmində olmuşdur. İki əsr sonra K.Marksın təqdim edəcəyi dialektik materializmin bir sıra müddəaları məhz Molla Sədranın təlimində təməlləndirilmişdir; həm də ifrat materializmin naqisliyinə mübtəla olmadan. Bu da əlamətdar haldır ki, yeni əsrdə bu təlimi bizə təqdim edən məhz müasir “Varlığın” yaradıcısı, cismani varlıqların sağlamlığını mühafizə etməklə kifayətlənməyərək, zehniyyətimizi də sağaldan və ona saf mənəvi çeşmələrdən məlhəm qoyan doktor Cavad Heyətdir. Dilin varlığı, fikrin varlığı və cismani mövcudluqla zehniyyətin dialektik vəhdətinin varlığı! Və nəhayət, imzalar içərisində imzamızın varlığı olan “Varlıq” jurnalı və bütün bu varlıqları özündə təcəssüm etdirən doktor Cavad Heyət!

Cavad Heyət türk dünyasının böyük bir düşünürü kimi, Azərbaycan xalqının indiki dövrdə hər şeydən əvvəl məhz fəlsəfəyə ehtiyacı olduğunu dərk edir və onu bizə öz dilimizdə və üslubumuzda çatdırmaq üçün yollar axtarır. Onun tariximiz, dilimiz və ədəbiyyatımızla bağlı araşdırmaları milli özünüdərk yolunda mühüm addımlardır. İndi təqdim olunan kitab da klassik fəlsəfi nümunələrlə tanışlığa xidmət edən dəyərli vəsaitdir. B.Rassel kimi böyük bir riyaziyyatçı alim dünya fəlsəfi fikrinin öz xalqına sadə şəkildə çatdırılmasına nəyə görə ehtiyac hiss edirdisə, bu gün görkəmli cərrah, təbiətşünas alim Cavad Heyət də məhz həmin səbəbdən diqqətimizi fəlsəfəyə yönəldir.

B.Rasselin riyaziyyat və riyazi məntiq sahəsindəki böyük xidmətlərinə rəğmən, onun dünya miqyasında məşhurlaşması da, Nobel mükafatına layiq görülməsi də əsasən humanitar biliklərin yayılması, maarif və sülh sahəsindəki xidmətləri ilə bağlıdır. B.Rasselin dindən, təhsildən, sevgidən, insan xoşbəxtliyindən bəhs edən əsərləri daha çox yayılmışdır.

Azərbaycanda Cavad Heyəti məşhur həkim kimi tanıyan, onun tibbi xidmətindən istifadə edənlər də az deyil. Amma daha geniş təbəqə onu məhz maarifçilik xidmətinə

görə, tariximizi, ədəbiyyatımızı mükəmməl bilən, "dil içində dil bəsləyən", dilimizin nəinki istifadəsinə, həm də nəzəri tədqiqinə yönəli böyük işlər görən vətənpərvər ziyalı kimi tanıyır. Bu mənada "ensiklopedik zəka sahiblərinin dövrü keçmişdir" fikri ilə razılaşmaq düzgün olmazdı. Çünki dar ixtisaslaşmanın labüdlüyü ilə yanaşı, bütövlük naminə müxtəlif sahələrdəki biliklərin bir araya gətirilməsi də vacibdir. Yoxsa insan təfərrüatlar içərisində itib-batar, dünyanın ümumi mənzərəsinin canlanmasında çətinlik yaranar. Təsadüfi deyil ki, Cavad Heyətin təqdimatında dil də, ədəbiyyat da, sənət də, tarix də, fəlsəfə də eyni müstəviyə gətirilir. Onun "Türklərin tarix və mədəniyyətinə bir baxış" kitabı da belə bir təbii inteqrasiyanın məhsuludur. Cavad Heyət yaradıcılığında isə müxtəlif sahələrdəki biliklər eyni bir ideya xətti boyunca ipə-sapa düzülür.

Ümuminin zirvəsindən baxanda, xüsusilər daha aydın görünür. Yəqin ona görədir ki, Cavad Heyətin yazdığı "Ədəbiyyatşünaslıq" kitabı çağdaş ədəbiyyatçılarımızın hələ də qalxa bilmədiyi yüksək nəzəri təfəkkür səviyyəsində qərar tutur və klassik nümunə rolunu oynayır: aydın, yığcam, sistemli... O saat görünür ki, müəllif yazdıqlarına fəlsəfi fikir səviyyəsindən baxa bilir.

Bir daha tərcümə məsələsinə qayıtsaq, bu kitab belə bir zərurəti təkrarən vurğulamağa ehtiyac yaradır ki, hər hansı bir əsərin doğma dilimizdə yenidən doğula bilməsi üçün əvvəlcə dilin özü, müvafiq terminologiya yetərincə inkişaf etməlidir. Bunun üçün isə həmin dildə orijinal əsərlər yazılmalıdır. Yəni biz milli fəlsəfi fikrimizi müasir düşüncənin tələbləri səviyyəsində yaşada bilməsək və bununla bahəm dilimizi də fəlsəfi məfkurə yönündə inkişaf etdirə bilməsək, başqa xalqların fəlsəfi yaradıcılığını mənimsəmək də çətin olacaqdır. Bu baxımdan, bir daha vurğulamaq istəyirəm ki, Cavad Heyətin bu addımı bir tərcümə xidməti olmaqdan daha çox, Azərbaycan fəlsəfəsinə bir dirçəliş, oyanış çağırışıdır: "Gəlin, milli fəlsəfi düşüncə ənənələrini bərpa edək, dünyaya öz gözlərimizlə baxmağı öyrənək və başqa xalqların böyük filosoflarını da öz düşüncə auramıza daxil edək!"

*"525-ci qəzet", 3 avqust 2013-cü il.*

# Ədəbiyyatdan fəlsəfəyə

*(Filosof-tənqidçi Yaşar Qarayev haqqında)*

Yaşar Qarayev nə yazıçı, nə də şairdir. O, hər şeydən əvvəl fikir sahibidir. Lakin onun fikirləri bədii bir ahənglə ipə-sapa düzülür. Elmi fikir bədiiləşir.

Yaşar Qarayev elm aləminin şairi, ədəbi-bədii alimin alimidir. Onun təfəkkürü bədii duyumla rasional düşüncənin üzvi vəhdətindən yoğrulmuşdur. O, yəqin ki, hər iki istiqamətdə: həm elmi, həm bədii yaradıcılıq sahəsində uğur qazana bilərdi. Lakin Yaşar Qarayev intellektual poeziya nümunələri yaratmaq deyil, poeziyada intellektual məqamları araşdırmaq yolunu tutmuşdur. O, tədqiqat predmeti olaraq elmi deyil, ədəbiyyatı, sənəti seçmişdir. Lakin sənət dünyasının araşdırılmasına elmi rasional düşüncə potensialı ilə qatılmışdır.

Ədəbiyyatçılar içərisində ifrat rasionallığı və mürəkkəb düşüncə tərzi ilə seçilən və bədiilik elementlərindən intellektin ancaq yüksək pilləsində istifadə edənYaşar Qarayev doğmalar içərisində yad adam təsiri bağışlayır. Tədqiqat predmetlərinin eyniyyəti, mövzu yaxınlığı şəraitində bu yadlıq təəssuratı, görünür, intellektual məsafə fərqindən doğur.

Azərbaycan xalqının milli inkişafında ədəbi-bədii fikrin rolu həmişə böyük olmuşdur. Obrazlı düşüncə bir təfəkkür tərzi kimi rasional elmi düşüncəni həmişə üstələmişdir. Xalqımızın milli-fəlsəfi fikri də çox vaxt öz əksini elmi traktatlar monoqrafiyalarda deyil, bədii ədəbiyyatda tapmışdır. Ona görə də elmi düşüncəyə və fəlsəfi təfəkkürə gedən yolda əsasən ədəbiyyatdan keçmişdir. Obrazlı deyimlərin rasional elmi dilə «tərcümə edilməsi» xüsusi yönümlü bir istedad tələb edir. Ona görə də rasional idrak vərdişinə malik olan insanların ədəbiyyat aləminə müraciət etməsinə böyük ehtiyac vardı. Bu baxımdan böyük elmi rasional düşüncə potensialına malik olan Yaşar Qarayev kimi şəxslərin təbiətşünaslıqla deyil, ədəbiyyatşünaslıqla məşğul olması bizim milli maraqlarımıza daha çox uyğundur. Çünki bu zaman o, ancaq bir şəxsin fərdi rasional düşüncəsinin bəhrəsini verməklə məhdudlaşmayıb, əsrlər boyu yazıb-yaratmış böyük ədiblərimizin ədəbi-bədii yaradıcılığındakı rasional düşüncə məqamlarının da çağdaş oxucuya çatdırılmasına nail olur.

Bu sahədə Yaşar Qarayevin xidmətinin üç istiqamətində nəzərdən keçirmək olar. Birinci istiqamətdə ədəbiyyatda infrastrukturu və funksiyaları araşdırılır. Tədqiqatçı bu və ya digər konkret ədəbi canrın ümumiyyətlə bəddi ədəbiyyatda, ədəbiyyatın ümumiyyətlə sənətdə, sənətin ümumiyyətlə mədəni-mənəvi həyatda yerini müəyyənləşdirməyə çalışır. Bu yol əslində ədəbiyyatşünaslıqdan daha çox fəlsəfi-estetik və sosial-fəlsəfi tədqiqatın yoludur. İkincisi, o, bədii ədəbiyyatmızın müxtəlif anlarında özünəməxsus bədii üsullarla ifadəsini tapmış ideyaların, fəlsəfi fikirlərin və konsepsiyaların üzə çıxarılması və onlara müasir elmi-fəlsəfi terminlərlə ikinci həyat verilməsi istiqamətində böyük işdər görür. Üçüncü istiqamət bilavasitə ədəbi tənqiddir. Burda biz bədii əsərin məzmununun lokal miqyasdan çıxarılaraq daha böyük zaman və məkan kontekstinə salınmasının, konkret bir bədii nümunənin ucsuz-bucaqsız ədəbiyyat kəhkəşanında müqayisəli şəkildə nə-

zərdən keçirilməsinin şahidi oluruq. Digər tərəfdən, tədqiqatçı əsəri təhlil edərkən mahiyyət məqamlarını üzə çıxarmaqla əslində bilavasitə fəlsəfi mündəricə daşımayan sənət əsərlərinin də elmi-fəlsəfi təhlil obyektinə çevrilir.

Müasir dövrdə ifrat siyasiləşmiş təfəkkür ədəbiyyatında cari siyasi kontekstə salınmasına cəhd göstərərkən, ədəbi-bədi ənənələrmizin və sənətin ali memarlarının qorunub saxlanmasına daha böyük ehtiyacı vardır. Nə yaxşı ki, hələ sovet dövründə də kommunist ideologiyasının yaratdığı labirintlərdən məharətlə keçərək milli mədəniyyətin tərəqqisi, xalqın maarifləndirilməsi, ədəbi-bədii və fəlsəfi təfəkkürün inkişaf etdirilməsi sahəsində böyük xidmətlər göstərən Yaşar Qarayev kimi alimlərmiz bu gün də cari problemlərin cazibə dairəsinə düşmədən və heç bir konyukturaya uymadan ümumbəşəri və milli-mənəvi dəyərlərimizi tədqiq və təbliğ etməklə ümummilli tərəqqiyə xidmət edirlər.

*Yazıçı ("Oğuz Eli" qəzetinin ayrıca buraxılışı),*
*№ 6-7, 2000-ci il.*

**P.S.**

Yaşar Qarayevlə tanışlığımız hələ ötən əsrin 70-ci illərindən başlamışdı. O, bir dəfə məni – 24 yaşlı gənc fəlsəfə elmləri namizədini Ədəbiyyat İnstitutuna neçə-neçə tanınmış professorların iştirak etdiyi elmi seminara ədəbiyyat və fəlsəfə mövzusunda məruzə üçün dəvət etmişdi. Mən o vaxtlar bu mövzu ətrafında çox az oxumuşdum. Amma mənim ədəbiyyat haqqında düşüncələrim Yaşar müəllimə maraqlı gəlirdi: görünür, ədəbiyyata bir fizik-filosofun gözü ilə baxış ənənəvi təsəvvürlərdən kənara çıxırdı. Amma seminar iştirakçıları arasında ya problemə





akademik və ənənəvi yanaşma vərdişindən dolayı, ya da çox gənc və ədəbiyyatdan uzaq bir adamın onlara məruzə oxumasından rəncidə olduqları üçün elə adamlar da tapıldı ki, onlar məni bir növ imtahan etmək məqsədi ilə "Hegelin estetikasında bu məsələyə münasibət necədir; yaxud Çernışevski, Belinski bu barədə nə demişdir?" kimi suallarla müraciət etdilər. Yaşar müəllim isə özü onlara cavab verdi ki, biz bu gənc fizik-filosofu estetika tarixindən bəlli olan məsələləri nəql etmək üçün deyil, öz orijinal düşüncələrini bizimlə bölüşmək üçün dəvət etmişik. Şübhə etmirəm ki, mənim gələcək tədqiqatlarımın fizikadan lirikaya doğru yerdəyişməsində bu görüşün xeyli təsiri olmuşdu. Əlbəttə, burada mənim "elm və sənət" mövzusunda məşhur "Qoşa qanad" əsərinin müəllifi Xudu Məmmədovla, o dövrün məşhur filosof-tənqidçisi Asif Əfəndiyevlə, görkəmli mifoloq Mirəli Seyidovla da dostluğum, habelə bunlardan daha öncə ədəbiyyat müəllimləri olan atam Hacı Sədrəddinin və əmim Əmirxan Xəlilovun da rolu var idi. Amma bizim Yaşar Qarayevlə müzakirələrimizin mövzusu xeyli dərəcədə fərqli idi. Söhbət çox vaxt məhz ədəbiyyat-fəlsəfə münasibətlərindən gedirdi.

Qəbuluna professorların da çətinliklə düşdüyü İnstitut direktoru mənimlə söhbət üçün həmişə vaxt tapırdı. İkimiz də Baksovet səmtində yaşayırdıq və işdən sonra evə çox vaxt piyada gedirdik. "Sovetski" məhəlləsində N.Nərimanovun heykəlinin yanından Bakı Soveti metrosuna qədər enən pilləkənlərdə şəhərə gözəl mənzərə açılırdı. Pillələrin üstünə qəzet sərib oturduğumuz da olurdu. O mənim yazılarımı böyük maraqla oxuyub fikir bildirirdi.

Sonralar mən Azərbaycanda ilk özəl Universitet açarkən də köhnə dostların dəstəyinə arxalanmışdım. Məqsədimiz "çirkab dənizində təmiz ada yaratmaq" idi. Universitetin Əsasnaməsinin hazırlanmasında, açılış məra-

simində, ilk qəbul imtahanlarında da Yaşar müəllimin iştirakı görülən işin sanbalını artırırdı.

Universitetin nəzdində bir ziyalı Mərkəzinin yaradılması işində də onun böyük rolu oldu. O vaxt əsasını qoyduğumuz Şərq-Qərb Tədqiqat Mərkəzi neçə-neçə görkəmli ziyalılar üçün mənəvi mühit rolunu oynayırdı. Yaşar Qarayev bu Mərkəzin ən ünlü üzvlərindən biri kimi müzakirə olunan məsələlərdə həmişə fəal iştirak edir, "Gənc istedad" klubu üzvlərinin gələcəyin yaradıcı şəxsləri, alimləri, ziyalıları kimi yetişməsi üçün əlindən gələni əsirgəmirdi. Əsasən təbiətşünas alimlər, görkəmli həkim, riyaziyyatçı, fizik və s.-lə yanaşı, humanitar sahəyə məxsus bir alimin müzakirələrə qatılması, söhbətlərin daha canlı, daha cazibədar keçməsinə şərait yaradırdı.

Mənim H.Cavid və C.Cabbarlı haqqında yazdığım kitabların redaktoru da təbii ki, Yaşar Qarayev idi. 2001-ci ildə çapdan çıxan "Cavid və Cabbarlı. Müxtəlifliyin vəhdəti" kitabının giriş məqaləsində mən əsərin redaktoru haqqında əlamətdar bir qeyd yazmışam və onu burada yada salmaq istəyirəm:

"İxtisasımın vurğulanması belə təəssürat yarada bilərdi ki, mən Cavid və Cabbarlının ilk dəfə olaraq yeni rakursda, fəlsəfi müstəvidə nəzərdən keçirildiyini diqqətə çartdırıram. Məhz belə səhv təsəvvür yaranmasın deyə, xüsusi olaraq qeyd etmək istəyirəm ki, həqiqi ədəbi tənqid heç vaxt fəlsəfi baxış dairəsindən kənarda təsəvvür oluna bilməz. Ona görə də, Cavidin də, Cabbarlının da tədqiqatçıları ixtisas etibarı ilə ədəbiyyatşünas olsalar da, istər-istəməz bu sənətkarların yaradıcılığında zəngin olan fəlsəfi ideyaların təhlilinə də müraciət etməli olmuşlar. Və bu sırada mən bir tədqiqatçını xüsusi fərqləndirmək istərdim. Bu, rəsmi ixtisasına görə ədəbiyyatçı olsa da, təfəkkür tərzinə görə filosof olan Yaşar Qarayevdir. O, həm Cavidin, həm də Cabbarlının poetik-dramaturji yaradıcılıq dünyasına, bu dünyanın ən dərin qatlarına bəlkə də hamıdan çox baş vurmuş, bu sahədə müstəsna uğurlar qazanmışdır.

Neçə minillik tarixi olan rəsmi fəlsəfənin bütün qayda-qanunları ilə təhlil aparıb gəldiyim qənaətlər son nəticədə çox vaxt Yaşar Qarayevin tənqidçi-filosof qələminin məhsulu ilə üst-üstə düşür. Bir fərqlə ki, keçdiyimiz yollar əsasən eyni olsa da, istiqamətlər müxtəlifdir. Mən fəlsəfədən ədəbiyyata gəlirəm, Yaşar müəllim ədəbiyyatdan fəlsəfəyə. Bizim yaradıcılıq yolundakı görüşümüz bir növ Cavid və Cabbarlının görüşünü xatırladır (Bax: bu kitabın birinci fəsli). Elə fərq də daha çox metodlarda üzə çıxır. Yaşar Qarayev bütün incəliyi ilə bildiyi ədəbi-bədii materialları ümumiləşdirməklə (induktiv metodla) ədəbi-elmi konsepsiya yaradır, mən ideyadan təsirlənərək esse yazıram və onu sonradan seçdiyim detallarla konkretləşdirməyə çalışıram.

Girişdə məhz Yaşar Qarayevi yada salmağıma gəlincə, nə yaxşı ki, mən onun bu kitaba yazdığı ön sözə həssaslıqla yanaşa bildim. «Cavid və Cabbarlı»ya ön söz olaraq Yaşar Qarayev «Bədii seyrə işıq fəlsəfədən düşür» adlı gözəl məqalə yazmışdır. Və burada kitaba münasibətdən daha çox, oradakı ideyaları daha da inkişaf etdirmək təşəbbüsü gördüm. Özü də bu təşəbbüs çox uğurlu alınmışdır. Ancaq Yaşar müəllimə məxsus bir təvazökarlıqla «buradakı fikirlərin bir qismini mən artıq demişəm», – yox, «bu fikirləri belə də demək olar» formasında bir sətiraltı məna sezdim. Və götürüb Yaşar müəllimin dörd il öncə mənə bağışladığı «Tarix: yaxından və uzaqdan» kitabındakı müvafiq məqalələri diqqətlə oxudum. Və mənə daha yaxın olan fikirləri seçib hansı formadasa bu kitaba daxil etmək qərarına gəldim." Yaşar müəllim bir söz deməsə də, bu

əlavələrdən məmnun qaldığını düşünürəm.

Bu kitab çıxandan sonra səhhəti ilə bağlı Yaşar müəllimlə az-az görüşürdük. Axırıncı dəfə evlərində ona baş çəkdim. Yataqda olmasına rəğmən, son kitabını (iri həcmli bu kitab "Azərbaycan ədəbiyyatı: XIX və XX yüzillər" adlanırdı) öz əli ilə yazıb mənə bağışladı. Bu, bir növ yekun kitab idi.

Şərq-Qərb Tədqiqat Mərkəzindəki son çıxışları yadıma düşür. Həmsöhbətləri prof. Cavad Heyət, prof. Nurəddin Rzayev və s... Görünür, həkimlərlə təmasdan irəli gəlirdi ki, son vaxtlar o, təbabətin terminologiyasından da yaradıcı və orijinal şəkildə istifadə edirdi. Özü infarkt keçirdikdən sonra insan orqanizminə məxsus bu xəstəliyin ictimai həyata transformasiyasına dair çox dəyərli bir məqalə yazmışdı. Maləsəf, bir neçə il infarktla mücadilədən sonra xalqımız bu böyük təfəkkür sahibi ilə vidalaşmalı oldu. Şərq-Qərb Tədqiqat Mərkəzi olaraq biz öz sıralarımızdakı bu itkini özünəməxsus bir "yas mərasimi" ilə qeyd etdik. Xoşagəlməz bir təsadüf Mərkəzin ağsaqqallar korpusu ilə "Gənc istedadlar" korpusu arasında balans yaratdı: gənc jurnalist Elşad Qaravalov da dənizdə boğularaq dünyasını dəyişmişdi. Və biz onların xatirəsinə həsr olunmuş qeyri-ənənəvi yas mərasimində "Həyatın mənası", "Həyat və ölüm" mövzularında fəlsəfi diskurs təşkil etdik. Yaşar Qarayevin ailə üzvləri və AMEA-nın Ədəbiyyat İnstitutunun da nümayəndələri mərasimə qatıldılar.

Bu gün ölkəmizdə ziyalı defisiti şəraitində Yaşar Qarayevin yeri çox aydın görünür. Amma o vaxt əsası qoyulan ənənələr ən azı Şərq-Qərb Tədqiqat Mərkəzində davam etdirilməkdədir.





# *İmtina fəlsəfəsi*

*(Filosof-tənqidçi Asif Əfəndiyev haqqında)*

Azərbaycanda fəlsəfi düşüncə ənənələri həmişə şifahi xalq ədəbiyyatı və milli poetik fikirlə sıx surətdə bağlı olmuşdur. Rusiya ilə əlaqələrin artmasına baxmayaraq, XX əsr Azərbaycan fəlsəfi fikri yenə də bədii ədəbiyyat, obrazlı fikir üzərində köklənmişdi. XIX əsrin axırlarından başlayaraq A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi və s. bu kimi maarifpərvər ziyalılarımızın bütün səyləri Qərb sivilizasiyasının, yeni elmi-fəlsəfi dəyərlərin ölkəmizdə yayılmasına yönəldilmişdi. Bununla belə, peşəkar fəlsəfi məktəb formalaşmamışdı. XX əsrin əvvəllərində Məhəmməd Hadi, Hüseyn Cavid, Cəfər Cabbarlı kimi böyük fikir sahibləri də öz ideyalarını əsasən ədəbi-bədii yaradıcılıqları vasitəsi ilə ifadə edirdilər.

Oktyabr inqilabından sonra kommunist ideologiyası və marksist-leninçi fəlsəfənin çərçivəsinə salınan fəlsəfi və bədii təfəkkür artıq öz yaradıcı mahiyyətindən uzaqlaşaraq təsvirçilik və təbliğatçılıq funksiyasını icra etməyə başladı. Belə bir şəraitdə hər hansı yeni fəlsəfi təlimin yaranması qeyri-mümkün idi. Daha doğrusu, belə bir addım atmaq üçün əvvəlcə marksizm çərçivəsindən çıxmaq, kommunizm ideologiyasından imtina etmək lazım idi. 37-ci ilin və sonrakı dövrün repressiyalarından sonra belə bir addım atmaq üçün sadəcə yaradıcı fəlsəfi təfəkkür deyil, həm də

inqilabçılıq missiyası, özünü fəda etməyə hazır olmaq, ideya səmasında kamikadzelik tələb olunurdu.

Yaradıcı fəlsəfi təfəkkürün iflic vəziyyətində olduğu, dünya fəlsəfi məkanında gedən yeni proseslərin gizli saxlandığı və ya ancaq tənqid olunduğu bir dövrdə SSRİ-nin əsas elm və mədəniyyət mərkəzləri olan Moskva və Leninqrada da belə fərqli düşünən insanları, dissidentləri barmaqla saymaq mümkün idi. Yeni fəlsəfi təlim yaratmaq isə kiminsə heç ağlına da gələ bilməzdi. Belə bir şəraitdə – XX əsrin 70-ci illərində SSRİ-nin əyalətlərindən sayılan Azərbaycanda *Asif Əfəndiyev fenomeni* baş qaldırdı və əvvəlcə ədəbi-bədii prosesə fərqli münasibət kimi, sonra kommunist ideologiyasından imtina və yeni üslub, yeni metod kimi, daha sonra isə yeni düşüncə tərzi və müstəqil bir fəlsəfi təlim kimi formalaşdı. Ocaq hərəkatı yarandı. Bu hərəkat ideya despotizmindən bezmiş olan mütərəqqi düşüncəli gənclərin böyük bir qismini arxasınca aparan yeni ideya istiqaməti və hətta yeni həyat tərzi kimi böyük vüsət aldı.

Ocaq hərəkatı Moskvanın diqqətini getdikcə daha çox cəlb edirdi. Bu proseslərin inkişafına bir növ rəvac verən milliləşmiş respublika KQB-sinin «nəzarəti» təbii ki, Moskvanı razı sala bilməzdi, ona görə də nəzarəti öz əlinə götürməyə çalışırdı. Moskvanın təkidi ilə ciddi tədbirlər görüldü, Asif Əfəndiyev partiya sıralarından, daha sonra isə işdən azad edildi. Onun fikirdaşları da hər yerdə sıxışdırılmağa başladı. Asif Atanın əsərlərinin çapı qadağan edildi. Gənclər tərəfindən üzü köçürülüb yayılan əlyazmalar hər yerdən yığışdırılıb yandırıldı. Bununla belə, ox artıq yaydan çıxmış, ideyalar qəlblərdə və beyinlərdə qərar tutmuşdu.





Biz demirik ki, Asif Əfəndiyevin yaratdığı təlim qüsursuzdur və onu bir milli ideologiya nümunəsi kimi qəbul etmək olar. Xeyr, Asif Ata təlimi maksimalist bir təlimdir, ifrat Şərq mövqeyinin bariz nümunəsidir. Onun hətta şəxsi həyatında və xarakterində müşahidə olunan bu ifratçılıq, maksimalizm əslində o dövrün məhsulu idi. Çünki Asif Ata təlimi kommunist ideologiyasına, doqmatizmə, ehkamçılığa reaksiya kimi yaranmışdı. Ehkamçı təfəkkürə alternativ olaraq, ona qarşı ancaq inqilabçı və inkarçı bir təfəkkür yarana bilərdi. Və bu inkarçı təfəkkür ictimai-siyasi həyatda, mədəniyyətdə, ədəbiyyatda qərarlaşmış ənənələrə qarşı bir üsyan idi. Təfəkkürün belə istiqamətlənmiş forması öz qarşısına sosializm realizminin, kommunist tərbiyəsinin müsbət cəhətlərinin də olmasını etiraf etmək, bu ənənələrdəki yaxşı cəhətləri üzə çıxarıb təqdir etmək məqsədini qarşıya qoya bilməzdi. Əksinə, Asif Ata kommunizm epoxasının zəif cəhətlərini önə çəkir, burada meyarların həqiqətə əsaslanmadığını, hər şeyin tərsinə qurulduğunu vurğulayırdı. Onun fikrinə görə, Qırmızı inqilab zaman əqrəbini geriyə çəkmək, təbii gedişatı tərsinə fırlatmaq təşəbbüsü idi.

*Palçıq üstə çıxdı, dağ altda qaldı,*
*Şikəst üstə çıxdı, sağ altda qaldı,*
*Zəmanə nehrəsi tərs çalxalandı,*
*Ayran üstə çıxdı, yağ altda qaldı.*

Asif Əfəndiyev fikirlərin sintezindən çıxış etmədi, kompromisə getmədi və tam inkarçı bir mövqe tutdu. Öz həyatında da dövlətin və kommunist cəmiyyətinin açdığı imkanlardan və imtiyazlardan imtina etdi. Fəlsəfi ideyalarında da cəmiyyətin, sosial mühitin rolunu nəzərə almadan, bütün fikirlərini fərdi-mənəvi aləmin təkmilləşdirilməsinə, insani kamilliyin önə çəkilməsinə yönəltdi.

Asif Əfəndiyev yaradıcılığına şəxsi münasibətlər prizmasından baxan sənət adamları çox vaxt ondan inciyirlər. Çünki Asif Əfəndiyevin qələmi tərifdən daha çox tənqid yazırdı. Lakin bu tənqidin səbəblərinin heç də ayrı-ayrı Azərbaycan yazıçılarına münasibətlə deyil, bütövlükdə sovet ədəbi-bədii prosesinə, bütövlükdə qərbçiliyə və bütövlükdə hakim ideologiyaya münasibətlə bağlı olması faktı hələ indi-indi üzə çıxır. Asif Əfəndiyevin mövqeyini, motivlərini başa düşmək çətin idi. Çünki o, ənənəvi meyarlardan deyil, yeni bir fəlsəfi baxışlar sistemindən çıxış edirdi.

Asif Əfəndiyev təliminin məzmununa toxunmadan bircə bunu qeyd etmək kifayətdir ki, bu inkarçılığın özündə bir dəyər var idi. Gənclərin müstəqil düşüncəyə, azad fikirliliyə, yaradıcı təfəkkürə cəlb edilməsi özlüyündə müsbət bir hadisə idi. Düzdür, Asif Ata təliminin məzmunu incələndikdə onun özünün də yeni bir ehkam, yeni bir ideologiya, hətta yeni bir təriqət yönümündə olması üzə çıxır. Lakin bu yeni ideologiyanı qəbul etmək üçün daha dərin kök atmış olan və heç şübhəsiz, daha ziyanlı olan kommunist ideologiyasından imtina lazımdır. Asif Əfəndiyevin gücü gənclərə bu imtina əzmini, bu imtina mədəniyyətini təlqin edə bilməsində idi.

Mənəvi kamilliyə gedən yol imtinadan keçir. Xırda hisslərdən, maddi maraqlardan imtina! Dövlətin və cəmiyyətin verdiyi formal nüfuzdan, rəsmi vəzifə və titullardan, ictimai şüurun bəsitliyi sayəsində qazanılmış ad-sandan, saxta şöhrətdən imtina!

*«Ya şöhrət, ya vüqar», – dedi zamanə,*
*Şöhrətdən əl çəkib, tutdum vüqarı!*





Özü də elə bir şöhrətdən ki, XX əsrin 70-ci illərində o filosof-tənqidçi Asif Afəndiyevi addım-addım izləyir, ondan əl çəkmək istəmirdi. Çoxlarının həsrətində olduğu bu şöhrət çələngindən imtina Asif Əfəndiyevin əslində necə böyük bir məqsədə xidmət etdiyindən xəbər verir. Şan-şöhrətli filosof-tənqidçi öz yerini təqiblərə və tənələrə məruz qalan qəmli-kədərli bir filosof aqibətinə təslim etdi.

*Zəmanə hiddətlə dindirdi məni,*
*İdrak gəmisinə mindirdi məni,*
*Əzab ocağında yandırdı, yaxdı –*
*Kədər dənizində çimdirdi məni!*

Lakin onun kədərində bir nəşə var idi. O, bu əzablı yolları özü seçmişdi. O, öz fəlsəfi idealını təkcə təlimi ilə deyil, şəxsi həyatı ilə də təsdiq etməyə çalışırdı. Əgər onun ideyaları neçə-neçə onilliyin qaranlıq pərdələrini keçərək hələ də işarmaqda davam edirsə və hələ də davamçılara malikdirsə, deməli, əzablı anlar hədər keçməyib.

*"Tənqid.net" jurnalı, 2007, № 4.*

**P.S.**

Mənim kommunist ideologiyasına və azad fikrin çərçivəyə salınmasına qarşı mövqeyim Asif Əfəndiyevin başladığı azad düşüncə hərəkatına uyğun gəldiyinə görə, biz bir müddət sıx əməkdaşlıq etdik. Amma 1982-83-cü illərdən başlayaraq, mənə aydın olmayan səbəblərdən onun baxışlarında və təbliğatında islamla bir araya sığmayan, bəzən hətta ona qarşı olan, nə isə alternativ bir təriqəti xatırladan məqamlar özünü göstərməyə başladı. Mən isə ənənəvi zehniyyətin sağlam sütunlarını qoruyub-saxlamaq tərəfdarı olduğumdan, ifrat inkarçılıq və maksimalizm mövqeyini qəbul etmədiyimdən, bizim yollarımız ayrıldı.

Kommunist ideologiyasından imtina müqabilində dindən də imtina və üstəlik zehniyyətin yeni bir ehkamçılıq təhlükəsiylə üzləşməsi ilə razılaşa bilmədim.

Buna baxmayaraq, Asif Əfəndiyevin və onun təbliğ etdiyi azad düşüncə tərzinin mənim sonrakı yaradıcılığıma müəyyən dərəcədə təsir etdiyini, müəyyən iz buraxdığını da etiraf etməmək olmaz. Bu sırada mən elmi-akademik dil üslubundan fərqli milli fəlsəfi dil üslubunu xüsusi qeyd etmək istəyirəm. Belə ki, Asif Əfəndiyevin esseləri Azərbaycan dilinin zənginliyini yeni bir ampluada üzə çıxardı və milli fəlsəfi dilin inkişafı üçün geniş bir postament hazırladı.





## Öyrənmək təşnəsi

*(Akademik Fəraməz Maqsudov haqqında)*

Mən Fəraməz Maqsudovu necə tanıyıram? Böyük riyaziyyatçı alim kimimi? Elmlər Akademiyasının Prezidenti, görkəmli elm təşkilatçısı kimimi? Bir deputat, millət elçisi kimimi? Siyasi həmfikirim, ictimai-xadim kimimi? Ağsaqqal bir dost və himayədar kimimi? Gözəl şer-sənət bilicisi, milli mədəniyyətimizin təmsilçisi kimimi?

Bu suallara birmənalı cavab vermək çətindir. Çünki Fəramaz müəllim təvazökarlığın və sadəliyin təcəssümüdür. Lakin sadə olduğu qədər də mürəkkəbdir, onu proqnozlaşdırmaq mümkün deyil.

Fəramaz müəllim iti rasional düşüncəyə, analitik təhlil qabiliyyətinə malik bir adamdır. Əsl alimdir. Lakin alim olduğu qədər də şairdir. Bəlkə daha çox dərəcədə məhz şairdir. Emosiyaları o qədər güclüdür ki, çox vaxt rasional düşüncəni də üstəliyir.

Fəraməz müəllim əqidəsində möhkəm, siyasi mövqeyində sabit adamdır. Lakin başqa məsələlərdə olduqca dəyişkən ola bilər. Hansı isə hadisənin məntiqi təhlili emosional fonla birləşərək, onun mövqeyini diametral surətdə dəyişə bilər. Düzdür, bir müddətdən sonra münasibət də olan invariant məqamlar yenidən öz yerini tutar, son nəticədə sabitlik dəyişkən üstələyər.

Şəxsi münasibətlərdə donuq, statik mövqeyi olan adamlardan fərqli olaraq, Fəraməz müəllimin münasibət

dünyası olduqca dinamikdir. Lakin bu dinamika invariantlara söykənir.

Sabit olduğu qədər də dinamik, məntiqli olduğu qədər də emosional, sadə olduğu qədər də mürəkkəb daxili aləmə malik bu unikal adamla mən necə tanış olmuşam?

Fəraməz Maqsudovla ilk tanışlığımız qiyabi olub. 1992-ci ildə rəhbərlik etdiyim özəl ali məktəb ilk gəlirindən Fəraməz müəllimin təsis etdiyi «Əlincə» xeyriyyə cəmiyyətinə pul köçürüb. Bu addım şəxsən bir-birimizi tanımasaq da, ictimai-siyasi mövqelərimizin uyğunluğundan irəli gəlirdi. Bu vaxtandan mən, bu cəmiyyətin yaradıcısı ilə tanış olmaq üçün fürsət axtarmışam. 1993-cü ilin sentyabrında o, artıq ikinci iş yeri kimi bizim Universitetin riyaziyyat kafedrasının müdiri idi və sıx əməkdaşlığımız da o vaxtdan başlanmış və müxtəlif formalarda indi də davam etməkdədir.

Mən Fəraməz Maqsudovla bir sıra xarici ölkələrdə birgə səfərdə olmuşam. Vaşinqtonda Dünya azərbaycanlıların II Konqresində, onun dövlət bayrağına münasibətlə, milli məsələ ilə bağlı müzakirələrdə necə həyəcan keçirtdiyinin şahidi olmuşam. İki dəfə, 1993-cü və 1998-ci illərdə prezident seçkiləri kompaniyasında Fəraməz müəllimlə bir yerdə olmuşuq. 1993-cü ildə prezidentliyə namizəd Heydər Əliyevin rəsmi seçki qərargahı və vəkilləri yox idi. Lakin Fəraməz müəllimin təşəbbüsü ilə bizim Universitetdə istedadlı politoloqlardan ibarət təbliğat qrupu yaradıldı. Universitetimizin nəzdində Heydər Əliyev lektoriyasının əsası da o vaxdan qoyulub. Mən bu proseslərdə Fəraməz Maqsudovun istedadlı gəncləri üzə çıxarmaq və bu ümumi işimizə cəlb etmək sahəsində nə qədər ciddi səylər göstərdiyinin şahidi oldum. Baxmayaraq ki, Fəraməz Maqsudov bizim universitetdə ilk növbədə bir riyaziyyatçı kimi çalışırdı, bizim onunla əməkdaşlığımız əsasında əqidə birliyi, siyasi həmfikir olmağımız durudu. O, yüksək dövlət vəzifələrinə irəli çəkildikdən sonra Azərbaycan Universitetində kafedrə müdirliyindən çıxsa da, ictimai-siyasi və elmi əməkdaşlığımız bu günə qədər davam edir. 1998-ci ildə Fəraməz Maqsudov prezident seçkilərində Heydər Əliyevin seçki qərargahının rəhbəri idi və mən yenə də onun işə necə ürəkdən qoşulduğunun şahidi oldum. Əlbəttə, biz hamımız əlimizdən gələni edirdik, amma Fəraməz müəllimin hiss-həycanlarını daha da qabarıq təzahür edirdi. Yaşına baxmayaraq uşaq kimi həycanlana bilmək, uşaq kimi sevinə bilmək hamıya müəyəssər olmur. Görünür, bu yenə də Fəraməz Maqsudovun şairiliyindən irəli gəlir.





Şairmi?! Fəraməz Maqsudovu hamı şair kimi yox, riyaziyyatçı kimi tanıyır. Elmlər Akademiyasına Prezident seçiləndə də, Beyəlxalq İslam Akademiyasına üzv seçiləndə də, ABŞ-da ilin adamı seçiləndə də, Böyük Britaniyada Ümumdünya Bioqrafiya İnstitutuna direktor seçiləndə də Fəraməz Maqsudovun məhz riyaziyyatçı kimi xidmətləri nəzər alınmışdır. Lakin onun şairi xarakterindəndir, bədii təxəyyülün məntiqi üstələməsindədir. Lakin təxəyyül, görünür, böyük riyaziyyatçı olmaq üçün də vacib şərtdir. Təsadüfi deyildir ki, bir dəfə Hilbertə deyəndə ki, onun şagirdlərindən biri riyaziyyatı ataraq şairliyi seçmişdir, Hilbert – «görünür onun riyaziyyatçı olmaq üçün təxəyyülü çatmamışdır.», – deyə cavab vermişdir.

Fəraməz Maqsudovun ən rasional elmi təmsil etsə də, təfəkkür tərzinə görə Şərq adamıdır. Onun düşüncəsindəki impulsivlik özünü çox qabarıq şəkildə biruzə verir. Şair təsirlənmədən yaza bilmədiyi kimi, o da təsirə qapılmadan düşünə bilmir. Öz ideyasının və ya hansı isə ideyanın təsiri altına düşəndə isə başqa sözləri eşitmir. Daha doğrusu, belə məqamlarda ancaq təsiri altında olduğu

mövzu ilə bağlı danışır və ancaq buna aid deyilənləri eşidir.

Mən akademik Fəraməz Maqsudovu həmişə öyrənən görmüşəm. İstənilən vəziyyətdə, istənilən sahədə qarşıdakının özündən çox bildiyini zənn edir (hər halda belə təəssürat yaranır). Hər hansı məclisdə, istənilən məsələ ilə əlaqədar söhbət gedirsə, Fəraməz müəllim yanında oturan adamdan həmişə nəyi isə soruşur, öyrənmək istəyir. Kənardan baxdıqda onun haqqında heç nə bilməyən, söhbətin nədən getdiyini anlamayan və ya eşitməyən adam təəssüratı yaranır. O, hansı səmimiyyətlə soruşursa, sən də həmin səmimiyyətlə cavab verməli olursan. Onun səmimiyyəti istər-istəməz müsahibini də səmimi olmağa vadar edir.

Hər adam üçün ən çox səciyyəvi olan bir hal, vəziyyət olur. Həmin adamı ən çox həmin halda, onun üçün adi olan vəziyyətdə təsəvvür edirsən. Fəraməz müəllimin adi vəziyyət öyrənmək vəziyyətidir. O, öz şagirdlərindən də öyrənməyə çalışır. Elə bil, ona elə gəlir ki, başqaları ondan yaxşı bilir…

Şahmat klassiklərindən biri şahmat oynayanları dörd qrupa bölmüşdür. Ən pisi zəif oynayan lakin zəif oynadığını bilməyənlər. Sonra zəif oynayan və bunu bilən, daha sonra isə yaxşı oynayan, amma bundan xəbəri olmayan gəlir. Ən yüksək səviyyədə yaxşı oynayan və yaxşı oynadığını bilənlər qoyulur. Fəraməz Maqsudovu səciyyələndirmək üçün bunlar heç biri kifayət deyil. Görünür, beşinci qrup şahmatçılar da var. – «Yaxşı oynayan, yaxşı oynadığını bilən, lakin onu biruzə verməyən, özündən zəiflərdən də nə isə öyrənməyə çalışanlar» … Və ona görə də, çox yüksəkdə durduğu halda, çox güclü olduğu halda bəzən çox aşağı enən, özündən qat-qat zəiflərlə də oturub-duran,





çətin anlaşılan, proqnozlaşdırıla bilməyən, sadə təzahürlü mürəkkəb zəka!... Adi insani hisslərə, emosiyalara təbe etdirilmiş qeyri-adi ağıl, intellekt!

*"İpək Yolu", 2000, №1.*

## Bir ocağın varisi

*(Akademik Kamal Talıbzadə haqqında)*

Kamal Talıbzadə Azərbaycan ədəbiyyatşünaslığının ağsaqqallarından biri, milli ədəbi tənqid tariximizin salnaməsini yaradan görkəmli tədqiqatçı, Akademiyanın həqiqi üzvü, neçə-neçə orden və mükafatlarla təltif olunmuş şanlı-şöhrətli bir insan nə qədər məşhurlaşsa da, nə qədər xidmətlər göstərsə də, məlasəf çox vaxt başqa bir adın nüfuz və təsir dairəsindən çıxa bilmədi. Bütün istedadına və xidmətlərinə rəğmən, Kamal Talıbzadə milli kurəmizin yaddaşında ilk növbədə Abdulla Şaiqin oğlu və Şaiq ocağının məşəlini tutan davamçı kimi qalmaqdadır. Bunun səbəbi Abdulla Şaiq ulduzunun zaman keçdikcə daha çox parlaması və yaddaşlarda Azərbaycan ziyalılığının simvolu kimi möhkəmlənməsidir. Əslində Kamal Talıbzadə heç özü də bu parlaq ulduzun kölgəsindən çıxmağa, onun nüfuzunun təsir dairəsindən kənarda özünə fərqli bir nüfuz hazırlamağa can atmırdı. Onun özünün də dönə-dönə dediyi kimi, ən böyük xidməti şəxsi tədqiqatlarından daha çox, Abdulla Şaiq ədəbi irsinin bir küll halında yeni nəsillərə çatdırılması, Şaiq ocağının ədəbi bir işıq mənbəyi kimi qorunub saxlanılmasından ibarət idi. Təsadüfi deyildir ki, tanışlığımızın və əməkdaşlığımızın intensiv dövründə – ömrünün son illərində söhbətlərimizdə onun ən çox Abdulla Şaiqin ev muzeyi ilə, onun ədəbi taleyi və ədəbi-bədii irsi





ilə məşğul olduğunu, özünü Şaiq çırağının işığında əritməyə hazır olduğunu duyurdum.

Əslində mənim Kamal Talıbzadə ilə tanış olmaq arzum, onunla münasibətlərim heç də yalnız görkəmli ədəbiyyatşünas alim, Azərbaycanın ən nüfuzlu akademiklərindən biri ilə ünsiyyətdə olmaq arzusundan irəli gəlməmişdi. Mən ilk növbədə uşaqlıqdan əsərlərini oxuduğum, bu əsərlərin arxasında nurlu simasını hiss etdiyim Abdulla Şaiqin varisi ilə təmasda olmaq, necə deyərlər, onun qoxusunu Kamal müəllimdən almaq istəyirdim. Amma gözləmədiyim halda Kamal Talıbzadədən diametral əks bir maraq gördüm. İlk baxışda nə qədər təəccüblü olsa da o, mənim simamda sanki Abdulla Şaiqi gördüyünü, onu xatırlatdığımı, həm əsərlərimdə, həm də təhsil quruculuğunda, istedadlı gənclərə göstərdiyim qayğı və diqqətə görə Şaiq işinin davamçısı olduğumu qeyd edirdi: – «Səlahəddin, səni görəndə, sənin əməllərinlə tanış olanda, istedadlı gənclərə qayğını görəndə düşünürəm ki, bəlkə Şaiq ruhunu sən hamımızdan çox yaşadırsan». Azərbaycan radiosunun müxbiri Çiçək Veysəlovaya müsahibəsində də bu məqamı vurğulamışdı. Bu, – çox önəmli bir etiraf idi. Yəni, böyük şəxslərin, millətin simasını müəyyən edən insanların ruhunu ancaq genetik varislər daşımır. Milli ruh millət üçün çalışanların yanğısından qidalanır və eyni ideala xidmət edən vahid milli ruha qatılanlar bir-birinə bənzəməyə bilməzlər. Kamal Talıbzadə Abdulla Şaiqin oğlu olmağın məsuliyyətini dərk edir və yüksək dərəcədə dəyərləndirirdi. Azərbaycan Universitetinin fəxri professoru olan Kamal Talıbzadənin universitetimiz üçün gördüyü ən böyük işlərdən biri də kitabxanamızda Abdulla Şaiq guşəsinin yaradılması olmuşdur. O, xəstə olmasına baxmayaraq, Abdulla Şaiqin universitetdə keçirdiyimiz yubileyində, habelə «Azərbaycan Universiteti» nəşriyyatının buraxdığı «Abdulla Şaiqin

romantizmi» (müəllifi professor Vəli Osmanlıdır) kitabının təqdimat mərasimində şəxsən iştirak etdi və gənc nəslin Şaiq irsinə bəslədiyi yüksək marağa görə sevindiyini bildirdi.

Şaiqlər unudulmursa, deməli ziyalılıq, maarifçilik hələ yaşamaqdadır. Keçən əsrin əvvəllərində xüsusilə böyük vüsət alan milli dirçəliş hərəkatı da, deməli davam etməkdidir.

Son dərəcə təvazökar və səmimi olan Kamal müəllimin bir etirafını da yada salmaq istərdim. 2000-ci ildə AMEA-ya seçkilər zamanı Kamal Talıbzadə humanitar bölmə üzrə hesablama komissiyasının sədri idi. Mən də seçkilərə qatılmışdım. Fəlsəfəyə ayrılmış yerlərdən ikisi tutuldu, biri isə boş qaldı. Sonradan məlum oldu ki, mən cəmi 13 səs toplamışam və AMEA-nın müxbir üzvü olmaq üçün bir səs çatışmamışdır. Kamal müəllim böyük təəssüflə danışırdı ki, hesablama komissiyasının üzvləri səsi sayanda səhv ediblərmiş. Ona məlumat vermişdilər ki, Səlahəddin cəmi 12 səs toplayıb, amma seçkilərdən sonra bir də sayanda 13 səs olduğu aşkarlanıb. Mən də dedim ki, Kamal müəllim, axı, nə fərqi var, əgər 14 səs toplanmayıbsa, 13 də elə 12-nin tayıdır. Yox, – dedi, axı, yadımdan çıxıb, heç mən özüm deyəsən səs verməmişdim, mənim səsimlə məsələ həll olunardı. Onun bu səmimi etirafı mənə o qədər xoş təsir bağışladı ki, əslində mənim seçilməməyimdə həlledici rolu olmasına baxmayaraq, ondan heç ürəyimdə də inciyə bilmədim. Çünki bunları o, danışmaya da bilərdi. Bircə şeyə xüsusilə təəssüflənirəm ki, bu cür təmiz qəlbli insanların səmimiyyətindən sui-istifadə edənlər də var. İşgüzarların belə sui-istifadələrinə baxmayaraq, o, özü aydan arı, sudan duru idi.





Akademik Kamal Talıbzadə təkcə səmimiyyəti və sadəliyi ilə deyil, həm də ağsaqqallıq, qocamanlıq missiyası ilə seçilirdi. Ondan xeyli yaşlı olan adamların iştirak etdiyi məclislərdə də hamı məhz Kamal müəllimi böyük, ağsaqqal hesab edirdi. O, elə bil ki, keçən əsrdən, keçmişdən bizə yadigar idi.

Zəmanə adamı deyildi. Əməllərində zamanla hesablaşmalı olsa da, qəlbən zamandan yüksəkdə dururdu.

*Kübarlıq məktəbi.*
*"Xəzər Universiteti" Nəşriyyatı, 2007-ci il.*

## Yüksək mədəniyyət təcəssümü

### (Akademik Fuad Qasımzadə haqqında)

Akademik Fuad Qasımzadə – XX əsr Azərbaycan fəlsəfi fikrini, fəlsəfi maarifçiliyi, ölkəmizdə fəlsəfəyə münasibəti səciyyələndirən və simvolizə edən ən önəmli şəxslərdən biridir. Ölkəmizdə fəlsəfi biliklərin yayılması sahəsində onun böyük xidmətləri vardır.

Əlbəttə, sovet dövründə yaşaması, onun məhz marksist-leninçi dünyagörüşü ilə bağlılığını zərurətə çevirirdi. Lakin hətta yad bir fəlsəfənin də doğma dilimizdə ifadə olunması, ölkəmizin həyatı ilə əlaqələndirilməsi və bizi əhatə edən mühitin daha düzgün dərk olunmasına yönəldilməsi həmin dövrün ziyalı missiyasına daxil olan vacib şərtlər idi. Fuad Qasımzadə bununla kifayətlənməyərək, marksizmin hüdudlarından kənara çıxa bilmək üçün qədim və orta əsrlərə müraciət edir və həmin dövrün düşüncə tərzini milli mentalitetimizdən, ədəbi-bədii fikir ənənələrindən qaynaqlanan hikmət xəzinəsindən yeni nəsillərə ərməğan gətirirdi. O, Azərbaycanın fəlsəfi fikir tarixi sahəsində bir sıra dəyərli əsərlərin müəllifidir. M.Füzuli, A.Bakıxanov və s. haqqında yazdığı monoqrafiyalar dəyərli tədqiqat əsərləridir. «Qəm karvanı» yaxud zülmətdə nur» kitabı böyük Azərbaycan şairinə həsr olunmuş ən gözəl əsərlərdən biridir. İndi Füzuli haqqında çox yazılır. Təsəvvüf fəlsəfəsinə yasaq da aradan götürülmüşdür. Amma o vaxt, 60-70-





ci illərdə Füzulinin fəlsəfi dünyagörüşünü, onun əsas ideyalarını ortaya çıxarmaq və geniş təhlil etmək böyük cəsarət və yaradıcılıq əzmi tələb edirdi. Ən əsası odur ki, Fuad müəllim konyuktura uyğun olaraq Füzulini bir materialist olaraq təqdim etməyə səy göstərməmiş, ideologiyanın verdiyi imkan daxilində daha obyektiv araşdırmağa çalışmışdır. Məhz Fuad Qasımzadənin tədqiqatları sayəsində Füzulinin adı Azərbaycanda çıxan fəlsəfə dərsliklərinə daxil edilə bilmişdir. Bu dərsliklərin bir çoxunun müəllifi Fuad müəllimin özüdür. Onun dərslikləri uzun müddət ali məktəb tələbələrinin ana dilində istifadə etdiyi əsas vəsait olmuşdur. Xüsusilə, həmmüəlliflərlə yazdığı "Dialektik materializm", "Tarixi materializm" kitabları ruscadan tərcümə olunmuş dərsliklərlə rəqabətdə həmişə üstün idi. Çünki onlar sadəcə tərcümə olunmayıb, tələbələrin daha yaxşı bildiyi misallar və nümunələrlə zəngin idi.

Düzdür, bizim fəlsəfi və ictimai-siyasi fikir tarixinin sistemli şəkildə öyrənilməsinin əsasını akademik Heydər Hüseynov qoymuşdur, lakin onun başladığı bu nəcib işi davam etdirənlərin sırasında Fuad Qasımzadə çox önəmli bir yer tutur. Onun xidmətləri ancaq tədqiqatla məhdudlaşmayıb, daha çox dərəcədə fəlsəfi biliklərin təbliği, ölkəmizdə fəlsəfə sahəsində tədqiqatçı kadrların yetişdirilməsi, bütün Sovet İttifaqı miqyasında Azərbaycan fəlsəfi fikrinin təmsil olunması sahələrində özünü göstərirdi. O vaxtlar bütün sahələrdə olduğu kimi, fəlsəfi fikir sahəsində də Müttəfiq Respublikalar arasında sanki bir yarışma var idi. Mərkəzdə çıxan ensiklopediyalarda, dərsliklərdə, antologiyalarda hansı respublikaya nə qədər yer ayrılması, Ümumittifaq konfranslarda neçə nəfərlə və hansı səviyyədə təmsil olunmaq bir milli qürur məsələsi idi. Ona görə də, fəlsəfəni yaxşı bilməklə yanaşı, rus dilində natiqlik məsələsi də önəmli idi. Akademik Fuad Qasımzadə fəlsəfənin

istənilən sahəsində hazırlıqsız çıxış etmək, mühazirə oxumaq, fəlsəfə ilə ideologiyanı əlaqələndirmək, bəhs etdiyi mövzunun aktuallığını əsaslandırmaq, imkan daxilində, fürsətdən istifadə edərək azərbaycançılığı da təbliğ etmək iqtidarında idi. Adı təkcə Azərbaycanda deyil, bütün SSRİ miqyasında ən nüfuzlu filosoflar sırasında çəkilirdi. O, xarici qonaqlarla maraqlı həmsöhbət olmaqla yanaşı, söhbəti məharətlə idarə edir, fəlsəfədən aktual həyata, cari siyasətə, yeri gələndə tarixə, yeri gələndə müasirliyə yönəldir və yenidən fəlsəfəyə qayıda bilirdi.

F.Qasımzadənin yaradıcılığı da zəngin və hərtərəflidir. O, idmanın estetikasından, müharibənin fəlsəfi tədqiqindən tutmuş fəlsəfə tarixinə və ictimai-siyasi həyatın aktual problemlərinə qədər olduqca müxtəlif mövzularda əsərlər yazmış, beynəlxalq forumlarda məruzələr etmiş, ölkəmizi xarici ölkələrdə ləyaqətlə təmsil etmişdir.

Akademik Fuad Qasımzadənin fəaliyyəti ən çox Bakı Dövlət Universiteti ilə bağlı idi. O, yarım əsr ərzində BDU-nun fəlsəfə kafedrasına rəhbərlik etmiş, universitetdə vaxtilə özünün də məzun olduğu fəlsəfə fakültəsinin bərpası üçün səylər göstərmiş və bu fakültə üçün kadr hazırlanmasında böyük rol oynamışdır. Bunu da qeyd etmək yerinə düşər ki, o, yarım əsr ərzində fəlsəfə üzrə Dissertasiya Şurasının sədri olmuş, bir müddət Azərbaycan Respublikası Prezidenti nəzdində Ali Attestasiya Komissiyasının Rəyasət Heyətinin üzvü kimi fəaliyyət göstərmişdir.

Mən də 1973-cü ildə BDU-nun fizika fakültəsini bitirərək elə həmin ildə fəlsəfə kafedrasının aspiranturasına daxil olmuş və Fuad Qasımzadənin rəhbərliyi ilə namizədlik dissertasiyası yazmışam. Əslində mən Fuad müəllimi bir az da əvvəl, üçüncü kursda oxuyarkən tanıyırdım. Mən o vaxt fəlsəfi mövzuda tələbə elmi işi yazmışdım və bizə





tarixi materializm fənnini tədris edən dosent Cümşüd Hacıyev məni kafedra müdiri ilə görüşdürdü və mən bu tədqiqat işini gələcəkdə də davam etdirmək barədə Fuad müəllimdən məsləhətlər aldım. Sonrakı ildə mənim yazdığım iş tələbə elmi işləri üzrə Respublika müsabiqəsinin qalibi oldu və Ümumittifaq müsabiqəsinə təqdim edildi. Beşinci kursda oxuyarkən mənim ilk elmi məqaləm Fuad müəllimin tövsiyəsi ilə BDU-nun Elmi əsərlərində – "Tarix, Fəlsəfə və Hüquq" seriyasında çap olundu. Daha sonra tədqiqatlarımı aspiranturada davam etdirdim və 1976-cı ildə Fuad Qasımzadənin elmi rəhbərliyi ilə onun sədr olduğu Dissertasiya Şurasında namizədlik işini müdafiə etdim.

Bizim elmi yaradıcılıq əlaqələrimiz sonrakı illərdə də müntəzəm surətdə davam etmişdir. Düzdür, mən doktorluq dissertasiyasını bir qədər fərqli istiqamətdə yazdığımdan əsasən moskvalı həmkarlarımla məsləhətləşməli olurdum, amma Fuad müəl-limlə münasibətlərimiz başqa müstəvidə davam edirdi. Mən ilk növbədə Respublikamızda fəlsəfənin tədrisi ilə əlaqədar bir çox məsələlərin birgə müzakirəsini nəzərdə tuturam. Pedaqoji Universitetdə fəlsəfə kafedrasının müdiri olduğum müddətdə də Elmi-metodiki Şura xətti ilə BDU-nun fəlsəfə kafedraları ilə və ilk növbədə Fuad müəllimlə əməkdaşlıq edir, onun məsləhətlərini nəzərə alırdım. Azərbaycan Universitetində rektor olduğum müddətdə ölkənin ən qabaqcıl mütəxəssislərini, ən yaxşı müəllimlərini tədrisə cəlb etmək proqramı çərçivəsində ilk dəvət etdiyim görkəmli professorlar sırasında, heç şübhəsiz, akademik Fuad Qasımzadə də var idi. O, həm dərs deyir, həm də Universitetin nəzdindəki Şərq-Qərb Tədqiqat Mərkəzinin yığıncaqlarında fəal iştirak edirdi. O, mənim bir neçə kitabımın redaktoru olmuş, ön söz yazmış, mətbuatda mənim elmi fəaliyyətimlə bağlı məqalələrlə çıxış etmişdi. Yaxşı xatırlayıram, Gülüstan sa-

rayında mənim Heydər Əliyevə həsr olunmuş "Lider. Dövlət. Cəmiyyət" kitabımın təqdimat mərasimində çıxış edərkən məni öz yetişdirməsi saydığını və bununla qürur duyduğunu bildirdi. Ümumiyyətlə, özünün ən böyük nailiyyətləri sırasında ilk növbədə yetişdirdiyi kadrlarla fəxr edərdi. Çətin elə adam göstərmək olar ki, fəlsəfə sahəsində alim hazırlığında Fuad müəllim qədər yüksək məhsuldarlıq göstərmiş olsun.

Biz yeni siyasi şəraitdə müstəqil Azərbaycan Respublikasında yeni ideologiyanın formalaşdırılması, fəlsəfə proqramlarının yenidən hazırlanması, ölkəmizdə fəlsəfi maarifçilik işinin canlandırılması və s. bu kimi məsələlərdə yenə də Fuad müəllimin fəal həyat mövqeyinin şahidi olurduq. Fəlsəfə və Sosial-Siyasi Elmlər Assosiasiyasının (AFSEA) təsis qurultayında, AFSEA xətti ilə keçirilən konfranslarda, seminarlarda Fuad müəllimin çıxışlarını və təşkilati fəaliyyətini də xüsusi qeyd etmək istərdim. O, "Fəlsəfə" jurnalının yaradılmasında, Redaksiya Heyətinin toplantılarında da lap son illərə qədər fəal iştirak edir, yaşını heç vaxt biruzə vermirdi.

Fuad Qasımzadə lap gənc yaşlarından elmlər doktoru, professor və fəlsəfə kafedrasının müdiri olmaqla XX əsrin ortalarından başlayaraq ölkəmizin əksər ziyalıları, alimləri və sənət adamları ilə birgə tədbirlərdə iştirak etmiş, ən ali məclislərdə söz sahibi olmuşdur. Ona görə də Fuad müəllimin çox zəngin xatirələri var idi; danışmaqla qurtarmaq bilmirdi. Biz əvvəlki nəslin bir çox ziyalıları haqqında məhz Fuad müəllimdən eşitmişdik.

Akademik Fuad Qasımzadə həm də ictimai-siyasi xadim olmaqla dövlət işlərində öz köməyini əsirgəmir, ulu öndər Heydər Əliyevin həyata keçirdiyi geniş quruculuq planlarının həyata keçirilməsində və təbliğində xüsusi





fəallıq göstərir, həmişə ön xətdə olurdu. Təsadüfi deyil ki, o, müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının hazırlanmasında da iştirak etmiş, Konstitusiya Komissiyasının üzvü olmuşdur. Bu da təsadüfi deyil ki, Azərbaycan filosofları içərisində ilk dəfə "İstiqlal" ordeninə layiq görülən də məhz Fuad müəllim idi.

Fuad müəllim Azərbaycan fəlsəfi fikrinin görkəmli nümayəndəsi olaraq bu sahədə çalışan alimlərin və müəllimlərin ağsaqqalı, xeyirxah və nəcib insan kimi hərtərəfli fəaliyyət göstərirdi. O, AFSEA-nın fəlsəfə bölməsinin və Təhsil Nazirliyinin ictimai elmlər üzrə metodşurasının sədri, Dini-Elmi Şuranın və Şərq-Qərb Tədqiqat Mərkəzinin fəxri üzvü, Azərbaycan Ağsaqqallar Şurasının sədr müavini və jurnalımızın Redaksiya Şurasının fəal üzvlərindən biri kimi ölkəmizdə fəlsəfi və ictimai-siyasi fikrin inkişaf etdirilməsi və təbliğində böyük xidmət göstərirdi.

Mənim xatirimdə Fuad müəllim məhz belə hərtərəfli, ictimai-siyasi fəallığı ilə seçilən, istər fəlsəfi fikir sahəsində, istərsə də ölkənin ictimai həyatında həmişə ön xətdə dayanan yüksək mədəniyyətli xeyirxah insan, hərtərəfli tədqiqatları ilə seçilən alim, gözəl müəllim, mötəbər bir ziyalı kimi qalmışdır.

**P.S.**

Təəssüflər olsun ki, mən Fuad müəllimin xatirəsinə həsr etdiyim bu yazını yenicə tamamlamışdım ki, onun ömür-gün yoldaşı Mələk xanımın da vəfat etdiyi xəbərini eşitdim. Hələ sağlıqlarında hamı onların bir-birinə bağlılığından, sədaqətindən danışırdı.

İkisi də elm adamı idi, eyni bir universitetdə çalışırdılar. Mən hərdən məsləhət üçün və ya xəstə olduqda baş çəkmək üçün Fuad müəllim gilə gedəndə, Mələk xanımın

da onun aspirantlarına necə qayğı ilə yanaşdığının şahidi olmuşam. Xüsusilə onlar xarici səfərdən yenicə qayıtdıqları vaxtlarda təəssüratları dinləmək bizim dünyagörüşümüzün genişlənməsi üçün çox əhəmiyyətli idi. O dövrdə xarici ölkələrə çıxış çox nadir hadisə idi və məlumatlar da olduqca məhdud və hətta saxtalaşdırılmış olurdu. Ancaq ilk əldən alındıqda onların düzgünlüyünə inanmaq olurdu.

Fuad müəllim sovet dövründə də xarici ölkələri ən çox gəzən, müxtəlif beynəlxalq forumlarda bizi təmsil edən ziyalılarımızdan biri idi. Hər yerə də Mələk xanımla birlikdə gedərdi. Bu mənada Mələk xanımın Fuad müəllimi yenə tək buraxmaması nə qədər təəssüfləndirici olsa da, həm də təbii göründü.

Şübhə etmirəm ki,bütün ömürlərini elmə, təhsilə və gənc nəslin tərbiyəsinə həsr etmiş bu gözəl insanlar yaddaşlarda həmişə xoş xatirələrlə qalacaqlar.

*"İnana bilmirəm..."*
*Bakı: "Elm", 2012-ci il.*





# Vətəndaş alim

*(Akademik Budaq Budaqov haqqında)*

Budaq müəllimlə aramızda kifayət qədər böyük yaş fərqi olduğundan dostluq münasibətlərindən danışmaq, bəlkə də üzərimə düşməzdi. İxtisaslarımız fərqli olduğundan bizim elmi yaradıcılıq əlaqələrimiz də yoxdur və deməli, bu münasibəti tələbə-müəllim münasibəti kimi də dəyərləndirmək olmaz. Lakin bizim münasibətimiz sadəcə qarşılıqlı hörmətdən ibarət deyil. Bizi yaxınlaşdıran, birləşdirən çox sıx, qırılmaz əlaqələr olduğuna şübhəm yoxdur. Bu əlaqənin, ümumi cəhətin məhz nədən ibarət olduğunu müəyyənləşdirə bilsəm, Budaq müəllim haqqında deyəcəyim fikirlər də məhz bu yöndə olacaqdır.

Mən coğrafiyaşünas deyiləm və bu sahənin alimləri haqqında bir mütəxəssis rəyi söyləmək iddiasından çox uzağam. Bununla belə, elmlərin təsnifatı və elmşünaslıqla məşğul olduğum üçün, akademik Budaq Budaqovun elmi-tədqiqat dairəsinin bir fənn çərçivəsindən kənara çıxdığını və onun yaradıcılığını da ancaq coğrafiyanın, geomorfologiyanın, landşaftşünaslığın, ekologiyanın, toponimikanın çərçivəsi daxilində qiymətləndirməyin mümkün olmadığını görməyə bilmərəm. Bir elm hüdudları ilə məhdudlaşmaq yox, müxtəlif elmləri əlaqələndirmək, onların kəsişməsindən üzə çıxan sinkretik problemlərə nüfuz etmək, bütöv bir istiqamət üzrə elmi dünyagörüşünün formalaşmasında iştirak etmək və bütün tədqiq etdiyi məsələləri

Azərbaycan gerçəkliyi ilə bağlamaq, azərbaycanlaşdırmaq, azərbaycanşünaslığı müstəqil bir elm səviyyəsinə qaldırmaq! Elm və həyat arasında körpü atmaq, coğrafi və geoloji proseslərin dərinliyindən gündəlik həyatımızın çağdaş problemlərinə işıq salmaq!

Bu baxımdan, Budaq Budaqovun, ümumiyyətlə, yalnız bir elm adamı kimi səciyyələndirilməsi də onun fəaliyyət miqyasını məhdudlaşdırmış olardı. Belə ki, Budaq müəllim təkcə elmdə yox, ictimai həyatda da öz sözü, öz mövqeyi olan adamdır. Ancaq dar bir ixtisas sahəsində elmi-tədqiqatla məşğul olan və bununla öz vəzifəsini bitmiş hesab edən alimlərdən fərqli olaraq Budaq müəllim cəmiyyətdə gedən proseslərin fəal iştirakçısıdır və prinsipial vətəndaş mövqeyi nümayiş etdirir.

Yaşlı adamlar çoxdur. Akademiklərin isə böyük əksəriyyəti yaşlıdır. Lakin ağsaqqal nüfuzu qazanmaq heç də hamıya müyəssər olmur. Budaq müəllim isə hələ xeyli vaxt bundan əvvəl, özündən yaşca böyüklər arasında da məhz ağsaqqal kimi tanına bilmişdir. Mən bu sözləri onun Respublika Ağsaqqallar Şurasının sədri olmasına görə demirəm. Sadəcə çox yaxşı haldır ki, bu seçim məzmunu ilə tam adekvatdır. Başqalarına yol göstərmək, məsləhət vermək haqqını qazanmaq üçün insan onların naminə öz şəxsi maraqlarından keçməyə hazır olduğunu sübut etməlidir. Budaq müəllimi də səciyyələndirən cəhətlərdən biri budur ki, o, təkcə özü üçün yox, həm də el-oba üçün yaşayır. Sözün həqiqi mənasında el adamıdır, el ağsaqqalıdır. Neçə onilliklər ərzindəki fəaliyyəti ilə xalqı təmsil etmək, xalq adından danışmaq səlahiyyəti qazanmışdır.

Alimlik və müdriklik fərqli şeylərdir. Heç təhsil görməmiş adam da müdrik ola bilər. Əgər o, həyat həqiqətlərini fəhmlə duya bilsə, haqqı nahaqdan seçə bilsə və əməli





məsələlərdə düzgün qərarlar qəbul edə bilsə – bunlar müdriklik əlamətidir. Budaq müəllimdə alimlik və müdriklik birləşir. Bu cəhət həm də ictimai həyatda elm adamının nüfuzunun qalxmasına xidmət edir.

Akademik Budaq Budaqovu səciyyələndirən cəhətlərdən biri də milli məfkurə, milli təəssübkeşlik hissidir. «Dağlıq Qarabağ problemi» ilə əlaqədar Budaq müəllim öz vətəndaş-alim mövqeyini sadəcə şüarlar söyləməklə, milli hissiyatını ifadə etməklə deyil, fundamental kitablarla, tədqiqat işləri ilə ortaya qoydu. Bu tədqiqatlar içərisində mən əzəli türk məskəni olan Qərbi Azərbaycanda və Gürcüstandakı coğrafi adlara həsr edilmiş iki fundamental toponimika kitabını xüsusi qeyd etmək istərdim. Lakin Budaq Budaqov bu məsələlərdə tədqiqatçılıqla kifayətlənmir, milli ictimai şüurun formalaşması üçün əlindən gələni edir, fəal həyat mövqeyi nümayiş etdirir. Bu mənada Budaq müəllim bir çox kosmopolit alimlərdən fərqli olaraq, həqiqi vətəndaş-alimin canlı mücəssiməsidir.

Budaq müəllim ləngərli, qol-budaqlı adamdır. Arxasınca gedənlər, ona güvənənlər, ondan umanlar çoxdur. O, həm də cəsarətli, sözünü deyə bilən adamdır. Özü də, indiki dövrdə öz sözü, öz siması olan adamların defisiti şəraitində onun bu cəhəti diqqəti cəlb edir.

Budaq müəllimlə münasibətimizin görünən tərəfləri isə onun ən çox mənim rəhbərlik etdiyim Azərbaycan Universitetinin tədbirlərində iştirakı ilə bağlıdır. O, Azərbaycan Universiteti nəzdindəki «Şərq-Qərb» tədqiqat mərkəzinin təsisçilərindən biri və daimi üzvüdür. Onun böyük elmi dünyagörüşü bu mərkəz çərçivəsində keçirilən müzakirələrdə, elmi tədbirlərdə iştirakçılar üçün həmişə faydalı olmuşdur. Budaq müəllim universitetdə nəşr olunan «Ipək yolu» ournalının işində, «Istedad» klubunun tədbirlərində də fəal iştirak edir. Işinin çox olmasına baxmayaraq, iste-

dadlı gənclərlə görüşlərə həmişə vaxt tapır və öz köməkliyini onlardan əsirgəmir.

75 illik həyat yoluna nəzər salarkən akademik Budaq Budaqovun simasında ilk növbədə, çağdaş Azərbaycan elmini yüksək səviyyədə təmsil edən, xalqa, Vətənə, millətə həqiqətən bağlı olan, coğrafi vətənlə mənəvi vətəni öz həyat və yaradıcılığında ehtiva edən əsl vətəndaş-alim, əsl azərbaycanlı görürəm.

*"Elmin budağı", Bakı, 2003-cü il.*





# Daşların simfoniyası

*(Akademik Ömər Eldarov haqqında)*

**Hüseyn Cavid mükafatı laureatı**

Hüseyn Cavid özü milli məfkurəmizin formalaşmasında ən ünlü bələdçilərdən biri olduğu kimi,onun adına təsis olunmuş mükafatın həqiqi ünvanlarının axtarılıb tapılması işi də millətimizin bir çox şəxsiyyətlərini, əsl ziyalılarımızı tanımağıma bilavasitə səbəbkar olmuşdur.

Azərbaycan Universitetinin rektoru kimi çalışdığım dövrdə Azərbaycan Yazıçılar Birliyi və Milli Elmlər Akademiyası ilə birgə təsis etdiyimiz Hüseyn Cavid mükafatının laureatları ilə yaxından tanışlıq imkanı yarandı. Cavid parkında ucalan möhtəşəm Cavid abidəsinə görə 1998- ci ilin mükafatına layiq bilinən görkəmli heykəltaraş, akademik Ömər Eldarovla ilk dəfə görüşürdüm. Şöhrəti bütün ölkəyə yayılmış bu şəxsin özü o dərəcədə təvazökar və səmimi idi ki, heç elə bil o böyük abidələrin müəllifi deyildi.

İllər keçdi, mən bu ünlü sənətkarın yaradıcılı-ğı ilə daha yaxın tanış olduqca, onun özü ilə də yenidən görüşmək və onun öz əsərləri haqqında şəxsi təəssüratlarını dinləməyə getdikcə daha çox ehtiyac hiss etdim. Heykəllər nə isə deyirdi, amma yaradılmışların dedikləri başqa, yaradıcılıq prosesinin öz sirri-sehri bir başqa! Daşlara can verib yaşatmaq sənəti. Cavid demişkən, *"yaşamaq gözəldir, ya-*

*şatmaq daha gözəl!"*

**Tədqiqat Mərkəzində istirahət ideyası**

2011-ci ilin isti yay mövsümündə yenə də həmişəki kimi gərgin iş gününün sonunda Şərq-Qərb Mərkəzinin işçiləri, nəhayət, dilə gəlib, «bəlkə biz də arabir istirahət haqqında fikirləşək», – dedilər.

– Amma bir şərtlə ki, istirahət sadəcə vaxt itkisi olmasın, tədqiqatımız üçün yeni qida versin, məsələn, Şərq və Qərbin yeni bir təmas xəttini tapaq, – dedim.

Kim isə İstanbula getməyi, Avropa və Asiya qitələrini birləşdirən Boğaziçi körpüsü haqqında təəssüratları bölüşməyi təklif etdi. Başqa təkliflər də oldu... Amma iş çox idi və biz istirahət üçün cəmi bir gün ayıra bilərdik.

– Şərq ilə Qərb özgə harada birləşir? – deyə soruşdum.

– Üzeyir Hacıbəyovun musiqisində!

– Bəli, Üzeyir Hacıbəyov! Onun sənəti doğrudan da Şərq ilə Qərbin vəhdətini təcəssüm etdirir. Onu ziyarət etməyin ən gözəl məkanı Şuşadır, amma ...

– Bəs özgə harada?

– Lütfi Zadənin təlimində. Onun Şərq düşüncə tərzi Qərb məntiqinə yeni çalar gətirmiş və dünyanın ən böyük kəşflərindən biri məhz bu vəhdət sayəsində mümkün olmuşdur.

– Amma Amerika İstanbuldan da uzaqdır.

– Bizim milli təsviri sənəti, təbiətimizin və həyatımızın özünəməxsusluğunu ən müasir rəngkarlıq texnikasının açdığı yeni imkanlar zirvəsində Avropada təmsil edən Toğrul Nərimanbəyovun sənət dünyası. Sanki Şərqin rəng qamması Qərbə transfer olunub.

– Gözəl misaldır, amma Toğrul Nərimanbəyov çox





güman ki, indi Fransadadı.

Fikir axtarışlarında uğursuzluqdan az qala mütəəssir olmuşduq ki, birdən ağlımıza vəhdət təcəssümünün daha bir yüksək nümunəsi gəldi:

– Ömər Eldarovun yaradıcılığında! Burada da iki düşüncə tərzi, iki mədəniyyət üzvi surətdə birləşmişdir. Həm də bu vəhdətin yaradıcısı ilə bilavasitə görüşmək şansımız var.

– Necə olub ki, indiyə qədər müasirimiz olan və bizimlə bir şəhərdə yaşayan bu canlı klassikin özü və yaradıcılığı ilə yaxından tanış olmamışıq? Məgər ŞərqQərb Mərkəzinin foyesində asılmış böyük şəkil – hər gün işə gələrkən rastlaşdığımız bu sənət əsəri – Azərbaycanda bu problemin əsasını qoymuş görkəmli şərqşünas alim Aida İmanquliyevanın qəbirüstü abidəsindən reproduksiya deyilmi və bu abidə də məhz akademik Ömər Eldarovun zəngin yaradıcılıq kolleksiyasından bir nümunə deyilmi?

Bəzən biz uzaq ellərdə, qədim zamanlarda yaradılmış sənət abidələrini, bu abidələrin yaranma tarixçələrini təfərrüatlara qədər əzbər bilirik. «Uzaq elin halvası şirin olur», amma de, hansı sənət əsəri, hansı heykəl qəlbimizi Füzulinin abidəsi qədər riqqətə gətirə bilib? Hansı daş abidə poeziyanın lirik notlarını Natəvan heykəli kimi tək bir baxışla ifadə edə bilir? Hansı mərmər parçası «Elegiya» kimi musiqiyə çevrilib? Bəs Heydər Əliyevin məğrur simasını qranitlərdə yenidən canlandırmaq hansı sənətkarın qüdrətidir? Axı, nəyə görə biz öz klassiklərimizi sağlığında yetərincə dəyərləndirə bilmirik?

**İki Akademiya**

Əslində akademik Ö.Eldarovun sənət dünyası ayrıca bir Akademiyadır. Onun yaradıcılığına həsr olunmuş

«Ömər Eldarov. Heykəltəraşlıq...Bakı, 2005» kitabi isə bu Akademiyaya giriş hesab oluna bilər. Burada sənətkarın həyat və yaradıcılığı haqqında yığcam bir məlumatdan sonra onun ayrı-ayrı əsərləri, yaratdığı sənət abidələri haqqında söhbət açılır, heykəllərin müxtəlif rakurslarda təsviri verilir. Kitab öz oxucu-tamaşaçılarını rəsm əsərlərinə çevrilmiş heykəllərlə tanış edir; istər-istəməz bu abidələri üçölçülü fəzada, gerçək həyatda görmək arzusu baş qaldırır. Bunun üçün isə bütün Bakı şəhərini və hətta bütün ölkəni gəzmək kifayət etmir. Ö.Eldarovun bir sıra əsərləri bizi xarici ölkələrdə təmsil etməklə Azərbaycanın sənət elçilərinə çevrilmişdir. Amma «dənizin dadını bilmək üçün onu bütövlükdə içməyə ehtiyac yoxdur; elə bir damla da bəs edər» düşüncəsi ilə yaxında olan, əlçatan əsərlərlə canlı ünsiyyət qurduq. Daha sonra onun qurduğu ikinci bir akademiya ilə – Azərbaybaycan Dövlət Rəssamlıq Akademiyası ilə tanış olduq.

Ömər müəllimin son illərdə ərsəyə gətirdiyi ən mühüm əsərlərdən biri məhz bu Akademiyadır. Biz bu böyük sənətkarla görüşmək, onun yeni yaradıcılıq axtarışları ilə, davamçılarının, gənc heykəltəraşların işləri ilə tanış olmaq üçün Rəssamlıq Akademiyasına yollandıq.

Gənc sənətkarların əl işləri ilə, real yaradıclıq prosesləri ilə tanış olmaqda bizə Akademiyanın prorektoru Validə xanım yardımçı oldu. Burada əsl yaradıcılıq mühiti, bir sənət ab-havası var idi. Biz müəllimlərlə tələbələr arasında səmimi, bərabər hüquqlu bir münasibətin şahidi olduq. Maləsəf, indi ali məktəblərimizin çoxunda çatışmayan bir mühit...

Buna şərait yaradan bir neçə amili xüsusi qeyd etmək istərdim:





*Birincisi*, mənəvi təmizlik. Çirkab içərisində, təmənna olan yerdə səmimiyyətdən söhbət gedə bilməz.

*İkincisi*, münasibətlərdə bəlkə də sənətin özünün təlqin etdiyi bir sevgi, doğmalıq, qayğı; gənclərin özlərini öz evlərində, öz ailələrində hiss etməsi.

*Üçüncüsü*, yaradıcı mühit. Daxili azadlığın təxəyyülə açdığı meydan və gənc sənətkarların öz ideyalarını sınaqdan keçirə bilməsi üçün yaradılmış şərait, texniki təchizat da daxil olmaqla..

*Və nəhayət*, ustadlarla bilavasitə təmas, onların yaradıcılığını izləmək və bu prosesin iştirakçısı olmaq, öz xəyalları ilə baş alıb çox uzaqlara uçmaqdan çəkinməmək, həmişə ustad bələdçinin dəstəyini, himayəsini hiss etmək.

Əslində bu Akademiyada digər ali məktəb-lərimiz üçün örnək ola biləcək çox cəhətlər vardır, amma indi mən bu Akademiyanın da, neçə-neçə böyük sənət əsərlərinin də müəllifi olan böyük sənətkarımız Ömər Eldarovun özündən bəhs etmək istəyirəm.

## Ziyalı abidəsi

Ömər Eldarovun əsərləri içərisində ən böyük abidələrdən biri də onun yaşatdığı ziyalı obrazıdır. Əslində bu dəfə mən onun əsərlərini yox, şəxsiyyətini nəzərdə tuturam. Təəssüflər olsun ki, indiki ziyalı kasadlığı şəraitində Ömər Eldarov ziyalılığı yüksək səviyyədə təcəssüm etdirmək baxımından, özü də unikal bir abidədir – canlı abidə! Sadəliyi, təvazökarlığı, sənətə vurğunluğu ilə, işinə yüksək məsuliyyətlə yanaşması, yaşının bu çağında yaradıcılıq əzmi və nəhayət, təşkilatçılığı, dövlətə və xalqa bağlılığı ilə çoxlarından seçilən Ömər müəllim ziyalılığın və vətəndaşlığın yüksək timsalıdır.

Ömər müəllimi səciyyələndirən cəhətlərdən biri də onun az danışması, çox vaxt sadəcə susmasıdır. Belə təəssürat yarana bilər ki, görünür, öz sözünü sənətilə daha gözəl deyən Ömər Eldarov danışmaqda, fikrini sözlə ifadə etməkdə çətinlik çəkir. Amma yaxından tanışlıq göstərdi ki, Ömər müəllim dərin fəlsəfi təfəkkürə malik bir şəxs olmaqla yanaşı, öz düşüncələrini də məhz fəlsəfi dildə gözəl ifadə edə bilir. Çox vaxt susmağının səbəbi də əslində elə bununla bağlı imiş. O məhz adi söhbətlərə qoşulmağı, boğazdan yuxarı, trafaret ifadələrlə danışmağı xoşlamırmış. Amma gerçəkdən yeni bir ideya, sənət haqqında dərin bir düşüncə onu silkələyir və o, fikrin alt qatındakı diskursda ən gözəl həmsöhbət olur. Bəsit söhbətləri sevməməsi, artıq danışıqlardan qaçması mənə onun sənəti ilə bağlı bir hikməti xatırlatdı. Hansı isə böyük bir heykəltəraşın, səhv eləmirəmsə, Rodenin dediyi kimi, hər daşda bir heykəl yatır; sənətkar bura nə isə əlavə etmir, əksinə, onun vəzifəsi artıqları yonub-götürməkdir. Mahiyyət ancaq artıqlar atılanda üzə çıxır. Ömər müəllim öz sənətində məhz bu işlə məşğuldur; üzdə olan, artıq olan və mahiyyəti malalayan nə varsa, ondan xilas olmaq. Söhbətlərində də zahirilikdən, bəsitlikdən, təkrarlardan qaçır. Ancaq zəruri olanı deyir, mahiyyəti ifadə etməyə çalışır: sözü ilə də, sənəti ilə də!

### Daşın poeziyası

Nəyə görə poeziya haqqında çox yazılır, hər bir kiçik şeir də bəzən təhlil olunur, rəsm əsərləri və monumental sənət növü, heykəllər, abidələr haqqında isə fikir mübadiləsi nadir hallarda aparılır?

Görünür, sözü sözə çevirmək daha asandır. Poeziya sənət olsa da, hər halda sözlə ifadə olunmuş bir sənətdir.





Onun nəbzi vurur, nəfəsi eşidilir, yaratdığı obrazlar hərəkətli, dinamikdir. Heykəl isə susur. Daş kimi soyuqdur və onun nəfəsini duymaq, nəbzini tutmaq elə də asan məsələ deyil. Onu canlandırmaq üçün tək sənətkardan deyil, tamaşaçının özündən də böyük ruhani enerji tələb olunur.

Heykələ çevrilmiş hər bir daş canlanmaq imkanına malik deyil. Daşın bətnində yatan böyük daxili enerjini hərəkətə gətirmək, heykəli dilləndirmək və onu timsalı olduğu prototipin real obrazına çevirmək qeyri-adi məharət tələb edir. Sənətkar onu yaradarkən ona ruh bəxş edə bilməyibsə, tamaşaçı nə qədər ezoterik enerji sərf etsə də, daş canlanmaz.

Ömər Eldarovun heykəlləri isə sanki canlıdır, onlar nəinki danışa bilir, həm də proza ilə deyil, poetik dildə danışırlar. O, təcəssüm etdirdiyi şəxsin sadəcə zahiri görkəmini yox, həm də lirik «mən»ini, arzu və istəklərini, həyat enerjisini daşa köçürür.

Əslində, bu enerji də, bu lirika da əsərin prototipindən daha çox yaradıcı sənətkarın özünə məxsusdur. Bir var, kimsə ürəyindən keçənləri sözlə ifadə edərək desin; bu – şairlik məqamıdır. Bir var, kimsə öz daxili halını zahirində, sifətinin ifadəsində biruzə versin; bu məqamı rəssamlar tərənnüm edir. Bir də var, insan hansı isə bir hərəkətə, hansı isə həyəcanlı bir hadisəyə hazırlaşmağını sadəcə duruşu ilə, bədənin səmada vəziyyəti ilə ifadə etsin. Daxili istəyin, könül pərvazlanmasının, ehtizazın, ruhani yüksəlişin, şövqün daşa həkk olunması, fəza konfiqurasiyasının gözlə görünməyən daxili gözəlliyinin üzə çıxarılması, Ömər Eldarovun özünün dediyi kimi, «*sanki uçmaq üçün quşlardan qanad istəyinin*» bədii tərənnümü! Hərəkətə hazırlıq halında ifadə olunan bütün sonrakı hekayətlərin konsentrasiya olunmuş forması, ruhun həndəsi təsviri – bütün bunlar hərəkəti heykəlləşdirən bir sənətin möcüzələridir.

«Əyilməz vicdanın böyük heykəli», – deyirdi şair. Heç şübhəsiz, vicdanın heykəlini, ruhun fəza təcəssümünü ifadə etmək üçün sənətkardan böyük ruhani güc, paktəmiz estetik vicdan tələb olunur!

## Romantika və reallıq

Heykəltəraşlıq bütün digər sənət növləri içərisində gerçəkliyi ancaq maddiyyat müstəvisində ifadə etmək baxımından ruhdan ən çox uzaqlaşdırılmış bir sənətdir. Hegelin dediyi kimi, bu sənət qarşısında ruhu ağır materiyanın dili ilə təcəssüm etdirmək kimi çətin bir vəzifə dayanır. Hələ bu az imiş kimi, gerçək həyatdan zaman amili də götürülür və sənətkarın ixtiyarında ancaq bir an qalır. Bu maddi dünyanın dondurulmuş bir məqamı! Dayanmış zamanda nəinki ruhu ifadə etmək çox çətindir, bu halda həm də hərəkəti və dinamikanı təcəssüm etdirmək üçün vasitələr yox dərəcəsindədir. Bu ən monumental sənət həm də ən ləng, ən statik, ən ağır bir ifadə texnikasına əsaslanan sənətdir. Bu baxımdan heykəltəraşlıq öz məqsədinə daha çox dərəcədə simvolların dili ilə çata bilir. Təsadüfi deyil ki, postmodernizm dövründə bu sənət öz ifadə vasitələrini xeyli genişləndirməyə nail olmuşdur. Amma məhz klassik üslubda yaratmaq, gerçəyə adekvat bir sənət yaratmaq, bu cismani dünyanın ən cansız, ən ruhsuz sayılan maddi vasitələrindən, daşından-kəsəyindən istifadə edərək, ruhun sanki əks qütbündən başlayaraq ilahi bir məqama yüksəliş cəhdi göstərmək, – bu, ən çətin və ən nadir bir yaradıcılıq missiyası, əsl sənətkarlıq əzmidir. Bəli, o şeyi ki, böyük zaman və məkan fəzasında sərbəst olaraq yaratmaq mümkün olur, o şeyi ki, bütün rəng çalarlarının və bütün səs qammalarının vasitəsilə ifadə etmək mümkün olur, o şeyi lokal məkanda və dayanmış zamanda ağır maddiyyatın





timsalında ifadə etmək və bu ağır yükə qanad verərək onu uçurtmaq, səs verərək dilləndirmək, daxili impuls verərək hərəkətləndirmək sənətkardan qeyri-adi bir istedad, virtuozluq tələb edir. Təsadüfi deyil ki, sənət tarixində şairlərin, bəstəkarların, rəssamların imzası kifayət qədər çox olsa da, böyük heykəltəraşların imzası tək-təkdir.

Ömər Eldarovun yaradıcı gücünün düzgün təsəvvür oluna bilməsi üçün öncə onun seçdiyi bu sənətin spesifikası, nə qədər məhdud imkanlara və vasitələrə malik olduğu nəzərə alınmalıdır. Maraqlıdır ki, digər sənət növləri ilə yanaşı heykəltəraşlıq sahəsində də incilər yaradan Leonardo da Vinçi müqayisəli təhlil nəticəsində bu qənaətə gəlir ki, heykəltəraşlıq məhz imkanlarının məhdudluğuna görə, sənətkarlıq baxımından ən çətin sahədir.

Biz bu sətirləri ona görə yazmırıq ki, Ömər Eldarovu, onun sənətini və bu sənətin həqiqi böyük qiymətini verməkdə acizliyimizi ifadə edək. Əksinə, ən incə mətləblər də məhz fəlsəfə aynasında daha aydın görünür. Kimsə deyə bilər ki, bütün rəsmi titullara layiq görülmüş, ən yüksək orden və medallarla təltif olunmuş Ömər Eldarov sənətinə bundan daha yüksək necə qiymət vermək olar ki? Amma nəzərə alınmalıdır ki, Ömər Eldarov sənəti hər cür rəsmi təltifdən yüksəkdə duran bir sənətdir. Ömər Eldarov azərbaycanlıdır. Lakin onun sənəti bir ölkə hüdudlarını keçərək ümumbəşəri dəyərlər xəzinəsinə elə töhfələr vermişdir ki, o öz yaşadığı lokal məkanın və zamanın hüdudlarına sığmır.

Bütün böyük alimlər, yazıçılar, sənətkarlar öz fəaliyyət sahəsinin zirvəsinə qalxanda əslində filosofluq məqamına yüksəlmiş olurlar. Mən Ömər Eldarovun simasında böyük bir sənətkarla yanaşı, həm də xalqımızın fəlsəfi fikrini, yaradıcı təfəkkürünü ən yüksək səviyyədə ifadə və təmsil edən bir şəxsiyyət gördüm.

Sənət ilə fəlsəfənin görüşü, sənətin fəlsəfə zirvəsinə yüksəlişi və fəlsəfənin dönüb sənətə qiymət vermək və onun simasında milli-bədii təfəkkürdən qidalanmaq təşəbbüsü!

*Sağlığında klassikə çevrilənlər. "Azərbaycan" qəzeti,21 avqust 2011-ci il*





# *Şairin özü və sözü*

## *(Xalq şairi Zəlimxan Yaqub haqqında)*

*Sənin nə ki, sazın-sözün, özün də,*
*Şeirsən, məna var hər bir sözündə.*

Hacı Sədrəddin

Zəlimxan Yaqubun özü ilə çoxdan tanış olsam da, poeziyası zaman keçdikcə mənə daha doğma gəlir. Ya onun poeziyası yaşa dolduqca fəlsəfəyə yaxınlaşır, ya mən yaşa dolduqca akademik tədqiqatlardan, elm fəlsəfəsindən daha çox, şeirə, sənətə və gənclik xatirələrinə yaxınlaşıram.

Zəlimxan Yaqubun 50 illik yubileyi münasibəti ilə mən onun poeziya yolunu təkrar nəzərdən keçirərək "Ozan fenomeni və milli özünüdərk" adlı məqalədə ona fəlsəfi prizmadan qiymət verməyə çalışdım. Daha 10 il keçdi. Zəlimxan poeziyasının fəlsəfi yükü bir az da artdı və onun sadəcə ayrı-ayrı şeirləri, poemaları haqqında deyil, həm də bütövlükdə dünyagörüşü, estetik və fəlsəfi baxışları haqqında fikirlərimi "Sazla havalıyam, sözlə diriyəm" adlı məqalədə çap etdirdim. Beləliklə, Şairin özü ilə görüşlərimiz səngisə də, yaradıcılığı ilə, sözü ilə tanişlığım getdikcə dərinləşir, - desəm səhv etmiş olmaram.

İndi isə Zəlimxan Yaqubun özü ilə tanışlığımın 40 illiyini yad etmək istəyirəm. 1970-ci ildə BDU-nun fizika fakültəsinin ikinci kursunda oxuyarkən kitabxanaçılıq fakültəsində ədəbiyyat dərsi deyən əmim Əmirxan Xəlilov məni tələbələrindən biri ilə tanış edib, "gələcəyin böyük

şairidir", – dedi. O vaxt fakültələrimiz eyni mərtəbədə idi və biz tez-tez görüşürdük. Amma Zəlimxan məndən iki kurs yuxarıda oxuduğundan universiteti də təbii ki, tez bitirib bizi tərk etdi. Sonra öyrəndik ki, o, kitab pasajında işləyir. Və biz də (bir neçə şeirsevər fiziklə birgə) kitab seçmək adı ilə tez-tez pasaja gedib Zəlimxanın yeni şeirlərindən xəbər tuturduq. 1976-cı ildə mənim namizədlik dissertasiyamın müdafiəsində o da iştirak edirdi. Moskvadan gəlmiş rəsmi opponentim xalq şairi Osman Sarıvəllinin oğlu Rəfiq Qurbanovla söhbətləri yaxşı tutmuşdu. Müdafiəni "qeyd etmək" üçün "Çənlibel" restoranına da şair dostlarımızla getdik. Rəfiq müəllim köhnə dostu Vilayət Rüstəmzadəni, mən isə Zəlimxan Yaqubu dəvət etdim və gündüzkü fəlsəfə məclisini poeziya gecəsi ilə davam etdirdik. Tanıyanlar bilir ki, Vilayət Rüstəmzadə də sinədəftər şair idi. Elə Rəfiq Sarıvəlli də böyük şeir bilicisi idi, əmim Əmirxan Xəlilov da. Və bir də gənc Zəlimxan Yaqub. Qalanını deməyə ehtiyac yoxdur. Həmin gün mənim rəsmən "filosof" olduğumu qeyd edirdik. Amma fəlsəfənin yolları hələ təzə açılırdı. O vaxtdan neçə onillər keçəcəkdi və Zəlimxan poeziyanın "Peyğəmbər" qatına yüksələcəkdi, mən isə fəlsəfənin poeziya qatına qədəm basacaqdım. Qədəmlərimiz mübarək, şair eloğlum!

İllər bizi gah uzaqlaşdırır, gah yaxınlaşdırırdı. Gah da yaşadığımız ictimai-siyasi həyat bizi eyni bir məqamda birləşdirirdi, eyni bölgədən millət vəkili seçilib, eyni məclislərdə çıxış etməli olurduq. Zəlimxan Yaqubdan sonra çıxış isə necə çətin olduğunu izah etməyə, yəqin ki, ehtiyac yoxdur. Hamı bilir ki, Zəlimxanın natiqliyi az qala şairliyi qədər heyrətamizdir.





**P.S.**

Şairin guya özü haqqında yazarkən, sual çıxdı ki, ayə, indi daha Zəlimxan sənin o tələbəlik illərindən xatırladığın Zəlimxan deyil. İndi onun şəxsi həyatı arxaya keçib, özü elə sözüdür.

*Zəlimxan da söz yolunda şam ola,*
*Hər kəlməsi sevgi dolu cam ola,*
*Təbiətin özü kimi tam ola,*
*Əsillənə, nəsillənə, soylana.*

Düzdür, şair *öz*-dən *söz*-ə keçməyin bir eniş məqamını da görür:

*Dağ başında vallah adam dağ olar,*
*Nahaq endik o dağların başından.*

Amma bir zirvədən başqasına keçməyin enişi də var, yoxuşu da.

Atam deyərdi:

*Bu fani dünyanın iki üzü var,*
*Qaranlıq gecəsi, şux gündüzü var,*
*Dərəsi-təpəsi, dağı-düzü var,*
*Enişli-yoxuşlu, şair eloğlum!*

Və bu sözləri məhz Zəlimxana müraciətlə demişdi. Atam Hacı Sədrəddin şairlə birlikdə Həcc ziyarətində olmuşdular. Hər bir Borçalı ziyalısı kimi atam da aşıq poeziyasını çox sevirdi. Aşıq Abbas Tufarqanlıdan, Xəstə Qasımdan tutmuş Aşıq Ələsgərə, Aşıq Şəmşirə qədər – hamısını əzbər deyirdi. Zəlimxan Yaqub poeziyasına da məndən daha yaxşı bələd idi. Ziyarətdən qayıtdıqdan sonra Zəlimxana "Şair eloğlum" rədifli bir şeir də həsr etmişdi.

Bu ziyarət izsiz ötüşmədi. Şairin yaradıcılığında Haqq mövzusu getdikcə genişləndi, "Peyğəmbər"ə, "Mövlana"ya zəmin yarandı.

Vergi Allah vergisidir. Bu, qəlb evinin gizli xəzinəsidir, – üzə çıxır. Bu, təsirlənmək, duyğulanmaq və bu təəssüratın qığılcımlarını üfürüb alovlandırmaq, bu alovun istisinə isinmək, işığına işıqlanmaq və öz hərarəti ilə başqalarını da hənirləndirmək, öz işığı ilə başqa qəlbləri də işıqlandırmaq əzmidir.

Bu məqama çatmağın da iki yolu var. Birincisi, pillə-pillə yüksələrək görünən dünyanın dərkindən adi gözlə görünməyən mətləblərin dərkinə doğru çətin bir yol keçmək. İkincisi, – Allah vergisi! Ustad ozanlardan dərs alıb aşıqlıqdan aşiqliyə yüksəlmək və buta verilməklə "haqq aşığı" olmaq.

Zəlimxan Yaquba yuxusunda buta verilibmi, verilməyibmi, – deyə bilmərəm. Amma onun yaradıcılığı, bir tərəfdən, "haqq aşığı" institutu ilə sovet aşıq məktəbinin, digər tərəfdən də, folklorla klassik Azərbaycan poeziyasının sanki bir sintezidir. Hərçənd bir sıra əsərlərinin dini-fəlsəfi, yaxud siyasi-fəlsəfi yönü və mündəricəsi var, bütövlükdə baxanda Zəlimxan Yaqub daha çox saz və folklor üzərində köklənib.

Zəlimxan Yaqubun «Peyğəmbər» yazmaq arzusu çoxdan var idi. Bu arzunu dost-tanışla bölüşməzdən hələ neçə illər öncə qəlbində gəzdirirdi. Amma heç şübhəsiz, bu arzu və qərarın özünə ayan olduğu vaxtdan da çox-çox əvvəl bu yaradıcılıq əzmini qazanmaq üçün o, daxilən hazırlanırdı. İçindəki «Haqq aşiqliyi»ndən pay gec-tez onu bu qərara sövq edəcəkdi. Amma Zəlimxan Yaqub "Peyğəmbər" yazmaq sinninə asanlıqla gəlib çatmadı.

"Peyğəmbər"i yazmaq üçün bir şair kimi püxtələşmək hələ az idi. Həcc ziyarəti ilə mənən təmizlənmək, təzələnmək də yetərli deyildi. Mənəvi kamillik və ustad şairlik məqamından ziyadə, bu mövzu, necə deyərlər, ixtisaslaşmış bilik də tələb edirdi. Və şair Zəlimxan "Peyğəmbər" yazmaq üçün dizini yerə qoyub bir neçə il ilahiyyat və din tarixi üzrə qalın-qalın kitablar oxumalı oldu... Hekayətlər, rəvayətlər, hədislər az-çox dərəcədə ona doğma janrda idisə də, dini-elmi kitabların mənimsənilməsi əlavə səy tələb edirdi. Zəlimxan Yaqub buna da qatlaşdı.

Düzdür, bütün bu zəhmətlər, intellektual səylər, əzm və iradə şairin bu mövzuya necə böyük məsuliyyət və həssaslıqla yanaşdığını göstərir. Amma bir şey də var ki, ilhamla intellektin, bədahətlə zəhmətin bu sintezi ənənəvi Zəlimxan Yaqubdan xeyli fərqli görünür. Ona görə də bu əsəri ancaq poetik baxımdan dəyərləndirmək düzgün olmazdı. Əsər islam tarixi və ümumiyyətlə islamşünaslıq baxımından da dəyərlidir. Bu artıq Zəlimxan Yaqubun bir şair olmaqdan daha çox, bir din maarifçisi kimi böyük xidmətidir.

Əsərin yazılması ərəfəsində şair mənimlə söhbətlərində Cavidin və Cübranın "Peyğəmbər"ləri haqqında da söhbət açırdı. Görünür, mövzuya köklənmək və gələcək müqayisələrə öncədən hazır olmaq üçün bunlar da lazım idi. Lakin Zəlimxan Yaqubun "Peyğəmbəri" həm janr və forma, həm də məzmun baxımından xeyli fərqlidir.

Dinə münasibətdə başqa vəznə və başqa havaya keçə bilmək üçün isə şair təkcə Məkkə ziyarətinə getməklə kifayətlənmir, Yəsəvi, Mövlana və Yunus dünyalarına da baş çəkməli olur və təsəvvüfün lap astanasında gəlib dayanır.

Desək ki, Zəlimxan Yaqub təsəvvüf fəlsəfəsinin dərinliklərinə gedir və bu sahədə nə isə yeni fikirlər söyləyir, əlbəttə, yanlış olardı. Amma önəmli olan budur ki, təsəvvüfün ruhu Zəlimxana yad deyil, hətta bir sıra məqamlarda onun dedikləri təsəvvüf notlarında köklənmişdir. Böyük sufi şairi Yunis İmrəni o dərəcədə sevən və ona bütöv bir

dastan qoşan Zəlimxan Yaqub sufizmə biganə qala bilməzdi. Özünün təbiri ilə desək, sazdan doğulan şair zaman keçdikcə qopuzlanmış, tarımlanmış, sənətin ilham pərisi ilə izdivac qurmuş, meydən bihuş olmuş, neydən vəcdə gəlmişdir.

*Doğrudan danışan, düzdən oxuyan,*
*Ən nurlu kəlmədən, sözdən oxuyan,*
*Odur ürəyimi gözdən oxuyan,*
*Gizli nöqtələrdən agahım mənim.*

Zəlimxan böyük bir xəzinənin üstündə oturmuşdur. O, məhz dilimizdə yatan xəzinənin xiridarıdır. Hansı isə ideyanı, cərəyanı, təriqəti bilavasitə mənimsəmək və ifadə etmək bir şeydir (bu, filosofların işidir), dilin yaddaşında yatan fəlsəfəni üzə çıxarmaq başqa şeydir. Sanki təbiətin özü də şair Zəlimxanı əzizləmiş, bəsləmiş, onu «çiçəkdə şeh», «çəməndə meh» etmişdir:

*Uçuş yeri üfüqlərdi,*
*bəzədiyi şəfəqlərdi,*
*Bir nəğmədi, bir əsərdi,*
*hər çırpınan anda ruhum.*

*"Könlü bu dünyanın gülüşündə gül açan"* şair təbiətin ahəng dünyasından, harmoniyadan qida alır, ruhlanır və insan ruhunu təbiətin stixiyası ilə sinxronlaşdırır.

Bəli, əsas məsələ ahəngi duymaq, insan, cəmiyyət və təbiətin vəhdətindən çıxış etməkdir. Şairin qəlbi dünyanın ahəngi ilə eyni ritmdə vurur. Əsas məsələ şeirə, musiqiyə, ülvi duyğulara, haqqa-həqiqətə və gözəlliyə köklənməkdir.





## *Şərq tarixinin böyük tədqiqatçısı*

*(Akademik Nailə Vəlixanlı haqqında)*

Biz hamımız bu və ya digər nisbətdə Şərq və Qərbin vəhdətini təmsil edirik. Nailə xanım da istisna deyil. Bu vəhdət onun həm şəxsiyyətində, həm də yaradıcılığında öz əksini tapmışdır.

Onun zahiri gözəlliyi də, xarakteri də nə ənənəvi Şərq, nə də ənənəvi Qərbdən xəbər verir. Vəhdətdən elə bil ki, tamamilə fərqli, yeni bir keyfiyyət yaranmışdır. Müasir görünüşlü, müasir düşüncəli, müasir davranışlı və eyni zamanda milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi qoruyub saxlayan, sadə olduğu qədər də zəngin bir varlıq.

Onun tədqiqat mövzusu Şərqin tarixi ilə bağlıdır. Azərbaycanda Ərəb Xilafəti dövrünün ən gözəl bilicisi, peşəkar tədqiqatçısıdır. Lakin tədqiqat üsulu Şərqə məxsus təəssüratçılıqdan, obrazlılıqdan, dəbdəbəli ibarətçilikdən azaddır. Elmin soyuq üslubu, rasional düşüncənin dəqiqlik tələbi, hisslə deyil, məntiq və dəlillərlə əsaslandırmaq vərdişi, – bütün bunlar elmdə Qərb ənənələrindən xəbər verir. Bəli, Nailə xanım Şərqin tarixini Qərb düşüncə tərzi və klassik elm ənənələrinə söykənərək tədqiq edir.

Nailə Vəlixanlı ilə mənim elmi əməkdaşlığım ən çox Şərq-Qərb tədqiqat mərkəzindəki birgə fəaliyyətimizlə bağlıdır. Ona görə də Nailə xanım haqqında təəssürat və

fikirlərimin də məhz Şərq-Qərb kontekstində söylənməsi təsadüfi deyildir. "İpək Yolu" jurnalının ərsəyə gəlməsində də Şərq və Qərb arasında körpü atmağa ən çox mənəvi haqqı olan şəxslərdən biri kimi Nailə Vəlixanlının böyük xidməti olmuşdur.

*"İpək Yolu" jurnalı, 2000, № 2.*

**P.S.**

O vaxtdan neçə illər keçmişdir. Onda Nailə xanım Azərbaycan Universitetinin professoru və Şərq-Qərb Tədqiqat Mərkəzinin üzvü idi.

Akademik Fəraməz Maqsudovla da bu Mərkəzdə tanış olmuşdular. Fəraməz müəllim Akademiyaya prezident seçildikdən sonra mən Nailə xanımın sənədlərini o vaxt boş olan Şərqşünaslıq institutunun direktoru vəzifəsinə təqdim etdim. Bir neçə gün sonra Fəraməz müəllim dedi ki, indi "Azərbaycan tarixi" muzeyi yaxşı vəziyyətdə deyil və ona rəhbərlik etmək, onun itmiş nüfuzunu bərpa etmək üçün yüksək mənəviyyatlı, təşkilatçı və məsuliyyətli bir adam axtarırıq. Bir halda ki, Nailə xanım haqqında belə yüksək fikir var, onun bu vəzifəyə getməsi daha məqsədəuyğundur.

Doğrudan da, Nailə xanım muzeyin direktoru vəzifəsinin öhdəsindən ləyaqətlə gəldi və üstə-lik elmi tədqiqlərını davam etdirdi, Akademiyanın müxbir üzvü, daha sonra isə həqiqi üzvü seçldi, AMEA-nın vitse-prezidenti oldu. Amma vəzifə pillələri onu zərrə qədər də dəyişmədi. Həmin sadə, təvazökar, hər şeydən əvvəl alim, tədqiqatçı Nailə xanım!





# Elm dünyası və alim dünyası

*(Professor Nurəddin Rzayev haqqında)*

Başqa sahədə çalışan adamlar iş müddəti başa vurduqdan sonra şəxsi həyatları, ailələri, istirahətləri ilə məşğul olurlar. Elm adamı isə öz işindən heç vaxt tam ayrıla bilmir. Düşüncələrini həmişə özü ilə gəzdirməli olur. Nəticədə alimin işdən kənar vaxtdakı həyatı başqa adamlarınkından fərqlənir.

Alimin adi adamların dərd-sərsiz, xoşbəxt həyatını yaşaya bilmək üçün əlavə səy göstərməlidir. Bu əlavə səy, əlavə enerji «beynin boşaldılmasına» sərf olunur. Və buna heç də həmişə müyəssər olmaq mümkün olmur. Elmi metodlarla düşünmək vərdişi çox vaxt ən adi məsələlərə münasibətdə də insanı dolayısı yollarla aparır və bəzən qəribəlik təəssürratı yaradır. Çox vaxt şairlər emosianlığın çoxluğundan **normadan** kənara çıxdığı kimi, alimlər də rasionallığının çoxluğundan diqqəti cəlb edirlər.

Elə alimlər vardır ki, elmi yaradıcılıq həyatını adi məişət həyatından ayırmağa, qəribəlikləri ram etməyə və böyük elm adamı olmaqla yanaşı, cəmiyyətdə və məişətdə də normal adam kimi həyat sürməyə müvəffəq ola bilirlər. Bunun üçün professional düşüncənin, analitik təfəkkürün baş alıb getməsinə imkan verməyən, yeri gəldikdə onları cilovlaya bilən, kompensasiya edən adi insani müdriklik və bədii-estetik təfəkkürə malik olmaq lazımdır. Lakin hər alimdə bu olmur.

Professor Nurəddin Rzayevlə mənim bu məsələyə münasibətdə müəyyən fikir ayrılığımız vardır. Nürəddin müəllim filosofluğu alimiliyin yüksək səviyyəsi hesab edir. Belə yanaşdıqda hər bir böyük alim əslində filosof sayıla bilər. Lakin, məncə, alimlik səviyyəsi nə dərəcədə yüksək olursa-olsun, əgər o, bədii-estetik təfəkkürlə birləşməsə filosofluq məqamına çata bilməz. Əksinə, birtərəfli rasional düşüncə şəxsiyyətin bütövlüyünə, ahəngdarlığına deyil, kəskin yarımçılığına, mənəvi şikəstliyinə gətirib çıxara bilər. Nurəddin müəllim alimliyin insana təlqin etdiyi birtərəfliyi kompensasiya edə bilən, alimlikdən gələn qəribəliklərin fövqündə dayanan yüksək mədəniyyətli ziyalıdır.

Nurəddin Rzayev filosofluq məqamına çatmış bir alimdir. Onun tibb elminə gətirdiyi yeniliklər barədə danışmaq mənim kompetensiyam xaricindədir. Lakin biz onunla bir böyük həkim kimi, bir alim kimi deyil, bir filosof kimi ünsiyyətdə olur, bu və ya digər problemi fəlsəfi müstəvidə müzakirə edirik. Bununla belə, mənim müşahidələrimə görə, Nurəddin Rzayevin filosofluğu da, bədii-estetik duyumu da, hətta dindarlığı da onun həkimliyindən başlanmışdır. Belə ki, fəlsəfi təfəkkürü və poetik duyumu soyuq rasional düşüncədən fərqləndirən başlıca amil ***heyrət*** hissidir. Dəfələrlə şahidi olmuşam ki, Nurəddin Rzayevi ən çox heyrətləndirən insan orqanizminin fövqəladə dərəcədə incə, mürəkkəb və qaydalı quruluşdur. Nurəddin Rzayev bir həkim kimi insan orqanizmində gedən fizioloji proseslərin incəliklərini bilməklə kifayətlənmir, bununla bahəm, təbiətin bu ən böyük möcüzəsinə heyranlıqla yanaşır... Onun Allaha inamının da ən böyük dəlil-sübutu ilk növbədə bu möcüzədir. Onun təbiətə vurğunluğunun, poetik duyumunun da təməlində bu böyük möcüzədən doğan





heyrət hissi dayanır.

Bir sözlə, Nurəddin Rzayevi həkimlik səviyyəsindən həkimlik (filosofluq) səviyyəsinə qaldıran ilk təkan, məncə, başqa həkimlərin sadəcə soyuq ağılla dərk etdiyini onun həm də isti ürəklə, heyranlıqla dərk etməsi və vəsf etməsidir.

Bizim elmi-mənəvi əməkdaşlığımız əslində Azərbaycan Universiteti nəzdindəki Şərq-Qərb tədqiqat mərkəzinin fəaliyyəti ilə başlanmışdır. Tədqiqat mərkəzində müntəzəm fəaliyyət göstərən ziyalı klubunun yığıncaqlarında tariximizlə, mədəniyyətimizlə, müasir ictimai həyatın aktual problemləri ilə əlaqədar istənilən məsələnin müzakirəsində Nurəddin müəllimin mütəxəssis səviyyəsində fikir yürütməsinin şahidi olmuşam. Həkim Cavad Heyətlə həkim Nurəddin Rzayevin müzakirələrdə iştirakı zamanı tarixi mövzularda tarixçilərin, fəlsəfi mövzularda filosofların, dilimiz, ədəbiyyatımızla bağlı mövzularda filoloqların, sivilizasiya ilə, mədəniyyətlə bağlı mövzularda kulturoloqların özlərini necə yığışdıqlarının, elmi məsuliyyət hissinin necə artığının şahidi olmuşam. Nurəddin müəllim soykökümüzlə, türk xalqının mənşəyi ilə bağlı apardığı konkret elmi araşdırmalar, hətta tarixçilərimiz indiyədək üzə çıxarmadıqları bir sıra faktlara istinad edilməsi, pərakəndə tədqiqatların əsasında konseptual sistem yaradılması təşəbbüsü xüsusi qeyd edilməlidir.

Bu tədqiqatlar daha artıq yüksək intellektual səviyyəli bir ziyalının istənilən problemə öz münasibətini bildirməsi deyildir. Onun bu sahədə gördüyü işlər peşəkar tədqiqatçılıq səciyyəsi daşıyır. Onda sual ortaya çıxır ki, tamamilə bir-birindən fərqli elm sahələrində, məsələn, təbabətdə və tarixdə tədqiqatçılıq üçün Nurəddin müəllim necə vaxt tapır? Görünür, vaxtın düzgün bölünməsi, səmərəli istifadəsi də yüksək mədəniyyətin təzahürlərindən biri-

dir.

Bəs müxtəlif elm sahələrinə eyni dərəcədə marağın əsasında nə durur?

Dünyanın maddi vəhdətindən çıxış edən Nurəddin Rzayev müxtəlifliklər arasında əlaqəni, ümumiliyi görə bildiyindən onu öyrənərkən elmlər arasında formalaşmış ənənəvi sərhədləri «görmür» - vahid dünyaya vahid elmi platformadan baxır. Bu da filosofluğun daha bir əlamətidir. Vəhdət halında götürülmüş barlı-bəhrəli, nizamlı-düzümlü bütöv dünyanın bütövlükdə ehtiva edilməsi olur. Bu hiss fəlsəfi ehtiras adlanır.

Filosofluğun bir əlaməti də insanın özünədərki ilə yanaşı, özünə sevgisi, özünə hörmətidir. Daha doğrusu, insanlığa sevgi və hörmət şəxsi timsalın prizmasından keçməlidir.

Nurəddin müəllim başqalarına hörmətlə yanaşmağa bacardığı kimi, özünə hörmət etdirməyi bacaran şəxsdir. Beynəlxalq miqyasda müxtəlif elmi forumlarda iştirak təcrübəsi və şəxsi mənəvi keyfiyyətlərinin sayəsində onda elmi tədbirləri yüksək səviyyədə təşkil etmək səriştəsi formalaşmışdır. Elmi məclislərin spesifikasının nəzərə alınması, elmi polemikanın qaydalarına əməl etməsi və başqalarını da bu qaydalara dəvət etməsi onu bir elm təşkilatçısı kimi də örnək edir.

Nurəddin Rzayevin həyatında çox önəmli bir məqamı bir rəmz olaraq nəzərə salmaq istərdim. 70-80-cı illərin ziyalıları çox sanballı şəxsiyyətin: alim Xudu Məmmədovun, şair Bəxtiyar Vahabzadənin, həkim Nurəddin Rzayevin və bir mahalın ağsaqqılı Zeynal Məmmədovun dostluğunu yaxşı xatırlayırlar. İnsanlar arasında dostluq nümunələri çoxdur. Lakin, məhz bu dostluq ona görə ictimaiyyətin yadında saxlanıb ki, o, şəxsi miqyaslı hadisə deyildi,





həmin dövrdəki ziyalı mühitinin gözəl timsalı, müxtəlif sahələri təmsil edən adamların yaradıcı əməkdaşlığının parlaq nümunəsi, rəmzi idi. Bu rəmz həm də Nurəddin Rzayev dünyasının hərtərəfli açılmasına imkan yaradır. Belə ki, Nurəddin Rzayev həkimliyi, bir tərəfdən, onun elmi-fəlsəfi təfəkkür tərzi ilə, digər tərəfdən gözəl poetik duyumu və poeziyanı qiymətləndirmək istedadı və nəhayət, adi insani müdriklik səriştəsi ilə tamalanır.

Nurəddin Rzayevi bir çox başqa alimlərdən fərqləndirən əsas cəhətlərdən biri də onun intellektual bütövlüyü, mənəvi-intellektual mühitə sıx bağlılığıdır.

Yüklü zərəciklər ətrafında elektrik sahəsi yaratdığı kimi, intellektlə yüklənmiş adamlar da ətrafında milli-intellektual mühit yaradırlar. Elə bil ki, bu mühitlə qidalanır, burda nəfəs alırlar. Bu mühiti formalaşdıran yüklü mərkəzlərin sayı və sahənin intensiliyi azalanda intellektual aclıq yaranır.

Bəli, bioloji varlıq kimi insan üçün atmosfer nədirsə, bir balıq üçün su nədirsə, vətəndaş üçün milli-mənəvi mühit nədirsə, alim üçün elmi mühit nədirsə, ziyalı üçün də mənəvi-intellektual mühit odur. Bir tərəfdən ətrafa intellektual sahə şüalandırır, digər tərəfdən özü o şüalara möhtacdır.

Çox geniş tədqiqat diapazonuna malik olan, istənilən elmi problemə fəlsəfi səviyyədə, metodologiya müstəvisində baxmağı bacaran, mürəkkəb məsələləri çox sadə şərh etməyi, ilk baxışda sadə görünən məsələlərin isə dərin qatlarına enməyi bacaran, tək alimliyi ilə deyil, insanlığı və vətəndaşlığı ilə də seçilən, sayılan Nurəddin Rzayevin bütöv obrazını yaratmaq çox çətindir. Ona görə də, mən bu yazıda ancaq bəzi təəssüratlarımı qeyd etməklə kifayətlənirəm.

*"İpək yolu", 1999, № 2.*

## Qürbətdə milli ruhun nisgili

*(Professor Rafiq Qurbanov haqqında)*

Sovet dövründə bütün ittifaq miqyasında olduğu kimi Azərbaycan fəlsəfi fikrində də böyük yeniliklər gözləmək sadəlövhlük olardı. Bununla belə xarici dilləri bilən filosofların bir qismi Qərb fəlsəfi fikrində gedən prosesləri izləyir və yeri gələndə onlara tənqidi və «tənqidi» münasibət bəsləyirdilər. Moskva fəlsəfi məktəbi də əsasən marksistleninçi təlim çərçivəsində fəaliyyət göstərmək məcburiyyətində idi. Bununla belə Moskva əyalətlərə, milli respublikalara nisbətən azad fikirlik dərəcəsinə görə seçilirdi. Xüsusən elm fəlsəfi sahəsində dünya fəlsəfi fikrinə inteqrasiya olunmaq imkanları çox idi. İstedadlı həmkarımız Rafiq Qurbanovu da Moskvaya çəkib aparan, görünür məhz bu fərqli elmi mühitin cazibəsi idi.

Rafiq müəllimdən əvvəl də Moskvada azərbaycanlı filosoflar və elmin digər sahələri ilə məşğul olan alimlər olmuşdur. Amma Azərbaycan elminin Moskvadakı səfiri, təmsilçisi Rafiq müəllim idi. Adətən elm adamları çox zaman qapalı olur, öz elmi işləri ilə məşğul olurlar. Amma Rafiq müəllim özündən çox başqaları üçün çalışırdı, Vətəndən ayrı olmasının boşluğunu Azərbaycandan gələnlərlə doldururdu. Moskvada özü üçün bir Azərbaycan mühiti yaratmışdı. Seçdiyi ixtisasdan asılı olmayaraq Vətəndən gəlmiş bütün aspirantlara yardımçı olar, onların yaşadıqları yataqxanaya tez-tez baş çəkər, istər elmi işləri, istərsə də yaşayış şəraitləri ilə maraqlanar, problemlərinin həllinə imkan daxilində öz köməyini göstərərdi. Rafiq müəllimin hər kəsə bu qədər diqqətli olması, başqalarının problemləri ilə məşğul olması barədə çox düşünmüş və həmişə də bu qənaətə gəlmişəm ki, onun qədər milli ruhlu, şerə-sənətə bağlı bir adam öz mühitindən ayrı düşmüşdüsə, orada da özü üçün milli mühit yaratmalı idi. O, sanki dilemma qarşısında qalmışdı: ya elmi seçməli idi, ya da qəlbindən gələn bir tələbata uyğun həyat yaşamalı idi. Ya əqlin tələbatını, ya da ruhun tələbatını ödəməli idi. O, əqlin yolunu seçmiş, onun naminə – fizikanın fəlsəfi məsələləri, elm fəlsəfəsinin aktual problemləri üzrə tədqiqat aparmaq üçün SSRİ EA-nın Fəlsəfə İnstitutundan ona edilən təklifi qəbul etmişdi. Bu, Azərbaycan elmini İttifaq miqyasında, yeri gələndə dünya miqyasında təmsil etmək üçün böyük bir şans idi ki, Rafiq müəllim bundan imtina etməmişdi. Lakin o, təbiətcə, xaraktercə beyinlə, zehni işlə yaşamaqla yanaşı, daha çox ürəklə yaşamaq istəyən adam idi. Hisslərdən, duyğulardan yoğrulmuş bir adam kimi Rafiq müəllim nədən imtina etdiyini həmin məqamda bəlkə də hiss eləməmişdi. Açığını deyək ki, çox adam üçün fərqi yoxdur, – harada yaşayır. Çoxları istəyir ki, paytaxtda yaşasın, yaxşı elmi mühitdə olsun, irəli getsin, adı çıxsın, şöhrət qazansın. Bunun müqabilində bir o qədər də şey itirmir, çünki onun üçün fərqi yoxdur; Moskvadamı yaşayır, yoxsa Vaşinqtondamı. Elə indi də köçüb xaricə gedənlərimiz vardır. Türkiyədə yaşayıb fəaliyyət göstərənlər də çoxdur. Türkiyə hər halda yenə mənəvi mühitinə görə bizə yaxındır. Burdan gedib Qərb ölkələrində yaşayanlar isə, şübhəsiz, çox şey itirirlər. Mən Rafiq müəllimin timsalında ümumiyyətlə bir azərbaycanlı elm adamının xaricdə yaşaması, xarici elmi mühitə daxil olması müqabilində nəyi itirdiyini,

bunun müqabilində nə qazandığını, bu daxili dramatizmi, hisslə ağlın mübarizəsini ön plana çəkmək istəyirəm. Bəzən biz görürük ki, kimsə xaricə getdi, orada evləndi, yaşadı, zahirən bu çox nasiranə görünür. Amma bir şey var ki, insan həmişə seçim qarşısında olur. Böyük insanlar böyük ideallara bağlı olurlar və bir ideal naminə başqa idealdan imtina etmək o qədər də asan olmayan ağrılı bir prosesdir. Vətən naminə, millət naminə onun hənirtisindən, doğma mühitdən uzaqlaşmaq, bir tərəfdən fərəhli haldırsa, digər tərəfdən ağrılı bir hadisədir. Mən məhz bunun dramatizmini izah etmək istədim. Elə indi də xaricə üz tutanlar var, ola bilsin ki, ilk məqamda bunu hiss etmirlər, amma zaman keçdikcə necə böyük fədakarlıq etdiklərinin, nələrdən imtina etdiklərinin fərqinə varmalı olurlar.

Qürbətdə olan adi insanların hansı millətə mənsub olması adı və soyadından, danışdığı dildən bəlli olur. Amma filosofun bir missiyası var: o, təkcə özünü yox, bütövlükdə xalqının, millətinin mənəvi varlığını, ruhunu təmsil etməlidir. Bu ruhun əməli fəaliyyətdə təsdiqlənməsi, təsbit olunması uğrunda çalışmalıdır. Doğrudur, vətəndən ayrılaraq vətəni təmsil eləmək, millətdən ayrılaraq milli ruhu ifadə etmək çox çətindir, bununla belə milli ruhu öz duranda yaşatmalısan. Yəni sən yad mühitdə, qürbət eldə olanda da sənin varlığın Vətənin varlığından, milli ruhdan ayrılmamalıdır. Bunun üçünsə ətrafında kiçik, lokal bir mühit yaratmalısan. Bu da bir əks əlaqə tələb edir. Tək bir insan çərçivəsində bu mümkün deyil. Bax, belə bir mənəvi ehtiyacdan yaranmışdı ki, Rafiq müəllim Azərbaycandan gələn gənc elm adamlarını özü axtarar, onlara hər cür kömək edər, onlardan isə Vətən çiçəklərinin ətrini alardı.

Düzdür, mən özüm bu hissləri çox yaşamamışam, çünki Vətəndən çox qısa müddətlərə ayrılmışam və həmişə də işimi tez başa vurub Vətənə qayıtmağa çalışmışam. Bununla belə, Rafiq müəllimin duyğuları, keçirdiyi üzüntülər, üzə vurmadığı, ötəri baxışla görünməyən, ancaq yaxın adamlarının hiss elədiyi iztirablar mənə bəllidir, tanışdır. Bəlkə də elə həmin iztirabların nəticəsi idi ki, o cür sağlam, idmanla məşğul olan, həmişə təbiətlə ünsiyyətdə olan bir insan əvvəllərdən Vətən həsrətindən aldığı mənəvi zərbədən xilas ola bilmədi, onun ağrı-acısı özünü göstərdi.

Ağrı-acı əvvəllər də özünü göstərirdi və bu ürək sızıltıları onun poeziyasında açıq-aşkar ifadə olunurdu. Rafiq müəllimin şer yazdığını çox az adam bilirdi. Amma o, sadəcə olaraq Osman Sarıvəllinin oğlu və genetik baxımdan şairanəliyi olduğu üçün yox, həm də bu daxili iztirablarının ifadəsi üçün, qürbətin ağrısını hansı formadasa ifadə eləmək üçün şer yazırdı. Mən onun şerlərində bu nisgili həmişə hiss eləmişəm. Onun çox gözəl şerləri vardır.

Rafiq Qurbanov öz milli hissiyyatını təkcə poeziyasında və həmvətənlərinə göstərdiyi xüsusi qayğıda və köməkliklərdə deyil, həm də elmi yaradıcılıq vasitəsi ilə ifadə olunurdu. Doğrudur, o, Moskavaya fizikanın fəlsəfi məsələləri ilə məşğul olmaq üçün getmişdi, «fizikada qarşılıqlı təsir» mövzusu üzrə və doktorluq dissertasiyaları müdafiə etdi, kitabları nəşr olundu. Amma, onun elmi-fəlsəfi yaradıcılığının böyük bir qismi o problemlə deyil, milli münasibətlərlə bağlı idi. SSRİ EA-nın Fəlsəfə İnstitutunun təbiətşünaslığın fəlsəfi məsələləri şöbəsində işləsə də, yaradıcılığında etnik-siyasi problemlər böyük yer tuturdu.

Yeri gəlmişkən deyim ki, SSRİ-nin dağılması ilə bağlı planlar haqqında Avropada ingilis dilində olan mənbələrdəki təhlillər haqqında mən birinci dəfə Rafiq müəllimdən eşitmişdim. İlk dəfə məhz ondan eşitmişdim ki, Qərb ideoloqları neçə ildən sonra SSRİ-nin əhalisinin yarıdan çoxunun türk xalqları olacağını, siyasi hakimiyyətin

onların əlinə keçə biləcəyini və bunun da nəticəsində dünyanın geosiyasi xəritəsində nə kimi dəyşikliklər ola biləcəyini hesablayır və bundan narahat olurlar. Rafiq müəllimin o vaxtlar açıq-aşkar olmasa da, bir qədər üstüörtülü şəkildə bu barədə mətbuatda yazıları çıxdı, milli münasibətlərlə bağlı bir kitabı da işıq üzü gördü.

Rafiq müəllim təkcə öz övladlarında deyil, Moskvada yaşayıb elmin müxtəlif sahələri ilə məşğul olan gənclərdə də milli ruhun qorunub saxlanmasına çalışırdı. Bu məqsədlə tez-tez müxtəlif tədbirlər keçirərək onların bir-biriləri ilə daha sıx təmasda olmalarına nail olurdu. İstəyirdi ki, Moskvadakı gənc azərbaycanlı oğlan və qızlar bir-birilərini tanısınlar, ailə quranda da gələcək həyat yoldaşlarını başqa millətlərdən seçməsinlər. Adətən belə məclislər vaxtilə bəy ailəsi kimi Qazaxıstana sürgün edilən, sonralar isə Moskvada yaşayan Sürəyya bibimin evində təşkil olunardı.

Rafiq müəllim həddən artıq səmimi insan idi. Danışılmalı olmayanları da danışırdı. KQB ilə «əməkdaşlığını» da mənə nəql etmişdi.

Bir dəfə İnstitutun direktoru onu çağırır ki, hökumət adamları gəlib, səni təbrik etmək istəyirlər. Heç ağlına da gəlmirmiş ki, ad günüdür... Bir sözlə, gələnlər onu təbrik edib, hədiyyə də veriblər. Sən demə KQB-dən imişlər, məqsədləri də başqaymış. O vaxtlar Bakıda Asif Atanın (Əfəndiyevin) «Ocaq» klubu, mənim isə APİ-də (indiki Pedaqoci Universitetdə) fəlsəfə dərnəyim vardı. Sən demə bundan Moskvada da xəbərdar imişlər. Üstəlik mənim Rafiq müəllimlə dostluğumu da bilirmişlər. Ona görə də Rafiq müəllimdən xahiş edirlər ki, mənə təsir edib bu yoldan çəkindirsin. Rafiq müəllim isə bu hadisəni olduğu kimi





mənə danışmışdı. Hətta zarafatla deyərdi ki, sənin hesabına ad günümdə hədiyyə qazandım.

1990-cı ilin yanvar hadisələrindən sonra Rusiyaya qarşı bir növ qəlbim qırıldı. Düzdür, oradakı elm adamlarının bunda günahı yox idi, amma adamın qəlbi qırılanda yavaş-yavaş əlaqələr də qırılır. Biz ondan sonra Rafiq müəllimlə xaricdə, ya da o, Bakıya gələndə görüşürdük.

O, təkcə Azərbaycandan olanlara deyil, Orta Asiya respublikalarından və Qazaxıstandan gəlmiş gənclərə də eyni köməkliyi göstərirdi. Onlar da Rafiq müəllimi özlərinin Moskvadakı nümayəndələri hesab edir, bu şəhərə gələn kimi ilk növbədə onu axtarırdılar. Tək mənim yox, neçə-neçə gənc aspirantın milli dünyagörüşünün formalaşmasında – mən elmi tərəfdən çox, məhz bu aspekti irəli çəkmək istəyirəm – Rafiq müəllimin çox böyük rolu olmuşdur. O, bütün bunlara daha çox vaxt ayırdığından bəzən özünün elmi işi ilə müntəzəm məşğul ola bilmirdi. Yoxsa o daha böyük uğurlar qazanardı.

Etiraf edim ki, mən müxtəlif adamlarla ünsiyyətdən daha çox öz elmi işimlə məşğul oluram. Bu da, görünür ondan irəli gəlir ki, mənim daxilən itirdiyim hansısa hissiyyatı kompensasiya etməyə ehtiyacım yoxdur. Mən həmişə Vətəndə olmuşam, onsuz da millət üçün çalışıram, dərs deyəndə də azərbaycanlı tələbələrə deyirəm, biliklərimi də azərbaycanlı aspirantlara öyrədirəm. Rafiq müəllim isə Fəlsəfə İnstitutunda işləməklə yanaşı M.Lomonosov adına MDU-nun professoru idi, başqa ali məktəblərdə də dərs deyirdi. Bir müəllim kimi orada dərs desə də, əlbəttə, millilik baxımından öz bildiklərini millətinin övladlarına öyrətmək istəyirdi. Moskvada yaşayıb fəaliyyət göstərsə də, Azərbaycana Bakıda olanlardan daha çox bağlı idi. Azərbaycan milli ruhunu daha yüksək səviyyədə təmsil

edirdi və onun şeriyyətini, musiqisini öz həyatının ayrılmaz tərkib hissəsi etmişdi.

Bir şeyi də qeyd etmək istəyirəm ki, onun ingilis dilini bilməsi də çox köməyinə çatırdı. Onu çox vaxt Moskvadakı Lenin adına Mərkəzi kitabxananın xarici dillər bölməsində görmək olardı. Mən tədqiqat işlərimlə bağlı doktorluq dissertasiyamda istinad etdiyim bir çox xarici mənbələri də onun vasitəsi ilə əldə etmişdim. Yəni biz həmin mənbələrə bir yerdə baxmışıq və məni maraqlandıran yerləri o tərcümə etmişdir.

Onunla birlikdə Rusiyada və digər xarici ölkələrdə çox olmuşuq. Minskdə, Kazanda, Obninskdə, İstanbulda, Vaşinqtonda və s. elmi konfranslarda birgə iştirak etmişik.

Hər beş ildən bir Ümumdünya Fəlsəfə Konqresi keçirilir. 2003-cü ildə isə bu, İstanbulda oldu. İlk dəfəydi ki, burada keçirilirdi. Düzü, Rafiq müəllimlə orada görüşəcəyimi güman etmirdim. Rusiyadan daha geniş tərkibdə nümayəndə heyəti gəlmişdi, onlar İstanbula gəmiylə gəlmişdilər. Əslində, Rusiya Fəlsəfə Cəmiyyəti mənə də məktub göndərmişdi ki, Moskvaya gəl, bizimlə birlikdə gedək. Amma vaxt azlığından mən birbaşa İstanbula getdim və orada gördüm ki, Rusiyadan gəlmiş nümayəndə heyətinin tərkibində Rafiq müəllim də var. O, həmişə Rusiyanın fəlsəfə ictimaiyyəti ilə bizim aramızda körpü rolunu oynayıb. İstanbulda da birgə görüşlərimiz oldu. Burada Rafiq müəllimlə mən həm də Rusiyadan gəlmiş nümayəndə heyəti ilə Türkiyəli filosoflar arasında bir əlaqələndirici olduq.

İstanbul səfərindən bir məqamı ön plana çəkmək istəyirəm. Rusiya nümayəndə heyətinin tərkibində Rafiq müəllimlə yanaşı bir nəfər də türkdilli filosof vardı. Tatar idi, onu da Rafiq müəllim gətirmişdi. Onun qeydiyyat vəsiqəsi yox idi, birlikdə kömək edib onun da konfransın iştirakçısı olmasına nail olduq.





Konqresin keçirildiyi ərəfədə Rusiyadan gəlmiş həmin o iki nəfər, Qazaxıstan Fəlsəfə İnstitutunun direktoru, görkəmli filosof Əbdülmalik Nısambayevin başçılıq etdiyi nümayəndə heyəti, Özbəkistandan, Qırğızstandan, Azərbaycandan gəlmiş filosoflar Türkiyəli həmkarlarla birlikdə 2 dəfə dəyirmi masa keçirdik, ortaq türk fəlsəfi terminalogiyası məsələsini müzakirə etdik. Düzü, ilk iclasda heç kim bilmirdi ki, Rusiya nümayəndə heyətinin tərkibində türk filosoflar ola bilər. Ona görə də dəyirmi masaya üç nəfər rəhbərlik edirdi: Türkiyənin nümayəndəsi, Qalatasaray universitetinin fəlsəfə fakultəsinin dekanı, professor Kənan Gursoy, Qazaxstandan Ə. Nısamubayev və Azərbaycandan mən.

Sonra mən onlara izah etdim ki, Rusiya nümayəndə heyətinin tərkibində də türkdilli filosof var və o bizim hamımızdan daha çox türkdür, türkdilli fəlsəfənin inkişafında hamımızdan çox xidmətləri var, onu da dəvət etdilər, artıq ikinci iclasda diqqət mərkəzində Rafiq müəllim idi və hamı ona müraciət edirdi.

Qazaxıstandan, Özbəkistandan gəlmiş nümayəndələr Rafiq müəllimin dostları idi, vaxtı ilə hamısına kömək etmişdi. Bu mənada Rafiq müəllim bütün türk xalqları filosoflarının əsas əlaqələndiricisi idi. Eyni zamanda türk filosofları ilə Rusiyalı filosoflar arasında da əsas əlaqələndirici kimi çıxış edirdi. Bizim orada çox yaddaqalan görüşlərimiz oldu. Rafiq müəllim həm də ingilis dilini dərindən bilməsi ilə mənim köməyimə çatdı. Belə ki, konqresin materialları ingilis dilində hazırlandığındanAmerikadan və Avropa ölkələrindən gəlmiş filosoflar mənim Şərq-Qərb mövzusundakı məruzəmlə tanış olmuşdular və qeyri-rəsmi görüşlərdə mənə yaxınlaşaraq suallarla müraciət edirdilər.

Belə vaxtlarda ingilis dilini gözəl bilən Rafiq müəllim köməyimə çatırdı. Ümumiyyətlə, o, istənilən məsələdə öz köməyini heç kimdən əsirgəməzdi.

Onunla birlikdə Amerikada da olmuşuq. Vaşinqtonda dünya azərbaycanlılarının II Konqresində birlikdə iştirak etdik, Corc Vaşinqton Universitetində olduq, sonra birlikdə Merilend Universitetinə getdik, oradakı həmkarımızla görüşdük, müzakirələr apardıq. Yeri gəlmişkən qeyd edim ki, Rafiq müəllimin oğlu Ərcan orada doktorant idi, hələ müdafiə eləməmişdi. Biz Ərcanın vasitəsi ilə oranın filosofları ilə müəyyən əlaqələr yaratdıq.

Mən onun ailəsini yaxşı tanıyıram. Onun övladlarının gələcəyi ilə bağlı keçirdiyi hisslərin şahidiyəm. Hər dəfə yayda Bakıya gələndə çalışardı ki, özü ilə bərabər uşaqlarını da gətirsin, onlara Azərbaycanı daha yaxından sevdirsin. Rafiq müəllimin həyatda qazandığı ən böyük uğurlardan biri yad mühitdə övladlarını azərbaycanlı kimi böyüdə bilməsidir. Bunu hər adam bacarmazdı. Oğlu Ərcan bu gün Amerikada yaşasa da, onda milli ruh var. Hər görüşümüzdə mütləq milli mövzuda söhbətlər edirik. Hiss edirsən ki, ruhən azərbaycanlıdır. Biz Ərcanın simasında Rafiq Qurbanov ruhunun yaşadığının şahidi olacağıq.

*"Ulu körpü" qəzeti, 15 may 2005-ci il.*



# *Müsahibələr*

- **Hər insan öz sevgisi qədərdir**
- **Mənəviyyatın qütbləri və fəlsəfə zirvəsi**
- **Ziyalı ümummilli və ümumbəşəri mənafeyə xidmət etməlidir**

## Hər insan öz sevgisi qədərdir

***– Necə oldu ki, filosof oldunuz və yaxud filosofluğa gedən yol hansı mərhələlərdən keçir?***

– Adama elə gəlir ki, hamı üçün eyni olan, standart bir dövr olduğu üçün uşaqlıq, yeniyetməlik dövründə maraqlı heç nə yoxdur. Amma insanın bütün gələcəyi, meylləri, maraqları, həyata baxışı məhz o dövrdə formalaşır. Mənə elə gəlir ki, ədəbiyyat uşağın məktəbdə keçdiyi fənlərin hamısından daha üstündür. Biz bir azərbaycanlı böyütmək istəyirik. Azərbaycan vətəndaşı böyütmək və ya azərbaycanlı böyütmək tamam fərqli anlayışlardır. Bir dövlətin hüquq normalarını, qayda-qanunu bilib ona əməl etsən, vətəndaş olmaq olar. Lakin bu millətin nümayəndəsi olmaq və ya bir azərbaycanlı kimi böyümək, eyni zamanda müvafiq mənəviyyata, zehniyyətə yiyələnmək tələb edir. İnsanın öz şəxsi həyatında yaşaya bilmədiyi bütün mənəvi-estetik həyatın təbəddüllatlı anları bədii ədəbiyyatda yaşana bilər. Mütaliəsiz böyüyən uşaq inkişaf edən dünyadan məhrum olan, ancaq böyüdüyü həyət-baca çərçivəsində yetişən, çox məhdud baxışlı, məhdud ruhlu bir insan olur. Mənə gəlincə, təəssüflər olsun ki, daha çox Qərb ədəbiyyatı oxumuşam. Atam ədəbiyyat, anam isə riyaziyyat müəlliməsi idi. Humanitar sahəyə yaxınlıq atam vasitəsilə olub. Onun bütün şifahi xalq ədəbiyyatını, xüsusən aşıq ədəbiyyatını, klassik ədəbiyyatı dərindən bilməsi





və uşaqlıqdan mənimlə söhbətləri şübhəsiz ki, mənə təsir edib. İlk mütaliə etdiyim ViktorHüqonun "Səfillər ", Drayzerin "Dahi ", "Kerri bacı " və Cek Londonun "Martin İden " romanları olub. 6-7-ci sinifdə oxuyanda məktəb proqramından kənar olduğu üçün bu əsərləri oxumaq mənə qadağan olunmuşdu. Həmçinin, o zaman yaşıma uyğun olmadığı üçün Qərb ədəbiyyatını oxumağı mənə tövsiyə etmirdilər Çox maraqlıdır ki, mən onları latın qrafikası ilə oxuyurdum. Rəhmətlik əmim müharibədən qayıtmamışdı. Onun böyük kitabxanası var idi və həmin kitabxana bizim evdə idi. O kitabların sayəsində latın qrafikası mənim üçün adiləşmişdi. Məni maraqlandıran mövzulardan biri Şərq və Qərb mövzusu, Şərq və Qərbin sintezi ideyası idi. Təsəvvür edin ki, mənim uşaqlıq dövründə oxuduğum ədəbiyyatda bu sintez baş verib. Çünki mən atamın və onun dostlarının sayəsində milli ədəbiyyatı, şifahi xalq ədəbiyyatını, gizlicə oxuduğum kitablar sayəsində isə Qərb ədəbiyyatını mənimsəmişəm. Biz Marneuli rayonundanıq. Kəndimizdə bir aşıq var idi, ona Aşıq Məhəmməd deyirdilər. O, tez-tez bizə gələrdi. Atamla maraqlı söhbətlər edərdilər və mən də onlara qulaq asardım. Ola bilsin ki, bütün bunlar gizli şəkildə mənim mənəvi dünyamın formalaşmasına təsir edib. Mən dəqiq elmlərlə də məşğul olurdum və yüksək nəticələr əldə edirdim. Gürcüstan respublikasında Azərbaycan məktəblərinə o qədər də önəm verilmirdi, həmçinin, millətçilik də var idi. Bu səbəbdən respublika olimpiadasında qalib gəlmək çox çətin idi. Amma bütün bunlara baxmayaraq, mən bütün fənlər üzrə heç bir gürcü uşağının nail olmadığı uğura nail olmuşdum. Bütün fənlər üzrə qalib olan yeganə şagird idim. Ona görə də o zaman Gürcüstanın Maarif naziri olan Tamara Aşqaraşvilinin xüsusi fəxri fərmanı ilə təltif olunmuşdum. Bu ya-

şımda artıq peşəkar fəlsəfəçi olaraq dönüb geriyə – öz uşaqlığıma baxanda bu sintezin necə getdiyini müşahidə edirəm və anlayıram ki, o proses kor-təbii olsa da, düzgün gedib.

***– İndi Şərqlə Qərb ədəbiyyatını ayırmağa çalışırlar. Sizcə bu münasibət doğrudurmu?***

– Bu çox vacib məsələdir. Çünki Şərq və Qərb məsələsi təkcə ədəbiyyat sahəsində deyil, bütün sahələrdə özünü göstərir. Bunları ayırd etmək lazımdır. Əgər insan həyatına şüurlu münasibət bəsləmək istəyirsə, gərək dərk etsin ki, onun tutduğu mövqe hansı düşüncənin məhsuludur və onunla hansı mədəniyyətə xidmət etmiş olur. Bunu musiqiyə də aid etmək olar. Uşağın formalaşmasında ədəbiyyatla bərabər musiqi, baxdığı filmlər, təsviri sənət və s. də böyük rol oynayır. İndiki dövrdə təhsil sistemində gənc nəslin yetişdirilməsində ən böyük problemimiz, ən böyük qüsurumuz qəbul imtahanlarında ədəbiyyatdan inşa yazısının olmamasıdır. Sovet dövrünün bir üstünlüyü də onda idi ki, hansı fakültəyə verməyindən asılı olmayaraq ədəbiyyatdan yazılı imtahan verilməli idi. Bu isə gənc nəsildə iki keyfiyyəti formalaşdırırdı. Bunlardan birincisi, ədəbiyyata məsuliyyətli yanaşma, ikincisi isə yazı mədəniyyəti, yəni fikrini yaza bilmək qabiliyyəti idi.

***– Bir insan öz dünyasının fərqinə nə zaman vara bilir və yaxud özünü nə zaman tapa bilir?***

– Təəssüflər olsun ki, insanların böyük əksəriyyəti heç bir zaman bunun fərqində olmurlar. Çox zaman onlar həyatlarını dərk etmək səviyyəsinə ya çatmırlar, ya da sadəcə qarşılarına belə bir sualı qoymurlar. Qoysalar da, tezcə o sualdan qorxub çəkilirlər. Çünki həm cavab tapmaq





çətindi, həm də o cavab onların xeyrinə olmaya da bilər. Ona görə də qorxudur insanı. Həyatda ən çətini özünü tanımaqdır. Məsələn, biz başqalarından nümunə götürürük. Çünki başqası göz qabağındadır, amma özün özünü görmürsən. Gərək ya özünə başqalarının gözü ilə baxmağı, ya da özgələşərək özünə kənardan baxmağı öyrənəsən. Bu, artıq filosofluq məqamıdır və seçilmiş adamlara qismət olur. Bu seçilmiş adamların əksəriyyəti məhz özünü dərk etdiyi üçün xoşbəxt olmaqdan daha çox, ola bilsin ki, bir az həyatları ağırlaşır. Çünki dərk olunmuş bir həyat yaşamaq çətindir.

***– Varlıqla yoxluq deyəndə nə nəzərdə tutulur?***

– İnsanlar gördüyü, toxunduğu şeyləri var sayır, olmayanı isə yox. Amma filosoflar bu məsələyə bir qədər fərqli yanaşırlar. Əslində, var saydığımız şeylər keçicidir, yəni bu gün var sabah yox. Həqiqi varlıq stabil, sabit bir şey olmalıdır, yəni həmişə var olmalıdır. Bu məsələyə dini mövqedən yanaşanda bir varlıq var, o da Allahdır. Amma fəlsəfi baxımdan yanaşanda bir az münasibəti yumşaldırıq. Tam yoxluq o biri qütbdür. Tam yoxluğun özü potensial varlıqdır. Yəni heç nədən nə isə yarana bilər.

***– Siz özünüz həyatı necə dərk etmisiniz, yaşayaraq, toxunaraq, yoxsa ruhla təmasda olaraq?***

– Hansı hadisələr ki, səndə duyğu yaradır, sən yaşayırsan. Fəlsəfədə belə bir cərəyan var – ekzistensializm. Ekzistensializm məhz varlığı ruhun, hiss-həyəcanın yaşantısı kimi götürür. Yəni onlar ağlı, məlumatı, biliyi deyil, hiss-həyəcanı və insanın keçirdiyi bu yaşantıları həqiqi varlıq kimi götürürlər. Ona görə də onların nəzərində ədə-

biyyat və incəsənət daha önəmlidir. Bu mənada varlıq ruhun canlanması kimidir.

***– Doğruları tapmaq üçün nə etmək lazımdır?***

– İnsanın doğrunu tapması mücərrəd söhbətdir. Amma praktik həyatda, məsələn, praqmatizm fəlsəfəsinə görə, o şey ki, sənin üçün yaxşıdır və ya faydalıdır, o elə həqiqətdir, o şey ki, ziyan verir, sən ondan uzaq durmalısan. O zaman sənə ziyan verən şeyi pis, yalan hesab edirsən və öz həyatını pozitiv kökləyirsən. Yəni sənə faydalı olanı həqiqət kimi qəbul edirsən. Xoşbəxtlik həqiqətə gedən yolu seçmək və bu yolu tapa bilməkdir. Həmçinin, xoşbəxtlik qaranlıqların içində işartını tapmaq və o işığa doğru gedə bilməkdir.

***– Xoşbəxtlik an məsələsidir, yoxsa daimi bir haldır?***

– Əsas insanın mənəvi psixoloji durumudur. Var-dövlət, dünya malı və s. insanı aludə etməməlidir, onlar məqsədə çevrilməməlidir. Əgər bunlara aludə olsa, o zaman insan özünü istismar etmiş olur və onun mənəvi psixoloji durumunda bir gərginlik yaranır, həyatın başqa dəyərləri onun baxış bucağından kənarda qalır. Əgər bir şeyə aludə oldunsa, həyatın qalan gözəlliklərindən məhrum olacaqsan. İnsanın nəyisə istəməsi, nəyinsə dalınca düşməsi məqsədyönlülük kimi də dəyərləndirilə bilər. İnsan məqsədyönlüdürsə və yaxud nəyəsə nail olmaq istəyirsə “bunun nəyi pisdir ki “, – deyə düşünmək də olar. Amma o biri tərəfdən burada ifrata varsan, həyatının mənasına çevirsən, aludə olsan, bu, pisdir. Ümumiyyətlə, aludəçiliyin istənilən forması pisdir. İstənilən məsələdə aludəçilik ifrata varmaqdır, ifrat isə haramdır, istər var-dövlətdə olsun, istər də başqa məsələdə. Axı, biganəliyin, rahatlığın da ifratı





haramdır. Aristotel deyirdi ki, xoşbəxtlik həmin o qütblər arasındakı qızıl ortadadır, hər adam onu tapmalıdır.

***– Səlahəddin müəllimin amalı nədir?***

– Mən universitet yaratmışdım və 15 il ona rəhbərlik etdim. Təhsil sistemində yeni model qurmağa və özümün təhsil sahəsindəki ideyalarımı realizə etməyə çalışırdım. Bu ideyanın realizasiyası mənim üçün maraqlı idi. Marksın təbirincə desək, xoşbəxtlik ideyanın realizasiyasıdır. Yəni istədiyini reallaşdırdıqca xoşbəxt olursan. Balaca adamların xoşbəxt olması ona görə rahatdır ki, onların arzuları, məqsədləri, ideyaları daha real olur. Belə bir məşhur ifadə var ki, üfüqə doğru getdikcə sən yaxınlaşırsan, amma o səndən uzaqlaşır və heç vaxt çata bilmirsən. Yəni həyat amalı da elədir, ona tam çatmaq və yaxud onu tam aydınlaşdırmaq mümkün deyil. Bütün bunlar fəlsəfədir. Hətta məktəbə getməyən uşağın verdiyi suallar da fəlsəfədir. Azərbaycanın böyük alimlərindən olan Xudu Məmmədov mənim müəllimim olub. Onun bir oğlu var idi. Səhv etmirəmsə adı Toğrul idi. Xudu müəllim danışırdı ki, o zaman sovet hakimiyyəti dövründə beşmərtəbə mənzil binalarda yaşayırdıq. Həyət evləri çox az idi. Yayda uşağı kəndə göndərmişdik. Qayıdanda mənə dedi ki, ata, bilirsən mən necə böyük olmaq istəyirəm? İstəyirəm ki, əlim o ulduzlara, buludlara çatsın. Amma Bakıdakı mənzildə olsaydı, deyəcəkdi ki, əlim tavana çatsın. Bir filosof üçün ən böyük amal özünü dərk etməkdir. Özünü dərk etmək artıq dünyanı dərk etməkdən sonrakı mərhələdir. Həqiqi filosof olmaq üçün gərək humanitar elmlərlə yanaşı, həmçinin təbiət elmlərindən də məlumatın olsun.

***– Sizcə, bir insanın formalaşmasında inam hansı***

***rolu oynayır?***

– İnam çox faciəvi rol da oynaya bilər, çox pozitiv bir rol da. Əsas odur ki, inam real olsun, reallığa uyğun olsun. Gərək səhv, uydurma təsəvvürlərin olmaya, yəni biləsən ki, gücün nəyə çatır.

***– Neçə övladınız var, onların ixtisasları nədir?***

– 3 övladım var – 2 qız, 1 oğlan. Qızlarım artıq universiteti və magistraturanı bitiriblər. Bakalavr təhsilini burada, magistraturanı isə biri İngiltərədə, biri də İsveçrədə alıb. İngiltərədə təhsil alan qızım indi Strasburqda Avropa Məhkəməsində işləyir. İsveçrədə təhsil alan isə fərqlənmə ilə bitirdiyinə görə ona BMT-nin Cenevrədəki ofisində iş təklif etdilər və orada işlədi. İndi mən onu təkidlə vətənə gətirmişəm ki, bizdə də kadrlara ehtiyac var. Böyük qızımın, yəni Avropa Məhkəməsində işləyənin ixtisası Beynəlxalq hüquqdur, yəni hüquqşünasdır. İkinci qızımın ixtisası isə Beynəlxalq Ticarət Hüququdur. Azərbaycanda o sahədə magistr təhsili alan yeganə tələbədir. Məhz beynəlxalq ticarət hüququ üzrə Ümumdünya Ticarət Təşkilatının nəzdində magistraturanı bitirib. Oğlum orta məktəb şagirdidir.

***– Azərbaycan fəlsəfəsində doğrudan da əməyi olan filosoflarımızdan kimlərin adını çəkə bilərsiniz?***

– Bəhmənyar, Şihabəddin Yəhya Sührəvərdi, Mahmud Şəbüstəri və Əbu Turxan Azərbaycanın tanınmış filosoflarından olublar. Müasirlərdən isə heç kim olmayıb.

***– Bəs siz özünüz nə yenilik gətirmisiniz bu sahəyə?***





–Bu il XXIII Dünya Fəlsəfə Konqresi Yunanıstanın paytaxtı Afina şəhərində keçirilirdi və belə böyük bir tədbirdə mənim ingilis dilində nəşr olunmuş “Həyat Fenomenologiyası və ya İdeyanın Həyatı” kitabımın müzakirəsinə ayrıca bir Dəyirmi Masa həsr olunmuşdu. Əsas məruzəçi Vatikanın Lateran Universitetinin professoru Françesko Alfieri idi. Məruzəsinin sonunda professor kitabın italyan dilinə tərcüməsinin zərurətini vurğuladı və bildirdi ki, “kitab dinlər və sivilizasiyalararası dialoqda əvəzsiz rol oynaya bilər”. Əslində, o, kitabı artıq tərcümə eləmişdi və orada yalnız məlumat verirdi. Bu kitab keçən il Paris şəhərində keçirilən fenomenologiya konfransında 23 ölkədən gələn nümayəndələrin iştirakı ilə müzakirə olunub. Həmçinin, Moskvada fəlsəfə institutunda, İstanbulda və Ankarada da mənim kitablarımın müzakirəsi olub. Yəni bunlar artıq həmin o beynəlxalq miqyasa çıxmağın qaranquşlarıdır.

***– Sevgi haqqında nə deyə bilərsiniz?***

– Hər bir insanın ilahi ruhdan payı və deməli, özünəməxsus gözəlliyi vardır. Sadəcə olaraq, cismani yetkinlik dövründəki ideyadan sapmalar bu ilkin gözəlliyi pərdələdiyindən onu adi gözlə görmək mümkün olmur. Amma kimsə görür. «Könül sevən gözəl olar» hikmətinin də arxasında məhz ilkin «layihənin» üzə çıxması dayanır. Kimlərsə ancaq realizasiyanı (real hissi obrazı), kimlərsə bu cari reallıq arxasında «layihənin» özünü görürlər. İnsanların böyük əksəriyyəti sevgini tanımamış gedirlər bu dünyadan. Mən də ƏbuTurxanla razıyam ki, “Hər insan öz sevgisi qədərdir”.

*Müsahibim : Gülnar Mayisqızı.*
*“Naşir” jurnalı, 2013, oktyabr-noyabr.*

## *Mənəviyyatın qütbləri və fəlsəfə zirvəsi*

***– İnsan həyatında fəlsəfənin xüsusi rolunu elm və dinlə, tarix və ədəbiyyatla müqayisədə necə fərqləndirmək olar?***

– Fəlsəfənin predmeti dünyadan kənara çıxır və özünü mənəvi bir varlıq olaraq dünyadan ayırmış insanın dünya ilə münasibətini əks etdirir. Elm obyektiv dünyanı, insansız (mənsiz, mənəvi faktorsuz) dünyanı öyrəndiyi halda, fəlsəfə məhz insanlı dünyanı, insaniləşmiş, rəmziləşmiş dünyanı öyrənir. İncəsənət də dünyanı ifadə edir, bədii obrazlarla, rəmzlərlə əks etdirir. Lakin burada söhbət elmdəki mənada inikasdan yox, ideya-estetik yaşantıdan gedir. Bütün bu sahələr insana dolayısı ilə təsir edir. Din isə insanın məqsədini, həyatın mənasını bilavasitə təlqin edir. Dini dəyərlərin isbata ehtiyacı yoxdur. Burada həqiqət hissi təcrübə, məntiqi təfəkkür və ya bədii obraz vasitəsilə deyil, qəlbin nuru, mənəvi işıqlanma ilə açılır.

Fəlsəfə ilə dinin məqsədi eynidir, amma birinci – idrak, ikinci – inam üzərində qərar tutur. Hegelin dediyi kimi fəlsəfə ruhu bilgi ilə; dini həqiqəti zəka ilə uzlaşdırmaq üçün özünü dinə qatmağa məcburdur». Çünki din insanın bilavasitə mahiyyətini, həyatın mənasını müəyyən edir. Mənəviyyatın daha zəngin, ömrün daha mənalı, zövqün daha incə olmasına fəlsəfə və incəsənət də təsir edir.

Ədəbiyyat və incəsənət bütün xalqın istifadəsinə verildiyi kimi, fəlsəfə də bütövlükdə xalqın dünyagörüşünün formalaşmasında əhəmiyyətli dərəcədə iştirak edir. Lakin burada fəlsəfənin iki müxtəlif səviyyəsindən söhbət getdiyi nəzərə alınmalıdır. Peşəkar fəlsəfə, elmi-fəlsəfi araşdırmalar təbii ki, geniş kütlələr üçün nəzərdə tutulmur. Lakin fəlsəfi düşüncə tərzinin, ideya-mənəvi yaşantı vərdişlərinin bütün insanlara aşılanması çox önəmlidir. Hər bir insan özünü maddi dünyadan ayırmağı, cari hadisələrin fövqünə qalxmağı, həyata böyük ideallar mövqeyindən baxmağı öyrənməlidir. Həm də bunu başqalarının nəsihətləri şəklində deyil, kənardan təsir kimi deyil, özünün fərdi mənəvi-psixoloji yaşantısı kimi mənimsəməlidir. Bizim məqsədimiz insanlara hazır fəlsəfi biliklər, təlimlər öyrətmək yox, fəlsəfi düşüncə tərzini mənimsətməkdir ki, hər bir insan öz mənəvi-intellektual potensialının verdiyi imkan çərçivəsində filosoflaşa bilsin, kamilləşsin, İnsanlaşsın. Gənclərin mənəvi tərbiyəsini didaktikanın, pedaqogikanın öhdəsinə buraxmaq böyük sadəlövhlükdür. Əgər insanlar dünyanın ahəngini duya bilməsə, təbii gözəllik qarşısında heyrətlənməsə, öz daxili mənəvi güc qaynağını kəşf etməsə, öz mənəviyyatını dünya ilə təmasda, özünüdərk və refleksiya yolu ilə daim təkmilləşdirməsə, kənarda ülvi olan, gözəl olan nə varsa hamısının, əslində, öz daxilində olanların təzahürü, ikinci həyatı olduğunu dərk etməsə, yəni özünə genetik imkan şəklində təbiətən xas olan potensial mənəvi kamilliyi, müqəddəslik duyğusunu aktivləşdirməsə, canlandırmasa, özünün həyat tərzinə, fəaliyyət prinsiplərinə çevirməsə, təkcə kənar bilikləri öyrənməklə kifayətlənsə, insan bəlkə bilikli ola bilər, lakin kamil olmaz, alim ola bilər, lakin İnsan olmaz.

***– Dediklərinizdən belə çıxır ki, mənəvi kamilləşmə***

***yolunun, İnsanlaşma yolunun ən böyük bələdçisi fəlsəfədir. Bəs fəlsəfi təfəkkür tərzinə necə yiyələnmək olar? Necə etmək olar ki, uşaqlara fitrən xas olan fəlsəfi düşüncə qabiliyyəti, mahiyyətə varmaq, cəsarətli suallar vermək cəhdləri standart, normal təfəkkür qəliblərinə salınaraq sıradan çıxmasın? Gənclərimizin təlim-tərbiyəsini bu istiqamətdə necə yenidən qura bilərik? Min illər boyu ata-babalarımızdan bizə həm də genetik olaraq miras qalmış böyük mənəvi sərvətləri kənardan öyrənməklə yanaşı, öz daxilimizdə necə aşkar edə bilərik? Özümüz mənən yüksəlmədən, övladlarımızın tərbiyəsini «müasir tələblər səviyyəsində» necə qura bilərik?***

– Bircə şeyi nəzərə almaq lazımdır ki, bu gün Avropada aşkar şəkildə etiraf olunsa da, olunmasa da onların qazandığı nailiyyətlərdə fəlsəfi düşüncə tərzinin rolu böyük olmuşdur. Təsadüfi deyil ki, hələ Siseron fəlsəfəni xeyirxahlığın bələdçisi, həyat müəllimi adlandırırdı. Bütövlükdə antik sivilizasiya fəlsəfi düşüncə üzərində qərar tutmuşdu.

Avropanın ikinci böyük inkişaf dövrü, Renessans da fəlsəfi düşüncəyə qayıdışdan başlanır. Yəni dövrün bütün siyasi-hüquqi və mədəni-mənəvi dəyərlər sistemi də, demokratiya, insan haqları, beynəlxalq hüquq normaları da fransız maarifçi filosoflarından, Con Lokkdan, Kantdan qidalanır. Bu gün biz bu dəyərlər sistemini Avropadan hazır şəkildə götürməyə çalışırıq. Bu – yaxşıdır. Lakin öz fəlsəfi fikir qaynaqlarımıza qayıtmaqla biz həmin dəyərlər sisteminə təfəkkürün təbii inkişaf yolu ilə də gəlib çıxa bilərik. Onda milli-ictimai şüurla demokratik dəyərlər sistemi arasında müşahidə olunan müəyyən ziddiyyətlər də təbii yolla aradan götürülmüş olar.





Fəlsəfi düşüncə tərzi fərdi-mənəvi inkişaf üçün, insanın kamilləşməsi üçün nə dərəcədə vacibdirsə, fəlsəfi biliklər sistemi, elmi-fəlsəfi tədqiqatlar da cəmiyyət üçün, dövlət quruculuğu üçün, ictimai-siyasi və sosial-mədəni təşkilatlanma üçün bir o qədər vacibdir.

Dövlətin, cəmiyyətin inkişaf strategiyasının elmi-fəlsəfi təməl üzərində qurulması zərurətini və bu baxımdan, fəlsəfi fikrin inkişafının ümummilli əhəmiyyətini qeyd etməklə yanaşı, onun hər bir fərdin öz şəxsi və ictimai həyatını nə dərəcədə düzgün qura bilməsi üçün lazım olduğunu aydınlaşdırmağa çalışaq. Əlbəttə, həyatın axarına düşən, verilən tapşırıqları səylə yerinə yetirən, «zamanın nəbzini tutan», zamanla qovğaya girməyən, «palaza bürünüb, elnən sürünməyi» bacaran, təlimatlara vicdanla əməl edən, «normal» həyat və fəaliyyətin hüdudlarını aşmayan nümunəvi şəxslər, bəlkə də, hər şeyin səbəbi, mahiyyəti haqqında, həyatın mənası haqqında baş sındırmağa ehtiyac hiss etmirlər.

Öz ailəsi, qohum-qardaşı, dost-tanışı ilə, iş yoldaşları ilə ünsiyyətdə olan, öz ev-eşiyi barədə, şəxsi əmlakını artırmaq, yeyib-içmək, yaxşı «yaşamaq» haqqında düşünən, öz zəhməti və ya fərqli bacarıqları ilə pul qazanan və bu dünyasını təmin edən, hətta o dünya üçün də gün ağlayaraq vaxtı-vaxtında nəzir-niyaz verən, dini mərasimlərdə iştirak edən insanlar üstəlik dünyanın dərd-sərinidəmi çəkməlidirlər?

Fəlsəfə «normal insanın» nəyinə lazımdır? Ümumiyyətlə, fəlsəfə hamı üçünmü, hər bir insanın, hamının mənimsəməsi üçünmü nəzərdə tutulur?

Belə bir fikir var ki, hamı, hətta ateistlər də, heç olmasa, ömründə bir dəfə – ölüm ayağında həyatın mənası haqqında, yaşadığı həyatın sonluluğu və sonsuz, əbədi

dünya haqqında, Allah haqqında düşünür və ya düşünməsə də, bu mövzunun təsiri altında dərin hissiyyat keçirir. Lakin bu zaman İbn Sinanın və ya Kantın fəlsəfi traktatlarını yada salmır. «Fəlsəfə» dərslərində müəllimin öyrətdikləri də, belə məqamlarda, təbii ki, yada düşmür. Yada düşən – hazır fəlsəfi biliklər və dini moizələr yox, əzəli-əbədi dini-fəlsəfi suallardır. Bu suallara yeganə və son cavab cəhdi.

Qalan hallarda, xüsusən «yaxşı günlərdə» əksəriyyət fəlsəfəyə, ümumiyyətlə, ehtiyac hiss etmir. Sərvət toplayan, yeyib-içmək, kef çəkmək haqqında düşünən adamların fəlsəfə nəyinə lazımdır?

***– İstər-istəməz belə sual ortaya çıxır ki, fəlsəfə əgər toxlara lazım deyilsə, bəs kimə lazımdır?***

– Xeyr, tarixən elm də, sivilizasiya da, fəlsəfi fikir də cəmiyyətdə maddi təminatın yüksəlişi, asudə vaxtın yaranması şəraitində meydana gəlib. Ac olan məcburiyyət üzündən yemək haqqında, pul qazanmaq haqqında düşünür, öz maddi həyatını təmin etmək uğrundakı çabalarda elmi və ya fəlsəfi problemlər üzərində düşünməyə, təbii ki, heç vaxt da qalmır. Bəs onda kim qaldı? Həyatın mənasını, millətin, xalqın, dünyanın taleyini kimlər düşünə bilər? Ümid yenə toxlara qalır. Lakin qarnı yox, gözü tox olanlara. Var-dövlət tamarzısı olmayan, varidat toplamaq imkanı olsa da, buna aludə olmayıb, potensial şəxsi sərvətini milləti və dövləti üçün xərcləyənlərə. Dini də, imanı da pul olanlara yox, «pul əl çirkidir» fəlsəfəsini yaradanlara.

Hələ sovet dövründə, marksizm-leninizm fəlsəfəsi ilə yanaşı, fürsətdən «sui-istifadə» edib həqiqi böyük fəlsəfəni də gənclərə çatdırdığım məqamların birində fəlsəfi ruhun sehrinə düşən tələbələrdən biri müraciət etdi ki, müəllim, mən filosof olmaq istəyirəm, nədən başlayım?





Mən ona məsləhət gördüm ki, evə qayıdan kimi özünün ən bahalı paltarlarını, zinət şeylərini yığıb yandırsın, sonrakı addımları isə gələn dərsimizdə deyərəm. Lakin gələn dərsimizdə qız əlini qaldırıb utana-utana dedi ki, müəllim, bilirsinizmi, mən daha filosof olmaq fikrindən daşınmışam. Bəli, mənim göstərdiyim yol çətin yol idi. Lakin insanı filosofluq məqamına yüksəldən başqa yol tanımıram.

Mənə etiraz edib deyə bilərlər ki, axı, sizin göstərdiyiniz yol tərki-dünyalıqdır, asketizmdir və ən yaxşı halda, idealizmdir. Axı, bəs materializm də vardır, gedonizm də, praqmatizm də.

Yenə də marksizm fəlsəfəsini tədris etdiyim illər yadıma düşür. O vaxt tələbələr də özünün məhz marksist-leninçi dünyagörüşünün tərəfdarı, materialist olduqlarını isbat etməyə çalışırdılar. Mən isə deyirdim ki, isbatsız-filansız hamının materialist olduğuna inanıram. Çünki hələ dini-fəlsəfi düşüncə səviyyəsinə yüksəlməyənlər onsuz da materialistdirlər. Materialist olmaqdan asan nə var, çətini materialist olmamaqdır. Mən öz əsas vəzifəmi məhz idealizmi öyrətməkdə görürdüm, çünki həqiqi fəlsəfi fikir sadəlövh materialist düşüncələrin fövqünə qalxmaqla, ideya haqqındakı ilk təsəvvürlərlə formalaşmağa başlayır. Çətini onsuz da bu maddi dünyanın hadisələri içərisində itib-batan, onsuz da öz təbii-bioloji başlanğıcından ayrıla bilməyən və öz instinktinin, nəfsinin əsirinə çevrilən insanların ayağını yerdən üzmək, qanadlandırmaq, maddiyyatın fövqünə qaldırmaqdır. Və burada «Şahin nəğməsi» kimi əsərlər neçə-neçə fəlsəfi traktatdan daha çox kara gəlir. (Təəssüflər olsun ki, «proletar yazıçısı» olduğu üçün Maksim Qorkinin bu gözəl əsərini proqramdan çıxaranlar da tapılıbdır.)

Əsas məsələ gənclərdə heyrət hissini, müqəddəslik

duyğusunu, ideala can atmaq əzmini formalaşdırmaqdır.

Fəlsəfədə mənəvi ilə maddinin qarşılaşdırılması heç də yalnız ontoloji kontekstdə önəmli deyil. Belə qarşıdurma insan nəfsinin strukturunda da vardır; ruh və maddiyyatın, əqli nəfslə heyvani nəfsin əks qütblərdə olması da ənənəvi səciyyə daşıyır.

Maddiyyatı, var-dövləti, vəzifə və rəyasəti həyat amalına çevirən insanlar dini-fəlsəfi düşüncə qabiliyyətindən məhrum olan insanlardır.

Öz nəfsi üzərində qələbə çala bilməyən, bu fani dünyanın nemətlərindən ikiəlli yapışan, ən böyük hissi yaşantıları da maddi dünya ilə bağlı olan insanların necə dindar olduqlarını təsəvvür etmək çox çətindir. Lakin bir sıra təbiətşünas alimlər kimi pul hərisləri, ehtiras düşkünləri, kef əhli də bəzən özünə dindar imici yaratmağa çalışırlar. Haram yolla qazanılmış pulla Həcc ziyarətinə getməyin, birindən rüşvət alıb başqasına sədəqə verməyin, bütün gün ərzində axşam necə yeyib-içəcəyini düşünərək oruc tutmağın mənası və motivi nədir? Hətta namaz qılanlar da, əgər hər dəfə qəlblərini təmizləyə bilmirlərsə, maddiyyata bağlılıqlarından ayrılıb, saf, təmiz, ülvi hisslər keçirmirlərsə – sadəcə əyilib-qalxmaqda və əzbərlənmiş sözləri deməkdə məqsəd nədən ibarətdir? Ürəyində kin-küdurət, qəzəb və ya riya olmaqla, dilində Allah kəlamını zikr etməyin faydası nədir? Əslində ömrü boyu bu dünya üçün, maddiyyat üçün çalışaraq, qazandıqlarının kiçik bir qismi ilə o dünyanı da satın almağa cəhd edənlər, əməllərində şeytana, dilində Allaha qulluq edənlər, görəsən nəyə bel bağlayırlar? Allahı da aldatmağa çalışırlar?

Dini ayinlər mükəlləfiyyət kimi, yaxud sadəcə plan kimi icra oluna bilməz. Din insanları öz ilahi başlanğıcını





dərk etməyə çağırır. Bu, təkcə islama deyil, bütün dinlərə və dövrlərə aiddir.

Qədim çin fəlsəfəsi – daosizm, insanları maddi dünya ilə bağlı hər hansı bir fəaliyyətdən, hətta bu dünyanın qavranılması istiqamətindəki idraki fəaliyyətdən də uzaq olmağa, iç aləminə fokuslanmağa və hələ bu dünyada ikən əbədiyyətə qovuşmağa səsləyir.

Orta əsrlər İslam dünyasında geniş yayılmış sufi hərəkatı və dərvişlik institutu da maddi dünyadan, ictimai həyatdan ayrılaraq öz mənəvi aləmini təkmilləşdirmək və bu yolla Allaha qovuşmaq mövqeyinin ifadəsi idi. Sufiliyin əsas prinsipi sadəcə olaraq həyatda mal-dövlətdən, rəyasətdən uzaq durmaq yox, həm də daxilən, mənən təmiz olmaq, insana öz cismani, heyvani başlanğıcını xatırladan hər şeydən uzaqlaşmaq, ehtiraslarını boğmaq və ancaq ilahi eşqlə yaşamaq idi. Bəziləri sufiliyin daosizm, buddizm və hətta xristianlıqla yaxınlığına istinad edərək, onu İslamın bir qolu kimi yox, az qala azadfikirliliyin və islamdan uzaqlaşmağın bir forması kimi anlayırlar. Elə o dövrdə də Mənsur Həllacın, Şihabəddin Yəhya Sührəvərdinin, Miyanəcinin, Nəsiminin fanatiklər tərəfindən edam edilməsi dinin mahiyyətindən deyil, zahiri əlamətlərindən çıxış etməyin, ehkamçılığın nəticəsi idi. Halbuki, Məhəmməd peyğəmbərin özünün «Ən böyük cihad insanın öz nəfsinə qarşı cihadıdır», yaxud «Ölməzdən əvvəl ölmək lazımdır», – kimi fikirləri sufizmin əsas ideyasına haqq qazandırır; lakin bir şərtlə ki, bu məsələdə də ifrata varılmasın. Çünki yeri gələndə nəfsini idarə etmək, maddiyyatın cazibəsindən ucada dayanmaq, ancaq ülvi hisslərə qulluq etmək nə dərəcədə yaxşıdırsa, yaşadığımız ictimai mühitə qatılmamaq, onun daha yaxşı olması üçün heç nə etməmək də o dərəcədə pisdir. İnsan yalnız öz mənəvi dünyasının deyil,

cəmiyyətin də saflaşması uğrunda mübarizə aparmalıdır. Əgər fani dünyadan ikiəlli yapışanlar bir cür ifrata varırlarsa, asketlər, tərki-dünyalar da başqa cür ifrata varırlar.

***– Maddi zənginlik və mənəvi kamillik arasında hər hansı bir əlaqə və ya təzad varmı?***

– Mənəvi kamillik heç də yalnız maddi dünyanın fövqünə qalxmaqla əldə edilmir. Məqsəd maddiyyata nifrət, bu dünyaya etinasızlıq deyil. Əsas məsələ imtina qabiliyyətinin olub-olmamasındadır. Yeri gəldi-gəlmədi, həmişə bu dünyadan qaçmaq əslində Allahın insan qarşısında qoyduğu vəzifələrdən də uzaqlaşmaq deməkdir. Ancaq özünü düşünmək, hətta bu, mənəvi kamilləşmə istəyindən doğsa belə, eqoizmin bir formasıdır. Halbuki biz yalnız özümüz üçün, öz şəxsi etiqadımız üçün deyil, həm də Allah yolunu tutan və haqqa qulluq edən digər insanlar üçün, onların rifahını yaxşılaşdırmaq üçün yaşayırıq. Əks təqdirdə, Qurani-Kərimdə dönə-dönə ehtiyacı olanlara əl tutmaq, zəkat vermək, yolunu azanları düz yola dəvət etmək tövsiyə olunmazdı.

Maddiyyatla mənəviyyatın bir araya sığmadığını, cari həyata alüdə olanların mənən kiçildiyini iddia edənlər öz mövqeyini əsaslandırmaq üçün bir sıra hədislərə istinad edirlər. Belə ən gözəl hədislərdən biri aşağıdakı kimidir:

*«İki qonşu var imiş. Biri var-dövlət dalınca qaçar, qazanc üçün istənilən vasitəyə əl atar, yalan deməkdən, böhtan atmaqdan da çəkinməzmiş. Nə oruc tutar, nə namaz qılarmış. Amma var-dövləti aşıb-daşarmış. O biri qonşu isə gecə-gündüz ibadət edər, haqqı nahaqqa satmazmış. Amma kasıb yaşıyarmış. Bir gün o, Allaha sual ilə müraciət edib soruşur ki, bəs necə olur ki, ömrü boyu düz yolla getdiyi halda belə kasıbdır, qonşusu isə günah sahibi olsa da var-dövlət içində yaşayır? O, öz aləmində bu cür vəziyyəti ədalətsizlik hesab edir. Amma Allahdan belə bir səda gəlir: – İstəsən, yerinizi dəyişə bilərəm. Sənin qismətini ona, onun qismətini sənə verərəm; sən də onun kimi yaşa və onun var-dövləti sənin olsun. Amma dindar adam bunu heç cür qəbul etmir. Onun istədiyi təmiz qalmaqla bərabər, var-dövlət sahibi olmaq idi. Amma bu cavabdan sonra, «dilini dişləyir»: «Ay dili qafil, mənim qismətim onunkundan uca, mənim payım onunkundan çox imiş. Heç bu cür qəlb rahatlığını mala-dövlətə dəyişmək olarmı...»*

Dünya malına göz dikməyin, var-dövlət dalınca qaçmağın mənəviyyat üçün çatışmazlıq olması haqqında milli ədəbiyyatımızda da az yazılmamışdır. Mal-dövlət ilə müqayisədə həmişə əqlə, kamala, mənəviyyata üstünlük verilmişdir. Aşıq Ələsgər belə deyir: «Min batman zərin olunca, bir misqal kamalın ola».

Həmişə ictimai mühitin ən böyük nöqsanlarından biri zər ilə kərəm arasındakı əksliyi aradan qaldıra bilməməsi olmuşdur. Mütərəqqi cəmiyyətlərdə isə kamal özü vardövlət üçün açar hesab olunur. Başqa sözlə, cəmiyyət elə ona görə mütərəqqi hesab olunur ki, burada rəyasət, vardövlət, imkan ağılsızların yox, ağıllıların əlində olur. Yəni ağlı olan, biliyi olan, müəyyən bir ixtisasa yiyələnən insan üçün özünü maddi cəhətdən təmin etmək mütərəqqi cəmiyyətdə problemə çevrilə bilməz.

Digər tərəfdən, hətta qabaqcadan varlı olan adam da əgər ağıllı deyilsə, özü mütəxəssis deyilsə və mütəxəssislərə arxalanmırsa, var-dövlətini və rəyasətini itirməyə məhkumdur. Çünki pulla çox şeyi satın almaq olar; amma əql-kamal, bilik və əməli vərdişlər pulla alına bilmir. Düzdür, naqis cəmiyyətdə belə cəhd göstərilir, amma onların pulla aldıqları əslində bilik yox, biliyi təsdiq edən formal sənəddir. İş o yerə çatır ki, vəzifəsi və pulu olan adam heç

yalançı ali təhsil diplomu ilə də kifayətlənməyərək, elmi dərəcə də alır və rəsmən «alim» olur. Pulun yeganə meyar sayıldığı cəmiyyətdə belə təşəbbüslər təbiidir. Pul və rəyasətlə qazanılmış alimlik vəzifə tutmağa, yenə pul qazanmağa xidmət edir. Bu, əslində qanunauyğundur. Cəmiyyət bundan, əlbəttə, ziyan çəkir; amma ən böyük ziyan bu rəsmi «alimlərin» sonradan həqiqi elm adamları qarşısında maneəyə çevrilməsidir. Başqa sözlə, zər özünü artırmaqla kifayətlənməyərək, dönüb kərəmi də yeməyə başladıqda, misilsiz bir disbalans yaranır. Bu isə dövrənin tamamlanması deməkdir.

Bütün cəmiyyətlərdə zənginlər və kasıblar vardır. Kapitalizm quruluşunun əsas ideyası da insanları kor-korana bərabərləşdirməmək, onların öz əqli və fiziki potensialını reallaşdırmasına, hər kəsin cəmiyyətdə öz səriştəsinə uyğun mövqe tutmasına imkan verməkdir. Bəli, kapitalizm cəmiyyətinin gücü, ilk baxışda onun qüsuru kimi görünən bu cəhətdədir. Yəni daha qabiliyyətli olanların cəmiyyətdə mövqeyi, var-dövləti və fəaliyyət imkanları böyük olduğundan, cəmiyyətin inkişaf potensialı artmış olur. Var-dövlətin ağıllı adamda, kamal əhlində çox olmasının heç bir ziyanı yoxdur. Çünki bu pul, bu dövlət hansı yolla isə mütləq cəmiyyətə qaytarılacaqdır. Təsadüfi deyildir ki, kapitalizm cəmiyyətində kapital ilk növbədə istehsalın; sənayenin, təsərrüfatın inkişafına qoyulur. Böyük sənaye isə ancaq böyük elm müqabilində inkişaf edə bildiyindən, kapital dolayası ilə elm və təhsilə sərf olunur. Vay o gündən ki, ictimai sərvətin, var-dövlətin arxasına keçməyin başqa yolları peyda olur. Ağılla, fərasətlə qazanılmayan pul da təbii ki, iqtisadiyyatın, elmin, təhsilin inkişafına yox, əyləncəyə, eyş-işrətə, narkotikaya və s. sərf olunur ki, bu da ictimai inkişafa ləngidici təsir göstərir.





Lakin problem bununla da bitmir. Korrupsiya vasitəsilə pul qazanan adamların əksəriyyəti vəzifə sahibləridir və əsasən savadlı adamlardır. Onlar özləri bəlkə də bu pulu pis bir işə xərcləməzlər. Buna heç vaxtları da qalmaz. Lakin onlar öz biznesi ilə bilavasitə məşğul ola bilmədiyindən, bu varlı elitanın ətrafında yeni bir təbəqə formalaşır və kapital onların əlindən keçir. Ən yaxın ətrafda olanlar isə əsasən yüksək təhsil səviyyəsi olmayan, sürücülükdən, cangüdənlikdən gələn adamlardır. Bax, belə bir təbəqənin əlinə birdən-birə böyük pul və böyük hakimiyyət keçməsi cəmiyyət üçün ikiqat qorxuludur. Kamal əhli olmadan əli böyük pula çatanların fəallaşması cəmiyyət üçün, mədəniyyət və mənəviyyat üçün yaxşı heç nə vəd etmir. Buna görə də optimal ictimai təşkilatlanmanın ən mühüm şərtlərindən biri korrupsiya ilə mübarizə və yaradıcı əməyə, qanuni sahibkarlıq fəaliyyətinə maneələrin aradan qaldırılmasıdır. Bu problemin həlli üçün ilk növbədə zər-kamal dilemması aradan götürülməlidir.

Görünür, məhz kapitalizmin hələ bərqərar olmadığı Şərq ölkələrində zər-kamal qarşıdurması aradan qaldırıla bilmədiyindəndir ki, mənəvi ilə maddi arasındakı fərqin qarşıdurma səviyyəsinə qaldırılması, biri artarkən o birinin mütləq azalacağı, yəni tərs-mütənasibliyi, hətta bunların cəminin sabitliyi haqqında fikirlər də ortaya çıxmışdır. Atalar da belə deyir: «Zər əhlində kərəm yoxdur, kərəm əhlində zər».

Bu məsələnin bədii təhlili öz əksini Əbu Turxanın məşhur qıfılbəndində və onun açmasında da tapmışdır:

*Həyatda saxlanma qanunu varmı,*
*Pak admı üstündür, dövlətmi, varmı?*
*Biri azalanda o biri artsa,*
*Məcmuyu bunların sabit qalarmı?*

Doğurdan da, bu əksliyin az qala qanuniləşməsi çox qorxulu haldır. Cavabında Əbu Turxan yeni saxlanma qanununun kəşf edilməməsini mənəvi sərvətin ölçülə bilməməsi və müqayisənin adekvat olmaması ilə izah edir. Mənəvi kamillik yolunun ancaq dərvişlikdən, kasıblıqdan keçməsi haqqında fikir inkar olunur. Qurani-Kərimdə də məsələ «ya bu dünya, ya o dünya» kimi qoyulmur. Allah istədiyi bəndələrinə hər ikisini verir. Və hər ikisinin yolu bilikdən, elmdən keçir. Həzrəti Məhəmməd demişdir: «Dünyanı istəyən elmə sarılsın, axirəti istəyən yenə elmə sarılsın».

Kasıblığın az qala dindar adamın qisməti kimi qələmə verilməsi, bu məqsədlə dini amildən sui-istifadə edilməsi isə, heç şübhəsiz, ya subyektiv mülahizələrlə əlaqədardır, ya da onun mahiyyəti düzgün təsəvvür olunmur. Bəli, doğrudur ki, din bir həyat tərzi kimi, səxavəti təlqin edir. Amma səxavətli olmaq, yardım etmək, xüms-zəkat vermək üçün əvvəlcə müəyyən var-dövlət sahibi olmaq lazımdır. Məlum olduğu kimi, peyğəmbər özü ticarətlə məşğul olub, yəni burada ayıblı bir şey yoxdur. Ayıb olan əyri yolla pul qazanmaqdır. Lakin təəssüf ki, Şərq fəlsəfi fikrində var-dövlətə ancaq mənfi planda baxmaq ənənəsi geniş yayılmışdır. Hətta Qərbdə yaşayan ərəb şairi və filosofu Cübran Xəlil Cübran da bu mövqedən çıxış edir: «Var-dövlət insan müsibətlərinin mənbəyidir, sevgi isə səadət və sevincin.» Halbuki var-dövlət ancaq haram yolla qazanıldıqda və ağılla idarə edilə bilmədikdə müsibət törədə bilər. Onun sevgi ilə qarşılaşdırılması üçün də heç bir əsas yoxdur.

***– Mənəvi saflıq və gözəllik duyğusu, zövq arasında əlaqə varmı və əgər varsa onu necə izah edirsiniz?***





– Şərqdə gözəllik və sevgi maddiyyatla qarşılaşdırıldığı kimi, mənəviyyat müstəvisində də qütbləşmə gedir. Məsələn, belə bir fikir vardır ki, kiminsə qismətinə zahiri gözəllik düşürsə, başqasının qismətinə mənəvi saflıq, daxili gözəllik düşür; və müdriklər həmişə ikinciyə üstünlük verirlər. Lakin zahiri gözəllik dalınca qaçanlar daha çox olur. Bu qarşılaşdırma, görünür, hər iki gözəlliyin eyni adamda olması ehtimalının azlığından irəli gəlir. Əlbəttə, idealda zahiri ilə batininin vəhdəti tərənnüm olunur. Amma bu vəhdət eyni tərtibli tərəflərin vəhdəti deyil. Zahiri gözəllik olsa-olsa əsas gözəlliyin daha tez üzə çıxması üçün stimul ola bilər. Əbu Turxan belə deyir: «Zahiri və daxili gözəllik eyni vaxtda parlaya bilməz. Əvvəlcə birincinin parıltısından ikinci gözə görünmür, amma elə ki, göründü, onda birincini kölgədə qoyur». Bir fərq də nəzərə alınmalıdır ki, daxili aləmin hüdudu olmadığından, onun inkişaf potensialı da sonsuzdur. Digər tərəfdən sifət gözəlliyi mənəviyyata təsir etmədiyi halda, ruhun kamilləşməsi, xoşbəxtlik və sevgi duyğusu sifətdə də ifadə olunur. Sevən adamın, xeyirxah adamın, dindar adamın «sifətindən nur tökülür», o daha səmimi olur, daha nəcib görünür.

Dini tərbiyə universal əqli keyfiyyətlərdən daha çox, duyğu ilə bağlıdır və insan Mən-inin daha dərin qatlarını ifadə etməklə yanaşı, lokal mədəni-mənəvi mühitlə, hətta fərdi mövcudluqla əlaqədardır. Digər dinlərdən fərqli olaraq, islam dini eyni zamanda bir şəriət kimi də çıxış edir və insanlara ictimai münasibətlərdə də bələdçi olur.

Dini duyğu isə insani mahiyyətlə bağlı olduğu üçün daha dərin və qədim köklərə malikdir. C.Əfqaninin yazdığına görə, insanın ilk tərbiyəsi onun dini tərbiyəsidir, fəlsəfi dünyagörüşü sonra yaranır». Lakin fəlsəfi düşüncənin formalaşmasında dini hissin böyük rolu vardır.

Müasir dövrdə bəşəriyyətin əldə etdiyi ictimai təcrübə və yüksəldiyi intellektual səviyyədən elm, fəlsəfə, din, əxlaq və bu kimi İntellektual-mənəvi dəyərlər sisteminə yenidən baxılmasına, onların insan həyatında rolunun yenidən dəyərləndirilməsinə böyük ehtiyac vardır.

Cəmiyyətin yüksək dərəcədə təşkilatlanmış olduğu bir şəraitdə hər bir insanın fərdi həyatı özündən daha çox kənar amillərdən asılı olur. İnsan hələ dünyaya gəlməmiş, onun yaşamalı olduğu təbii, sosial-iqtisadi və mədəni-mənəvi mühit formalaşmış olur və bu mühit fərdlə müqayisədə qat-qat böyük miqyaslı proseslərlə bağlı olduğundan xeyli dərəcədə ətalətli və konservativ olur. Onun azacıq da olsa, dəyişdirilməsi böyük daxili enerji tələb edir.

Lakin bu mühiti dəyişmək lazımdırmı ?

İnsan müəyyən zaman və məkanda dünyaya gəlir. Bu onun qismətidir. İnsan ya öz taleyi, qisməti ilə barışmalı və mühitə uyğunlaşmalı, ya da mühiti dəyişdirmək kimi çətin bir yola qədəm qoymalıdır ki, bu yol ancaq daxildən gələn işıqla aydınlaşa bilər.

***– Sizin dediklərinizdən belə nəticə çıxarmaq olar ki, mühitə qarşı dayana biləcək, ona alternativ ola biləcək yeganə mənbə insanın daxili mənəvi aləmidir. Lakin daxili aləm özü də mühitin təsiri ilə formalaşmırmı?***

– İnsan ancaq çox qısa bir zaman intervalında dünyada gedən proseslərin iştirakçısı olur və bir çox hadisələrin əvvəlini və sonunu görə bilmir. Ömür məhdud, dünya fanidir. Ancaq baş vermə müddəti insan ömrünə nisbətən kiçik olan hadisələr bütöv halda müşahidə oluna bilir. Bütövün mahiyyətini dərk etmək mümkün olmadıqda, yəni insanın şüurlu ömrünə nisbətdə daha böyük müddətli pro-





seslər insan üçün qaranlıq qalır. (Düzdür ictimai təcrübə insanın köməyinə gəlir və bəşəriyyətin tarixi hesabına öz ömrünü artırmağa çalışır. Yəni ömür keçmişə doğru interpolyasiya olunur. Lakin bu müddət də dünyanın yaşı ilə müqayisədə çox kiçik olduğundan, insan bu dünyada qonaq olmaq sindromundan xilas ola bilmir).

İnsan ömrü keçmişə və gələcəyə doğru uzanaraq zamanı ehtiva etməyə çalışır. Bir insan ömründə mümkün olmayanı onun əvəzinə bəşəriyyət yerinə yetirməyə çalışır. Lakin insan ömrü bəşər tarixi müqabilində nə qədər kiçikdirsə, bəşər tarixi də kainat ömrü müqabilində o qədər kiçikdir.

İnsan zaman və məkanca məhdudluğunu aradan qaldırmaq üçün sonsuzluğa, əbədiyyətə qatılmaq onun ayrılmaz tərkib hissəsinə çevrilmək istəyir.

Əbədiyyət mühitdə yox, insanın içindədir. Sonsuzluq, tükənməzlik idea aləminə, insanın mənəvi dünyasına xasdır. Cismən məhdud olan insan mənən tükənməzdir.

Əbədiyyətə qovuşmaq istəyən insan bəşər tarixinə deyil, mənəvi varlığının qədimliyinə və ölməzliyinə bel bağlamalıdır.

İnsan bədəni dünyanın, kainatın bir zərrəsi olsa da, insan ruhu dünyanı kainatı ehtiva etmək qüdrətində imiş. Bunu bədənə yox, ruha tapınanlar daha yaxşı bilirlər. Cismani ehtiyaclar üçün yox, ruhani ehtiyaclar üçün yaşayanlar, dünyanı ruhun işığında seyr edənlər daha yaxşı bilirlər.

Kimsə deyib ki, «çox oxuyan çox bilməz, çox gəzən çox bilər». Lakin çox gəzənlərin çoxusu könül evindən bixəbər qalıblar. Gəzdikləri və gördükləri dünya özü yox, dünyanın görüntüsü olub. Dünya isə, mahiyyət isə haradasa kənarda yox, içəridə imiş.

Mütləqi də, mahiyyəti də, sonsuzluğu və əbədiyyəti

də insan ancaq öz iç dünyasında, ruhunun ənginliyində tapa bilər. Bir də öz yaxınlarında, «ruhu ruhunda olan» insanlarda. Fərdi ruhun aurası! Lakin mütləq ruhdan fərqli olaraq o, sonsuzluğa qədər yayıla bilməz. Kənara getdikcə dünya genişlənir və seyrəlir. Sıxlıq azalır, məsafə artır. Sən getdikcə o səndən daha böyük sürətlə uzaqlaşır. (Burada nəzərə alınmalıdır ki, həndəsi yaxınlıqla mənəvi yaxınlığın müqayisəsi şərtidir).

İnsan dünyadan onun nemətlərindən nə isə tapıb yeyə bilər. Nə qədər çox yesə də yeyə bilmədikləri daha çox olacaqdır. Qarın doyacaq, göz doymayacaqdır. Nə qədər pul toplasa, əmlak toplasa bunlar dünya müqabilində sonsuz, kiçik olacaqdır; onun gözü yenə başqalarının əlində olacaqdır. Yığdığı əmlak, var-dövlət onun özündən daha çox yaşayacaq, onun özünə qalmayacaqdır. Müdriklərin dediyinə görə, insanın bu dünyadan aparacağı bir kəfən olacaqdar ki, əslində heç onu da apara bilməyəcəkdir.

Bəs onda insan nə üçün çalışır?

Deyirlər ki, harada isə ikinci bir dünya, o dünya var ki, insan məhz onun naminə yaşamalıdır. Həmin «o dünya» sonsuz və əbədidir. İnsana bu fani dünyada həyat ona görə verilib ki, «o dünya»sını qazana bilsin; Ya əbədi məşəqqət, ya əbədi sevinc, şad-xürrəm həyat.

Lakin başqa qisim müdriklər əbədi səadət naminə çağdaş səadətdən imtinanı qəbul etmirlər. Əgər bu dünyanın əsas fəaliyyət kredosu heyvani nəfs üzərində qələbədən, naz-nemətə və ləzzətə uymamaqdan ibarətdirsə, onda bu cür könlü tox, gözü tox insan üçün əbədi ləzzət idealı nə dərəcədə məqbuldur?

Ömər Xəyyamlar diqqəti məsələnin məhz bu cəhətinə yönəldirdilər. Mollalar isə onların «o dünya» haqqındakı dini təlimə şəkk gətirdiklərini iddia edirdilər.





Başqa qisim müdriklər də olub ki, onlar bu dünyadakı sevinc və səadəti o dünyadakına qarşı qoymamış, sadəcə olaraq həqiqi böyük sevincin və sevginin mənasını daha düzgün müəyyənləşdirməyə, cənnətdə təsvir olunan könül rahatlığını da elə bu dünyada ikən tapmağa cəhd göstərmişlər. Bu müdriklər həyatın mənasını və dünyanın mahiyyətini də kənarda fani dünyanın naz-nemətində deyil, öz mənəvi-ruhani varlıqlarının hikmətində, sirli-sehirli aləmində axtarmışlar. «Özünü dərk et», – deyən Sokrat da, «mənəm həqq, həqq məndədir», – deyən Həllac da, «quyuya su tökməklə, sulu olmaz», – deyən dədələr də fani dünyanın tərəf-müqabili kimi könül evini, mənəvi aləmi qəbul etmişlər.

«Bu dünya»ya alternativin insanın iç aləmində axtarılması heç də «o dünya» ideyasının inkarı kimi anlaşılmamalıdır. Sadəcə olaraq, əzəli-əbədi olan «o dünya»nın əzəli-əbədi olan mənəvi aləmlə, ruhla ilişgisini anlamağa təşəbbüs göstərilməlidir.

Sonsuzluğu ehtiva edəndə, kainata qovuşanda, nəhayətsiz, əzəli, əbədi dünyaya qovuşanda, ölümdən sonrakı ölməz həyatı da öz həyatına əlavə edəndə, mümkünsüzlüklər hamısı mümkün olanda... həyatın ecazkarlığı, ülviliyi artır, insan özünü əzəli-əbədi hesab edir, hadisələr içərisində itib-batmır, nəfsin torundan çıxır, yüksəlir, cılız, cari, cismani, keçici, fani həyatdan uzaqlaşaraq onun fövqündə durmaq, mənəviləşmək, ideallaşmaq, Allaha qovuşmaq əzmində olur!

İnsanın qəlbi ülvi, müqəddəs bir duyğu ilə dolur, uca Allaha pərəstiş edərkən, özü də qanad açır, ucalır, mənəvi dünyanın sirli-soraqlı, dərin qatlarını ehtiva edir.

***– Dini hiss və milli hiss arasında nə kimi bir münasibət vardır?***

– Fərd öz həyatı, öz hərəkətləri ilə ancaq özünü təmsil etdiyini və əgər görən-bilən varsa – qanun qarşısında, əgər görən-bilən yoxdursa, ancaq öz vicdanı qarşısında cavabdeh olduğunu zənn edirsə, o ən azı eqoistdir; bu onun fərdi miqyasdan milli və ümumbəşəri miqyasa çıxa bilməməsinin nəticəsidir.

İnsan hər bir məqamda özündən başqa ailəsini, elini-obasını, millətini, dövlətini təmsil edir, insanlığı – bəşəriyyəti təmsil edir.

Tək özü qarşısında deyil, tək dövlət, qanun qarşısında deyil, həm də milləti təmsil etməklə millət qarşısında, insanlığı təmsil etməklə bütün bəşəriyyət qarşısında məsuliyyət daşıyır. Daha böyük miqyasda və daha böyük ümumilik dərəcəsində isə insan öz hərəkətləri ilə Allah qarşısında məsuliyyət daşıyır.

Dini hiss – insanın Allah qarşısında məsuliyyət hissi mərhələ-mərhələ: ailə qarşısında, millət qarşısında, bəşəriyyət qarşısında məsuliyyət hisslərinin davamı kimi ortaya çıxdıqda bu daha sadəcə hiss yox, dərk olunmuş, zəka ilə qovuşmuş yüksək mənəvi məqamdır.

***– Ənənəvi tərbiyə formalarının səmərəsini azaldan, onu sıxışdıran hadisələrdən biri də qloballaşmadır. İndi daha heç bir xalq öz milli mənəvi mühiti ilə məhdudlaşa bilmir, istəsə də, istəməsə də, kənardan mədəni-mənəvi müdaxilələrə məruz qalır. Belə bir şəraitdə milli varlığın qorunması üçün hansı tədbirlər görülməlidir?***

– Nəzərə alınmalıdır ki, qloballaşmanın əsas silahı texnikadır. Əsasən Qərbdə icad edilən və bütün dünyaya ixrac olunan yeni texnika və texnologiyalar özü ilə bərabər fərqli ideologiya, fərqli mədəniyyət və fərqli mənəviyyat





da gətirir. Bu prosesləri dərindən araşdırmadan, gənc nəslin formalaşmasında məqsədyönlü milli tərbiyədən heç də az rol oynamayan bu yeni amilləri nəzərə almadan prosesi nəzarətdə saxlamaq mümkün deyil.

İndi Azərbaycanda mədəni-mənəvi mühit yekcins deyil, o, bir tərəfdən, milli-əxlaqi dəyərlərə, digər tərəfdən, Qərbdən transfer olunmuş «kütləvi mədəniyyət»dən, habelə müasir texniki inkişafın həyat tərzindəki obyektiv izlərindən təşkil olunmuşdur. Həm də burada sintezdən daha çox, qarışıq, eklektik bir cəm vardır. Tərbiyə sisteminin strukturu da buna bənzərdir. Daha doğrusu, burada sistemdən daha çox, qarşıdurmadan, gizli mübarizədən söhbət gedə bilər. Gənclərimiz, bir tərəfdən gerçəkliklə uzlaşmayan konservativ təlimlər vasitəsilə sovet stilində, «milli ruhda», digər tərəfdən, Qərbdən transfer olunan «modern mühitin», «kütləvi mədəniyyətin» təsiri altında başqa istiqamətdə, başqa ruhda tərbiyə olunurlar. Hansı təsir daha güclüdür? Daha doğrusu, məktəblərimiz, məqsədli tərbiyə prosesi mühitin qeyri-aşkar tərbiyəsini kompensasiya edə bilirmi? Bu kənar təsiri neytrallaşdırmaq üçün tərbiyənin məzmununda nə kimi yeniliklər edilir?

Əlbəttə, hər bir xalqın adət-ənənəsi, əsrlər boyu formalaşmış əxlaqi-mənəvi dəyərlər sistemi vardır. Xalq pedaqogikasına üstünlük verənlər gənc nəslə ilk növbədə məhz milli dəyərlər sistemini mənimsətməyi tövsiyə edirlər; bu halda milli zövq, milli əxlaq, adət, ənənə ön plana çıxır. Lakin sənaye inqilabı və elmi-texiniki tərəqqi şəraitində xalq pedaqogikası nə dərəcədə yetərlidir? İnsanlararası münasibətlər, davranış formaları ictimai-iqtisadi həyatın fövqündə, «dibçəkdə» qorunub saxlana bilməz. Yeni texnoloji sistemlər iş şəraitini dəyişməklə yanaşı məişətə, təhsilə və istənilən birgəyaşayış sahələrinə müdaxilə edir

və canlı insani münasibətlərin texnika ilə vasitələnməsinə səbəb olur. Belə bir şəraitdə yeni mühitə daha çox adekvat olan müasirlik amillərini ənənəvi əxlaqi dəyərlərlə uyğunlaşdırmağa imkan verən yeni tərbiyə sisteminə keçid zərurəti yaranır. Qərbdə rasionalizm və ona alternativ olan modernist və postmodernist cərəyanlar yeni insan tərbiyəsinin əsasında dayanır. Rasionalizmə alternativ axtarmaq cəhdləri də məhz Qərb cəmiyyəti üçün səciyyəvidir. Postmodernist təmayüllər üçün isə Şərqdə obyektiv zəmin yoxdur. Lakin, bununla belə, müasir görünmək istəyənlər insanlar Qərb incəsənətini, Qərb düşüncə tərzini mənimsəməyə çalışır. Televiziya və internet də bu sahədə mühüm rol oynayır. Nəticədə rasionalizmin yüksək dərəcədə inkişaf etdiyi Qərb ölkələrində yaranmış alternativ düşüncə tərzi axtarışları, böhrandan xilas cəhdləri zəminində yaranmış «yeni kütləvi mədəniyyət» bizə transfer olunur. Gənclik bu «müasirliyi» qəbul etməyə çalışır. Halbuki, əsl müasirlik inkişafın zəruri mərhələsi kimi obyektiv surətdə, təbii yolla yaranmalıdır.

Nəsihətlər, tövsiyələr üzərində qurulmuş tərbiyə sistemi ancaq ənənəvi mühit üçün faydalı ola bilər; o da əgər vərdişə çevrilərsə. Standartdankənar, ekstremal vəziyyətlərdə məhz həmin vəziyyətə uyğun optimal qərar çıxarmaq üçün mənəvi prinsipləri dövlətçilik təfəkkürü və ixtisas maraqları ilə eyni müstəviyə gətirmək, çıxarılacaq qərarın strukturuna daxil etmək üçün ən əsas amil sərbəst düşüncə, yaradıcı təfəkkürdür. Ayrı-ayrılıqda mənəvi prinsipləri bilmək, müəyyən bir ixtisasa yiyələnmək, siyasi və hüquqi bilikləri mənimsəmək olar: lakin ən başlıcası, hər bir şəraitdə onları əlaqələndirmək, optimal sintezini yaratmaqdır. Bu isə hər adama müyəssər olmur. Belə bir əlaqə hiss və ya vərdiş səviyyəsində deyil, ancaq təfəkkür səviyyəsində yarana bilər. Ona görə də, Qərb dünyası hələ XVIII əsrdən təfəkkür tərbiyəsini ön plana çəkir. Con Lokk özünün məşhur «Zəkanın tərbiyəsi» və «Təlim haqqında» əsərlərində təlimin əsas vəzifəsi kimi təfəkkürün tərbiyəsini irəli sürürdü. Bu ideyanın irəli sürülməsində xronoloji baxımdan yenə də Şərq irəlidədir. Yəni bu fikri də İbn Sina Con Lokkdan səkkiz əsr əvvəl irəli sürmüş və vərdişə çevrilmiş zəkanı «bilikli qüvvə», yaxud «maddi zəka» adlandırmışdır. Lakin əsas o deyildir ki, hansı ideya ilk dəfə hansı xalqın nümayəndəsi tərəfindən irəli sürülmüşdür. Əsas odur ki, bu ideyanı ilk dəfə hansı xalq tətbiq etmişdir və indi də tətbiq edir.

***– Ənənəvi cəmiyyətdə, orta əsrlərdə formalaşmış dəyərlər sistemi sənaye inqilabından sonra yüksək dərəcədə təşkilatlanmış və yeni məzmun kəsb etmiş cəmiyyətlərdə özünü doğrultmur. Bəs yeni texnogen mühitdə, informasiya cəmiyyətində, ixtisas biliklərinin maksimum diferensiallaşdığı bir şəraitdə əməli fəaliyyətin mənəvi prinsiplərlə uzlaşdırılmasına dair nə kimi normativlər, əxlaqi meyarlar formalaşır?***

– Bizcə, müasir şəraitdə tərbiyə məsələlərinə mədəniyyət kontekstində baxılmasına böyük ehtiyac vardır. Və hər şey təkcə davranış mədəniyyəti ilə bitmir. Biz tərbiyə problemini həm də siyasi mədəniyyət, hüquqi mədəniyyət, idarəetmə mədəniyyəti və ən başlıcası, təfəkkür mədəniyyəti kontekstində araşdırmalıyıq. Digər tərəfdən, söz yox, mühit, ictimailəşmiş nümunə daha təsirlidir. Müəyyən bir ideyanın əməli daşıyıcısı olan mühit və insanın bu mühitlə əks əlaqəsi isə elə mədəniyyətdir. Başqa sözlə, mədəniyyətin fərdi proyeksiyası da var. Amma onun mahiyyəti

yalnız ictimai prizmadan keçdikdə, insan-mühit münasibətləri şəklində təcəssüm olunduqda üzə çıxır.

İnsanı düşdüyü mühitdəki problemlərlə təkbətək qoymaq olmaz. Çünki mühitlə mübarizədə ancaq çox böyük zəka və iradə sahibləri qalib gələ bilər. Əksəriyyətin isə böyük ideyaların təsir dairəsindən çıxmaq və cari proseslərin və meyllərin cazibəsindən qurtula bilmək üçün daimi bir köməyə, istiqamətləndirilməyə, yaddaşın, mənəvi öhdəliklərin və inamın müntəzəm iştirakının təmin edilməsinə böyük ehtiyacı var.

İnsanın hər dəfə özündən asılı olmadan qatıldığı cari hadisələrdən, onların hissi-mənəvi axarından ayrılaraq özünə qayıtmasına, ali məqsədə, ilkin böyük ideyaya, ilahi başlanğıca qayıtmasına bir təkan lazımdır. Onu seçim qarşısında tək-tənha buraxmaq, uzun müddət heyvani nəfsin (daxili şeytanın) və ya nəfsani ictimai mühitin (xarici şeytanın) ixtiyarında qoymaq olmaz. İnsan hətta məcburiyyət üzündən, ictimai zəruri bir akt kimi cari hadisələrə qatılırsa, o, həmin mühitdə tamamilə itib-batmamalı, bir ayağı ilə böyük dünyada dayanmalıdır...

İnsan hətta haqq-ədalət yolunu bilsə də, haqqı nahaqdan seçmək iqtidarında olsa da, papağını qarşısına qoyaraq haqq-hesab aparmaq üçün macal tapmaya da bilər, axın onu qarşısına qatıb apara bilər.

Bir dəfə haqqı dərk etmək azdır. Çünki insan əslində müxtəlif mənəvi-psixoloji səviyyələrdə, qatlarda olarkən onun müqavimət gücü və iradəsi də müxtəlif olur. İnsanın daxil olduğu hadisələrin, proseslərin cazibə qüvvəsi də müxtəlif olur. (Söhbət həmin hadisələrin əsasında dayanan ideyanın və ya ictimai-nəfsani duyğunun gücündən və cazibəsindən gedir).





İnsana onun nə vaxtsa təmasda olduğu, şüurlu surətdə icrasına qatıldığı ali məqsədlə, böyük ideya ilə yanaşı həmişə fərqli istiqamətlərdə də təsirlər vardır və onların mühiti daha yaxın olduqda təsirləri də daha güclü olur. Belə hallarda mühitin yaxınlığı həlledici rol oynaya bilər.

Müəyyən istiqamətdəki təsirin səmərəsi o zaman çox olar ki, davamlı olsun, müntəzəm olsun və vaxtaşırı olaraq cari situasiyalardakı təsirlərə müqavimət göstərmək üçün insanı böyük ideyaya qaytarmaq təşəbbüsü göstərilsin. Fasilələrin müddəti fərqli ideya və əhvalın yönəminin «fokusunu» dəyişməsi üçün tələb olunan vaxtdan çox olmamalıdır. Məsələn, namaz qılmaq insanın cari həyatda qatıldığı hadisələrin yaratdığı hissi təsirlərdən xilas olmaq üçün, onların böyük ideya meyarı ilə dəyərləndirilməsi, ali hisslər süzgəcindən keçirilməsi üçün bir vasitə, bir köməkdir.

İnsanlar heç də hamısı öz ideyalarının maddi təcəssümü ilə məşğul olmurlar. Əksəriyyət kənar bir ideyanın, ictimailəşmiş və ya başqasına məxsus olan, başqası tərəfindən diktə olunan bir ideyanın maddi təcəssüm zəncirində bir halqa kimi çıxış edirlər. Bu modeli sadə şəkildə ideyanın bilavasitə çoxlu sayda insanlara ötürülməsi və ya bir iyerarxiya halında, ideyanın parçalanaraq hissə-hissə çatdırılması şəklində təsəvvür edə bilərik.

İctimai həyatın bütün sahələrində biz ideyalar və onların maddi təcəssümündə müxtəlif nisbətlərin şahidi oluruq. Məsələn, dövlət quruculuğu sahəsində avtoritar və demokratik hakimiyyətlərin fərqləri bu cür yanaşma kontekstində çox aydın görünür. Təbiətdə səbəbiyyət zəncirinin müxtəlif halqalarından hər biri əslində başqa bir zəncirlə kəsişmədən mövcud ola bilmədiyi üçün, biz dünyadakı qanunauyğunluqları idealizasiya halında dərk etməyə çalışırıq.

***– Sizin də dediyiniz kimi, insanların heç də hamısı öz ideyası ilə yaşaya bilməz. Bu halda əksər adamlar hansı ideyaların təsiri ilə hərəkət edirlər?***

– Bəli, insanların əksəriyyəti ideya müəllifi yox, icraçılardır. Lakin hər bir insan böyük miqyaslı ictimai proseslərdə icraçı olsa da, özünəməxsus bir miqyasda ideya müəllifi kimi çıxış edir. Öz ailəsi ilə bağlı, öz şəxsi həyatı ilə bağlı planlar cızır və onların həyata keçirilməsində bəzən üçüncü tərəflərin iştirakından istifadə edir. «Sən saydığını say, gör fələk nə sayır». Sən hansı isə kiçik miqyaslı bir ideyanı həyata keçirərkən, özünün də xəbərin olmadan başqa bir ideyanın icraçısı kimi çıxış etmiş olursan.

Hər bir insan, bir tərəfdən öz həyatını özü qurur, digər tərəfdən özündən asılı olmayan hadisələr burulğanında naməlum hərəkətlərə qatılır.

İnsan – mühit münasibətlərində subyekt və obyektin yeri müntəzəm surətdə dəyişir. Gah insan özünün hansı isə ideyasına, hansı isə planına uyğun olan hərəkətlər edir və mühitin də müvafiq cür dəyişməsinə səbəb olur, gah da mühit hansı isə ideyaya və ya plana uyğun surətdə dəyişilir və insana da təsir edir. İkinci halda söhbət mühiti idarə edən və ondan yüksəkdə duran bir ideyadan gedir. Mühitin daxilindəki insanlar mühitdən və əslində onun əsasında duran ideyadan asılı olur. Bu ideya hansı isə dini əqidə, milli ideologiya, dövlətin strateji inkişaf konsepsiyası, Konstitusiyası, qanunları ola bilər. Avtoritar rejimdə bu ideya dövlət başçısının və ya müəyyən bir şəhərin, rayonun, idarənin başçısının iradəsi ola bilər.

Elə anlar da vardır ki, nə insan mühit daxilində müəyyən bir ideya ilə fəaliyyət göstərir, nə də mühit hansı isə fövqəlideyanın təsiri altında olur. Yəni insanın da hərəkəti məqsədsiz, plansız, xaotik ola bilər. Mühit də hansı isə ideyaya, qanuna, hüquq normalarına, adət-ənənəyə əsaslanmadıqda bir xaos, bir burulğan kimi ola bilər.





Təbiət özü böyük bir mühitdir. Lakin təbiətin öz qanunları var və burada hər şey müəyyən qayda əsasında həyata keçir. Yəni təbiətin arxasında fövqəlideya dayanır.

***– Bəs «ikinci təbiətin» və cəmiyyətin əsasında nə kimi bir ideya dayanır? Axı, insan üçün mühit təkcə təbiətdən ibarət deyil. «İkinci təbiət», cəmiyyət (ictimai münasibətlər) və sosial-mənəvi mühit daha mürəkkəb bir mühitin tərkib hissələridir. Bu halda hansı ideya rəhbər tutulur?***

– Burada həm təbiəti, həm də cəmiyyəti yönəldən fövqəlideyadan başqa, çoxlu sayda kiçikli-böyüklü insan ideyaları mövcuddur ki, onlar da mühitin ideya xəritəsini daha al-əlvan edir.

Dünyanın xəritəsində müxtəlif dövlətlər vardır və onların hər birinin öz ideoloji sistemi, Konstitusiyası, qanunlar toplusu, adət-ənənələri mövcuddur. Onların hər birində müəyyən nizamnamə əsasnamə və iş planları əsasında fəaliyyət göstərən müəssisələr və təşkilatlar vardır. Hər bir müəssisə və təşkilatda çalışan insanların öz mikromühitləri və hər bir mikromühit daxilində, ailə daxilində hər bir insanın öz şəxsi həyatı və ideyaları vardır.

Dünyanın bütövlükdə nə kimi bir ideyaya əsaslanması və nə kimi bir iradənin maddi təzahürü olması haqqında mülahizə yürütmədən, hər bir insan və onun konkret mühiti arasında əlaqənin daha hansı iradi aktlardan asılı olduğunu aydınlaşdırmağa çalışaq.

İlk sual doğuran budur ki, insan öz şəxsi ideyası və iradəsindən asılı olmadan müəyyən mühit daxilində yaşa-

yarkən, yəni özünü sadəcə mühitin dalğalarına atarkən, mühitin iradəsinə tabe olarkən, «palaza bürünüb elnən sürünərkən» həqiqətənmi xaosda yaşayır, yoxsa başqa bir qaydanı, ideyanı özü də bilmədən qəbul edir? Nəyi bilərəkdən və nəyi bilmədən?

İnsanın fəaliyyət dünyası həmişə ideyaya söykənir. Hər kəs ya özünün, ya da başqalarının fikrini, ideyasını həyata keçirərkən əməlinin nəticəsinin məqsədə, ideyaya adekvatlığını yoxlaya-yoxlaya addımlar atır. Yəni böyük ideya parçalanır, pillələnir və ona çatmaq yolunda atılmalı olan addımların əsasında duran kiçik ideyalar, kiçik məqsədlər ortaya çıxır. Bəzən də tərsinə olur. Adamların çoxu kiçik məqsədlərə nail olmaq üçün fəaliyyət göstərir və bu məqsədlərin toplusundan, cəmindən böyük məqsəd, böyük nəticə hasil olacağını güman edirlər.

Ona görə, tərbiyənin də, özünütərbiyənin də əsasında fərdi düşüncənin, azad fikrin formalaşdırılması, bütün fəaliyyət sahələrinin ideya əsasının mənimsənilməsi dayanır. Yəni əqli tərbiyə olmadan, təfəkkür mədəniyyəti yüksəldilmədən ictimai fəaliyyətin də pozitiv prinsiplər əsasında qurulması, faydalı olması mümkün deyil. Digər tərəfdən, şəxsiyyətin tərbiyəsi optimal ictimai mühitlə tamamlanmalıdır.

*Müsahibim: Elxan Zal.*
*"Ulu çinar" jurnalı, sentyabr 2010, № 3.*





# Ziyalı ümummilli və ümumbəşəri mənafeyə xidmət etməlidir

***– Azərbaycan cəmiyyətinin hər zaman böyük sözünə ağsaqqal məsləhətinə hörməti olub. Təsadüfi deyil ki, ulularımız «Allahsız yerdə otur, böyüksüz yerdə oturma» deyiblər. Tarixən böyük sərkərdələr, imperatorlar, dövlət xadimləri ən çətin məqamda belə müdriklərin məsləhəti ilə hərəkət ediblər. Müasir dünyamızda ziyalı sözünə, ziyalı mövqeyinə münasibət necədir? Ziyalı sözünə ehtiyac yetərincə hiss olunurmu?***

– Əgər hiss olunursa, deməli, işlər yaxşıdır. Vay o gündən ki, ziyalı sözünə, ziyalı mövqeyinə ehtiyac olmasın. Cəmiyyət, dövlət o zaman yüksək uğurlar qazana bilər ki, orada kadrlar məhz ziyalılıq və peşəkarlıq meyarına görə seçilsinlər. İctimai rəyin formalaşmasında, eləcə də dövlət orqanlarınını öz işini qurmasında məhz böyük elm xadimlərinin, xüsusən müzakirə edilən sahə üzrə bilavasitə mütəxəssiz olan insanların peşəkar rəyləri həlledici əhəmiyyətə malik olsun. Bununla hesablaşmayan cəmiyyət heç bir yerdə uğur qazana bilməz.

Məncə, ziyalı öz nüfuzunu hansı sahədə qazanıbsa, o sahədə onun fikri daha mötəbərdir. Başqa sahələrə keçəndə hamıdan biri olur. Jurnalistlərə tövsiyəm budur ki, ziyalını bilmədi məsələlər haqqında danışmağa vadar etməsinlər. Bəzən məndən də müxtəlif məsələlərə münasibət soruşurlar. Amma mən fəlsəfə mütəxəssisiyəm və cəmiyyətdə

fəlsəfi münasibət tələb edən problemlər də çoxdur. Hər yerdə peşəkarlıq, professionalizm vacibdir. Qərb cəmiyyətinin üstünlüyü də məhz budur. Əgər biz də Avropa dəyərlərinə yiyələniriksə, peşəkarlığa üstünlük verməliyik.

***– Səlahəddin müəllim, yeni müstəqillik əldə etmiş və keçid dövründə yaşayan, eyni zamanda müharibə şəraitində olan bir ölkənin problemlərinin olması təbii haldır. Bu gün ziyalılırarımızın da problemləri mövcuddur. Bir ziyalı olaraq bu problemlər haqqında nə demək olar?***

– Ziyalılar çox müxtəlif sahələri təmsil edirlər. Və onların öz işi, sahəsi ilə bağlı problemləri ola bilər. Bütövlükdə mədəniyyətin, elmin, təhsilin, teatr və kino sənətinin, musiqi sənətinin ayrı-ayrı problemləri ola bilər. Eyni zamanda gənclərin tərbiyəsinin formalaşması, müəllim nüfuzu ilə bağlı problemlər var. Cənab Heydər Əliyev tərəfindən milli ideologiyanın, dövlətçilik ideologiyasının əsasları qoyulub. Bizim üzərimizə bunu inkişaf etdirmək vəzifəsi düşür.

Hesab edirəm ki, ziyalıların ən böyük problemi meyarların itməsidir. Yəni ziyalı ilə qeyri-ziyalı arasında sərhədin götürülməsi, ziyalılığı şərtləndirən cəhətlərin bəzən cəmiyyətdə nəzərə alınmaması, ziyalı nüfuzunun ziyalı olmayanlar tərəfindən mənimsənilməsi, bundan sui-istifadə halları böyük problemdir. Həqiqi böyük elm adamı, sənət adamı ilə yanaşı formal göstəriciləri hansısa yolla mənimsəmiş adamlar da titullar qazanır, elmlər doktoru və s. olur. Plagiatçılıqla dissertasiya işi yazılması və alim adının mənimsənilməsini başqasının İntellektual əməyinin istismarı kimi qiymətləndirmək olar. Yaxud da, əsl sənətkar olmayanların müxtəlif vasitələrdən istifadə edərək, sənət amilinə daxil olması da təhlükəli haldır. Bu da şüur səviyyəsi aşağı olan təbəqənin olmasından irəli gəlir. Yəni zövqlərin kifayət qədər inkişaf etməməsi buna imkan verir.





İndi elmdə və sənətdəki bu yalançı nüfuzu xaricdə də tətbiq etmək imkanları açılıb. Sovet dövründə bizdə belə bir fikir formalaşmışdı ki, Moskvanın verdiyi ad təkzibolunmazdır. İndi xarici ölkələrdə bizim potensial səviyyəsini bilmədiyimiz çoxlu müsabiqələr, sərgilər keçirilir. Bəlkə də heç orada professionallar iştirak etmirlər. Bunu böyük hadisə kimi qiymətləndirmək olmaz. Yəni fərqləndirmək lazımdır. Firəngiz Əlizadənin əsərlərini ABŞ-da, Avropada böyük sənətkarlar, mütəxəssizlər yüksək qiymətləndirirlər. Əlbəttə ki, o bizim fəxrimizdir. Lakin indi çoxlu beynəlxalq və yerli təşkilatlar var ki, mükafatlar verir. Onlar hətta müsabiqə təşkil edir. İlk növbədə həmin müsabiqəni keçirən təşkilatın səviyyəsi nəzərə alınmalıdır. Ciddi olmayan müsabiqənin titulundan istifadə etmək əsl ziyalının nüfuzuna xələl gətirir. İndi xaricdə çoxlu sayda qeyri-ciddi beynəlxalq təşkilatlar yaranıb. Məsələn, xaricdə müxtəlif akademiyalar heç də bizim təsəvvür etdiyimiz sovet dövründən qalma mötəbər akademiya adına adekvat və bura seçimlər heç də ciddi ekspertiza ilə aparılan seçimlər deyil. Bu seçimlər bəzən, sadəcə olaraq, üzvlük haqqı verib harasa üzv yazılmaq kimi bir şeydir. Düzdür, mən bunun əleyhinə deyiləm. Lakin belə titullardan sui-istifadə halları da olur. Bununla yanaşı, ciddi assosiasiyalar da var. Biz ora üzv olmaqla xarici ölkələrlə əlaqə yaradırıq. Çünki indi bizim qarşımızda duran vəzifə Avropa ilə, ABŞ-la təkcə siyasi-iqtisadi əlaqələr qurmaq deyil, eyni zamanda elmi-mədəni əlaqələri də inkişaf etdirməkdir. Biz Avropa məkanına yalnız siyasi-hüquqi müstəvidə deyil, elmi-mədəni müstəvidə də daxil olmaq istəyirik.

Avropanı Avropa edən elm və texnikadır. Biz onla-

rın üstün dəyərlər sisteminə nə qədər tez yiyələnsək, bərabər hüquqlu üzvlərə çevrilə bilsək, o qədər dövlətimizin uğurları çox olacaq. Ziyalıların üzərinə düşən məsuliyyət, birincisi, hər kəsin öz ixtisas sahəsindəki məsuliyyəti, ikincisi, ümummilli, ümumdövlət problemləri ilə bağlı məsuliyyətdir. Biz ölkədə gedən böyük proseslərə də biganə qala bilmərik. Bu sahədə də imkan daxilində mövqeyimizi bildirməliyik.

***– Mövcud problemlər ziyalıların yaradıcılığına təsir göstərirmi?***

– Şübhəsiz ki, göstərir. Əgər əsl elm psevdoelmlə qarışıq salınırsa, imtiyazlar eyniləşirsə, bu çox pis haldır. Yəni zəhmət çəkib, bir monoqrafiya yazmış adamla yanaşı heç bir zəhmət çəkməyən və intellektcə o səviyyədə olmayan bir adam da monoqrafiya buraxır və elmi dərəcə alırsa, yaxud da sənət sahəsində belə hadisə baş verirsə, bu, böyük mənəvi zərbədir. İkincisi, bu həm də maddi ziyan deməkdir. Çünki say artıqca dövlətin onların hamısını yüksək dərəcədə təmin etmək imkanları məhdudlaşır. Həqiqi böyük alimləri, böyük sənət sahiblərini seçmək mümkün olsa, çox az sayda titullu adam qalar və dövlətin də onların maddi təminatını yüksəltməyə imkan çox olar. İndi belə deyək, elm, sənət adamlarının hərəsinin bir vəzifəsi var, hardasa çalışırlar. Azərbaycanda elmi-tədqiqat institutları, akademiiyalar var. Avropada bunlar yoxdur. Alimlər ya universitetlərdə ya da şirkətlərdə çalışmalıdır. Yəni universitetdə çalışan alim təkcə elmlə məşğul olmur. Onun vaxtının böyük qismi dərs deməyə gedir. Böyük alim üçün sərbəstlik olmalıdır. Onun maddi təminatı elə olmalıdır ki, sifarişli bir işi və ya vəzifə borcunu yerinə yetirmək məcburiyyətində qalmasın. Dövlət qayğısı bunda təzahür etməlidir ki, gənc istedadlı şəxs bazar iqtisadiyyatı yolu ilə





qazanc əldə etməyə sövq olunmazdan əvvəl onun perspektivini əvvəlcədən görsün və onu əlavə qayğılardan azad edib, ancaq yaradıcılıqla, elmlə, sənətlə məşğul olmasına imkan yaradılsın. Bu çox vacib məsələdir. Və bununla bağlı mənim təşəbbüsümlə Azərbaycan Universitetinin bazasında bir istedad klubu yaratmışıq. Qeyd edim ki, bu tək universitet nəzdində deyil, bütün ölkə miqyaslı klubdur. Bütün sahələrdən olan gəncləri biz ora cəlb etmək, onların qayğılarını, problemlərini öyrənmək və imkan daxilində dəstək vermək istəyirik. Bu istiqamətdə ümid edirəm ki, dövlətimiz daha geniş miqyasda fəaliyyət göstərməyə kömək edəcək.

***– Səlahəddin müəllim, yeri gəlmişkən, fəlsəfənin tədrisindən razısınızmı? Ümumiyyətlə, razılaşırsınızmı ki, bu sahədə geriləmə vardır?***

– Fəlsəfənin indiki səviyyəsindən, fəlsəfi biliklərin təbliğinin səviyyəsindən, o cümlədən tədrisinin səviyyəsindən də narazıyam. Ona görə ki, bu sahədə çox geriləmə var. Hətta sovet dövründə fəlsəfənin buxovlanmasına, çərçivəyə salınmasına baxmayaraq, ona partiyalı elm kimi yanaşılmasına baxmayaraq, fəlsəfi fikir inkişaf edirdi. Fəlsəfəyə ciddi münasibət var idi və o, əsas fənlərdən biri idi. İndi müstəqil ölkə üçün fəlsəfi fikrə çox böyük ehtiyac var. Belə bir şəraitdə fəlsəfənin inkişaf etməməsi, istedadlı adamların bu sahəyə az gəlməsi və bu sahənin, əksinə, yalançı ad almaq istəyənlərin oylağına çevrilməsi pis haldır.

Fəlsəfə ilə məşğul olmağa insanın mənəvi haqqı olmalıdır. Həm də intellektual səviyyəsi ona kifayət etməlidir. Ən istedadlı insanlar bu sahəyə cəlb olunmalıdır. Təəssüf ki, həyata keçirmək mümkün deyil. Ona görə də bu sahədə vəziyyət ağırdır. Noyabrın 20-də beynəlxalq fəlsəfə günü ilə bağlı yazdığım məqalədə də bu problemləri geniş

açmağa çalışmışam. Fəlsəfi fikrin geri qalması səbəbləri nədir və nə etmək olar ki, heç olmazsa bundan sonra inkişaf etsin. Bu çox böyük vəzifədir. Çünki fəlsəfə sadəcə fəlsəfə üçün deyil, o bütövlükdə elmin də, sənətin də metodologiyasıdır. Yəni böyük sənət adamı mütləq fəlsəfi biliklərə malik olmalıdır. Böyük elm adamının təkcə öz sahəsini bilməsi kifayət deyil, onun həmçinin fəlsəfi dünyagörüşü olmalıdır. Böyük dövlət adamlarının, vəzifə sahiblərinin də fəlsəfi təfəkkür mədəniyyəti olmalıdır. Onlar məhdud dünyagörüşü ilə, bəsit şüurla öz ixtisasını nə qədər yaxşı bilsə də, dövlət adamı ola bilməz. Milli maraqlara sözün həqiqi mənasında xidmət edə bilməz. Ona görə də biliklərin bütün səviyyələrdə yayılmasına və inkişaf etdirilməsinə böyük ehtiyac var. İxtisasından asılı olmayaraq, istənilən şəxsin ziyalı olmasının əsas şərtlərindən biri fəlsəfi dünyagörüşüdür. Yəni hər hansı bir hadisəyə ümumdünya problemləri kontekstində, həyatın mənası kontekstində, insanın mahiyyəti kontekstində baxmaq qabiliyyətidir. Bunlar olmadıqda nə qədər yaxşı mütəxəssis olursa-olsun, o, ziyalı deyil. Çünki ziyalılığın əsas şərti hər hansı bir sahədə problemə milli və ümumbəşəri problematika zəminində baxa bilmək qabiliyyətidir. Və millətə, bəşəriyyətə xidmət etmək istəyidir, amilidir. İnsanlığa xidmət etmək amalıdır. Bu olmadıqda o ziyalı deyil. Yenə təkrar edirəm: kimsə böyük mütəxəssis ola bilər, ancaq insanlığa xidmət etməz. Rüşvətxor, əliəyri, başqalarına xəyanət edən, mənəvi cəhətdən naqis olan şəxs ziyalı sayıla bilməz. Çünki ziyalılığın əsas şərtlərindən biri də ümummilli və ümumbəşəri mənafeyə xidmətdir. Əgər bu yoxdursa, demək, ziyalılıq da yoxdur.

*Müsahibim: Ə. Fəqanoğlu.*
*«İki sahil» qəzeti, 9 dekabr, 2003-cü il.*



## MÜNDƏRİCAT

*Ön söz* ........ 3

***MƏDƏNİYYƏT*** ........ 7
***Tarix və sivilizasiya*** ........ 8
***Sivilizasiyanın monoloqu*** ........ 18
***Mədəniyyətlərarası dialoq və dialoq mədəniyyəti*** ........ 24
***Şərqdə və Qərbdə milli-mənəvi dəyərlər*** ........ 32
***Terror haqqında düşüncələr*** ........ 51
***Qəhrəmanlıq simfoniyası*** ........ 67

***XALQ VƏ MİLLƏT*** ........ 71
***Milli məfkurənin*** ........ 72
***fəlsəfi əsaslarına dair*** ........ 72
***Ziyalı məsuliyyəti və böyüklük səlahiyyəti*** ........ 106
***Yol ayrıcında və ya yaz çiçəyi*** ........ 113
***Türk ruhu 3-cü minilliyin astanasında*** ........ 117
***Böyük İpək Yolunun bərpası ideyası*** ........ 126
***İqtisadi və texnoloji imperializm şəraitində milli maraqlar*** ........ 132
***Avropa Şurası bizi seçdi, yoxsa biz Avropanı?*** ........ 135
***İkili standart*** ........ 139
***Fransadan iki xəbər gəldi...*** ........ 143
***Qərbləşmə, siyasiləşmə, feminizasiya*** ........ 146

***ƏDƏBİ-BƏDİİ NOTLAR*** ........ 151
***Sintetik təfəkkürə doğru*** ........ 152
***Milli varlığımızın mənəvi sütunları*** ........ 158
***Cavid simvolikası*** ........ 172
***Cavid yeni əsrdə: nidalar və suallar*** ........ 177
***Fikrin gözəllik məqamı*** ........ 183
***Ocaq və kül*** ........ 194
***Dilin və fikrin potensialı*** ........ 199
***Vaqif, "Vaqif" və üç Vaqif*** ........ 204
***Qaranlığın işığı*** ........ 209
***Ülvi hisslərdən şəhidlik zirvəsinə*** ........ 214

*Şekspirdən Hamletə* ........ 221
*Rəsul Rza poeziyasına dair üç qeyd* ........ 227
*Cavid, Əziz Nesin və postmodernizm* ........ 232

***TELEVİZİYA VƏ MƏNƏVİYYAT*** ........ ***237***
*KİV-in mənəvi funksiyaları* ........ 238
*İki təəssürat* ........ 257
*"Ovqat" və ovqat* ........ 262
*"Zərif çərşənbə"də fəlsəfə notları* ........ 267
*Röya və gerçək* ........ 280

***ŞƏXSİYYƏTLƏR, PORTRETLƏR*** ........ ***291***
*Müasiri olmadığım müasirim* ........ 292
*"Öncə öz millətim üçün!"* ........ 312
*Şərq-Qərb Tədqiqat Mərkəzi hansı ideyadan yarandı?* ........ 322
*"Günbatan fikirli, gündoğan duyğulu bir sima"* ........ 329
*Dünya fikir xəzinəsində Cavad Heyət dəst-xətti* ........ 333
*Ədəbiyyatdan fəlsəfəyə* ........ 338
*İmtina fəlsəfəsi* ........ 345
*Öyrənmək təşnəsi* ........ 351
*Bir ocağın varisi* ........ 356
*Yüksək mədəniyyət təcəssümü* ........ 360
*Vətəndaş alim* ........ 367
*Daşların simfoniyası* ........ 371
*Şairin özü və sözü* ........ 381
*Şərq tarixinin böyük tədqiqatçısı* ........ 387
*Elm dünyası və alim dünyası* ........ 389
*Qürbətdə milli ruhun nisgili* ........ 394

***MÜSAHİBƏLƏR*** ........ ***403***
*Hər insan öz sevgisi qədərdir* ........ 404
*Mənəviyyatın qütbləri və fəlsəfə zirvəsi* ........ 412
*Ziyalı ümummilli və ümumbəşəri* ........ 439
*mənafeyə xidmət etməlidir* ........ 439



***Kitab haqqında arzu və təkliflərinizi aşağıdakı ünvana göndərə bilərsiniz:***

Bakı ş., Bülbül prospekti 45, AZ1014.
E-mail: ssx@azun.baku.az; info@felsefedunyasi.org
http://www. felsefedunyasi.org

Tel.: 498-17-45; faks: 598-13-01

S.Xəlilov

# HƏYATIN ÖZÜ
# və
# GÖRÜNƏN ÜZÜ

**Fəlsəfi və ədəbi-bədii publisistika**

Çapa imzalanmışdır: 24.12.2013.
Nəşrin ölçüsü: 60x90 1/16.
Fiziki çap vərəqi: 28,0.
Sifariş: 180/13. Sayı: 500 ədəd.
Müqavilə qiyməti ilə.

NURLAR
NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ

Bakı, Az1122, Zərdabi pr. 78 / Tel: 4977021
Faks: 4971295 / E-poçtu: office@nurprint.com